AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU

ƏDƏBİ PROSES – 2018

VI

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının
19 sentyabr 2019-cu il tarixli qərarı ilə çap olunur.

“Hədəf” nəşrləri

BAKI-2019

Ədəbi proses–2018

Redaksiya heyəti:

İsa HƏBİBBƏYLİ
Tehran ƏLİŞANOĞLU
Əlizadə ƏSGƏRLİ
Aygün BAĞIRLI
Vaqif YUSİFLİ (məsul redaktor)
Mehman HƏSƏNOV
Elnarə AKİMOVA
Nərgiz CABBARLI

"Ədəbi proses–2018" kitabında ilin ədəbi yekunları nəzərdən keçirilmiş, ədəbi məhsullar elmi-nəzəri cəhətdən təhlil olunmuş, ədəbi-tənqidi təcrübə ümumiləşdirilmiş və carı vəzifələr müəyyənləşdirilmişdir.

Topludan bakalavr və magistrlər, doktorant və müəllimlər, tənqidçi və ədəbiyyatşünaslar, habelə, humanitar sahələrin elm və təhsil mütəxəssisləri faydalana bilər.

Kitabda 2018-ci ilin ədəbi prosesi aşağıdakı istiqamətlər üzrə təhlil olunur.

Poeziya
Bədii nəsr
Dramaturgiya
Tənqid və ədəbiyyatşünaslıq
Ədəbiyyat nəzəriyyəsi
Publisistika
Ədəbi əlaqələr
Bədii tərcümə
Rusdilli Azərbaycan ədəbiyyatı
Cənub ədəbiyyatı
Uşaq ədəbiyyatı
Ədəbi gənclik

ISBN: 9053785308640
© AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

İsa HƏBİBBƏYLİ
Azərbaycan Milli Elmlər Akademiyasının
vitse-prezidenti, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutunun direktoru, akademik

ƏDƏBİ PROSES HƏRƏKATINDA YENİ DALĞA

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı bir neçə mərhələdən keçərək bizim günlərə və daha böyük sabahlara doğru inkişaf etməkdədir. İlk növbədə onu qeyd etmək lazımdır ki, ölkəmizdə dövlət müstəqilliyinin iyirmi səkkiz ilinin tamam olması və xalqımızın yüksək, davamlı nailiyyətlərinin işığında böyük gələcəyə inamla addımlaması cəmiyyətdə olduğu kimi, ədəbiyyatda da sabit və dinamik inkişafın əsasına çevrilmişdir. Ədəbi proses cəmiyyətdəki gərginliklərin ovqatını yaşayaraq mürəkkəblikdən, ziddiyyətlərdən aydınlıqlara doğru inkişaf etməkdə davam edir. Ədəbiyyat, içində olduğu cəmiyyətin keçid dövründəki böhranlarından, uçurumlarından keçərək ölkəsi və xalqı ilə birlikdə aydın "magistral"larda irəliyə doğru addımlayır. Artıq ədəbi prosesin çoxqütblü inkişafı müstəqillik dövrü Azərbaycan ədəbiyyatının gerçəkliyidir. Çoxmetodlu ədəbi proses yeni tarixi epoxada Azərbaycan ədəbiyyatını geniş yaradıcılıq üfüqlərinə çatdırmışdır. Elmi-nəzəri mənada da ədəbi proses anlayışı geniş anlayışa çevrilərək, ilin ədəbiyyatının yekun icmallarından ədəbi gedişatın nəzəri dərkinə, elmi şərhinə, proqnozlaşdırılmasınadək təkamül prosesləri keçirmişdir. XX əsrin yetmişinci illərində əsası qoyulmuş və XXI əsrin ikinci onilliyinin əvvəllərində yenidən bərpa edilmiş ədəbi proses elmi-yaradıcılıq müşavi-

rələrində səsləndirilən məruzələrin icmal tənqidindən daha geniş baxışla analitik təhlil əsasında monoqrafik dərinliyə doğru irəliləməsi ədəbi mühitdə etiraf olunan həqiqətdir. Artıq Azərbaycan ədəbiyyatşünaslığında ədəbi prosesi monoqrafik dərinlikdə dərk və şərh edən elmi nəsil formalaşmışdır. Yaş baxımından müxtəlif elmi nəsilləri əhatə edən elmi-ədəbi proses hər nəslin öz avanqardını meydana çıxarmışdır. Elmdə ağsaqqal və orta nəslin müdrikliyi ilə yeni cavan nəslin, "gənc qvardiyanın" enerjisi biri-digərini tamamlayaraq, ədəbi prosesi bütün yönləri ilə qavramaqla və yüksək nəzəri səviyyədə əks etdirməklə səyləri birləşdirməyə xidmət edir. Beləliklə, ədəbi prosesin təkcə faktları və ayrı-ayrı hadisələri ilə deyil, kompleks halda əsas axınları, ədəbi cərəyanları, mərhələləri və perspektivləri ilə birlikdə kompleks şəkildə araşdırılıb üzə çıxarılmasına doğru maraq, təşəbbüs və cəhdlər qüvvətlənmişdir. Dissertasiya mövzularından tutmuş, monoqrafiyalara, fərdi plan işlərinə, məqalələrə, elmi konfrans materiallarına qədərki bütün elmi tədqiqat sahələrində nəzəri səviyyənin yüksəlməsinə doğru ciddi irəliləyiş müşahidə olunmuşdur. Həmişə olduğu kimi, müasir dövrdə də elmi-nəzəri səviyyədəki keyfiyyət dəyişiklikləri kütləvi şəkildə olmayıb, amma əvvəlki mərhələlərdən daha çox idrak sahibini əhatə etməsi və sıraların genişlənməkdə davam etməsi ilə müşayiət olunur. Elmi-ədəbi prosesdəki qüvvətlənməkdə davam edən bu meyil tədricən, obrazlı dillə desək, fərqli bir dalğaya çevrilməkdədir. Bütün bunlar isə hazırkı mərhələdə ədəbi proses müzakirələrində ilin ədəbi yekunlarından, ədəbi növlərin və ya janrların inkişaf templərini müəyyən etməkdən müasir ədəbi axınların, ədəbi cərəyanların təzahür

formaları və inkişaf dialektikasının şərh edilməsinə keçidə start vermişdir. Ona görə də müstəqillik dövrü Azərbaycan ədəbiyyatında ədəbi cərəyanlaşma baxımından gedən proseslər haqqındakı təqdimat 2017-ci ildən etibarən "ədəbi proses hərəkatı" adlandırdığımız "Ədəbi proses" elmi-yaradıcılıq müşavirələri və təhlillərinin yeni tipli, orijinal müqəddiməsi ola bilər.

***

Müstəqillik dövrünün çoxmetodlu ədəbiyyatı Azərbaycan Respublikasındakı demokratik inkişafın, dünya ədəbiyyatı və mədəniyyətinə doğru genişlənməkdə davam edən inteqrasiya proseslərinin qanunauyğun məntiqi nəticəsidir. Cəmiyyətin "nəbzi" olan Azərbaycan ədəbiyyatı ictimai-siyasi proseslərin içərisində birləşərək, onun fövqünə doğru istiqamət almışdır. Ölkəmizdəki çoxpartiyalı hüquqi-demokratik sistem ədəbiyyatdakı çoxmetodlu, çoxsəsli polifonik inkişafı doğurmuş, özünün inkişafı ilə bir sırada ədəbi axınların və ədəbi cərəyanların da formalaşmasına müsbət təsirini göstərmişdir. Genişlənməkdə davam edən çoxsəsli ədəbi prosesləri ədəbi axınlarsız və cərəyanlarsız təsəvvür etmək mümkün deyildir.

Məlum olduğu kimi, ölkəmizdə dövlət müstəqilliyi əldə edildikdən dərhal sonra cəmiyyətdə yaranmış onu itirmək qorxusu ədəbiyyatda əks-səda verərək çaşqınlıq, ümidsizlik, mənəvi böhran, hətta kədər motivlərini ön mövqeyə çıxarmışdır. Dekadans ədəbiyyat bədii yaradıcılıq proseslərinin bütün istiqamətlərində müşahidə olunmuşdur. Ümidsizlik və çaşqınlıq motivlərinin, necə deyər-

lər, bütün "cəbhə" boyu genişlənməsi və bir müddət davam etməsi Azərbaycan ədəbiyyatında dekadentizm ədəbi cərəyanını meydana çıxarmışdır.

Sosialist realizmi yaradıcılıq metodunun köhnə quruluşla birlikdə ömrünü başa vurması yeni bədii metod axtarışlarını gündəmə gətirmişdir. Bu proses ilk növbədə XX əsrin 90-cı illərində ayrı-ayrı ədəbi qrupların yaranması ilə nəticələnmişdir. Müxtəlif istiqamətləri hədəf və örnək kimi qəbul edən ədəbi qruplar nəticə etibarilə bədii metoda və ya ədəbi cərəyana çevrilə bilməsələr də, bunlarla Azərbaycanda çoxsəsli, çoxmetodlu ədəbiyyatın əsası qoyulmuşdur. Təkmetodlu sosialist realizmi ədəbiyyatından çoxmetodlu Azərbaycan ədəbiyyatına keçid müstəqillik dövrü ədəbiyyatının ideya-bədii və elmi-nəzəri əsaslarına çevrilmişdir.

XX əsrin axırlarından etibarən Azərbaycan cəmiyyətində baş verən canlanma və inkişaf tədricən ümidsizlik, çöküş meyillərini aradan qaldırmağa başlamış və bununla da ədəbiyyatda kiçik ədəbi qruplaşmaların ya birləşməsi, ya da ömrünü başa çatdırması prosesləri yaşanmışdır.

Artıq XXI əsrin başlanğıcında Azərbaycan ədəbiyyatında ədəbi qruplardan ədəbi cərəyanlara doğru yeni bir proses önə çıxmışdır. Bu dövrdən etibarən ədəbi qrupların yenidən qruplaşması əsasında, bəzən mövcud ədəbi istiqamətlərin, axınların inkişaf edərək genişlənməsi zəminində ədəbiyyatda yeni ədəbi cərəyanlar yaranmağa başlamışdır. Azərbaycan ədəbi tənqidi ədəbiyyatdakı cərəyanlaşmanı XXI əsrin birinci onilliyində hiss etmiş, bu haqda mülahizələr yürüdülmüşdür. Lakin ədəbi cərəyanların formalaşması üçün müəyyən zaman tələb olunduğundan, ədəbi cə-

rəyan məsələsindən ədəbiyyat nəzəriyyəsi səviyyəsində yalnız son üç-dörd ildə nisbətən geniş danışılmağa meyil artmışdır. Lakin hələ də ədəbi-nəzəri fikir ədəbi cərəyan məsələsinə bir qədər ehtiyatla və ya tərəddüdlə yanaşmaqdadır. Bunun nəticəsidir ki, bu günə qədər müxtəlif tədqiqat əsərlərində, icmallarda yeni tarixi epoxanın ədəbi cərəyanlarından ara-sıra söz açılsa da, konkret olaraq müstəqillik dövrü Azərbaycan ədəbiyyatında ədəbi cərəyanlar məsələsi nəinki konkret bir elmi-tədqiqat əsərlərinin mövzusu olmamışdır, hətta bu barədə ayrıca, xüsusi bir məqalə də yazılmamışdır. Lakin ədəbi proses ədəbi cərəyanlaşma proseslərinin dərinləşdirilməsinə və genişləndirilməsinə doğru yol getməkdə davam edir. Bu mənada ədəbi cərəyanların etirafı baxımından ədəbi düşüncə elmi fikri qabaqlamışdır. Özünü postmodernizm ədəbi cərəyanına aid edən yeni nəsil yetişmişdir. Yaxud da dövri mətbuatda çap olunan bədii yazılarda *sürrealist hekayə, postmodernist gəzişmə* kimi qeydlərə tez-tez rast gəldiyimiz halda, ədəbiyyatşünaslıq əsərlərində bu məsələlərdən çox da aktiv şəkildə bəhs olunmur. Yalnız son illərdə ədəbiyyatşünaslıq elmi artıq Azərbaycan ədəbiyyatında ədəbi cərəyan məsələsinə xeyli dərəcədə ardıcıl və geniş diqqət yetirməyə başlamışdır. Bunun bir əsas səbəbi də ədəbiyyatın özündə cərəyanlaşma proseslərinin qabarması ilə əlaqədardır. Artıq ədəbiyyatşünaslıq elminin ədəbi cərəyanlardan yan keçməsi mümkünsüzdür. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2018-ci ildə "Ədəbi cərəyanlar" sektorunun yaradılması da təsadüfi olmayıb, həm ədəbiyyatımızdakı klassik ədəbi cərəyanlara dövlət müstəqilliyinin, Azərbaycançılıq ideyası-

nın işığında yenidən qayıtmaq zərurətini, həm də müstəqillik dövrü Azərbaycan ədəbiyyatında ədəbi təmayüllərin, cərəyanların xeyli dərəcədə formalaşması, de-fakto bəyan edilməsi, yaxud etiraf olunması reallığını ifadə edir. Ədəbiyyat İnstitutunda Ədəbiyyat nəzəriyyəsi şöbəsinin və Ədəbi cərəyanlar sektorunun təşkilatçılığı ilə ədəbi cərəyanlara həsr edilmiş elmi seminarların keçirilməsi də bu problemin müasir dövrümüz üçün aktuallığını nəzərə çarpdırmışdır. Beləliklə, hazırda Azərbaycan ədəbiyyatşünaslığında ədəbi cərəyan probleminə yenidən qayıdış mərhələsi başlanmışdır.

Eyni zamanda çoxəsrlik Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi konsepsiyasının hazırlanmasında ədəbi cərəyan amilinin əsas faktorlardan biri kimi qəbul olunması da ədəbi cərəyanlara müasir baxışı özündə əks etdirir. Son illərdə Azərbaycan ədəbiyyatının tarixi inkişaf yolunun müəyyən edilməsində ədəbi cərəyanların roluna və əhəmiyyətinə xüsusi diqqət yetirilməsi bu faktorun milli-ictimai və ədəbi fikrin inkişafında nə qədər böyük rol oynadığını sübut edir. Bu məntiqdən çıxış edərək, erkən realizmin XVII-XVIII əsrlərdə, maarifçi realizmin XIX əsrdə xüsusi ədəbi-tarixi mərhələ yaratması, XX əsrin əvvəlləri ədəbiyyatının tənqidi realizm və romantizm epoxası adlandırılması ədəbi cərəyanların Azərbaycan ədəbiyyatının tarixi taleyinə və müasir inkişafına güclü şəkildə təsir göstərdiyini aydınlaşdırır.

Sovet hakimiyyətinin dağılması ilə əlaqədar olaraq sosialist realizmi yaradıcılıq metodunun “ömrünü” başa çatdırmasından sonra Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında hansı yaradıcılıq metodu və ya ədəbi cərəyan ədə-

bi prosesi istiqamətləndirmişdir” – sualına elmi cavab axtarmaq müasir Azərbaycan ədəbiyyatşünaslıq elminin üzərinə düşən ən mühüm vəzifələrdən biridir. Ölkəmizdə müstəqil dövlətin yaradılmasının 28-ci ilinin tamam olmasına baxmayaraq, hələ də bu məsələyə aydınlıq gətirmək istiqamətində ciddi bir elmi addım atılmamışdır. Fikrimcə, ədəbi prosesin inkişafını müəyyən edən bədii metod və ya ədəbi cərəyan məsələsini həll etmədən, ədəbiyyatdakı gedişatın hansı istiqamətə doğru getdiyini, hara apardığını, hansı yeniliklərin gətirdiyini doğru-düzgün göstərmək mümkün deyildir.

Müşahidələr göstərir ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatı ölkəmizdə demokratik cəmiyyət mərhələsinin ədəbiyyatı olduğu üçün vahid ədəbi metoda malik olan bir ədəbi proses haqqında düşünmək lüzumsuzdur. Təkpartiyalı sovet cəmiyyətinin doğurduğu vahid yaradıcılıq metodu anlayışı arxada qalmış, birdəfəlik arxivə verilmişdir. Çoxpartiyalı demokratik əsaslara malik olan müstəqillik dövrü ədəbiyyatında çoxmetodlu, çoxsəsli ədəbiyyat yaranıb inkişaf etməkdədir. Çoxmetodlu ədəbi proses müasir Azərbaycan ədəbiyyatının simasını müəyyən edir. Bu çoxmetodluluq ədəbiyyatşünaslıq elmində müəyyən edilmiş realist və romantik metodun çərçivəsinə sığmır. Ədəbi prosesin gedişatı mövzu, janr, üslub baxımından olduğu kimi, bədii metod cəhətdən də daha geniş və rəngarəngdir. Azərbaycan ədəbiyyatının müasir mənzərəsində müşahidə olunan həmin genişlik və rəngarənglik ətrafında cəmləşib, konkret yaradıcılıq yolunu müəyyən edən yazıçı və şairlərin fərqli ədəbi mövqeləri hazırkı mərhələdə ayrı-ayrı ədəbi cərəyanları doğurmuşdur. Hazırda Azərbaycan

ədəbiyyatının indiki dövrünün əsas yaradıcılarını öz ətrafında birləşdirən əsasən aşağıdakı ədəbi cərəyanlar formalaşmaqdadır: 1. Neorealizm; 2. Postmodernizm; 3. Magik realizm; 4. Dekadentizm.

Əlbəttə, qeyd edilən ədəbi cərəyanlar artıq ədəbi mühitdə özünü büruzə vermiş, inkişafda olan təmayüllərdir. Heç şübhəsiz, bunlardan başqa da ədəbiyyatda müəyyən axınlar nəzərə çarpmaqdadır. Məsələn, Azərbaycan ədəbiyyatında sürrealizmin müəyyən əlamətləri görünməkdədir. Bu yaxınlarda Çingiz Əlioğlu öz şeirlərini "Ədəbiyyat qəzeti"ndə "Sürrealist şeirlər" rubrikası ilə çap etdirmişdir. Ədəbiyyatşünaslıqda müasir dövrün futurist yazarları haqqında müəyyən mülahizələr səslənir. Bundan başqa, Azərbaycan Milli Elmlər Akademiyasında "Qoşa qanad: Fizika və lirika" mövzusunda keçirilən respublika miqyaslı elmi konfranslarda artıq Azərbaycan ədəbiyyatında akademizm ədəbi cərəyanının formalaşmaqda olduğunun anonsları verilir. Heç şübhəsiz, ədəbi prosesin çoxmetodlu inkişafı daha başqa ədəbi cərəyanları, axınları, təmayülləri də meydana çıxaracaqdır. Bu ədəbi axınlardan hansının davamlı olub-olmamasını yalnız zaman həll edə bilər.

Artıq müstəqillik dövrü Azərbaycan ədəbiyyatında fəaliyyətdə olan ədəbi cərəyanlardan monoqrafik tədqiqatlarda, dissertasiyalarda, məqalələrdə bəhs edilməkdədir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda müəlliflər kollektivinin hazırlayıb nəşr etdirdiyi "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyi bədii yaradıcılıq prosesləri çoxmetodlu ədəbiyyat prinsipinin işığında dəyərləndirilib qiymətləndirilməsinin sanballı elmi nümunəsidir. Məhz Azərbaycan ədəbiyyatşünaslıq elmində ilk dəfə

bu monoqrafik tədqiqatda müstəqillik dövrü ədəbiyyatımızın çoxmetodlu inkişafı bəyan edilmiş və elmi-nəzəri cəhətdən əsaslandırılmışdır. Müstəqillik dövründə meydana çıxan ədəbi cərəyanlar haqqında da ilk dəfə burada konkret məlumatlar verilmişdir. Bütövlükdə isə müstəqillik dövrü Azərbaycan ədəbiyyatında mövcud olan ədəbi cərəyanların hər biri ayrılıqda, poetikası və estetikası ilə birlikdə tədqiq olunmalıdır.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında ədəbi cərəyan məsələsi, xüsusən də müstəqillik dövrü ədəbiyyatımızda ədəbi cərəyanlar problemi de-fakto elmi fikrin gündəliyinə daxil olmuşdur. Bu, ədəbiyyatşünaslıq elmində artıq bədii metod axtarışları ilə əlaqədar elmi fikri oyatmışdır. Hesab edirəm ki, ədəbi cərəyanlarla əlaqədar problem, ədəbiyyatın inkişaf istiqamətləri, mərhələləri və perspektivləri, janrlar sistemi, estetikası, poetikası və sair kimi ciddi nəzəri problemləri əhatə etdiyi üçün ədəbiyyatşünaslıq elminin ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid qanadlarının qarşısında yeni üfüqlər açır. Əslində, yuxarıda qeyd etdiyimiz kimi, ədəbiyyatın nəzəri dərki və şərhi ilə əlaqədar yeni dalğa artıq başlanmışdır. İndiki halda bütövlükdə ədəbi prosesi, yaxud da ayrı-ayrı yazıçı və şairlərin yaradıcılığını tədqiq edib ümumiləşdirmələr apararkən, ədəbiyyatın ümumi qanunauyğunluqları ilə yanaşı, konkret olaraq yaradıcı qüvvələrin mənsub olduqları ədəbi cərəyandan da çıxış etmək lazım gəlir. Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirdən bəhs edərkən, Azərbaycan ədəbiyyatında tənqidi realizmdən, Hüseyn Caviddən və Məhəmməd Hadidən söz açarkən romantizm ədəbi cərəyanından danışmaq nə qədər elmidirsə, müstəqillik dövrü ədə-

biyyatımızı təhlil edib dəyərləndirərkən də yaradıcı qüvvələri mənsub olduqları ədəbi cərəyanla bir yerdə öyrənib qiymətləndirmək bir o qədər zəruri, faydalı və elmidir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı çoxmetodlu, çoxsəsli, çoxnəfəsli ədəbiyyatdır. Çoxmetodlu Azərbaycan ədəbiyyatı artıq meydandadır. Və dövlət müstəqilliyinin indiki mərhələsində mövcud bədii metod, üslub və janr müxtəlifliyi ədəbi istiqamətin simasını və yazıçının fərdi özünəməxsusluğunu müəyyən edir. Ədəbi mühitdə və bədii yaradıcılıq prosesində bu dalğa, bu meyil qüvvətlənməkdə, genişlənməkdə davam edir. Bu, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının artıq özünün çoxsəsli yaradıcılıq yolunu müəyyən etdiyini, bütün istiqamətlər üzrə start götürdüyünü, ciddi inkişaf templərinə malik olduğunu nümayiş etdirir.

Müasir Azərbaycan ədəbiyyatşünaslıq elmi də çoxmetodlu Azərbaycan ədəbiyyatını tədqiq-təhlil edib qiymətləndirərkən, mövcud ədəbi inkişafın müxtəlifliyinin, çoxmetodlu, çoxüslublu olmasının fərqindədir. Bu da Azərbaycan ədəbiyyatının öyrənilib dəyərləndirilməsində yeni bir elmi dalğanın başlandığını göstərir. İnanırıq ki, ədəbi prosesdə, ədəbiyyatda və elmi-nəzəri fikirdə meydana çıxan yeni dalğa Azərbaycan ədəbiyyatını və ədəbiyyatşünaslıq elmini daha geniş üfüqlərə çatdıracaqdır.

Heç şübhəsiz, hər ədəbi cərəyan özünün böyük yaradıcı dühasını doğuracaqdır. Erkən realizm Molla Pənah Vaqifi, maarifçi realizm Mirzə Fətəli Axundzadəni, tənqidi realizm Cəlil Məmmədquluzadəni və Mirzə Ələkbər Sabiri, romantizm Hüseyn Cavidi, Əli bəy Hüseynzadəni və Məhəmməd Hadini, sosialist realizmi Süleyman Rəhimo-

vu, Süleyman Rüstəmi və Əli Vəliyevi yetişdirib böyük ədəbiyyat meydanına çıxardığı kimi, müstəqillik dövrünün ədəbi cərəyanları da yeni tipli görkəmli yazıçılarını ərsəyə gətirəcəkdir.

Qısa zaman ərzində yeni tarixi epoxanın "...izm"ləri fonunda modernizm və neorealizm zəminində Anar, Elçin, Əli Kərim, Fikrət Qoca, Sabir Əhmədov və İsi Məlikzadənin, magik realizm işığında İsa Hüseynovun və Yusif Səmədoğlunun, postmodernizm dalğasında Kamal Abdullanın, dekadentizm burulğanında Vaqif Səmədoğlu və Ramiz Rövşənin, sürrealizm aktında Çingiz Əlioğlunun böyük ədəbiyyatın yaradıcıları olaraq meydana çıxması gələcəkdə yeni ədəbi cərəyanların fövqünə yüksələcək qüdrətli sənətkarların yetişib formalaşacağına nikbin baxmağa əsas verir. Eyni zamanda ədəbiyyatşünaslıq baxımından da "...izm"lərin görkəmli tədqiqatçıları kimi ədəbiyyatşünaslıq elminə öz möhürünü basmış akademik Məmməd Cəfər Cəfərov (romantizm), müxbir üzv Yaşar Qarayev (realizm) kimi, müstəqillik dövrünün ədəbi cərəyanlarının da peşəkar tədqiqatçıları olan professional ədəbiyyatşünasların da yetişəcəyinə, ad-san qazanacağına inanmamaq mümkün deyildir.

Ədəbi prosesdən, ədəbiyyatdan – ədəbi cərəyanlara, ölkəyə və dünyaya!

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslıq elminin yeni tarixi epoxadakı inkişafının ədəbi və elmi-nəzəri düsturu bundan ibarətdir.

***

Ədəbi proses hərəkatında yeni dalğa həm də ədəbi tənqiddə konseptuallığa və professionallığa doğru inkişafa təkan vermişdir. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda artıq 2014-cü ildən ardıcıl olaraq keçirilməyə başlayan "Ədəbi proses" elmi-yaradıcılıq müşavirələri ədəbi gedişatı ayrı-ayrılıqda detallar üzrə təhlil etməkdən tədricən mətnə istinad etməklə məsələlərə kompleks yanaşmalara doğru inkişaf etmişdir. Məhz bu zəmində "Ədəbi proses-2017" müzakirələrində ilk dəfə olaraq ədəbi prosesin gedişatı əsasında ədəbi proses hərəkatından danışmaq mümkün olmuşdur. "Ədəbi proses-2017" yaradıcılıq müşavirəsində gəlinən aşağıdakı yekun, elmi-nəzəri qənaət Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ardıcıl olaraq keçirilən ədəbi proses müzakirələrinin dialektik inkişafından çıxarılan elmi nəticədir: "Bu, (Ədəbi proses müzakirələri – İ.H.) müasir Azərbaycan ədəbiyyatını illər üzrə bütün yönləri ilə təhlil edib dəyərləndirən ardıcıl və sistemli bir elmi-ədəbi hərəkatdır. "Ədəbi proses" marafonu müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mahiyyətini açan, səciyyəsini müəyyən edən, modellərini meydana qoyan, gələcək inkişaf yollarını göstərən hərəkatdır. Bu hərəkat Azərbaycan ədəbiyyatşünaslıq elminin ayrı-ayrı nəsillərini və bütün elmi dərəcələrdən olan elm adamlarını vahid platformada özündə birləşdirir və istiqamətləndirir… Ədəbi proses hərəkatı özünün baş məqsədi olaraq müstəqillik dövrünün ən müasir ədəbiyyatı və ədəbiyyatşünaslıq elminin yaradılmasına və yeni elmi nəslin yetişib formalaşdırılmasına inamla və uğurla xidmət edir".

Bu, ədəbi proses müzakirələrinin XX əsrin yetmişinci

illərindən bizim günlərə qədərki inkişafında gəlib çatdığı yüksək inkişaf səviyyəsidir. Artıq elmi-ədəbi hərəkat statusu qazanmış proseslərin daha da genişlənib və inkişaf edərək yeni bir dalğaya çevrilməsi prosesi başlanmışdır. Bədii mətndən və ədəbi proseslərin reallıqlarından çıxış edərək, analitik təhlil əsasında proseslərə kompleks yanaşmaq, professionallıq və konseptuallığa cəhd göstərmək ədəbi proses hərəkatındakı yeni dalğanın əsas səciyyəvi xüsusiyyətləridir.

Eyni zamanda "Ədəbi proses" müzakirələrində ara-sıra səsləndirilən, "Ədəbi proses-2017"də artıq bəyan olunan, ədəbiyyatda gedən proseslərin yeni ədəbi axınlar və ədəbi cərəyanlarla əlaqəli tədqiqi və təqdim olunması da yeni tarixi mərhələnin əsas özünəməxsusluqlarındandır. Bizim müşahidələrimizə görə, "yeni dalğa" adlandırdığımız Ədəbi prosesin icmalını yaratmaqdan onun dərin və nəzəri şərhinə keçməyə doğru baş vermiş inkişaf tədrici təkamül prosesləri əsasında formalaşmış mühüm elmi nəticədir. İndiki halda biz Ədəbi proses müşavirəsində müzakirəyə çıxarılan elmi məruzələrdən bir çoxunu elmi yenilik və nəzəri səviyyə baxımından Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, hətta Milli Elmlər Akademiyasının mühüm elmi nəticələri sırasına daxil edə bilərik. AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "2018-ci ilin ədəbi tənqidi: diskurs və proses", filologiya elmləri doktoru Vaqif Yusiflinin "2018-ci ilin poeziyası", Elnarə Akimovanın "2018 – tarixin sonu"nu inkar edən daha bir il. (İlin ədəbi yekunları haqqında qeydlər)", Salidə Şərifovanın "Ədəbiyyat tarixçiliyi–2018", Esmira Fuadın "Poema–2018: epos təfəkkürü və lirik-fəlsəfi bəyannamə", filologiya üzrə fəl-

səfə doktorları Nərgiz Cabbarlının "Yeni romana müasir baxış", Maral Yaqubovanın "Bədii nəsr nəzəriyyə işığında", Aynur Xəlilovanın "Povest – çağdaş bədii düşüncənin axtarışlarında", Lalə Həsənovanın "Azərbaycanın rusdilli ədəbiyyatı–2018", Aynurə Mustafayevanın "2018-ci ilin dramaturgiyası üzərində düşünərkən", Nərmin Cahangirovanın "İlin hekayə palitrası" adlı icmalları qarşıya qoyulan hədəfləri aydın göstərən, dərin elmi təhlilləri, nəzəri ümumiləşdirmələri olan tədqiqatlardır. Builki "Ədəbi proses" məruzələrini tam halda "Azərbaycan ədəbiyyatının tarixi oçerkləri–2018" adlandırmaq olar. Bütövlükdə "Ədəbi proses–2018" Azərbaycan ədəbiyyatında bir ilin rentgen süzgəcindən keçirilmiş real gedişatını əks etdirən, obyektiv mənzərəsini canlandıran mühüm elmi platformadır.

Təqdim edilən elmi məruzələrin bir çoxunda müşahidə edilən konseptual yanaşma, yaxud konseptuallığa meyil "Ədəbi proses-2018"in elmi yeniliyi və mühüm nəticəsidir. Filologiya elmləri doktoru Cavanşir Yusiflinin "Poeziya və gənclər. Gənclərin sualları" məruzəsi müasir esse tənqidinin bariz nümunəsidir. Ümumiyyətlə, dövri mətbuatdakı ədəbi-tənqidi yazıları göstərir ki, Cavanşir Yusifli müasir dövrdə esse tənqidinin, yaxud da ədəbi tənqiddə esseçiliyin əsas yaradıcılarından biridir. Essevari tənqid artıq Cavanşir Yusifli tənqidinin fərdi simasıdır. İlk dəfə "Ədəbi proses" müzakirələrinə çıxarılmış esse janrı filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənlinin tədqiqatında özünün gerçək nəzəri təhlilini tapmış və bundan sonrakı inkişaf templərini müəyyən edə bilmişdir.

Ədəbiyyat İnstitutunda "Azərbaycan-Asiya ədəbi əlaqələri" şöbəsinin yaradılması və səmərəli fəaliyyəti 2018-

ci ildə "Ədəbi proses hərəkatı"na filologiya elmləri doktoru Bəsirə Əzizəliyevanın Asiya xalqları ədəbiyyatları ilə əlaqələr haqqında məruzəsini gətirmişdir. Uzun illər Sovetlər İttifaqı çərçivəsində əsasən SSRİ-yə daxil olan respublikalarda və Avropanın sosialist ölkələrində yaranan ədəbiyyatı öyrənməkdən kənara çıxarmaqda çətinliklərlə üzləşən Azərbaycan ədəbiyyatşünaslıq elmi müstəqillik dövründə ölkəmizin Qərbyönlü inkişafına uyğun olaraq Avropaya doğru sərhədlərini genişləndirmişdir. Bununla belə, Azərbaycan ədəbiyyatşünaslıq elminin Qərb ölkələri ilə əlaqələr üzrə dairəsi ətrafındakı hərəkəti irəliyə doğru addım əlaməti olsa da, Asiya ədəbiyyatı kimi zəngin bir xəzinədən kənarda qalması yalnız inkişafı birtərəfli şəkildə əks etdirməklə məhdudlaşa bilər. Nəhayət, 2016-cı ildə Ədəbiyyat İnstitutunda "Azərbaycan-Asiya ədəbi əlaqələri" şöbəsinin təsis edilməsi və filologiya elmləri doktoru, professor Bədirxan Əhmədovun rəhbərliyi ilə qısa müddətdəki səmərəli fəaliyyəti nəticəsində ölkəmizdə ədəbi əlaqələrin geniş mənzərəsi ilə təqdim edilməsinə nail olunmuşdur. Bu mənada Bəsirə Əzizəliyevanın "Ədəbi proses-2018" müşavirəsində "Azərbaycan-Asiya ədəbi əlaqələri" mövzusunda elmi məruzə ilə çıxış etməsi Azərbaycanda Ədəbi proses hərəkatında yeni olub, Asiya ədəbiyyatına açılan əhəmiyyətli bir pəncərədir.

"Ədəbi proses" müşavirələrində ümumiləşmiş şəkildə ədəbi növlər üzrə icmalların, yoxsa ədəbi növlərdən başqa konkret janrlar (məsələn, roman, povest, hekayə) əsasında tədqiqatların hansının elmi cəhətdən faydalı olması məsələsi də günümüzün müzakirə mövzusudur. Ədəbi növlərə dair icmallar ədəbi prosesin ümumi istiqamətlər üzrə inki-

şafını, ayrı-ayrı janrlar əsasında təhlillər isə ədəbi prosesin bütün detalları, faktları və hadisələrini daha konkret şəkildə izləməyə, təkamül proseslərini reallıqları ilə birlikdə göstərməyə imkan verir. Ədəbi proses müşavirələrinin təşkili və keçirilməsi baxımından ədəbi növlər üzrə azsaylı məruzələr daha sərfəli olsa da, janrlar üzrə tədqiqat elmi baxımdan daha faydalıdır.

Qeyd etdiyimiz kimi, "Ədəbi proses-2018" konseptual ədəbi tənqid platformasıdır. Məruzələrin əksəriyyəti üçün problemə, fakta, əsərə münasibətdə mətnin dərinliyinə yenmək, nəzəri təhlillər aparmaq ümumiləşdirilmiş konseptual yanaşmalara və elmi-nəzəri nəticələrə şərait yaradır. Uzun illərdən bəri tənqid leksikasında özünəməxsus şəkildə "konsept" terminini işlədən tanınmış tənqidçi Tehran Əlişanoğlunun təqdimatlarında artıq onun ədəbi prosesə özünəməxsus konseptual elmi baxışları formalaşmışdır. "2018-ci ilin tənqid refleksləri" məruzəsi ədəbi tənqiddə konseptual yanaşmaların mükəmməl örnəyidir. Məruzədəki Ədəbi prosesi şərh etmək üçün bədii ədəbiyyatdan və ədəbiyyatşünaslıqdan gətirilən misallardan başqa digər təhlillər, müqayisələr və proqnozlar konseptual tənqid notlarıdır: "Bizdə tənqiddən şikayət bir növ onun yaşama və hərəkət düsturuna çevrilmiş; "Belinskiçilik" şövqü, ədəbi tənqiddə Ön mövqe iddiası və israrları eynən dəyişməz qalır", "Ədəbiyyat qəzeti"ndə "ədəbiyyatşünas tənqidi" …ədəbi-tənqidi prosesin professional qatını gücləndirir", "tənqidçi kitabları xronoloji ilin deyil, bütöv bir dövrün ədəbiyyatının mənzərəsini görməyə imkan verir". Və nəhayət, Tehran Əlişanoğlunun mövcud ədəbi prosesin gedişatı, istiqaməti, yaxud mahiyyəti haqqında yekun konsep-

tual ümumiləşdirməsi belədir: "Ədəbiyyatda, ədəbi prosesdə olduğu kimi, tənqiddə də Öndən Mərkəzə doğru bir süzüşmə baş vermiş, ədəbi tənqid missiyasını Ön dəyər axtarıcılığından (haradasa oralarda, "olmadığımız yerlər"də) daha çox Mətnə (Ədəbiyyatın dərinliklərinə – sirr axtarıcılığı") yönəltmişdir".

Müasir ədəbi tənqidin əsas aparıcı simalarından olan Vaqif Yusiflidən konseptual baxışa örnək: "Poeziyamızda ənənələrin zənginləşməsi iki axarda cərəyan etmişdir. Birinci halda ənənələr daxilən, məzmunca dəyişmişdir, ikinci halda isə bu dəyişiklik bədii formada baş vermişdir… XX-XXI əsrlər Azərbaycan heca şeiri məhz belə inkişaf və yeniləşmə imkanları ilə diqqəti cəlb etmişdir". Vaqif Yusiflinin konseptual elmi baxışlarını bədii mətndən, faktdan gətirilən misallar əsaslandırır və möhkəmləndirir.

Ədəbi tənqiddə artıq yeni ədəbi nəsil də ədəbi prosesə konseptual yanaşmağı bacarır, ədəbiyyatda gedən prosesləri təhlil edib ümumiləşdirilmiş nəticələr çıxarır. Filologiya elmləri doktoru Elnarə Akimova 2018-ci ilin əsas ədəbi yekunlarına konseptual baxımdan aşağıdakı şəkildə giriş edir: "Bugünkü ədəbiyyat yeni tipoloji hadisədir. Müasir ədəbi proses yalnız ictimai-ideoloji mühitin, ədəbi-bədii, estetik-mənəvi dəyərlərin təbəddulata uğraması deyil, dərin izahları olan məsələdir". Ədəbi gedişat haqqında da Elnarə Akimovanın mülahizələri konseptualdır: "Bu gün ədəbiyyat daha çox simvolların dili ilə danışmağı tərcih edir. Tarixə dönüş, mifolojiyə meyil, irreal aləmlər, fantastik dünyalar, fövqəltəbii qüvvələrin aparıcı olması… Ədəbiyyat daha çox təhtəlşüura enib, ədiblərimizin yaradıcılıq ruhu daha dərinlərə varıb, mifoloji kontekstin fərqli tə-

zahürlərini verir". Elnarə Akimova "Tarixin sonu"nu inkar edən daha bir il" adlandırdığı məruzəsini hamletvari bir monoloqla yekunlaşdırır: "Ədəbiyyat – tarix və insanın "sonu" problematikasından qurtulması üçün var olmalıdır?! Hər şeyin bir sonu olsa da, tarixin sonu mədəniyyət (ədəbiyyat) yaradanların əli ilə dayandırıla bilər. Çünki Roman Rollana inansaq, "yaratmaq ölümü öldürmək deməkdir".

Filologiya üzrə fəlsəfə doktoru, dosent Maral Yaqubovanın "Nəsr: nəzəriyyə və yaradıcılıq texnologiyaları" məruzəsində bədii nəsrin müxtəlif formalarında (roman, povest, hekayə) yazılmış yüzdən çox nümunəsinin təhlilini təqdim edir. İstər-istəməz müəllifin aparmağa borclu olduğu elmi-nəzəri ümumiləşdirmələr konseptual baxış üçün zəmin hazırlamış və Maral Yaqubova həmin imkandan ədəbiyyat haqqında konseptual düşünmək baxımından yaradıcılıqla faydalanmağı bacarmışdır. Fikrimcə, bu məqamda Maral Yaqubova özünü Azərbaycan ədəbiyyat nəzəriyyəçiliyində imza kimi isbat etmişdir. Məqaləsindən – məruzəsindən gətirdiyimiz tək bircə sitat bu yeni nəsil ədəbiyyat nəzəriyyəçisini tanımaq və tanıtmaq üçün kifayət edir: "Ötən ilin nəsrinə mətn-nəzəriyyə meyarı ilə yanaşıldıqda, məlum oldu ki, çap olunmuş əsərlərin böyük əksəriyyəti mətn ola bilmir, müəllif kitabı və ya əsəri olaraq qalır. Nəsrin mətn ola bilməsi üçün nasirin hekayəsi statusu müəllif statusundan üstün olmalıdır. Hər bir mətn (söhbət mükəmməl bədii mətndən gedir) adresatdan adresata ünvanlanan kodlaşmış yazıdır. Müəllif nəsr mətninin sərhədindən içəriyə daxil olduğu anda təhkiyəçiyə çevrilməlidir. Mətnin konstruksiyası olmalıdır, mətn müəllif tə-

rəfindən quraşdırılan bir sxemdir və təhkiyəçi bu sxem-insanın, sxem-zamanın və məkanın mühəndisidir. İlin nəsrinin bütün təhkiyəçiləri müəllifdir, amma hər təhkiyəçi müəllif deyildir".

Nərgiz Cabbarlının yeni roman texnologiyalarına, Aynur Xəlilovanın müasir povestin janr sərhədləri və imkanlarına, Lalə Həsənovanın Azərbaycanın rusdilli ədəbiyyatına, Pərvanə Məmmədlinin Cənubi Azərbaycan ədəbiyyatına, Mehman Həsənlinin esse janrına, Aynurə Mustafayevanın müasir dramaturgiyaya, Nərmin Cahangirlinin ilin hekayə palitrasına, Gülbəniz Babayevanın mollanəsrəddinçi satiraya, Gülnar Qəmbərlinin uşaq ədəbiyyatına həsr edilmiş məruzələrinin hər birindən onların üzərində düşündükləri konkret mövzu, problem, müəllif, bədii əsər haqqında ümumiləşdirilmiş nəzəri fikirlərini ifadə edən onlarla sitatlar gətirmək mümkündür. Lakin elmi-ədəbi prosesdəki müsbət tendensiyaları təqdir etmək, diqqət mərkəzinə çəkməklə bərabər, həm də ifrat sitatçılıq üsulundan yan keçərək, bildirməyi özümə borc bilirəm ki, artıq Azərbaycan ədəbiyyatşünaslıq elmi ciddi keyfiyyət dəyişikliklərinin içərisindədir və əlamətdar cəhət ondan ibarətdir ki, bu proses ildən-ilə daha da təkmilləşərək inkişaf etməkdədir.

Ədəbi proses hərəkatında tənqid və ədəbiyyatşünaslıq, ədəbiyyat nəzəriyyəsi, ədəbi əlaqələr və bədii tərcümə sahələrində təmsil olunan əməkdaşlar da il ərzində yorulmadan çalışmışlar. Filologiya elmləri doktoru Salidə Şərifovanın "Azərbaycan ədəbiyyat tarixçiliyi" məruzəsi tarix faktından deyil, bu elmi istiqamətin hazırkı mərhələdə keçirdiyi inkişaf meyillərindən çıxış edilərək yaranan elmi cəhətdən ümumiləşdirilmiş təqdimatdır. Rasim Nəbioğlu-

nun ədəbiyyat nəzəriyyəçiliyinə dair məruzəsində də ümumiləşdirilmiş tezislər vardır. Lakin bütövlükdə qeyd etdiyimiz sahələr üzrə, xüsusən, ədəbi əlaqələrə dair təqdim olunan icmallarda faktların sadalanması, informasiyaların təqdim olunması, xronoloji aspekt, təhlil və dəyərləndirmələri üstələmişdir.

Ümumiyyətlə, ədəbiyyata, ədəbi prosesə konseptual baxış ədəbiyyatşünaslıq elmində yüksək professionallığa doğru inkişaf meylini qüvvətləndirmişdir. Daha doğrusu, elmdə professionallıq istiqamətində yaşanan təkamül prosesləri konseptual yanaşmaları və ümumiləşdirmələri formalaşdırmışdır. Bu məqamda professionallıqla konseptuallıq bir-birinin sinonimi kimi səslənməkdədir.

Əlbəttə, elmi-ədəbi prosesdəki professionallıq və konseptual yanaşmalara doğru meylin qüvvətlənməsi ədəbiyyatşünaslıq elmində keyfiyyət dəyişmələrinin mühüm göstəricisidir. Ancaq heç də həmin keyfiyyət dəyişmələrini tam yekun göstəricilər kimi başa düşmək, qəbul etmək doğru olmaz. Əvvəla, digər bütün elm sahələri kimi, ədəbiyyatşünaslıq elmi də daim təkmilləşməli, yeniləşməli və inkişaf etməlidir. Burada, necə deyərlər, son həd, axırıncı dayanacaq yoxdur və olmamalıdır. Lakin bizim qənaətimiz bundan ibarətdir ki, müstəqillik dövrü Azərbaycan elmində, "Ədəbi proses-2018"dən söhbət açıldığı üçün konkret olaraq tənqid və ədəbiyyatşünaslıqda keyfiyyət dəyişmələri baxımından yeni dalğa başlanmışdır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun timsalında təqdim etdiyimiz bu yeniləşmə hərəkatı sadəcə, akademik elmi düşərgəni əhatə etməklə qalmır, ölkə miqyasında da "görünməz dalğanın" qabarması kimi nəzərə çarpır. İndi Milli

Elmlər Akademiyasında olduğu kimi, müstəqil respublikamızın digər elm və ali təhsil qurumlarında, regionlardakı elmi mərkəzlərdə də elmin bütün sahələri üzrə, o cümlədən ədəbiyyatşünaslıq istiqamətində elmdə keyfiyyət dəyişmələri baş verməkdədir. Ədəbiyyatşünaslıq elmi üzrə ölkə miqyasında qəbul olunan kifayət qədər ciddi imzalar formalaşmışdır. Qarşımızda duran əsas vəzifə, içərisində olduğumuz elmi mühitdə müşahidə etdiyimiz "görünməz dalğa"nın daha da qabarıq inkişaf etməsinə bələdçilik etməkdən, ona dəstək verməkdən ibarət olmalıdır. Hesab edirəm ki, artıq start götürmüş bu proses elmimizdə müasir dövrün yeni elmi məktəblərinin yaradılmasına aparıb çıxaracaqdır.

Uğurlar arzulayıram!

Elnarə AKİMOVA
Filologiya elmləri doktoru, dosent

2018 – "TARİXİN SONU"NU İNKAR EDƏN DAHA BİR İL

(İlin ədəbi yekunları haqqında qeydlər)

(ixtisarla)

Yola saldığımız 2018-ci il daha çox Cümhuriyyət ili kimi yadda qaldı. Şərqdə ilk demokratik respublika kimi öz yerini tutmuş Azərbaycan Cümhuriyyətinin 100 illiyinin 2018-ci ildə geniş qeyd edilməsi məqsədilə il boyu tədbirlər keçirildi, silsilə məqalələr yazıldı, konfranslar təşkil olundu. Cümhuriyyət qurucularının hər birinin yad olunması, xidmətlərinin önəmsənilməsi baxımından bu tədbirlərin müstəsna rolu oldu.

Ötən il əlamətdar olan digər hadisə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi idi. Yubiley ölkənin bütün sahələrində qeyd edildi. Nizami Gəncəvi adına Ədəbiyyat İnstititu da Heydər Əliyevin yubileyinə layiqli araşdırma ilə töhfəsini verdi. "Ədəbiyyatda Heydər Əliyev obrazı – tarixi gerçəklikdən milli ideala" adlanan kitab işıq üzü gördü. Elmi redaktoru akademik İsa Həbibbəylinin, məsul redaktoru müxbir üzv Tehran Əlişanoğlunun olduğu kitab ümumilli liderin ədəbiyyatdakı obrazını bütün çalarları ilə meydana çıxarmaq baxımından dəyərli bir ədəbiyyat nümunəsidir. Onu da deyək ki, kitabın təqdimatı ötən il həm Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda, həm də Misir Mədəniyyət Mərkəzində keçirilmişdir.

Yola saldığımız ildə İlham Əliyevin atdığı müqtədir addımlardan digəri Əli bəy Hüseynzadə ilə bağlı oldu. Ölkə başçısı İlham Əliyev 2018-ci ilin mart ayının 17-sində böyük ideoloqun qızını Dostluq ordeni ilə təltif etdi. Bu, hər iki ölkə arasında münasibətləri möhkəmləndirməyə və Əli bəy Hüseynzadənin ruhuna göstərilən ən dəyərli nümunə oldu. Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımın adından professor İbrahim Yıldırım prezidentə təşəkkür məktubu ünvanladı. Məktub "Ədəbiyyat qəzeti"ndə dərc olundu.

Ötən il digər yubileylərin təqdimat ili kimi də yadda qaldı. Anarın 80, Elçinin 75, Ədəbiyyat İnstitutunun 85 illiyi qeyd olundu. "Ədəbiyyat qəzeti"ndə hər üç yubiley xüsusi buraxılışla qeyd olundu.

2018-ci il gözlənilməz bir hadisənin rezonansı ilə də yadda qaldı. Müşfiqin sümüklərinin tapılması ilə bağlı məsələ uzun müddət ölkə mediasını zəbt etdi. Bütün mətbuatı skelet fotoları bürüdü. Məsələ komissiyanın yaradılması və yekun rəyin onlara həvalə olunması faktı ilə yekunlaşsa da, hər halda prosesin ətrafında fikir mübadilələri uzun müddət davam etdi. Proseslərin aktuallandığı məqamda çoxsaylı məqalələr yazıldı. Ədəbiyyatın baxışı həmişə fərqli olub. Hələ söhbət Mikayıl Müşfiq kimi şairdən gedirsə. Ötən il yazıçı-esseist Günel Eyvazlının yazdığı "Alnımda göynəyən güllə yeri" məqaləsi bu baxımdan fərqlənən baxış sərgilədi. Günel Eyvazlı Müşfiq məqamını predmet seçərək ümumilikdə xəyanət amilini ədəbiyyatlaşdırdı. Sənətkara edilən qibtə hissi, Salyeri kompleksindən əziyyət çəkənlərin böyük insanları öz yolunun üstündən götürmək üçün etdiyi rəzilliklər bu məqalədə müxtəlif

nümunələr əsasında obrazlaşdırılsa da, əsas hədəf Müşfiq ömrü, Müşfiq taleyi idi: “Bəlkə, kim olursa-olsun, araşdırmadan, tədqiqat aparmadan dəfn edək? Onun yox, bu dünyadan getmiş Müşfiqin ruhu yox, bizim - bizim narahat ruhumuzun əvvəl-axır dinclik tapması üçün!

Silahlar indi daha sərrastdır. Eyni anda ard-arda atəş açmaq mümkündür. Şəxs yerə yıxılmamış havadaca dəfələrlə güllələnə bilər. Sizcə, ikinci gülləni alnına vurana qədər Müşfiq ayaq üstə dayanmışdımı? Yoxsa əmrə müntəzir olan əslən azərbaycanlı əsgər şair yerə yıxıldıqdan sonra, şairin ölümünə əmin olmaq üçün ona yaxınlaşıb yenidən alnından atəş açmışdımı? Adam sağdır, ondan xəbər alın!”.

***

Roman. Ədəbiyyatın qarşılaşdığı əsas problem gerçəklik və ona yanaşma tərzidir. Bugünkü ədəbiyyat yeni tipoloji hadisədir. Yalnız ictimai-ideoloji mühitin, ədəbi-bədii, estetik-mənəvi dəyərlərin təbəddülata uğraması deyil, daha dərin izahları olan məsələdir. Çağdaş ədəbiyyat daha çox Qərb-dünya ədəbiyyatının təsirində var-gəl etmədədir. Belə bir hal təbii ki, M.F.Axundzadə zamanından başlayaraq, realizm və romantizm poetikasının mükəmməl, milli keyfiyyətləri ehtiva edən XX əsrin əvvəlləri üçün də xarakterik idi. Amma həmin dövrlərdə yazıçılar dünya nəsrindən birbaşa milli problematikaya nüfuz üçün yararlanır, dövrün maarifçilik, qadın azadlığı, mövhumatla mübarizə məsələlərini qabartmaqla problematik zərurətdən estetik müəyyənliyə qədər yol gəlirdilər. Bu günün də öz

çeşidli problemləri var, amma yazıçı özünü bunlardan azad edib. O özünü hansısa sosial sifarişin ruporu olmaqdan arındırıb. Məti Osmanoğlu ötən il "525-ci qəzet"də jurnalistin ona ünvanladığı "İndi yaranan bədii mətnlərin çatışmayan əsas cəhəti nədir, – sualına belə cavab verir:

"- Mənə elə gəlir ki, bugünkü həyatımız, həyatın ritmi, ahəngi çatışmır. Ədəbiyyat sanki daha çox həyatdan kənarda nələrisə axtarır. Mən müasir ədəbiyyatda özümün, müasirlərimin həyatını, problemlərini, sevinclərini, faciəsini nə dərəcədə görə bilirəm? Məsələ budur!" ("İndi yaranan mətnlərdə həyatın ahəngi çatmır" (Məti Osmanoğlu ilə müsahibə. "525-ci qəzet", 30 iyun 2018)

Məti Osmanoğlunun vurğu saldığı məqam çox əhəmiyyətlidir və insanın zamanda yeri ilə bağlı ideyanın nəsrimizdə işləkliyi baxımından düşündürür. Bu gün ədəbiyyat daha çox simvolların dili ilə danışmağı tərcih edir. Tarixə dönüş, mifolojiyə meyil, irreal aləmlər, fantastik dünyalar, fövqəltəbii qüvvələrin aparıcı olması... Ədəbiyyat daha çox təhtəlşüura enib, ədiblərimizin yaradıcılıq ruhu daha dərinlərə varıb, mifoloji kontekstin fərqli təzahürləri verilir. Ötən il nəsrdə bu tendensiya yenə də qabarıqlığı ilə seçildi. Meydana qoyulan romanlarda arxetipik motivlər, fləşbek elementləri, retrospeksiya halları, intertekstuallıq öndə idi. Bu cəhət roman janrında yazılan nümunələrdə daha aparıcıdır. Zahid Sarıtorpağın "Quşların intiharına ağlamayın", Şərif Ağayarın "Ağ yel", Sərdar Aminin "Su sərgisi" romanlarında insanın zamanla dialoqu sirli qatda, paralel dünya modellərində baş tutdu.

Zahid Sarıtorpağın "Quşların intiharına ağlamayın" romanı ehtiva etdiyi yeni nəsr elementlərinin təcəssümü

ilə bərabər, həm də qadın obrazının yeni nəzərlərdən dərki, bədii mətnə gətirilməsi baxımından diqqət çəkir. Romanın təhlilinə keçməzdən öncə artıq uzun illərdir ədəbiyyatımızda aparıcı olan pessimist, dekadans ovqat üzərinə bəzi qeydlər etmək istəyirəm.

Milli müstəqillik dövrü bizim nəsr və poeziyamıza çöküş əhvalının bədii təzahür şəkli kimi gəldi. Bunun səbəbləri haqda çox danışmağa lüzum yoxdur. Zamanın portretinin təhlükədə olduğu bir dövrdür, hələ üstəlik milli insanın torpaq ağrısından tutmuş sosial-psixoloji acılarına qədər çox məqamı içinə alır. *Qeyd edim ki, bizdə dekadans çalarlar əsasən poeziya üçün daha xarakterik oldu, nəsrdə bu, o qədər də hiss olunmadı. Çünki nəsr poeziyadan fərqli olaraq gerçəklərin təsvirinə o qədər də köklənmədi. Poeziyada postmodernist təmayülün şərtlərindən irəli gələn gerçəkliyin boz, boyasız təsviri önə çıxdısa, nəsrdə simvolikaya meyil, retrospeksiya halları, zaman sıçramalarının işləkliyi əsas istiqamət kimi qabardı.* Zahid Sarıtorpağın romanı ilk növbədə, bunların məcmu şəkildə təcəssümü baxımından səciyyələnir. Yəni burada həm simvolika var, həm realist yanaşma və bunların son dərəcə bədbin çalarda inikası.

“Quşların intiharına ağlamayın”... İntihar adını başlıq seçən bir əsərdən başqa ovqat da umulmaz əslində. Hələ üstəlik həyatımız, gündəlik yaşamımız intihar xəbərləri ilə doludursa, ədəbi talelərini intiharla sonuclayan yazarlar varsa. Deməli, faktura və problematika müasirlikdən, çağdaş dövrün aktuallığından nəşət edir.

Roman sərt təsvirləri, tutqun naturası, bədbin atmosferi, neqativ səciyyəli müşahidələrin bolluğu ilə diqqət çəkir.

Müəllif baş verənləri ailə-məişət çərçivəsində təsvir etsə də, onu qara, tünd haşiyəyə alıb canlandırır. Əsərdə zaman parçalanması, irəli-geri dönümlər yoxdur, amma müəllif keçmişi məqamlar, xatirələr şəklində indiki zamanın içində təqdim edir. Qəhrəmanın şüuraltında daim keçmişdən gələn yanıq yeri boy verir, onun təhkiyə və düşüncə ardıcıllığının pozulması psixopatoloji hal kimi özünü göstərir. Müəllif Qaraqızın keçmişdə yaşadığı hisslərini illüstrasiya etməyə çalışır. Onun üzləşdiyi, ətrafında cərəyan edən proseslərə müəllifin etik mövqeyini görməmək mümkün deyil. Bu mövqe əslində ayrı-ayrı tale və xarakterlərə deyil, bütövlükdə həyatın özünə münasibətdə daha aktual vurğu kəsb edir.

Zahid Sarıtorpaq bu əsərində də simvolikaya meyillidir. Mistik elementlər, müəyyən anlam yaradıcı detallar, rəmzi mənalandırmalar: kvadratların içinə çəkilən ölü kəpənək rəsmləri, intihar edən boz sığırçınlar, yalqızlar Piri, tabut, gülümsəyən dodaqlara oxşayan balıq cizgiləri, tüstülü şamlar, “X” hərfləri, tufanın göyə sovurduğu qızılgüllər, nakamlar qəbirstanlığı, başdaşına qonan xardal rəngli çəyirtkə. Müəllif həyatın faniliyini, son problematikasını və həyatdan, əzablardan qurtuluş yolunu daha çox uçan canlıların nümunəsində metaforikləşdirir.

Onu da deyim ki, əsərdə mətləbin rəmzlərlə təcəssümü gerçəkliyə bədii nüfuzu üstələmiş, konkret hissi ifadəyə əsaslanan estetik təhlili kölgədə qoymuşdur. Əks təqdirdə problemin sosial-mənəvi, psixoloji qatlarına enməyə, daha dolğun təcəssümünə nail olmaq olardı.

Romanda çağdaş dünyanın bəlaları, insanlığın düçar olduğu fəci hallar obrazların yaşamında təsvirini tapır.

Narkotik, lezbiyanlıq, insanların dünya nəfsinə uyaraq dəyərlərini itirməsi əsərdə çöküş ruhunun yaranmasını stimullaşdırır. Zahid Sarıtorpağın "Qarğa marşrutu" romanında qəhrəman, anasının laqeydliyindən əziyyət çəkirdi. Bu əsərdə isə əsas obrazlardan olan Xəlilin anasına qarşı heyrətamiz etinasızlığı ilə qarşılaşırıq. Ümumiyyətlə, yazıçı sosial, mənəvi problemlər qaldırmaqda davam edir. Əsərdə bir şəxsin taleyindən yola çıxaraq müxtəlif məsələlər – insanın nəfsi, cinsəl azadlığı, sosial problemlər, cəmiyyət bəlaları, "ağ ölüm" – narkotik, insan xislətinin naqis tərəfləri, məişət pozğunluqlarına vurğu salınır. Maraqlıdır ki, bir-birini əvəzləyən bu yarıtmaz hallar növbə ilə açılır, müəllif sanki iri bir sap topasının ilgəyini sökə-sökə mahiyyətin çılpaq nüvəsinə çatmaq istəyir. Ordan o yana isə həyat yoxdur, boşluq var, həyata üsyan var, intihar anı var.

"Quşların intiharına ağlamayın" həyata, gerçəklərə, insan xislətinə fərqli tərəfdən nəzər yetirən, ciddi mesajlar ötürən əsərdir. Müəllifin rəvan və canlı təhkiyəsi, oxucunu emosional boyaların cazibəsinə salmaq, kövrək intonasiya çalarları ilə yüklü məqamlara toxunmaq məharəti isə romanın uğurunu şərtləndirən əsas məziyyətlərdəndir.

Nəsrlə bağlı məqalələrimdə aktuallandırdığım bir məqama bu yaxınlarda Qismətin tərcüməsində oxuduğum – Adam Kirşin "Qlobal roman – XXI əsrdə dünyanı yazmaq" kitabından təqdim olunmuş parçada da rast gəldim. Müəllif çağdaş dünya romançılarının kökləndiyi özgələşmə kimi mövzudan bəhs edərək yazır ki, romançıların "bu gün daha çox pessimist olması – qəddarlıq, özgələşmə və istismar kimi mövzulara fokuslanması – qlobal roman yaz-

mağın, əslində, ədəbiyyatın dünyanı təmsil etmək gücündə olmaq həqiqətinə kölgə salmamalıdır”. Demək ki, dünya romançıları eyni məqamda birləşirlər. Bəs necə?! Özgələşmə çağdaş dünyanın gətirdiyi mövzudursa, onun həqiqətini də çağdaş dünyada aramalıyıq. Bu, insanı sürətlə robotlaşmağa aparan dünya düzəninə qarşı yazıçının çaldığı həyəcan təbilidir. Ötən il bu məqam nəsrin əsas düşüncə və inikas predmetinə çevrildi.

Yazıçı Qurban Yaquboğlu bu mövzuda yazdığı “Mən yoxam” romanında məsələyə daha geniş kontekstdə nəzər yetirməklə, onu nəsrimizin aktual vurğusuna çevirməyi bacardı. “Mən yoxam”! Əsərin adı belə çağdaş insanın zamanda yerini göstərmək baxımından simvolik sayılır. Nəsillərarası soyuqluq, qan qohumlarının yadlaşması, keçmişlə qırılan bağın gətirdiyi boşluq insanın həyatında mənəvi xaosun, nizamsızlığın zəmini olur. “Mən yoxam” romanında bir şəxsin düşüncələri, mənəvi aləmi ötən illərin yaddaş qarışımında açılır. Dünyanın faniliyinə köklənmək, ömrü boyu xatirə yığa-yığa qurulan ömür hekayətləri romanın sətirləri arasından ovuc-ovuc tökülür. Qurban Yaquboğlu indinin içində keçmişi konkretləşdirir, retrospeksiya mətnin struktur tərkibində zaman kateqoriyasının elementi, təhkiyə-diskurs səviyyələrində meydana qoyulur. Müəllif obrazları, onların müxtəlif tale yollarını, aqibət və yaşantılarını çərçivələnmiş nəql strukturunda birləşdirməyə nail olur.

Sərdar Aminin “Su sərgisi” romanında da əsas ideya insanı kökünə bağlamağa, inanc və ruh sisteminin bərpasına yönəlib. Modernləşdikcə ənənələrindən qopan, ruhu korlanan, robotlaşan, maddi-texniki dəyərlərə uduzan, tə-

biət başlanğıcını itirən, əvəzində hissizləşən, duyğuları öləziyən, günah girdabında çabalayan insanın durumu əsərin ideya-estetik, məzmun-problematika rakursunu, hərəkət ritmini müəyyənləşdirir. Əlbəttə, romanda qoyulan problemlər bununla bitmir, mövcud vəziyyətlər başqa, yan motivlər də törədir. Sərdarın yanaşması da fərqli rakurslarda təzahür edir: reallığı gah simvol və metaforlarla, gah da alleqorik vasitələrlə göstərir: eşşəklə dialoq, rəsmdəki maralın rəssamı öldürməsi, körpənin danışması və s.

Sərdar Amin "Su sərgisi" romanında çoxsaylı suallar qoyur, bir neçə hadisəni, mövzu çeşidini iç-içə yerləşdirir, onlara keçidin açarı isə arxetiplərdir. Roman son illər dünya romançılığında, eləcə də ədəbiyyatşünaslığında xüsusi aktuallıq qazanmış arxetipik motivlərlə zəngindir. Su, sirli məktub, gündəlik kimi arxetipik motivlərdən, retrospeksiya hallarından, dini-mistik və magik elementlərdən bədii vasitə kimi istifadə olunur. Qəhrəmanın yuxu və gerçəklik arasında vurnuxmaları, sayıqlamaları, zamanlar arasında get-gəlləri romana sistemli təsəvvürlərin və düşüncə modelinin bir mətnə yığıldığı universum kimi baxmaq imkanı qazandırır.

Əsər boyu təbiətlə insanın birgəliyinə köklənmək, ona qayıdış əzmi, bütövlüyün bərpasına çalışmaq kimi meylin önə çəkilməsi qədim insanın şüuraltısının dili ilə danışmasıdır əslində. Romanda bir çox arxetiplər transformasiyaya uğrayır, Sərdar bu arxetiplərin indiyə qədər bizə məlum olan təzahür şəkillərini dəyişir. Məsələn, müəllif oxucunun öyrəşdiyi müdrik qoca və onun nəsihət, öyüd vermək missiyasını körpənin üzərinə köçürür. Bu dəfə oxucu həyat dərsini körpənin dilindən eşitməli olur və maraqlıdır ki,

tərsinə çevrilmiş, travestik şəkil almış missiyanın təlqin etdiyi ideya da tərsinə olur. Yəni hadisələrin yalnız formal strukturu deyil, məzmun xarakteristikası da dəyişir: "Doğuluş kimi möhtəşəmlikdən ölüm kimi bədbinliyə gedən bu ömrə niyə tərsinə baxırsız? Niyə yaşa dolduqca müdrikləşdiyinizi düşünürsüz? Niyə? Bu gedişat böyük bir mürəkkəblik, qəlizlikdir. Siz inkişafa tərsinə qiymət verirsiz. ...Hər şeyi qəlizləşdirərək qopduğunuz vəhdətdən bir addım da uzaq düşürsüz. Əsl inkişaf batini sadəyə qayıtmaqdadır. Siz ən böyük möcüzələri mürəkkəbliyə vararaq, mürəkkəb analizlərlə deyil, ən sadə şeylərdə axtarmalısız, özündə insan düşüncəsini ovlayan bir şey olmayan sadəliklərdə".

"Su sərgisi" romanı asan oxunan roman deyil. Bu ağırlıq yəqin ki, yazıçı texnikasıdır. Yəni qəhrəmanın ağır, sıxıcı həyat tərzini Sərdar elə sıxıcı şəkildə qələmə almağa çalışır. Buna baxmayaraq, müəllifin bəzi hallarda mücərrədliyə varması, fikrin ifadə tərzində, sanki bilərəkdən qarışıqlığa təhriki uğurlu effekt vermir. Əksinə, mətndəki dərinliyin həzmini çətinləşdirir. Yazıçının tez-tez fəlsəfəçiliyə meyil etməsi, "xəyal qurmaq, arzulamaq və bununla göylərə potensialımızı xatırlatmaq" kimi fikirləri təkrarlaması əsərdəki dinamikaya mane olur. Digər iradım konseptuallıq məsələsi ilə bağlıdır. Müəllif çeşidli məsələləri bir yerə yığıb kiçik bir mətnin içində həll etməyə çalışır. Toxunulan problemlər şaxəli olduğundan bitkinlik yaratmaq cəhdi bütün hallarda alınmır. Sərdar çoxqatlı məsələlərin dairəsini cızır, amma bu dairələrin heç də hamısı qapanmır. Uğurlu alınanı da olur, hissə-hissə görünəni, natamam təsir bağışlayanı da.

Hər zaman qeyd etdiyim bir məsələ var. Elə mövzular var ki, nəsrə gətirilməsi lazımdır, vacibdir, önəmlidir. Məsələn, Azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyası (1948-53) mövzusu, repressiya, cümhuriyyət mövzuları və s. Ötən il Mənzər Niyarlının "Vətəndən vətənə" povesti ("Azərbaycan" jurnalı, 2019, № 10, 11) repressiya mövzusuna, qəribçilik həyatına diqqət çəkən əsər kimi nəsrimizdəki bu istiqamətdə mövcud boşluğu doldurmaq yönündə atılan çox uğurlu addımdır. Mövzu Mənzər Niyarlı yaradıcılığı üçün yad deyil. Müəllifin bu mövzuda yazılmış "Qara örpək" povesti hələ illər öncə bir çox məqamlara həssaslığı ilə diqqət çəkirdi. "Vətəndən vətənə" povesində mövzu şaxəlidir, əsas süjetdən törəmə xətlər ayrılır: repressiya dövrünün ağrıları, sürgün həyatı, məhv olmuş ailələr, gözü yolda qalan övladlar əsərdən keçən əsas motivlərdir. Üstəlik müəllif bura Kamal və Həlimə arasında sevgi motivini də əlavə edir. Povestdə İkinci Dünya müharibəsinin insanları aclıq, təkliklə imtahana çəkən dəhşətləri də yer alır. "Atası vətən xaini, sürgün həyatı sürən köçkünlər, kimsəsizlər üçün tikilən barakların birində əmisinin himayəsində yaşayan bir qız"... Bütün çətinliklərə rəğmən haqsız yerə casus adı ilə damğalanıb sürgünə göndərilən atasının yolunu gözləyən Həlimənin iç dünyası, sevən qəlbi, mənəvi vuruşları əsərdə əsas təsvir predmeti kimi mənalanır.

Hekayə. Ötən il hekayə ilə bağlı bir neçə müsabiqə keçirildi. Mir Cəlal adına beynəlxalq hekayə müsabiqəsi (qeyd edək ki, müsabiqənin seçilmiş hekayələri "Azərbaycan" jurnalının 6-cı sayında işıq üzü görmüşdür), Mahmud Kaşğarlı adına hekayə müsabiqəsi və s. Bu gün nəsrin ifa-

də vasitələrinə çox yeniliklər daxil olub. Hətta prozaya adlayan gənc yazarın qələmində belə bu yeniliklərə, forma mürəkkəbliklərinə meyil – şüur axını, fantasmaqoriyaya, retrospektiv sıçrayışlara aludəçilik qaçılmazdır və çağdaşlığın göstəricisi kimi zəruri elementə çevrilməyə başlayıb. Belə bir durumda Əlabbas, Meyxoş Abdulla, Yaşar Bünyad, Təranə Vahid, Kənan Hacı, Alpay Azər, Azər Qismət, Qanturalı və digərlərinin realist qələmlə mətnlər meydana qoyması təkcə yazıçının öz üslubuna, yazı və ifadə manerasına sadiqliyi deyil, həm də həyat gerçəklərinin onun nəzərlərində hələ də əhəmiyyətini saxlaması ilə ölçülməlidir. Bu yazıçıların hekayələri cəmiyyət gerçəklərinin təsviri, fikir konkretliyi və çağın qabarıq ideyaları üzərindədir.

Yazıçı Əlabbasın əvvəlki və yeni əsərləri arasında bədii həqiqətin inandırıcılığı baxımından kəskin fərq duyulmur. Onun hekayələrini birləşdirən və ayıran çox ortaq məqamlar var. Amma əsas məsələ budur ki, Əlabbas nəsrinin fokuslandığı müstəvi dəyişməyib, o, daha çox milli əyalət həyatına maraqlıdır, milli süjetə sədaqəti ilə seçilir, xalq dilinin qatları üzərində köklənir. Həyatın küncə sıxışdırdığı insanlarından yazır, onların ağrılarını, bu ağrıları yaradan səbəbləri təsvir predmetinə çevirir. Bu əsərlərdəki qəhrəmanlar ayrıldığı kənd üçün daim xiffət keçirən, şəhər həyatına heç cür alışa bilməyən, yaxud aldığı zərbələrin acısını, mənəvi sarsıntısını varlığında daşıyan insanlardır. Və bir də sosial problemlər səbəbindən cəmiyyətdə özünə yer tapa bilməyən, fəqət "məğlubiyyətlə öz içində barışan" qəhrəmanlar... Əlabbas nəsrində qəhrəmanların taleyini daha çox mühitdəki mənəvi tənəzzülün özü şərtləndirir.

Harda tənəzzül varsa, orda kama yetmək, yararlı insana çevrilmək işi müşkülə dönür.

Yaşar Bünyad nəsrimizə gec gəlsə də, ard-arda yazdığı hekayələrlə seçilə bildi, hazırkı səs çoxluğu, motiv və intonasiya qarışıqlığında özünün nəsr dili, nəql texnikası, mövzuya yanaşma özəlliyi ilə fərqlənməyi bacardı. Yaşar Bünyad insanların sosial problemlərini, yaşamaq uğrunda mücadiləsini, müharibə fəsadlarını günün təhkiyəsinə gətirməyə çalışır. Daha çox mənəvi dəyərlərin qürubunu bədii mətnlərində obrazlaşdırır və dəyərlərə baxışı dəyişən, ailə bağları qırılan, cəmiyyətə, doğulduğu məkana özgələşən fərdin problemlərini qabartmaq, saxta əxlaqi qaydalara, sosial normalara qarşı çıxmaqla fərqli bir dünyagörüşdən çıxış edir.

Görünür, meqapolisin problemləri artdıqca kəndə qayıdış sevdası daha qabarıq önə çıxmaqdadır. Özü də yazıçılarımız bu mövzunu daha səriştə ilə qələmə alırlar. Əlabbasın "Arvanada dəfn" hekayəsi də mövzunun uğurlu bədii həllini verən mətn idi. Yaşar Bünyadın "Quşlar qayıtdısa..." hekayəsində də müəllifin düşüncə sırası insan-təbiət münasibətlərinə qədər varır, atalar və oğullar problemi, laxlayan patriarxal dəyərlərə etiraz ruhu ilə bitkinlik qazanır.

Ümumiyyətlə, bu hekayələr dəyərlərin dayanıqlığına illüstrasiyadır. Qapalı ənənəvi dünya və onun insanları.. İnsanların doğulduqları yurda bağlılığı, ailə dəyərlərinə əhəmiyyəti, kökə, mentallığa sadiqlik əsas çalarlardır. Yazıçı bu dəyərlərdən və vəziyyətlərdən yola çıxaraq daha yan motivlərin törəməsinə yol açır. Sosial motivləri qabardır, özgələşmə məsələlərini diskursa çevirir, müharibə illə-

rinin dramatizmini önə çəkir.

Yaşar Bünyadın hekayələrində fərqli ovqat hiss elədim. Burada faciə, ağrı da var, satira çalarları da. Amma ən əsası, bunlara əlavə olunan və daha qabarıq görünən digər amil var: nikbinlik... Yazıçının əksər hekayələri işıqlı bir sonluqla, ümidlə sonuclanır. Ona görə yox ki, sovet dövrünün xoşbəxt sonluğa ürcah edilmiş əsərləri kimi bu, mütləq amildir. Sadəcə, nəsrin əsas təcəssüm predmeti olan insan konsepsiyasını yalnız qaranlığın təqdimi üzərində reallaşdırmaq birtərəfli baxışdır və öz polifonizmi və dərinliyi ilə xarakterizə olunan insan konsepsiyasını bədii mətndə reallaşdırmağa imkan vermir.

Çağımızın həqiqətidir, XX əsrin sonlarından başlayaraq ədəbiyyat ideya böhranı üzərindədir, dünyanı ağır ictimai-siyasi və mənəvi kataklizmlərindən xilas edəcək ali niyyət və ideallar zəminində idrak etməkdədir. Günel Şəmilqızının "Qəhrəman" hekayəsi bu mənada, bəşəriyyəti dəyişməyə yönəlmiş ideya ədəbiyyatının bir nümunəsi kimi təcəssümlənir.

Dünyanı az qala beş əsr cəzbində saxlayan "Don Kixot"u yenidən yaratmaq şövqü… İlk baxışdan, dekonstuktiv meylin alt qatında postmodernist oyun effektinin olduğu güman edilə bilər. Amma Günel Şamilqızı qəhrəmanın düşdüyü bu "oyuna" elə fərqli anlamlar qazandırır ki, burada milli lokal problem çeşidindən tutmuş, ümumən XXI əsr insanının aqibəti, xarakteri, durumu kontekstində davam tapır.

Hekayənin dili çəkicidir, Günel mətni ağır konsistensiyadan məhrum edib sadələşdirir, əsərin ideyasını dolğun şəkildə ifadə etməyə nail olur. Təhkiyənin arxa planında

qlobal dünyanın neqativlərinə, feminizmə işarəyə, özgələşmə faktını vurğulamaya, bir sözlə, çağın İnsanını bütün əhatə, aqibət spektrində inikasına yer var. Müəllif əsərdə qəhrəmanların həyatında baş verən ziddiyyətin səbəbini uçurumlarda axtarır. Gerçəklər və həqiqətlər, reallıq və xəyal arasındakı uçurumda. Servantesin "Don Kixot"u ətraf mühitin yaratdığı uçuruma yuvarlanıb məhv olur. Günelin qəhrəmanının uçurumu mənəvi uçurumdur. Don Kixot nə üçün savaşdığını bilmədən savaşırdı, yeni dövrün qəhrəmanları Don Kixot olmağa çalışmırlar belə. Daxili istək, həvəs yerini çoxdan çöküş ruhuna tərk etmişdir. Hekayədə ağılla cəmiyyət arasında yaranan mənəvi uçurum diqqət mərkəzinə çəkilir. Günel insan idealı ilə ictimai varlıq arasında yaranmış dərin ziddiyyəti hekayənin ideyasının əsasında duran məğlubiyyətin rəmzi kimi ümumiləşdirməyi bacarır. Daxili istəyindən xətt çəkən insanın düşdüyü acınacaqlı vəziyyəti əsərin süjetini təşkil edən əsas motiv kimi qiymətləndirir.

Orxan Fikrətoğlunun ötən il çap olunan hekayələrində klassik nəsr problematikasının – müsəlman fanatizminin ironik planda aktuallanması, Orta əsr dini təfəkkürünün diriliyinə işarələr yer alır. Məsələn, müəllifin "Dəccal" hekayəsinin düşüncə aktı birbaşa bu olmasa da, kontekst, həm də vurğuladığımız məqamdan keçir. Lakin uğur mətndə motivasiyasını tapan həyat hekayətinin seçilməsində deyil, bütünlükdə struktur məzmunu və kompozisiya əhatəliyindədir. Müəllif bir neçə janr elementindən istifadə edir: satirik tərzdə başladığı hekayəni getdikcə dram, sonra isə faciə hüdudunda yanaşı gətirir. Molla Qafarın daxili-psixoloji halları, gərginliyi, ruhsal-mənəvi təlatümləri

müxtəlif bədii vasitələrlə açılır: qəhrəmanın düşüncələrində irəli-geriyə dönüm sıçrayışları, fləşbəklər və s. Təhkiyənin tonu da dəyişkən, oynaqdır: təmkinli tərz getdikcə gərginləşən ifadə planı ilə əvəz olunur.

Mübariz Cəfərlini daha çox problematika – yetkin şüur, özünü dərk edən fərd məsələləri düşündürür. Yazıçının ötən il "Azərbaycan" jurnalında çap olunan hekayələrində müəllif irfan düşüncəsi, insanın katarsis prosesini ideal və real təzahürlərində mətnə gətirməyə, dərinlərinə varmağa çalışır, ruhla cismin bağlılığı ideyasını təcəssüm etdirir.

Elçinin son dövr nağıllar adı altında təqdim etdiyi hekayələrdə predmet, təsvir ünvanı nəbatat, heyvanat aləmi – ağac, kol, quş və s. olsa da, təhkiyənin arxasında həyatın özü, duyğular aləmi, insan görünür. Yazıçı günü-gündən ucuzlaşan, dəyərini itirən bu dünyada sevgi mövzusunu daha fərqli düşüncə sferasında təqdim edir, insana dair ali hisslər ağaclar, quşlar üzərinə köçürülməklə, orijinal bədii interpretasiyada təqdim olunur.

Bu məqamda bir məsələyə də diqqət yetirməyə dəyər. Milli həyatımızın təzadları ədəbiyyatımızın daxili məzmununa çevrilə bilirmi? Bunu yazıçıların özləri dəfərlərlə belə izah ediblər: indi həyat ədəbiyyatı geridə qoyur, baş verən reallıqlar sənətdəki reallığı üstələyir. Bəlkə bu gün yazıçının, şairin darıxmağı, depressiyaya düşməsinin səbəbi budur? Həyat acılarını dəf edə bilməmək? Axı ədəbiyyat həm də işığı tapmaq və ora tuşlanmaq sənətidir...

Poeziyamızda da daha çox eyni obraz funksionaldır. Düzdür, müəyyən istisnalar var, hətta ənənəvi mövzu rakurslarından yanaşsaq, burada vətən, sevgi, Tanrı bağlı şe-

irlərin patetik ifadəsindən tutmuş, romantik-lirik qəhrəmanın sızıltılarına qədər hər növ yanaşmaların olduğunu görəcəyik. Məsələ də məhz bunda, yanaşma fərqindədir. Belə ki, bu gün yeni estetika vəd edən, fərqli forma və ideya məfhumlarının uğurlu sintezini yaradan Hədiyyə Şəfaqət, Orxan Bahadursoy, Fərid Hüseyn, Könül Arif, İntiqam Yaşar, Tural Turanın şeirlərinin qəhrəmanı qarşısında İlham Qəhrəmanın ötən il çap olunmuş "Ağlama, qələm eşidir" kitabında xalq şeiri müstəvisində meydana çıxan mətnləri, Faiq Hüseynbəylinin sevən, mənəvi-ruhi-ilahi məxrəcə köklənən romantik fiquru, Rəbiqə Nazimqızının qadın yaşamını, onun sosial statusunu yeni təqdimat formasında görükdürən nümunələri heç də aciz görünmür. Yaxud Şəhriyar del Geraninin "Mənim ixlasım" və "Setara" şeirlərində, Ümid Nəccarinin "Qaranlığın fotosu" kitabında, Emin Pirinin "Venesiyaya məktublar"ında, Ulucay Akif və Eminqueyin son dönəm mətnlərində ehtiva olunan mədəniyyət qatının gücü həm də onunla əlamətdardır ki, şeirin stixiya ilə deyil, özünəqədərki poetik-estetik təcrübəsini şair "mən"inə adlatmağa nail olur.

Poema janrı ilə bağlı meydanda olan boşluqdan əvvəlki məruzələrimdə də dəfələrlə çıxış etmiş, bunun səbəblərini şərh etməyə çalışmışam. Ötən il bu istiqamətdə müəyyən addımlarla yadda qaldı. Nəriman Həsənzadənin milli qəhrəmanımız Mübariz İbrahimova həsr etdiyi "İstiqlal əsgəri", Sona Vəliyevanın "Səmərqənd – "Gur Əmir"də düşüncələr" və "Səmərqənddə Usta Əlinin türbəsi önündə" adlı lirik poemaları janrın, xüsusilə tarixi mövzunun poetika axtarışlarının istiqamətini ifadə etməyə imkan yaratdı. Bu gün poema janrı müəyyən nümunələr timsalında keç-

mişimizin miyqaslı hadisələrinə yenidən qayıdır, tarixi şəxsiyyətlərimizin obrazını, şanlı türk epoxasını yaradan sərkərdələrin daxili güc və əzəmətini lirik-epik janrın sınağında təcəssümə çalışır.

"Səmərqənddə usta Əlinin türbəsi önündə" poeması daha həzin hissin təzahürü kimi doğulub. Burada Səmərqənd sevgisinə Təbriz həsrəti və yanğısı əlavə olunub. Onu da qeyd edim ki, biz bu mövzuya Sovet hakimiyyəti zamanında daha həssas idik. Müstəqillikdən sonra Cənub mövzusu sanki ikinci dərəcəli məsələ kimi unudulmağa başladı. Bunun çox səbəbləri var əlbəttə. Qarabağ acısı, müharibənin ard-arda gətirdiyi problemlər sırası, üstəlik dünyada baş verən kataklik və fəci proseslər Təbriz kimi milli ağrımızı mərkəzdən periferiyaya itələdi. Bu mənada, Sona Vəliyevanın "Səmərqənddə usta Əlinin türbəsi önündə" poeması yaddaş lövhəsidir. Burada türk tarixi ilə, onu yaradanlarla öyünmək əzmi də var, bu tarixi yaradan insanların iç acılarına enmək həssaslığı da.

Tənqid və ədəbiyyatşünaslıq. Keçən il Azərbaycan tarixinin birinci cildi hazırlanıb işıq üzü gördü. Müstəqillik dövründə yeni baxışla meydana qoyulan bu kitab şifahi xalq ədəbiyyatını, qədim dövrü öyrənmək baxımından əvəzsiz mənbədir. Ədəbiyyat tarixinə yeni baxış, onu inkişaf yollarının və mərhələlərinin elmi-nəzəri və obyektiv tərzdə təhlilə cəlb olunması məsələsi ötən il akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" elmi-nəzəri tədqiqatı ilə bağlı davamlı yazdığı məqalələrdə prioritetə çevrildi. Cavanşir Yusiflinin "Formanın müqəddəs sirri" adlanan yazılarında, Nizaməddin Mustafanın "Səhv nəzərləri sərf-nə-

zər etmə vaxtı” adlı silsilə mətnlərində tədqiqatların əsas mündəricəsi oldu. Eləcə də bəzi müəlliflərin yazılarında predmetə baxışın çağdaşlığı müqabilində ədəbiyyat tarixi ilə bağlı bir çox məsələlər öz həllini və müəyyənliyini tapmağa nail oldu. Məsələn, “Ədəbiyyat qəzeti”ndə təqdim olunan Niyazi Mehdinin “Janr kodlarının kodlaşdığı iki Azərbaycan”, Rahid Uluselin “ Ənəlhəq”, Azər Turanın “115 yaşlı “Hali-vətən”, “Poeziyamızın mifi – həpsi rəngidir”, “Şerim sonsuz, fikrim fəzalar qədər dibsiz – Mikayıl Rəfili”, “Azərbaycan” jurnalının birinci və ikinci saylarında çap olunan Qorxmaz Quliyevin “Kontekst və kod” məqalələri kimi mətnlər ədəbiyyatımıza yeni, fərqli baxışın nümunələridir.

“Ədəbiyyat qəzeti”nin müzakirə saatında diskurs predmetinə çevrilən “Azərbaycan Cümhuriyyəti: tarixi, siyasi və ədəbi-fəlsəfi aspektləri ilə”, “Repressiya: gizlin və gerçəkləri ilə”, “Cənubi Azərbaycan ədəbiyyatı: tarixdən bu günə” kimi müxtəlif mövzulu məsələlərin şərhində məqsəd ötən illərin prosesində hansı durulmalar getdiyini, onun dərki, idrak və şərh üsullarında baş verən köklü dəyişmələri ortaya çıxarmaq oldu. Tarix ondan aralandıqca keçmişə daha uzaq və uca nəzərlərlə baxışın predmetinə çevrilməlidir. Əks təqdirdə, bizə qalan ya yerində saymaq olacaq, ya da abidə sənətkarımıza və sərvətlərimizə uzanan əl və dil haramzadalığına baxıb köks ötürmək. Bizim olanlara sahib çıxmasaq, ərazimiz kimi tarixi-etnik yaddaşımızı da itkilərə məruz qalmaq təhlükəsi gözləyir. Bu baxımdan şərqşünas alim Səadət Şıxıyevanın ötən il “Ədəbiyyat qəzeti”ndə “Azərbaycan şeirinin qərib səhifələri” adı ilə təqdim etdiyi silsilə yazıları milli ədəbiyyatımızı

bütün tərəfləri ilə görməyə, tanımağa imkan yaradan mətnlər kimi estetik özünüdərk faktıdır. Orta əsrlər Azərbaycan şeirinin tədqiqi və təbliğində mövcud problemlərə toxunan bu məqalələrdə Səadət xanım tutarlı faktlar, qaynaqlara istinadən anadilli Azərbaycan poeziyasının divan və fəlsəfi şeirinin bünövrəsinin qoyulmasında xidmətləri olan hürufi şair Rəfii, Qənbəroğlu və Xoca Dehhanidən Azərbaycan ədəbiyyatının nümayəndələri kimi bəhs edir.

Anarın beşcildliyinin ilk cildi kimi nəşr olunan "Söz dünyası" kitabı bütöv ədəbi epoxanı əyaniləşdirən yazıları içinə almaqla konkret zaman görüntülərinə fokuslanır, burada ədəbiyyat tarixi, klassika və çağdaş nümunələrin kəsb etdiyi mahiyyət və ölçülər təcəssümlənir. Belə də olmalıdır, Anarın söz dünyası yazdıqlarının içərisindədir, onu yaşatmağın, bugünün ixtiyarına verməyin yolu bu mətnlərin cəmiyyətin intellektual dairələrində rezonansını və mənasını tapmasından keçir.

Ötən il AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun təsisçisi və baş redaktoru olduğu "Tənqid.net" jurnalının 12-ci sayı (2016-2017) işıq üzü gördü. "Müstəqil Azərbaycanın müstəqil ədəbiyyatı və müstəqil ədəbiyyat elminin 25 illiyinə" həsr olunan jurnalda əsas hədəf cari ədəbi prosesə müxtəlif aspekt və baxış bucaqlarından nəzər yetirmək, müstəqilliyin yaratdığı imkanlardan açılan mənzərələri, fikir və ideya dünyamızı, düşüncə arsenalımızı görükdürmək idi.

Bayaq qeyd etdik ki, ötən il yubileylər ili kimi yadda qaldı. Ötən il ədəbi tənqiddə də yubiley ab-havası yaşandı. Görkəmli yazıçı Mir Cəlalın 110 illiyi ilə bağlı "Azərbaycan" jurnalının dördüncü sayında Nizami Cəfərov, İntiqam

Qasımzadə, Nəriman Həsənzadə və Təyyar Salamoğlunun məqalələri yer aldı. Vaqif Yusifli, Azər Turan, Cavanşir Yusifli, Rüstəm Kamal, Məti Osmanoğlu və İntiqam Qasımzadənin yubiley yaşları ölkə mətbuatında geniş qeyd olundu. Adı gedən şəxslərlə bağlı meydanda mötəbər söz səsləndirmək əzmini də elə tənqidçilərin özləri nümayiş etdirdi. Diqqət edək: Elnarə Akimovanın "Vaqif Yusifli – ədəbiyyatımızın isti qanı", "Rüstəm Kamalın ədəbiyyat dili", "Məti Osmanoğlunun yaddaş və zaman mətnləri", "Cavanşir Yusifli – ən gözəl tale adamı"; İradə Musayevanın "Əşyaların ruhunu görən adam" (Rüstəm Kamal haqqında), "İntiqam Qasımzadə və yaxud: sonuncular...", "Ədəbi tənqidimizdə Vaqif Yusiflinin yeri"; Rüstəm Kamal haqqında Nizami Cəfərovun "Miqyaslı və obyektiv", Azər Turanın "Böyük sirrin yenidən oxunuşu", Məti Osmanoğlunun "Sözün o üzündəki gerçək", Tehran Əlişanoğlunun "Rüstəm Kamal haqqında xəyalat"; Məti Osmanoğlu haqqında Rüstəm Kamalın "Ədəbiyyatın dilini bilən adam"; Azər Turan haqqında Rüstəm Kamalın "Azər Turan həqiqəti", Vaqif Yusiflinin "Türk düşüncəsinin irfan çobanı" məqalələri və s. ədəbi tənqidin daha çox təhlil və müqayisə məqamlarını önə çəkməklə bərabər, dünənlə bu günün təcrübələrinin qarşılaşdırılmasının üzərinə vurğu salmaq, ədəbiyyat tarixi, tənqid, ədəbi proses barədə daha geniş elmi-nəzəri təsəvvürlər əldə etmək cəhdi ilə önəmli görünürlər.

Kamal Abdulla ötən ildən başlayaraq, "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Əvvəl-axır yazılanlar" essesi ilə janrın dinamikliyinin qorunmasını təmin edir. O, narrativi mifin, antik dövr mədəniyyətinin içində qurur, nəzər

nöqtəsini həmin qatdan müxtəlif dövrlərin ədəbiyyatına və şəxsiyyətlərinə, deyək ki, Füzuli, Cavid, Ə.Haqverdiyev sənətinin fəlsəfi-estetik mahiyyətinə adladaraq psixi-altşüur, duyğu-təəssürat laylarına, mistik çevrələrə daxil olmağa, yaradıcı şüur, təxəyyül üzərində kəşflər aparmağa çalışır.

Əlbəttə, indi esse janrının inkişafı ilə bağlı problem yoxdur. Əksinə, daha çox şaxələnib, mövzu və əhatə spektri genişlənib, estetikası və poetik biçimi dəyişib. İndi hər hansı əsərin, filmin təhlili daha çox esse janrının tələbləri çərçivəsində baş tutur. Məsələn, tənqidin baxım tərzi, rakursunu, ifadə-dil mənzərəsini yeniliyə kökləyən Mətanət Vahidi, Ülvi Babasoyu, son instansiyada - ədəbiyyatda yeni olmasına baxmayaraq, düşünmə və ifadəolunma tərzinə görə seçilən Cahan Seyidzadəni, Rəvan Cavidi, Orxan Həsənini göstərə bilərik ki, yazılarında sənət, mətn, sözün və insanın taleyi haqqında fəlsəfi çevrə yaradır, bugünün nöqteyi-nəzərindən, praqmatikası baxımından şərhinə varırlar.

Son zamanlar yazıçılarımızın ölkəmizdən kənarda qazandığı uğurlar ədəbiyyatımızın təbliği baxımından çox əhəmiyyətlidir. Elə təkcə Varisin vasitəsilə ötən il ard-arda gözəl xəbərlər aldıq. Rusiya Federasiyasının Soçi şəhərində Avrasiya materikinin “LiFFt-2018” ədəbiyyat üzrə üçüncü festivallar festivalının baş mükafatına layiq görülməsi sevindirici faktlardandır. Kamran Nəzirli illərdir Belorusiya ilə qarşılıqlı əməkdaşlığı davam etdirir. Yazıçılarımızın əsərləri Türkiyə, Moskva, Misir, Almaniya, Amerika və başqa hüdudlarda çap olunur. Elçinin “Baş” romanı Misirdə nəşr olundu. Sabir Rüstəmxanlının ötən il iki

kitabı Almaniyada çap olundu. Qəşəm Nəcəfzadənin Moskvada müxtəlif dillərdə kitabları işıq üzü gördü.

Gənc şairlər – Fərid Hüseynin ötən il çap olunmuş "Səmərqənd divanı"nın Özbəkistanda keçirilmiş təqdimatı poetik fikrimizin yayılma arealının genişlənməsinə şahidlik edən nümunədir. İntiqam Yaşar, Tural Turanın Özbəkistanla qurduğu əlaqə və bu əlaqələrin davamlı olmasını göstərən xəbərlərin təqdimi yeni nəsil ədəbiyyatımızın sabahı ilə bağlı perspektiv vəd edir.

Amma bu məqamda bir məsələyə toxunmağın yeri var, düşünürəm. Dünyanın hər yerində mənbə kimi qəbul olunan nəzəriyyə kitabları mövcuddur. Bizdə isə belə kitabların tərcüməsi hələ meydanda yoxdur. Eləcə də milli ədəbiyyatımızda seçilən elmi-nəzəri mətnlərin, dünya ədəbi-fəlsəfi cərəyanların təhlilini verən məqalələrin, düşüncə və fikir intibası yaradan nümunələrin tərcümə edilib Qərbə inteqrasiyasını stimullaşdırmaq gözəl olmazmı? Tərcümə Mərkəzimiz bu cür vacib məqamları nəzərə alsa, elmi-nəzəri arsenalımızın sınırlarını genişləndirmiş olar. Məsələn, bu yaxınlarda Rasim Qaracanın rəhbər olduğu "Alatoran" yayınlarında Qorxmaz Quliyevin tərcüməsində Mişel Fukonun "Sözlər və nəsnələr" (Humanitar elmlərin arxeologiyası) kitabı işıq üzü gördü. Bu, əsl mədəniyyət hadisəsidir. Peşəkar əsər, peşəkar tərcümə və səviyyəli nəşr! Belə tərcümələri mümkün qədər çoxaltmaqla ədəbiyyata səmərə verə bilərik. Yoxsa "dünya ədəbiyyatı" deyibən bir ox ətrafında firlanmaqla deyil ki. Gərəkdir ki, bunun çağdaşlığını, təzahürlərini də verəsən.

Müxtəlif dillərə tərcümədən danışdıq. Həm də ədəbiyyatın dili birdir, deyirik. Tərcümənin vacibliyi də bu birgə-

liyi duymaq, ortaq estetik məhvərdə görüşmək üçün vacibdir. 1982-ci ildə Bakıda keçirilən məşhur beynəlxalq konfransın adı belə adlanırdı: "Ədəbiyyatın dostluğu, xalqların dostluğudur"! Bu fikir əbədidir, heç zaman gücünü itirməyəcək. Ötən il Karlos Fuentesin belə bir fikrini oxumuşdum: "Əgər mən öz mədəniyyətimin bacardığı hər bir şeyə, əsasən də məqsədlərinə, fəaliyyətinə bağlıyamsa, onda sivilizasiyaların toqquşması erasında yaşayırıq, tezisini qəbul edə bilmərəm. Çünki beynimdəki bütün sivilizasiyalar mənimdir. Onlar dalaşmırlar, danışırlar, bir-birilə söhbətləşirlər, ruhumun lap dərinliklərində ünsiyyət qurur, həm sevincin, həm də kədərin nisbiliyini, geri düşsə də, həmişə mövcud olacaq olanı (mənim qədimi Yerli və İslam mədəniyyətlərimi) qucaqlayır, özünü əbədi sayana (varlığımın qərbli, xristian izlərini) sahib çıxırlar. Və bütün bunların görüşdüyü nöqtələri – hamımızın içindəki söz, düşüncə, yaddaş və fantaziyaya xeyir-dua verməyin lazımlılığını anlamaq üçün mübahisə edirlər. Bizdən istəyirlər ki, sivilizasiyaların dialoquna qoşulaq və tarixin sonunu inkar edək. Biz son sözümüzü söyləmədikcə, tarix necə sona çata bilər?"

Ədəbiyyat tarix və insanın "son" problematikasından qurtulması üçün var olmalıdır! Hər şeyin bir sonu olsa da, tarixin sonu mədəniyyət yaradanların əli ilə dayandırıla bilər! Çünki Romen Rollana inansaq, "yaratmaq ölümü öldürmək deməkdir"!

Tehran ƏLİŞANOĞLU
AMEA-nın müxbir üzvü

2018-Cİ İL: ƏDƏBİ TƏNQİD REFLEKSLƏRİ

Çox hörmətli Xalq yazıçısı və tənqidçi Elçin 27 fevral 2019-cu il tarixində AYB-nin Natəvan zalında ədəbi tənqidə dair "Məsuliyyətimizi nə üçün janrın boynuna atırıq?" vurğusu altda məruzə ilə çıxış etdi. Məruzə üç məqalə şəklində "525-ci qəzet" və "Ədəbiyyat qəzeti"ndə (2, 8, 16 mart 2019) çap olundu və rəsmi ədəbi dairə və instansiyaları həmişəki təki bir yel olub silkədi. Bugünlərdə məruzə kitab şəklində də (Bakı, "Təhsil", 2019) çıxdı. Zira Elçinin zaman-zaman "tənqidi tənqid" çıxışlarının başlıca önəmi də bu: hər vaxt bizi "ol uyqudan bidar" etmədə... Elçin bu dəfə də tənqidçiləri ətalətdə qınayırdı və Sözə, Ədəbiyyata münasibətdə ədalətə çağırırdı. Zira məsuliyyətimizi janrın boynuna atmayaq!

Əslində, heç atmaq imkanımız da yox… Əgərçi bir az metafizikasına dalsaq, Elçinin özünün də daim "bidar" bu qəbil çıxışları daxil olmaqla, belə görünür ki: bizdə "tənqiddən şikayət" bir növ onun (janrın) yaşama və hərəkət düsturuna çevrilmiş. Məsələn, "Tənqid.net"in 2016-2017-ci illəri əhatə edən 2018-ci ildə çapdan çıxmış 12-ci sayından belə bir passaj: "Belə. Onlar tənqidə yox dedi. Amma biz vardıq: V.Yusifli, C.Yusifli, bir də mən... Onlar tənqidə yox dedi. Biz bir az da çoxaldıq: V.Yusifli, C.Yusifli, Ə.Cahangir... bir də mən. Onlar tənqidə yox dedi. Biz yenə də vardıq: V.Yusifli, C.Yusifli, Ə.Cahangir, B.Əlibəyli, Nərgiz Cabbarlı... və mən. Onlar tənqidə yenə yox deyir...

R.Kamal: “Azərbaycanda şairlər nə qədər desən, tənqidçi istedadı isə tək-təkdir...” V.Yusifli, C.Yusifli, E.Akimova, Nərgiz Cabbarlı, İ.Musayeva... bir də mən”.

Etiraf edim: Elçinin ədəbi tənqidimizin son 30 illik mənzərəsinə “bir nəzər” yetirən məruzəsində (ikinci adı belədir: “Tənqidimiz və ədəbi prosesimiz ətrafında bir neçə söz”) müəyyən qədər kədər notları da duydum; nədən ki, nədən biz hələ də, hələ də ədəbi-tənqidi gəlişmədə sosrealizmin alternativini yarada bilməmişik, deyək ki, Vissarion Belinskidən Rolan Barta adlayammamışıq... (Məruzədən: “...bu gün Belinski kimi yazmaq olmaz – fikri zaman faktorunun vacibliyindən, hətta mən deyərdim ki, mütləqliyindən doğur və bu, elə həqiqətdir ki, mübahisəyə yer yoxdur...”) Amma insafən, oxucuların diqqətinə çatdırmağa hazırlaşdığım, haman o 30 ilin lap son – 2018-ci il ədəbi yekunlarına dair məqaləmdə mən həmin bu kədər ovqatını heç vəch bölüşə bilməyəcəm; açığı, müstəqillik havasının ağzına alıb gen-bol gətirdiyi hər növ “tənqid refleksləri” bu fürsəti mənə vermir...

Aydındır ki, məruzədə Elçinin tam obyektiv “qınağı” (və kədəri!) məhz bu “gen-bolluq” stixiyası içərisində Ön mövqeyin, ədəbi tənqidin Öncül platformasının görünməməsi, bilinməməsi, sərgilənməməsi səbəbinədir. Necə ki, bir zamanlar 60-cıların estetik platforması Ön mövqedən sosrealizmi yenirdi, 70-80-ci illərin modernist müstəviləri hər gün bir yeni Ön mövqe nümayiş etdirirdi... Ön mövqe narahatlığı 1990-cı illərin olduqca nigaran “müstəqilliyə keçid” əhvali-ruhiyyəsində də qorunub- saxlanırdı (təkcə elə Elçinin “Ədəbi proses: olum və ya ölüm” silsiləsini yada gətirmək bəsdir) və hətta 2000-ci illərin əvvəllərinin

təklif etdiyi kəskin mövqe savaşlarında da təslim olmaq istəmirdi (bircə elə Elçinin "ədəbiyyatda lümpenləşmə"yə qarşı "Vaysman xəstəliyi" silsiləsini anmaq kifayətdir)...

Sual olunur. Bu gün kimdir öz tənqidçi imicini, "tənqid platforması"nı məhz ədəbi prosesin (oxu: Ədəbiyyatın!) Ön cəbhəsi, Ön mövqeləri, Ön manifestləri, Ön tələbləri iddiası-sevdası-həvəsi... cidd-cəhdi ilə quran, yeridən, ardıcıl gəlişdirən?

Bəlkə bir az bunu "Ədəbiyyat qəzeti"nin baş tənqid yazarı Elnarə Akimova haqqında söyləmək olar. Ötən il ərzində moderatorluğu ilə ədəbiyyatın müxtəlif problemlərinə dair "Dəyirmi masa"ların təşkili ("Repressiya: gizlin və gerçəkləri ilə" – 20, 27 yanvar 2018; "Azərbaycan Cümhuriyyəti: tarixi, siyasi və ədəbi-fəlsəfi aspektləri ilə" 17, 24 fevral 2018 və s.), diskursiv hekayə axtarıcılığı, uğurlu nəsr və poeziya nümunələrinin ardıcıl təfsir və təhlili, müxtəlif gündəm mövzularını aktuallaşdırması və günün təklif etdiyi ən müxtəlif müsabiqələrdə irəli çəkilmiş ekspert mövqeyi... Doğrudur, bəzən Elnarə xanımın intensiv tənqid fəaliyyətində gündəlik qəzetçilikdən gələn bir "peşə avtomatizmi", normativ ritual notları da yox deyildir, amma tənqidçinin ədəbiyyatımızın son yarım əsrlik estetik təcrübəsindən çıxış edərək, ədəbi prosesi ardıcıl gəlişdirmək əzmi də danılmazdır... Bu belə.

Bir az da bu mövqeni bəlkə tənqidçi Nərgiz Cabbarlının "Azərbaycan" jurnalında dürüst, səliqəli, gündəm vurğuları yerli-yerində ədəbi müsahibələri ("Ölkədə kitabları ən çox satılan üç yazıçıdan biri – yazıçı Varislə", "Azərbaycan", № 9, 2018; "Çalışmaq və irəliyə ümidlə baxmaq – akademik İsa Həbibbəyli ilə", "Azərbaycan", № 10,

2018 və s.) və roman əndişələrində ("Müasir roman: həqiqətdən simvolikaya", "Azərbaycan", № 6, 2018) görə bilərik. Nərgiz Cabbarlı tənqidində məxsusi fərqli mövqe iddiasında olmasa da, son onillər ədəbi prosesinin sorumlusu, sıra "Yeni nəsil ədəbiyyatı" kitablarının müəllifi kimi, şəksiz ki, göz qabağında, üzərinə düşən məsuliyyət və borc duyğusu ilə daim Ön sıralarda səriştə nümayiş etdirir... Bu da belə.

Tənqidçi İradə Musayevanın bir zaman əvvəl mentor ədası ilə bütünlükdə çağdaş ədəbiyyatımıza dərs vermək həvavü-həvəsi ötən il xeyli səngidisə də (görünür ki, Elçinin "525-ci" və "Ədəbiyyat qəzeti"ndə "Söz azadlığı tənqidimizə nə verib?" silsilə tənqidi təsir və təpkisini göstərmiş – bax: Tənqid.net, № 12, 2016/2017), tənqidçinin "böyük ədəbiyyat" cəfakeşliyi ilə Ön cəbhə açmaq ehtirasları, şəksiz ki, nəzərdən qaçmadı. İradə Musayeva "böyük pərişanlıq"dan sonrakı (yada gətirək Elçinə cavab məktubunu) depression enerjisini, əvvəlki gücdə olmasa da, ötən il daha çox ədəbiyyatın sosial şəbəkə "qara sevdalıları" ilə bölüşdü, paylaşdı...

Və bir də Elçinin, məruzəsində əvvəldən-axıra polemika etdiyi Əsəd Cahangirin "alilər xaki-məzəllətdə...", ədəbiyyatda durmadan "böyük hadisələr" araçılığını yapan başdan-başa "polemik cığallıqlar" tənqidi... Gərək ki, vəssalam.

Bütün bu cidd-cəhdləri, tənqidçi Elçinin özünün də janrın məsuliyyətinə çağıran usanmaz çabaları daxil, alqışlamalıyıq, əlbəttə. Amma bir daha, bir daha Elçin "kədəri"nə hali olaraq ki, hazırda ədəbi prosesdə Ön dəyər axtarışları (Belinski mövqeyi) çox da səmərə vermir...

Yeri gəlmişkən, bu sıradan Vaqif Yusifli tənqidinin "Belinski statusu" barədə polemikada mən də Elçinin tərəfindəyəm ki: tənqidçinin məhsuldar fəaliyyətində "Belinskinin ədəbiyyat təəssübkeşliyi, Belinski səriştəsi, Belinski zövqü və intuisiyası dəyişməzdir" bəlkə də; ötən il 70 yaşını bayram etmiş Vaqif Yusifli həmişə olduğu kimi, yenə də "Belinski kimi öz ədəbiyyatına xidmət etmək, onu qaldırmaq" səylərini qətiyyən səngitmir (təkcə elə il ərzində "525-ci qəzet"də, "Ədəbiyyat qəzeti"ndə, "Ədalət"də, "Azərbaycan" və "Ulduz" jurnallarında tənqidin gündəlik Sizif əzabını çəkməsini göstərmək bəs edir). Amma deməzdim ki, bir zamanlar 1970-1980-ci illərdə və hətta 1990-2000-ci illərdə olduğu təki, tənqidçinin "belinskiçilik" şövqü, ədəbi tənqiddə Ön mövqe iddiası və israrları eynən dəyişməz qalır; əksinə, indi prosesdə "belinskiçilik" iştahında olanlar daha çox onu bu "mərəz"də suçlayanlardır. Vaqif Yusifli tənqidçi ömrünün müdrik çağlarını yaşayır və o işləri görür, o yazıları yazır ki, ədəbiyyatımızda ondan özgəsi, istəsə də indən belə o əlçatmaz yerlərə gedib çatammayasıdır. Vaqif Yusiflinin son illərdə qələmə aldığı "Ədəbi əyalət" sırasından yazılar və ayrıca kitabları ("Bölgələrdə ədəbi həyat", Bakı, 2017; "Şabranda ədəbi həyat", Bakı, 2019); məxsusən ötən il "Köhnə kişilər" silsiləsindən Əkrəm Cəfər, Qulam Məmmədli, İmamverdi Əbilov, Məmməd Cəfər, Qılman İlkin, Ənvər Məmmədxanlı, Əli Səbri və s. "uzaqlar"a işıq salan portret-oçerkləri təkrarsız mətnlərdir. Bu ki, Vaqif Yusifli özü də indi tənqidimizdə "köhnə kişilər"dən sayılır...

"Tənqid.net"in 12-ci sayından daha bir passaj yerinə düşür: "Belə. Tənqiddə hər aşiqin öz dövranı. Son sovet,

milli varlığın restavrasiyası dövrü – n.cəfərov; müstəqilliyə keçid dövrü – t.mustafayi; əsrin əvvəlləri qarışıqlıq dövrü – ə.cahangir; sonrakı diletantizm dövrü – c.yusifli... Bütün dövrlər – v.yusifli. Və Azər-turançılıq – R.kamal və "qadın tənqidi". Perpetium-mobile..." Bəzi həmkarlarımın yanlış yozumlarına rəğmən, hədəfimdə zəmanənin sürəkli dəyişkənliyidir. Belə ki, Belinski statusunda, ya Rolan Bart tərzində tənqidin ədəbi prosesdə klassik yeri, funksiyası: *seçmə-ayırma, mühakimə yolu ilə ədəbi faktları, hadisələri, əsərləri, ümumən ədəbiyyatı dəyərləndirmə* missiyası dəyişmir; intəhası həssas olarsaq, müstəqilliyimizin otuz ili ərzində ədəbi prosesin özünün strukturu, necə deyərlər, poetikası dəyişmiş. Ədəbiyyatda, ədəbi prosesdə olduğu kimi, tənqiddə də Öndən Mərkəzə doğru bir sürüşmə baş vermiş; ədəbi tənqid missiyasını *Ön dəyər axtarıcılığından (haradasa oralarda, "olmadığımız yerlər"də) daha çox Mətnin (Ədəbiyyatın) dərinliklərinə – "sirr axtarıcılığı"na* yönəltmiş...

***

Biz də (yerimizi) dəyişək. Ötən ilin "ədəbi proses və tənqid" müstəvisini ən çox işğal edən imzalardan Kamal Abdullanın, Nizami Cəfərovun, Cavanşir Yusiflinin, Rüstəm Kamalın, Məti Osmanoğlunun, Azər Turanın baxış bucaqlarını sürəkli gördük, izlədik, ədəbiyyatımıza təsir imkanlarının şahidi olduq...

Bir zamanlar Asif Əfəndiyev tənqidinin küncə sıxışdırıldığından bəri bizdə esselər sanki əlahiddə, ədəbi-tənqidi prosesə "əlavə", "haşiyə" olaraq alt-yaddaşa ötürülmüşdü;

amma Kamal Abdullanın otuz il ərzində, habelə 2018-də bir daha intensivləşmiş "Əvvəl-axır yazılanlar"ının, bir anlıq düşünsək, ədəbiyyatımıza baxış tərzi və oxucu zövqünün nə qədər dəyişdiyinin fərqindəyikmi?! Qərb dəyərlərinə mükəmməl bələd olan ədib, amma "tənqid məxrəci"ni XVIII əsrdən, şərqli Hacı Mir Həsən Ağanın "sirlər kitabı"ndan quraraq, ədəbiyyatımızı uğurla modern üfüqlərə daşımaqda... "Hacı Mir Həsən ağa Səyyah. Sirlərin sərgüzəşti. Hicri 1056. V risalə. Payız fəsli... Bu yazı tərzi Hacı Mir Həsən ağaya xas cəhətdir. Digər əsərlərində də o, bu tərzdən yer-yer istifadə edib. Müəllif, sanki müxtəlif dəyişmələr vasitəsilə mahiyyəti daha dərindən görmək istəyir və beyninin bütün qırışlarını işə salır. Amma nəyə nail olur – bilinmir. Mahiyyət yenə də və əbədiyyən dəyişməz qalır..." ("Ədəbiyyat qəzeti", 8 mart 2019-cu il)

Nizami Cəfərov çox yazır, çox şeydən yazır; dildən, dindən, türkologiyadan, milli şüurdan, aristokratiyadan, etnoqrafiyadan, o cümlədən yeri düşdükcə günün ədəbiyyatından; ötən il akademikin həm də əzəlki illər tənqidini ehtiva edən "Ədəbiyyat söhbətləri" (Bakı, "Elm və təhsil", 2018) çap olundu. Nizami Cəfərovun tənqidinin "məxrəc"i ədəbiyyatın içində(n) deyil ki, daha geniş məcrada türk, islam, Şərq, Qərb dəyərlərini həzm etmiş, özündə qapsamış milli mədəniyyətin, ideologiyanın, Azərbaycançılıq məfkurəsinin bətnində(n) qurulmuş, otuz ildir usanmadan, habelə ötən ilin yazılarında ədəbiyyatı da bu çətir altına daşıyır, geniş oxucu auditoriyalarının malı edir. "... yox, tamamilə başqa Tanrı – Türk Tanrısıdır ki, onun ən azı I minilliyin ortalarından (ən çoxu isə e. ə. III minillikdən) gələn konkret etnoqrafik tarixi var. Və bununla belə, türklərin

dünyanın müxtəlif dinlərinə (və İnsanın Tanrı axtarışlarına) ehtiramının təzahürüdür ki, həm Azərbaycan dilində, həm də Azərbaycan poeziyasının dilində Tanrı tək deyil, Tanrı-Təla var, Allah var, İlahi var, Haqq var, Xuda var, Pərvərdigar var, Yaradan var... Yaradana etiqad var, yaradılana hörmət var...” (“Şairin Tanrı sevdaları” məqaləsindən, “Ədəbiyyat qəzeti”, 28 aprel 2018)

Cavanşir Yusiflinin ötən il 60 yaşı tamam oldu; “Ədəbiyyat qəzeti”ndə Elnarə Akimovanın layiqli yubiley yazısından bir passajı sitat gətirmək istəyirəm: “90-cı illərin dəyişən tarix və zaman keçidində dəyərlərin qorunmasında, ədəbi tənqidin formalaşmasında, onun yeni düşüncə vüsəti ilə dolğunluq qazanmasında Cavanşir Yusiflinin xidməti böyükdür. O zaman sovet xərabələri altından dikələn yeni dövr tənqidi üçün bu təhlillər qeyri-standart, klişelərdən arınmış səciyyə kəsb edirdi. Günün tənqidi içindən baxanda onlar qəribə, özgə və yad idi, amma bu çağımızdan baxanda aktuallığı və orijinallığı göz önündədir. Avropa elmi-nəzəri düşüncəsinin hərəkət trayektoriyasının, estetik müəyyənliyinin yeni dövr tənqidimizin idrak və təhlil müstəvisinə gətirilməsində Cavanşir Yusifli mətnləri miqyaslı missiya daşıyıcısıdır...” (“Ədəbiyyat qəzeti”, 29 sentyabr 2018). Belə ki, hazırda Cavanşir Yusifli ədəbiyyata xidmət və tənqidçi ömrünün zirvəsini yaşayır; ötən il təkcə elə “Ədəbiyyat qəzeti”nin az qala hər sayında yazıları getmiş. Məxsusən, “Formanın müqəddəs sirri” nəzəri-tənqidi silsiləsi, əslində, elə tənqidçinin digər yazılarını da içinə alır. Yazılarında “tənqid məxrəci”ni Cavanşir Yusifli oxucuya özü, aşkar təklif edir; bu, hər bir mətnin içində gizlənən hər hansı nəzəri başlanğıcdır, həmin mətn-

yaradıcı "nəzəriyyə nöqtəsi"ndən predmeti "sökə-sökə" tənqidçi bacardıqca oxucuya, oxucu içinə açılmağa yönəlir; zira nəzəriyyəsiz oxucu ilə təmas qayətdə bietibar olar. Cavanşir Yusiflinin söykəndiyi, şəksiz, modern Qərb nəzəri fikridir, amma ustalıqla həmin arsenalı milli ədəbiyyatın təhlili metodologiyasına çevirə bilir. Bu baxımdan ədəbiyyat tariximizdə Qasım bəy Zakirin yerinə işıq salan "Formanın müqəddəs sirri: ayrılan yollar" ("Ədəbiyyat qəzeti", 15 dekabr 2018), yaxud Məmməd Araz şeirinin poetikasını açan "Şeirdə şahmat oyunu" ("Ədəbiyyat qəzeti", 13 oktyabr 2018) məqalələri, mənimcə, tənqid klassikamıza yozulası yazılardır. C.Yusifli haqlıdır: "Kəskin çevrilmə anında ədəbiyyatın "özünüqoruma refleksi" işə düşür. Çevrilmə anında yaddaş itmir, əksinə, daha dərinləri fəhm etmək naminə mötərizə arasına alınır, dövrün, zəmanənin aparıcı ideyasını, daxili refleksiyasını fərqli biçimlərdə ifadə edir. Bu istiqamətin tam şəkildə aparıcılığını təmin etmək üçün qopub ayrıldığı ənənəyə münasibətdə "düşmənçilik işarəsi" boy atıb cücərir..."

Tənqidçi qələmini XX yüzilin modern nəzəriyyələrinə kökləyən imza sahiblərindən biri də Məti Osmanoğludur. 2018-də Məti Osmanoğlunun da 60 yaşı tamam oldu və ədəbiyyatşünas-tənqidçi yubiley yaşını çox gözəl, gərəkli kitablarla – Platondan Yaşar Qarayevəcən seçmə mətnlər çevirdiyi və təqdim etdiyi "Ədəbiyyat nəzəriyyəsi. Müntəxabat" (Bakı, "Kitab klubu", 2018), "ədəbi fraqmentlər"dən ibarət "Sözün o üzündə" məqalələr toplusu (Bakı, "Kitab klubu", 2018) və lap bugünlərdə çıxmış S.Vurğun, Y.Səmədoğlu və V.Səmədoğluya həsr olunmuş "Ocaq yeri" kitabları ilə qutladı. Nəzəriyyə kitabları barəsində xoş

sözləri mütəxəssislərə tapşırıb, deməliyəm ki, həmin platformalar tənqidçiyə ilk növbədə günün ədəbiyyatına gözlənilməz baxış bucaqları gətirmək şansı vermişdir. Bunu Məti Osmanoğlunun il boyu "Ədəbiyyat qəzeti"ndə dərc olunan tənqid məqalələrində ("An və əbədiyyət", "Sözün zamanla dialoqu: deyilənlər və deyilməyənlər", "Ölüm xoşbəxtlikdirmi?" və s.) görürük; məxsusən də Mixail Baxtin nəzəriyyəsi ilə silahlanıb "Komsomol poeması"nın çağdaş oxucu üçün yenidən-kəşfi ("Təhkiyə, müəllif və oxucu" // "Ocaq yeri", Bakı, 2019, s.3-38) buna bariz nümunə ola bilər.

Bizim bugün nəzəriyyə sahəsində effektiv çalışan Qorxmaz Quliyev, Asif Hacılı, Ülviyyə Rəhimova kimi ədəbiyyatşünaslarımız var, Qərb nəzəriyyələrini ədəbi prosesin ixtiyarına verən çalışmaları ədəbi tənqid haqqında xətti təsəvvürləri də (ədəbiyyatşünalığın üç ölçüsü və üç tərkib hissəsi) alt-üst etməyə kömək edir. Ötən il Qorxmaz Quliyevin "Ədəbi cərəyanlar və istiqamətlər" (Bakı, AU, 2018) və Asif Hacılının "XX əsr ədəbi düşüncələr tarixi (xatirələr, manifestlər, konsepsiyalar)" (Bakı, AU, 2018) kitabları bu zəmini daha da möhkəmlətdi; bu məqamı da buraxaq nəzəriyyəçilərin ixtiyarına. Bununla yanaşı, önəmlidir ki, Qorxmaz Quliyev son illərdə nəzəriyyə arsenalından passajları milli ədəbiyyat üzərinə düşüncələrlə geniş feysbuk şəbəkəsinə gətirir, müntəzəm paylaşır və modern ədəbi təsəvvürlərin demokratikləşməsinə böyük təkan verir...

Elçinin "Tənqidimiz və ədəbi prosesimiz ətrafında bir neçə söz"ündə ədəbi tənqiddən umduğu daha bir iş klassik irsin (o sıradan sovet dövrü əsərlərinin) varislər tərəfindən

yenidən yozumu və günün ədəbi prosesinin mühakiməsinə verilməsidir. Hər bir tənqidçinin çalışmalarında az və ya çox qədər mövcud bu məqam məxsusən Rüstəm Kamal tənqidinin "məxrəci"ni təşkil edir. Tənqidçi bir müddət əvvəl "Güzgü günü" kitabına (Bakı, "Çaşıoğlu", 2017) topladığı esse yaradıcılığını 2018-ci ildə də davam etdirir; əsasən "Ədəbiyyat qəzeti"ndə ardıcıl dərc olunan: "Əbdürrəhim bəyin qəstinləri", "Bağlarımızın poeziyası, poeziyamızın bağları", "Mir Cəfərin qara maşını", "Mirzə Cəlilin tanatoqrafiyası", "Əbdürrəhim bəy və pasport", "Oyunçu", "Şeytanbazar: itirilmiş yaddaş yeri", "Alo, Müşfiq", "Xoşbəxtlər" və s. yazılarında Ə.Haqverdiyev, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, A.Şaiq, M.Müşfiq, S.Vurğun, S.Rüstəm, M.Hüseyn, S.Rəhman, R.Rza, X.R.Ulutürk, V.Səmədoğlu, Elçin kimi klassiklərin irsini bir böyük Mətnin – milli ədəbiyyatın məhz bugünə açılan mənzərələri kimi oxumağa çalışır və bu zaman yazıçı şəxsiyyəti, bioqrafiyası, yanaşma və üslubunun izləri Rüstəm Kamalın iti və səhih müşahidələrindən mətnin (və böyük Mətnin) görünməmiş tərəfləri və effektlərini üzə çıxarır. Tənqidin "Belinski ölçüləri"ndən yorulub "Rolan Bart tərzi" axtaranların nəzərinə məgər Rüstəm Kamal cidd-cəhdləri misal ola bilməzmi?!

***

Gəlirik ədəbi proses və tənqidimizdə Azər Turan faktoru və onun "Ədəbiyyat qəzeti" üzərinə. Günün ədəbiyyat mənzərəsində *Tənqidin sözü*nü deməyə cəhd edən ədəbi proses subyektləri çoxdur, amma bu məramda-mənzilədə,

şəksiz ki, "Ədəbiyyat qəzeti"nin tayı-bərabəri yoxdur. Az əvvəl qeyd etdiyim kimi, hazırda ədəbi həyatımızda gəlişməni düzxətli (Ön – Mərkəz – periferiya) təsəvvür etmək olmur; ədəbi proses ayrı-ayrı dairələrə, çevrələrə bölünmüş, çox-köklü, çox-mərkəzli olmaqla, hər birisi də günün ədəbiyyatını təmsil etmək iddiasındadır... "Tənqid.net"in 2018-ci ildə çıxmış 12-ci sayında ədəbi-tənqidi prosesi cəmiyyət(d)ə yeridən "mərkəzləri" akademik ölçülər səviyyəsindən tanıtmağa cəhd etdik: "AYB və ədəbi 525", "Yaradıcılıq Fondu və Simsim.az", "AYB və Ədəbiyyat qəzeti", "Kulis.az", "Kaspi və artkaspi.az" və s. Bu instansiyaların hər birisi günün ədəbiyyatını fərqli oxuyur və dəyərləndirir. Məsələn, "525-ci qəzet"də ədəbiyyata və AYB-yə sədaqət əsas ölçü vahididir; təbii, burda otuz ilin ədəbiyyat stixiyasını izləyən, saf-çürük edən, nəzarətə götürə bilən Rəşad Məcid kimi AYB katibinin dəst-xətti görünür... Simsim.az-da ədəbi tənqid bölməsinə heç ayrıca yer ayrılmamışdır; amma Kamal Abdullanın, Qismətin, Rəşad İlyasovun, Mehman Qaraxanoğlunun və digərlərinin tənqidmətnləri ümumən modern fon yaradır və ədəbi prosesi də məhz bu kontekstdə qəbul və həzm edir... Kulis.az başdanbaşa ədəbiyyat stixiyası içərisindədir; və tənqid refleksiyası da pozitivi-neqativi ilə, həmin stixiyanı qəti cilovlamadan, görükdürməyə yönəlmiş... Artkaspi.az-da tənqidi prosesi intensivləşdirən maraqlı layihələr, müsahibələr yer alır; məxsusən Fərid Hüseynin "Sevdiyim əsər" layihəsi əksərən klassik mətnlərin yenidən oxunuşuna, gündəmə gəlməsinə səbəb olur.

"Ulduz" jurnalının bircə ədəbi tənqid layihəsi var; amma ki, uğurludur, il boyu peşəkar tənqidçilər, ədəbiyyatşü-

naslar, yazıçılar jurnalın əvvəlki sayının materiallarını tənqidi süzgəcdən keçirir, "yaxşı nədir, pis nədir" qaydasında prosesə qatır. 2018-ci ildə "Ulduz"un lokal ədəbi prosesi elə buradaca, tanınmışlar: Nizami Tağısoy, Natiq Məmmədli, Vaqif Yusifli, Pərvin, Rahid Ulusel, Nərgiz Cabbarlı, Şəfa Vəli, Abid Tahirli, Rüstəm Kamal, Ələmdar Cabbarlı, Buludxan Xəlilov, Məti Osmanoğlu tərəfindən izlənmiş, birmənalı olaraq bəyənilmişdir. Jurnalda ardıcıl yer tutan daha bir layihə - "Özüylə söhbəti və yazısı (şeirləri, hekayəsi)" müxtəlif imzaları mətnlərində(n) tanıtmaqla yanaşı, ədəbiyyatı və "ədəbiyyatda özü"nü dəyərləndirmə notları da daşıyır, fərqli baxışlara diqqət cəlb edir...

"Azərbaycan" jurnalında ədəbi tənqidin mövqeyi həmişə dar olub, ədəbiyyatşünaslıqdan sonra gəlir; Vaqif Yusiflinin ardıcıl tənqid və Qəşəm Nəcəfzadənin poeziya yazıları, Südabə Ağabalayevanın ara-sıra ədəbi esseləri də bütövlükdə jurnalın kifayət qədər zəngin 2018-ci il "tənqid materialları"nı ədəbiyyatşünaslığın kölgəsindən çıxara bilmədi. Neçə il əvvəl Əsəd Cahangirin müavin statusunda jurnala gətirdiyi polemik əhval-ruhiyyəni hesaba almasaq, "Azərbaycan" sanki daima sakit-salim, kənarda, məhz "öz ədəbi prosesi"nə üstünlük verir...

Habelə, bu və ya digər məqamlarda "Ustad" və "Sənət.az", "Axar.az", "Avanqard.net", "Yazı", "Manera.az", "Modern.az" və s. kimi dərgi və saytların ədəbi-tənqidi prosesə düz və çarpaz qatılmalarını da xatırlatmaq olar. Amma bütün bunlarla belə, "Ədəbiyyat qəzeti"nə qayıdaq; günün ədəbiyyatını bütövlükdə oxumağa çalışan və bizim də oxuduğumuz baş "ədəbi proses kitabı", təkrar edirəm: şəksiz ki, "Ədəbiyyat qəzeti"dir. Qətiyyətlə demək olar,

bu gün AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun akademik ədəbiyyatşünaslıq pilləsində gördüyü işin müqabilini "Ədəbiyyat qəzeti" ədəbi-tənqidi proses səviyyəsində həyata keçirir...

"Fb düşüncələrim"dən daha bir sitat: "Belə. Azər-turançılıq... Anar-izm hərəkatı, Ayo-çuluqdan sonra ədəbi prosesdə gəlib-gəlişən növbəti ciddi dalğa..." (Tənqid.net, 12, 2016/2017). Bəzən yanlış yozulan həmin mülahizədə son otuz ilin ədəbi-tənqidi prosesində köklü fikir və mövqe gəlişmələrini qeydə almışam. Azər Turan günün ədəbiyyatında missiya daşıyıcılığını öhdəsinə götürmüş şəxsdir; bunu onun bir zaman əvvəl çapdan çıxmış kitabı da göstərmişdi: "XX əsr – Fəryadın metafizikası" (Bakı, "Elm və təhsil", 2017). Azər Turan tənqidinin "məxrəc"i hələ 110 il öncədən, Əlibəy Hüseynzadənin mədəni turançılıq hərəkatından gəlir; esselərində tənqidçi böyük mütəfəkkirin gördüyü və görmək istədiyi modern gəlişmələri çağdaş Azərbaycan üfüqlərində arayır, təsbit edir, göstərir. Eyni zamanda, təqribən iyirmi il əvvəl "Yeni Azərbaycan" qəzetində başlatdığı həmin istiqaməti baş mühərriri olduğu "Ədəbiyyat qəzeti"ndə hərəkata çevirməyə cəhd edir... Bütünlükdə Qərb parametrləri ilə, Azərbaycan miqyasında, bu, bir modernizm hərəkatıdır və heç də paralel, çarpaz, ya alternativ digər mövqeləri inkar etmir... Şəxsən mənimcə, bütün ifratlarına baxmayaraq, AYO-nun əsrin əvvəllərində irəliyə doğru qəfil sıçrayışlı post-modern manifestasiyaları yanında bu dalğa geriyə-çəkilmədir... Amma belə görünür ki, zəruri addımdır...

Neyləyəcəyiz; olanı söyləyəcəyiz, əlbəttə. Hardadır bu gün AYO-nun simasında "geriçi dünya"da irəliyə tələsən

geniş solçu mövqe və ideyalar? “Alatoran”ın 18 sayı və beş o qədər də “Alatoran yayınları”... – bir zamanlar “yox” yerdən böyük rezonans qoparıb, “azad yazarlar” platforması yaradanlar yeraltı (andeqraund) küncə sığınıb bu gün bir kərə yüksəltdikləri bayrağın hesabını və hesabatını çözməyə məşğul... Az qala otuz il öncə Azad Yaşarın və Rasim Qaracanın bir əyalət şəhərində başlatdığı “sərbəst düşüncə estetikası” bir az Həmid Herisçidə, Murad Köhnəqalada bulaşıb, bir az Şərif Ağayarda, Qan Turalıda, Mirmehdi Ağaoğlu və s.-ində dolaşıb, Zahir Əzəmətin Kult.az-ında, Qan Turalının Kulis-ində, Qismətin Simsim.az-ında müəyyən kanonlaşma cəhdi edib, hazırda heç cür təmərküz nöqtəsi tapa bilmir, daha da çox “sərbəst düşüncələr ölkəsi” – sosial şəbəkələrdə adiləşir, kütləviləşir, utilitarlaşır... Bəlkə bircə Nərmin Kamalın Azərbaycan – dünya arası gəzişən iki-Dilli yazılarında o Sərbəstliyi hələ yenə də görə bilirik... Bu əsnada Rasim Qaracanın ötən il işıq üzü görmüş “Zülmətdə bir Alatoran” avtobioqrafik romanı (Bakı, “Alatoran”, 2018), Seymur Baycanın “Mənim mübarizəm” publisist kitablar silsiləsi və Azad Qaradərəlinin “Renessans həsrəti” sırasından ikinci kitabı (Bakı, “Alatoran”, 2018) böyük maraq kəsb edir; ən müxtəlif epizod, hadisə, esselər və “yazıçı tənqidi”ndə ədəbi proses gerçəkləri ilə üz-üzə gələn ideya mücahidlərinin barışmaz obrazı özlüyündə həm də bir xiffət notlarını qapsayır...

***

Azər Turan “Ədəbiyyat qəzeti”ndə başlatdığı (davam bulduğu) estetik hərəkatı, hər hansı sərbəstlikdən yox, top-

lumun harda(n)sa sıxılmış modern yaddaşından qurdu. Əslində, belə demək olar: bu gün "Ədəbiyyat qəzeti" 60-cılar hərəkatından start götürən modern estetikasını bütün genişliyi ilə sərgiləməyə, bu zəmində milli ədəbiyyatın fakt və gerçəklərini dünya ədəbi prosesinin ötüb-keçmiş kontekstinə yerləşdirməyə məşğuldur; qapalı mühitin uzun sürən, hər növ mənasız, xırdaçı təzyiq və qadağalarından ən nəhayət qurtulub, modern yanaşmalar qəzetin səhifələrində, necə deyərlər, məlum "yetmiş il"in acığına müstəqilliyin dadını çıxarır...

Milli ədəbiyyatda modernin total qələbəsinə nail olmaq üçün Azər Turan yüngülünə-ağırına baxmayıb, bir çox layihələrə eyni zamanda meydan vermiş. Bir yandan, kütləvi janrda maarifləndirici yazılar il ərzində dünya modernizm ədəbiyyatı klassiklərini yada salırsa (bu istiqamətdə: Murad Köhnəqala, Kənan Hacı, Əyyub Qiyas, Azər Qismət, Xuraman Hüseynzadə, Günel Eyvazlı, Mirmehdi Ağaoğlu, Mətləb Ağa, Sərdar Amin, Bəsirə Əzizəli, Nərmin Cahangirova, Günay Rzalı və s. imzaların prosesə aktiv cəlb olunduğunu görürük), eyni zamanda qəzet modern sənət kontekstini də gözləməyə çalışır (Azər Turanın sənət esseləri, İlham Rəhimlinin teatr tarixi, Niyazi Mehdinin fəlsəfə, Ziyadxan Əliyevin rəssamlıq, Əlisəfdər Hüseynovun kino sahəsində ardıcıl yazıları, Sevda Sultanovanın "Ekranlaşdırılmış bədii əsərlər", Samirə Əşrəfin "Dördüncü divar" layihələri və s.); bu növ işlər daha da professional səviyyədə bizdə hələ 1970-ci illərin "Qobustan"ında(n) başlamışdır. Həmin zəmində bəs çağdaş ədəbiyyatımız necə görünür: Hədiyyə Şəfaqətin "Əsərini danışdır" layihəsində, Nuranə Nurun çağdaş ədiblərlə ardıcıl yaradıcılıq

söhbətlərində, Samirə Əşrəfin "Kürsü"sündə müsahibələr yolu ilə son illər ədəbiyyatına nəzər salınır və "Ədəbiyyat qəzeti"nin səyi ilə müstəqillik illərinin şair və yazıçıları danışır, çağdaş ədəbiyyatımızı, öz ədəbi mövqeyini təqdim edir, dəyərləndirirlər (Əlabbas, Seyran Səxavət, Məmməd Oruc, Orxan Aras, Əlizadə Nuri, Salam, Qurban Yaquboğlu, Qulu Ağsəs, Qəşəm Nəcəfzadə, Fəxri Uğurlu, Həmid Piriyev və b.-ları).

Günün ədəbiyyatını başqa necə dəyərləndirmək olar ki; 2018-ci il ərzində Anarın, Elçinin, Kamal Abdullanın, Mövlud Süleymanlının, Musa Yaqubun, Vaqif Səmədoğlunun, Nəriman Həsənzadənin, Nüsrət Kəsəmənlinin, Çingiz Əlioğlunun, Çingiz Abdullayevin, Vaqif Nəsib Sarıoğlunun, Vaqif Bayatlı Odərin, Əjdər Olun, Səfər Alışarlının, Əlabbasın, Ramiz Qusarçaylının, Ağacəfər Həsənlinin, Avdı Qoşqarın, Dəyanət Osmanlının, Zahid Sarıtorpağın, Kamran Nəzirlinin, Meyxoş Abdullayevin, Orxan Fikrətoğlunun, Natəvan Dəmirçioğlunun və b. yazıçı və şairlərin yaradıcılığı, yaradıcılıq portreti, əsərləri ən müxtəlif ədəbi tənqid janrlarında "Ədəbiyyat qəzeti"nin təhlil süzgəcindən keçir, görünür, şərh olunur.

Anarın 80 illiyinə (10 mart 2018), Elçinin 75 illiyinə (5 may 2018) həsr olunmuş qəzetin "Xüsusi buraxılış"ları çağdaş ədəbiyyatımızın iki aparıcı sənətkarının yaradıcılıq portretinə, ümumiləşmiş şəkildə "60-cılar" ədəbiyyatına geniş baxış və çoxtərəfli dəyərləndirmə aktı olmaqla yanaşı, çağdaş ədəbi tənqidimizin də gücünü, səriştəsini, səviyyəsini ortaya qoydu. Eyni sözü qəzetin AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illiyinə (9 noyabr 2018) və İnstitutda sürəkli davam edən "Ədəbi proses

hərəkatı”nın son beş ilinə (2 iyun 2018) həsr olunmuş “Xüsusi buraxılış”lar barəsində də söyləmək olar...

Yazıçı sözünə qəzetdə böyük dəyər verilir və bu özünü “yazıçı tənqidi”nin daha da intişarında göstərir. Ölkənin baş yazarı Anarın, yazıçı Elçinin, şair-publisist Sabir Rüstəmxanlının, şair Məmməd İsmayılın il boyu doğma qəzetdə məqalələr dərc etdirməsi, AYB-nin katibi İlqar Fəhminin ardıcıl yer alan publisist traktatları (məsələn, “Şərq arxetipləri kitabından” – 13 yanvar; 3, 17, 31 mart; 21 iyul 2018; “Qızılbaş mistikası, Səfəvi metafizikası kitabından” – 17 fevral 2018; “Fəna – “mən”sizlik”: incəsənət və ədəbiyyat müstəvisində”, 7 iyul 2018; “Milli ənənələr, kütləvi mərasimlər. Dünəndən bu günə və bu gündən sabaha atılan körpü” silsiləsi, 27 oktyabr, 3 noyabr 2018) ruhunu qaldırmaqla yanaşı, modern Qərb dəyərlərini “çırtlayan” qəzetin milli-türk-Şərq – Azərbaycan kontekstini daha da gücləndirir. Anarın “Türkçülüyün banisi” (3 mart 2018), “Dilimizi yaşadanlar” (31 mart 2018), “Koroğlu – Goroğlu” (14 aprel 2018), “Özbəkistan görüşləri” (18 avqust 2018), “Tahir Salahovla söhbət” (8 dekabr 2018); Elçinin “Koroğlu ölməzliyi” (8 sentyabr 2018), “Maarifçiliyin klassiki Henri Fildinq haqqında bir neçə söz” (1 dekabr 2018), Məmməd İsmayılın “Qürbətin bircə adı var, o da qürbətdir” (31 mart 2018), “Yatağını dəyişən çay kimisə həyatın” (28 aprel, 2018), Sabir Rüstəmxanlının “Tanıdığımız və tanımadığımız Dağıstan” (13 oktyabr 2018), “Sabir Əhmədlinin evi” (15 dekabr 2018) və s. məqalələr bu qəbildəndir...

“Ədəbiyyat qəzeti”ndə “ədəbiyyatşünas tənqidi” ənənəvi olaraq geniş yer tutur, ədəbi-tənqidi prosesin profes-

sional qatını gücləndirir. 2018-ci ildə akademik İsa Həbibbəylinin, akademik Muxtar Kazımoğlunun, professor Nizaməddin Şəmsizadənin qəzetdə mütəmadi çıxışları milli epos, folklor, ədəbiyyat tarixi mətnlərini müasir elmi təfəkkürün fərqli zirvə məqamlarından görməyə imkan verdiyi kimi, çağdaş ədəbi proses materiallarını da həmin elmi müstəvilərin tələbkar kontekstində dərk etməyə stimul yaradır. İl ərzində qəzetdə adıçəkilən tənqidçi və ədəbiyyatşünaslardan başqa, habelə Təhsin Mütəllimov, Qəzənfər Paşayev, Şirindil Alışanlı, Məmməd Əliyev, Bədirxan Əhmədli, Hüseyn Həşimli, İslam Qəribli, Asif Rüstəmli, Rahid Ulusel, Abid Tahirli, Nizami Tağısoy, Baba Babayev, Rafiq Yusifoğlu, Himalay Qasımov, Təyyar Salamoğlu, Əlizadə Əsgərli, Tofiq Məlikli, Mahirə Quliyeva, Tahirə Məmməd, Səadət Şıxiyeva, Pərvanə Məmmədli, Salidə Şərifova, Mərziyyə Nəcəfova, Səyyad Aran, İsmixan Osmanlı, Safurə Quliyeva, Mənzər Niyarlı, Sərxan Xavəri, Mətanət Vahid və b.-ları çağdaş ədəbiyyatın hadisələri, faktlarına dair çoxsaylı məqalələr dərc etdirmiş, ölkənin "ədəbiyyat gücü"nü nümayiş etdirmişlər. XX əsr ədəbiyyatının Mir Cəlal, Rəsul Rza, Nigar Rəfibəyli, Əlağa Kürçaylı, Mirzağa Quluzadə, Çingiz Aytmatov, Qabil, Samət Əlizadə, Nahid Hacızadə, Teymur Bünyadov, Teymur Əhmədov, Ağalar Mirzə, Xaliq Koroğlu, Arif Əmrahoğlu, Əşrəf Veysəlli, Məmməd Kazım, Yusif Həsənbəy və b. simaları haqqında yazılar prosesdə milli ədəbiyyatın ənənə ruhunu hiss etməyə kömək etmişdir.

Belə bir incə müşahidəmi də bölüşmək istərdim. "Ədəbiyyat qəzeti"nin baş yazarı Azər Turanın və baş tənqid yazarı Elnarə Akimovanın uğurlu fəaliyyət tandemi

qəzetin can atdığı geniş ideya üfüqlərini və eyni zamanda praktik proses gerçəklərini üzvi birləşdirməyə imkan verir. Azər Turan tənqidinin modern ehtiraslar "məxrəci"ndə köklənən esseistik tembrinə bir diqqət edək: "Azərbaycanın gücü" (31 mart 2018), "Və yazarsan adını rəsmin bir köşəsinə" (Jak Preverin bir şeirindən qanadlanan azadlıq essesi – 7 aprel 2018), "Sonuncu Yeni – Şəhriyar del Gerani" (28 aprel 2018), "Caz, sadəcə, musiqi deyildir..." (23 iyun 2018), "Dünyanın Cavad mifi – Azərbaycan modernizmi" (21 iyul 2018), "Ayrılıqların sürreal mənzərəsi" (Ümid Nəccari haqqında esse, 11 avqust 2018), "Ədəbiyyatdan Vətən yaradanlar (Özbəkistan qeydləri)" (24 noyabr 2018)... Eyni zamanda həmincə saylarda Elnarə Akimovanın analitik "məxrəc"də "Hekayə diskurs kimi" layihəsinə həssas olsaq: "Hekayə diskurs kimi: "Dəli Bəybala" (31 mart 2018), "Hekayə diskurs kimi: "Dəccal" (7 aprel 2018), "Hekayə diskurs kimi: "Qan azlığı, yaxud ölən uşağın xatirələri" (28 aprel 2018), "Hekayə diskurs kimi: Vaqif Nəsib – "Səbri səbri" (23 iyun 2018), "Hekayə diskurs kimi: Şərif Ağayar – "Cəfər əmimin yolları" (21 iyul 2018), "Hekayə diskurs kimi: İlqar Fəhmi –"Qardaş qanı" (11 avqust 2018), "Yaşar Bünyadın hekayələri diskurs kimi" (24 noyabr 2018)... – əksinə, ədəbiyyatın təqdim etdiyi prozaik mənzərələrin şahidi olarıq. Maraqlı burasıdır ki, göylə yerin, romantik nisgillə realist praqmatikanın, analitika ilə esseistikanın yanaşılığı, bəhsləşməsi, gizli və aşkar savaşı, həm Azər Turan – Elnarə Akimova dialoqunda, həm də qəzetin ümumi yaradıcılıq fonunda il boyu davam edərək, özünəxas bir dekadans mühitinə açılır...

Azər Turan redaktor kimi yeni fikrə, gözlənilməz ra-

kurslara, təzə yanaşmalara açıq birisidir. Çəkinmədən ədəbi gəncliyə meydan verir; ötən il də yazılarını oxuduğumuz Sərdar Amin, Günel Eyvazlı, Cahanxanım Seyidzadə, Xatirə Nurgül, Günay Rzalı, Pərviz Seyidli, Təvəkgül Baysunar imzalarının ədəbi-tənqidi publisistikada ayaq açıb yeriməsi məhz "Ədəbiyyat qəzeti"ndən başlanır. Qəzetdə Ülvi Babasoy, Narqis, Nicat Həşimzadə, Şəlalə Göytürk kimi ədəbi-tənqidi fikirdə yeni, aktual və orijinal rakursdan qələm işlədən istedadlı gənclərin ardıcıl görünməsi ədəbi prosesin donuq nöqtələrini tərpədib, günün xeyrinə, ab-havanın xeyli dəyişməsinə şans verir. Adətən gənclərin baxışlarında mətnlə birbaşa, xam təmas, özünəqədərki fikirlərdən sərbəstlik sözünü deyir; böyük Mətndən xəbərsizlik – üstünlüyü olduğu kimi, gənclərin həm də zəif yeridir. Bəzən olur ki, hətta təkcə velosipedi yox, təzədən lap helikopterlər də ixtira edirlər, amma məhz böyük Mətnə girəmədiklərindən konkret mətnin ətrafında dolanıb qalırlar...

Ədəbiyyatda olanı "dekonstruksiya" cəhdləri yalnız gənc imzalara xas "zirəklik" sayılmamalıdır... Deyək ki, gənc Nicat Həşimzadə "Coys narahatlığı, Mirzə Cəlil üsyanı" essesində (24 noyabr 2018) Mirzə Cəlili bir kənara qoyub, bir xeyli "Coys və mən" müstəvisində fikir qafalaşması etdikdən sonra bu qərara gəlir ki, hər halda Mirzə Cəlil də "şərəfli və faydalı iş"ə məşğul imiş... Bunu yozuruq Nicatın cavanlıq haqqına; modernizm ehtirasları bəzən yaxını qoyub özünə "uzaq yaxınlar"da dəstək axtarır... Onsuz da bu gün ədəbi prosesdə Mirzə Cəlil mövzusu dəbdədir və kimsə irsdən nə bacarırsa, nə qədər bacarırsa onu götürür. Son illər imzası fəal olanlardan Mehman Qaraxa-

noğlu ötən il "Ədəbiyyat qəzeti"ndə Cəlil Məmmədquluzadə mətnlərinin dekonstruktiv təhlilinə sıra məqalələr həsr etmiş ("Sən kimsən, Novruzəli?" – 17 fevral; "Alleqoriyadan simvolikaya..." – 3 mart; "Mirzə Cəlilin nigarançılığı" – 13 oktyabr, "Dərədə yatmış idim" – 17 noyabr 2018-ci il). "Dekonstruksiya" məqamını ona görə vurğulayıram ki, müəllif həvəslə, ilk dəfəymiş kimi, Mirzə Cəlilin hər mətnini təzədən götürüb "sökür" və düşündüyü kimi, təzədən də qurur; təbii ki, zəmanəmizin təqazasına bab... Zəmanəmiz (o cümlədən "Ədəbiyyat qəzeti") indi hər münasibətə, yapışan, ya yapışmayan nəzərlərə açıqdır...

Buna bənzər bir "dekonstruksiya"nı son illərdə bir sıra entuziast layihələrə girişmiş Nizaməddin Mustafa (yada salaq, bir zaman əvvəl özünəqədərki Sabirşünaslığı "bir nəzər"lə "pozub" da sıfırdan başlamaq cəhdini) "Daha "...bir nəzər". Səhv nəzərləri sərf-nəzər etmə vaxtı" projesində (17 mart 2018-dən ilin sonunacan) bu dəfə milli poeziya tarixini yenidən yazmağa qərar verir. Təkbaşına, kolossal zəhmət qoyduğu araşdırmasında niyyəti Mətni bir zamanlar büründüyü sosioloji-ideoloji yadlıqdan "soyundurub", doğma islam və türk varlığı ilə təkcənə qoymaqdır... Mirzə Cəlilşünaslıq olsun, ya milli şeirşünaslıq tarixi, həmin "sərf-nəzərlər" ədəbiyyatşünaslığın professional təcrübəsi baxımından bəlkə də sadəlövh, hətta "səhv" də ola bilər, bununla belə, ədəbi prosesi zəngin informasiya enerjisi, nöqteyi-nəzər bolluğu, düşünmək üçün fürsət və imkanlarla təmin edir...

***

Bir qədər də yuxarıda yeri gəldikcə informasiyasını bölüşdüyüm "kitab tənqidi" barəsində. Tənqidçi kitabları xronoloji ilin deyil, bütöv bir dövrün ədəbiyyatının mənzərəsini görməyə imkan verir. Ötən il AMEA-nın müxbir üzvü Kamran Əliyevin on cildliyinin beş kitabı (Bakı, "Elm və təhsil", 2018) işıq üzü gördü; cildlər Azərbaycan romantizminin tədqiqatçısı kimi mühüm xidmətləri və bu günə töhfələrini tanıtmaqla yanaşı (I cild – "Romantizm nəzəriyyəsi"; II cild – "Romantizm poetikası"; III cild – "Hüseyn Cavid" monoqrafiyaları), həmin halədə 1980-ci illərdən beləsinə tənqidçi fəaliyyətini də (IV cild – "Klassiklər, müasirlər"; V cild – "Ədəbiyyatşünaslıq, tənqid") ehtiva edir. 2018-ci il milli romantizmin daha bir köklü tədqiqatçısını üzə çıxardı; Sona Vəliyevanın "Hüseyn Cavid sənətinin qüdrəti" monoqrafiyası (Bakı, "Zərdabi LTD", 2018) və haləsində bir çox – Yaşar Qasımbəylinin, Pərvanə Bəkirqızının, Seyfədddin Rzasoyun və b.-nın "525-ci qəzet", "Ədəbiyyat qəzeti", Artkaspi.az-da yazıları ədəbi-tənqidi prosesin diqqətini bir xeyli Azərbaycan romantizminin problemləri və dünyada yeri üzərində saxladı. Eyni zamanda Təyyar Salamoğlunun "Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və M.Ə.Sabir yaradıcılığı əsasında)" monoqrafiyası (Bakı, "Orxan NPM", 2018) və ətrafında akademik İsa Həbibbəylinin, professor Himalay Qasımovun problem-məqalələri ədəbi tənqidin marağını yozulmuşların bir daha, yenidən-yozumu məsələlərinə çəkdi; təfsirlə yanaşı, sovet dönəmində yazılanların burda müəyyən təftişi məqamları da ortaya çıxdı...

Akademik Nizami Cəfərovun "Mir Cəlalın milli ideal-

ları” monoqrafiyası (Bakı, Azərbaycan Milli Kitabxanası, 2018) bizi başqa bir ədəbi cərəyanın – sosrealizmin hakim olduğu əyyamlara çəkib aparır və əksinə, yazıçını necə sosrealizm çərçivəsindən çıxarıb milli ideallar işığında oxumağın metodolojisini təqdim edir. Monoqrafiyada Mir Cəlal yaradıcılığının milli ideyalar zəmini dürüst, mətnlərin “danışdırılması” yolu ilə təsbit olunur və “milli olmağ”ın əlacının heç də dünəni ideoloji təftişdə yox, dərin analitizmdə gizləndiyini üzə çıxarır: “20-ci, 30-cu illərin ziyalı gəncləri heç bir şübhə etmirdilər ki, bütün dünyanı bürümüş inqilablar Azərbaycan xalqını da inqilabi tərəqqi yolu ilə müstəqilliyə aparır. Və belə bir inam üçün ciddi əsaslar vardı. Ən əsası isə o idi ki, Azərbaycan xalqı bu və ya digər dərəcədə müstəqil özünüidarəyə ən azı mənəvi baxımdan tamamilə hazır hesab edirdi...”

Ötən ilin sonunda Mir Cəlal yaradıcılığının bu günə qədər daha çox kölgədə qalan daha iki istiqamətini – “Publisistika”sını (1926-1977) (Bakı, Azərbaycan Milli Kitabxanası, 2018) və “Ədəbi tənqid”i (1931-1974) (Bakı, Azərbaycan Milli Kitabxanası, 2018) ehtiva edən kitablar çıxdı və yazıçının milli ideallarının əyaniliyini müasir oxuculara bir daha nümayiş etdirdi. Milli kitabxanada təqdimat mərasimi zamanı, ədibin oğlu, ADA-nın rektoru Hafiz Paşayev, onun tövsiyəsi ilə Mir Cəlalın sovet dövrü yazılarının cəmisinin istisnasız həmin toplulara daxil edildiyini söylədi. Zira ədəbiyyat, ədəbi ənənələr tarixdən qaçmağın yox, hər zaman üstünə getməyin düzgünlüyünü təsdiq etmişdir...

Özlüyündə ədəbiyyatşünaslıq mübahisələri tarixi irsin mənimsənilməsi prosesinə xidmət etdiyi kimi, ədəbi tənqi-

də də güclü enerji və təkan verir. 2018-ci ilin daha bir sıra nəşrləri: Qəzənfər Paşayevin "Seçilmiş əsərləri"nin 8, 9, 10-cu cildləri (Bakı, "Təhsil", 2018), Məmməd Əliyevin "Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi" (Bakı, "Elm və təhsil", 2018), Baba Babayevin "Ədəbi etüdlər" (Bakı, "Avropa", 2018), Yaşar Qasımbəylinin "Rəsul Rza və ədəbi çağdaşlıq" (Bakı, "Elm və təhsil", 2018), Salidə Şərifovanın "Klassiklər və müasirlər söz müstəvisində" (Bakı, "Elm və təhsil", 2018), Sədaqət Əsgərovanın "Qadın tənqidi realizm güzgüsündə" (Bakı, "Mütərcim", 2018), Lalə Həsənovanın "Çağdaş ədəbi paradiqma: icmallar, məqalələr, düşüncələr" (Bakı, "Avropa", 2018) kitabları ən müxtəlif dövrlərin yazıçılarının yaradıcılığına, ədəbi proses və mətnlərinə baş vurmaqla XX yüzilin əvvəllərindən XXI yüzilin əvvəllərinə gəlişən ədəbiyyat mənzərələrini analitik süzgəcdən keçirməyə də imkan verir. Azərbaycanda ədəbiyyat elminin baş analitika mərkəzi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu olaraq qalır. Akademik İsa Həbibbəylinin ötən il təzə "ədəbiyyat tarixçiliyi" konsepsiyasını "525-ci qəzet" və "Ədəbiyyat qəzeti"ndə təqdim edən silsilə məqalələri milli ədəbiyyat tarixini bugünün ədəbi proses zirvəsindən nəzərdən keçirdiyi kimi, müstəqillik illərinin ədəbiyyatının inkişaf tendensiyalarını da, xüsusən çoxsəslilik, rəngarənglik, ədəbi cərəyanlaşma prizmasından görür və tanıdır...

Ədəbiyyat İnstitutunda çağdaş ədəbi tənqidin ölçü vahidi olaraq, hər ilin ədəbi yekunlarına həsr edilmiş "Ədəbi proses" tədbirləri hesab olunur. 2017-ci ilin ədəbi yekunlarına dair konfrans 2018-ci ilin 4 iyununda və əvvəlkilərdən daha miqyaslı keçirildi; müstəqillik illərində institutda

“Ədəbi proses” toplularının bərpası və nəşrinin beş ili tamam olurdu. Bu münasibətlə İsa Həbibbəyli İnstitutda ədəbi prosesin öyrənilməsi və dəyərləndirilməsini (“Ədəbi proses-2013”, “Ədəbi proses-2014”, “Ədəbi proses-2015”, “Ədəbi proses-2016”, “Ədəbi proses-2017”) “ədəbi proses hərəkatı” adlandırdı və bütövlükdə bu “hərəkat” eyni zamanda ölkə ədəbi prosesinin ən miqyaslı tənqid refleksi kimi təsbit olundu...

“Ədəbi proses-2017” toplusu (Bakı, “Hədəf nəşrləri”, 2018) çağdaş ədəbiyyatın janrları, problemləri, mövzuları üzrə 19 elmi məqaləni qapsamaqla (poeziya, nəsr, dramaturgiya, ədəbi tənqid, ədəbiyyat nəzəriyyəsi, ədəbi-mədəni həyat, roman, hekayə, epik şeir, publisistika, Cənub ədəbiyyatı, rusdilli ədəbiyyat, uşaq ədəbiyyatı, bölgələrdə ədəbiyyat, bədii tərcümə, ədəbi əlaqələr və s.), akademik İsa Həbibbəylinin vurğuladığı təki, əsl “miqyas və əks-səda” doğurmaqdadır. Hər bir iddia imkanlara bab olmalıdır. Ön mövqeyə iddia etməsə də, yanılmarıq desək: bu gün Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ədəbi-tənqidi prosesin Mərkəzi sükanını hələ ki əlində saxlayır... Bizim də çevrə(miz) bu qədər, burda qapanır.

Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru, dosent

AZƏRBAYCAN ŞEİRİ–2018

(Bəzi qeydlər)

2018-ci ilin Azərbaycan şeiri ədəbiyyat tarixində Kolumbun Amerikanı kəşf etməsi, ya da yeni bir Füzulinin şeiriyyət aləminə gəlişi kimi xatırlanmayacaq. Heç bir möcüzə ilə qarşılaşmadıq, poeziyanın, şeirin böyük hadisə sayıla biləcək elə bir məqamı yetişmədi ki, biz bu xüsusda sevincimizi bildirək. Azərbaycan çoxsaylı şairlər ölkəsidir və bu gün qətiyyən narahat olmağa dəyməz ki, bu qədər şairi olan ölkədə niyə yeni Füzulilər, Sabirlər, Səməd Vurğunlar, Rəsul Rzalar, Məmməd Arazlar, Bəxtiyar Vahabzadələr, Xəlil Rzalae doğulmur, dünyaya gəlmir? Bu sual ilk baxışda doğrudan da, həqiqət kimi səslənir, görəsən, şeirimiz yeni flaqmanlara ehtiyac duymurmu? Amma belə bir iddiada olmaq da yersizdir və deyək ki, dahilər, böyük şairlər sifarişlə, ya arzu ilə doğulmurlar, onların vaxtı, zamanı gəlir… Bir qədər mübahisəli səslənən belə bu fikirdən sonra nikbin olmağa çalışaq. 2018-ci ilin poeziyası haqqında qətiyyən bədbin olmağa dəyməz, az sonra biz poeziyamızda baş verən və bizdə narahatlıq doğuran məsələlərə də münasibətimizi bildirəcəyik, ancaq poeziyamızın, xüsusilə, lirik şeirimizin səviyyəsi qaneedicidir. Azərbaycan şeiri poeziyamızın yaşarı ənənələrinə bağlıdır, eyni zamanda, müasir şeir mədəniyyəti, həyatı, gerçəkliyi inikas nöqteyi-nəzərindən də yeni, novator keyfiyyətləri ilə diqqəti cəlb edir. Əlbəttə, bir ilin şeirləri haqqında danış-

maq, icmal səciyyəli bir yazıda şeirlə bağlı bütün problemlərdən söz açmaq çətindir, gərək şeirimizin bir ildə hansı uğurlara nail olmağından danışaq, ayrı-ayrı mövzulara toxunaq, şeirimizin sənətkarlıq, dil-üslub məsələləri ilə bağlı məqamlara diqqət yetirək, müxtəlif nəsilləri təmsil edən ayrı-ayrı şairlərin şeirlərindən misallar gətirək, şeirimizdə bizi razı salmayan, nəzmkarlığa, şeirbazlığa, qrafomaniyaya aid qüsurları da etiraf edək, hələ üstəlik, bütün bu məsələlərə elmi-nəzəri prizmadan da yanaşaq. Ona görə də biz 2018-ci ilin şeirləri haqqında ənənəvi icmal yazıdan imtina edirik, fikir və mülahizələrimizi ayrı-ayrı şeirlər üzərində davam etdirəcəyik. Yeri gəldikcə, ötən illərin şeirlərinə də müraciət edəcəyik. Çalışacağıq ki, bu nümunələrin timsalında 2018-ci ilin lirikası qismən də olsa, öz əksini tapsın.

1. Müasir Azərbaycan poeziyasının ən yaşlı nəsli keçən əsrin otuzuncu illərində dünyaya gələn, əllinci illərdə ilk şeirləri və ilk şeir kitabları nəşr olunan, altmış-yetmişinci illərdə ədəbiyyat aləmində etiraf olunan, sonrakı onilliklərdə isə poeziyada öncüllər sırasında olan şairlər nəslini xatırlayaq. Doğrudur, indi onların əksəriyyəti dünyalarını dəyişiblər, ancaq o nəsildən Nəriman Həsənzadə, Fikrət Qoca, Yusif Həsənbəy, Eyvaz Borçalı, Musa Yaqub, Məmməd İsmayıl, bir sözlə, yaşı səksəni keçən və ya səksənin astanasında olan şairlərimiz yenə eyni şövq ilə yazıb-yaradırlar. Nəriman Həsənzadənin şeirlərində ötən illərdə yazdığı ən yaxşı şeirlərin rahiyəsi duyulur.”Sinəmstolüstü qalın kitabdı, Hər gün varaqlayıb oxuyuram mən” – bu qalın kitabı biz də varaqlayırıq və 88 yaşlı bir şairin poetik enerjisinə heyrət edirik. O, həyatda, cəmiyyətdə, tə-

biətdə, insan münasibətlərində baş verən heç bir hadisəyə biganə qalmır, Cocuq Mərcanlı şagirdlərinə üz tutur, Aprel döyüşlərində həlak olanlardan da söz açır, sevgi şeirləri də yazır, 37-ci ilin repressiya qurbanlarını da yad edir, doğulduğu Poylunu da unutmur. Məmməd İsmayıl Vətəndə yaşamasa da, Vətən havalı şeirləri ilə mətbuatda sözünü deyir: "Qəribi qürbətin qadını sevməz, Sevsə, olsa-olsa, torpağı sevər. Nəriman Həsənzadə kimi Məmməd İsmayıl da yaşa dolduqca içindəki poetik enerjini sönməyə qoymur.Vaxtilə Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı ki: "Məmməd İsmayılın şeirləri izaha, təhlilə çətin gəlir. Adam qorxur ki, bu şeirlərin gözəlliyi, zərifliyi təhlildən hürküb qaçar". Doğrudan da, Məmməd İsmayılın "Ağacdələn, döy qapımı", "Savalanda yatan igid", "Vətən", "Bir də keçməyəcək ələ bu günlər", "Ümiddən asılan qılınclar", "Təzədən mən sənə qayıdacağam", "Kimi aldadırsan, a zalım oğlu" kimi şeirlərini təhlil etməyə dəyərmi? Bu şeirlər Azərbaycan poeziyasının şedevrləridir. Son illərdə də o şedevrlərin sırasına yeniləri qatılır. Xüsusilə, "Qürbət haradı bilsən", "Qapı" "Niyə beləsən, Vətən" şeirləri… Musa Yaqubun son şeirlərində isə şair ömrü ilə bağlı bəzi etiraflar səslənməkdədir ki, bu etirafları həmin nəslin dilinə gətirmədikləri, amma ürəklərində o hissləri, o duyğuları yaşatdıqları qənaətindəyik:

Bir yorğun torpağam, dincə qoyulmuş,
Daha əkilməyim, biçilməyim yox.
Köhnə qarağacam, içi oyulmuş,
Bir də körpülənib keçilməyim yox.
Bütün körpüləri keçmişəm daha.

Səbr kasamı da içmişəm daha.
Hanı bu dünyanın dağ tərəfləri,
Qızıldöş qayanın tağ tərəfləri-
Ayağım dəyməmiş bir daş qalmadı,
Heyif, gücdən düşən o ayaqlara!
Hanı bu dünyanın sevgi tərəfi?
İnsanın insana ərki tərəfi?
Hanı dan üzünün ağ tərəfləri,
Dövrünün qızılı çağ tərəfləri?

Şeirimizin ikinci bir yaşlı nəsli də var ki, onların ədəbiyyata gəlişi altmışıncı illərin sonlarına-yetmişinci illərin əvvəllərinə təsadüf edir – Firuzə Məmmədli, Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Çingiz Əlioğl, Vaqif Bayatlı – bu şairlər poeziyada müxtəlif üslubları təmsil edirlər. Sabir Rüstəmxanlı 1967-ci ildə yazdığı məşhur "Vətən" şeirinin intonasiyasına indiyə qədər sadiqdir və əgər müasir Azərbaycan poeziyasında vətənpərvərliyin, azərbaycançılığın, milli birlik ideyasının necə təcəssüm olunduğunu izləsək, Bəxtiyar Vahabzadə, Xəlil Rza Uluturk, Məmməd Araz isimləri ilə yanaşı, Sabir Rüstəmxanlının da adını bu sırada görərük.

Heç inanmağımız gəlmir ki, "böyük şair olmağı bir kimsədə şübhə doğurmayan" (Anar), sözün əsl mənasında bir şair kimi populyarlığını qoruyub saxlayan Ramiz Rövşən artıq yetmiş iki yaşındadır. Amma yaşın şair ömrünə və şeirin ömrünə heç bir dəxli yoxdur. Ramiz Rövşən adi həyat hadisələrini, ən sadə həqiqətləri – həyat, ölüm, sevgi, Allah, Dünya və İnsan haqqında duyğularını poeziya dili ilə, özü də orijinal şəkildə ifadə edir. Amma burada

duyğular və hisslərlə yanaşı, bir mühüm məqamı da vurğulamalıyıq. Ramiz Rövşən şeiri həm də bizə məlum adi həqiqətlərin tamam yeni izahıdır, burada Aristotelin bir fikrini xatırlayırıq: "Poeziya insana yalnız hisslər, duyğular vasitəsilə əldə edilmiş zahiri bilik vermir, elmi bilikdən aşağı durmayan biliklər verir".

Ölüncə
neçə-neçə qapıdan keçir adam,
Dünya –
üz tutduğumuz qapılarla doludu
Bəlkə də,
üzümüzə çırpılan qapılardan
Üzümüzə açılan
Qapılar qorxuludur.
Mənim balam,
hamımız doğulanda ağlarıq,
Bəlkə, yaşamaq deyil
dünyaya gəlməyimiz.
Bəlkə doğulan kimi
başlayır ölməyimiz.

"Azərbaycan yazıçılarının ensiklopedik məlumat kitabı"na diqqət yetirdik və bu kitabda 400-dən artıq qadın yazarların tərcümeyi-halları ilə qarşılaşdıq. Doğrudan da, böyük rəqəmdir və Azərbaycan kimi kiçik bir ölkədə qadın yazarların, xüsusilə, şairlərin bolluğu bəlkə təəccüb doğura bilər, amma burada təəccüblü heç nə yox… Elə Əzizə xanım Cəfərzadənin "Azərbaycanın aşıq və şair qadınları" toplusuna nəzər yetirsək, burada ənənənin mühüm

rol oynadığını vurğulaya bilərik. Məhsəti, Natəvan, Heyran xanım, Fatma xanım Kəminə, Tahirə Qürrətüleyn, Umugülsüm, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Mədinə Gülgün, Hökumə Billuri… Və çağdaş şeirmizdə Firuzə Məmmədli, Nisə Bəyim, Ofelya Babayeva, Xanım İsmayılqızı, Fərqanə Mehdiyeva, Məlahət Qaramuradlı, Gülnarə Cəmaləddin, Xatirə Fərəcli, Xəzangül, Şövkət Horovlu, Səhər, Aybəniz Əliyar… Firuzə Məmmədli Nigar Rəfibəylinin, Mirvarid Dilbazinin missiyasını üzərinə götürüb desək, – yanılmarıq. Xalq yazıçısı Anar yazır ki: "Firuzə Məmmədli Azərbaycan poeziyasının zəngin ədəbi ənənələrini davam və inkişaf etdirən şairlərdən biridir. Onun şeirləri özünə bənzəyir, bir az həlim, bir az kövrək, yeri gələndə sərt". Firuzə Məmmədlinin son üç ildəki şeirlərinə diqqət yetiririk – bu şeirlər bir qadın ömrünün poetik salnaməsidir – bu salnamədə ağrı da var, sevinc də, heyrət də, dövrandan, zəmanədən şikayətlər də, ümid də, inam da, nostalji hisslər də və ən başlıcası, vətənpərvərlik, azərbaycançılıq duyğuları. Və təfərrüata varmadan Firuzə Məmmədlinin "Azərbaycan" jurnalında çap olunan bir şeirini misal gətirək: bu şeir sözə, şeirə, poeziyaya bağlılığın ifadəsidir:

Nə deməyə sözüm qalıb,
Nə susmağa üzüm qalıb,
Arxasınca gözüm qalıb,
Tanrım, məni qaytar sözə.

Baş alıb hara qaçaram?
Mən günüqara qaçaram.

Lap düz divara qaçaram,
Məni elə çapar sözə

Neynim sözsüz var günümü?!
Sədalara kar günümü!
Sal boynuma dar günümü,
Sürükləyib apar sözə.

2. Şeirimizdə Qarabağ müharibəsi və onun doğurduğu itkilər, sosial və mənəvi bəlalar, itirilmiş torpaq ağrıları haqqında yüzlərlə şeirlər yazılıb, indi də yazılır. Bu şeirlərin hər birinin vətənpərvərlik duyğusundan yarandığına qətiyyən şübhə etmirik. Amma o şeirlərin bir çoxu bədii keyfiyyət baxımından hətta ortabab şeir səviyyəsindən aşağı olduğunu etiraf etməliyik. Bu şeirlərdə bir-birini təkrar edən motivlər, şablon ifadələr həddini aşır. Əlbəttə, həmişə dərddən yazmaq olar, necə ki, həmişə Vətəndən, dağlardan, dənizdən, payızdan yazmaq… Amma ənənəviləşən mövzuya da yenilik gətirmək olar. Təbii ki, bu, şair istedadı ilə bağlıdır. Vaqif Bəhmənli köhnə ifadə ilə desək, "məhsuldar" şairdir, amma Vaqif bəzi istisnaları nəzərə almasaq, həmişə öz poetik səviyyəsini saxlaya bilir. Onun Qarabağ yanğısından doğan "Dərd qoşması" dərdin poeziyasını poeziyanın dərdinə çevirən bir şeir kimi diqqəti cəlb edir:

Yolunca saraldı gözümün kökü,
Qalmadı ürəkdə yağ, Qarabağım!
Başıma haranın külünü töküm,
Qayıtsın əzəli çağ, Qarabağım!

Seyidlər bəsləyən, aclar doyuran,
Şərdən-şəbədədən haqqı ayıran,
Bəyləri, xanları işə buyuran,
Sultan Qarabağım, şah Qarabağım!

Böyürtkən atlanmır barı üstündən…
Sazaqlar çartladır narı üstündə!
Çiçəyi burnunda, barı üstündə
Çürüyür tarlanda tağ, Qarabağım!

Ölün bir yandadı,dirin bir yanda,
Çalağan ilanlar qıvrılır qanda!
Torpaq götürərmi, aparsam canda
Belə çalın-çarpaz dağ, Qarabağım!

Fələk töhmət çöpü təpdi dərimə,
Sən sönük bir çıraq, səmənderi mən…
Cismimi Bakıya tulla, yerimə
Qeyrətli bir Vaqif doğ, Qarabağım!

Qarabağla bağlı şeirlərdə kədər, qəm-qüssə motivlərinin üstünlük təşkil etməsini təbii hesab edirik. İnsan doğulduğu torpaqdan, göz açdığı yurd-yuvadan illər boyu ayrı düşür, bu həsrəti başqa cür necə izah edəsən? Elə Vaqif Bəhmənlinin başqa bir şeirində Qarabağsız yaşamağın ağrı-acıları öz əksini tapır:

Batıb Şuşanın dili,
Zili, pəsi çatışmır.
Tarixdi Pənahəli –
Xan nəvəsi çatışmır.

Orman yaşıl daraqdı,
Sıldırımlar varaqdı.
Şuşa yanar çıraqdı-
Pərvanəsi çatışmır.

Kafər kəsib yolağı,
Kardı Kirsin qulağı!..
Cabbarsız Qarabağın
Zənguləsi çatışmır!

İtkin düşüb qonağı,
Sağ şikəstə, sol ağı…
Axır İsa bulağı
Piyaləsi çatışmır!

Şeirmizdə Qarabağ mövzusu haqqında düşünəndə istər-istəməz keçən əsrin doxsanıncı illərində qələmə alınmış və hər misrasından ümid, inam, qələbəyə çağırış ifadə edən "Ayağa dur, Azərbaycan", "Ayağa dur, məmləkətim", "Qalx ayağa məmləkətim" (Məmməd Araz, Xəlil Rza, Zəlimxan Yaqub) şeirləri yada düşdü. Xüsusilə, Xalq şairi Qabilin o illərin ən haraylı, çağırış şeirindəki həqiqəti xatırladıq. "Ümid sənədir ancaq" şeiri göstərdi ki:

Ali qonaqlar gəlir
Dünyanın hər yerindən.
Ürək yanır, göz dolur
Şəhid qəbirlərindən.
Düşünüb-daşınıram
Özlüyümdə dərindən:

İntiqam ala bilməz,
Qana qan ola bilməz
Məzarları bəzəyən
Ehtiram çiçəkləri…
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

Qabilin doxsanıncı illərdə səsləndirdiyi bu çağırış nidasının həqiqət olduğunu 2016-cı ilin Aprel döyüşləri təsdiq etmədimi? Nədənsə, şeirimizdə belə nümunələrin sayı getdikcə azalır, amma Ramiz Duyğunun, Rəşid Faxralının, Əbülfət Mədətoğlunun, Musa Ələkbərlinin, Rəfail Tağızadənin, Əli Rza Xələflinin, Adil Cəmilin, Əli Nəcəfxanlının, Rizvan Nəsiboğlunun bəzi şeirlərində həmin tendensiyanın davam etməsinə yalnız sevinmək olar. Xüsusilə, Rəşid Faxralının Aprel döyüşləri ilə bağlı şeirlərini təqdir edirik. Bir məqamı da unutmayaq: Qarabağ problemi ölkə prezidentinin apardığı ardıcıl, məqsədyönlü siyasətlə yanaşı, həm də hər bir azərbaycanlını düşündürən bir həyat amalı olmalıdır. Şair Vahid Əziz də elə bunu deyir:

Gör, nə qədər itirmişik?
O Qarabağ, bu Qarabağ.
Danışmayaq düşüyk-düşük,
Torpaq satmağı unudaq.

Sındırmaqda düşmən bizi,
Yetər boğduq səbrimizi,
Qırıb "Tamah dişimizi",
Rüşvət almağı unudaq.

Tanrı nuru qəlbimizdə,
Dəyər verdi sevgimizə,
İçimizdə bir-birimizə,
Düşmən olmağı unudaq.

Bu torpaqlar çox ağlayıb,
Sinəsində minlərlə dağ.
Qanları yadda saxlayıb-
Unutqanlığı unudaq!

3. Bəs şeirimizin lirik qəhrəmanı haqqında nə söyləyə bilərik? Burada biz V.Q.Belinskinin məşhur tərifini misal gətirəcəyik: "Şairin yaradıcılıq fəaliyyətinin mənbəyi onun şəxsiyyətində, ifadə olunan poetik ruhundadır, buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır.Hər bir poetik əsər şairin bütün varlığına hakim kəsilən qüdrətli fikrin məhsuludur". Hər bir şeirin mətnində şairin duyğu və düşüncələri yaşayır. Vaxtilə, sovet dönəmində lirik qəhrəman özünü "Mən və Vətən", "Mən və Dünya", "Mən və Zaman", "Mən və Həyat", "Mən və Təbiət", "Mən və Sevgilim" paralelləri ilə ifadə edirdi. Bu paralellərdən çox zaman "sovet adamı" obrazı reallaşırdı. İndi də bu paralellar davam edir. Amma "sovet adamı" obrazına daha ehtiyac qalmayıb. Müstəqillik dövrünün şeirində isə lirik qəhrəmanın həyat hadisələrinə, dünyaya, zamana, insana, Tanrıya, ölümə, varlığa-yoxluğa münasibəti dəyişib. Lirik qəhrəman, yəni şair fikrən də, ruhən də azaddır. Şairlər bir vaxtlar sanki içərilərinə çökmüş dumanı ciyərlərindən çıxarıb azad nəfəs alırlar. Biz bu sırada Ramiz Qusarçaylı-

nın, Əhməd Qəşəmoğlunun, Əjdər Olun, Ağacəfər Həsənlinin, Barat Vüsalın, Avdı Qoşqarın, Rəşad Məcidin, İlham Qəhrəmanın, Elçin İsgəndərzadənin,Yusif Nəğməkarın, Rafiq Yusifoğlunun, Balayar Sadiqin, Qəşəm Nəcəfzadənin, Sabir Yusifoğlunun, Xanəli Kərimlinin, Maşallah Məftunun, Ağamir Cavadın, Zirəddin Qafarlının, Tahir Talıblının, Orxan Paşanın, Gülnarə Cəmələddinin, Adil Cəmilin, Hüseyn Bağıroğlunun, Faiq Balabəylinin,Tərlan Əbilovun, Asim Yadigarın, Zakir Məmmədin, Tahir Taisoğlunun, Kəmələddin Qədimin, İslam Sadığın, Nazim Əhmədlinin, İnqilab İsaqın, Bilal Alarlının, Əlisəmid Kürün,Vəliyulla Novruzun, Əlizadə Nurinin, Dayandur Sevginin, Nizami Muradoğlunun, Sərvaz Hüseynoğlunun şeirlərini xüsusi qeyd edə bilərik. Əsasən ədəbiyyatımızın orta nəslini təmsil edən adlarını çəkdiyim bu şairlər özünü ifadə baxımından bir-birindən fərqlənə, seçilə bilirlər. Məsələn, Ağacəfər Həsənlinin şeirlərində fikir ahəngi ön plana keçməkdədir, “Günlər ömrün güllləridi, solur zamanın əlində” deyən Ağacəfər başqa bir şeirində yazır ki: “Haçandan eyni havaya oynayaram, eyni sudan içərəm, eyni yoldan keçərəm, eyni sünbüldən biçərəm, gözümü kor edib işıqlar, qulağım dəng olub oxşar sözlərlən” misralarıyla əslində, XXI əsr şairinin, daha çox öz ədəbi nəslinin poetik məramını ifadə edir. Və onun şeirlərində də yenilik hissi, “eyni havaya oynamamaq”, həyata, dünyaya düşüncə çevrəsindən yanaşmaq prinsipi üstünlük təşkil edir. “Fikir ahəngi” ifadəsini işlətdik və Əhməd Qəşəmoğlunun sonuncu şeirlər kitabına yazdığı ön sözləri xatırladıq: “Dünya-ahəng dilidir. Ahəng dili Allahın yoludur. Qəlbim mənə deyir ki, nə qədər ki, insanlar dünyadakı əməllərini

ahənglə kökləməyiblər, özləri də, ətrafları da, Yer üzü də qan-qada içində olacaqlar. Dünyanın bir çox sirlərinin açarı elə həmin ahəng aləmindədir". Əhməd Qəşəmoğlunun bu "ahəng qanunu" təzə deyil, amma onun əksər şeirləri bir ahəng üstündə qurulub: dünyada heç bir zərrə adi deyil, hər şey, hər nəsnə ahəng içindədir, İlahinin yaratdığı bu ahəngin Eşq mərtəbəsinə, ucalığa köklənməsi insanın Sirri-xudaya sonsuz məhəbbətinin ifadəsidir. "Azərbaycan bayrağı" kimi çox gözəl bir şeirin müəllifi olan Ramiz Qusarçaylı bu ədəbi nəslin içərisində xüsusilə seçilir. Onun nisgilli "Toy" şeiri sübut edir ki, Ramiz hər hansı bir hadisəsini poeziya hadisəsinə çevirə bilər. Nişanlısı Lələdağ döyüşlərində həlak olan bir qız toy zamanı bu xəbəri eşidir, amma:

O qız toyda ölənəcən oynadı,
Ayaqları gülənəcən oynadı,
Toyu toydan silənəcən oynadı.
Gör o toyda iqarğılı ney neynədi,
Zilində Yer,
bəmində Göy göynədi,
Xarı bülbül namus yeri, göynədi,
Cıdır düzü qisas yeri, göynədi,
Daşaltıda casus yeri göynədi.
Qurd çölündə çadır yeri oynadı,
Güləbürtdə abır yeri oynadı,
Gülablıda qəbir yeri oynadı,
Dözüm yeri, səbir yeri oynadı.
Kim o qızı saxlayacaq bu axşam,
Kim o toyu ağlayacaq bu axşam…

Daha bir şairdən söz açaq. İnqilab İsaqın şeirləri barədə həmkarımız Rüstəm Kamal acı bir təəssüf hissilə yazır ki: "Ədəbi tənqidin "əyalət" sindromu nəticəsində dəyərli bir şairin obrazının yetərincə təqdim olunmaması təəssüf doğurur". Amma elə Rüstəm Kamal İnqilab İsaqın kitabına yazdığı ön sözdə bu sindromu aradan qaldırır və onun şeirlərini layiq olduğu tərzdə təhlil edir. Yazır ki: "İnqilab İsaqın poeziyasında bəlağətli deklarasiyalar və yüksək nidalar səslənmir, sanki sualtı axın şeirin üstü ilə gedir, sükutu intonasiyanın axarı üzə çıxarır". Doğrudur. Və biz təfərrüata varmadan İnqilab İsaqın "Bir uşaq ağlayır" şeirini misal gətirəcəyik. Bu şeir bir qaçqın ananın dilindən söylənilir. Bu şeirdə hüzn və kədər var, amma ritorikadan uzaq bir kədər. Kədərlənən təkcə ana deyil, qüssəyə qərq olan həm də şeirin özüdür, təşbihlər, metaforalar, xitablar da bu hüznün içindədir.

O uşaq ağlayır, ovutmayın siz,
İtən yurd yerində yuxusu qalıb.
Yüyürüb o cıdır, çəmən boyunca,
İçində bönövşə qoxusu qalıb.

O uşaq aldanmır, vallah, şirəyə
Böyüklər çox zaman aldanan kimi.
O uşaq ağlayır hey "Şuşam" deyə,
Odlanır dünyaya boylanan kimi.

Tapın o uşağın oyun yerini,
Bənövşə üzdüyü çəməni tapın.
Tapın üç almanı, nağıl yerini,

Tapın, ay böyüklər, Vətəni tapın!
Kiridin uşağı, kiridin görək!

Adlarını geniş siyahıda çəkdiyimiz hər bir şairin yaradıcılığından, xüsusən, 2018-ci ildə yazdıqları şeirlərdən misallar gətirə bilərik. Şeirimizdə əsl azadlıq ruhu dolaşmaqdadır və hər bir şair müstəqilliyin ona bəxş etdiyi bu mənəvi azadlıqdan bəhrələnir.

Amma çox maraqlıdır ki, bu azadlıq şeirdə çox vaxt lirik qəhrəmanın – şairin mənən azadlığına dəlalət eləmir. Şeirimizdə ictimai həyatdan yox, yalnız şəxsi, subyektiv azar-bezardan doğan dərdlərdən, darıxmaqdan, ölümdən çox yazırlar. Biri yazır ki: "Mən bədbəxt adamam, yazıq adamam!", başqa birisi "Mən çıxıb getməyə bir küçə tapsam" deyib "kimsənin olmayan uzaqlara" getmək arzusunu ifadə edir, bir başqası "Ölümüm qədər, kaş deyirəm gözəlləşəydi həyatım da" deyir və ölümü həyatdan üstün tutur. Yenə bir başqa gənc şair yazır ki: "Sir-sifətim qırışmamış, Kimsə gəlib soruşmamış, Toz-torpağa qarışmamış Çürüməyi öyrənirəm". Yenə bir misal: "Əcəl son etirafdır Hər insanın dilində. Ölüm hədiyyəmizdir, Yaşam müqabilində". Belə "ölüm şərqilərinin" sayını artırmaq olar, düşünürük ki, əksəriyyəti cavan olan, "çiçəyi burnunda olan" bu şairləri əcəl köhləninə minməyə nə vadar edir? Ədəbiyyatda Ölüm mövzusu əbədi mövzulardan biridir, istər klassik poeziyada, istərsə də müasir poeziyada ölümdən çox yazıblar. Amma bu mövzuya fəlsəfi rəng qatıblar. Müasir poeziyada Vaqif Səmədoğlunun və Ramiz Rövşənin şeirlərində Ölüm motivinə daha çox rast gəlirik. Ramiz Rövşən bir müsahibəsində deyir ki: "Ölüm bütün dinlərin

məğzindədir. Ölüm o qədər təbii, sadə anlayışdı ki…Platon deyir: hər bir yaradıcılıq öz gücünü ölümdən alır. Mən ən çox o vaxt yazıram ki, ölümlə toqquşuram. Yazmağın özündə bir ölməməzlik iddiası var. Yazırsan ki, ölməyəsən, qalasan, ölümdən sonra qalasan. Həyatın sonu ölümdü, ölümün sonu həyat deyil. Zen-buddizm fəlsəfəsində deyilir: "Bizim həyatımız ölümümüzdə qısa fasilədir". Müasir Azərbaycan şeirində ölüm haqqında ən çox düşünən şair Vaqif Səmədoğlu idi, amma onun "ölümlü" şeirlərindən qətiyyən qəbristanlıq qoxusu gəlmir. Baxın: "Özümü öldürmək istəmişəm iki dəfə, amma öldürməmişəm min dəfə". "Ay yarımçıq, ulduzlar yox, yaman ölməli gecədir". "Allah, məni yarı öldür, yarı saxla ağlamağa", "Özümlə məşğulam, özümü hər gün yüz yol dirildirəm, yüz yol asıram", "Sevgilim, mən öləndə, Bir küncdə xısınxısın Ağlayacaqsanmı sən? Kimin xarabasında Bir damla yaşa dönüb, Düşəcəyəm gözündən? Ağla, qurbanım, ağla, Ağla, heyranım, ağla".

4. 2018-ci ilin Azərbaycan şeirində sənətkarlıq məsələləri ilə bağlı nə demək olar? Əslində, çox şey. Vəzn məsələsindən tutmuş şeirimizin bədii təsvir vasitələrinə qədər, qoşmalı, gəraylılı, çoxbölgülü heca şeirindən sərbəst şeirinə qədər, Avropa şeirindən, türk poeziyasından gələn təsirləri də unutmayaq, klassik poeziya ənənələrinə bağlılığı da… Şeirdə novatorluq cəhdlərindən tutmuş "stəkanda fırtına" yaratmaq iddiasıyla "yeni şeir" eksperimentlərinə qədər… Şeirimizdə yeni cərəyanların, xüsusilə postmodernizm dalğasının milli şeir ərazisində görünməsinə qədər… Dilimizin saflığını, gözəlliyini, zərifliyini qoruyan şeirlər də var, onu kimyəvi, fiziki, riyazi terminlərlə, əcaib-qəraib

sözlərlə, ifadələrlə zibilliyənlər də. Ancaq bir yazıda bütün bunları əhatə eləmək mümkün deyil, yalnız bəzi vacib məqamlara diqqət yetirəcəyik.

Azərbaycan poeziyasında uzun müddət yaşayan ənənələr olmuş ki, bu da onların vərəsəlik qaydası ilə əsrlərdən əsrlərə gəlib keçməsi və özəl xüsusiyyətlərini saxlaması ilə bağlıdır. Poeziyamızda ənənələrin zənginləşməsi iki axarda cərəyan etmişdir. Birinci halda ənənələr daxilən, məzmunca dəyişmişdir. İkinci halda isə bu dəyişiklik bədii formada baş vermişdir. Ənənələrin məzmunca dəyişməsi, yeni çalarlar kəsb etməsi, heç şübhəsiz, xalqın ictimai həyatında baş verən yeniliklərlə bağlıdır ki, bu inkişaf və dəyişikliklər bədii təfəkkürə də təsirsiz qalmamışdır. XX-XXI əslər heca şeiri də məhz belə inkişaf və yeniləşmə imkanları ilə diqqəti cəlb etmişdir. Ümumiyyətlə, XX əsr Azərbaycan şeirində heca vəzninin nisbətən üstün mövqeyindən söz açmaq olar. Biz altmışıncı-yetmişinci illərin bəzi ədəbi mübahisələrində olduğu kimi, heca şeirinə tam üstünlük verib sərbəst şeiri gözdən salmaq, guya Azərbaycan şeirinin milliliyinə xələl gətirdiyini iddia etmək fikrini heç ağlımıza gətirmirik.Şeirin hansı vəzndə yazılması yox, necə yazılması əsasdır. Böyük türk şairi Nazim Hikmət deyirdi ki, şeiri istər dənizin dibində yaz, istər küləkli havada, istər hecada, istər əruzda, istər sərbəstdə, təki şeir olsun. Ancaq burada vəznin hər iki qolunun müasir şeir prosesində inkişafını izləmək istərdik.

Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Əhməd Cəmil, Bəxtiyar Vahabzadə, Qabil, Nəbi Xəzri, Hüseyn Arif, Əliağa Kürçaylı, Nəriman Həsənzadə, Məmməd Araz, Cabir Novruz, İslam Səfərli, Hüseyn Kürdoğlu,

Məstan Günər, Məmməd İsmayıl, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Musa Yaqub, Məmməd Aslan, Ağasəfa, Zəlimxan Yaqub, Ramiz Rövşən, Rüstəm Behrudi, Firuzə Məmmədli, Akif Səməd, Məmməd Dəmirçioğlu, İslam Sadıq… Heca şeirinin ən gözəl nümunələrini bu şairlər yaratmışlar. Ancaq sərbəst şeirin də ən gözəl nümunələrini yaratmış Rəsul Rza, Əli Kərim, Vaqif Səmədoğlu, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Camal Yusifzadə hecada da eyni dərəcədə uğurlu nümunələrlə diqqəti cəlb etmişlər. Və bu siyahini bir qədər də müasir şeirimizə gətirib çıxarsaq, Zirəddin Qafarlının, Məcnun Göyçəlinin, Sabir Sarvanın, İslam Sadığın, Məmməd İlqarın, İbrahim İlyaslının, Barat Vüsalın, Nisə Bəyimin, Adil Cəmilin, Musa Ələkbərlinin, İlham Qəhrəmanın, Orxan Paşanın da heca şeiri ənənələrini davam etdirdiyinin şahidi olarıq.. XX əsr Hüseyn Arif, Hüseyn Kürdoğlu, Məstan Günər, Məmməd Aslan, Zəlimxan Yaqub kimi qoşmada, gəraylıda möcüzələr yaradan şairləri bizə tanıtdı və indi yüzlərlə sadəcə söz yığını, şablondan, məlum bədii təsvir vasitələrindən yaranan qoşmaları, gəraylıları oxuyanda o beş şairin ruhlarına rəhmət oxuyuruq. Amma heyifslənməyə də dəyməz, çünki XXI əsrin heca şeirlərində də yeniliklər diqqəti cəlb edir. Şeirdə lirik qəhrəmanın duyğu və düşüncələrini müəyyən obrazlar vasitəsilə əks etdirmək ənənəsi indi də yaşayır. Ən çox da qoşma və gəraylılarda. Bu ənənəyə yeni çalarlar da qatılır. İki misal gətirək. İbrahim İlyaslıdan bir gəraylı:

Səni görən divanədi,
Ölürəm səndən ötəri.

Göz yaşımla dağı-daşı,
Dəlirəm, səndən ötəri.

Uydurmadım daha nələr?
Tükənibdi bəhanələr.
Qonşumuza axşam-səhər,
Gəlirəm, səndən ötəri.

İbrahiməm, için-için,
Göynəyirəm, gedir köçün.
Ölmürəm yaşamaq üçün,
Ölürəm səndən ötəri.

Bu gəraylıdan Aşıq Ələsgərin, Dədə Şəmşirin rayihəsi duyulur.

Qoşma şeir forması Azərbaycan poeziyasında bəlkə ən davamlı, ən sabit bir ənənənin mövcudluğunu təsdiq edir. Poeziyada hansı meyillər, təmayüllər yaransa da, onların hər biri müəyyən müddət ərzində "populyarlıq" qazansa da, xalq şeirinin milli ruhunu, özəlliyini qoruyan qoşma hər dəfə yeni nümunələrlə öz varlığını qoruyub saxlayır. Xüsusilə, keçən əsrin doxsanıncı illərində, habelə, XXI əsrin əvvəllərində qoşmaya meyil nəinki azalmış, bütün şeir kəmiyyət amili yox, keyfiyyət amili nəzərdə tutulur. Həm də yeni qoşmalarda müasir poetik təfəkkür, "köhnə havada" təzə söz demək diqqəti cəlb edir. Əlizadə Nurinin bir qoşmasında olduğu kimi:

Haçandı durnalar uçur canımdan,
Haçandı canımda payızmış, Allah.

Məni bu dünyanın yadına salan,
Mənim unutduğum o qızmış, Allah…

Şirin xəyallırım acını çəkir,
Ölümdü -kəfənin ucunu çəkir…
…Baxdım ki, bir söyüd içini çəkir, –
O da mənim kimi yalqızmış, Allah.

Hər gün dodağıma baş çəkir adın,
Yanım, bir az isin,-üşüyən qadın…
..Çərpələng düzəltdim, o da uçmadı, –
Bu ömür islanmış kağızmış, Allah!

İndi isə 2018-ci ilin sərbəst şeirləri haqqında. "Azərbaycan" və "Ulduz" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə xeyli sərbəst şeirlər çap edilib. Heca vəznli şeirlərdə olduğu kimi, burada uğurlu nümunələr az deyil, şairlərimiz Rəsul Rzadan, Vaqif Səmədoğludan, Əli Kərimdən, Fikrət Qocadan, Ələkbər Salahzadədən, İsa İsmayılzadədən, Camal Yusifzadədən, Çingiz Əlioğludan gələn yaşarı ənənələri davam etdirirlər. Təbii ki, bu sırada böyük şairimiz Rəsul Rza ənənələri mühüm rol oynayır. Kimsə inkar etməz ki, Rəsul Rza Azərbaycan sərbəst şeirinin ən gözəl nümunələrini yaratmışdır. Biz Rəsul Rzadan sonra sərbəst şeiri yeni bir düzümə gətirən Ələkbər Salahzadəni də unutmamalıyıq. Deməli, Azərbaycan poeziyasında sərbəst şeir artıq bir ənənə yaratmışdır. İndi bu ənənəni Tahir Taisoğlu, Səlim Babullaoğlu, Elxan Zal Qaraxanlı, Qəşəm Nəcəfzadə, Əlisəmid Kür, Mahirə Abdulla, Fərid Hüseyn, Bilal Alarlı, Tərlan Əbilov, Dəyanət Osmanlı, Rasim Qaraca,

Aqşin Yenisey, Aqşin Evrən, Xuraman Hüseynzadə, Könül Arif, Emin Piri, Ümid Nəccari, Səhər, Ramil Əhməd, Qismət kimi sərbəstçilər var, özü də əksəriyyəti cavanlardır.

Sənə parçalı-buludlu bir hava göndərirəm,
Yağış da yağa bilər;
Şimşək də çaxa bilər,
Günəş də çıxa bilər.

Sənə parçalı-buludlu bir sevda göndərirəm.
Həsrət də ola bilər,
Nifrət də ola bilər,
Xoşbəxt də edə bilər,
Bədbəxt də edə bilər.

Mən hərdən çox səs-küylü,
Hərdən lal-sükutluyam.
Nə qədər bədbinəmsə,
o qədər ümidliyəm.
Bir az payız kimiyəm;
parçalı-buludluyam.

"Ulduz" jurnalının 2018-ci il noyabr nömrəsindən misal gətirdiyimiz bu şeirin müəllifi Səhər Əhməddir. Bu şeirdə çox böyük bir fikir axtarmayın, adi bir insan münasibətinin təbiət hadisəsi ilə müqayisəsi diqqəti cəlb edir və hər halda, müqayisə tutarlıdı, cavanların sərbəst şeirlərinin əksəriyyətində qafiyədən əsər-əlamət görmürsən, amma burada qafiyə də var. Şeirin ritmi də yerindədir. Və ona

görə də, bu, sərbəst şeirdir.

Bununla yanaşı, gizlətmək lazım deyil ki, bu gün sərbəst şeir adıyla çoxlu cızmaqaralar çap olunur, bunlara şeir demək olarmı? Hələ 1957-ci ildə görkəmli tənqidçimiz Məmməd Cəfər Cəfərov "Şeirimizin dili və vəzni haqqında" məqaləsində yazırdı: "Sərbəst şeir haqqında aydın təsəvvürə malik olmayan bəzi gənclərimiz zənn edirlər ki, sərbəst şeir dilin qrammatik quruluşunu pozmaq, cümlənin söz sıralarını tərsinə çevirmək yolu ilə əldə edilir. Bizim şairlərimizin çoxunun şeirində, qüvvətli bədii vasitələrdən biri olan inversiya (cümlədə sözlərin yerdəyişməsi) tamamilə unudulmuş, onun yerini dilin bütün qrammatik quruluşunu baş-ayaq etmək kimi lüzümsuz bir vərdiş tutmuşdur. Dilin qanunlarının əksinə olaraq cümləni tərsinə qurmaqla sərbəst şeir yaranmır, bəlkə sərbəst şeirə parodiya əmələ gəlir. Deyəndə ki, sərbəst şeir monotonluq yaradan mütləq bir ritm tanımır, bu, o demək deyildir ki: "məhv olsun ritm". Ritm şeirin ən mühüm cəhətidir. O məhv olandan sonra şeiriyyət qalmır. Əksinə, həqiqi sərbəst şeirdə ritm daha əlvan, daha zəngindir". Burada söylənilən qüsurlar indiki sərbəst şeirdə də davam edir. Amma bu, o demək deyil ki, indi yaxşı sərbəst şeirlər yaranmır. Dilin və ifadənin gözəlliyilə diqqəti cəlb edən nümunələr az deyil. Yalnız bircə nümunə ilə kifayətlənək, Gülnarə Cəmaləddinin şeiriylə:

Şəhid-şəhid torpaqların artdıqca
yaranı bağlaya bilmirəm
Vətən.
Çəkib gözümün üstünə

sən məni gözünün üstündə saxladığın tək
gözdən uzaq
gözümün üstündə
saxlaya bilmirəm,
Vətən.
Bir ovuc torpaqsan,
beş arşın ağsan
İşğal olmuş İrəvansan,
əsir düşən Qarabağ.
Qarşıda
dost var,
düşmən var deyə
səni ürəyimcə ağlaya bilmirəm,
Vətən.

2017-ci ilin "Poeziya" icmalında yazmışdıq ki: "Dilimizin gözəlliyini, "nərmi-nazikliyini", qəlbimizin ən dəruni hisslərini ifadə etdiyini, kədərimizi, sevincimizi, qəzəbimizi, harayımızı ilk növbədə, şeirimizdə, bədii sözümüzdə hiss edirik. Və akademik Nizami Cəfərovdan belə bir sitat gətirmişdik: "Məlum məsələdir ki, mükəmməl forma həllini tapa bilməyən poeziya əsl poeziya deyil – istər əruzda, istər hecada, istərsə də sərbəst şeirdə olsun. Şairə "belə yaz, elə yaz, bu sözü, bu cümləni, bu təşbihi belə işlət" demək absurddur. Onu şair bilir, əgər bilmirsə, – demək, şair deyil. Ana dilinin keşiyində birinci növbədə məhz şairlər dururlar. Onlar ana dilini bir mərhələdən digər mərhələyə, bir dövrdən digər dövrə aparırlar – Nəsimi kimi, Füzuli kimi, Səməd Vurğun kimi". Şeirin gözəlliyi onun məcazi qüdrətindədir, bədii təsvir vasitələrinin orijinallığındadır.

Azərbaycan şeiri məhz bu məcaziliyinə, “Ver sözə ehya ki..” potensialına görə, indi də öz poetik qüdrətini, enerjisini hifz edir. Füzuli deyirdi ki: “Bəzmi-eşq içrə, Füzuli, necə ah eyləməyim, Nə təmättö bulunur neydə sədadən qeyri?” – neyin səsi – şairin ahı. Şair dərddən quruyub, ney həsrətdən. Biri məşuqəsindən ayrı, biri vətənindən. Onun bədəni şan-şan, bununku dəlik-dəlik. O da inildəyir, bu da”. XXI əsrin şairi Əlizadə Nuri isə yazır: “Bilsəydim harada ağlamısan sən, Tapıb göz yaşını ləl eyləyərdim… Sənə ulduzlardan bir ev qurardım, – Aylı pəncərəndə tül eyləyərdim. Görsəm ki, Yer üzü dar gəlir sənə, – Suları qurudub göl eyləyərdim”. Nəsimi deyirdi ki: “Hilalə döndü qəmər qaşların hilalindən, Boyandı qanə qızıl gül yanağın alindən” – yəni səmadakı üçgünlük ay öz gözəllik və zərifliyini sevgilinin kaman qaşlarından alır, qızıl gülə o rəngi verən də məşuqənin al yanaqlarıdır”. XXI əsrin şairi Arzu Hüseyn isə yazır: “Bu da sevgimizin son noyabrı, Yenə də nəyinsə sonuna gəldik. Gözündə bir ovuc dəniz var sənin, Ağlama, suyunda bata bilərik”. Şah İsmayıl Xətai deyirdi ki: “Əridi iligim, qaldı sümügüm, Bu təni tərk edər canım, nə dersən? Əgər yatsam min il toprağ içində, Dürüstdür əhdü-peymanım, nə dersən?”. XXI əsrin şairi İslam Sadıq isə yazır: “Sözü bir yelə döndü, Gözü bir gölə döndü. Özü bir gülə döndü, Könlüm güllər içində. Hanı məndə o taxt ki, hanı məndə o baxt ki, hanı məndə o vaxt ki, Ölüm güllər içində”. Molla Pənah Vaqif deyirdi ki: “Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm, bir zaman kuyində ziyarətimdir. Qiblə deyib qaşlarına baş əymək gecə-gündüz mənim ibadətimdir”. XXI əsrin şairi Rəşad Məcid isə yazır: “Sən – gecəm-gündüzüm, sən – toyum-

yasım, Sənsən dar ağacım, sənsən xilasım. Əynimə oturan ən düz libasım, Boyuma biçilən kəfənim mənim”. Füzuli deyirdi ki, “Eşqdir ol nəşeyi-kamil kim, ondandır müdam, Meydə təşviri-hərarət, neydə təsiri səda”. XX əsrin şairi Zirəddin Qafarlı isə yazır ki: “Yer üzü fırlanır öz sevgisiylə, Günəş bir sevgidir, Ay bir sevgidir. Fəsillər dəyişir sevgi diliylə, Payız bir sevgidir, yay bir sevgidir”. Klassik şairlərdən gətirdiyimiz misallar zənnimizcə, bədii təsvir vasitələrinin, məcaziliyin ən gözəl nümunələridir. XXI əsr şairlərindən gətirdiyimiz misallar isə bu klassik nümunələrdən gələn təsirlərdir və arzu edərdik ki, klassik şairlərin dilimizin gözəlliyini nümayiş etdirən bu sözü ehya qüdrəti daha da artsın.

2018-ci ilin şeirləri ilə bağlı bu yazını da beləcə sona çatdırırıq və Azərbaycan şeirinin gələcəyinə daha böyük ümidlərlə boylanırıq.

Esmira FUAD
Filologiya üzrə fəlsəfə doktoru, dosent

2018-Cİ İLİN EPİK ŞEİRİ: EPOS TƏFƏKKÜRÜNÜN VƏ LİRİK-FƏLSƏFİ DUYĞULARIN BƏYANI

Son dövrlər, eləcə də 2018-ci ilin nəşrləri arasından boy verən Quzey və Güney Azərbaycan ədəbiyyatına, konkret olaraq, ilin poema mənzərəsinə nəzər saldıqda, janrın üfüqləri aydın görünür. Güneydə ötən əsrin 50-60-cı, Quzeydə isə 60-70-ci illərindən başlayaraq dünya estetik-fəlsəfi fikir cərəyanlarının poeziyamıza, epik şeirə axınının güclənməsi ənənəvi-realist, lirik-romantik üslublarda və modern təmayülləri özündə əks etdirən poetik mətnlərin yaranmasına səbəb oldu. Poema janrının geniş fəzasında ilk baxışdan görünən bu məqamlar diqqəti çəkdi: yazarlar daha çox tarixə ekskurs etmək cəhdlərində bulunmuş, yəni yaxın və uzaq keçmişə göz yetirərək tariximizin ağ və qara səhifələrinə işıq salmağa, keçmişlə günümüzün olayları arasında körpü yaratmağa üstünlük veriblər. Epik şeir nümunələrində diqqəti çəkən əsas cəhət odur ki, lirik qəhrəmanın, "daxili mən"in "həyatı analitik süzgəcdən keçirməsi bədii fikrin psixoloji təhlil meyillərindən doğur, müəllifləri daha çox hadisənin daxili mahiyyəti, onu doğuran səbəblər, sosial mühitdə baş verən dəyişikliklərin ictimai kökləri düşündürür..."[1]

Bu ekskursda M.Y.Qorbaçovun Perestroyka cəhdləri,

[1] Şirindil Alışanlı. Ədəbi-bədii düşüncənin sərhədləri, Bakı: "Sabah", 2010, s.157.

1988-ci il Meydan hərəkatı, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına əsasən başladığı Qarabağ uğrunda müharibə və ədalətsiz savaşın bir sıra ağrılı hadisələri, 2017-ci ilin Aprel döyüşləri, Çanaqqala savaşı, Bakı, İçərişəhər, Təbrizin dünəni və bu günü, xalqın yaşayışı, güzəranı, günümüzün ən aktual məsələləri və sabahımızla bağlı düşüncələr, arzular, ümidlər, bəşəri problemlər və digər məsələlərə müasirlik kontekstində, həm daxilən, həm də zahirən, bütünlüklə poetik nəzər yetirilir. Ancaq bütün bunların üst qatında fərdə, hadisələrin mərkəzində olan qəhrəmana – İNSANA maraq özünü bariz şəkildə göstərir. Kiyan Xiyavın "Təbriz və biz – ikili yalnızlıq", Fərid Hüseynin "Səmərqənd divanı", Sona Vəliyevanın "Səmərqənddə usta Əlinin türbəsi önündə", Fikrət Qocanın "İnqilab", Nəriman Həsənzadənin "Xəlvətdə yanan şam", "İstiqlal əsgəri", Əhməd Qəşəmoğlunun "20 Yanvar", "Rəsul" və "Cavanşir", Araz Əhmədoğlunun "İki daş", Behbud Muradi Elçibəyin "İçərişəhər", Kəramətin "Cəzb və kütlə hökmü", Fəxrəddin Ziyanın "Çanaqqala savaşı" poemaları ilə tanışlıq göstərdi ki, mövzu müxtəlifliyi, zəngin məna çalarlığı, əlvan bədii təsvir və ifadə vasitələri ilə əks olunan istənilən məfhum, söz və ifadə, hiss və duyğular silsiləsi, hədəf olaraq götürülən hadisələr poeziya örnəklərinə, bütövlükdə isə söz sənətinə çevrilə bilir.

Professor Şirindil Alışanlının: "Öz üslubunu elmi-texniki tərəqqi əsrinin zahiri əlamətləri ilə yükləyən, müasirliyi sənət səviyyəsində ifadə edə bilməyən müəllifin novatorluğundan danışmaq mümkün olmadığı kimi, milli poeziyanın ilk baxışda daha ənənəvi və bəzən də "arxaik" təsir bağışlayan formalarının köməyi ilə dövrün mənəvi

məzmununu ifadə edən sənətkarı da ədəbi axtarışlar axarından kənarda təsəvvür etmək mümkün deyil...”[1] fikrini 2018-ci ilin poema müəlliflərinə - Behbud Muradi Elçibəy, Nəriman Həsənzadə, Fikrət Qoca, Fəxrəddin Ziya və Əjdər Yunus Rzaya şamil etmək mümkündür. Onlar məhz milli poeziyanın ənənəvi və bəzən də “arxaik” təsir bağışlayan formalarının – heca vəzninin müxtəlif şəkillərinin köməyi ilə dövrün mənəvi məzmununu ifadə etməyi bacarmış, tarixi hadisələri, əsasən Qarabağ uğrunda gedən savaşın mərd qəhrəmanlarını, “Çanaqqala savaşı”nın bəzi məqamlarını ənənəvi formada, amma yeni təfəkkürün işığında təqdim ediblər.

Fərid Hüseyn, Kiyan Xiyav, Sona Vəliyeva, Araz Əhmədoğlu, Əhməd Qəşəmoğlu və Kəramət isə bədii axtarışlarını yeni, modern şeir formasında çağdaş dövrdə ədəbi prosesin tələblərinə uyğun şəkildə sərgiləyə bilmişlər...

Janr nümunələri ilə tanışlıq aydın göstərir ki, “əslində hər bir sənətkar özlüyündə axtarışdadır, lakin məsələ bədii axtarış və yeniliyin müasir ədəbi prosesin meyli ilə nə dərəcədə uyğunlaşması, səsləşməsindədir...” [2] Fikrimizcə, 2018-ci ilin bu səsləşməsində poetik nəfəsi ən çox duyulan, səsi daha ucadan eşidilən şairlər Kiyan Xiyav, Fərid Hüseyn, Nəriman Həsənzadə və Əhməd Qəşəmoğludur.

Kiyan Xiyavın poemalarında aydın müşahidə olunan orijinallıq, davamlı forma və texnika axtarışları, həmçinin duyğuların sadə ifadə və kəlmələrlə, hətta Güney Azərbaycan xalqının dilində, özəlliklə Təbriz şivəsində işlək olan

---

[1] Şirindil Alışanlı. Ədəbi-bədii düşüncənin sərhədləri, Bakı: “Sabah”, 2010, s.159-160.

[2] Yenə orada.

sözlərlə nağılvari, cazibəli bir dillə, epik təhkiyə üsulu ilə ifadəsi onun özünəməxsus yaradıcılıq yolunun göstəricisidir. Öncəliklə qeyd etmək istərdim ki, şairin müxtəlifliyi və zənginliyi ilə diqqət çəkən mövzu qalereyasında əksər şairlərin üz tutduğu "Təbriz" motivi – sirli, çəkici, ecazkar, həm də dərdli, eyni zamanda təkrarsız, son dərəcə orijinal bir şəhər – Təbriz obrazı var. Şəhər K.Xiyavın tədqiqatında danışan, düşünən, kədərlənən, bəzən də sevinən insan kimi canlandırılır. Obrazlı ifadə ilə desək, onun "Təbriz və biz – ikili yalnızlıq", "Tanqosuz Təbriz", "Təbrizin saatı səkkiz", "Bir öləri, bir qaları torpaqda" poemalarında şəhərin – Təbrizin "nəfəsinin" darıxdığını, iztirab çəkdiyini duymaq, ayrılığın boz rəngini, bu ulu şəhərin arzuları nakam qalmış sakinlərinin göz yaşlarının selə dönüb yanaqlarını yandırdığını təkcə hiss etmək yox, həm də sanki görmək olur:

Təbrizin upuzununun sonu yox, bir aşağı, bir yuxarı gedirik...
Bir otaq, bir pəncərənin herəsində Sevişirik, Öpüşürük, Ölürük...
Axşamın morumtul ala qaranlığından bir ulduz düşür uzaqda Araza...
Gözlərinə gözlərimdən bir damla yaş pay məndən...
Adını Təbrizin alnına yazıram, barmaqlarımın ucunda
Yunus İmrənin Tanrıya olan sevgisi.

Və bir soru:

Sən bunca böyüklüyünlə görmədən necə tanıdın məni
Qaldırımların canlı cəmdək qalabalığında?..[1]

Kiyan Xiyavın qələmində imperiya məngənəsində təklənmiş şəhər – Təbriz, qəzəbdən kükrəyən çay – Araz, tülpar sevdalıların sevişməsi və ölümü – göy üzündə bu ölümü bəlirləyən bir ulduzun axaraq Araza qonması, son nəfəsində sevgilinin gözündən axan və yarının//yarısının gözünə düşən bir damla yaş payından selə, qorxunc daşqına dönən göz yaşları, həsrət, ayrılıq mənzərələri ustalıqla sənətə çevrilə bilir. Yaranmış bənzərsiz tablo, ənənəvi hadisələrin yeni ifadələrlə, yepyeni tərzdə-modern təfəkkür və üslubla təqdimatı qarşısında heyrətlənməmək mümkün deyil!..

Əslində əsər oxucunu, tamaşaçını, dinləyicini heyrətləndirirsə, sənət nümunəsi kimi dəyər qazanır. Kiyan Xiyav digər doqquz poemasında olduğu kimi, "Təbriz və biz – ikili yalnızlıq" poemasında da oxucunu "çeynənmiş" ifadələrlə yormur və onun düşüncələrini özünəxas üslubda ifadə cəhdləri uğurlu alınır. Poema başdan-başa rəmz və simvollarla əhatələnib, orijinal təşbeh və çoxqatlı metaforalarla süsləndirilib, poetik yükü isə çox ağır, məna tutumu dərindir. "Təbriz və biz – ikili yalnızlıq" poeması şairin-Güney insanının ruhi-psixoloji vəziyyətinin, içindəki çırpıntıların, sarsıntı və xəyal qırıqlarının, Təbrizin və Güney xalqının başından keçənlərin geniş, çoxşaxəli, bitkin və orijinal, diqqətçəkici süjet xətti ilə əyaniləşdirilən sehrli,

[1] Günümüzün Güney Ədəbiyyatı Antologiyası. Poeziya (Tərtibçi-müəllif Esmira Fuad), Bakı: "Elm və təhsil", 2018. 1032 səh., s.296.

ağrılı bir həyat hekayəsi kimi oxunur. Bütöv bir lirik-poetik, fəlsəfi-psixoloji eşq romanı (amma bu eşqin daşıyıcıları-sevgililər – Təbriz və "lirik mən"dir) təsiri bağışlayan poemada türklüyün rəngində olan və əcdadlarımızın sitayiş etdikləri mavi səma ("Mavi, mavi, bizimki mavidir, gülüm! Göyə, Günəşə tapınıb əski türklər...") əbədi sonsuzluğun rəmzi kimi mənalandırılıb. Saf eşqin, böyük məhəbbətin simvolu İydə ağacı, Təbriz ("Yaşamaq, örnəyin evin eyvanından Təbrizə boylanmaqdır..." "Bitik yatağında yatıb oyanınca birbaşa Təbrizə çıxmaqdır..."), vəfa, etibarın rəmzi aylı-ulduzlu, apaydın gecələr, ayrılığın, həsrətin rəmzi Xan Araz – selli-daşqınlı, dəli-dolu Araz çayıdır... Şairin düşüncələr aləmindən süzülərək poemanın misraları arasına axan epik və lirik təhkiyədə təbiətin ünsürləri, qalaktikadakı cisimlər insani-humanizm duyğuları ilə o qədər uyğunlaşdırılır ki, yaradılan lirik ovqatda insan və təbiət arasında vəhdətin daimiliyini oxucu dərk etmiş olur...

"Günəş doğsun, yaşam oğlu üstümüzə ağlasın,
Gecə çöksün, gülümsəsin üzümüzə ölüm qızı!..
Önəmli olan bu qızdır incə-ağ yarpaqlarıyla
Bir ağ bəbənək özləm bağçasında...
Qalan nə varsa, yersiz bir qonaqlıqdır yer üzü.
Yoxsa Təbriz Təbrizmi, yaşam yaşammı,
Acun acunmu görən?[1]

[1] Günümüzün Güney Ədəbiyyatı Antologiyası. Poeziya (Tərtibçi-müəllif Esmira Fuad), Bakı: "Elm və təhsil", 2018. 1032 səh., s.301.

Poemada uğurla işlənmiş İnsan və şəhər – iki sevgili və Təbriz, Spartak//Spartakus, payız küləklərinin sağa-sola valayladığı, axşamın morumtul ala qaranlığından şeh çilənincə... ölüm qızına qucaq açan iki yarpaq, iki kağız qoşalaşması, acun-fani dünya, bitik, Təbrizin atlazlığı, gündüz//günəş-yaşam/həyat oğlu, gecə//ay-ölüm qızı, ulduz, aydın gecə, bir qaş bulud altı, üzüm aslağı-salxımı, alma yemişi, içit və s. kimi rəmz və motivləri var ki, onlar olmazsa varlıq, yaşam mümkünsüzləşər... bu mümkünlərin içində *Təbrizin atlazlığında apaydın bir gecə kimi görünən sevgili Tanrıçalarla qol-boyun uyuyar və düşlədiyi otaqda Tanrıyla şeytanın dartışması üzündən yağışlar yağar...*

Gəl, mən sənə yağ – əriyim, sən mənə yaz yağışı ver...
Verdiyin içitə sağlıq, sevgilim,
Bir keçit də ver özündən Günəşə, Gələcəyə!
Gəl, sevgini gələcəyə götürək...[1]

"Acun" əski türkcədə dünya anlamına gəlir, ancaq bu dünya, maddi dünya olmaqdan daha çox, İnsanlıq dünyası kimi qəbul edilir. Çünki torpaq və sudan ibarət maddi dünyanın bəzəyi, mənası insandı, – düşüncəsində olublar əcdadlarımız... Bunun üçün də Göyə, Günəşə tapınan əski türklər yer üzündə yaşayan varlıqların hamısına "Acunlar", insanlara "Acunluq" deyərmişlər. "İnsanlıqla birlikdə düşünüldüyü üçün, insanların həyatı kimi fani və yenə də

[1] Günümüzün Güney Ədəbiyyatı Antologiyası. Poeziya (Tərtibçi-müəllif Esmira Fuad), Bakı: "Elm və təhsil", 2018. 1032 səh., s.296.

insanların taleyi kimi üzüdönük və vəfasız bir dünya[1]”da şair düşünür ki, ən yaxşı hal odur ki, gecələri bir-birimiz üçün bir qoşuq-şeir yazaq, gündüzləri acunu ciblərimizdə gəzdirək, bu qoşuqların dilindən yararlanaq, ağızlarıyla öpüşək, bulaqlarından bal sularını içək... və bu gəlimli-gedimli dünyada dərdlərimizi bir az da olsa, unuda bilək... Əslində şair üçün “An elə o andır: – Saçımda uzaq yolların toz-torpağı sənə sarı gəldim. Qocaman Təbrizin qapıları da, sənin adınla açıldı üzümə, Səni gördüm torpağa yağış çiləyirdi səsin, yağışdan bir gül göyərirdi solğun. Gün güz günü, nə çeşt idi, nə günorta çağı, ancaq, Günəş çoxdan börkünü atmışdı göyə, biz öpüşdüyümüz anda... sən o ansan, zamansan və məni ölümə sarı götürürsən. Adın andır, ana da çağıra bilirəm səni – ana torpaq, ana vətən, ana yurd... bunca anası olanın, ana dili yasaq ancaq...” Bəli, əsas məsələ, problem də elə budur: Yasaqlanmış ana dili, milli haqq və hüquqlar, milli kimlik, əsir yurd... K.Xiyav vurğulayır ki, bizim analarımızın doğduğu – əlləri patron, gözləri pulemyot, gözlərimizin acısı, ürəyimizin sevinci, adları anılmasa da, bir çox adların içində böyük, birinci, səsi büsbütün aksiya olan söyçülərimiz var. Onların söylədiyi bir dastana belə damardan keçərsə, saxlamaq, əsla qarşısını almaq olmaz və yaşam külə dönüb gedər... Şair onları düşünəndə bir qaş bulud altında didərgin gedən bir

[1] İnsanlar nihayet dünya için yaratılmış, dünyalık ve bu dünya içinde güçleri ile kuvvetleri yeter olan varlıklardı. Onların iyilik veya kötülükleri, Tanrının insanlara bahşettiği talihe, yani, “Kut”a bağlı idi. Tanrı onlara kut verirse, zaten her kes iyi olur; kurt kuzuya bile katılıp giderdi. www.diledebiyat.net/.../turk-mitolojisinde-acun-ve-dunya

qatar göyərçini xatırlayır... Qonacaq bir yeri – özgürlüyü, azad yurdu olmasa da, özünü onlarla geniş bir mavilikdə sanır və oxucularına ağrılı bir sual ünvanlayır: "*İndi söylə nəyə yarar, Bir ah çəkib bir söyçü doğmayacaqsa Anam kimi, Sənin kimi analar bu Təbrizdə?!..*"[1]

Şair yaşamı iki sevgili üçün etnokosmik konsentrasiyanın yazı kodu ilə təcəssümü-kosmoloji çağ türklərinin sakral kitabı olan bitik[2] yatağı sanır. Buna görə də yaşamın anlamı Güney türkləri, bitik yatağında olan sevgililər üçün daha böyük, daha qutsaldır: "Biz bitik yatağında yatanlarıq, oyanınca birbaşa Təbrizə çıxırıq... Soyuq havaların isti anlarında bir-birimizi düşünmək olur yaşamaq... Yaşamaq, örnəyin evin eyvanından Təbrizə boylanmaqdır... Barmaqlarımın döşünə, döşünün barmaqlarına zillənməsi, Savalanın şiş qayalarının dil ucundan necə bal süzülməsidi..."

Behbud Muradi Elçibəyin "İçərişəhər" poeması 2018-ci ilin epik şeir fəzasında parlaq görünür. Beş cilddə şeir kitabının müəllifi və türkcə-farsca-iki dildə yayınlanan dərgilərin redaktoru olan B.M.Elçibəyin "İçərişəhər" poemasında çalışdığı sahənin peşə hazırlığı və səliqə-sahmanı özünü yansıdır. Klassik dövrdən günümüzədək bir çox şairin müraciət etdiyi, eləcə də aşıq yaradıcılığının şah dama-

---

[1] Günümüzün Güney Ədəbiyyatı Antologiyası. Poeziya (Tərtibçi-müəllif Esmira Fuad), Bakı: "Elm və təhsil", 2018. 1032 səh., s.300.

[2] Bitik – kosmoloji çağ türklərinin sakral kitabıdır. "Şəcəreyi-tərakimə" də tarixi çağda oğuz-türkmənlər üçün "Bitik"in funksiyasını yerinə yetirir. Bu halda "Bitik" "Şəcəreyi-tərakimə"nin invariantı olmaqla onda həm paradiqmalaşır, həm də "Şəcəreyi-tərakimə"nin kosmik strukturunun arxetipik səviyyəsini, arxitektonikasını təşkil edir. Başqa sözlə, "Şəcəreyi-tərakimə"nin kosmik "orqanizminin" genetik strukturunda "Bitik" dayanır.

rı sayılan heca vəzninin 11-lik qəlibində, yəni ayaqlı qoşma tərzində qələmə alınan "İçərişəhər" poeması, adından da göründüyü kimi, unikal tarixi abidəmiz olan İçərişəhərin tərənnümünə həsr olunub. Şair poemada Azərbaycanın tarixinin mühüm hadisələri, hətta Teymurilər, Qaraqoyunlular, Oğuzlar kimi ayrı-ayrı sülalələrin hökmranlıq salnaməsini vərəqləyir, ədəbiyyatımızın, musiqi sənətimizin dünəni və bu günü, Güneyin adlı-sanlı şəhərləri, onların önəmli cəhətləri də göz önündə canlandırılır, heca vəzninin işləkliyi və şirinliyi, sözün ecazkarlığının ölçülü-biçili formada təqdimi ilə seçilən qoşma janrının o taylı-bu taylı ədəbiyyatımızda özəl yeri olduğunu vurğulamağı da unutmur:

Hecalı sözümün şirinligi var,
Şeirü-musiqimin dərinligi var,
Şahdağın, Səhəndin sərinligi var,
Ondan nəfəs alar Tərbizim, Əhər,
Səni deyib gəldim, İçərişəhər[1].

2018-ci ildə şairlər qələmə aldıqları poemalardan ədəbi müstəvidə sanki cazibədar kompozisiyaya malik, tağlıportallı Təbriz-Bakı-İçərişəhər-Səmərqənd evi qurublar. Bu evin bir pəncərəsindən Kiyan Xiyav, Sona Vəliyeva və Araz Əhmədoğlunun gözü ilə Təbriz, birindən Fikrət Qoca, Kəramət və Əhməd Qəşəmoğlunun nəzəri ilə Bakı, digərindən isə Fərid Hüseynin təqdimatında əsrarəngiz Səmərqənd görünür. Behbud Muradi Elçibəyin "İçərişəhər"i

[1] Günümüzün Güney Ədəbiyyatı Antologiyası. Poeziya (Tərtibçi-müəllif Esmira Fuad), Bakı: "Elm və təhsil", 2018. 1032 səh., s.301.

isə bu evin günbəzi – əsas dirəklərindən biridir. Bu dirəyin önündə isə klassiklərimiz səf qurub dayanıblar: Həsənoğlu, Qazi Bürhanəddin, Qadir Marağalı, Şeyx Mahmud Şəbistəri, Şəms ilə Mövləvi, Təriqət əhlinin şeyxi Qələndərin, başında cıqqası, əlində dəf – yəni, həm də musiqi xiridarı, Oğuz tayfasının dürrü, sədəfi, alimi, şairi, sufisi, arifl ərin bu gün də kamali-ehtiramla məzarını öpdükləri Şeyx Səfiəddin Urməvi, Sührəvərdi, Eynülquzzat, alim, arif İmadəddin Nəsimi, türkün dahi şairi, kürkü altunlarla bəzədilən, saraydan saraya sürgün edilən Həbibi, Vahidi, Vəcisi, Məmməd Araz, Abbas Tufarqanlı, Dədə Qurbani, Naxçıvan piri Möminə xatun, Miskin Abdal, Mikayıl Müşfiq, Mirzə Ələkbər Sabir, Səməd Vurğun və başqaları... Bu korifeylər ən uca məqamda – şairin nəzər-nöqtəsincə belə təqdim edilir... Poemada lirik "Mən"in özünə ünvanladığı: "Kimin kimliyini sınamaz fələk? Nədən bəs özünü qınamaz fələk? Haqqın ədaləti danıldı məgər?" kimi haqlı suallarına cavab almaq üçün müəllif yenə də qədim İçərişəhərə üz tutaraq: "Səni deyib gəldim, ey qərinələr yola salmış, tarixin neçə-neçə qanlı olaylarına şahidlik etmiş ulu şəhər – İçərişəhər..." – deyir. Uluyurdda gördüklərindən, oğuz türkünün tarixinə eksklüziv başvurmasından son dərəcə təsirlənən şair Fəxri xiyabanda sanki Güneylə Quzeyi yan-yana görür – Təbrizdən Bakıya 1946-cı ildə pənah gətirmiş bir sıra şairlərimizin və 21 Azər hərəkatının lideri, MDF-nin başçısı Seyid Cəfər Pişəvərinin də uyuduğu bir şərəf müzeyi - Fəxri xiyabanla bağlı içində baş qaldıran duyğular dəftər-kağıza sığmır... Bu, bir gerçəkdir ki, o taylı-bu taylı Azərbaycanda bu gün də şeir ənənəsi öz gücünü, üstün mövqeyini qoruyub saxlayır. Bə-

dii nəsrin tarixi boyunca müəyyən mərhələlərdə "roman bumu" yaşansa da, yenə poeziya öz aparıcı mövqeyini itirmədi.

Qardaş Türkiyədə də son çağlar roman janrını şeirdən önə keçirmək, nəsrə daha çox önəm vermək tendensiyası izləndi, amma yenə də modern şeir yazılı ədəbiyyatın ən fəal dili olaraq qaldı... Bu ilin ədəbi prosesində, eləcə də poema janrında yazan qələm adamlarının yaradıcılığında da bu xətt aydın şəkildə özünü göstərir.

Bu tendensiya Kiyan Xiyavın, Fərid Hüseynin, Əhməd Qəşəmoğlunun və Sona Vəliyevanın poemalarında da izlənir. Sərbəst şeir səpkisində qələmə aldığı "Rəsul" poemasında Əhməd Qəşəmoğlu qəlbindən keçənləri, rahatlığını pozan, yuxusunu ərşə çəkən nüansları, kədərli düşüncələrini böyük şairin-lirik "Mən"in dilindən oxuculara ünvanlayır. Hər zaman düşünən Rəsul Rzanın öz-özünə verdiyi suallar və bu suallara cavabları, əsl vətəndaş mövqeyi düşündürücüdür:

Xalqım! – deyən hər kəsi zindanlarda çürüyən,
öldürülən vətəninin,
ürəyi oyulan, qəlbi tapdanan, tarixi unutdurulan,
söyülən vətəninin...
yaraları köz verən, qorxu, hürkü içində susdurulan,
uyuyan vətəninin...
dərdindən daha çox danışmağa, çarələr axtarmağa
məqam yetmişdi...[1]

[1] Əhməd Qəşəmoğlu. Rəsul. "525-ci qəzet", 18 may 2018-ci il.

Əlbəttə, Əhməd Qəşəmoğlunun “20 Yanvar”, “Rəsul” və “Cavanşir” adlandırdığı üç poemasının hər birində diktatura rejiminin sonucda iflasa uğrayacağına əminliklə yanaşan və mübarizə aparan ədəbi, bədii-tarixi qəhrəmanların daxili-psixoloji durumu canlandırılır. Bu qəhrəmanları yetirən mühit bütün cizgiləri ilə təsvir olunur. Lakin vahid süjet xəttinə malik “Rəsul” poemasında detallara varma ustalıqla edilir. “İnsan”, “Ömrün pöhrə yaşı”, “Suallar”, “Otuzuncu illərin Bakısı”, “Nigar”, “Zəka”, “Vətən uğrunda”, “Neispravimıy”, “Mığmığalar”, “Ensiklopediya”, “Rəsul ömrü”, “Rəsulun şeiri” adlı bölmələrdə Rəsul Rzanı yetirən dövr, uşaqlığı, bədii yaradıcılığa başladığı illər, eləcə də şair ömrünün mübarizə çağları bütün mərhələləri ilə oxucunun gözləri qarşısında canlandırılır. Ə.Qəşəmoğlu sanki maarifçi-öyrədici ziyalı mövqeyindən çıxış edir və oxucuda qəhrəmanı haqqında tam təsəvvür formalaşdırmaq üçün həmin mərhələnin mənzərəsini cızır. Bu mənzərələr içində otuzuncu illərin rəngləri daha tündlüyü və kəskinliyi ilə seçilir. Bəlkə də şairə illər sonra “Rənglər” silsiləsindən o mükəmməllikdə şeirləri yazdıran düşüncələrinin alt qatında donub qalan həmin tünd rənglərin ağrısı olub, kim bilir?! Şairin qələmi otuzuncu illərin Bakısını poemada boz rəngdə cızıb, yaşamı dəhşətlərin bağırdığı boyalarla rəngləyib... Üçrəngli, ay-ulduzlu bayraq altında “Vətən”, “Müstəqillik”, “Ədalət” yolunda ölümə gedən Rəsulzadələrin qırılıb, zindanların küncünə və sürgünlərə göndərilib səsi öləziyən bir çağ, xaraba küçələr, gizlənməyə yer axtaran dindarlar, bolluq ümidi, çörək müjdəsi gözləyən insanların yaratdığı otuzuncu illərdə... dizi üstə çökdürülmüş, igidləri öldürülmüş elin gənc bir şairi idi

Rəsul Rza... Zaman son dərəcə ağır zaman idi – Vətən ikiyə bölünmüşdü – bir üzü qara, bir üzü qırmızı geyinmişdi... Bakı qaynayan qazana döndərilmişdi… Vay o adamın halına ki, duyduğunu, inandığını, gerçəkləri yazaydı. …Öz çarını arvad-uşaqlı bıçaqdan keçirən, tikə-tikə doğrayan, diri-diri yandıran, kilsələri uçurub, keçmişi yamanlayan, min-min işıqlı zəkanı məhv edən, damlayan bolşeviklərin Rusiyaya, Azərbaycana, bütün cahana dərs verdiyi məşum çağlar idi… "Lenin", "Stalin", "Kreml", "Oktyabr", "oraqçəkic", "proletar", "bolşevik", "komsomol" sözü olan hər cürə cızma-qara taledən, zəmanədən, sevgidən yazan bayatı, qəzəl, qoşmalara, bütünlükdə xalq yaradıcılığına qarşı olum-qalım savaşı açmışdı... Otuzuncu illərin qəlbi yaratmaq, yüksəlmək eşqi ilə coşub-daşan beyni qan, dəlidolu cavanlarının çoxu isə "bu aşın harada bişdiyini" bilmir, "mənəm-mənəm" deyirdi... Hər yanda tikanlar, tilsimlər qalmış, bir əli boşalan Mərkəz bir əlində əvvəlki qılıncı saxlamışdı... İndi xalqın istiqbal yolu, xalqına kömək yolu, azad bir insan kimi yaşamaq, düşünmək yolu minalanmış zəmiyə çevrilmişdi sanki... Əhməd bəyin bədii qəhrəmanı, xalqının şair oğlu belə bir dövrdə yetişmişdi... Müəllif yana-yana yazır ki, artıq müdriklər səviyyəsində yetişmiş Rəsul şeirlərində "düzü düz, əyrini əyri" deyə bilmədikdə eyhamlar dilinə cevirib ürəyindəki dərdlərinə, könül nisgilinə əlac axtarmalı olur və hərdən də yuxularında eramızdan altı əsr əvvəl Yunanıstanda yaşamış kölə-filosof Ezopu görürdü... Ə.Qəşəmoğlu daxili dialoq qurur, R.Rzanın şeirlərindən gətirdiyi uyğun örnəklərlə fikrini möhkəmləndirir, hətta "qınamayın İsgəndəri, yaman olur anlamaq dərdi..." ağrısı qəhrəmanının çıxış yolunu da bə-

lirləyirdi: *"Yalan axtarıram, yalan, elə bir yalan ki, lazer şüaları da keçə bilməsin ondan. Mən ona acı həqiqəti bükəcəyəm, üstündən də söz şərbəti tökəcəyəm...*[1]

Qəlbindən Sabirin, Mirzə Cəlilin ağrısı keçən Rəsul Rza bəzən Ezopla məsləhətləşir, Ezop dilini onu sevənlərə, hər şeirini gözləyib ona güvənənlərə də öyrədirdi. Bəzən qədim Yunan, İslam müdrikləri ilə baş-başa qalır, Nizamidən kömək istəyir, Nəsimi, Füzuli, Sabir kimi dahilərlə dərdləşirdi. Beləcə tez-tez zalımların zülmü altında inləyən dünyanın uzaq-uzaq ölkələrində yaşayan xalqlardan, Xəzri küləyinin dalğa-dalğa qum gətirib məğmun elədiyi, kiçik-kiçik qum təpəcikləri yaratdığı bağlardan, xırda balıqları udan qoca timsahdan yazırdı... Qəlbində keçən günlərin həsrəti və itkilərimizin doğurduğu dərd yükü titrək-titrək köz verəndə əsrin əvvəlində may günü "bir kərə yüksələn" hava rəngli, günəş rəngli, zəmi rəngli bayrağı vəsf edən "Azadlıq" adlı şeiri yarandı. Şairin rəmzlər vasitəsilə mənalandırmaları müəllifin və ədəbi qəhrəmanın saxlanclarını hayqırdı:

"...Günəşli bir gündə,
qəzəbli bir ölkənin üstündən
endirildi ölüm kölgəli bayraq.
qollarını geniş-geniş açdı insan.
qucaqlaşdı hava, günəş, torpaq".[2]

Poemada "lirik mən" təmiz, aydın, başadüşülən, anlaşılan və insanın – hər bir Azərbaycan türkünün düşüncələ-

---

[1] Əhməd Qəşəmoğlu. Rəsul. "525-ci qəzet", 18 may 2018-ci il.
[2] Yenə orada.

rinə, hisslərinə doğma olan bir dillə hadisələri, xalqın və onun aydınlarının bəlalı taleyini danışır. Lirik şair həm qəhrəmanın, həm də özünün hekayəsini, qədərini nəql edir. Poemada Ə.Qəşəmoğlu Azərbaycan ədəbiyyatında sərbəst şeir şəklini inkişaf etdirərək zirvəyə qaldıran və ən mükəmməl örnəklərini yaradan novator şair Rəsul Rzanın obrazını, onun bioqrafiyasını, ömür kitabının səhifələrini vərəqləyərək yaşadığı hadisələr burulğanında yaradır. Böyük maarifçilik, öyrədicilik funksiyasına malik "Rəsul" poemasında bitkin süjet xətti müşahidə olunur və bu xətt yadda qalır. Lakin hadisələrin xronoloji ardıcıllıqla bir-birini izləməsi, olaydan olaya keçid ustalıqla verilsə də, poemanın əksər hissələri nəsrlə yazılmış mətnlər kimi oxunur. Bədii dilin kasadlığı, poetik səviyyənin yetərsizliyi təəssüf doğurur. Bu qənaətimiz həm "Rəsul" və "Cavanşir", həm də "20 Yanvar" poemaları, həmçinin "İki daş", "İnqilab" əsərləri üçün də keçərlidir. Poeziya nümunəsi, şeir o vaxt ruhu tərpədir ki, lirik ricətlər, poetik ovqat qəlbi riqqətə gətirir, ruhu qanadlandırır. Axı, ədəbiyyat, poeziya əli çatmayana əlinin çatması, ayağının dəyə bilmədiyi yerlərə ayağının dəyməsi, hətta yeriməsi, xəyalın erdiyi məkanlara ruhun da "qonması" deməkdir... Bu əlçatmaza yetmə, zirvəyə "qonma" aktual mövzunu yüksək lirik-poetik təsvirlərlə, ecazkar bədii dilin sərgilənməsi ilə mümkünləşir. "Cavanşir" əsərindən örnək aldığımız:

Dumanında çiçəklərin əksi gülən, danışan,
Buludları əlvan-əlvan, bir-biriylə yarışan,
Zirvələrdə dümağ qarı şəfəqlərə qarışan,
Yaşıllığın növrəsliyi bir ruh kimi sayrışan,

Gözəlləri güldən incə, igidləri dağ nişan:
adı Laçın, özü laçın el getdi...
getdi Laçın, Laçının yolu da getdi...[1], –

kimi lirik-psixoloji ovqatda yazılmış bədii hissələr hər üç poemada azlıq təşkil edir. Müəllif Azərbaycan xalqının əsl simasının, milli kimliyinin göstəricisi olan xarakterik cəhətlərini, portret cizgilərini əsərdə böyük ehtiram və sevgi ilə yaradır və əsəri ağrılı notlarla başa çatdırır. Düşmən gülləsinə tuş gələn və son nəfəsində sevgilisinin qolları arasında "Cavanım! Cavanım!" deyib inləyən Humay bircə təsəllisini... sevinclə Cavanşirinə pıçıldayır: "Yaxşı ki, vurdular məni... əsir aparmadılar..." Nakam Humayın, ermənilərə əsir düşən qız-gəlinin başına gətirilən ağlasığmaz faciələrdən xəbəri vardı... Və Əhməd Qəşəmoğlu vətəndaş yanğısı ilə, ürəyinin qanı ilə düşüncələrini qələmə alıb, bu poemalarda öz yanaşması ilə eyni dərəcədə xalqın, onun aydınlarının da mövqeyini sərgiləyib... və "Cavanşir" poemasında da şairin maarifçi-öyrədici missiyası davam edir. Nə qədər qabarıq versə də, həmin cizgilər nəsr təhkiyəsi kimi qəbul edilir, poetiklik, bədii səciyyə çatışmır (Bu qənaətimiz Araz Əhmədoğlunun "İki daş" poemasına da şamil edilə bilər). Amma ideya, məzmun, vətənpərvərlik, yurdsevərlik, dosta hörmət, düşmənə nifrət hissləri, bitkin süjet xətti, kompozisiya məsələləri hər üç poemada müsbət həllini tapır. "Arsax!" deyən qanmadı, "Arsax" – "Ər-sak"

[1] Əhməd Qəşəmoğlu. Cavanşir (Poema). "525-ci qəzet", 18 may 2018-ci il.

deməkdi. Oyun onun başında bir ilgək, bir kələkdi... Bura Ər-sak torpağı, sən ki sonra gəlmisən, gəlməyin tarixinə də abidə yüksəltmisən. Qarabağda oyunlar getdikcə dərinə, insanlar baxdıqca Kremlin əməllərinə, Qorbaçovun axan gözlərinə, Bakıda aləm dəydi bir-birinə...” misralarında Əhməd bəyin demək istədiyi mətləbin konturları bütün aydınlığı ilə açılır və oxucunu məsələnin mahiyyətinə varmağa, münaqişənin səbəblərini daha dərindən öyrənməyə kökləyir...

Tarixi mövzularda qələmə alınmış poemalarda ritm, intonasiya və mövzu oxşarlığı, motivlərin eyniliyi, obrazların yaxınlığı müəyyən yeknəsəqlik yaratsa da, onlar bütöv bir romanın ayrı-ayrı fraqmentləri, hissələri kimi oxunur, dözülməz mənəvi ağrılarla, faciələrlə üzləşən insan həyatının anları, hiss və duyğuları, fikirləri alt-üst edən, səni səndən alan müsibətli talelərin tükürpədici yaşantıları şeirləşdirilir, poeziyanın ecazkar dili ilə nə vaxtsa lentə alınan bədii-sənədli film kimi görüntülənir.

Nəriman Həsənzadənin “İstiqlal əsgəri”, Fikrət Qocanın “İnqilab”, Fəxrəddin Ziyanın “Çanaqqala savaşı”, Əhməd Qəşəmoğlunun “20 Yanvar”, “Rəsul” və “Cavanşir” poemalarını oxuyarkən istər-istəməz Q.Q.Markesin diktatorlarla bağlı fikri xatırlanır: “Gücünüz artdıqca kimin yalan, kimin doğru dediyini anlamaq çətinləşir. Sərhədsiz gücə çatdıqda həqiqətlə heç bir əlaqəniz qalmır və bu, tənhalığın ən pis halıdır. Diktator nəticədə onu həqiqətdən təcrid etmək məqsədi daşıyan insanlar və öz mənfəətləri arasında ilişib qalır, hər şey onu təcrid etmək üçün harmo-

niya halında olur”[1].

Əslində bu fikir diktatorların başında durduqları rejimin də ağalıq iddiasını və hegemonluğun – imperiyaların təklənərək sonucda süquta – diktatorlar üçün fəlakətə çevrilən devrilməyə məhkum olduqlarını anladır... Eyni zamanda bu poemalarda ermənilərin xəyanətkar xisləti də bir daha ədəbi müstəviyə gətirilir. Fikrət Qoca bu xəyanətkarlıq üzündən başımıza gətirilən fəlakətlərin tarixini vərəqləyir və gördüyü yuxunun şərhindən başlayır. Rus generalı Sisianovun İçərişəhərin qala qapılarını açmaq üçün açarları tələb edən başsız bədəninin bu iqtidarda olmadığına və sonda kəsilmiş başını qoltuğuna vurub qaçmağına poetik yanaşan şair başsızların ana yurdunda necə at oynada bildiklərinin səbəblərini açıqlamalı olur və Mart soyqırğınından başlayır. Mahmudun oğlu Güloğlanın kirvəsi erməni Vartan Bakının küçələrində qan su yerinə axarkən guya onu gözləyən ölümdən qurtulmaq üçün kirvəsinin qapısını döyür. Xanımı Yaxşı ərinə Vartanın şirin dilinə aldanıb qapını açmamağı məsləhət görür, iki gündü bizi qırıb-çatan, qanımızı axıdanların da məhz ermənilər olduğunu xatırladır. Lakin Mahmud kirvəsinin yalvarışlarına dözməyib, Azərbaycan qonaqpərvərliyi və humanizminə sadiq bir oğuz türkü kimi, darda qalana əl uzadıb qapını açanda erməni düşmənçiliyinin ən iyrənc, ən qəddar sonucuna şahid olur. Fikrət Qoca bu səhnəni özünəməxsus təhkiyə üsulu ilə təsvir edir:

Mahmud qapını açdı, Vartan da atəş açdı.

---

[1] The Paris Review. 82-ci sayı, 1981 [1] “Nyu-Yorker” jurnalında çap olunub. [2] Deep South. Amerikanın mühafizəkar cənub-şərqinə məxsus ədəbiyyat. Tərcümə etdi: İlahə Əkbər Sim-sim.az

- Mahmud can, sən bağışla, gülləm çox azdı, eli,
Hərənizə bir güllə tapmışam yeli-yeli...
Amma Güloğlan üçün...
- Vartan, bir ona dəymə, bircə oğluma dəymə...
Off, Allah, öldüm Allah...
- Ölmə, türk köpəyoğlu, gözünlə gör, yaxşı bax!
Anuşa aparacam Güloğlanın başını,
O arvadın Yaxşının iki qızıl dişini...[1]

"Ədəbi-tarixi prosesin dəyərləndirilməsində tarixilik prinsipinin, geniş mənada tarixi gerçəkliyin reallıqları, ədəbi prosesin immanent gedişatı və "üstqurumlu" sosioloji meyillərin təsiri, ədəbi meyil və qüvvələrin nisbəti və s. nəzərə alınmaqla ardıcıl tətbiqi[2] poemalarda keyfiyyət dəyişikliklərinin yaranmasını, məzmunun tarixi hadisə və günün reallıqları əsasında qurulmasını da şərtləndirir. Fərid Hüseynin "Səmərqənd divanı", Fikrət Qocanın "İnqilab", Nəriman Həsənzadənin "İstiqlal əsgəri", "Xəlvətdə yanan şam", Kəramətin "Cəzb və kütlə hökmü", Əhməd Qəşəmoğlunun "20 Yanvar", "Rəsul" və "Cavanşir", Fəxrəddin Ziyanın "Çanaqqala savaşı" adlı minimalist poeması tarixilik prinsiplərinin poetik təhkiyə müstəvisinə gətirilməsi, ölkə və xalqımızın həyatında baş vermiş hadisələrin lirik-romantik ovqatda oxuculara təqdim olunmasıdır.

Fəxrəddin Ziyaya "Çanaqqala savaşı" poemasını yazdıran önəmli səbəblər vardı. Tarixi mənbələrdən məlumdur ki, 1914-cü il noyabr ayının 3-də başlayan və 1915-ci

---

[1] Fikrət Qoca. İnqilab. "Azərbaycan", Aylıq ədəbi-bədii jurnal, 2018, Sayı 2, s.58.

[2] http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/m-d-niyy-t/item/240-tarikhae-tarikhi-yanashma

il 18 mart tarixinə qədər davam edən və günümüzədək ədəbi əsərlərin mövzusuna çevrilən Çanaqqala savaşı, həmçinin 25 aprel 1915-ci ildən 1916-cı ilin 8-9 yanvarına qədər Gelibolu yarımadasında gedən döyüşlər türk hərb tarixinin ən şərəfli səhifələrindən biri, qəhrəmanlıq və zəfər dastanıdır. Bu dastanı yaradan igidlərdən biri də yanındakı topçuların hamısı şəhid olaraq döyüş səngərində tək qalan onbaşı – Seyid çavuşdur. Bu ağır yaralı, qəhrəman türk topçusu görür ki, düşmən "Aqamemnon" adlı döyüş gəmisi artıq boğaza tam yaxınlaşır və əgər gəmi boğaza girərsə, Anadolunun taleyi həll olunacaq – türk ordusu məğlub olacaq və düşmən İstanbulu işğal edəcək... İxtiyar çağlarında vətənin müdafiəsinə qalxıb ölüm-dirim döyüşlərinə atılan Seyid çavuş isə təkdir. Bir az aralıda isə 276 kq-lıq bircə top mərmisi qalıb. Adi vəziyyətdə bu mərmini bir nəfərin götürüb topun lüləsinə qoyması ağlabatan iş kimi görünmür. Amma döyüş yoldaşlarını itirib düşmənə nifrəti ilə təkbaşına qalmış onbaşının qollarına birdən özünün də baş açmadığı qeyri-adi güc gəlir və o, cismindən dəfələrlə ağır olan mərmini bir andaca götürüb topa qoyur və atəş açır. Bu atəşlə o, gəminin gövdəsini dağıdaraq batırır. Beləliklə, Seyid çavuşun bu qəhrəmanlığı düşmənin geri çəkilərək qaçmasına səbəb olur. Bir sözlə, bir mərmi, bir nəfər topçu Çanaqqala döyüşünün taleyini həll edir, misilsiz qələbə qazanılır. Həkim-şair F.Ziya "Çanaqqala savaşı" poemasını həmin qəhrəmana – dünya hərb tarixində mislibərabəri olmayan bir igidlik göstərmiş Seyid onbaşıya və şanlı türk ordusunun son qələbə vuruşuna həsr edib:

"Çanaqqalada türk əsgərlərinin göstərdiyi mətinlik və cəsarət düşmən generallarını və siyasi xadimlərini belə

heyrətə gətirib. İngiltərənin baş naziri Uinston Çörçill "Türklər Çanaqqalada ən müasir silahlarla silahlanmış güclər qarşısında bir qala kimi dayanmışdılar", ingilis generalı Oqlander isə "Türk əsgərlərinin döyüşdə göstərdikləri igidliklərin nəzərə alınmaması ingilislər üçün fəlakət oldu" demişdilər"[1]. Bir orduya verilən bir dərs kimi də dəyərləndirilən Çanaqqala savaşında misilsiz tarixi qələbənin qazanılmasında Qazi Mustafa Kamal Paşa Atatürkün döyüş qəhrəmanlarına və unikal olaya özünəxas baxışına da poetik münasibət sərgiləyən F.Ziya, əslində bu dərsi müharibə şəraitində yaşayan bütün xalqlara, komandanlara və ordulara da şamil edir, diqqəti qəhrəmanlıq ruhunda köklənməyin vacibliyinə, hava, su kimi gərəkliliyinə yönəldir. Atatürkün savaşı vəsf edərək müdrikcəsinə söylədiyi fikirləri örnək sayır və ən önəmlisi, bu fikirlər reallıqların, gerçəkliklərin əks-sədası olaraq təqdim olunur:

Vətən qurbanlarına saxlanılmaz yas, – demiş,
Qəhrəmansız, şəhidsiz torpaq qorunmaz! – demiş!
Türk qadını onları yenə də doğar! – demiş...
Əgər Türkiyə ölsə, bir ana Türkiyəni
Bir daha doğmaz – demiş![2] –

Mustafa Kamal Paşa Atatürkün mükəmməl obrazını Əjdər Yunus Rza FB səhifəsində yayınladığı "Atatürk das-

---

[1] https://azertag.az/xeber/CHanaqqala_zeferi. Turk_xalqinin seref_ve_qehremanliq_salnamesi-849815

[2] Fəxrəddin Ziya. Çanaqqala savaşı. "Ədalət" qəzeti, 26 dekabr 2018-ci il, s.7.

tanı” poemasında da yaratmış, liderin ideallarını, arzularını, xilaskarlıq missiyasını öz duyğular dünyasından keçirərək poetikləşdirmişdir.

Fəridin “Səmərqənd divanı” modern poeması da tarixin dərin qatlarına və türk milli kimliyinə açılmış bir pəncərədir. Poemanın özəlliklərinə öncə Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın fikirləri ilə işıq salmaq istəyirəm: “Şərqin Roması” adlandırılan bir şəhərin – Səmərqəndin tarixi yerlərini gəzən, bu səfər zamanı şəxsi, ictimai, fəlsəfi duyğu və düşüncələrini, əbədiyyət, fanilik və ötəriliklə bağlı fikirlərini bölüşən şairin monoloqudur. Bu monoloq şəhərin – Səmərqəndin tarixi ilə uğurlu şəkildə bağlanır, bəzən oxucuda tarixi-poetik esse təəssüratı yaradır”.

Gerçəkdən, epik və lirik vüsətin paralel üstünlüyü aydın görünən “Səmərqənd divanı” poetik silsiləsi müxtəlif tarixi hadisələr, xarakter və olayların, konfliktlərin axınında təqdimatıdır. “Bədii təzadlar və rəmzlər, assosiasiyaların zənginliyi, poetik keçidlərin güclü məntiqi və ya lirik-fəlsəfi monoloqlar, poetik müraciətlər”[1] poemanın dramatizmini, hadisə, duyğu və hisslərin hərəkət və inkişaf xəttini şərtləndirən əsas amilə çevrilir: “Sən demə, yalanla həqiqət, əhvalatla olmuşlar siam ekizləriymiş – biri öləndə, o biri də yaşamır. Ona görə hər dövran öz yalanıyla, hər vaxt öz həqiqətiylə sulayır könül səhramızı, evimizi, eşiyimizi, çatlamış tale məzarını, bəxtin xarabazarını”, – misralarındakı əksliklərin vəhdəti gerçəklərin poetik biçimdə açıq etirafıdır. Əslində, gənc Fəridin poema boyunca hədəflərə

[1] Şirindil Alışanlı. Ədəbi-bədii düşüncənin sərhədləri, Bakı: “Sabah”, 2010, s.173.

ünvanladığı sorğular tarixən buraxılan səhvlər, yanlışlar üzündən yurdumuzun və xalqımızın düşürüldüyü acınacaqlı durumun səbəbkarlarına və tarixin dəllallarına qurulmuş haqq divanını – məhkəməni xatırladır. Əsər boyu lirik-poetik təhkiyə üsulu ilə anlatdıqlarında gənc şairin daxili etirazları, razılaşmadığı məqamlar da nəzərdən qaçmır... Bütün duyduqları və fəhmlə anladıqları gerçəklərin özü, yaşananların və yaşanmışların çılpaq üzü, fani dünyanın görən gözləri kor edən, duyğuları korşaldan, həzz və keyflərinə uyub insanlığını itirənlərin və çox şeyləri – gözə görünməyən, dəbdəbə və hay-küy içində itirilməkdə olan insan münasibətlərinin, dədə-baba torpaqlarını, hakimiyyəti, milli-mənəvi dəyərləri bada verənlərin qulaqları batıran səsi, yaxın və uzaq keçmişin əks-sədasıdır... Bəli, Fəridin "Səmərqənd divanı" silsiləsində "zamanlar güzgülü zal kimidir; hansı tərəfə dönsən, fanilik duyğusunun dəyişməz əksi ilə üz-üzə qalırsan..."[1]

"Səmərqənd divanı"nda daxili "süjet" mütəhərrikdir, özü-özünü qırıb parçalayır, sonra qırıqları bir araya gətirir, kompozisiya vahidi olan üslubi funksionallıq sıçrayışlarla irəliləyir. Ancaq bu sıçrayışlar daxili "dramaturji xəttə", "iç-içə geydirilmiş poetik təhkiyə müstəvisində" həll edilir və zamanla dərinlərə işləyib orda gizlənir, görünməz olur. Divan, əslində, eyni zamanda həm monoloq, həm də dialoqdur ("poema janrının "poema-monoloq", "poema dialoq", "süjetsiz poema", "poema-müraciət" formalarının funksionallıq qazanması" fikri özünü doğruldur – müəlli-

[1] Kənan Hacı. Faniliyin əyaniliyi, "Ədəbiyyat qəzeti", 22 dekabr 2018-ci il.

fin qeydi). Şairin özüylə, zəmanə ilə, deyə bilmədiklərinin rahat, hətta qafiyələrlə süslənmiş ifadə etdikləriylə. Bu silsilə şairin Səmərqənddə gördüklərinin, hiss etdiklərinin bütün ömrü boyu yaşadıqları ilə həm oppozisiyası, həm də hardasa barışmasıdır, yəni özündən kənara qoyub tamaşa etməsidir. Silsilə məhz bu məqamı əks etdirir. Həm də qəlbinə səcdə etməsini..."[1]

Əlbəttə, bu poetik silsilə təkcə "poeziyamızda, həm də onun (Fəridin – E.F.) yaradıcılığında yeni mərhələyə keçidin başlanğıcı"[2] deyil, həm də ənənəyə qayıdış, Xaqani Şirvani irsinin incisi sayılan, "həyatın və cəmiyyətin amansız qanunlarının dərin sükutla haray qopardığı, uçuq tağlardakı daşların hər naxışının bir tarix danışdığı"[3] "Mədain xərabələri" məsnəvisinə yaradıcı baxışın pıçıldadıqlarına yeni təfəkkür işığında bir nəzərdir. Silsilənin preampulasında gənc şairin: *Fanilik duyğusuna ithaf edilir... "Zənn eylə o əyyamdır, fikr ilə nəzər sal gör, Dərgah haman dərgahdır, meydan da haman meydan. Söylər: ayağın bərk bas, göz yaşını tök rahat, Biz torpaq olub getdik, sən də diri torpaqsan. Xaqani Şirvani. "Mədain xərabələri""*[4] – qeydi onun klassik irsimizdən, tarixi keçmişimizdən öyrənmək, daha çox nəsnələri əxz etmək eşqini, dahi Xa-

---

[1] Cavanşir Yusifli. Səmərqəndə yağan qar. "Ədəbiyyat qəzeti", 29 noyabr 2018-ci il.

[2] Yenə orada.

[3] Xaqani Şirvani. Seçilmiş əsərləri. "Lİder nəşriyyat", Bakı, 2004, 672 səh, s.8.

[4] http://edebiyyatqazeti.az/news/poeziya/2402-semerqend-divani-poetik-silsile;www.anl.az/down/meqale/edebiyyat/2018/.../605273.htm

qani Şirvani yaradıcılığına bağlılığını göstərir. Gənc bir şairin səssiz yaşayan tarixin itən, ilğımlara qarışan addım səslərini dinləmək, Adəm övladının ayrı-ayrı yaşam mərhələlərini, tiranların, fatehlərin ağalıq iddialarının kökündə duran nədənləri öyrənmək və nəzmə çəkmək cəhdi uğurlu alınıb:

Tarixin adətidir səssiz yaşamaq,
Bizim adətimizdi itən addım səslərini dinləmək:
Qanlı saraylarda, sağalmayan yaralarda[1].

Fərid Hüseynin "Səmərqənd divanı" və Kiyan Xiyavın "Təbriz və biz – ikili yalnızlıq" poemalarında poeziya və epik şeirin, eyni zamanda oxucunun öyrəşdiyi şablonlar, əski təqdimatlar sıfırlanaraq yox dərəcəsinə enir, ahəng, ritm və intonasiyanın, bədii ricətlərin, fikrin obrazlı ifadəsinin, lirik ovqatın yeniləşdiyi, lirik və epik vüsətin qoşa qanad kimi paralel uçuş trayektoriyasında olduğu apaydın görünür və tarixi köklərə söykənən bütün bu təzələnmələr ötəri baxışla deyil, üzərində düşünülərək qavranır.

"Səmərqənd divanı"nda Fərid "şəhadət nəhəngi adlandırdığı və əlçatmazlığa aşiqliyi öyrədən göylərə boylanarkən, uzun müddət səmanın intəhasız dərinliyinə, ulduzlara, aya baxarkən nələri görür, dəqiq müşahidələri nələrdən xəbər verir, hansı sirləri açıqlayır ona? Əfsuslar ki, şairin görüb müşahidə edə bildiyi ulduzlar, ucsuz-bucaqsız səma

---

[1] http://edebiyyatqazeti.az/news/poeziya/2402-semerqend-divani-poetik-silsile; www.anl.az/down/meqale/

susqun, dinməz və sirlərini ələ verməyəndi... Bu məqam da oxucuda ciddi maraq doğurur: Gənc şairin ibrət aldığı mətləblər çox dərindi. İbrət almağa, dərs götürməyə dəvət etdiyi günümüzün adamları isə min təəssüflər ki, daha səmaya baxmağa vaxt tapmır, susmağı göylərdən öyrənmək istəmir və anlamırlar ki, deyilməyən, qəlblərdə dustaq edilən sözlərin qiyamət günü gələcək və alacaqları öc (qisas) dəhşətli olacaqdır. Şair "Ulduzların səyahətini, səmanın sevgisini, ilin günlərini bircə günlük yanlışla öyrənən bəndələr"[1]in, elmi hücrələrdə[2] mənimsəyən aydınların tikdiyi ibrət köynəklərinin cahil cəsarətlərinin əyninə gəlmədiyini kinayə ilə poetikləşdirir:

Şair qəlbində sözlərin qiyamət günü var,
o sözləri ki, deyə bilməmişik,
o kəlmələri ki, beşiyində boğmuşuq, o sözləri ki, susmuşuq,
həmin körpə sözlər bir gün qundaqlarından qalxacaqlar,

---

[1] Bu misrada Uluqbəy rəsədxanası və məqbərəsi, oradakı elm adamlarının fəaliyyəti nəzərdə tutulur. Uluqbəy (Sultan Al əüd dövlə Uluq bəy Gurkan, Turğay Mirzə) 1447-ci ildən Teymurilər sülaləsinə başçılıq edib, mədrəsə və rəsədxana yaradıb, onun hakimiyyət illəri elmin sürətli inkişafı dövrü kimi orta əsr elm, sənət tarixində mühüm əhəmiyyət kəsb edir.

[2] Binalar daxilində hücrələr tikmək sufi fəlsəfəsi, əxlaqi üçün çox uyğun memarlıq üslubudur. Səmərqənddə əksər tikililərdə hücrələr var. Hücrələr ölümü düşünmək, ölümdən əvvəl ölmək anlayışını ifadə edir, faniliyi, gəldi-gedəriliyi, hədərliyi simvolizə edir. Eyni zamanda bu cür hücrələr darlığa sığınmaq, kiçik bir yerdə yaşamağın mümkünlüyünü, gözütoxluğu təlqin edir.

bələklərinin iplərini açıb boynumuza dolayacaqlar
və bizi yaşadığımız yalanlar boyu sürüyəcəklər...[1]

Fərid Hüseynin Səmərqənddə görüb müşahidə etdikləri əsasında yaranan düşüncələrin mayasına tarixi bilgiləri də sintez etmələri, klassik Azərbaycan və dünya ədəbiyyatı örnəklərindən yaradıcılıqla bəhrələnmək və sanballı sonuca varmaq missiyasını yürütmək niyyətləri Araz Əhmədoğlunun "İki daş" poemasının da mahiyyətində qorunur. Araz bəy "İki daş" poemasını bir millətin, xalqın məzlumluq tarixi kimi səciyyələndirir. İngilis ədəbiyyatından oxuduğu daşla kəsəyin dialoqu üzərində qurulmuş iki şeirin motivlərindən qaynaqlanaraq zehnində doğulan fikir, ideya və Güney türklərinin ənənəvi olaraq hər il Babəkin doğum günündə-iyun ayının 1-də Güney Azərbaycan Milli Oyanış Hərəkatı təşkilatının rəhbərliyi ilə güneyli soydaşlarımızın Bəzz qalasına növbəti yürüşü zamanı müşahidə etdikləri "İki daş" poemasının yaranmasına səbəb olur. Azərbaycan türklərinin qəhrəmanlıq simvoluna çevrilən Babək//Bəzz qalasına çıxarkən dağdan (bəlkə də qəsdən atılmış?!) qopan iki daş yürüşçülərin içinə dığırlanır və yürüşçü bir xanımla gənc bir oğlanı yaralayır. Təsadüfən bu hadisəni görən şair şahidlik etmək üçün əsəri həmin iki daşın dialoqu üzərində qurur. İki daş həm Azərbaycan xalqının tarixinin, keçmişinin canlı şahidi, həm də Ulu yurdun qədimliyinin, sərt təbiətinin simvoludur. Poemada keşməkeşli tariximizin bəlalarını özündə simvollaşdıran

[1] http://edebiyyatqazeti.az/news/poeziya/2402-semerqend-divani-poetik-silsile; www.anl.az/down/meqale/

daşların sərtliyinə baxmayaraq, onlar həm musiqini, həm təbiətdəki gözəllikləri, həm də insanların sərt xarakterli və daşürəkli olduğunu duyurlar… "İki daş"da Araz Əhmədoğlu diqqəti öncə Kəleybərin, yəni vətənin gözəlliklərinə, sonra tariximizə və Babəkin qətl səhnəsinə yönəldir. Oradan aşıqlarımızın musiqisinə, qarı düşmənin bu musiqi, şeir və mədəniyyətdən vəhşətə gəlib qurduğu xain planlara yönəlir. Bir opera kimi hər səhnəni canlandırır, pisi də, yaxşını da, mərdi də, namərdi də göstərir. Şairin əsəri yazmaqda amacı Kəleybərdə və Güneydə milli haqlarımızı səsləndirən yüzlərcə igidimizi, o cümlədən özünün də rejimin qoluzorlularının iki qardaşını zindana salıb cərimə etmək kimi cinayətləri dünyaya çatdırmaq və tarixin səhifələrinə həkk etdirməkdir. Eyni zamanda Bəzz qalasında baş verən hadisələri bədii şəkildə oxucunun gözləri önündə sərgiləməkdir. Uğurlu alınmış poemanın Arazın o tayında aşiqləri çoxdur. Evlərdə, ailələrdə sevilə-sevilə oxunur və hər kəs gəldiyi sonucu, təəssüratlarını digər soydaşları ilə bölüşür, duyğularını bir-birilə paylaşır:

Yalnız oturub mürgülü gözlər ilə
Heyranlıqla dalmamışdıq
Bu cənnətin, bu yetim-yesir cənnətin,
Bu yiyəsiz buraxılmış gözəlliyin
Tamaşasına, seyrinə!

Xalq şairi Nəriman Həsənzadənin "Zümrud quşu", "Nəriman", "Kimin sualı var?", "Pompeyin Qafqaza yürüşü", "Nuru Paşa", "Qaçaq Kərəm", "Cavid", "Seyid Nigari türbəsi", "Nizami", "Xarı bülbül", "Qarabağdan gə-

lən var”, “Poylu-beşiyim mənim”, “Sözü tara verin!” epopeya-poemaları oxuculara, heç şübhəsiz, ötən illərin ədəbi prosesindən məlum idi. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ruhuna həsr elədiyi “İstiqlal əsgəri” poeması 2018-ci ilin çap məhsulları sırasındadır. Əsərlə tanış olan oxucu, ədəbiyyat adamı bir daha anlayır ki, “N.Həsənzadə üçün hazır, qəlib, daşlaşmış poema forması yoxdur”[1].

“İstiqlal əsgəri”, “Rəsul”, “Cavanşir”, “İki daş”, “Xəlvətdə yanan şam” poemaları məhz epik təsvirin əhatəliliyi, genişliyi ilə diqqət çəkir.

“İstiqlal əsgəri” poemasının baş qəhrəmanı Mübariz İbrahimov çağdaş dövrün müharibə bəlasının, Ermənistanın Azərbaycana qarşı yürütdüyü haqsız torpaq iddiaları sonucunda başlanmış ədalətsiz savaşın, düşmən qüvvələrin cidd-cəhdlə aşağılamağa çalışdığı sülhsevər, haqsevər bir xalqın düşdüyü dözülməz, fəci durumun yetirdiyi xalq qəhrəmanıdır. Düşmən səngərinə atılaraq təkbaşına apardığı qeyri-bərabər savaşda 77 nəfər erməni vandalını qətlə yetirən bir igid, məğrur türk oğludur. N.Həsənzadənin Mübarizi əski şumer dastanının mifik qəhrəmanına – Gilqamış-Bilqamısa bənzətməsi təsadüfi xarakter daşımır. Poemadan öyrənirik ki, şair arayıb-axtarıb və nəhayət görüb ki, Şumerlərin əfsanəvi qəhrəmanına qohumluğu çatan, min illər bundan öncə “türkün qitəsində təzə türk toxumundan cücərən, qılınc-qalxanla ədaləti, yaşadığı məmləkəti qoruyan, heç bir kəsin xətrinə dəyməyən, boyun vu-

[1] http://edebiyyatqazeti.az/news/edebi-tenqid/3042-turk-qehremanina-sair-duasi

ran, ancaq boyun əyməyən”[1], elin kədərli və sevincli günlərində onun yanında olan, ər oğlu ər Gilqamışın oxşarıdı Mübariz... Tay-tuşundan, yerişindən-duruşundan[2] seçilən bu igidi şair nağıl təhkiyəsi ilə aşıqların, ozanlarımızın boy boylayıb, söz söyləməsinin davamı olaraq nağıllarımızın qəhrəmanı kimi təqdim edir...

İlk misrasından görünür ki, bu səpkili deyim tərzi xalqın düşüncələr aləmindən, “Kitabi-Dədə Qorqud”, “Koroğlu”, “Qaçaq Nəbi”, “Aşıq Qərib” kimi dastanlarımızdan, “Məlik Məmməd” kimi nağıllarımızdan – folklor düşüncəsindən süzülüb gələn və ruha qida verən təqdimatdır. Folklor təhkiyəsi ilə şair poemada yalnız öz mövqeyini, hadisələrə fərdi yanaşmasını sərgiləmir, həm də Mübarizi yetirən, onu ana yurdun və doğma xalqın qisasını almaq üçün azğın düşmən üzərinə atılmağa kökləyən ulu xalqın adından çıxış edir. Bu məqamın ən dəqiq, qapsamlı şərhi tanınmış tənqidçi, ədəbiyyatşünas Rüstəm Kamalın “Türk qəhrəmanına şair duası...” adlı lirik resenziyasının sətirləri arasındadır: “Bir xalqın (etnosun) varlığı, ölümdirim məsələsi həll olunanda epos ortaya çıxır. Qəhrəmanlıq eposu “dünyanın epik durumunu” (Hegel) əks etdirir. Epos üçün mütləq savaş lazımdır. Müqəddəs Vətən savaşı olmalıdır. 1990-cı illərin epik durumu – Qarabağ müharibəsi, qanlı Xocalı və 20 Yanvar faciələri, müstəqillik mücadiləsi, Azadlıq meydanında ehtirasların coşğusu epik janrı – dastanı, poemanı tələb edirdi. Ona görə də şair qəh-

---

[1] http://edebiyyatqazeti.az/news/edebi-tenqid/3042-turk-qehremanina-sair-duasi

[2] Nəriman Həsənzadə. İstiqlal əsgəri. “525-ci qəzet”, 23 dekabr 2018-ci il.

rəmanın təqdimatını epos sözünün enerjisi ilə başlayır. "İstiqlal əsgəri" poemasının epik miqyası ölkənin, millətin taleyini dərketmə dərəcəsi ilə müəyyən etməlidir. Nəriman Həsənzadə sanki klassik Azərbaycan romantizminin möhtəşəm janr layihəsini XXI əsrdə davam etdirir. Fikrimcə, lirik epos yalnız romantizm məfkurəsində gerçəkləşə bilər"[1].

Bu gerçəkləşməyə "Mübariz" adlı roman ilə Türkiyənin tanınmış şair və çevirməni Yurtsevən Şən qardaş ölkədən dəstək verdi. Mübarizi bu məqama yetirən səbəbləri, şəhidlik zirvəsinə qaldıran həlledici tarixi şəraiti - Milli Qəhrəmanımızın şərəfli həyat yolunu "Mübariz" romanı ilə[2] türkiyəli oxuculara təqdim etdi. Yurtsevənin bu əsəri qələmə almaqda məqsədi, təbii ki, Mübariz İbrahimovun şücaətini, ermənilərin mənfur üzünü, işğalçılıq niyyətlərini qardaş ölkədə tanıtmaq olub. "Mübariz" romanı Yurtsevən Şənin "2017-ci ildə 20 Yanvar faciəsinə həsr olunan "Ferize. Kanlı Yanvar" adlı kitabından sonra Azərbaycan həqiqətləri, XX əsrin növbəti faciələri haqqında yazdığı ikinci əsərdir"[3].

Təkcə "İstiqlal əsgəri" deyil, Fikrət Qocanın "İnqilab", Əhməd Qəşəmoğlunun "20 Yanvar", "Rəsul" və "Cavanşir" poemaları Azərbaycan həqiqətlərini özündə ayna tək əks etdirən və məhz tarixi faktlarla danışan önəmli əsərlər, xalqın ictimai-estetik təfəkkürünü əhatə

---

[1] http://edebiyyatqazeti.az/news/edebi-tenqid/3042-turk-qehremanina-sair-duasi

[2] Yurtseven Şen. Mübariz. (Roman), İstanbul, "Zengin Yayıncılık" yayın evi, 2017.

[3] https://azertag.az/xeber/

edən epik və lirik mündəricəli eposlardır. “İstiqlal əsgəri” lirizmlə romantikanın cəlbedici bədii gözəlliyində süslənmiş epos, bir qəhrəmannamədir. Şairin amacı oxucuların həm də idealları, arzuları ilə real aləm, dünya arasında ziddiyyətlər, konfliktlər yaşayan baş qəhrəmanın – XXI əsrin Bilqamısı Mübariz İbrahimovun vətən sevgisi coşub-daşan iç dünyasının, zəngin mənəviyyatının dərk olunmasıdır. “Poemanın məntiqi mənalar strukturu qarşıdurmalar üstündə qurulur: xeyir-şər, həqiqət-yalan, ölüm-həyat, yerligəlmə, dost-düşmən, doğma-yad... Mübariz İbrahimov Xeyiri, Həqiqəti təmsil edirsə, erməni yalanın, şərin təcəssümü”[1], “aşına-aşına ocaq başına çıxan” və yavaş-yavaş dədə-baba torpaqlarına sahiblənən gəlmələrin, əliçomaqlı yersizlərin obrazıdır...

Nəriman Həsənzadə yaradıcılığında poema janrının üfüqləri çox geniş və əhatəlidir. Bu üfüqlərdə aydın görünür ki, şair üçün poema bədii təfəkkür və təxəyyülünün ifadə vasitəsi, coşğun ilham qaynağı, bitib tükənməyən yaradıcılıq metodu, daim inkişaf edən ədəbi prosesdir. “İstiqlal əsgəri”ndə “çiyələk bitən, kəkliklər ötən, havası loğman, bulaqlar axan yerlərimizi, meşələrin ətəyini, arıların pətəyini, təzə qalxan biçənəyi, gülün üstə kəpənəyi, yaylaq yerimizi, yaz çağı əfsanəvi gözəlliklər məskəni – dağ yerlərimizi” seçib qonşuya verənlərin – ermənilərin daxili və xarici havadarlarına bağışlayanların xəyanətkar əməlini “sənəyin suya verilməsi...” kimi mənalandıran şairin amacı bütün bunlardan, xəyanətlərdən dərs almağın, olanlar-

[1] http://edebiyyatqazeti.az/news/edebi-tenqid/3042-turk-qehremanina-sair-duasi

dan ibrət götürməyin gərəkliliyini oxucuya anlatmaqdır. Torpaq ələ keçirənə qədər "fağır" görünən ermənini:

Dedik ki, insan insandı: taxılbiçən, otçalandı,
Çərçivəyə ayna salan, çəkmə tikən, zurna çalan,
Rəsm çəkən...[1] –

kimi sadə əmək adamı bilib o cür də qəbul edən sadəlövh böyüklərimizin düşmənə inanıb qucaq açmaqla necə böyük yanlışa yol verdiklərini, həmin yanlışların bugünkü fəlakətlərə gətirib çıxardığını yana-yana qələmə alan şair inanır və oxucularını da inandırır ki, "millətin güclü sərkərdəsi və igid əsgəri bir olarsa, vətən gəlmələrdən, düşmənlərdən xilas olar – poemanın bir ideyası da budur...

Nəriman Həsənzadənin "Xəlvətdə yanan şam" dramatik poemasının mövzusu isə təkcə tarixi hadisələri deyil, ədəbi aləmin reallıqlarını qapsaması baxımından da fərqlənir. Poemanın baş qəhrəmanı geniş erudisiyalı yazıçı və dərin intellektə malik ədəbiyyatşünas alim kimi tanınıb sevilən Mir Cəlal Paşayevdir. "Xəlvətdə yanan şam" dramatik poeması N.Həsənzadənin müəlliminə, ustadına həsr etdiyi ən dəyərli əsərlərindən biridir. Proloq, epiloq və yeddi səhnədən ibarət olan bu poemada şair Mir Cəlalla keçirdiyi görüşləri bədiiləşdirir və ədiblə bağlı yaddaşında yaşatdığı bir sıra xatirələri canlandırır. Poemada Mir Cəlalın həyat yoldaşı Püstə xanımın, ölməz Mikayıl Müşfiqin, oğlu Arifin obrazları da oxucuda maraq doğurur. Dramatik poemanın ilk səhnələrindən anlaşılır ki, gənc şair və tədqi-

[1] http://edebiyyatqazeti.az/news/poeziya/2897-istiqlal-esgeri. 23.12.2018

qatçı Qiyam obrazı elə Mir Cəlal Paşayevin tələbəsi olmuş Nəriman Həsənzadənin öz obrazı, prototipidir. Kəramətin "Cəzb və kütlənin hökmü" əsərində olduğu kimi, bu poemada da cəmiyyətin çatışmamazlıqlarının, insanların nadanlıq və cahilliklərinin, xəyanət və ikiüzlü siyasətinin əks-sədası duyulur.

Böyük Cəlil Məmmədquluzadə və onun Azərbaycan ədəbiyyatının inkişafına göstərdiyi möhtəşəm təsir haqqında karay türkü, ictimai və mədəni xadim Halina Kobetskaytenin tanınmış fransız intellektualları Antuan Kompanyon və Jan-Pol Sartrın fikirlərinə istinadən söylədiyi "modernist yaradıcı şəxs gözü bağlı halda qabağa cuman yox, irəli hərəkət edərkən həm də daima arxaya baxmağı unutmayan kəsdir"[1], – nəzəriyyəsinin əks-sədası 2018-ci ildə poema yaradıcılığından bəhs etdiyim Fikrət Qoca, Nəriman Həsənzadə, Kiyan Xiyav, Araz Əhmədoğlu, Behbud Muradi Elçibəy, Fərid Hüseyn, Əhməd Qəşəmoğlu, Fəxrəddəin Ziya və Şakir Albalıyevin əsərlərindən də eşidilir.

Halina xanım Antuan Kompanyonun adını təsadüfən çəkmir və bildirir ki, 1952-ci ildə rəfiqəsinin hədiyyə etdiyi "Azərbaycan hekayələri" toplusundan mən ilk dəfə Cəlil Məmmədquluzadənin "Quzu" və "Qurbanəli bəy" hekayələrini mütaliə edərkən gördüm ki, bu fransız tədqiqatçısının irəli hərəkət etmək üsulu ilə bağlı yazdığı həmin fəlsəfi fikir, ondan çox-çox əvvəl, həm də daha obrazlı şəkildə, Azərbaycan və digər Şərq xalqlarının şifahi xalq ədəbiyyatının məşhur personajı-gözəl yumoristik və satirik

[1] İrəli gedərkən arxaya baxmaği da unutma... "525-ci qəzet", 29 aprel 2017-ci il, № 75 (4812).

miniatürlərin, duzlu-məzəli lətifələr və geniş yayılmış nağılların baş qəhrəmanı olaraq tanınmış Molla Nəsrəddin tərəfindən deyilib". Çox maraqlıdır ki, fikrinin davamında diplomat xanım daha orijinal və dəyərli fikir yürüdərək Molla Nəsrəddinə və onun daimi yol-yoldaşı olmuş eşşəyinə böyük anlam qazandırır: "Nəsrəddin obrazının ayrılmaz rəmzlərindən biri onun eşşəyidir ki, ya Nəsrəddin haqqındakı hekayətlərin baş surəti, ya da onun yol-yoldaşı olaraq təsvir edilir. Nəsrəddin eşşəyinin üstündə adətən tərsinə oturmuş halda gedir. Onun bu cür yol getməsi çoxlu sayda heykəllərdə də təcəssüm olunub ki, bu, çoxlarını təəccübləndirir və hətta bəzən çaş-baş salır. Amma yaxşıca götür-qoy etdikdən sonra, belə bir qənaətə gəlirsən ki, bu, məhz müasir fransız kulturoloqlarının yazdıqları irəliyə hərəkət-tərəqqi formulunu simvolizə edir. Molla Nəsrəddin keçmişi itirməmək və ya unutmamaq, həm də keçmişin məkanında vacib həyatverici məxəzləri aşkarlayıb bəhrələnmək üçün eşşəyini tərsinə minib qabağa sürür. Onun varlığa məhz belə baxışı və yanaşması, bu məşhur xalq sevimlisinin müdriklik dünyasının əsasını təşkil edir"[1].

Qeyd etməyi gərəkli sayırıq ki, 2017-ci ildə durğu işarələrini mənalandırıb özünəməxsus təblə nəzmə çəkən filoloq-şair Şakir Əlifoğlu keçən 2018-ci ildə də yeni gediş

[1] İrəli gedərkən arxaya baxmağı da unutma... "525-ci qəzet", 29 aprel 2017-ci il, № 75 (4812) (Məqaləni çapa C.Məmmədquluzadənin litva dilində nəşr olunmuş "Nigarançılıq" ("Nerimas") adlı hekayələr kitabının 2017-ci ilin martın 10-da Vilnüs Universitetində keçirilmiş təqdimat mərasimində Litva karay türklərinin tanınmış xadimi Halina Kobetskaytenin etdiyi məruzə əsasında tanınmış ədəbiyyatşünas və tərcüməçi Mahir Həmzəyev hazırlayıb).

edərək bədii priyoma əl atıb. Dahi Mirzə Cəlilsayağı eşşəyə xüsusi bir diqqət ayırıb, əsl şair sayılan bəzi qələm adamlarından fərqli olaraq, düşünən və düşündürən aydınziyalı baxışı sərgiləyib. Fani dünyanı Tanrının insanlara həyat adlı Sizif əzabı[1] kimi bəxş etdiyinə, insanların da bu dünyada mənalı-mənasız mübarizələrdə can çürütdüyünə fəlsəfi yanaşan müəllif poemada tamamilə yeni bir eşşək obrazı yaradıb. O, Allahın ən gözəl gözlər bəxş edib yaratdığı əzabkeş, ömrü boyu çox işləməsinə, daim insana yük daşımasına rəğmən cırıq palanla gəzən, lakin sahibinə asi düşməyən "fağır, üzüyola, xətirsiz, qədirsiz" varlığa qarşı bəni-adəmin haqsız münasibət bəsləməsini tənqid edib. "Çöldə-yamacda eşşəyin oynamağını-ağnamağını özünə, adına qədir-qiymət əvəzinə, uzunqulaq tərbiyəsizliyi sayıb rişxənd edən, özünü ağıllı sayan, əslində nadan, özündən razı, qanmazlığı eşşəklik" kimi qələmə verən insanın ona etdiyi haqsızlığa qarşı etirazı kimi mənalandırıb və öz düşüncələri prizmasında müəyyən nəticələrə gəlib. Ümumiyyətlə, eşşək sözü cəmiyyətimizdə və el arasında qanmaz, kobud, küt, axmaq, cahil, yaxşı ilə pisə fərq qoya bilməyən, heç bir işdə qabiliyyəti olmayan, bacarıqsız, kütbaş, bisavad, iki eşşəyin arpasını bölə bilməyən[2] adamlar

---

[1] Homerin ölümə məhkum edilənlərin ən ağıllısı, ən hiyləgəri kimi səciyyələndirdiyi Sizif (və ya Sisif, q.yun. Σίσυφος) qədim yunan mifologiyasına görə, Tanrıların ittihamından sonra böyük qaya parçasını dağın başına qaldırmağa məhkum edilmiş şəxsdir. Daş yuxarı qalxdıqda öz ağırlığı ilə aşağı düşürdü. Bu cəzanın mahiyyəti isə odur ki, "faydasız əmək"dən daha ağır cəza yoxdur. https://az.wikipedia.org/wiki/Sizif

[2] https://azerdict.com/az/izahli-luget/e%C5%9F%C5%9F%C9%99k

haqqında danışılarkən işlənir... Lakin atdığı palçığa təkrarən girib bir daha tapdamayıb kənardan keçən və bu hərəkəti ilə də "Eşşək palçığa bir dəfə batar" atalar sözünün yaranmasına səbəb olan, əslində isə nə qədər ağıllı olduğunu təsdiqləyən, öz dilində hayqıran-anqıran eşşək bununla insanlara düz yolu-düz qiyməti, gerçəkləri çatdırır. Bu hikməti qanmayanın özünün "eşşək" olduğu qənaətinə gəlir Şakir Albalıyev... "Yanıq Kərəmi" kimi saz havasını "dərd əlindən havalanıb oynamaq", "Dilqəmi"ni isə "qəmli könülə nazlı-nazlı layla çalmaq, dərd oxşamaq", haqsızlığı "haqqın ölümü", ulağın ağnamağını "haqqın qarşısında haqqın özünə qurulan divan, haqqın ölümünə oxunan mərsiyə, vay-şivən kimi metaforlaşdıran Ş.Əlfioğlunun eşşəklə bağlı mənalandırmaları da oxucunu düşündürməyə bilmir. Özünün də həyatın ağır sınaqları, üzləşdiyi haqsızlıqlar qarşısında yaratdığı obrazın halında olmaq dərəcəsinə çatdığını yansıdan misraları diqqətsiz qalmır, oxuyanı gerçəkdən düşündürür:

Haqsızlıq üstümə həyasız-həyasız ayaq alanda,
...haqsızlığa üsyan kimi ürək dolu,
dəli-dolu ağlamağım gəlibdi.
Haqsızlığa öz dilincə üsyan-etiraz edən
lap elə çal eşşək, boz eşşək kimi –
qara uzunqulaq kimi ağnamağım gəlibdi[1].

Yazıçı Elçin Hüseynbəyli "Boz eşşəyin məktubları" hekayəsində Ermənistanın Azərbaycana qarşı apardığı

[1] Şakir Əlifoğlu (Albalıyev). Həyat Sizif əzabı.

ədalətsiz müharibə nəticəsində boşalmış yurd yerlərimizdə, evlərdə sahibsiz qalan eşşəyin dilindən ermənilərin vəhşiliyi, torpaq hərisliyi, işğalçılıq niyyəti ilə torpaqlarımızı ələ keçirmək siyasəti və bir xalqın başına gətirilən faciənin dəhşətləri maraqlı təhkiyə üsulu ilə oxucuya çatdırılır. Bu hekayədə də eşşəyə ənənəvi baxış, dəyişməz münasibətlə yanaşı, sahibinə və yaşadığı yurda etibarlı, zəhmətkeş, cəfakeş varlıq, obrazlaşdırılmış alleqorik surət kimi sərgilənir. Elçinin insanların eşşəyi sadəcə yük daşımaq, minib çapmaq vasitəsi olaraq gördüyünü: "Qağa, ipsiz, kəndirsiz, yiyəsiz eşşək eşşək deyil. Qudurmuş it kimi bir şeydi. Allah eşşəyi ona görə yaradıb ki, adamlar belinnən düşməsin, döysün, söysün, bir an da onu sakit qoymasın"[1], – fikirləri təsdiqləyir və heyvanın öz dili ilə etdiyi: "Yadındamı, böyük qağanın balası olanda Murtuza oğul nəvəsinə məni bağışlamışdı və hamınız mənə lağ eliyib gülürdünüz. Mən hələ onda təzə-təzə yük götürürdüm və özümü sındırmamaq üçün evdəki uşaqların hamısı birdən belimə minəndə də, birinci dəfə araba qoşanda da cınqırımı çıxarmadım və qürurla yeridim. Məni ucuz tutduğunuza görə hərdən inciyirdim", – etirafı ənənəvi təqdimatı tamamlayır. Ancaq hekayədə bu əməksevar varlıq, Şakir Əlifoğlunun da təqdim etdiyi kimi, həm də insanların dostu, yaşadığı yurdun qoruyucusudur. Ən önəmlisi isə müharibə və işğal üzündən indi bayquşlar ulayan, ala qarğalar uçuşan yurd yerlərimizin qoruyucusu timsalında eşşəyin öz dilindən söylədikləri, əslində insan həyatında mühüm

[1] Elçin Hüseynbəyli. Ağ-Qara. Hekayələr. Bakı, "Qələm" nəşriyyatı, 2014-cü il, 272 s., səh.7-19.

rolu olmuş bu varlığa həm də Molla Nəsrəddinsayağı baxış, bir dəyərdir…

M.Ə.Talıbov da "Əhmədin qeyrəti", yaxud "Kitab yüklü eşşək" əsərində insanların daim istismar edərək, həm də aşağıladıqları dördayaqlıdan-eşşəkdən daha çox avamlıq girdabında çabaladıqlarını önə çəkir: "Aydındır ki, hər bir zülmkar və qəsbkar şəxs əlinin altındakıları yola versə, onlardan yumşaqlıq və xidmət görər, əksinə, pislik və kobudluq etsə, əvəzində ziyan və əziyyət çəkər. Deməli, yaranmışların ən şərəflisi ilə bizim fərqimiz budur ki, nemət və məhəbbət müqabilində ziyankarlıq etmirik"[1].

Litvalı yazar Sigitas Gedanın "Qafqaza səyahətlərim" essesində də vurğuladığımız məqamla bağlı maraqlı bir fikir diqqət çəkir: "Gənclik illərimdə Qafqazda gördüyüm ən qəribə və heyrətamiz mənzərələrdən biri eşşəyin səhər tezdən su quyusunun yanında lap ucadan anqırması idi! Elə bil ki, bu zaman ətrafa dünyanın sona çatmasını bəyan edən cahanşümul şeypur səsi yayılırdı"[2]. Və heç də təsadqüfi deyil ki, dünya ölkələrinin Moskva, Buxara, Bosniya-Herseqovina, Adelaid, Dubay, Kanberri və bir sıra digər şəhərlərində insanların bu cəfakeş heyvana məhəbbət və qədrdanlığının simvolu olaraq heykəli qoyulmuşdur[3].

---

[1] Güney Azərbaycan nəsri: Başlanğıcdan bu günə qədər (Antologiya) Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017, 576 s., s.43.

[2] "Kitabi-Dədə Qorqud"un litvali tərcüməçisinin xatirələri... Sigitas GEDA. Qafqaza səyahətlərim (Esse). https://525.az/site/?name=xeber&duzelis=0&news 23.11.17 19:02 (Litva dilindən tərcümə edən M.Həmzəyevdir).

[3] https://bih-ru.touristgems.com/attractions/41983-pamyatnik-oslu/; http://polsergmich.blogspot.com/2013/04/33.

2018-ci ildə qələmə alınmış poemaların təhlili göstərdi ki, Güney və Quzey Azərbaycanda yaranan ədəbiyyat bu gün də ciddi axtarışlar dövrünü yaşayır. Həmin axtarışların əsas istiqamətlərini belə ümumiləşdirə bilərik:

- Poemalarda dövrün, zamanın nəbzi döyünür, eyni zamanda paralel olaraq tarixi keçmişimizə qayıdış özünü göstərir, tarixi və ictimai-siyasi hadisələrin ədəbi müstəviyə gətirilməsi intensivləşir;

- Zaman və qəhrəman problemi aktuallaşır;

- Tanınmış ədəbi-mədəni, ictimai-siyasi xadimlərin, milli qəhrəmanların avtobioqrafiyası, keçdiyi həyat və mübarizə yolu, vətənpərvərlik, yurdsevərlik yenə də poemaların mövzusuna çevrilməkdədir: Nəriman Həsənzadənin "Zülmətdə yanan şam", "İstiqlal əsgəri", Əhməd Qəşəmoğlunun "Rəsul" və "Cavanşir" poemaları söylədiklərimizin ən bariz örnəkləridir.

- Müasir ədəbiyyatın, eləcə də poema janrının mövzu və ifadə imkanları ətrafında axtarışlar aparılır, ədəbiyyatın ictimai və estetik funksiyalarının müəyyənləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir;

- Güney Azərbaycanda ədəbi tənqid//eleştiri sürətlə formalaşır;

- Ədəbiyyata sırf siyasi və ideoloji mövqedən yanaşma müşahidə olunur, ədəbiyyat və etnik millətçilik ideyalarının bədii-poetik ifadəsi daha da intensivləşir;

- Güney Azərbaycanda ədəbi dillə bağlı axtarışlar xüsusilə sürətlənir;

- Ənənə və müasirlik məsələlərinə, müasir poeziyanın poetik və estetik qaynaqlarına yaradıcı münasibət və s. bu gün üçün də aktuallığını qoruyub saxlayır.

- Çağdaş dövr Güney və Quzey ədəbiyyatında milli ictimai düşüncənin folklor qaynaqlarına köklənməsinə baxmayaraq, "modernə və postmodernə" qarşı dayanan dəyərlərdə modernləşmə daha çevik və təbii şəkildə, tarixin tələblərinə uyğun gedir. Poema örnəklərində folklor təhkiyəsi ilə həm özünün, həm də xalqın mövqeyini nümayiş etdirən şairlər ənənəvi məzmun və formalara müraciət etməklə yanaşı, həm də yeni təmayüllərin təzahürünü önə çıxarmağa səy göstərmişlər... Nəriman Həsənzadə, Əhməd Qəşəmoğlu, Fikrət Qoca, Fərid Hüseyn, Araz Əhmədoğlu, Kiyan Xiyav, Behbud Muradi Elçibəy və başqalarının yaradıcılığından təhlilə cəlb etdiyimiz poema nümunələrində olduğu kimi... Bəzi əsərlər, özəlliklə Kəramətin "Cəzb və kütlə hökmü" əsəri çap variantında poema kimi təqdim olunsa da, bu poemalarda daha çox nəsr təhkiyəsi, nəzmlə nəsrin növbələşməsi, esse janrının xüsusiyyətləri özünü qabarıq göstərir.

- Simvol və rəmzlərdən istifadə yolu ilə (Şakir Əlifoğlunun "Həyat Sizif əzabı" minimalist poemasında) yazarın iç dünyasında saxlanan və onu daim narahat edən məsələlərin ədəbi müstəviyə gətirilməsi tendensiyası da özünü göstərir;

- "1960-80-ci illərdən başlayaraq fərdə marağın önə keçməsi prosesi və şair "mən"inin qabardılması"[1] 2018-ci ilin poema örnəkləri üçün də əsasən xarakterik cəhətdir və yaranmış əsərlərin formasına müəyyən istiqamət verilməsini şərtləndirir...

---

[1] Elnarə Akimova. Janrın qürubu, yoxsa ədəbi laqeydliyimiz? Poema yaradıcılığı haqqında. https://525.az/site/?name=xeber&news_id=17904

Bizə elə gəlir ki, "Güneydə yaranan ədəbiyyatda modernizm və ya postmodernizm təmayüllərinin olub-olmaması yox, Güneylə Quzeyin mədəni bütövlüyünün olmaması daha ciddi milli problem kimi götürülməlidir. Başqa sözlə desək, bizi Quzeydə mövcud olan ədəbi təmayüllərdən Güneyin, Güneydəki proseslərdən Quzeyin əsasən xəbərsiz olması narahat etməlidir. Aydın görünür ki, Güneydəki ədəbiyyatda Quzeydən təcrid olunmuş halda belə, kifayət qədər modernləşmə, yenilənmə gedir[1].

Bir önəmli məqam da budur ki, istər Quzeydə, istərsə də Güneydə yazıb-yaradan qələm sahibinin "özünü bütöv mədəni coğrafiyanın, vahid ədəbiyyatın nümayəndəsi kimi dərk etməsi daha mühümdür. Yəni Quzey Güneydə, Güney Quzeydə fərq qoyulmadan tanınmalı və qəbul edilməlidir. Burada ədəbi orqanların, xüsusilə Quzeydə dövlət maliyyəsi ilə nəşr edilən orqanların düşünülmüş, ardıcıl siyasəti olmalı, Quzeydə yaranan ədəbiyyatın da Güneyə çatdırılması üçün ən yüksək səviyyədə iş görülməlidir"[2].

Keçən əsrin ortalarına nisbətən çağımızda poema janrına müraciət Quzeydə hiss olunacaq dərəcədə azalıb. Əksər poemalarda süjet xətti qurulmur, bu, ya tənbəllik, ya da istedadın yetərsizliyindən qaynaqlanan hal kimi düşünülə bilər.

---

[1] Məti Osmanoğlu.Yaxından yaxın, uzaqdan uzaq. "Ədəbiyyat qəzeti", 24 dekabr 2016, s.26.

[2] Yenə orada.

Nərgiz CABBARLI
Filologiya üzrə fəlsəfə doktoru

MÜASİR ROMAN TEXNOLOGİYASI: ƏNƏNƏVİ VƏ EKSPERİMENTAL ROMANLAR

(2018-ci ilin romanları əsasında)

İllərdir roman yaradıcılığını müşahidə etdiyimiz üçün deyə bilərik ki, Azərbaycan romanı inkişaf olmasa da, poetik cəhətdən dəyişim mərhələsi yaşamaqdadır. Və artıq bu dəyişimin müəyyən xüsusiyyətləri, konturları, bəlli istiqamətləri açıq şəkildə görünür. Bir tərəfdən hər zaman ciddi, məsuliyyətli yanaşma tələb edən romana qeyri-ciddi yazıçı münasibəti müşahidə edilirsə, müəyyən mətnlər detektiv-roman, əyləncə romanı, səyahət romanı və s. "roman" başlığı altında təqdim edilərək bu janrın "oxucu tovlamaq" xüsusiyyətindən gen-bol istifadə olunursa (hər halda, kitab rəflərində yer tutan çoxsaylı romanları araşdıraraq, incələyərək çox asanlıqla bu qənaətə gəlmək mümkündür), digər tərəfdən çox ciddi bir proses izlənir. Əlbəttə, biz də yalnız ciddi mətnlər haqqında söz açacağıq. Və bu barədə danışmazdan əvvəl mütləq qeyd etməliyik ki, bu müşahidə eyni zamanda bir maraqlı nüansı meydana çıxarır: o da ciddi ədəbiyyatın ədəbi orqanlarda təqdimi məsələsidir. Bu orqanlara (bəzən zəif də ola bilir) əsasən ciddi ədəbi nümunələr, ciddi imzalar yol tapır.

2018-ci ildə dərc edilən romanların sayı əvvəlki illərdə işlətdiyimiz "roman bumu yaşanır" ifadəsini təkrarlamağa imkan vermir. Amma bununla belə, 2019-cu il də daxil olmaqla, yaranan romanlar yenə də eyni imzalara və

eyni ciddi roman müəlliflərinin adlarına müraciət etməyi şərtləndirir. Bunlardan ikisi üzərində xüsusilə dayanmaq lazımdır ki, bu, hər biri əvvəllər şair kimi tanıdığımız, nəsrimizin, romançılığımızın isə yeni qazandığı Şərif Ağayar və Zahid Sarıtorpaqdır. Çünki son illərin ən ciddi romanları məhz bu iki müəllifin qələmindən çıxıb.

Statistik göstəricilərə diqqət yetirərkən də əvvəlcə məhz onların adlarını qeyd etməli oluruq: 2018-ci ildə Şərif Ağayarın "Ağ göl" ("Qanun" nəşriyyatı), Zahid Sarıtorpağın "Quşların intiharına ağlamayın" ("Azərbaycan" jurnalı) romanları dərc edilib. Yeri gəlmişkən, onu da bildirim ki, "Azərbaycan" jurnalında ötən il cəmi 1 roman çap olunub ki, bu da Zahid Sarıtorpağın romanıdır. 2018-ci ildə işıq üzü görən romanlar arasında Güllü Məmmədovanın "Qan işində işıq", Cavidanın "Məhsəti", Sərdar Aminin "Su sərgisi", Qurban Yaquboğlunun "Mən yoxam" romanlarının da adlarını çəkə bilərik.

Araşdırdığımız romanlar əsasında hansı ümumiləşdirmələri apara bilərik? Hansı xüsusiyyətlər diqqətimizi çəkdi? Hansı poetik çalarlar müşahidə edildi?

Əvvəla, mütləq qeyd olunmalıdır ki, roman yaradıcılığı, roman texnologiyası baxımından iki istiqamətin mövcudluğu müşahidə olundu: ənənəvi roman və eksperimental roman.

Bir qədər də dəqiqləşdirsək, "ənənəvi roman yaradıcılığı", "ənənəvi roman strukturu", "ənənəvi roman poetikası" əsasında təhlil edə biləcəyimiz "süjetli roman" yenə də öz ənənəvi dinamikasını nümayiş etdirdi. Əvvəlki illərdə yaranan və bizim də artıq təhlil etdiyimiz romanlar cərgəsini (Sabir Rüstəmxanlı "Şair və şər", "Akademikin son

əsəri", "Difai fədailəri", Elçin Hüseynbəyli "İki od arasında", Məmməd Orucun "Qara güzgü") bu il davam etdirən romanlardan biri kimi Güllü Məmmədovanın "Qan içində işıq", Cavidanın "Məhsəti" romanlarını qeyd edə bilərik. Əvvəllər də vurğuladığımız kimi, bu cür romanlar əsasən tarixi mövzuda yazılır və ya bir tarixi şəxsiyyətin həyatından danışır. Güllü Məmmədovanın romanı türk ordusunun Azərbaycana gəlişindən, Əhməd Ağaoğludan, Cavidanın romanı isə Məhsətinin həyatından bəhs edir. İstər tarixilik, xronologiya baxımından, istər də üslubi cəhətdən əsər hadisələrin nəqli üzərində qurulubdur. Heç bir qəliz texnoloji manevrlər, strutkurla bağlı aparılan eksperimentlər və s. müşahidə olunmur.

İkinci bir xətt isə daha çox aparılan poetik eksperimentlərlə yadda qalır. Bu əsərlərdə roman içrə roman, şüur axını, mifik-mistik, simvolik elementlərlə zəngin mətnlərin yaradıldığı görünür, roman poetikası, dil, struktur və məzmun qatı arasında əlaqə məsələləri üzərində yazıçıların xüsusi düşündüyü, hadisələrin nəqli – zahiri təsvir deyil, dərinliklərə – şüurun, ruhun, yaddaşın, genetik yaddaşın, mifik yaddaşın dərinliklərinə enmə əsas missiyaya çevrilir. Bu istiqamətdə yazılmış əsərlər kimi Zahid Sarıtorpağın "Quşların intiharına ağlamayın", Qurban Yaquboğlunun "Mən yoxam", Şərif Ağayarın "Ağ yol", Sərdar Aminin "Su sərgisi" romanlarının adını çəkə bilərik. Bu əsərlərdə stilistika xüsusiyyətləri, mifik yaddaş, xronotop, arxetip, simvolikləşdirmə və metaforalarla ifadə, fikrin ifadəsində xalq təfəkkürü və genetik yaddaşdan gəlmə xüsusiyyətlərdən, xüsusilə dil və təfəkkür qatından yararlanma, yaradıcı ifadəetmə və s. ilə bağlı böyük addımlar atılır,

süjet, hadisələrin nəqli arxa plana adlayır. Ön planda isə şüuraxını, hiss və duyğular selinə qapılma, onların dəqiq, dərininə ifadəsi, bu ifadənin təmin edilməsi və oxucuda əsaslı təəssüratın yaradılması üçün məkan və zaman adlamaları, məkan və zaman planlarının keçidi vasitəsilə hadisənin, faktın, hissin mahiyyətinə enmə durur.

Əlbəttə, əvvəllər də qeyd etdiyimiz bir sıra xüsusiyyətlər: romanın bir janr olaraq dağılması, həcmcə kiçilməsi, struktur etibarilə sadələşməsi, problemə, qəhrəmana, süjetə, situasiyaya və s. yanaşmada qloballıqdan lokallığa eniş, süjet çoxşaxəliliyindən, xarakter zənginliyindən və çoxqatlılığından qurtulma, dil qatında bəsitliyə "qayıdış" və poetik ifadə texnikasından uzaqlaşma diqqəti çəkir. Lakin bununla belə müəyyən və konkret müəlliflər var ki, dil və üslub kateqoriyası üzərində xüsusi olaraq düşündükləri, mətnin bu qatlarında eksperimentlər apardıqları və daha dərin çalışdıqları müşahidə edilir.

***

Ənənəvi roman texnologiyasından yararlanma ilə meydana çıxan əsərlərdə, təəssüf ki, son illər daha çox süjet arxasınca getmə (hadisələrin nəqli) müşahidə edilir. Dil, üslubi özünəməxsusluq, xarakter, konflikt və onların yaradılması zamanı fəlsəfi-psixoloji dərinliklərə baş vurma və s. nəzərdən qaçırılır və ya bunlara bir o qədər də böyük əhəmiyyət verilmir.

Güllü Məmmədovanın "Qan içində işıq" romanı 2016-cı ildə Məmməd Orucun "Qara güzgü", Sona Vəliyevanın "İşığa gedən yol", Elçin Hüseynbəylinin "Yenə də

iki od arasında”, Sabir Rüstəmxanlının Hadidən bəhs edən “Şair və şər”, “Difai fədailəri” və s. romanları ilə eyni üslubi istiqamət üzərində qərar tutur.

Bu romanı oxuduqda da müəyyən etmək olar ki, tarix və romançılıq kateqoriyaları arasında açıq mübarizə gedir. Və hələ ki bu nümunədə də bir çoxlarında olduğu kimi, tarix romançılığa uduzmaqdadır. Əksər mətnlərdə olduğu kimi, tarix (fakt, hadisə, tarixi şəxsiyyət və s.) haqqında bilinənlər mətnin üz qatına çıxır, romançılıq isə həm arxa planda qalır, ön plana heç cür adlaya bilmir (yaxud gücü yetmir ki, o müstəviyə yüksələ bilsin!), ya da romançılıq tarixə, fakta, hadisəyə, tarixi şəxsiyyətə yeni heç nə (bilinəndən fərqli, bilinəndən dərin!) qazandıra, əlavə edə bilmir. Tarix (fakt, hadisə, şəxsiyyət), sadəcə, təsvir edilir, yaradılmır.

Bu baxımdan tarixi təsvir etmək məqsədi (xüsusilə müasir dövrdə yaradılan tarixi romanlarda bu, daha çox müşahidə edilir) romançıya (və romançılığa) əksər hallarda mane olur. Romançılıqdan bir addım (hətta bir neçə addım) önə keçir.

Tarixi roman, tarixə müraciətin səbəbləri, romanda tarixi hadisələrin təsvirinə və tədqiqinə münasibət və s. məsələlər haqqında əvvəlki yazılarımızda da yazmışdıq. Belə bir aktuallaşmanın mövcudluğu müxtəlif tarixi mərhələlərdə müşahidə edilir. 1930-cu illərdə, 1960-cı illərdə tarixi roman bumunun yaşandığı bir həqiqətdir. Bu faktı araşdıran Nizaməddin Şəmsizadənin “Tənqiddə meyarsızlıq sindromu” məqaləsində 60-cı illərdəki aktuallaşma ilə bağlı oxuyuruq: *“XX əsrin 60-cı illərində nəsrin tarixə üz tutmasının səbəbləri aydın idi. Yazıçılar totalitar sovet re-*

jiminin təzyiqi altında mövcud cəmiyyət haqqında açıq deyə bilmədiklərini tarixə köçürür, tarixi mövzu kontkestində ədəbiyyata gətirirdilər. O illərdə gənc tənqidçi olan Vilayət Quliyev 1984-cü ildə "Tariximiz və nəsrimiz" məqaləsində tələb edirdi ki, "Tarixi mövzulara əl atan müəlliflər tarixə müasirlikdən qaçış sığınacağı kimi, hazır mövzu və süjetlər bazası kimi baxmasınlar"[1].

Əslində, müstəqillik illərində tarixə müraciətin səbəblərindən biri və əsası, sovet dövründə qadağan edilən, tabu qoyulan dövr, tarixi mərhələ, tarixi şəxsiyyətlər və tarixi həqiqətlərin ifadəsi və analitik təhlilinə, dəyərləndirilmə aparılması üçün real tarixi şəraitin yaranmasıdır. Elə yaranan romanların hansı tarixi mərhələ və tarixi şəxsiyyət haqqında qələmə alındığını araşdırdıqda, bu faktın özü çox şey deyir. Məhəmməd Hadi haqqında (eyni zamanda da onun yaşadığı tarixi mərhələ, XX əsrin əvvəllərində Azərbaycanda, Türkiyədə və türk dünyasında gedən proseslərin dəyərləndirilməsi və təhlili ilə) yazılmış "Şair və Şər" (Sabir Rüstəmxanlı), Sisianovun öldürülməsi faktı əsasında yazılmış "Baş" (Elçin), Həsən bəy Zərdabi barəsində eyni zamanda da dövrün tarixi hadisələri, əhəmiyyətli şəxsiyyətləri haqqında yazılmış "İşığa gedən yol" (Sona Vəliyeva), türk ordusunun Bakıya yardıma gəlməsindən və dövrün qanlı hadisələrindən bəhs edən "Qan içində işıq" (Güllü Məmmədova), yenə də əsrin əvvəllərinin hadisələrindən bəhs edən və indiyə qədər bədii mətnə gətirilməmiş həqiqətləri ifadə edən "Difai fədailəri" romanları (Sabir Rüstəmxanlı) bunun təsdiqidir. Məsələn, haqqında söz aç-

[1] Nizaməddin Şəmsizadə. İdrakın üfüqləri. Bakı, "Şərq-Qərb", 2019.

dığımız roman mövzunun aktuallığı, ADR-in 100 illiyinin qeyd edildiyi tarixlə bağlıdır. Və tarixi gedişat, real şərait bu əsərin yaranmasını şərtləndirib. Bu, əlbəttə ki, müsbət qiymətləndirilməlidir. Çünki keçmişə boylandıqda belə bir suala cavab tapmaya bilirdik: XX əsrin əvvəllərində baş verən hadisələr, Azərbaycan Demokratik Respublikasının qurulması, bunun uğrunda gedən mübarizələr, şəxsiyyətlərin mücadiləsi, milli inkişaf, mətbuatın və maariflənmənin aparılması istiqamətində görülən işlər, türk şəxsiyyətlər, onların türkçülük uğrunda mücadiləsi və s. hansı romanlarda vardı indiyə qədər?

Qeyd etdiyimiz tarixi mərhələ – XX əsrin əvvəllərindəki erməni-müsəlman döyüşləri, ADR-in qurulması, bunun uğrunda aparılan mübarizə və s.-in izlərini aradıqda, əlbəttə ki, görə bilmirdik. Ən yaxşı halda erməni məsələsinin müəyyən izlərinin ifadəsi üçün, məsələn, Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" əsərində olduğu kimi, müəyyən "izlər" müşahidə edə bilirdik. Amma müstəqilliyin ilk illərindən etibarən bu mövzu haqqında daha ətraflı yazılmağa başlandı. İlk izləri, məsələn, 1995-ci ildə yazılmış bir romanda – İsmayıl Şıxlının "Ölən dünyam" romanında rast gəlinir. Əslində, 30-cu illərdə sovet quruculuğu prosesini, haqsız qırğınları, insanların sovetləşməyə qarşı münasibətini əks etdirən romanda mətn daxilində ADR, onu quran, ordu quruculuğunda iştirak edən şəxsiyyətlər haqqında müəyyən mətndə görünür. Fraqmental da olsa, ötəri də olsa, bu xidmətlərə üz tutulur.

Güllü Məmmədovanın "Qan içində işıq" tarixi-sənədli romanı isə 1918-ci ilin qanlı hadisələrindən bəhs edir. Yenicə yaranan Azərbaycan Xalq Cümhuriyyətini məhv et-

mək, Bakı neftini ələ keçirmək üçün birləşən düşmən qüvvələri ilə döyüşən əfsanəvi komandan Nuru Paşa və əsgərlərinin şücaəti, zəfərləri faktlar və sənədlər əsasında qələmə alınıb.

Qafqaz İslam Ordusu Gəncədən Bakıya qədər çətin, məşəqqətli bir döyüş yolu keçib. Müəllif sanki əsgərlərlə çiyin-çiyinə addımlayaraq qazanılmış qələbələrin hansı əziyyətlər, çətinliklər, ağır itkilər bahasına başa gəldiyini real təsvirlərlə oxucuya çatdıra bilir.

Romanda sovet dönəmində cinayətləri bizə məlum olmayan daşnak Şaumyanın, müsəlmanların qatı düşməni Leninin iç üzünü ifşa edən sənədlər də öz əksini tapıb.

Müəllif "Qan içində işıq" romanında Bakının işğaldan azad edilməsini bir qəhrəmanlıq dastanı kimi vəsf edib, Azərbaycan və türk əsgərlərinin düşmənə qalib gəlmək əzmini, mərdlik və mətanətini qabarıq şəkildə göstərməyə çalışıb.

Roman ruslar və türklər arasında gedən müharibədə qələbə (1915) çalan ruslar haqqında, daha doğrusu, əsir türklərin Azərbaycandan keçirilərək qatarla Rusiyaya daşınmasının təsviri ilə başlayır. Nağı bəy Şeyxzamanlı – Gəncə gənclər təşkilatı sədrinin camaatın əllərindəki sovqatı türk əsirlərə verməsini, yaralı, vəziyyəti ağır olanların qatarlardan düşürdülərək hospitalda saxlanmasını təşkil etməsini əks etdirir. Hüsaməddin Tuğac, Əli ilə tibb bacısı Mələk arasında sevgi hekayəsi, erməni Mkrtıçın ermənilərin görüş yeri olan evi, rusların gizli polisində işləyən Rəhim bəy, Gəncənin girəcəyində yandırılan evlər, soyğunlar, soyqırımın qurbanlarından olan Mələk və s. romanda maraqla qarşılanan səhnələrdəndir.

Türkiyəyə yardın üçün gedən Nağı bəy Şeyxzamanlının Ənvər Paşa ilə, onun vasitəçiliyi ilə Sultan Rəşadla görüşü, Nuru paşanın Azərbaycana yola düşməsi kimi tarixi faktlar da maraqla təsvir edilib. Amma o da maraqlıdır ki, əvvəlcədən sənədli-tarixi əsər yazmağı qarşısına məqsəd qoyan müəllif romana bir qədər mifik çalar verən bir epiloqla mətnə giriş edir. Əsərin əvvəlində ağ atlı, qan içində işıq görünməsi – qadının bir yuxusu, ikinci fəslin əvvəlində "göylərdən enmiş ağ atlı" başlığı altında Nuru paşanın ailəsi, atası haqqında məlumatın verilməsi bu təəssüratı bir qədər də genişləndirir... Lakin sonrakı gedişat realist hadisələr müstəvisinə endirilir.

Daha bir qüsur, xroniki təqdimatla tarixi roman rakursunun qarışdırılmasıdır. Bu ailənin tarixi, Nuru paşanın hərbi keçmişi haqqında danışdıqdan sonra birdən-birə xronikal təqdimata keçilir: "24 may 1918-ci il. Yevlax dəmiryol vazğalı. Nuru paşanın Qarabağdan Yevlaxa hərəkət etməsi.

Yeri gəlmişkən qeyd edim ki, bu roman eyni hadisələr və Əhməd bəy Ağaoğlu haqqında yazılmış ikinci roman hesab edilə bilər. Sabir Rüstəmxanlının bəlgəsəl roman kimi təqdim edilən "Difai fədailəri" romanı da yaxın mövzudadır.

***

Son illər, məsələn, sovet dövründə qadağan olunmuş, toxunulmamış mövzulara dönüş, bir xalq, dövlət, millət olaraq formalaşmamızda əhəmiyyətli rol oynayan tarixi mərhələlərə, ideoloji-məfkurəvi məktəblərin, cərəyanların

təhlilinə yönəlik romanların yazılmasına marağı çoxaldıb. Tutaq ki, dini-mənəvi məsələlər, ideoloji-dini cərəyanlar – İslam, buddizm, bütpərəstlik, şamanlıq, şəriət, təriqət, onların yaranması, müxtəlif təriqətlərin, xüsusilə də sufiliyin, hürufiliyin mahiyyətinin araşdırılmasına istiqamətlənmiş, onların bir millət olaraq formalaşmağımızda oynadığı rolun müəyyən edilməsinə hesablanmış romanlar yenə də yarandı. Əvvəlki illərdə bu cür romanlardan İsa Muğannanın "Türfə", Vüsal Nurunun "Dörantağ", Qan Turalının "Fələk qırmancı", Orxan Fikrətoğlunun "Ölü mətn", Aydın Talıbzadənin "Əbuhübb" romanlarındakı sufiliklə bağlı görünən istiqamət haqqında danışmışdıq.

Eyni istiqamət Zahid Sarıtorpağın bu romanında müşahidə edilir. Əslində, roman mənəvi dünya ilə sosial mühit arasındakı münasibəti, ziddiyyəti qabarıq şəkildə əks etdirə bilir.

Ümumiyyətlə, sosial problemlərin, müasir cəmiyyətin obrazının yaradılması məsələsi bir çox tənqidçilər tərəfindən hər zaman müzakirə edilən məsələdir. Zahid Sarıtorpaq elə müəlliflərdəndir ki, onun romanlarında bu problemlər qoyulur və öz bədii həllini tapır. Üz qatda deyil, mətnin dərinliklərində, mahiyyətində görünür. Bu roman da, əslində, cəmiyyətdə ülvi, təmiz, insanı həyata bağlayacaq pak qüvvələrin, düzgün idealların öldüyü ideyasını verməyə çalışır. İnsanların gözündə, hər müqəddəsliyin altında bir xəyanət gizlənib – əsərin çatdırmaq istədiyi əsas ideya budur. Elə bu səbəbdən də hər kəsin bir-birinə xəyanət etdiyi bu dünyada insanlar intihar arzusunda yaşayırlar, quşlar isə bu arzunu reallaşdırırlar.

Roman Qaraqız adlı bir qadının – özü də on üç yaşın-

da ikən iki yeniyetmə tərəfindən təcavüzə məruz qalan, bunun sayəsində bütün kişilərə nifrət edən bir qadının taleyindən bəhs edir. Əslində, bu üzdə görünən tərəfdir. Çünki müəllifin ifadə etmək istədiyi, simvollaşdırmağa çalışdığı məsələ yeri köçürülən, öz müqəddəsliyini itirən pirə ona inamın – saflığın, mənəviyyata bağlılığın itirilməsidir. İnsanlar müqəddəs heç bir şey qalmadıqda, üz tutacağı, saflaşacağı, inanacağı yer olmadıqda səmtini, istiqamətini itirirlər. Boz quşların intihar yeri təsadüfən seçilməyibdir. Köçürülən pirin qarşısında baş verir bu. Elə pir sahibi olan, orada dəfn edildiyi düşünülən müqəddəsin – Aşur babanın məzarının orada tapılmaması da, böyük bir həqiqətin ifadəsini həyata keçirən simvolik mənalandırmadır: müqəddəsliklərin, təmiz bilinən həqiqətlərin altında yatan yalanı ifadə edir. Maraqlıdır ki, əsərdə bir dənə də olsun təmiz, sədaqətli, əxlaqlı insan yoxdur. Hər kəs xəyanət edir – açıq, aşkar, yaxud gizli – amma edir.

Heç kəsin tapındığı, inandığı bir şey yoxdur. Hətta ürəyində Aşur baba ilə danışan Qaraqızın da...

Ən maraqlısı isə odur ki, müəllif iki məsələni qarşıqarşıya qoyur: Qaraqızın inandığı həqiqət, tapındığı müqəddəslik, əslində onun başına gələn faciələrin səbəbkarıdır. Hətta ona təcavüz edən insanlar belə onun bu müqəddəsliyə olan inamından istifadə ediblər: “Aşur babanın urfu haqqı, anana desən anan öləcək, bacına desən bacın. Əgər mən deyəni eləməsən, özün öləcəksən. Başqa adamlara desən, yatıb ayılmayacaqsan. Bunları yuxuda Aşur baban özü deyib mənə...”

Hətta sonradan Xəlillə münasibətinin qurulması da bu pirlə bağlı olmuşdu. Halbuki, əslində, bu münasibətlər Qa-

raqız üçün nə yaxşı nəsə vəd edirdi, nə də doğru idi. O, sehrinə düşdüyü gözlərin sahibi ilə bağlı yuxu görmüşdü: "Səhərə yaxın Dərviş Aşur həmişəki yerindən – otağın küncündəki alaqaranlığın içindən onun yuxusu ərşə çəkilmiş gözlərinə görünüb sakitcə: "O sənindi... "pıçıldamışdı".

Zahid Sarıtorpaq bu əsərində də simvolikaya meyillidir. Mistik elementlər, müəyyən anlam yaradan detallar, rəmzi mənalandırmalar bütün əsər boyu səpələnibdir: yalqızlar Piri, kvadratların içinə çəkilən kəpənək rəsmləri, intihar edən boz sığırçınlar, tabut, tüstülü şamlar... Yeri gəlmişkən, elə bu qızılgüllər də gözəl günlərin, arzuların, xəyalların simvolu idi ki, tufan havaya sovurur, yerlə yeksan edirdi.

Qaraqız obrazı alınıb, o səbəbdən ki, onu həm başa düşür, həm anlayır, həm də nifrət edə bilmirsən. Çünki o həyatını zamanın axarına, taleyin ixtiyarına buraxmış bir qadın tipidir. Həyatında baş verənlər seçdiyi yox, qarşısına itələnənlərdir. Halbuki ona seçim imkanı verilmişdi. Həqiqəti açıb demək imkanı, ona ailə qurmaq təklif edənlərlə ailə qurmaq imkanı və s... O isə təbii olmayanı seçməklə - oğru, ailəli və onu sevməyən birinin qollarına atılmaqla özünü ovundurmağı seçir. Xarakter olaraq möhkəm olmadığı, təsirə düşdüyü hər addımda hiss olunur. İstər 13 yaşlı ikən olsun, istərsə də artıq yetkin qadınkən... Kor-koranə inamdır onu bədbəxt edən. Həyatı boyu bircə bu həqiqəti anlamayıb. Anladığı məqam isə həyatının elə bir zamanına təsadüf edir ki, bir xarakter, şəxsiyyət, insan olaraq heçliyə yuvarlanmış olur.

Pirqasımlı yolunda quşların intiharı ölüm ayağında

olan qadının – Minəxanımın yadına düşməsi və bunu bacısı Qaraqıza danışması da təsadüfi deyildi. Çünki o da, Qaraqız da intihar fikrini yaddaşında, ruhunda yaşadan insanlardır. Yaşadan, lakin intihar edə bilməyən, buna cəsarəti çatmayan insanlar.

Bir sözlə, bu roman müasir mühitin, müasir cəmiyyətin bir sıra sosial, mənəvi problemlərini mətnə simvolik ifadəetmə ilə gətirərək maraqlı bədii həllə səbəb olur.

***

Romanlarla bağlı yazarkən, bu janrın inkişaf mərhələlərini izləyərkən, xüsusilə də son onilliklərdə yaranan mətnlərdə ümumiləşdirmələrin, nəzəri təsnifatların aparılmasının nə dərəcədə çətin, mürəkkəb bir prosesə çevrildiyini müşahidə etmək olur. Əsrin əvvəllərində, ortalarında meydana çıxan nümunələrdə nəzəri keyfiyyətlər, janr xüsusiyyətləri, poetik çalarlar nə dərəcədə ortaq məqamlarda birləşir və ya ən azından, bir-birinə yaxınlaşırdısa, müstəqillik illərində yazılmış əsərlərdə nəzəri şaxələnmələr, bir-birindən uzaqlaşmalar, eksperiment xarakteri daşıyan xüsusiyyətlər daha çox müşahidə edilir. Bu da təbii olaraq, ümumiləşdirmələrin və təsnifatların aparılmasını çətinləşdirir. Cavidanın "Məhsəti" romanı haqqında düşünərkən ilk olaraq bu məsələ üzərində dayanmaq ehtiyacı duyduq. Son zamanlar tarixi şəxsiyyətlərin həyatı haqqında (əlbəttə ki, tarixi dövr, mərhələnin fon təşkil etməsi ilə) yazılmış romanlar müasir ədəbiyyatımız üçün aktuallaşıb. Məhəmməd Hadi, Əhməd bəy Ağaoğlu və s. barədə mətnlər haqqında yazmışıq da. Biz bu cür əsərlərdə əsasən iki

müəllif məqsədi ilə qarşılaşırıq: 1. Tarixi dövrün canlandırılması üçün tarixi şəxsiyyətin əsas qəhrəman kimi müəyyən edilməsi – yəni vasitə olması; 2. Maraq obyekti olaraq məhz tarixi şəxsiyyətin (taleyinin!) seçilməsi. Tarix isə bu zaman şəxsiyyətin yaradılması, fəaliyyətinin dəyərləndirilməsi üçün, sadəcə, fon təşkil edir.

Bir misal üzərində fikrimizi əsaslandıraq. Sabir Rüstəmxanlının "Difai fədailəri" romanında Əhməd bəy Ağaoğlu xarakter olaraq əsas qəhrəman kimi seçilmiş, məqsəd, ilk növbədə, tarixi dövrün, hadisənin, mərhələnin təhlili və təqdiminin onun şəxsiyyəti vasitəsilə açılması idi. Bütün dövr bu taledən keçilərək təsvirə gətirilirdi. "Şair və şər" romanında məhz Hadinin taleyi obyekt olaraq seçilmişdi. Tarixi hadisələr isə arxada fon olaraq görünürdü.

Cavidanın "Məhsəti" romanı isə ilk baxışdan tarixi roman təəssüratı bağışlasa və tarixi şəxsiyyət haqqında olsa da, həmçinin konkret tarixi dövrlə bağlı müəyyən təsəvvürləri özündə əks etdirsə də, əsərin tam mənası ilə tarixi roman adlandırılması mümkün deyil. İlk növbədə, o səbəbdən ki, roman daha çox bir qadının – şair qadının şəxsiyyətinin, xarakterinin, ruhunun (əlbəttə ki, müəllif yozumunda!) dərkinə xidmət edir, onun tarixi şəxsiyyət kimi dəyərləndirilməsinə, tarixdə yerinin və dəyərinin müəyyənləşdirilməsinə yox! Sanki müəllifin missiyası haqqında bir çox uydurmalar dolaşan, yazdıqları, düşündükləri ilə mübahisələrə səbəb olan bir qadının ruhuna müxtəlif rakurslardan işıq tutmağa çalışaraq onu dərk etmək istəyidir. Yazıçı öz qəhrəmanını müxtəlif psixoloji durumlara düşürərək şairəyə haqq qazandırmağa, qadın azadlığının mahiyyətini anlatmağa, bu mahiyyətin bəzən

qadının özünü belə çaşqınlıq və sual qarşısında qoyduğunu izah etməyə çalışır. Nəticədə anlada bilsə də (bir çox hallarda bu haqq qazandırma baş tutur!), çox ziddiyyətli, anlaşılmaz bir xarakter yaratmağa müyəssər olur. Bu ziddiyyət olmasaydı, tarixdə yaşamış, az-çox haqqında nələrsə yazılmış Məhsəti Gəncəviyə "müəllif haqq qazandırması" baş tutmayacaqdı. Həmçinin müəllifin mənbə kimi əsaslandığı, paralellərin mövcudluğu hər anda gözə dəyən kitabda deyilən fikir ("Kimi onu namuslu, ismətli qadın deyə təqdim edib, kimi də onu "Şərqin madam Sanjeni" (P.Horn, Y.Ripka), fransız şansonetkalarının bənzəri (Y.E.Bertels) sayıb" (Rafael Hüseynov, "Məhsəti necə varsa". səh.14) havadan asılı qalacaqdı. Belədə isə o fikir əsaslı bir şəkildə öz dayaqlarına, öz kökünə, öz söykənəcəyinə oturdulur. Bu da artıq tarixi şəxsiyyətə və tarixi dövrü üçüncü bir yanaşma olaraq meydana çıxır. Yuxarıda qeyd etdiyimiz təsnifatdan uzaqlaşır. Əlbəttə, əsərdə psixoloji çalarlar yox deyil.

İkinci bir sual ədəbiyyat tariximiz üçün dəyərli bir mənbə olan "Məhsəti necə varsa" tədqiqatından sonra bir romanın Məhsəti haqqında yeni, fərqli nə deyəcəyi ilə bağlı sual idi. Dedimi?

Əvvəlcə onu deyək ki, roman sadə və axıcı dildə yazılıb və müəllifin qəhrəmanının xarakterinə, şəxsiyyətinə, fəaliyyətinə olan böyük marağı hər addımda hiss edilir. Qarşıya qoyulan məqsədə – bir çox "ilk"ləri özündə cəmləşdirən şairənin ziddiyyətli, mübahisəli və bir o qədər də hər kəs tərəfindən anlaşılmayacaq xarakterinin yaradılmasına, obrazın canlılığına nail olunub. Xarakter elə yaradılıb ki, onu bir Qadın olaraq, bir şəxsiyyət olaraq, azad ruhlu

yaradıcı insan olaraq görə bilirsən. Hətta bəzi məqamlarda anlamaq da olur.

Və maraqlı cəhət ondadır ki, müəllif qəhrəmanının bir qadın olaraq qınaq mənbəyinə, qınaq obyektinə çevrilməsinə mane ola bilir (xüsusilə də öz sevgisi vasitəsilə!)

Müəllifin verdiyi xarakteristika ilə haradasa razılaşır, haradasa etiraz edirsən. Müəllif özü başa düşdüyü obrazı anlatmağa çalışır. Və bunun üçün təkcə haqqında söhbət gedən zamanın, tarixi dövrün kontekstində qalmır, müasir zamana da adlamağı, müasir zamandan da yanaşmanı təqdim etməyi bacarır.

Tarixdən bəlli olan faktları təxəyyül gücü ilə cana-qana doldurarak mühitin, zamanın, saray həyatının bütün əsaslı detallarını yarada bilir. Romanın mahiyyətində, yanaşmalarda, daxildə Rafael Hüseynovun "Məhsəti necə varsa"sı ilə mövcud paralellər, qaynaqlanmalar dəqiq bir şəkildə müşahidə edilsə də, "Məh Səti"nin havası, ruhu, xarakter və obrazlar dünyası, ümumi təəssüratı tam fərqli və yenidir.

Yeri gəlmişkən, bu qaynaqdan yararlanma bir çox anlamlarda eyniyyət təşkil edir (fakt baxımından və s.), amma müəllif yozumu maraq doğurur. Məhsətinin Gəncəyə gəlmə olması, yolda quldurlarla qarşılaşarkən "Sultan əmanəti" olması fikrini uydurması və bununla xilas olması...

Mətnin maraqlı cəhətlərindən biri müəllifin (qəhrəmanın) kütlə və şəxsiyyət gücünü qarşılıqlı şəkildə təhlilə çəkmək istəyi, mətnə daxil etdiyi fəlsəfi mühakimələrdir. Ümumiyyətlə, müəlliflərin mətn, xüsusilə də bədii roman daxilində müxtəlif fəlsəfi cərəyanlar, düşüncələrlə bağlı

şəxsi qənaətlərini vermək, mətnə yükləmək istəkləri hər zaman olubdur. Xüsusilə də son dövrlərdə. Amma diqqəti çəkən başlıca xüsusiyyət bu düşüncələrin müəllif dilindən səslənməsi, mətnin bədii-hadisə qatına işləməməsi, bir sözlə, havadan asılı qalması olurdu. Amma Cavidanın romanında bu bədii mətn təfəkkür qatına işləyə bilir. Müəllifin deyil, qəhrəmanın düşüncələri səviyyəsinə adlayır.

Aynur XƏLİLOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent

POVEST – ÇAĞDAŞ BƏDİİ DÜŞÜNCƏNİN AXTARIŞLARINDA

Ədəbiyyatda, adətən, müəyyən mərhələlər bir-birini əvəz etdikdə, cəmiyyətdə köklü dəyişikliklər baş verdikdə ədəbi sferada bədii söz sənətinin inkişafına yönəlmiş yeniliklərlə bərabər, bəzən özündən əvvəlkinə kəskin inkarçı yanaşmalar da meydana çıxmış, məntiqə o qədər də uyğun olmayan fərziyyələr irəli sürülmüşdür. Belə bir proses müstəqillik dövrü Azərbaycan ədəbi mühitində də yaşanmışdır. Mövzudan kənara çıxmadan qeyd edək ki, araşdırma predmetimiz olan povest janrı üçün bu zaman kəsiminin müəyyən mərhələsi o qədər də ürəkaçan olmamışdır. Lakin Zaman bir daha təsdiqlədi ki, hər şeyin öz axarına düşməsini təmin edən, doğruları fakt kimi qarşıya qoyan, nəyin lazımlı, nəyin lazımsız olduğunu müəyyənləşdirən yenə də əlahəzrət Zamanın özüdür. Əgər bir neçə il öncə Azərbaycan ədəbi "cameəsində" "povest" janrının adı və özü müzakirə obyekti idisə, hətta bu janra bəzən inkarçı mövqedən yanaşılırdısa, bu gün artıq belə bir hal, demək olar ki, müşahidə edilmir. Görünür, sınaqdan çıxmış, inkişafa və uğura imza atmış, ənənəyə çevrilmiş nəsnələrin üstündən xətt çəkib yox etmək o qədər də asan deyil. Məhz bu səbəbdən də Azərbaycan ədəbiyyatında əsası görkəmli mütəfəkkir-yazar Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" əsəri ilə qoyulan, müxtəlif ədəbi nəsillərin nümayəndələrinin yaradıcılığında inkişaf etdirilən,

içərisində yaşadığımız zamanın xarakterinə və tələblərinə uyğun olaraq oxucu üçün sərfəli həcmdə olub yazıçıya öz sözünü yorucu təfərrüatlara varmadan konkret şəkildə deməyə kifayət qədər meydan verən povest janrına müraciət bu gün də müasir yazarlar tərəfindən davam etdirilməkdədir. O ki, qaldı ənənənin necə və hansı şəkildə davam etdirilməsinə, bəli, bu haqda müzakirə açmağa dəyər.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə bərqərar olan insan azadlığı onun sovet hakimiyyəti zamanında mövcud olmuş yazmaq və çap olunmaq məhdudiyyətini də aradan qaldırmış, bu isə təəssüf ki, bir sıra hallarda arzuolunmaz mənzərəyə gətirib çıxarmışdır. Həm də təkcə ədəbiyyatda yox, bir sıra sahələrdə. Bəs problemə çevrilməkdə olan bu məsələnin qarşısını necə almaq olar? Mövzumuz ədəbiyyatla bağlı olduğundan, deyə bilərik ki, fikrimizcə, sözügedən sahədəki bu və ya digər arzuolunmaz halların qarşısını almaq müvafiq elmi və ədəbi qurumlar, ədəbi tənqid, qəzet və dərgilər, nəşriyyatlar, televiziya və saytların məsələyə kompleks yanaşması ilə mümkündür.

2017-2018-ci illərdə povest adı ilə təqdim olunan kifayət qədər çap materialı qeydə alınmışdır. Təkcə 2018-ci ildə bu rəqəmin sayı, təxminən, qırxa yaxındır. Lakin bunların hamısını heç də bədii mətn kimi qəbul edə bilmərik. Ədəbiyyat faktı olmayan və ədəbi dövriyyəyə daxil ola bilməyən yazı və çap materialı bədii mətn sayıla bilməz. Dövriyyəyə süni şəkildə daxil edilmə halları da vardır ki, belə hallar da, əsasən, incəsənətin digər sahələri vasitəsilə əlaqəli şəkildə həyata keçirilir. Lakin sənətə aidiyyəti olmadığı üçün bunlar, təbii ki, yaddaqalan və uzunömürlü

olmur. Nəsr əsəri üçün isə belə monipulyasiyalar o qədər də keçərli deyil. O, ya bədii mətn olaraq var, ya da yoxdur! Təəssüf ki, bir sıra hallarda "ədəbi tənqid"in özü də bədii yaradıcılığa aidiyyəti olmayan "mətn"lərin və müəlliflərinin reklamı ilə məşğul olur, qəzet və jurnallardan boy verən məqsədli və sifarişli xaltura yazılarla onları ədəbiyyata sırımağa cəhd edir və nə yazıq ki, bəzən buna, süni şəkildə də olsa, nail ola bilir. İstənilən halda, tənqidçinin peşəkarlığı, biliyi, analitik təfəkkürü, təhlil və tədqiq bacarığı ilə yanaşı, şəffaf mövqeyi, vicdan və məsuliyyət hissi olmalıdır. Məhz bu mövqedən yanaşaraq, araşdırmada yalnız ədəbiyyat faktı olan və ədəbiyyat adına müəyyən qədər nələrisə müşahidə etdiyimiz povestlərin adlarını çəkməyi, haqqında yığcam şəkildə fikir bildirməyi məqsədəuyğun hesab edirik.

2017-2018-ci illər üçün povest janrının ümumi mənzərəsində mövzu, məzmun, üslub və təmayül müxtəlifliyi, süjetin çoxqatlı təqdimatı diqqəti çəkən xüsusiyyətlər kimi müşahidə olundu. Magik-realist üslubda yazılmış əsərlər isə bir sıra maraqlı məqamları ilə bu mənzərədə daha çox görünən oldu. Belə əsərlərdən biri yaradıcılığında magik-realist üslubun aparıcı olduğu istedadlı yazar Zahid Sarıtorpağın "Qarğa marşrutu" povestidir. Onu da deyək ki, bu, yazıçının povest janrında qələmə aldığı ilk əsəridir. "Bu dəqiqə, elə bil, şumlanmış bir tarlayam, sinəmə toxum səpilib, yağış da yağıb – yəni, bəs deyincə suvarılmış kimiyəm, amma göyün üzü tutqundu ki, tutqundu, bəxtimdən, naxışımdan gün çıxmır ki, canımdakılar cücəribgöyərə, gözüm baxa-baxa hamısı yavaş-yavaş çürüyüb gedir... Yəni vəziyyət, təxminən, belədi. Görək necə olacaq.

Hər halda, deyə bilmərəm axırda hansı ağıla qulluq edəcəm. Çox güman, yazmayacam, yəqin. Çünki yazılası şeylər deyil bunlar, istəsəm belə, bacarmaram. Əslində, yazım yazılıb artıq, özü də kitab-dəftərə deyil, köhnələr demişkən, bu mürdəşiryumuş alnımın ortasına yazılıb birbaşa...” Zahid Sarıtorpağın nəsr yaradıcılığı ilə yaxından tanış olan savadlı və həssas oxucu müəllifin imzasını görmədən də bu özünəməxsus bədii düşüncə və təhkiyə tərzinin, əsas hadisə-əhvalatı təqdim etmək üçün işlənilmiş belə başlanğıc-giriş, yaxud keçid üsulunun, bir sözlə, əsərin artıq kimə aid olduğunu anlayır.

Zahid Sarıtorpaq içərisində yaşadığımız dövrün problematikasından yazmağa daha çox üstünlük verən və onu hazır, asan qavranılan məhsul kimi deyil, düşündürən, düşündürüb də nəticə çıxarmağa sövq edən şəkildə təqdim edən yazıçıdır. Mübhəmlik, mistik örtük, gerçəkliyin gizlinlərdə əksi, simvoliklik, ümumiləşdirmə... onun digər əsərləri kimi “Qarğa marşrutu”nda da diqqəti çəkir. Müəllif, bəlkə də, ən adi həqiqətləri belə, metafizik düşüncə örtüyündə təqdim edir, əsəri doğru-düzgün anlamaq üçün isə örtüyün o biri üzünü görmək gərəkdir.

“Qarğa marşrutu”nda vampirsayağı obraz kimi təsvir edilən Nihat ümumilikdə ədəbiyyatımız üçün, demək olar ki, yenidir. Kiçik yaşlarından atasını itirən, atalığının kobud və vecsiz rəftarından təngə gələn, sevgidən, hətta ana nəvazişi və qayğısından məhrum böyüyən Nihata bütün bunlar, təbii ki, ruhi-psixoloji təsirsiz ötüşməmişdir. Baş götürüb evdən qaçan və bibisigildə yaşayan Nihat bir müddət sonra xaçapuri satıb çörək pulu qazanmaq üçün Bakıya – “Binə” bazarına üz tutur. Nihat obrazı mürəkkəb

və ümumiləşmiş obrazdır. Həyatın amansızlığı, ədalətsizliyi qarşısında nə edəcəyini hələ aydınlaşdıra bilməyən, yaşamaq uğrunda mübarizədə gah zəif, gah da güclü görünməyə çalışan obraz. Müəllifin əsas təsvir obyekti yaşamaq uğrunda həyatın dibində çabalayan Nihatlar, Əzizağalar, Dilsuzlar, Şamillər..., onların yaşam tərzi, ağrı-acıları, daxili-psixoloji yaşantıları..., hədəf isə cəmiyyətin sanki görmədiyi, yaxud görməzdən gəldiyi bu insanların acınacaqlı həyata məhkumluğunun səbəbləridir.

Povestdə ümumiləşdirmə və simvolizm məkan və obrazların timsalında gerçəkləşmişdir. Bazar, mahiyyət etibarilə, burada təsvir olunan dövrün, cəmiyyətin xarakterini, mövcud mənfilikləri, bəzi insanların qəlbinə hakim kəsilən şeytani hərisliyi ifadə edərək simvolik məzmun daşıyır. Əslində, geniş və fəlsəfi anlamda yanaşsaq, dünya özü də böyük bir bazar deyilmi?! – İnsan bazarı! Bu "bazar"da yuxarıda sözügedən insanların dəyəri nə qədərdir və ümumiyyətlə, dəyəri varmı?

Yüksək sənətkarlıqla yazılmış, poetik təfəkkürlə prozaik təfəkkürün birgə təzahür etdiyi "Qarğa marşrutu"nu 2017-2018-ci illər povest janrının uğurlu nümunəsi hesab etmək olar.

Yaradıcılığında povest janrına xüsusi önəm verən Mübariz Cəfərlinin magik-realist üslubda yazılmış "Şəklin arxasında", "Səmadakı quyu" və "Yerin altındakı gümüşüyarpaq ağac" əsərləri müəllifin irreal aləm və hadisələrlə bağlı düşüncələrini əks etdirir. "Şəklin arxasında" povestində ruhlar, yuxu, qeyri-adi hadisələr haqqında araşdırma aparan tədqiqatçının bu məqsədlə getdiyi qeyri-adi hadisələrin yaşandığı söylənilən evdə baş verənlər və bunların

fonunda keçən əsrin, təxminən, səksəninci illərinin sonları-doxsanıncı illərinin əvvəllərində cəmiyyətdə mövcud olan xaos və nəticə etibarilə onun yaratdığı cinayətlər diqqətə çatdırılır. Bu evdə baş verənlər ev sahibinin söylədiyi kimi, doğrudanmı ruhlarla, daha dəqiq desək, rəsmi həmin evin divarından asılmış gənc və gözəl qadının ruhu ilə bağlı idi, yoxsa üstü ört-basdır edilmiş cinayətlər idi? Əgər birinci olsa da belə, ev sahibi tərəfindən hadisələrin səbəbkarı kimi göstərilən, guya naməlum şəkildə yoxa çıxdığı deyilən gənc qadının ruhunu qəzəbləndirən və mistik müdaxilələrə sövq edən də onun başına gətirilən və şahidi olduğu cinayətlər deyildirmi? Axı, həqiqət heç də təkcə gözlə görünənlərdə deyil, bəlkə də, daha çox gizlinlərdə – "Şəklin arxasında" olur. Deməli, əsas diqqət şəklə deyil, onun arxasındakı gizlinlərə yönəlməli, həqiqət də orada axtarılmalıdır.

Digər tərəfdən, ruhlar, qeyri-adi varlıqlar haqqında nələrisə öyrənməyə çalışmaq cəhdi hər zaman olub, lakin bu cəhdlər, demək olar ki, nəticəsiz qalıb. Zaman-zaman bu sirri-Xudanı öyrənmək cəhdi öyrənənin özünün ruhsal halında, psixologiyasında dəyişikliklərə gətirib çıxarıb. Çünki insanın dərk edə biləcəkləri Tanrı tərəfindən müəyyən olunmuş bir dərəcəyə, çərçivəyə qədərdir! Elə "Şəklin arxasında" povestində də bunun şahidi oluruq.

"Ya dirisən, ya ölü. Üçüncü yol yoxdur" hind atalar məsəlinin əksinə olaraq "Yollar çoxdur" deyən müəllif, əslində, "yol" dedikdə, insanın cisimsəl, yaxud ruhsal anlamda "gedib" də bərqərar ola biləcəyi məkanı nəzərdə tutur. Taleyindən gileyli olanlar, bəlkə, metafizik düşüncəyə görə, bizə naməlum uzaqlıqlarda yerləşən mövcudluqlarda

özlərini tapa bilərlər?.. Tapa bilərlərmi? Həmin məkanlar da məgər onlar üçün labirint olmayacaqmı? Hər halda belə mövcudiyyət var və Mübariz Cəfərlinin daha çox irreal aləmdə baş verən hadisələri və bu kontekstdə qəhrəmanının ruhi-psixoloji yaşantılarını, təbəddülatlarını əks etdirən "Səmadakı quyu" povesti də müəllifin neçəncisə mövcudiyyətin varlığına inam hissini ortaya qoyur. Bizim üçün qeyri-adi olan aləmlərdə, sivilizasiyalarda zamanın tezliyi də fantastik ölçüdədir. Əsərdə Arifin düşdüyü məkanla buradakı zamanın tutuşdurması yarım günün altı ilə bərabərindədir. Odur ki, Arif geri döndükdə çox şey dəyişmişdi, hətta onun özü də "ölmüşdü". Zamanın Yer kürəsi üçün hesablanmış altı ili müddətində Arifin qoyub-getdikləri forma və mahiyyət etibarilə başqalaşıb dəyişsə də, dəyişməyən Qarabağ müharibəsinin hələ də davam etməsi idi:

"- Bu gün də atıblar, atəşkəs pozulub, Allah axırını xeyrə calasın...

Arif qımışdı:

- Hələ də atəşkəsdi?..

Qoca belini çiyninə aldı:

- Dədən yaşındayam, Aydan-zaddan gəlmisən, ya məni ələ salmısan? – və deyinə-deyinə çıxıb getdi. Bir azdan fəvvarənin səsi kəsildi, parkın işıqları söndü".

"Kənd" deyilən naməlum məkandan şəhərə qayıdıb evini yad adamlara satılmış, özünün isə artıq "ölmüş" olduğunu görəndə Arifin geriyə – "onlar"dan olanların yanına dönməkdən başqa çarəsi qalmır.

Povestdə Mübariz Cəfərlinin folklor motivlərindən, dastan və nağıl strukturuna məxsus elementlərdən bəhrələnməsi maraqlı məqam kimi diqqəti çəkir. Yol – əsər bo-

yu gerçək və simvolik anlamda insanın taleyini müəyyənləşdirən əsas amil kimi verilir. Digər maraqlı məqam dastan strukturuna məxsus xilaskar-hami funksiyası daşıyan sakral məzmunlu ağ və ya göy atlı motivindən yararlanmaqdır. Dastanlarımızda, xüsusilə də məhəbbət dastanlarımızda darda qalan qəhrəman vasitəçi-meditativ obraz olan ağ və ya göy atlı tərəfindən xilas edildiyi kimi, "Səmadakı quyu" povestində də Arifi quyuya bənzəyən dərədən ağ atlı xilas edir. Bu, daha çox bizə "Abbas və Gülgəz" dastanında Abbasın su quyusundan xilas olunmasını xatırladır. Fərq ondadır ki, Arifi bu quyuya atmamışdılar, o, bulaqdan su içmək üçün həmin quyuya bənzəyən dərəyə özü yumalanıb düşmüşdü. Ən böyük fərq isə bundadır ki, əgər həm "Abbas və Gülgəz", həm də digər dastanlarda sözügedən atlı sakral məzmun daşıyırdısa, povestdə bu obraz, sakral deyil, qeyri-adi və mistik məzmundadır. Təsvir olunan məkan da elə bu məzmunu ehtiva edir.

Atla iki günlük mənzil başına gözünü yumub-açınca çatması da sözügedən dastan motivindən irəli gələn məsələdir. Təbii ki, povestdəki hər iki epizodun bənzərliyi daha çox zahiri xarakter daşıyır və sözügedən dastan motivinə məxsus semantik tutumu ehtiva etmir. Bəzən pulun da tələb olunduğu təsvir edilən məkan isə sanki bu dünyada müəmmalı şəkildə itgin düşən, ölüsü-dirisi tapılmayan professor Ağazadə, Arifin öncəgörücü qardaşı və elə Arifin özü kimilərin "məskunlaşdırıldığı" yerdir. Kim bilir, bəlkə, doğrudan da, bu dünyadakı müəmmalı itginlər məqsədli şəkildə hansısa mübhəm bir aləmə aparılmışlar...

"Yerin altındakı gümüşüyarpaq ağac" əsərində yuxu süjetyaradıcı komponent kimi alınaraq irreal aləmlə bağlı

"görüntülər"in təsvirini gerçəkləşdirir. Demək olar ki, qeyri-adi, mistik hadisələrdən ibarət olan yuxu üzərində qurulmuş əsər süjet boyu hadisələrin qəhrəmanı ilə birlikdə oxucunu da düşündürür və o, baş verənlərin nə ilə sonuclanacağını təxmin etməyə can atır, həm də məhz sözügedən irreal kontekstdə. Müəllifin yuxu haqqında sual və mülahizələrilə başlayan əsər sonda oxucunun özünü də bu sual və düşüncələrlə baş-başa qoyur. Yazıçı təqdim etdiyi çoxqatlı yuxu ilə oxucunu daha da çətinə salır. Onun "Yuxunu yozub adi həyata calamaq səyinin özü əbəs, yersiz olmaqla bahəm, həm də natamamdır" fikri ilə razılaşmırıq (natamam ola bilər, lakin əbəs və yersiz deyil). Axı, bu sirli aləm maddi aləmlə bağlı yuxu sahibinə müəyyən şifrəli mesajlar ötürür, bir növ, xəbərdarlıq edir. Bu, bəşər tarixində bəni-Adəmin bizə bəlli olmayan böyük Zaman içərisində sınaqdan çıxardığı bir inancdır, həqiqətdir. Bu mübhəmlikdə insan idrakına aydın olan əsas və bəlkə də, yeganə cəhət də elə budur. Doğrudur, "yuxu deyilən sirli-sehrli dünyanı çərçivəyə salmağın özü ağlasığmazdı", çünki "Nyutonun, Eynşteynin yuxusuyla papuasların gördüklərini eyniləşdirmək ağlabatan deyil axı..." Digər tərəfdən, "Neçə milyardlıq əhalinin yuxusuna fərdi yanaşma da gözgörəsi xaosdu". "Bəs hardadı çıxış yolu? Bax budur əsas məsələ!.. Kələfin ucunu necə tapaq, nədən başlayaq?" Yuxu ilə bağlı bu və ya digər saysız-hesabsız suallar isə hələ də bəşər övladı üçün cavabsız qalır. Həm də bu təkcə Sirrin açılma məqamının yetişməməsi ilə deyil, bəlkə də və yəqin ki, Sirrin içərisində cismən (həm də ruhən) müvəqqəti var olduğumuz maddi aləm üçün heç vaxt açılmayacağı ilə bağlıdır. Elmi cəhətdən hansı şəkildə izah

edilməsinə baxmayaraq, həqiqət budur ki, yuxu birbaşa İlahi aləmlə bağlıdır. Və yuxugörmə təkcə vizual deyil, vizual və hissi şəkildə cərəyan və qəbul edilən prosesdir, baş verən yaşantıdır. Məhz İlahi aləmlə bağlılığı yuxunu insan idrakından kənar saxlayır! Yuxunun tarixi elə bəşəriyyətin tarixi ilə eynidir. Yuxuyozmalar da ruhsal aləmlə əlaqəli bu yaşantıların – müxtəlif yuxuların – maddi gerçəklikdə hansı şəkildə öz əksini tapmasının dəfələrlə sınanılması faktlarına əsaslanılmışdır.

"- Elə bilirsən, haçansa qayıdacaqsan? Səni gətirən gətirib bura... – yox, bu sözləri balaca deyə bilməzdi, düzdü, oğlanın ağzı tərpənirdi, amma səs yoğun və yorğun, aram və zabitəli kişi səsiydi, elə bil, o kəlmələr işıqlı otağın içində deyilmirdi, lap uzaqlardan qulaqlarına, beyninəşüuruna dolurdu. Elə o da qeyri-ixtiyari, sövq-təbii, eşitdiklərinə inanmaya-inanmaya yaşından çox-çox böyük danışan oğlanın söylədiklərinin qarşısında büzüşə-büzüşə və çəkingən-çəkingən:

- Deyirsən, əcəl gətirib məni?.... – soruşdu.

Oğlan əlini yellədi:

- Yox, əcəl yaşayanlara aiddir..."

Bu, yuxunun müvəqqəti ölüm, Oğuz elində deyildiyi kimi, "kiçik ölüm" olduğuna bir işarədir. Təsadüfi deyil ki, sonda əsərin qəhrəmanı hardasa qeybdən deyilən "Qayıt" sözü ilə, bəlkə də, onu "böyük ölüm"ə aparan "kiçik ölüm"dən həyata, maddi aləmə qayıdır.

Əsər sonadək oxucunu düşündürür, həm də bu, sonda ümumiləşmiş xarakter daşıyır:

"- Elə bil, bu qatar dövrələmə fırlanmağındadı, – nəhayət, "həkim" gözlərini bayırdan çəkmədən çəkinə-çəki-

nə pıçıltıyla sükutu pozdu. – Heç vaxt da mənzil başına çatmayacaq...

O, vecsiz-vecsiz əlini yelləyib, nədənsə, acıqlı-acıqlı dilləndi:

- Cəhənnəmə çatsın.

...Bu dəm qatar bərkdən, uzun-uzadı bir fit verdi".

Mübariz Cəfərlinin qəhrəmanları üçün bu dünya, bütün yer üzü, sanki daim hərəkətdə olan dayanacaqsız qatar (...), onlarsa bu qatarın heç vaxt mənzil başına çata bilməyəcək sərnişinləridir.

"Niyə məni qoydun öləm, baba?!" – Mübariz Örənin postmodernist təmayüldə yazdığı "Ağ buludlar" povesti üçün seçdiyi bu epiqraf süjet boyu sanki bədbəxtliyə məhkum olunmuşların qəlbindən qopan ah kimi səslənir. Əsərdə baş verən günahlar onu edənlərə özünəqəsddən başqa yol qoymur, ata ayaqlarını dəzgahın altında qoyub özünü əlilliyə məhkum edir, qardaş isə özünü çaya atıb öldürür. "Niyə məni qoydun öləm, baba?!" – Bu, həmin övladların səsidir. Ailəsini atıb yad ölkələrə gedən kişilərin başqa millətlərdən olan müxtəlif qadınlardan törəmiş bir-bindən xəbərsiz övladları bu günaha öz valideynləri, burada, konkret olaraq ataları tərəfindən məhkum edilmişlər. Məhz "O" da belələrindəndir. Əsərin kulminasiya nöqtəsi bir-birindən ayrı yaşayıb böyüyən doğma bacı-qardaşın arasında olan insest əlaqənin bəllənməsidir. Bu dəhşətli gerçəyi bildikdə isə bir vaxtlar ailəsini axtaran "O" qaçır, bacısından da, "kamaz"ın arxasınca qarın-buzun üstündə ayaqyalın-başıaçıq, ağ saçları üzünə tökülmüş qaçan – illərdi oğlunun həsrətindən havalanmış – anasından da qaçır. Əslində, "O" öz günahından qaçırdı – öz ölümünə sa-

rı!

Sakinlərinin əməllərinin nəticəsi olaraq Sadomor lənətlənmiş məkan kimi təsvir olunur və bu lənətin əyani sübutu Uruflu gölün sahilindəki uçuq məbədin üzərində daimi qərar tutmuş qara buluddur. Hələ çox illər öncə qəsəbədə insest hadisə baş vermiş, daha sonra bu, həmin atanın övladları arasında yaşanmış, Müqəddəs, əslində isə Uruflu göl hər iki gənci öz sularına qərq etmişdir. Bundan hiddətlənən qəsəbə cavanları ağsaqqalların sözünə baxmayıb həmin atanın başına olmazın iyrəncliklər açıb öldürürlər. Günahı günahla "təmizləyirlər". Əxlaqsızlığı yayan əsl günahkar qadın isə sağ qalır. Bundan sonra məbəd həyətinin üzərində qara bulud topası yaranır. "O qibləsizin ruhudu məbədin üstündəki! Balalarının öldü-qaldısından bir xəbər bilməmiş buranı tərk edən deyil"... "Gərək əl vurmayaydız o zəlil olmuşa. Öldürməyəydiniz. Ondansa gedib o qarnı yırtılmışı öldürəydiniz, – nəhayət, bir kor qoca varmış, o, dilə gəlir, – əgər o, sağ qalıb bircə qarın doğsa, vəssalam, bədlikdən çıxa bilməyəcəyik. Bu murdarlığı yeddi nəsil yuyub təmizləyə bilməyəcək. Ta ki, mənfur qövmün sonuncu erkəyi tapılıb ölməyincə..." Çoxçox illər sonra eyni insest hadisə təkrarlanır – "O"nun atası və özü tərəfindən. Şimaldan Sadomora gəldikdə hər kəs "O"nun bu "lənətlənmiş xaraba"dan geri qayıtmağını istəsə də, laübalı Qoca bunun onun taleyi, üzərinə düşən "missiya" olduğunu da dərk edir: "Nahaq qayıtdın bura" – dərin quyudan gəlirmiş kimi boğuq, ləpəli gəlirdi Qocanın səsi, – "Müqəddəs göl deyil bu göl, Uruflu göldü! Ruhlu göldü! Öz ayıblarını ört-basdır eləmək üçün qəsdən gizlədirlər bu adı. Lənətlənmiş göldü bu göl, suyu murdardı.

Sənə də sıçrayıb bu sudan. Sən də məhkumsan! Gərək gəlməyəydin bura. Amma gəlməyə bilməzdin. Səni bura gətirən səbəb var. Bu əzablı oyunda sən də bir bəndsən! Çevrə qapanmalıdır və o çevrəni sən qapamalısan. Çıxış qapısının açarları səndədir! Qaça bilməzsən bu aqibətindən!..” Yuxuda laübalı Qoca açıq-aşkar demişdi ona bu sözləri. Nəfsi onu bu taleyi yaşamağa sürükləyir və bilməyərəkdən doğma bacısı Aysulunun da faciəsinə səbəb olur. Qurtuluşunu ölümdə görən “O”nun intiharından sonra məbəd həyətinin üzərindəki qara bulud yoxa çıxır, onun yerində ağappaq parlaq bulud əmələ gəlir, irili-xırdalı ağ buludlar da həmin parlaq buluda sarı sürünüb, bir-birinə qovuşub bəmbəyaz nəhəng bulud yaradır. “Niyə məni qoydun öləm, baba?!” – bütün bunlara rəğmən əsərin başladığı bu sual-ah sonda da oxucunun qəlbində qövr eləyib ona bir müddət rahatlıq vermir. Bəlkə, oxucu bu taleni, məhkumluğu qəbul etmək istəmir, günahın günahla yuyulmasına etiraz edir? Bəlkə, ataların günahlarının bədəlini oğulların ödəməsilə razılaşmır? Ona görə də bu bəxtsiz taleyə acıyır. Axı ata-ana sevgisindən məhrum, “detdom”da böyüyən, düşdüyü mühit çirkab içində olan “O”nun günahı nə idi? Bədbəxtliyə məhkumluq – bu tale, qəzavü-qədər ədalətli idimi?

Əsərdə yuxu mənayaradıcı komponent kimi çıxış edir, sirli aləm kimi olacaqlar haqqında sahibinə müəyyən şifrələrlə konkret mesajlar ötürür. Yuxuların yozumu süjetin gəlişməsi boyunca “O”nun başına gələcəklərə işarə kimi hesablanır.

Povestdə antik yunan ədəbiyyatına aid Tebai kralı Ediplə bağlı uyğun motivdən dekonstruktiv şəkildə istifa-

də olunmuşdur. Əsas diqqəti çəkən isə süjetyaradıcı komponent kimi alınaraq dekonstruktiv şəkildə istifadə edilən "Qurani-Kərim"də sözügedən Lut Peyğəmbərin qövmü – doğru yoldan azıb mənəvi-əxlaqi heçliyə uğramış qövmün Allahın qəzəbinə gələrək məhv edilməsi ilə əlaqəli əhvalatdır. "73. Və dan yeri ağaran zaman yaxaladı onları o uğultu. 74. Alt-üst elədik yurdlarını, odda bişmiş daş yağdırdıq üstlərinə. 75. Bu deyilənlərdə, şübhəsiz, ayələr var görüb-götürənlər üçün. 76. Bir yolun üstündədir, durur o yerlər. 77. Bu da bir ibrət verir iman gətirənlərə" ("Qurani-Kərim", "Hicr", 73-77). Lut və ailəsi istisna olmaqla, Lutun qövmü və Sadum yerlə-yeksan olur. Hazırda Yaxın Şərqdə Ölü Dəniz və ya Lut gölünün yerləşdiyi ərazidə nə vaxtsa mövcud olmuş yaşayış məskəninin xarabalıqları aşkar edilmişdir. Bu isə "Qurani-Kərim"də sözügedən qövmün yaşadığı və Allah tərəfindən yerlə yeksan olunmuş həmin şəhər – Sadumdur.

"Bir nəfər Həqiqəti axtarmaq üçün uzun bir yola çıxır. Gəlib üfunətli bir yerə çatır. Burda bir komanın içində qoca, olduqca çirkin, bədheybət bir məxluqat oturduğunu görür. Ona məlum olur ki, bu, Həqiqətdir. Ona deyir:

- Ey Həqiqət, insanlar məndən sənin necə olduğunu soruşacaqlar. Bəs, mən onlara nə deyim? Necə deyim ki, sən bu qədər çirkinsən?

Həqiqət belə cavab verir:

- Get, onlara yalan söylə!.."

Bu epiqrafın yer aldığı Kənan Hacının "Fironun dəftəri" əsərində göstərilir ki, mənəvi-əxlaqi aşınmalar gec-tez insanın məhvini də labüdləşdirir. Əsərin süjeti, demək olar ki, Firon adlı birisinin dəftərində yazdığı ömür hekayəti

əsasında qurulmuşdur. Aid olduğu çevrədə yaşadığı daxili sıxıntıları, təbəddülatları müəyyən psixoloji sarsıntılarla əvəzlənən Fironun özündən, dəyərlərdən ayrı düşməsi, onun mənəvi uçurumunu gerçəkləşdirir. Hər şeyin fani olduğu bu dünyada öz yalan və günahlarının bədəli kimi Firon da bir heçə dönür, həyatı isə sanki olmayıbmış kimi yalnız cansız dəftərdəki yazılarda – tale-ömür hekayətində qalır.

Kənan Hacı əsərdə "Quran" motivlərindən bəhrələnmiş, müqəddəs "Qurani-Kərim"də Musa peyğəmbər və Fironla bağlı sözügedən uyğun əhvalat-hadisələri intertekstual şəkildə mətnə daxil etmişdir. Firon Musa Peyğəmbərin onu haqq yoluna dəvətlərinə məhəl qoymayıb yalnız sulara qərq olub öləcəyi son anda tək Allaha iman gətirir, lakin Allah bunu qəbul etmir: "91. İndimi inandın? Öncə Ona qarşı üsyan eləmişdin, pozğunçulardan idin" ("Qurani-Kərim", "Yunus" surəsi, 91). Əsərdəki Firon da günahlarını gec anlayır, lakin bu heç nəyi dəyişdirmir. "Mən hələ özümü tanımırdım, içimdəki təhlükəni zərərsizləşdirmək iqtidarında deyildim, içimi büsbütün unutmuşdum. Bir günah ardınca o biri günahı dartıb gətirirdi. Sonra bu günahlar bir-bir daş kimi başıma dəydi və məni yenidən həyatın dibinə yuvarlatdı. Bilirəm, indi bu uzun, mənasız, yorucu etirafların bir qara qəpik qədər dəyəri yoxdur...

Hər şey anamın döşəyinin altından pulları oğurladığım gecədən, məhz o andan başladı. O andan mən vicdan hissini itirməyə başladım, o hadisədən sonra hər şey mənim üçün adiləşdi, rahatlaşdı. Mən əclafın yekəsinə çevrildim. Halbuki, hər şey başqa cür ola bilərdi. Axı, atam mənə haram tikə yedirtməmişdi və söhbətlərimizin birində

mənə demişdi ki, evə haram gətirsən, haqqımı sənə halal etməyəcəyəm. Günah paltar deyil ki, əynindən çıxarıb atasan. Hər kəs etdiyi günahlara görə haçansa cavab verəcək. Yüz savabla bir günahı yumaq olmur".

Əsər uşaqların, yeniyetmələrin formalaşmasında digər amillərlə yanaşı, düşdüyü mühitin də əsas təsiredici faktor kimi diqqətdə saxlanılmasını nəzərə çatdırır.

Ümumiyyətlə, 2017-2018-ci illərdə yeniyetmələrin həyatından, arzu və istəklərindən, problemlərindən bəhs edən bir neçə povest çap olunmuşdur.

Qorxmaz Şıxalıoğlunun əsas obrazın dilindən səmimi, içdən gələn duyğularla yazdığı "Bürkü" povesti bir yeniyetmənin daxili-psixoloji yaşantılarını əks etdirir. Xəstə anasına şəfa olacaq çiçəklərdən yığmaq üçün tək və gizli meşəyə gedən Eldarın qorxunu dəf etmək üçün daxilində öz-özüylə mübarizəsi və başına gələn hadisələrin təsadüf, qarabasma, yaxud Tanrının iradəsilə baş verən gerçəklik olmasını yaşına uyğun şəkildə dərk etməyə çalışması psixoloji aspektdə o qədər inandırıcı şəkildə təsvir edilir ki, oxucu bu hissləri obrazla birgə yaşayır. Ailə-məişət qayğıları, kənd həyatının təsviri də əsərdə maraqlı və inandırıcı boyalarla təsvir edilmişdir. Sadiq Zamanın "Ötən illərin yuxusu" povestində də əsas obraz yeniyetmə oğlandır, lakin "Bürkü" povestindən fərqli olaraq burada daha çox şəhər mühiti məzmuna uyğun çərçivədə təsvir edilir. Əsərdə ötən illərin gələcəkdə gerçəkləşən ağrılı yuxusundan görünür ki, gələcək insan üçün önəmli olan mənəvi-əxlaqi baxımdan o qədər də yaxşı nələrsə vəd etmir. Keçmişin gələcəyində həqiqi sevgi və dostluq da yoxdur. Demək ki, keçmişin həqiqi sevgi və dostluqdan uzaq gələcəyində in-

san yavaş-yavaş mənən insanlığından uzaqlaşmağa doğru gedəcək, mənəvi-əxlaqi aşınmalar, təyin edilmiş çərçivədən çıxmaq isə onu məhvə sürükləyəcək. Çünki Yer kürə şəklində olub öz orbiti ətrafında fırlandığı kimi, insanların yaşam tərzində də bir nizam olmalıdır. "Zaman keçir, elə bilirik ki, harasa gedirik... amma əslində, heç yerə getmirik, zamanın çarxında təkrar-təkrar fırlanırıq... Beləcə, hər bir hadisə, hər şey dairənin içində təkrarlanır... bu dairədən çıxanda isə hər şey dağılır... yox olur..."

Vaqif Bəhmənlinin Azərbaycan musiqi sənətinin görkəmli nümayəndələrindən olan, ifasında 300-dən çox muğam, təsnif və xalq mahnılarımız yazıya alınan və bununla da xalq mahnı və muğam sənətinə böyük xidmət göstərən Cabbar Qaryağdıoğluna həsr olunmuş "Cabbar qalası" povesti sözügedən sənətkarın həyat və yaradıcılığı ilə bağlı maraqlı məqamları diqqətə çatdırmaqla yanaşı, həmin dövrdə Şuşanın mədəni mühiti haqqında təsəvvür yaratmaq, tanınmış ziyalıları, həmçinin, muğamla ilgili müəyyən bilgi vermək kontekstində əhəmiyyət kəsb edir. Povestdə üzdəniraq ermənilərlə əlaqəli nüanslara rast gəlinməsi isə, xüsusilə, müharibə şəraitində yaşadığımız bu günümüz üçün arzuolunmaz təsir bağışlayır.

2017-2018-ci illərdə Məmməd Orucun Əfqanıstan və Qarabağ müharibəsinin iştirakçısı olmuş bir insanın başına gələn əhvalatlar zəminində hər iki müharibə ilə bağlı bəzi nüansları və cəmiyyətdə mövcud olan bir sıra neqativ halları diqqətə çatdıran "Veteran", Mənzər Niyarlının ərazisi iki imperiya tərəfindən bölünmüş Azərbaycanda siyasi diktaturanın doğurduğu faciələrin, ayrılıq iztirablarının, vətəndə vətənsizlik ağrısının bir ailənin taleyinin timsalın-

da və müəllifin içdən gələn hisslərilə təsvir edildiyi "Vətəndən – vətənə", Rəşad Bərgüşadlının yazıçı təxəyyülünün cazibəsilə əhatələnmiş, özünəməxsus yumoristik tərzdə yazılmış, "yalanlar"dan ibarət "Gopçu Filmanın sərgüzəştləri", Ələmdar Cabbarlının sovet dönəmində bir kənddə baş verən adi bir əhvalatın maraqlı və bir qədər yumoristik şəkildə təsvir edildiyi "Kino", Əli bəy Azərinin[1] cəmiyyətin psixoloji qüsurlu olduğu söylənilən, lakin insanlara köməkdən başqa bir ziyanı toxunmayan İsmayıl və İsmayıl kimilərinə münasibətini əks etdirən "Şəhərli qızın dəli sevgisi", Günel Şamilqızının folklordan bəhrələnmə yolu ilə qələmə aldığı "Div olanda nə olar", Əlişirin Şükürlünün insan və təbiət haqqında düşüncələri əks etdirən "Dördlük", Qələndər Xaçınçaylının ötən əsrin 80-ci illərinin sonları, 90-cı illərinin əvvəllərində respublikada baş verən məlum hadisələrdən, 20 Yanvar faciəsi və Qarabağ müharibəsindən bəhs edən "Güllə işığında", Ayaz İmranoğlunun nağıl, xüsusilə də mifoloji rəvayət mətnlərindən istifadə yolu ilə qələmə aldığı "Təzə gəlin", M.Firanın məktəb-ailə əlaqəsinin düzgün qurulmaması, məktəblərdə nəinki psixoloji işin aparılmaması, hətta bir sıra hallarda müşahidə olunan psixoloji basqı və ədalətsizliyi, valideyn-övlad münasibətlərindəki boşluğu nəzərə çatdıran "Ötən günlərdən qorxma" povestləri də müxtəlif mövzulara həsr olunmuş əsərlər kimi maraq doğurur. Mustafa Çəmənlinin sənədli povest adı ilə çap olunmuş və kifayət qədər maraqlı "Səhnə fədaisi"nin isə janrın xüsusiyyətlərinə uyğun

[1] Qeyd: 2018-ci ildə Əli bəy Azərinin tərtibatında "Seçilmiş povestlər" toplusu nəşr olunmuşdur.

gəlmədiyi üçün povest kimi təqdim edilməsini məqsədə-uyğun saymırıq.

2017-2018-ci illərdə Qafar Cəfərlinin "Namus yarası", "Xəyanət" və "Xoşbəxt" əsirlər", Aləm Kəngərlinin "Naməlum adam" detektiv povestləri çap olundu. Ayrı-ayrı insan talelərini əks etdirən bu əsərlərdə baş verən cinayətlər müxtəlif xarakterli olsa da, onları yaradan başlıca səbəbin nəfs, pula, var-dövlətə, eyş-işrətə hərislik olduğu göstərilir.

Yeri gəlmişkən, bir məsələyə münasibət bildirmək istərdik. Ədəbi cameədə zaman-zaman "detektiv janrdırmı", "detektiv mətnə bədii əsər demək olarmı" kimi müzakirələr olub. Əvvəla onu deyək ki, detektiv janr deyil, özözlüyündə bir istilah kimi mətnin mövzu və məzmununun hansı səpkidə olduğunu ifadə edən janrlardaxili bölgüdür. Digər tərəfdən, detektivə janr kimi yanaşmaq adi məntiqlə də uyğun gəlmir. Əgər "detektiv roman", "detektiv povest" deyiriksə və nəzərə alsaq ki, həm roman, həm də povest özləri janr göstəricisidirlərsə, o zaman iki janr göstəricisinin yanaşı işlənməsi nə dərəcədə doğrudur? Bildiyimiz kimi, detektiv əsərlər daha çox hüquq-mühafizə orqanlarında çalışmış əməkdaşlar tərəfindən, adətən, şahidi və iştirakçısı olduğu gerçək hadisələrin qələmə alınması ilə meydana çıxır. Bu hadisə-əhvalatlar o zaman əsərə çevrilir ki, gerçəkliklə bədiiliyin sintezi yaransın, hadisələr bədii təfəkkür süzgəcindən keçirilib bütöv süjet şəklində təqdim olunsun. Əslində, bu, ümumiyyətlə, mətni bədii əsər kimi xarakterizə edən başlıca amildir. Bundan əlavə, detektiv əsər hadisələrin gəlişmə mərhələləri, kriminallıq dərəcəsi, əsas obrazları və başqa bu kimi xüsusiyyətlərlə səciyyələ-

nir. Sözügedən xüsusiyyətləri özündə ehtiva etməyən, yalnız müxtəlif hadisə-əhvalatların sıralanmasından ibarət olub bütöv süjetə çevrilməyən, bədiilikdən kənar mətnlər isə detektiv əsər sayıla bilməz. Bir məqam da maraqlıdır ki, detektiv əsər müəllifləri yaradıcılıqlarını əsas etibarilə bu xətt üzrə qurur, digər istiqamətlərə o qədər də meyil göstərmirlər.

Gördüyümüz kimi, 2017-2018-ci illərdə povest janrı həm kəmiyyət, həm də keyfiyyət etibarilə ədəbi mənzərədə kifayət qədər görünən janr oldu. Janrın poetik strukturunda müəyyən yeniliklər, fərqli eksperimentlər diqqəti çəkdi. Ənənəvi üslubda yazılmış əsərlərlə yanaşı, mağik-realist üslubda, postmodern təmayüldə qələmə alınmış maraqlı əsərlər ortaya çıxdı. Dekonstruktiv üsula postmodern əsərin əsas əlamət-göstəricilərindən biri kimi müraciət olundu. Əsərlərdə daha çox müəlliflərin metafizik düşüncələrindən doğan təsvir və qənaətlər müşahidə edildi, Yuxu motivi isə süjetyaradıcı və mənayaradıcı komponent kimi, xüsusilə, diqqəti çəkdi. Yazıçılar konflikt yaratmaq və onu çözmək kimi bir məqsəddən kənar olub daha çox obrazın daxili-psixoloji yaşantılarına önəm verdilər. Yuxarıda təhlilə cəlb olunan əsərlərdən də göründüyü kimi, bəzi əsərlərdə psixologizm, ümumiyyətlə, üstünlük təşkil etdi. Azərbaycan folkloru ilə yanaşı, “Quran” motivləri, Yunan mifologiyası və antik yunan ədəbiyyatı da yazıçıların diqqət mərkəzində oldu.

Bununla belə, bəzi mətnlərdə üslubun publisistik təsir bağışlaması, bədiilik amilinə az diqqət yetirilməsi, obrazların daxili-psixoloji yaşantılarının təsvir edilməməsi, əsaslandırılmamış məqamlar və qeyri-bitkinlik, zəif redak-

tə və digər qüsurlar da qabarıq şəkildə müşahidə olunur. Ədəbi dilimizdə işlənməyən, ümumişlək olmayan, mənası yalnız mətn içərisində anlaşılan sözlərə yer verilməsi də uyğun sayılmır.

Bəzi əsərlərdə epataj yaratmaq məqsədilə müxtəlif söz və ifadələrin işlədilməsi, yaxud açıq-saçıq səhnələrin təsviri, fikrimizcə, o qədər də münasib deyil. Bəzən bu tip sözlərin işlədilməsi, ümumiyyətlə, lüzumsuz görünür. Açıq-saçıq səhnələr isə estetik şəkildə və müəyyən çərçivədə təqdim edilsə, daha düzgün olar.

Çağdaş ədəbi proses qazanılan ədəbi-tarixi təcrübədən kənarda, təcrid olunmuş şəkildə deyil, onunla əlaqəli və müqayisəli şəkildə davam və inkişaf etdirilməli, milli-mənəvi və bəşəri dəyərlər, idraka canatma, varlıq və yaşamla bağlı insanı düşündürən ayrı-ayrı mövzular mənəvi-əxlaqi çərçivədə çağdaş bədii təfəkkürlə təqdim olunmalıdır.

Gördüyümüz kimi, son illərin, o cümlədən 2017-2018-ci illərin povest janrı ümumilikdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatı üçün xarakterik olan çağdaş bədii düşüncənin axtarışları və fərqli eksperimentləri istiqamətində hərəkətdədir. Bu axtarışlar onun bir xətli deyil, müxtəlif üslub, təmayül və cərəyanlar üzrə ortaya çıxmasına, bütövlükdə dünya ədəbiyyatındakı mövcud prosesləri milli bədii təfəkkür əsasında yaşamasına imkan yaradır. Deməli, akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, “Müstəqillik epoxasının ədəbiyyatı Azərbaycanda bərqərar olmuş demokratik ədəbi mühitin çoxmetodlu və çoxsəsli

ədəbiyyatıdır”.[1] Bu isə çağdaş ədəbiyyatın və bədii düşüncənin gəlişməsi, özünü çeşidli yönümlərdə təsdiqləməsi üçün önəmli amildir.

[1] İsa Həbibbəyli. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. //Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, I cild. Şifahi xalq ədəbiyyatı. – Bakı, “Elm”, 2018, s.223.

Nərmin CAHANGİROVA
Filologiya üzrə fəlsəfə doktoru

2018-Cİ İLİN HEKAYƏ PALİTRASI

Mənim romandansa qısa hekayə yazarı olmağıma səbəb bəlkə də başlamaq və bitirmək qorxusundan qaynaqlanır.
İtalo Calvino

Zaman-zaman günümüzün hadisələrindən, bəzən da yaddaşımızda ilişib qalan xatirələrdən yol alan hekayələr müasir ədəbiyyatımızın ən öndə gedən janrlarından hesab edilir. Daim inkişaf yolu keçən, nəzəri və struktur baxımından zənginləşən, məzmunu həyatın sürətini qabaqlayan hekayələr hər zaman nasirlərin diqqət mərkəzində olmuşdur.

2018-ci ilin hekayə palitrasında hər rəngə təsadüf edilir, həyatı bəmbəyaz, ümidverici çəhrayı, qan qırmızısı, duyğusuz, boz və kəskin qara boyalarla təsvir edən mətnlər üslub müxtəlifliyi ilə də bir-birindən seçilməkdədir. Gerçəkliyi inikas nöqteyi-nəzərindən yeni, novator keyfiyyətləri ilə diqqəti cəlb edən, müxtəlif yazı texnikalarının istifadə edildiyi uğurlu nümunələr sayca çoxluq təşkil edir. Janrın inkişafındakı bu yüksəlişin obyektiv və subyektiv səbəbləri də mövcuddur. Bir neçə il əvvəl "bizdə niyə yaxşı hekayə yazılmır?" sualının yazarlarımızı müsbət mənada hərəkətə gətirdiyi aşkardır. Ədəbi tənqidin janra olan isti münasibəti, müxtəlif orqanlarda keçirilən çoxsaylı müzakirələr, eləcə də "Ədəbiyyat qəzeti"ndə 25 hekayənin təhlilini nəzərdə tutan "Hekayə diskurs kimi" layihəsi bu

sahədə atılan addım kimi çox dəyərlidir. Bu qəzetdə çap olunmağa can atan yazarlarımız təfəkkürünü, göz nurunu sərf etdiyi hekayələrinin təhlil süzgəcindən keçirilməsini də həyəcansız qarşılamır. Ədəbi tənqidin aparıcı simalarından olan Elnarə Akimovanın təqdimatında hazırlanan bu layihə çərçivəsində O.Fikrətoğlu, Y.Bünyad, K.Nəzirli, M.Abdullah, V.Nəsib kimi nasirlərin hekayələri geniş təhlilə cəlb edilir, ümumi yaradıcılıqları fonunda mətnlərin bədii məziyyətləri araşdırılır. Təbii ki, belə rəqabətli mühitin nəticəsiz qalması mümkün deyildi. İl ərzində maraqlı hekayə kitabları nəşr olundu, təqdimatlar keçirildi.

Bu il Kamran Nəzirlinin "Babalar nağıl danışmır", Yaşar Bünyadın "Miqrant", Meyxoş Abdullahın "Gecəyarısı qapısı döyülən adam", Alpay Azərin "Yazıçı və arvadı", Ceylan Mumoğlunun "Qurbağa öpüşü", Salidə Şərifovanın "Dionisin qələbəsi", Sabir Rüstəmxanlının "Astar", Ələmdar Cabbarlının "Qızıl" kitabları ideya-məzmun xüsusiyyətləri, gerçəkliyin bədii-estetik təfəkkürlə təqdimi baxımından bir-birindən seçilən hekayə toplularıdır. Bu ilin hekayə toplularının sayca çox olmaması bizi təəssüfləndirmir, çünki onsuz da bu kitablar əksərən artıq mətbuatda çap olunmuş hekayələrdən ibarət olur, ilin ədəbi mənzərəsini isə daha çox dövri mətbuatda çap olunan bədii nümunələr formalaşdırır.

Son illər Azərbaycan ədəbiyyatının dünyaya çıxış məsələsi də həllini tapmaqdadır. "Azərbaycan kitabının dünyaya tanıdılması" layihəsi ilə əlaqədar Saday Budaqlının hekayələrindən ibarət "Yolüstü söhbət" kitabı Türkiyədə nəşr olunub. Şair-tərcüməçi Yurtseven Şen tərəfindən türkcəyə çevrilən kitabda ədibin müxtəlif illərdə qələmə

aldığı “Yağmursuz havalar”, “Yolüstü söhbət”, “Qırxıncı otaq”, “Yaxşı oğlan”, “Bir yay günü”, “Qoca”, “Şübhə” və digər hekayələri toplanıb.

“İLESAM” dəstəyi ilə nəşr olunan digər kitab isə yazıçı-tərcüməçi Kamran Nəzirliyə məxsusdur. Məhəmməd Riza tərəfindən türkcəyə çevrilən kitab “Hikayeler” adı ilə təqdim olunub və topluya müəllifin 20 hekayə və 7 miniatürü daxil edilib.

Fikrimizcə, müasir hekayəmizin ən böyük uğuru isə “Azərbaycan Tərcümə Mərkəzi və “Hertfordshire Press” nəşriyyatı tərəfindən hazırlanmış və 28 hekayədən ibarət “Azərbaycan hekayələri” antologiyasının Britaniya Kitabxanasında təqdim olunmasıdır. **Böyük Britaniyanın 50-dən çox kitabxanasına yerləşdirilən topluya** Əbdürrəhim bəy Haqverdiyev, Əli Vəliyev, Mir Cəlal Paşayev, Ənvər Məmmədxanlı, İsmayıl Şıxlı, İsa Hüseynov, Sabir Əhmədli, İsi Məlikzadə, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov, Anar, Vaqif Nəsib, Şahmar, Elçin, Mövlud Süleymanlı, Sara Oğuz, Seyran Səxavət, Məmməd Oruc, Kamal Abdulla, Aqil Abbas, Saday Budaqlı kimi müxtəlif dövrlərə və məfkurələrə aid yazıçıların hekayələri daxil edilib. Bütün bunlar isə artıq Azərbaycan nəsrinin də dünya ədəbiyyatı seriyasında yeri olduğundan xəbər verir.

Hekayə elə bir janrdır ki, onun üçün mövzu məhdudiyyəti yoxdur, tariximizin, eləcə də müasir həyatımızın ən mühüm hadisələrindən tutmuş, önəmsiz saydığımız adidən də adi hesab etdiyimiz məqamlarına qədər hər bir an gözəl bir hekayə mövzusuna çevrilə bilər. Yetər ki, o təxəyyül gücündən istifadə edilərək, modern hekayə prinsiplərinə əsaslanaraq bədii nümunəyə çevrilsin. Hekayə adi

hadisələri böyük, sonsuz bir reallıqla analiz edib sadə və qısa dillə anlatmaqdır. Fikrimizcə, məhz bunlar – tutarlı mövzu, inandırıcı süjet, sadə təhkiyə, anlaşıqlı dil yaxşı hekayənin ərsəyə gəlməsinə kifayət edir.

Diqqətinizə çatdırmaq istərdim ki, bu il daha çox konkret müəlliflərin hekayələri seçilir, buraya müxtəlif mətbu orqanlarda – "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə, "525-ci qəzet"də, artkaspi.az, sənət.az, sim-sim.az, yarpaq.az elektron portallarında mütəmadi olaraq çap edilən Elçinin, Vaqif Nəsibin, Orxan Fikrətoğlunun, Yaşar Bünyadın, Təranə Vahidin, Məmməd Orucun, Elçin Hüseynbəylinin, Vüsal Nurunun, Meyxoş Abdullahın, Ümid Nəccarinin, Kamran Nəzirlinin, Aslan Quliyevin, Həmid Piriyevin, Kənan Hacının, Firuz Mustafanın, Vaqif Nəsibin, Azər Qismətin, Varisin, Alpay Azərin, Pərviz Seyidlinin hekayələrini aid etmək olar. Bunlar 2018-ci il hekayə janrının ideya-məzmun qatını açmaq, poetik xüsusiyyətlərini ifadə etmək üçün küfayət qədər material verən, müasir ədəbi həyatımızın əsas halqasını təşkil edən mətnlərdir.

Yaxşı bəs ilin bu kiçik nəsr nümunələri nə ilə xarakterizə olunur? Hekayələrin önə çıxan özəllikləri nələrdir? Hekayələrimiz müasir ədəbiyyat prinsipləri ilə nə dərəcədə ayaqlaşır?

Əsas diqqət çəkən özəlliklər müəlliflərin yeni mövzu və formaya müraciət etməsi, mətnlərin ideya-məzmun keyfiyyətlərinin daha da yüksəlməsidir. Burada xüsusi olaraq qeyd etmək istərdim ki, bu ilin hekayələri mövzu kasadlığı yaşamır. Müasir hekayələrimiz problematika cəhətdən kifayət qədər rəngarəng və çoxçalarlıdır ki, bu da janrı

monotonluqdan uzaqlaşdırır. Bu mətnlərdə oxumağa adət etdiymiz sevgi macəraları, qadın hüquqsuzluğu, sosial-iqtisadi problemlər, mənəvi aşınmalar, ictimai dəyərlərimizə ikili münasibət kimi ənənəvi mövzular müxtəlif süjetlərlə daha da zənginləşərək qarşımıza çıxır. Son dönəm hekayələrində mövzunun təqdimində şüur axını texnikasından istifadə (P.Seyidli "Şüşə heykəl", Y.Bünyad "Qapı"), kamera effekti (O.Fİkrətoğlu "Dəccal", A.Qismət "Qrammafon", Ş.Nəzərli "Qonaq"), elmi-fantastik və simvolik çalarlar (V.Nuru "Qapılar quduranda", "İlda"), satirik təhkiyə (A.İmanlı "Gerçəkləşən istəklərim və...", V.Məhərrəmov "Köhnə televizor", S.Şərifova "Psixiatrın gündəliyi") diqqət çəkən cəhətlərdəndir. Hekayələrin əksəriyyəti dilinin sadəliyi, təsvirlərinin rəngarəngliyi, təhkiyə formasının, təhkiyə tonunun müxtəlifliyinə görə fərqlənməkdədir. Dil-ifadə texnikası, təsvir üsullarının orijinallığı ilə seçilən mətnlər nəsrimizin bu çevik janrının daha da zənginləşdiyinin sübutudur.

Daha çox fərdlərin həyat hekayələrinə əsaslanan Narıngülün "Qara", Vaqif Nəsibin "Əlimərdanın mərdliyi", "Səbri səbri", "Ələddinin çılçıraqlı fəsilləri", Elçinin "Nadir İbadlı və onun son xəstəsi", S.Əşrəfin "Sonuncu yayın sonatası", Pərvinin "Ala qarğa", Əlabbasın "Yadigar", P.Seyidlinin "Şüşə heykəl", M.Abdullahın "Dəli Bəybala" hekayələrində sadə insanlar və onların həyatı təhkiyə müstəvisinə gətirilir. Cəmiyyət gerçəkliklərinin, müasir dövrümüzdən tabloların əks olunduğu bu hekayələrdə ayrı-ayrı talelərə nəzər yetirir, onların fərdiyyətini üzə çıxaran məqamlar nəzərə alınır.

Avtobioqrafik səciyyə daşıyan, daha çox xatirələrə

işıq tutan Yaşar Bünyadın "Hələ ki təyyarələr uçur", Vahid Məmmədlinin "Əllərin dili ilə", Əyyub Qiyasın "Uşaq oyuncaqları", Azər Qismətin "Qrammafon", Şirməmməd Nəzirlinin "Qonaq" hekayələrində isə qəhrəmanların keçmişinə nəzər yetirilir, şirin və acı xatirələr bir-birini əvəz edərək insanı duyğu seli altında qoyur. Detallı, qol-budaqlı hadisələrin çox da xarakterik olmadığı bu tip mətnlərdə kiçik bir detal şüurumuzun alt qatında olan düşüncələrimizə toxunur, duyğularımızı dilə gətirir, bir daha qaytara bilməyəcəyimiz keçmişimizi yada salır. Məzmununu adi bir həyat hekayəsindən alan, südsatan və onunla dostluq etməyə çalışan uşağın qarşılıqlı münasibətləri əsasında qurulan "Yadigar" hekayəsində qəhrəmanının sosial vəziyyəti, mənəvi dünyası sadə, canlı təhkiyə ilə təqdim edilir. Əlabbas insan qəlbinin ən dərin duyğularını dilə gətirir, kiçik bir uşağın dostluq, təəssüf, sevgi hissləri iç-içə keçmiş şəkildə təqdim edilir.

Məruzənin əvvəlində də qeyd etdiymiz kimi, bu ilin hekayə mənzərəsi olduqca rəngarəngdir. Sevindirici haldır ki, adını çəkdiyimiz hekayələrin əksəriyyəti oxucunu silkələyən, qəlbini, ruhunu dilləndirən mətnlərdir. Xüsusən də, Elçinin "Bu da bir cür həyatdır", O.Fikrətoğlunun "Dəccal", T.Vahidin "Göy üzü qanamışdı", S.Aruzun "Bir payız günündə", M.Abdullahın "Dəli Bəybəla", G.Şamilqızının "Qəhrəman", Varisin "Sonuncu mogikan", Y.Bünyadın "Atamın ayaqları", Ü.Nəccari "Bir cüt çəhrayı rəngi", M.Orucun "Çəkiliş" hekayələri istər məzmun, istərsə də struktur cəhətdən seçilən, modern hekayə tələblərini əks etdirən hekayələrdir. Mənəvi-psixoloji problemlərin çözümünə çalışan bu müəlliflər qəhrəmanlarını və onların

ətrafında baş verənləri sadəcə canlandırmaqla kifayətlənmir, obrazların mənəvi durumunu müəyyənləşdirməyə, hərəkətlərinin arxasında dayanan, onların taleyini dəyişən hadisələrin mahiyyətinə varmağa çalışırlar.

Ötən il yazdığı hekayələri ilə ədəbi prosesdə canlanma yaradan müəlliflərdən biri Orxan Fikrətoğludur. 2018-ci ildə oxuculara təqdim etdiyi "Üçüncü günün adamı", "Qorxu", "Sinqapur şarı", "Külək adam", "Dəccal" kimi çoxsaylı hekayələri mənəvi aşınmanın eşiyində olan cəmiyyətimizin bəlalarının ifşasına yönəlmişdir. Günah motivi üzrərində qurulan "Dəccal" hekayəsi 2018-ci ildə diqqəti cəlb edən oxucunun təfəkküründə izlər buraxan hekayələrdəndir. Alışdığımız qısa hekayələrdən fərqli olaraq geniş həcmi ilə fərqlənən mətndə hər bir detal o qədər diqqətlə işlənilmişdir ki, oxuduğumuz zaman sanki o səhnələr göz önündə canlanır, film təəssüratı yaradır. Son dövrlərin çox işlənmiş, çox qabardılmış mövzularından olsa da, təhkiyəsinin sərrastlığı, təsvirlərin canlılığı, obrazların fərdiliyi, xarakterlərin ifadəsindəki ziddiyyətlər ilə "Dəccal"ı son dönəmin ən yaxşı nümunələrindən biri saya bilərik. *"Müəyyən sürreal-psixoloji əsasları olsa da, hekayə real bədii gerçəklərdən tutmuş romantik çalarlara, ironik modusa qədər əsr öncənin məna və məqamlarına söykənir. Mətn realist cizgilərlə yanaşı, satirik rəng və obrazlı deyim qarışığında təsvir olunur. Orxan Fikrətoğlu Şərq təfəkkürünü diriliyində müasir nəsrə çəkib gətirə bilir." (E.Akimova)* Molla Qafarın həyat hekayəsindən bəhs edən mətndə kamera effekti güclüdür, müxtəlif dövrlər uşaqlıq, gənclik illəri qarşılaşdırılır, müəllif fləşbeklərlə irəliyə-geriyə keçidlər etməklə Molla Qafarı bugünə, bu vəziyyətə

gətirən məqamları açmağa, obrazın xarakterindəki fərqlilikləri verməyə nail olur. Hekayə mənəviyyatı pozulmağa doğru gedən cəmiyyətimizə atılan bir daşdır, oyanmağa, düşünməyə vadar edən daş. Sanki bu həyatda atılan hər bir addımın sonradan, unutduğun zaman Molla Qafarın çiyninə dəyən daş kimi gəlib səni tutacağına inandırır. Oldubitdiylə hesablaşmamağı təlqin edir, zamanı gəldikdə hər bir hərəkətin cəzası olacağına işarələr vurur.

Müəllifin "Qorxu" hekayəsi isə bu ali varlığın ən təbii hisslərindən olan qorxunu təsvir edir. Nə çox qorxularımız var bu həyatda... Güclü hesab etdiyimiz ölüm qorxusu, itirmək qorxusu, tək qalmaq qorxusu... hətta deyərdim ki, çoxumuzun önəmsiz saydığımız sevmək qorxusu... Nələrə qadirdir bu hiss... susmağa, dözməyə, boyun əyməyə məcbur edir... Uşaqlar qorxusuz olur, fərqində olmadan həyatı öyrənir və bu yolda heç bir maneədən qorxmur, böyüdükcə anlayır, dərk edir və qorxmağa başlayır..... "*İtə sarı boylandı. Canavara oxşayırdı. Mərd və qorxmaz idi. Heç zaman bu it qədər öz istəyinin yiyəsi ola bilməmişdi. Həmişə kiməsə "baş üstə" deyib yaşamışdı. Kiminsə iti olan bu it isə ondan fərqli olaraq özü-özünün ağası idi. Həyata qalib doğulmuşdu. İtin quru buludlu göy üzünə, üstündə mərdi-mərdana dayandığı yola heç bir münasibəti yox idi. O, ancaq özünü tanıyırdı. İstədiyini eləyirdi. Siyasət nədir bilmirdi. Yalan danışmırdı. Heç kəsdən də qorxmurdu. Heç kimə hesabat vermək fikrində də deyildi. İt ölümdən də xəbərsiz idi. Haçansa onun bu sərt it həyatında ən qəddar hadisə ölümü olacaqdı. İt bunu bilmədiyindən ölümündən də qorxmurdu. Bu dəqiqə o, üstündə dayandığı yolun ağasıydı. Və bu ağalığını əlindən vermək istəmirdi.*"

(“Qorxu”)

Bir qatilin əhvalatı üzərində qurulan “Üçüncü günün adamı” hekayəsi də O.Fikrətoğlunun maraq kəsb edən nümunələrindəndir. Müxtəlif kadrların bir-birini əvəz etdiyi hekayədə müəllif qatilin hissləri, insanlığın xislətindəki öldürmək təfəkkürünü formalaşdıran amilləri açıqlamaqla şüuraltı düşüncəmizin rolunu xüsusi qeyd edir. Daha çox sifarişli qətl və qatil psixologiyası açmağa fokuslanmış kimi görünsə də, əslində sosial problemlərə işarələr mətnaltı mesaj olaraq verilir. Bütün bu nümunələrə əsasən deyə bilərik ki, O.Fikrətoğlunun yaradıcılığında kamera effekti, birxətli olmayan təhkiyə, eyni mətləbə müxtəlif rakurslardan yanaşma xüsusilə güclüdür.

Son illər yazdığı hekayələri ilə diqqət çəkən, müxtəlif müsabiqələrdə yer tutan Təranə Vahid 2018-ci ildə də “Qərib gül”, “Vağzaldakı qarı”, “Göy üzü qanamışdı” hekayələri ilə oxucularla görüşdü. Süjet və kompozisiya xüsusiyyətləri, ideya-məzmun keyfiyyətinə görə müasir hekayə sferasında seçilən bu nümunələr hadisə hekayələri deyil, bu bədii nümunələrdə əhvalatlar insan düşüncəsinin təqdimi üçün bir vasitə rolunu oynayır. Müəllif əslində qeyri-adiliklərə qaçmır, sıradan həyat hadisələrini simvolik çalarlarla zənginləşdirərək təqdim etməyi üstün tutur. Mənəvi boşluqda olan insanları qəhrəman olaraq seçən Təranə Vahidin son hekayələrindən olan “Göy üzü qanamışdı”da əsas qəhrəman kiçik Səfidir. Bütün pisliklərdən uzaq olan, yeganə dərdi uçub gedən ağlını qaytarmaq istəyən bu uşağın faciəsi, yaşadıqları və yaşatdıqları kəskin boyalarla işlənmişdir. Mətni sakit oxumaq olmur, dominant rəngin verdiyi qorxu, həyəcan oxucunu da öz ağuşuna

alır, qırmızı bulud, qırmızı yağış Səfinin qəlbində qopan fırtına ilə o qədər ahəng təşkil edir ki, özünü o uşağın yerində hiss edirsən, qaçmaq, səni heç sayan insanlardan uzaqlaşmaq istəyirsən. Təranə Vahidin uğuru təkcə müsabiqələrlə məhdudlaşmır, onun hekayələrinin bədii məziyyəti, əsərlərindəki rəngarənglik təkcə ədəbiyyatşünasların deyil, teatr xadimlərinin də dqqətini cəlb etmişdir. Belə ki, 2018-ci ildə T.Vahidin "Quş dili" və "Qorxu çiçəkləri" əsasında Yuq teatrında "Quş dili" adlı tamaşa hazırlanıb.

Son illərdəki nəsrimizin diqqət çəkən hekayələrin müxtəlif mətbuat orqanlarında çap olunan müəlliflərindən biri də Yaşar Bünyaddır. "Miqrant" toplusunu təqdim edən Yaşar Bünyad müasir nəsrimizdə sadə təhkiyə elementlərinə sadiq qalan yazarlarımızdandır. Bu hekayələrdə uzun-uzadı təsvirlər, oxucunu yoran nüaslara təsadüf edilmir, hadisələrə müxtəlif baxış bucaqlarından işıq salınır. Müəllif təhkiyəsi üzərində qurulan "Portret" hekayəsində keçmişində ilişib qalan iyirmi illik eşq acısı çəkən tənha bir rəssamın düşüncələri ilə tanış oluruq. Hadisə hekayəsi olmayan portretdə sadə təsvirlər, düşüncələr girdabına düşən rəssamın emosiyaları üstünlük təşkil edir. Eyni aura ilə yazılan, qəhrəmanın təhkiyəsinə əsaslanan "Hələ ki təyyarələr uçur" hekayəsində qəhrəmanın keçmişinə boylanan müəllif uşaqlığı ilə birlikdə köhnə Bakını xatırlayır, ilk sevgisini yada salır. Düşüncə seli üzərində qurulan hekayədə keçmiş və müasir dövr paralel işlənir, hadisələr arasındakı məntiqi əlaqə isə oxucunu yormadan labüd nəticəyə yaxınlaşdırır. Yaşar Bünyadın maraq doğuran hekayələrindən biri də duyğu yüklü, ölüm ayağında olan insanın düşüncələri əsasında yazılan "Qapı " hekayəsidir. Tənhalı-

ğın əzablarını yaşayan, heç bir əzizi qalmayan Mərdan kişi ölüm ayağında olsa da, ümidini üzmür, əsir düşən oğlunun gələcəyini, xoşbəxt həyatlarına davam edəcəyini düşünür. Qapı bu dünya ilə o dünya arasındakı iki həyatı ayıran və birləşdirən məqam kimi təsvir edilir. Simvolik çalarlarla zəngin hekayədə insan xislətinin bir çox duyğuları – qorxu, kədər, yalnızlıq, ümid bir-birinə qarışmış şəkildə təqdim olunur, qarışıq duyğular içində keçmişə boylanan Mərdan kişi ilə birlikdə sanki bizim də içimizdə ağ kəpənəklə gələn ümid işığı közərməyə başlayır.

İnsanın içindəki boşluğu doldura biləcək bir qaçış nöqtəsinin olmasının labüdlüyünü vurğuladığı, milli-mənəvi dəyərlərimizi qorumağa hesablanmış Meyxoş Abdullahın "Dəli gülüş", ailənin müqəddəsliyi ideyasının cəmiyyətimizlə qarşılaşdırıldığı, ailə-məişət hadisələri fonunda yazılmış Qərib Mehdinin "Sınmış kart", müasir ədəbi axınlara olan meyillərdən, senzuradan bəhs edilən, bədii təfəkkürün buxovlanmasını, söz azadlığının, düşüncə azadlığından məhrum edilmənin fəsadlarını ortaya qoyan A.Quliyevin "Burulma və ya çağırış", Sayman Aruzun müxtəlif təhkiyə elementlərinin qovuşuğu şəklində yazılmış "Bir payız günündə", Ayişə Nəbinin mistik hekayələr silsiləsindən "Şəhid qızının istəyi", Həmid Piriyevin "İki it, dörd adam", Vaqif Nəsibin "Əlimərdanın mərdliyi", Sadıq Elcanlının "Tənha zirvə təbəssümü", nəsrimizdə yeni molla obrazı yaradan Alpay Azərin "Balıncın altındakı pullar", Vüsal Nurunun elmi-fantastik üslubda yazılmış "İlda", "Qapılar quduranda" hekayələri, Azər Qismətin günümüzün hadisələrindən bəhs edən "Xanım taksi", mifik təfəkkürün interpretasiyasından istifadə edilərək xalq

arasında mövcud inancların təhkiyə müstəvisinə gətirildiyi Vahid Məmmədlinin "Şanapipik" hekayəsi 2018-ci ildə mənəviyyatı pozulmağa doğru gedən cəmiyyətimizdə, prozaik gerçəkliklərin təsvir edildiyi bədii nümunələrdir.

İntiharların aktuallaşdığı, hər yerdə qorxunc xəbərlərini oxuduğumuz bu affekt halı və ona gedən yol Ümid Nəccarinin "Bir cüt çəhrayı rəngi", Arzu Şaminin "Kukla teatrı" hekayəsində əks olunur. Gözləntilərinin əksini yaşamaq, ümidlərinin puç olması, inandığın hər şeyin yalan olması təhrik edir bu addımı atmağa. "Bir cüt çəhrayı rəngi" hekayəsinin qəhrəmanı da inanır, ümid edir, *"İndiyə qədər bu rəng məni belə valeh etməmişdi. Rəngin sirrinə vaqe olmuşdum. İstəyirdim ki, əllərimi çəhrayı rəng olan qaba salım, qollarımı da çəhrayı rənglə boyayım... İçimdəki ağırlıqdan xilas olmaq istəyirdim".* Məhz ümid edir - həyatın onun üçün çəhrayı ola biləcəyinə, quşlar kimi azad, xoşbəxt olacağına. Lakin həyat bizi heç də hər zaman mükafatlandırmır, hekayə qəhrəmanı acı bir təəssüflə real dünyadan uzaqlaşır, arzuladığı romantik çəhrayı göyərçinləri ələ almağa, onların olduğu dünyaya yol alır.

Arzu Şaminin "Kukla teatrı" isə həyatın çətinlikləri qarşısında məğlub olan, mübarizəni dayandıranların hekayəsidir. Bədbin notlar üzərində qurulan mətndə yarımçıq arzular, tükənən ümidlər əsas vurğulanan məqamlardır. Sadə təhkiyəsi olan hekayədə sosial problemlərə işarələr olsa da, daha çox düşüncələrə önəm verilir.

Müxtəlif "izm"lərin aktual olduğu ədəbi sferada romantik hekayələrlə qarşılaşmaq da olduqca maraqlıdır. Sanki həyatımıza kənardan baxarsaq, gerçəkləri daha yaxşı görə biləcəyimizi vurğulayan Pərviz Seyidli "Dibçəyin

intiharı” hekayəsində həyatı kaktus dibçəyinin gözü ilə müşahidə edir. Hekayə təsvirlər üzərində qurulsa da, ideya maraqlıdır və xüsusən də, kaktus dibçəyinin hadisələrin axınına münasibət bildirməsi, yalanı üzə çıxarması pozitiv ruh aşılayır. Təbii ki, qeyri-real hadisələrin təsvirilə, insana ümid verən, ruhunu oxşayan hekayələrlə bahəm mövzu, struktur bəsitliyi ilə fərqlənən nümunələr də yox deyil (Aləm Kəngərli “Darıxan adamlar”, Elçin Tanrıgil “Günəşin batması”). Sosial mesajlar verməklə missiyasını bitirən Azad Müzəffərlinin “Qorxaqlığa çağırış”, Aləm Kəngərlinin “Gecikmiş məhəbbət”, Sadıq Elcanlının “Hamilə”, Azər Abdulla “Fizika pilləsi”, Malik Atalayın “Kitabxana əsiri” hekayəsi isə təqdim etdiyi mövzunun fonunda sönük qalan mətnlərdəndir. Deqradasiyalardan pozulan ailə dəyərlərimizdən, gündəlik qayğılardan bəhs edən bu əsərlərdə publisistik təsvir bədiiliyi üstələyir. Xüsusən, gənc yazarlarda sosial-ictimai məsələlərin işlənməsinə daha çox diqqət yetirilir, təhkiyə və kompozisiya elementləri isə arxa plana keçir. Kitab mütaliəsinin əhəmiyyətinin vurğulandığı “Kitabxana əsiri” sanki uşaqlar üçün yazılmış hekayədir. Uşaq təfəkkürü ilə, uşaq-məktəbli dilindən yazılsa da, fikrimizcə, süjet natamam işlənmişdir, kitaba olan dırnaqarası münasibətin tənqidi və kitab sevgisinin təbliği və bunların sırf müəllifin dilindən verilməsi hekayənin bədii məziyyətini aşağı salır.

Gündəlik qayğılara üz tutulduğu, daha çox məişət hadisələrinin fokuslandığı Azər Qismət “Uzunsaçlı”, Vüsal Oğuzun “Ovçu və qartal”, K.Hacının “Gəmilərin vətəni” hekayələri sadə təhkiyə əsasında yazılmışdır. Əhvalat hekayəsi kimi xarakterizə olunan bu mətnlərdə mövzunun iş-

lənməsində sanki natamamlıq var. K.Hacının "Gəmilərin vətəni" hekayəsində çoxhadisəçilik müşahidə edilir, müəllif qəhrəmanlarının təqdimində sanki tələsir, obrazların xarakteri tam açılmır, Rəvanın həyatı ilə başlayan hekayə başqa məcralara yönəlir, hekayənin yarımçıq qaldığını düşünürsən.

Nəsrimizin heç zaman unutmadığı, istənilən zamanda dönə-dönə qayıtdığı mövzular var. Müharibə, onun fəsadları, ağrı-acıları hər zaman diqqət mərkəzində olan mövzulardandır. Zemfira Məhərrəmlinin "Sevgimi neylədin, Daşaltı dərəsi", M.Qaraçayqızının "Səs", Qan Turalının "DVD", Ziyad Quluzadənin "Kilidsiz açarlar", Təranə Vahidin "Vağzaldakı qarı", N.Məmmədlinin "Şuşa dumanı" hekayələrində artıq müharibənin özü yox, sonradan yaşananlar təqdim edilir. 2018-ci ildə müharibənin şahidi olmuş, itkilərini, çətinliklərini yaşamış insanların xatirələrini, həsrətini əks etdirən mətnlər daha çox yazıldı. Artıq faciənin ağırlığı qanlı hadisələrlə yox, düşmən tapdağında qalmış vətən torpağının nisgili ilə ifadə edilir.

Son bir neçə ildə yazdığı hekayələri ilə diqqəti cəlb edən Varisin Azərbaycan nəsrinin dünyada tanıdılmasında xüsusi rolu var. Varis Azərbaycanda roman müəllifi kimi daha çox tanınsa da, hazırda həm roman, həm də hekayə yazarı kimi dünyanın əksər festivallarında, ədəbi müsabiqələrində yer tutan bir nasirdir. 2018-ci ildə Soçi şəhərində Avrasiya materikinin 170 yazıçısının qatıldığı "LiFFt-2018" ədəbiyyat üzrə üçüncü festivallar festivalında birinci yerə layiq görülməsi, qızıl medalla mükafatlanaraq "Metamorfoz" romanının xüsusi nəşrinin nəzərdə tutulması böyük əks-səda doğurmuşdur. Azərbaycanı sevən layiqli

vətəndaş kimi Varisin qələbəsinin Azərbaycan Cümhuriyyətinin 100 illiyinə həsr etməsi də xüsusilə dəyərlidir.

Varisin "Sonuncu mogikan" hekayəsinin qəhrəmanı bu dünyanın, ziddiyyətli, sabaha ümidi olmayan, özündən başqasına önəm verməyən cəmiyyətin tükənməkdə olan üzvlərindəndir. Qəhrəmanımız hekayə boyu rastlaşdığı hər hadisəni içdən yaşayaraq qəbul edir, ətrafındakı hər kəsin halına yanan, başqasının dərdini özününkü hesab edən, ətrafdakılarını özündən daha üstün tutan nəslin sonuncu nümayəndələrindəndir. Böyük sosial ziddiyyətlər üzərində qurulan hekayədə müəllif qəhrəmanını hadisədən-hadisəyə keçirməklə onun xarakterini açmağa, qəlbindəki gizlinlərin təqdiminə çalışır. Əslində Varisin qəhrəmanı çox güclüdür. Çoxqatlı təhkiyə prinsiplərilə yazılan hekayədə, gah monoloqlar, gah dialoqlar ağırlıq təşkil edir, ideyanın təqdimində aparıcı olur. Oxuduğu qırmızı üzlü kitabla qəhrəmanı arasında assosiasiya yaradan müəllif onun haqqında demək istədiklərini elə kitabdan özü oxutdurmaqla obrazın təqdimində orijinal üsuldan istifadə etmiş olur. İç-içə keçən iki süjetdən ibarət olan "22-ci mənzildə" hekayəsi dünyanı xəstə yatağından müşahidə edən qızın dilindən yazılıb. "İndi doğurdan da mələklər xortumlu, şeytanlarsa qanadlıdır" – təkrarlanan ifadəsi qaranlığa məhkum olmuş insanın duyğularını əks etdirir.

Müasir nəsrimizin ağsaqqal yazarlarından Məmməd Oruc hər zaman cəmiyyətin mövcud problemlərini nəsrə gətirməyə və onu realist səpkidə həll etməyə çalışan nasirdir. "Çəkiliş" hekayəsi olduqca maraqlı və aktual problemə, müasir cəmiyyətimizi narahat edən məsələlərin başında gələn televiziya verilişlərinə və onların hazırlanma mə-

sələsinə toxunur. Əslində, realist hekayə olsa da, oxuduqca dodaq qaçıran, mövcud situasiyada gülüş doğuran məqamlar da kifayət qədərdir... Qarşılaşdığımız sosial problemlər, öz yurdundan uzaq düşən insanlar, boş qalan kəndlər, tənha yaşayan analar, pozulan ailə dəyərlərinin hekayə içində quru sözlərlə yox, mətnin içində əridilərək, ayrı-ayrı situasiyalarda verilməsi əsərin bədii dəyərini artırır. Hekayənin dili axıcı və sadə olmaqla yanaşı, təsvirlər inandırıcıdır, obrazın-Nübar xalanın təqdimində reallığı gözləyən müəllifin onun təbiiliyini bütünlükdə – geyimi, davranışı və sözləri ilə paralel təqdim etməsi hekayənin canlılığını artırır. Sünilikdən uzaq, bəzək-düzəksiz həyatın üstünlüklərini gözlər önünə sərir.

2018-ci ildə müxtəlif strukturlarda keçirilən hekayə müsabiqələri janrı mövzu və forma baxımından daha da zənginləşdirdi. Bütün türk dünyasını əhatə edən Avrasiya Yazarlar Birliyi tərəfindən 2008-ci ildən başlayaraq iki ildən bir keçirilən Beynəlxalq Mahmud Qaşqarlı hekayə müsabiqəsi Azərbaycan ədəbiyyatı üçün də mühüm ədəbi hadisədir. Bu il keçirilən müsabiqənin Azərbaycan üzrə qalibləri Reyhan Yusifqızının "Qumlu şəhərin hekayəti", Vüsal Nurunun "İlda", Aslan Quliyevin "Döyüşçü" hekayəsi oldu. Münsiflər heyəti tərəfindən maraqla qarşılanan bu hekayələr təəssüf ki, ümumi seçim mərhələsində yer tuta bilməmişdir. Bununla belə, yazarlarımızı bu tip beynəlxalq müsabiqələrdə görmək olduqca xoşdur.

XX əsr Azərbaycan nəsrində öz çəkisi ilə fərqlənən, romanları ilə yanaşı, kiçik hekayələrilə də diqqəti cəlb edən Mir Cəlal Paşayevin xatirəsinə həsr olunan hekayə müsabiqəsi ədəbi mənzərəni kifayət qədər zənginləşdir-

mişdir. Müasir Azərbaycan ədəbi prosesinin və hekayə janrının inkişafına təkan vermək məqsədilə keçirilən müsabiqədə yüzlərlə hekayə nümunələri təqdim edilsə də, Elçinin sədrlik etdiyi münsiflər heyəti təəssüf ki, 1-ci yeri heç kimə layiq bilməmiş, iki nəfər ikinci, altı nəfər isə üçüncü yerə layiq görmüşdür. Azərbaycan jurnalında çap olunan bu qalib hekayələr janrın inkişafında yeni addımlar kimi dəyərləndirilə bilər. Müsabiqə qalibləri olduqca rəngarəng, struktur müxtəlifliyi ilə seçilən nümunələrdir. (Y.Bünyadın "Hələ ki təyyarələr uçur", M.Cəfərlinin "Güzgü", V.Nəsibin "Çiyinlərə qonan əl" hekayəsi də müsabiqədə ilk yerləri bölüşən mətnlərdir).

Ötüb keçdiyimiz ildə yazarlarımızın, xüsusən də gənclərin diqqətini cəlb edən "Hədəf" nəşrlərinin "Ustad" ədəbiyyat və sənət dərgisinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan Xalq Cümhuriyyəti ili" hekayə müsabiqəsi oldu. Böyük maraqla qarşılanan müsabiqədə Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdən, o zaman baş verən hadisələrdən, ictimai-siyasi, sosial-mədəni mövzulardan, şəxsiyyətlərdən bəhs edən hekayələrin təqdimi nəzərdə tutulmuş və müsabiqə maraqlı seçimlər ilə başa çatmışdır. Daha çox gənclərin iştirak etdiyi müsabiqədə Rəşad Babalı "Dar ağacı", Lalə Məmməd "Görünən əraf", Tural Türksoy "Al-yaşıl pişnamaz" hekayələri ilə ilk üçlükdə yer almışdır. Seçilən nümunələrdə tarixi hadisələrin təsviri respublikanın qurulmasında, maddi-mənəvi dəyərlərinin qorunmasında xidmətləri olan tarixi şəxsiyyətlərin həyatları ilə içiçə təqdim edilmiş, tarixi mənzərəni formalaşdırmağa, dövrün ruhunu çatdırmağa nail olmuşdur. Qalib hekayələrlə yanaşı institutumuzun əməkdaşı Nizami Hüseynovun

"Qəzetçi Seyid" hekayəsi də müsabiqə çərçivəsində mükafata layiq görülən mətnlərdəndir. Hadisələrin arxa planında qalan insanların ümumiləşmiş obrazını yaradan müəllifin az müraciət edilən qəzetçilərin həyatını obyekt olaraq seçməsi, müstəqillik, azadlıq carçıları kimi təqdim edilməsi olduqca təqdirəlayiqdir.

Təbii ki, müsabiqələrdə konkret dönəmin qoyulması tarixi mövzulara maraq oyadır, bizi müasir dünyadan alıb başqa bir dövrə aparır. Bu baxımdan **"Qızılbaş" Beynəlxalq Tarixi Hekayə Müsabiqəsinin keçirilməsi çox gözəl təşəbbüs oldu.** Yazıçılar Birliyində 2017-ci ildən fəaliyyət göstərən Şah İsmayıl Xətai Komissiyası tərəfindən təsis edilmiş müsabiqənin keçirilməsində məqsəd Şah İsmayıl Xətainin adının, ideologiyasının, sənətinin əbədiləşdirilməsi, gənc qələm sahibləri arasında ədəbiyyata diqqətin artırılması və dövlətçilik ənənələrinə söykənərək Azərbaycan mədəniyyətini, tarixini tanıtmaq olmuşdur. Təəssüf ki, uzun müddət keçməsinə baxmayaraq, müsabiqənin nəticələri hələ də elan olunmamışdır. Ümidvarıq ki, tariximizin bu şanlı səhifəsini – Səfəvilər dövlətini ümumilikdə mövzu kimi aktuallaşdırmağı nəzərdə tutan müsabiqənin nəticələri tezliklə elan olunar, bu mühüm dövrü layiqincə hekayə materialına çevirib ədəbiləşdirməyə nail olan mətnlər dəyərləndirilir.

Elan olunub başa çatmayan digər müsabiqə isə Mövlud Mövluda həsr olunmuş, hətta qısa siyahısı açıqlanan müsabiqə oldu. Bu yarımçıq müsabiqələrin uğurla yekunlaşmasının ədəbi sferada kifayət qədər maraq doğuracağı istisna deyil. Ədəbi prosesin inkişafına və xüsusən də janrın püxtələşməsinə rəvac verən bu müsabiqələr zamanla öz

təsirini göstərəcəyini və janrın daha da seçilən nümunələrinin yaranacağını ümid edirik.

Dövrümüzün reallıqlarının ifşasına yönələn hekayələrin də 2018-ci ilin panoramında öz yeri var. Aqşin Babayevin "Ağrı", "Divardakı portret", Nurəddin Ədiloğlunun "Xallı qurbağa", Akif İmanlının "Bazar gününün qonaqlığı", "Gerçəkləşən istəklərim və...", Vahid Məhərrəmovun "Köhnə televizor" hekayələrində müasir dövrün acı gerçəkləri, cəmiyyətdə baş verən gülüşdoğurucu hadisələr, cəmiyyətimizin bir çox bəlaları satirik boyalarla verilir. Satiradan bir vasitə kimi istifadə edildiyi bu hekayələr güldürməsə də, düşündürür, həqiqəti üzümüzə çırpmaqdan ehtiyat etmir...

Şeir, hekayə yazmaq, roman çap etdirmək, hissə qapılıb özünü şair və yazıçı kimi qəbul etdirmək müasir ədəbiyyatımızın bəlalarından biridir. Ədəbi mühitimizdə baş verən bu hadisələri yumoristik dillə oxuculara çatdıran Akif İmanlı hekayələrində "Özündə qabiliyyət kəşf edən", istedadı "fontan vuran", "satiralı, yumorlu" hekayə və şeirlər yazmağa çalışan istedadsız, qabiliyyətsiz insanları hədəf olaraq seçmişdir. Müasir nəsr və poeziyada addımlamağı planlayan şairlərin gülüşdoğurucu obrazını yaratdığı "Gerçəkləşən istəklərim və..." hekayəsi qatı formada olmasa da, müəllifin tənqidi münasibəti açıq-aydın duyulur.

İlin hekayə kitabları içərisində mühüm elmi-ictimai məsələlərin ironik çalarlarla təqdim edildiyi bir kitab da diqqətimizi cəlb etdi. Salidə Şərifovanın "Dionisin qələbəsi" hekayələr toplusunda elmi-ədəbi mühitdə baş verənlər, elm müəssisələrindəki hadisələr satirik təhkiyə ilə oxuculara təqdim edilir. "Layihə oyunu", "Əlyazmalar yanmır",

“Psixiatrın gündəliyi” qoyulan problemin birmənalı olmayan çözümü ilə diqqət çəkir.

Göründüyü kimi, ilin hekayə mənzərəsi kifayət qədər zəngin və çoxçalarlıdır. Keçdiyimiz ildə, əsasən, realizm prinsipləri ilə yazılan, əhvalat təhkiyəsi üzərində qurulan mətnlərin nisbətən çoxluq təşkil etməsi, müasir həyatımızın təsvirində ənənəvi təhkiyə poetikasına əsaslanması ilə xarakterizə olunsa da, müəlliflərin maraqlı eksperimentləri, müxtəlif təhkiyə tonlarını bir müstəvidə cəmləşdirmələri, modern hekayə ağırlıqlı mətnlər ortaya qoymaları da janrın ümidverici inkişafının, hekayə janrının hələ uzun müddət ədəbiyyatımızın əsas janrı olacağının sübutudur...

Maral YAQUBOVA
Filologiya üzrə fəlsəfə doktoru

NƏSR: NƏZƏRİYYƏ VƏ YARADICILIQ TEXNOLOGİYALARI

Nəzəri təhlil üçün vacib olan amillərdən biri nəsr əsərinin bədii nəsr mətni ola bilmə potensialıdır. Hər əsər bədii mətn ola bilmir, çünki, mətn işarəvi struktur tələb edir, aktivdir, davamedicidir, müxtəlif istiqamətli şərhlərə açıqdır. İstənilən mətn oxunduğu zaman var olur və öz oxucu sayı qədər potensial oxuma enerjisinə malikdir. Ötən ilin nəsrinə mətn-nəzəriyyə meyarı ilə yanaşdıqda, məlum oldu ki, çap olunmuş əsərlərin böyük əksəriyyəti mətn ola bilmir, müəllif kitabı və ya əsəri kimi qalır. İstənilən ədəbiyyat əsəri, istənilən bədii mətn tədqiqi nöqteyi-nəzərdən özünə üçlü yanaşmanı tələb edir: "nə"dən bəhs etməsi; "nə"nin "necə" təqdim olunması; "niyə", "nə üçün" təqdim olunması. 2018-ci ilin nəsrində "nə", "necə", "nə üçün" arasındakı münasibətlərin tarazlığı əsasən "nə"nin xeyrinə pozulur. Mətnin "niyə?" sualına axtardığımız cavablar əksər hallarda "nə"nin bəsitliyinə görə cavabsız qalır. Təkcə "nə"yə, yəni nəsrin informativ məzmununa üstünlük verən əsərlərdə mövzunun özünün mahiyyətini təhlilə cəlb etdikdə isə, istər-istəməz elitlik və kütləvilik məsələsi ortaya çıxır. Mövzunu saf və bəsit halda çatdırmaq təqdimatın – formanın necəliyinə o qədər də əhəmiyyət vermədən baş tutanda, kütləvilik əsərin hər səhifəsindən boylanır, nəsr bədiilikdən uzaqlaşır, adi sosial-psixoloji ovqatın bəsit nəqlinə çevrilir. Bu tip nəqlin mətn ola

bilmə imkanı isə demək olar ki, yoxdur. 2018-ci ildə yüzlərlə nəsr əsəri çap olundu, belə ki, bu məruzənin tədqiqat obyektinə 50-yə qədər roman, 40-dan çox uzun hekayə (və ya qısa roman), 300-dən çox hekayə düşdü. Lakin bu mətnlərin böyük əksəriyyəti nəzəri təhlilin prinsiplərinə cavab verməyən, mətnləşə bilməyən nəsr əsərləri oldu. O zaman belə bir sual yaranır: Mətnləşməyən nəsr əsərlərinin tədqiqə ehtiyacı varmı? Ötən ilin nəsrinin timsalında çağdaş nəsrimizin sistemli təhlilini vermək, görünən və görünməyən problemləri aşkara çıxarmaq, nəsrin, bütövlükdə ədəbiyyatın sosial statusunu, mövqeyini, cəmiyyətdəki yerini, müəllif və oxucu arasındakı münasibətin bir akta dönüşüb dönüşə bilməməsini öyrənmək məqsədə çevriləndə, "yazıla bilməyən əsərlər" haqqında da danışmaq şərt olur və sual daha da konkretləşir: Bu əsərlər niyə mətn ola bilmir? Problem nədədir?

Nəsrin çağdaşlığı mövzu seçimindən başlayaraq mətnin ən xırda detalına qədər özünü təsdiq etməlidir. İnformasiya, informasiyanın təqdimi və dərki bir-birini tənzimləyən proses olduğu üçün müasirliyi mətnin bütün kateqoriyalarında axtarmaq lazımdır. Müəllif və oxucu vəhdətində özünü doğruldan çağdaşlığı, nəsrin yaşadığımız zamanın ruhunu tutub-tutmamasını üzə çıxaran vasitə ilk baxışda bəsit görünən, amma mətnin yaranma və oxuma prosesini şəkilləndirmə qabiliyyətinə malik olan mövzulardır. İstənilən mövzunun mətnyaratma potensialı var, bu potensialı görmək isə müəllifin yaradıcı erudisiyası, adi düşüncənin sərhədlərini aşan poetik təfəkkürünü ifadəetmə qabiliyyəti və innovativ-texnoloji yanaşması ilə ölçülür. Mövzu seçimi həm də ədəbiyyatın kütləvi, elit, intellektual ola

bilmə imkanları ilə birbaşa bağlıdır.

Kütlə ədəbiyyatının ən çox satılanlar, ən çox oxunanlar siyahısına öndərlik etməsi, təkcə müasir ədəbi prosesimizin problemi deyil, bu oxucu kütləsinin sosial-mənəvi özünüdərk məsələsindən də qaynaqlanır. Varisin "Uzaqdan gələn yağış", Rövşən Abdullaoğlunun "Abaddon", Elxan Elatlının təkrar-təkrar nəşr olunan əsərləri ötən ilin ən çox oxunan, ən çox satılan kitabları oldu. Bəsit əxlaq məsələləri, qəddar psixoloji situasiyalar, yüngül fəlsəfi gəzinti və sosial dəstək iddiaları ilə çıxış edən bu əsərlərdə zəif oxucu hipnotik təsir altına düşür. İntellektual hazırlığı olmayan, mətn təcrübəsi məhdud oxucunun istər-istəməz təhtəl-şüurundakı psixi-travmatik təsirə açıq yuvacıqları oyanır, aktiv hala keçir, detektiv hadisənin izini sürmək və ya hər hansısa baş verəcək hadisəni önləmək niyyəti bütün oxu prosesinə hakim kəsilir, əsərin dil, üslub, ideya, forma qatları bütün elementləri ilə heçliyə çevrilir, diqqət hadisənin və konfliktin tez çözülməsinə yönəlir və nəticədə ədəbiyyat öz mahiyyətini itirmiş olur. Ədəbiyyatın yerini psixoloji dəstək seansı, təhlükəli ideoloji tərbiyə, oxucunun öz sosial və milli kimliyi ilə ciddi münaqişəsinə səbəb verəcək yönləndirmələr tutur. Azərbaycan sərhədlərini aşmaq niyyəti bəzən bu müəlliflərə əsərlərinin məkan, zaman koordinatlarının və personaj heyətinin "xarici" olmasında özünü göstərir. Məhz bu cür faktlar, nəsrin mətnləşməsinə mane olan faktlardır. Detektiv ədəbiyyatın bizim oxucu auditoriyasında öz aktuallığını daim "qoruması" kifayət qədər ciddi məsələdir, çünki bu gün kitab bazarını, ədəbiyyatın istehlak və istehsal prosesini tənzimlənməyən elə bu auditoriyadır. Təbii ki, detektiv ədəbiyyatın, "çəhra-

yı” ədəbiyyatın və s. dünya miqyasında öz yeri və çəkisi var, hamının kütləvi şəkildə intellektual ədəbiyyat oxuması mümkün deyil. Məsələ ondadır ki, ən azından detektiv əsər ədəbiyyatdan çox uzaq müstəvidə dayanmasın, bədii düşüncənin ilkin və formal elementlərini özündə əks etdirə bilsin. Vüqar Bayramlının “Romantik qisas”, Qənimət Əlisaoğlunun “Həbsxana” kimi əsərləri isə göstərir ki, detektiv janrda kriminologiya elminə bələdlilik, ədəbiyyatın elementar nəzəri kateqoriyaları haqqında vacib olan bilgiləri kölgədə qoyur. Bu məqamda ilin detektiv nəsr əsərləri arasında (daha dəqiq desək, siyasi detektiv janrında yazılmış) Əyyub Qiyasın “Havay tətilləri və ya Brejnev sağdır” romanı seçilir, çünki, əsər ən azından kompozisiyanın tərtibi və informasiyanın “macəra” xəttində təqdimindəki müəllif səliqəsi baxımından qənaətbəxşdir.

Ədəbiyyat və kino arasındakı məsafədən törəyən janr olan trillerlər də ilin betseller olmağa iddialı nəsr əsərləri kimi özünü göstərdi. Əsasən gənclərin müraciət etdiyi triller janrı və subjanrlarının kütləvi ədəbiyyatın prinsiplərinə cavab verən ölçü və meyarlara malik olduğu faktdır. Xüsusilə, hadisə və ya hadisələrin gərgin konfliktini yaratmaq, psixoloji təzyiq, oxucunu qorxu hissinin emosional gərginliyində saxlamaq bu janrın səciyyəvi cəhətləridir. Rəşad Paşayevin “Traum” romanında hadisənin məkan və personaj heyətinin “xarici” olması, Zaur Rəxşanın “Alyaska kabusu”nda oxucuya məlum filmlərdən təsirlənmələrin bolluğu, Tural Əzimzadənin “Omeqa” əsərində mistik triller və detektivin natamam sintezi trillerin özünün janr potensialından zəif istifadənin əlamətləri kimi özünü göstərir.

Əsasən gənc nasirlər tərəfindən yazılan xüsusi qisim əsərlər də vardır ki, bunlar çağdaş dünyanın sosial və mənəvi aşınmalarına məruz qalmış insana dair mövzulardır. Cəfərov Aqşinin "İnsan qırığı" əsərində surroqat analıq məsələsi, aşınmış mənəvi-dəyərlər və texno-zamanın içində uduzan insanın acizliyi, Xəyalə Muradın "Vanuatu adasının sakinləri" əsərində insanın dəyişkən xisləti və ağır şərtlərdə eqosuna uyğun davranışı, bir adada 14 insanın yaşamaq uğrunda savaşı, Fərahim Cəfərovun "Günahkar" əsərində qadın istismarı və zorakılıq, Gülnaz Nağızadənin (13 yaşlı bu yazıçının kitab təqdimatı kifayət qədər ciddi ədəbi çərçivədə baş tutmuşdur.) "Femidanın gözləri"ndə albinos tənhalıqdan çıxış yolları kimi məsələlər mövzu qatında yenilik kimi görsənsə də, nəsrin mətn kimi təşkilində səriştəsizlik, hadisələrin ardıcıl və əlavə izahlarla dolu nəqlinə verilən üstünlük nəzəriyyəyə geniş söz demək imkanı vermir. Bəzən nəsrdə mövzu seçimində məhz yaş fərqi xüsusu rol oynayır, belə ki, 2018-ci ilin materialları əsasında deyə bilərik ki, yaşı 30-dan aşağı olan gənc nasirlərimizin mövzu seçimində müasir tendensiyalarla səsləşmələr daha qabarıqdır, orta yaş və yaşlı nəsli təmsil edən nasirlər üçün keçmişin nostalji xatirələri, olub-bitmiş əhvalatların yenidən nəqli xarakterikdir. Təbii ki, istisna hallar var. İlin nəsrinin fəlsəfi və psixoloji konteksti zəif təsir bağışlayır, ədəbi düşüncə lokal koordinatlarda gəzişərək, nəsrin universal dəyərlərlə düşündürmə qabiliyyətindən lazımınca istifadə edə bilmir. Yaşı otuzdan aşağı olan nasirlərimiz əsərlərində nəinki mövzuların, personaj və hadisələrin identifikasiyasında universallıq, milli və lokal sərhədləri aşmaq cəhdləri özünü göstərir. Ədəbiyyatımıza

gənc "Çarlz Bukovskilər" axını var, dünyanı cəhənnəm bilib, bu cəhənnəmdə yanan insanların ədəbiyyatını yaratmaq tendensiyası özünə yer etməkdədir. Nihat Atabəylinin "Qadınlar və qoyunlar" adlı kiçikhəcmli əsərində pessimist gəncliyin nihilist böhranı, Yasin Qaranın "Oyuncaq" adlı romanında nihilist və aqressiv tənhalıq müəllifləri idarə edən psixoloji ovqat kimi qalır və səthi təsir bağışlayır. Buna görə də, ideyaları, fikirləri olsa da, onlar hələ cəmiyyətdədirlər, ədəbiyyata gələ bilmirlər. Ədəbiyyata gəlmək üçün məhz mətnin "cəhənnəmə dönməsi" şərtdir.

Tural Atəşin "Eva virusu" və Xanım Amelanın "Amarna günahkarları" adlı əsərlər elmi və tarixi mənbələrdən araşdırma yolu ilə əldə edilən materialın fantastika ilə sintezi əsasında yazılıb. Böyük güclərin insanları idarə etmək üçün törətdikləri cinayət-eksperimentlərə qarşı insanlığın savaşının mifoloji yaddaşdan gələn Pan və Lilit ikilisinin ittifaqı ilə baş tutduğu "Eva virusu" əsərini elmi fantastik, Misirin tarixi, xüsusilə Amarna adlı qədim məskənlə, Misir İlahiyyatı və klonlaşdırma ilə bağlı müəllif araşdırmalarının fantastik təqdimatda verildiyi "Amarna günahkarları"nı tarixi fantastik janr adlandırmaq olar. Bu əsərlərdə də informativ məqsəd aparıcı olduğu üçün mətn yaradan ünsürlərə, məsələn, kod və kontekstə önəm verilmir. Əsər kitabın üz və arxa qabığı arasındakı məhdud məsafədə və məkanda sıxışmış şəkildə qalır.

Gənc nasirlərin bəzən "Wattpad" səhifələrində formalaşan nəsr əsərlərinin janr seçimində detektiv, triller, elmi-fantastik, tarixi-fantastik və bu kimi betseller olmağa şərait yaradan janrlara üstünlük verməsi, hər gün yazmaları, bədii əsərlərin say çoxluğu bu gün ədəbiyyat üçün faydalı

deyil, əksinə gərəksizdir. Kəmiyyət keyfiyyəti idarə edirsə, yazılan yüzlərlə nəsr əsərinin içində on-on beş əsər mətnləşə bilirsə, deməli, ciddi problemlər var. Nəsr düşüncə sənətidir, nəsrin bədiiliyində intellektuallıq mütləq öz əxzini tapmalıdır, nəsr oxucusunu bir kitabın və dar çevrənin sərhədindən çıxartmağı, bütövlükdə dünya və Azərbaycan nəsrinin yaddaş qatına (bunu janr vasitəsilə edə bilər) toxundurmalıdır, mövzu vasitəsilə daha qlobal və universal müstəvilərdə düşündürməyi bacarmalıdır. 2018-ci ilin betseller ədəbiyyatı (və ya bu niyyətlə yazılmış ədəbiyyat) göstərir ki, ən çox satılan ədəbiyyat oxucu zövqsüzlüyünün tələbatı ilə yanaşı, həm də kütləyə təqdim olunan nəsr materialına ən azından nəşriyyat, redaktor və s. səviyyələrdə nəzarətsizlik, kitab çapının biznes kimi əhəmiyyətinin, kitab çapında brendləşmə istəyindən çoxçox üstün olmasıdır. Geniş oxucu kütləsinə xitab edən, oxucuda maraq, həyəcan və emosional duyğuları oyandırmaq məqsədi daşıyan, istehlak məqsədli, olduqca sadə vaqelərdən bəhs edən, hadisələrin və hadisələrdə iştirak edən şəxslərin dəqiq xətlərlə təqdim olunduğu kütlə ədəbiyyatının isə düşünmək və düşündürmək gücü yoxdur. Betseller ədəbiyyatının roman janrına sıxışıb qalması isə romanın həcmcə dinamik və elastik imkanlarına bağlıdır. Roman janrı bu tip ədəbiyyatın informativliyə olan güclü meylini öz ölçüləri ilə qane edir, çünki, sözün çılpaq, birbaşa, işarəvi məzmundan məhrum şəkildə təqdimi geniş həcm tələb edir. Özündə yeni tendensiyaları ehtiva edən, çağın dəyişən ruhunu sezən, paradiqma dəyişikliyini qavrayan nəsr mətnlərinin qısa həcminə münasibətdə, mətnləşməyən nəsr əsərlərinin həcminin böyüklüyü o qədər də zidiyyətli

görünmür. Ənənəvi, birölçülü güzgü effekti müasir oxucunu artıq cəlb etmir. Nəzəri hazırlıqlı oxucu, mütaliəni zövq almaq səviyyəsindən daha fərqli bir akt kimi dərk edir, onun fantaziyasını, təxəyyülünü, yaddaşını və intellektual səviyyəsini oxuma prosesinə daxil edən mətnləri oxumaq istəyir. Nasirlərimizin əksəriyyətinin öz mövzularının gerçək həyat hadisələri olmasına ifrat aludəçiliyi, (bunun iki başlıca amili var: birinci, yeni yazanlar inanır ki, uzun müddət yazıçılar gerçəkliyi göstərə bilməyib və buna indi imkan yaranıb; ikinci amil isə yaradıcılıq məsuliyyətinin zəifliyi, qeyri peşəkarlıqdır) mətndən kənardakı reallığı mətnin reallığında əks etdirə bilməməsi və dağınıqlıq yaranması, nəql olunan hadisənin narrativ və diskurs səviyyələrinin olmaması, hadisənin zaman və məkan koordinatlarının lüzumsuz dəqiqliyi, obrazlı düşüncənin yoxsulluğu, personaj heyəti arasında dialoq bolluğu və s. nəsr əsərini mətn olmaqdan uzaqlaşdıran faktlardır, nəticədə bu tip əsərlər kütləviləşir, bədii məzmun qazana bilmir, təsir effektini itirməklə bərabər elmi təhlilə də dözümsüz olur; qırılıb tökülür... Hadisənin çözülməsi mətnin çözülməsindən asan prosesdir və bəsitdir, müəllifin təhkiyəçiyə çevrilə bilmədiyi əsərlərdə struktur və ifadə texnologiyası formalaşa – modelləşə bilmir.

Müasir elmi-nəzəri təhlil modelinə uyğun gəlməyən bir qisim əsərlər isə kütləvi ədəbiyyat anlayışı ilə adlandırıla bilməyən nəsr əsərləridir. Bu tip əsərlərdə müəlliflərin ədəbiyyatın imkanlarını sovet düşüncəsi səviyyəsində dərkindən qaynaqlanır, ədəbiyyatı gerçəkliyin inikası kimi görmək (gerçəklik imitasiyası yaratmaq) və yaradıcılığı bu sərhədlər daxilində məhdudlaşdırmaq əsərin həcmindən

başlayaraq ən xırda detalına kimi təsir edir. Mətn strukturu, təhkiyə texnologiyası çox zəif olan bu tip əsərlərdə mövzuların təqdimatı söhbət səviyyəsini aşa bilmir, müəllif mövqeyinin hadisələrin olduğu kimi çatdırılmasına göstərdiyi həssaslıq bədii nəqlin natamam və qüsurlu olmasına şərait yaradır. Təsadüfi imzaların bol olduğu bu əsərlərdə yaşanmış həyat, keçmişində iz buraxmış, amma şəxsi lokal çevrəni aşa bilməyən, dünyaya bəsit və uydurma suallar verib cavab axtarmayan mövzular, kiçicik problemlər bəzən 300-500 səhifəlik həcmdə təqdim olunur. Günəş Nəsibənin "Saçlarına gül düzüm", Nər Məlahətin "Ömür kimi gözlər", Gülər Eldarqızının "Burulğan", Zeynəb Seyidzadənin "Xınalı bahar", Tahirə İsaqızının "Bir udum sevgi", Fərhad Nəsibzadənin "Tənhalığın dörd mövsümü", Sabit Əliyevin "Evə doğru uzun yol", Rəhilə Veysəllinin "Günahdan doğulmuş müqəssirlər", Solmaz Muxtarovanın "Günahsız günahkarlar", Dərya Qılıcın "İtkin arzular", Ulduz Qasımın "Qürbət zöhrəsi", Fazil Sənanın "Nifrətin göz yaşları", Sevinc Ağa Xəlilqızının "Məryəm" və s. əsərlərdə ürəyi və ağlı arasında səthi mənəvi problemlərindən qaynaqlanan get-gəllər yaşayan insanların oxşar hekayələri öz əksini tapıb, mövzular şəxsi və lokal çevrələri aşa bilmir, insan və mikrocəmiyyət (ailə və ya dost-tanış çevrəsi) hadisələrinin paradoksal olaraq makrohəcm ilə nəqli ilə seçilən bu əsərlər kitabların üz qabığından tutmuş, annotasiyalara, ilk cümləyə qədər nəzəriyyəyə uduzur, uzun metrajlı melodramalar effekti daşıyır.

Demək olar ki, bu gün yazıçı, oxucu, eləcə də ədəbiyyatşünasların əksəriyyəti ədəbiyyata gerçəkliyin güzgüdəki əksi kimi baxmaqda israrlıdır. Müşahidələr göstərir ki,

bu tip oxucular ya kifayət qədər az mətn oxuyublar, ya da ötən əsrin 1990-cı illərindən bu yana bədii mətn oxumağa "vaxt tapmırlar". Çünki, informasiyadan zəngin, hər yerdən məlumat topladığımız, vizual vasitələrlə gerçəkliyə istədiyimiz kimi tamaşa edə bildiyimiz bir çağda yaşayırıq. İnformasiya yığcam, lakonik olmalıdır, geniş informasiyalar yorucudur. Bəzən ən qısa hekayənin mövzusu ola biləcək bir material roman mövzusu kimi təqdim olunur. Halbuki, ən qısa hekayə şəklində təqdim olunsa həmin mövzunun yaradacağı bədii-estetik effekt daha güclü ola bilər. Məsələn, Sabir Rüstəmxanlının "Astar" kitabında oxucuara təqdim etdiyi "Uşaqlığıma dəyən güllə" romanında mövzuya ayrılmış səhifənin və kəlmə sayının çoxluğu onun dərin emosional qatını və bədii psixologizmini zəiflədir.

Anlatdığı mətnə hakim, hadisələrin sonunu əvvəlcədən bilən müəllif tipi 2018-ci ilin nəsri üçün səciyyəvidir, bu tip təhkiyəçi isə dünya ədəbiyyatında XIX əsr romanları, sosialist ədəbiyyatı üçün səciyyəvi hal idi. Müəllif yaratdığı təhkiyəçiyə təslim olmalıdır. Təslim ola bilmirsə, mətnin bütövlüyü pozulur, sanki deşikləri olan bir qaba israrla su doldurursan, nəticədə isə qab dolmur. Gizlənməyi bacarmayan, amma ən azında maskalana bilən, oxucu ilə oyun oynayan müəllif də mətnin nəzəri cəhətdən azadlığına və diqqətli çözümünə şərait yaradır. Dominant müəllif, mətnin hər səhifəsində mən burdayam, əsəri yazan mənəm deyən müəllifin mətni bütün hallarda zəifdir, əgər o memuar ədəbiyyatı yazmırsa. Nəsrin mətn ola bilməsi üçün nasirin təhkiyəçi statusu müəllif statusundan üstün olmalıdır. Hər bir mətn (söhbət mükəmməl bədii mətndən gedir)

adresantdan adresanta ünvanlanan kodlaşmış yazıdır. Müəllif nəsr mətninin sərhədindən içəri daxil olduğu anda təhkiyəçiyə çevrilməlidir. Mətnin konstruksiyası olmalıdır, mətn müəllif tərəfindən quraşdırılan bir sxemdir və təhkiyəçi bu sxem-insanın, sxem zaman və məkanın mühəndisidir. İlin nəsrinin bütün təhkiyəçiləri müəllifdir, amma hər müəllif təhkiyəçi deyil.

Tarixin ədəbiyyata gəlişi və ya tarixi mənbədəki məlumatın bədii mətnin informasiyasına çevrilməsi ilin nəsrində tarixi romanlar vasitəsilə gerçəkləşdi: konkret bir tarixi şəxsiyyətin həyatından bəhs edən əsərlər tarixi mərhələ və tarixi epizodla bağlı mövzuları üstələdi. Mehriban Vəzirin "Gövhər ağa Cavanşir" adlı romanında müəllif təqdimatında "tariximiz qəhrəmanlarımızın itmiş həyat hekayələri ilə aşıb daşır" cümləsi romanın yazılmaq ideyasını müəyyənləşdirir. Romanın Gövhər ağa Cavanşirin həyatından, Qarabağın müvafiq dönəm tarixindən bəhs edən strukturunda müəllifin tarixin fonunu yaratmaq cəhdi diqqətəlayiqdir. İstər arxaik sözlərdən istifadə, istərsə də müəllif təhkiyəsində dövrə xas ab-havanın qorunması cəhdi, mükəmməl olmasa da qorunur. Mətnin epiloqunu çıxmaq şərtilə romanın əsas mətnində tarixi rəqəmlər və təfsilatların ağırlığı yoxdur, nəql axıcıdır. Göhvər ağanın 23 yaşı ilə bitən süjet xətti epiloqda davam etdirilir. Bu dəfə xülasə üsulu ilə (1790-1814-cü il hadisələri mətndə verilir, 1814-cü ildən sonrakı hadisələr epiloqa yerləşdirilir). Bu da tarixi romanın məqsədinin mövzunun informativ həcmini çatdırmağın üstün tutulması ilə bağlıdır, tarixilik prinsipi mövzuda özünü büruzə verməyə daha maraqlıdır. Bu tip əsərlərdə tarixə xəyanət qorxusu mətnin struktur şə-

kildə təqdimatına birbaşa təsir edir. Tarixi şəxsiyyət və tarixi dövr haqqında orijinal bilgi poetik və estetik, çox zaman isə lirik-psixoloji ovqatla yenidən işlənmiş şəkildə oxucuya çatdırılır. Tarix və ədəbiyyat arasındakı münasibət fərqli şəkillərdə ortaya çıxa bilər və bu təzahürün tipini hər zaman mövcud kontekst- çağ özü müəyyən edir. Məhbubə Hacıyevanın "Taclı bəyim" əsəri isə Şah İsmayıl Xətainin xanımı Taclı Bəyimin və ümumilikdə Səfəvilər dövrünə dair hadisələr əsasında yazılıb. Yazıçının öz mövzusuna və mövzuya daxil etdiyi personajlara idealist münasibəti əsərdə monotonluğa səbəb olur, əsas personajların qüsursuz şəkildə portretləşməsi, nəinki bədiiliyi, elə tarixiliyin özünü də sıxışdırır. Belə ki, müəllif tez-tez personajlarını romanın Qərbli sakinləri ilə dialoqda (müəllif tarixi romanda dialoq sözünü işlədir ki, bu söz özü tarixiliyi sıxışdırmağa kifayət edir.) təqdim edir, hər dəfə Şərqin müdrikliyi Qərbin heyrətinə səbəb olur. Kaş ki, oxucu da tarixi romanlarda təhkiyənin tarixiliyi içində özünü itirə, heyrətlənə biləydi. Namiq Atabəylinin "Şirvanşah Böyük Axsitan" romanında məlum dövrün hadisələri tolerant-multikultural mədəni dəyərlər prizmasından təsvir olunur, I Axsitanın müsəlman, anası Tamar Baqrationinin xristian olması həmin prizmanın tarixin dərinliklərində özünütəsdiq etməsinə şərait yaradır. Tarixi romanları digər roman növlərindən fərqləndirən məqamlardan biri də tarixi gerçəkliyin müasir ideoloji dəyərlər çərçivəsində yenidən şərhidir, yəni keçmiş olduğu kimi əsərə daxil olsa da, onun əsərə gəlişinin məqsədini və niyyətini ideoloji prinsip müəyyənləşdirir. Tarixi roman müəllifləri adətən özlərindən qabaq yazılmış əsərlərdə keçmişin təhrifinə inanırlar,

keçmişi heç bir təhrifə məruz qoymadan yazmaq niyyətlərini ön söz, son söz vasitəsilə oxucuya çatdırırlar. Amma bir məqam unudulur ki, müəllifin mənsub olduğu çağın səsi tarixi romanlarda təhrifə yol açan ən ciddi səbəblərdəndir. Buna görə də, tarixi romanlarda informativ dəqiqlik axtarmağın özü yanlışdır, tarixi detallı və təfərrüatları ilə oxucuya təqdim etmək də romanın bədii-estetik divarlarını dağıdır, onu tarixi mənbəyə çevirir. Tarixi roman "nə", "necə" və "niyə" arasındakı tənzimlənmənin bədii həlli olmalıdır. Digər səbəb isə idealist mövqe və vətənpərvərlik, millilik duyğularının yaratdığı qürur duyğusunun nəqlə hakim olmasıdır. Bədii mətnlərin strukturunda özünü mühafizə edən milliliklə, bədii mətndə konsepsiya kimi çıxış edən millilik arasında ciddi fərq var. Bu, özünü mətnin bütöv ifadə texnologiyasında və janr-arxitektonikasında büruzə verməlidir. Tarixi romanda gözlənilməsi vacib və kifayət qədər həssas məqam təqdim olunan hadisənin tarixiliyini mühafizə etmək qədər, təhkiyənin hər bir detalında tarixiliyi qorumaqdır. Tarixi məqalə oxuyan oxucu ilə, bədii əsər oxuyan oxucu arasında ciddi fərq var, tarixi roman estetik zövqə köklənməli, oxucunun reseptiv emosionallığını oyatmalı, onu mənsub olduğu zamandan almalı, yaşadığı dövrü unutdurmalı, mətnin gerçəkliyini ortaya qoymalıdır. Bu möhtəşəm bir oyundur! Müasir oxucunu tarixin dərinliklərində nə maraqlandıra bilər? Hansı qaranlıq sualların cavabını axtara bilər? Millət olaraq ortaq keçmişimizə hamımızın verə biləcəyi ortaq sual nədir? Kolumbiyalı Qabriel Markes, çilili İzabel Allande, hindistanlı Salman Rüşdi, indoneziyalı Eka Kurniavan öz milli tarixlərinin magik realizm vasitəsilə epik modelini təqdim ediblər

və qəribə burasıdır ki, bu mətnlərdəki tarixə oxucu daha çox inanır. Nəinki rəsmi dəqiqlik, publisistik izah, əlavə şərhlərin bol olduğu əsərlərə. Təhlil olunan romanlar göstərdi ki, tarixi informasiyanı tam olduğu kimi çatdırmaq marağı hermenevtik şərhə, narratoloji xəttin davam etməsinə imkan vermir, əsər öz praqmatik və didaktik mövqeyini qorumaqla kifayətlənir. Nəsrdə bu tip qüsurların yaranmasına səbəb olan amillərin başında dərs vermək, öyrətmək iddiasının (maarifçiliyin bu üsulu hazırkı dövrdə son dərəcə köhnəlib və məlumatlı oxucu üçün çox yorucu və bəsitdir) estetik şərh etmək, toxumaq, yaratmaq, qurmaq kimi maraqlardan daha üstün tutulmasıdır. Hal-hazırda bizim məqsədi tarixi mətnə daşıyaraq informasiya vermək deyil, mövcud informasiyanı sorğulamaq, mühakimə etmək, əlaqələndirmək, bəzən dağıtmaq, yenidən bərpa etmək olan mətnlərə ehtiyacımız var. Bu tip mətnlərdə tarixi hadisənin təhkiyəyə dönməsi prosesi özünəməxsus ifadə texnologiyası ilə gerçəkləşir ki, ötən ilin nəsrində bu hal müşahidə olunmadı. Tarixlə müasir düşüncənin təması ilin nəsrində müəllif hadisəsi kimi baş tutdu (müəllifdə də bitib qaldı), mətndə öz təsdiqini tapa bilmədi.

Ağayev Samidin “Bakıdan sevgilərlə”, Güllü Məmmədovanın “Qan içində işıq”, Sabir Şahtaxtlının “Azadlıq nəğməsi”, Şəmistan Nəzirlinin “Qoridən gələn qatar”, Səadət İsgəndərin “Qarsa gedən yol”, Arif Xəzərin “Bu hələ son deyil”, Elzanın “Mübarizə yolu”, Muradxanlı Etibarın “Tələbə taqımı”, Ramilə Qurbanlının “Müharibə miniatürləri”, Surxay Səlimin “Qarabağ hekayələri”, Abbaslı Ramizin “Ximera”, Əliağa Cəfərovun “Qırğın”, Qaraxudatlı Zülfüqarın “Qartal qan içində”, Yunus Oğuzun “Ovçu”,

Əlisəfa Azayevin "Fədakarlıq anı", Məhbubə Hacıyevanın "9 sevdalı" əsərlərinin adlarını bir cümləyə yığan səbəb milli mücadilə, azadlıq və müharibə mövzularıdır. Milli mücadilə, azadlıq, mübarizə, müharibə kimi dərin mənəvi-sosial və ictimai hadisələr barədə danışanda ədəbiyyatımızın mövqeyi konkretləşir, daha doğrusu, danışan öz yerini və baxış bucağını dəqiq seçir, birbaşa milli Mənə çevrilir. Nəticədə bu tip əsərlərdə publisistlik və sənədlilik bədiiliyi sıxışdırır, bəzən isə tamamilə uzaqlaşdırır. Bu nəsr əsərlərində hadisələrin nəqli daha qabarıqdır, əsərlərdə fabulanın süjetə çevrilməsi var, lakin bu əsərlərdə müəllif oxucunun məlum bilgisi ilə dialoq qurmaqla kifayətlənir, oxucunun bildiyi hadisələrin motiv və simvollarının, kodlarının izinə düşüb oxucunun təhtəlşüur qatına qədər gedib çıxa bilmir, mətnin dinamikliyini, diriliyini təmin edən texnologiyalardan faydalanmır, daha doğrusu, onlardan istifadə etməyə gücü çatmır (bunu milli təəssübkeşlik duyğusunun yazıçınasir düşüncəsindəki bədiiliklə yola getməməsi kimi də izah etmək olar). Hadisələrin ardıcıl və qeyri-ardıcıl düzümü təhkiyənin struktur kimi bütövlüyünü göstərmir, çünki oxucu hadisələrin ardıcıllığını müəyyən etmək istəmir, o mətn təhkiyəsində şaquli və üfuqi əlaqələri bərpa etməyə can atır. Bir cərgədən başqa bir cərgəyə keçiddə müəllif vasitələrini kəşf etmək və heyrətlənmək, özünün görmədiklərini müəllifin göstərdikləri ilə görmək istəyir. Ədəbiyyatda konfliktsizliyi və konflikti yetərincə tədqiq etmiş nəzəriyyə indi verballığın konfliktini çözməyə yönəlib. Mətnin dərinliklərində, müəllif iradəsindən yayınıb düşmüş (müəllifin sənətkarlığı həm də həmin yayındırma effektlərini qura bilməsindən asılıdır) təhtəlşüur elementlə-

rin izi ilə getməyə can atır. Nəzəriyyə mətndə müəllfin modelləşdirdiyi sxemi sökmək və yenidən yığmaq istər, əgər o modelləşməni tapa bilsə.

2018-ci ilin nəsr əsərləri arasında mətndə keçmişlə (mədəniyyətin keçmişi) müasirliyin (mədəniyyətin bu günü) fərqli sintez formalarını üzə çıxaran mətnlər də oldu. Cavi Danın "Məhsəti" və Sahilə Yayanın "Şeyx Sənan" romanları istər mövzu, istər mövzunun təqdimi, istərsə də müəllif niyyəti baxımından seçildilər. Tarix bu mətnlərin sərhədindən içəri daxil olarkən müəllif niyyəti ilə tənzimlənir, gündəmin sorğu-sualından keçir, müasirliklə səsləşən məqamlar seçilir, keçmişlə bugünün arasındakı ənənə xəttini görmək məqsədə çevrilir. Ən əsası bunlar mətndə didaktik-praqmatik dərsvermə şəklində baş tutmur. Cavi Danın "Məhsəti" romanında təxəyyül və tarixin mətndə sintezini gerçəkləşdirən müəllif səbəbi istər-istəməz bizi feminist ədəbiyyatın prinsiplərini araşdırmağa sövq edir. Yazıçının yaratdığı obraza qarşı həssaslığını, Məhsəti və Xərabət münasibətlərinin gedişatını tənzimləyən və süjetin sonluğunu müəyyən edən məqam da məhz feminist niyyətdir ki, əsərin ilk cümləsi elə buna sübutdur (Gecənin qaranlığına yayılmış həzin qadın səsi). Bu romanda tarix bütün tarixilik prinsiplərinə cavab vermədiyi kimi, postmodernistlərə xas dağıtmaq, yenidən yığıma da məruz qalmır, sadəcə feminist baxışın tarixin dərinliklərində özünü axtarması kimi dərk edilə bilər.

Sahilə Yayanın "Şeyx" romanında isə qədim bir mətn və bu mətnin müxtəlif interpretasiyalarını da əhatə edən Şeyx Sənan mövzusu azərbaycanlı yazar Şumeysat və erməni Sənan arasındakı sevgi hekayəsi ilə birgə təqdim olu-

nur. Romanda zamanın, məkanın, mənəvi-ruhani dünyabaxışın, mədəni kontekstin ikiləşməsi hadisəsi baş tutsa da, bu postmodernist inkar-təsdiq şəklində gerçəkləşmir. "Məhsəti" romanının müəllifi kimi, "Şeyx"in müəllifi də öz mövzusuna idealist münasibət bəsləyir, Şərqə yüksək dəyər verir. Personaj heyətinə subyektiv və seçici yanaşma romanda gücü Şumeysatın üzərinə cəmləyir, bu da mətndə natarazlığa şərait yaradır, personajların təqdimatında balans pozulur. Adı çəkilən iki əsər və uyğun bir neçə başqa əsər əsasında deyə bilərik ki, nəsrimiz üçün 2018-ci il postmodernizmdən metamodernizmə keçid ilidir. Bu keçid hələ ki, kövrək şəkildədir, ayrı-ayrı element və detalların şərhində özünü büruzə verir, konsepsiya formasında deyil.

Ötən ilin bədii mətn ola bilən nəsr əsərlərində xoşagələn bir məqama diqqət yetirək: əvvəlki illərə nisbətdə intellektini nümayiş etdirməyə meyilli müəllif-təhkiyəçi tipinin yerini oxucunun reseptiv və hermenevtik şərh bacarıqlarına inanan müəllif-təhkiyəçi tipinə verməsi. Mətn təhkiyəsində kodlara, açar-sözlərə, şifrələrə, simvollara, metoforik deyimlərə tələsik müəllif izahatının verilmədən oxucu tərəfindən açılmasına şərait yaratmaq müsbət haldır. Bədii nəsr mətnlərini adi nəsr əsərlərindən fərqləndirən digər ciddi məsələ çağın səsinin mətndə informativləşməsinin mürəkkəb formalarına müraciətdir. Müəllif və oxucunun paylaşdığı ortaq mühitin özünün metatəhkiyəsini hər iki tərəfin dinləyib anlaması, duyub hiss etməsi və cavab verməsi sadə və mürəkkəb formada baş verə bilər. Adi nəsr əsərləri hamının bildiyi məsələlərdən, gerçəklik hadisələrindən, metatəhkiyənin içərisindəkı xırda fabulalardan yararlanır, yaxşı nəsr mətnləri isə zamanın və təcrübənin

diskurslarına müraciət edir. (Şərif Ağayar "Ağ göl", Qurban Yaquboğlu "Mən yoxam", Zahid Sarıtorpaq "Quşların intiharına ağlamayın", Xanəmir Telmanoğlu "Naməlum ailə", Azad Qaradərəlinin "Morq çiçəkləri", Azər Qismət "Çuğullar", Mübariz Cəfərli "Səmadakı quyu", "Yer altındakı gümüşü yarpaq" və s.)

Mətnin yazılması və oxunmasının bir-biri ilə bağlı dərin proses olduğu düşüncəsindən doğan bu mətnlər yaşama və həmişə canlı olma imkanı qazanırlar. İstedadlı müəlliflər mətnlərini oxucunun təkcə estetik zövqünə və praqmatik dəyərlərinə hesablayaraq yazmırlar, hermenevtik, reseptiv, semantik, psixoanalitik bacarıqlarını açaq biləcək bir akta dönüşdürməyi seçirlər. İntellektual təcrübəli, intuitiv və koqnitiv formullarla düşünə bilən, mütaliəsi çox olmaqla yanaşı metaforik qavrama qabiliyyətli oxucu modeli tələb edən nəsr mətnlərinə nəzəri yanaşma göstərir ki, bu mətnlərin qüsurları da məhz mətn gerçəkliyi ilə bağlıdır. Oxucu qeyri-ixtiyari mətndən kənardakı hadisələrin nizamını deyil, mətndəki struktur vahidləri arasındakı nizamı sorğulayır. Mətnin əvvəli və sonu arasında ziqzaqlar yaşayan, təxəyyül, fantaziya, intellektinə və yaddaşına müraciət edən dinamik oxucunu hadisələrin konflikti həyəcanlandıra bilməz, bu oxucunu mətnin strukturunda yazılanlarla yanaşı yazılmayanların izini sürmək, bilərəkdən buraxılmış boşluqları, sükutu doldurmaq, mətndən törəyən mətnləri kontekstə bağlamaq, semantik izahat, simvolik şərh, metaforik yanaşma bacarıqlarını aktivləşdirmək həyəcanlandırır. Ədəbiyyat işarəvi mahiyyətə malikdir, işarə isə öz referentinə çatana qədər differensiallaşır, başqa səthlərə toxunur. Ötən ilin nəsrində buna imkan yaradan mətnlərin

olması ədəbiyyatımız üçün çox əhəmiyyətlidir.

Nümunələrin təhlilində nəsr mətnlərinin strukturu və onun ifadə texnologiyası arasındakı əlaqənin müxtəlif tipləri özünü göstərdi. Belə ki, müəllifin qurduğu strukturu ifadə etmək və ya nəql etmək üçün seçimini müəyyənləşdirən məqamlar var. Psixoloji, simvolik, fəlsəfi, metaforik, semantik və s. əlaqə tiplərindən törəyən təhkiyənin verballığı bu məqamda mətnin modelinin tamamlanmasını təmin edir, ən üzdə qalan qat təsiri oyadan verballıq ciddi əhəmiyyətə malikdir. Bəzi mətn təhkiyələrində rast gəldiyimiz verbal əyrintilər mətnin tamlığına xələl gətirir, mətni təhkiyəçinin heç nəzərdə tutmadığı başqa bir kontekstə müncər edir. Bəzən tək bir söz, tək bir yanlış ifadə mətn gerçəkliyinin pozulmasına səbəb olur. Nəsrdə özünü göstərən qüsurlardan biri də, mətndə sözün yerinin düzgün seçilməməsidir. Mətnin verballığında onu dağıdan söz və söz yığınlarına rast gəlinir. Bu mətni kontekstindən ayırır, müəllifin heç nəzərdə tutmadığı başqa bir kontekstə müncər edir. Məsələn, Mübariz Cəfərlinin əsərlərində. Pritça xarakteri daşıyan, fəlsəfi və estetik modeli ola bilən, nəzəriyyənin israrla görmək istədiyi bədii mətn modeli olan bu əsərləri müasirlikdən uzaqlaşdıran verbal əyintilər var: rayon mərkəzi, katibə, meşin qapı və bu tip sözlər sovet nəsrindən çıxıb təsadüf nəticəsində bu mətnlərə düşmüş effekti verir. Düşməklə də qalmır, mətnin yaşını və ruhunu qocaldır. Elə Mübariz Cəfərlinin özü demişkən, “Özü düzəltdiyi labirintdən çıxa bilməyən sənətkarın taleyi həm ağlamalı, həm gülməlidi”

Nəsr mətninin strukturu və onun ifadə texnologiyası arasındakı əlaqənin müxtəlif tipləri ola bilər. Belə ki,

müəllifin qurduğu strukturu ifadə etmək və ya nəql etmək üçün seçimini müəyyənləşdirən məqamlar var. Bu bəzən psixoloji məqamdır, Q.Yaquboğlunun "Mən yoxam" əsərində olduğu kimi. Mətn boyunca bu psixoloji gərginlik təhkiyənin formalaşmasına təkan verir, təhkiyənin gedişatını müəyyənləşdirir, nəticədə introspektiv nəql tipi yaranır, nəqlin bu tipində oxucu hadisələr arasındakı bağı roman personajlarının şüurlarına keçidlərlə müəyyənləşdirir. Hadisə və ya hadisələr çoxluğunun məntiqi və ya semantik izahı nəzəri nöqteyi-nəzərdən verilməlidir. Bunun üçün mətndə kodlar, işarələr olmalıdır. Bəzi müəlliflər bunu verbal fərqlilik yaratmaqla qura bilirsə, bəzi müəlliflər verballığı pozmadan davam edirlər. Q.Yaquboğlu bu verballığı pozmur, çünki, bütün nəql vahid təhkiyəçidə cəmlənir, təhkiyəçinin yaddaşında – introspektiv yaddaşında şaxələnən hekayəni təşkil edən ayrı-ayrı fərdi hekayələrin şaquli bağı "Mən yoxam" ifadəsidir.

Zahid Sarıtorpağın "Quşların intiharına ağlamayın" romanında simvollar mətnin çözülməsində kod-açar funksiyası daşıyır. Strukturun ifadəsində müəllif seçiminin bir tipi də semantik-simvolik əlaqədir. Müəllif demək istədyi sözü özü yaratdığı təhkiyəçiyə əmanət edir, təhkiyəçi mətnin işarəvi-simvolik planda qurur, demək istədiyi mətnə tamamilə fərqli bir libas geyindirir. Bu zaman mətnin ikiləşməsi baş verir, bəzən üçləşmə, dördləşmə və s. Mətndən törəyən digər mətnlər paralel şəkildə oxu boyunca özünü göstərir. Bu tip mətnlərdə təhtəl-şüur müəllifdən asılı olmayaraq özünü tez büruzə verir. Mətnin içindən müəllif mütaliəsi və dünyagörüşü simvolların izahı ilə ortaya çıxır.

Mətn strukturu və ifadə texnologiyası arasındakı əlaqənin bir tipi də metoforik əlaqədir. İnformasiyanı tam başqa tərzdə ifadə etmək, mif-folklor yaddaşının izləri və s. Bu tip mətnlərdə kütləvi təhtəlşüur da aktiv olur. Müəllifin oxucuya ünvanlandığı informasiya o zaman çözülə bilir ki, kodlar eyni müstəvidə çözülə bilsin. Şərif Ağayarın "Ağ göl" romanını fərqləndirən cəhətlər mətnin izah vasitələrinin müxtəlif səthlərə toxunaraq paralel mətnlər törətməsidir. Roman obraz və personajların, hadisələrin adlandırma prosesində gerçəkliklə bağ qurur, dövr hadisələri ilə səsləşir. Mətndəki mifik rəvayət və dini mətnlərə aparan kodların açılışı isə müvafiq qatın yaranmasına səbəb olur. Mətni bütün bu "kənar" effektlərdən təmizlədikdə isə ortada qalan sənətkar və mətn xəttini üzə çıxarır. Camal əslində Hörümçək kimi tikandan hasar toxuyarkən, müəllif də mətni toxumuş olur.

Ötən ilin maraqlı əsərlərindən biri də Azad Qaradərəlinin "Morq çiçəkləri" romanı oldu. Roman istər təhkiyə texnologiyası, istər təhkiyəçi baxış bucaqlarının çoxluğu (və müxtəlifliyi), bu çoxluğun mətnin strukturunu qurma qabiliyyəti, roman karkasını hörən hadisə və personaj heyətinin təqdimindəki "nizamsızlığın nizamı" baxımından diqqəti cəlb edir. Romanda dramatizm sadə bir süjet xətti əsasında baş vermir, bir çox hadisələrin dramatik, psixoloji gərginliyi mətnin müstəvisində bir-biri ilə təmas qurur, polifonik struktur formalaşır, təhkiyəçi mövqeyi və modallığının elastikliyi kompozisiyanı mürəkkəbləşdirir, verbal müxtəliflik bu mürəkkəbləşmənin şəklini çəkə bilir. Şərif Ağayarın "Ağ gol" və Azad Qaradərəlinin "Morq çiçəkləri" romanında magik realizmin müxtəlif səviyyəli domi-

nantlığı dünyaya "güzgü" tutmaqda israrlı müasir ədəbiyyatımızda fərq yaradır, yaxşı mənada ədəbi stereotipləri dağıdır. Birinci əsərdə magik realizmin aktivləşməsi metamodernist təzahür kimi özünü göstərirsə, ikincidə magik realizm informasiyanın acılığının və gerçəkliyin sərtliyinin "yumşaldıcı" effekti kimi görsənir və istədiyinə də nail olur.

Mətni oxuma prosesində mətnə paralel mətnlər törəyirsə, bu nəsrin bədii hadisə olduğuna işarət edir. Ədəbiyyat işarəvi mahiyyətə malikdir, işarə isə bildiyimizi kimi öz referentinə çatana qədər differensiallaşır, başqa səthlərə toxunur. Azər Qismətin "Çuğullar " əsəri antiutopik səciyyə daşıyır, cəmiyyətin qaranlığı, bu qaranlığı diktə edən "çuğullar" və çuğulların sındırdığı insanlar. "Çuğullar" romanı öz ətrafına mətnlər yığa bilir, bu mətnlər bəzən təhkiyəçi tərəfindən ortaya atılmış söz-açarlar vasitəsilə, bəzən isə oxucunun intellektual yanaşması vasitəsilə yaranır. Məsələn, mətndə Oruell antiutopiyası ilə səsləşmələr sezilir. Roman həqiqətən də təqdim etdiyi informasiyanı çağdan alır, çağın səsini eşidir, gerçəkliyi görür, təqdim etmək istədiyi mövzu aydındır, müəllifin "niyəsi" də özünü doğruldur.

Bədii mətnin dili müəllifin düşüncə şəklidir. Bir mətnin sadə, anlaşıqlı və ya mürəkkəb dildə yazılması onun qiymətləndirmə meyarı deyil. Mətn dildən deyil, dil mətndən asılı olmalıdır, mətnin tələblərinə uyğunlaşmalıdır. Verballığın unikallığı mətnin bənzərsizliyini təmin edə bilər. İlin nəsr əsərlərində verbal unikallıq cəhdləri özünü göstərdi, bu çox yaxşı haldır. Verballığın özü də bir kompozisiyadır və modelləşmək istəyən bir hadisədir. Bir əsəri

təşkil edən digər qatlar – sosial, ictimai, fiziki, metafiziki, fəlsəfi, psixoloji və s. oxu prosesinin sonunda uçub dağılmağa məhkumdur, yerdə və əldə yalnız mətn yazısının özü qalır, ədəbiyyatı ədəbiyyat edən yazının estetikliyidir. Verballıq özü də estetik və harmonik (bəzən də mükəmməl səviyyədə disharmonik!) olmalıdır.

İlin verbal fərqlilik yaradan nəsr əsərlərində harmoniyanın (və ya disharmoniyanın) yaranmasına mane olan məqamlar da var. Qeyri-ixtiyari olaraq təhkiyəçinin obrazı ilə nitqi arasındakı uyğunluğa diqqət yönəldən oxucu təhkiyənin gedişindəki əyintiləri sezəndə mətnin poetik-estetik nizamı pozulmuş kimi olur. “Çuğullar” və “Mən yoxam” romanlarında feli bağlama tərkiblərinin və feli sifət tərkiblərinin ifrat istifadəsi müəllif düşüncəsinin mətnqurma şəkli ilə birbaşa bağlı olsa da, bəzi məqamlarda mətnin sərbəstləşməsinə mane olur, müəllif səsinin monotonluğuna çevrilir. Birinci romanda təhkiyəçi intellektual biridir, onun cümlələrinin mürəkkəb olması normaldır. Amma mətndə daha çox daxili monoloq texnologiyasından istifadə olunduğuna görə, auditoriya nəzarətindən uzaq olan nitqin akademizmi biraz mətnin gerçəkliyinə şübhə oyadır. Nəzəri oxucu mətnin gerçəkliyini təsdiq etməlidir. Bu təsdiqə mane olan hər detal, hər xırda söz qüsur kimi gözə çarpır.

Sərdar Aminin “Su sərgisi” əsərində metafizik-fəlsəfi dialoqlar (nəsrimizin ehtiyacı var) mətnin strukturunu müəyyən edir. Ölüm və yaşam arasında qalmış insan, cəmiyyət, müharibənin universal səciyyəsi, mənəvi dincliyə ehtiyac və s. sətirlərdə öz yerini tutub. Romanın Bahadır və Sona xətti zəif işlənsə də, müəllifin ədəbiyyatda fərq

yaratmaq niyyəti mətnə hakimdir, məhz bu hakimiyyət müəllifin mətn kompozisiyasını qurmasına əngəl yaradır. Gərgin psixoloji halda olan təhkiyəçinin məntiqli cümlələri mətnin tamlığına zərər gətirir, bəzən isə müəllif və təhkiyəçinin səsi üst-üstə düşür, müəllif təhkiyəçini mətndən sıxışdırıb çıxarır.

İlin kifayət qədər fərqli mətnlərindən biri də Xanəmir Telmanoğlunun "Naməlum ailə" romanı oldu. Mövzunun mətnin forma elmentlərinin içində səpələnmiş şəkildə təqdimi, strukturun genetik kodlara dayanaraq tərtibi, nəinki kəlmələrin, rəqəmlərin belə funksionallaşdığı bu roman müəllif dilinin unikallığı və öyrəşilmişə dağıdıcı təsiri ilə seçilir. Təhkiyənin sintaktik düzümündə cümlə yazımının ənənəvi prinsipi pozulur, müəllif bilərəkdən baş və böyük hərflərdən istifadə etmir (Samuel Bekketi xatırlayaq). Mövzunun naməlumluğu mətnin hər cümləsinin, hər sətrinin, hər sözünün arasındakı incə bağları tutmaqla dağılır, aydınlığa qovuşur. Romanın mənəvi-psixoloji və müəyyən mənada fəlsəfi-intellektual sambalı dildə gerçəkləşə bilir, bu yaxşı haldır.

2018-ci ildə romanlarla yanaşı, hekayə və uzun hekayələr də yazıldı. İlin nəsrində, nəsrin bütün janrlarında maraq doğuran müəllif texnologiyaları arasında təhkiyədə assonanslığın tətbiqi, bütöv mətnin tək bir cümlə strukturunda təqdimi, cümlənin sintaktik normalarının pozulması ilə təhkiyəçi perspektivi arasındakı bağlılıq, mətn törədən detallar arasındakı bağın tipoloji müxtəlifliyi, təhkiyəçi mövqeyinin və baxış bucağının ikiləşməsi, təhkiyədə üslubi layların müxtəlifliyi, verbal fərqlilik və ya verbal monotonluq və s. saymaq olar., Sabir Rüstəmxanlı "Astar", Ab-

dullah Meyxoş "Qapısı gecə döyülən qadın", Nurəddin Əlioğlu "Yaralı qu quşları", Alpay Azər "Yazıçı və arvadı", Qafar Cəfərli "Saatın 61-ci dəqiqəsi" Kəngərli Aləm "Naməlum adam", Elçin Hüseynbəyli "Gözümə gün düşür", Vüsal Oğuz "Sonuncu sovqat", Əliyev Məmməd "Bir yay gecəsi", Ələmdar Cabbarlı "Qızıl" kimi kitablarda hekayələr, uzun hekayə və romanlarla birgə təqdim olundu. İl ərzində "Azərbaycan", "Ulduz", "Ustad", "Yazı" jurnallarında, "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Ədalət", "Kredo", "Kaspi" və s. qəzetlərdə, internet saytlarda çap olunmuş yüzlərlə hekayənin arasında yaxşıları seçmək yalnız mətn-nəzəriyyə meyarı ilə mümkün ola bilərdi. Ümumiyyətlə, yüzlərlə hekayənin nəzəri təsnifatını aparmaq, hər biri haqqında ayrıca məlumat vermək bir məruzənin həcminə sığmaz. Mətn-nəzəriyyə meyarı ilə yanaşdıqda hekayə janrının ötən ilin timsalında ortaya çıxan mənzərəsi o qədər də ürəkaçan deyil. Kütləvi ədəbiyyatın romanın elastik həcminə olan aludəçiliyi ilə yazmaqla yaza bilməmək arasındakı məsafədə qalanların hekayəni xilas yolu kimi görməsi arasında hardasa bir bənzərlik var. Halbuki, hekayə romana nisbətən müəllifdən daha çox məsuliyyət və səriştə tələb edir, desək ki, mətn qurmaq zərgər işidir, o zaman hekayə yazmaq daha incə zərgərlik qabiliyyəti ilə mümkündür. Əksər hallarda müəlliflər hekayəni xilas yolu kimi seçəndə, ona mətn kimi yanaşmırlar, xatirə-söhbət aktı kimi baxırlar, nəticədə situativ-fraqmentar hadisə hekayələri formalaşır. Brüs Holland Rocers roman, hekayə və qısa hekayə arasındakı fərqə maraqlı izah verir: "Oxucu, ədəbiyyat evini kəşf etmək üzrə otaqlarda gəzməyə və məhrəm yerləri araşdırmağa dəvət edilə bilər. Bu bir

romandır. Oxucu, evin otaqlarından birinin pəncərəsindən içəriyə baxmağa dəvət edilə bilər. Bu hekayədir. Və ya oxucudan, evdəki bir qapının açar deşiyindən, otağın yalnız bir hissəsini görəcək şəkildə diz çökərək içəriyə baxması tələb oluna bilər. Bu məhz qısa hekayədir. Bu sonuncusu, təhkiyənin ən sıxışdırılmış və ən cazibədar formasıdır". Nəql olunan məzmunun qısa xülasəsini vermək, mətnin məna yükünü dolaylı yollarla çatdırmaq, tək bir məsələyə diqqət yönəltmək, "qətiyyətli" davranmaq hekayələrin ifadə texnologiyasını təşkil edir. Söz ixtisarı, zaman/məkan perspektivlərinin silinməsi və bir vəziyyəti miniatürləşdirmə kimi aktlar da qısa hekayə strukturunun əsas ifadə texnologiyaları sırasına daxildir. Müşahidələr göstərir ki, ədəbiyyatımızda bəzi istisnaları (məs. Məlik Rzanın "Fotoşəkillər") çıxmaqla qısa hekayə o qədər də aktiv deyil.

Bəzi hekayələrdə hadisənin, bəzi hekayələrdə duyğunun nəqli aparıcıdır, çox az qisim hekayələrdə isə dəyişən dünyanın düşüncə şəkilləri mətnləşə bilir. Aqşin Yeniseyin "Toğlugötürən", Aydın Talıbzadənin "Səddam və Messi", Orxan Fikrətoğlunun "Dəccal" (əvvəlki illərdə çap olunsa da, 2018-ci ildə publikanın diqqətini çəkdi), Dilsuzun "Yaradıcılıq günü və yaxud şeirin oğurlanması", Eyyub Məmmədovun "Öz quyusunu qazan", Azər Abdulla "Şedevrin oğurlanması" və s. hekayələrində nəsrimizin çağın səsini eşitdiyini oxucu duyur və öz suallarına cavab tapa bilir. M.İsmayılzadənin "Azıxantrop" hekayəsində mövzunun işlənmə şəklində fərqlilik var, insan duyğuları mühakiməyə çəkilir, mətnləşə bilir. İlqar Fəhminin "Əbədiyyət" hekayəsi öz "nə"yi baxımından ilin monoton

mövuzlarından seçilir. Müəllifin ekspressiv pritça adlandırdığı bu hekayəsində eskpressiv qatın altında oxucuda Füzuli-Fətəli paradiqması oyana bilirsə (müəllif məqsədindən asılı olmayaraq!) deməli mətn var. Vusal Nurunun "Luvrda hadisə" hekayəsi müasirdir, təhkiyə də müasirdir, lakonikdir, cəmiyyətin öz mədəniyyətini ittihamının təzahür şəkilləri mətndə öz təsdiqini tapır. Günel Eyvazlının "Muxtar" hekayəsi maraqlı hekayələrdən biridir, amma biraz fəlsəfi yönün magik realist üslubda dərki üzdə qalır. Sadıq Elcanlının "Hamilə" hekayəsində cümlələr, sözlər model yarada bilir, məsələn "Kəndin evlərində adamlar, həyətlərində ağaclar, yamaclarında yovşanlar ağlayırdı". Günel Şamilqızının "Qəhrəman" hekayəsi informativ konseptuallıqla seçilir, mövzu ədəbiyyatın özüdür, antiqəhrəmana qarşı qəhrəman modelinin təqdimi dəyişən paradiqmalara qarşı həssas müəllif mövqeyini göstərir.

İnsan və cəmiyyət, insan və ailə, insan və insanlar hekayələrimizin əsas mövzu istiqamətlərini müəyyənləşdirir (məs. Kənan Hacının "Ən ağır Daş", Əyyub Qiyasın "Zırrama" hekayələrində ədəbiyyatın insana münasibəti var, bəzi hekayələrdə insan ədəbiyyatın mövzusu kimi deyil, sosialogiyanın, psixologiyanın mövzusu kimi təqdim edilir). İnsanın mənəvi dəyərləri, sosial kimliyi, həyat tərzi, keçmişinə və gələcəyinə münasibəti, ömrün müxtəlif yaş dövrlərindən əvvəlkilərə baxış, ölüm hadisələri, ölüm qabağı düşüncələr və s. hekayələri bir-birindən fərqləndirən deyil, əksinə bənzədən cəhətlərin yaranmasına təkan verən ortaq mövzular kimi diqqəti cəlb edir (Qərib Mehdinin "Sınmış kart", Amid Əlioğlunun "Səyahət", Zəka Vilayətoğlunun "İynə", Əlabbasın "Yolda adam", Sabir Şahtaxtlı-

nın “Qan pulu”, Nadir Qocabəylinin “Axşam kefdi”, Elçin Hüseynbəyli “Qayçı”, N.Ədiloğlunun “Xallı qurbağa”, Azər Alpayın “Məntiqli ölüm arzulayan”, Müzadil Aqilin “Televizor”, “Pay”, Adəm Asnının “Zavallı Məsud” və s. hekayələr). Əyyub Qiyasın “Sarılıq..Avtoportere” hekayəsində insan tənhalığının rənglə ifadəsi müəyyən mənada monotonluqda seçilir. Yaşar Bünyadın “Xoşbəxtlər arasında yaşamaq”, Ayxan Ayvazın “Yazıçının cəhənnəm qeydləri” hekayələrində zaman və insan mövzusunun mətnləşmək istəyi informasiyanın ötürülmə yollarında özünü gerçəkləşdirir. Absurd məzmun absurd forma tələb edəndə isə, bir qədər geri çəkilmə baş verir. Nəsrimiz cəmiyyət və sənətkar modelini tam həll edə bilmədiyimizi məzmunda sezir (İradə Aytel “Qonaq”), nəzəriyyə isə sənətkar və forma modelinin dağınıqlığını görüb aydınlaşdırmaq istəyir.

Hekayələrdə məkan və zamanın təsviri bəzən lüzumsuz səciyyə daşıyır, hekayə mətninin girişi üçün xarakterik təsvirçilik oxucunun marağının sönməsinə səbəb olur. Hekayələrin böyük bir qisminin nəzəri təsnifatı mümkün olmur, uyğun gələn ilk təsnifatda isə ortaya qəribə adlar çıxır: idarə hekayələri (hadisələrin məkanı idarələrdir), əhval-ruhiyyə hekayələri, ömür-gün hekayələri və s. Hekayələrimizin böyük əksəriyyətində təhkiyəçi birinci şəxsin təkindədir, çox halda bu hekayə mövzusunun şəxsi yaşam anları ilə bağlılığını ifşa edən məqam kimi özünü təsdiqləyir. Hekayələrimizdə təhkiyəçinin qeyri-insan olduğu hallar var, lakin modelləşmə çox zəifdir, heyvanların və ya əşyaların təhkiyəçi olduğu bu tip mətnlərdə müəllif etibarı və bədii cəsarət yox dərəcəsindədir (məs. Pərviz Seyidli “Dibçəyin intiharı”).

Bəzən hekayənin içindəki hadisə fraqmentar olsa da dərin məzmun daşıyır, lakin formaya uduzur. Formanın ifrat səliqəsi və aydınlığı hadisənin potensial gücünü ortaya çıxmağa qoymur. (Çingiz Ənvəroğlu. "Qisas gülləsi"). Meyxoş Abdullanın "Dəli Bəybala" hekayəsində dəlilik qavramının özü sorğu suala çəkilir, lakin mətnin, formanın "dəliliyi" yoxdur. Mətn o qədər səliqə və səbəb-nəticə əlaqəli yığılıb ki, dəlilik məzmundan formaya keçə bilmir.

Nəsrimizin zaman və məkan koordinatlarının sovet illərində qalması, sovet ideoloji mühitinin qalıntılarından şüurun silkinib ayrıla bilməməsi (məs., Vaqif Nəsib "Əlimərdan mərdliyi") hekayədən də yan ötmür. İnsan və tale mövzusunda yazılan hekayələrdə təsvirçilik və hadisələrə kənar baxışın yaratdığı təhkiyəçi tipi mövzunun emosional-psixoloji qatını zəiflədir, potensial enerjisini üzə çıxmağa qoymur. Hekayədəki mətləbə uzun-uzadı giriş (Vahid Məhərrəmov, "Stansiya çayçısı") mətnin "fiqurlaşmasına" əngəl yaradır. İstənilən mətnin alt qatında bir fikir yatır, hekayələrin çoxunda müəllif fikri üzdə və səthi olduğu üçün onu bədii mətn kimi oxunma və çözülmə prosesindən məhrum edir. (Z.Məmmədova. "Cehiz "Karvan" xalçası") Hekayələrdə insanların davranış pozuqluğu, madiyyat və mənəviyyat arasındakı dərin uçurumların doğurduğu situativ-fraqmentar hadisələr (Xuraman Hüseynzadə "Qatır Qulam") aparıcı yer tutur. Nəsrimiz gündəlik qayğıların içindəki səslərdən realistcə danışmağı üstün tutur (Reyhan Yusifqızı "Ağcaqanad", Rafiq Səməndər "Şahdağım, burax uşaqları" və s.)

Bəzən ədəbiyyat psixoterapevtik funksionallıqla yüklənir (Varis "İyirmi ikinci məznildə"), bu tip hekayələrdə

mətnin xronotopunun müəyyənləşməsi çətinləşir, müəllif sıxıntıya düşür, əlac adlıq və şəxssiz cümlələrin növbələşməsinə qalır, ümumi təsvir-mənzərə yaratmaqla kifayətlənir, nəticədə zamanlar arasında keçidləri müəyyən etmək üçün üç nöqtədən (...) istifadə artır. Hekayəmizin zamanı əsasən 1980-90-cı illərdir (məs, Ziyad Quluzadə. "Kilidsiz açar"), hətta zamanın hadisələri ilə birbaşa əlaqəsi olan və olmayan hekayələrin də zamanını bu illər müəyyənləşdirir. (Samirə Əşrəf "Sonuncu yayın sonatası", Vahid Məhərrəmov "Şanapipiyin gəlişi" və s.). Aydın Tağıyevin "Marafon qaçışı" hekayəsinin əsasında (1941-1945-ci illərə aid məzmun) deyə bilərik ki, hekayələrdə xatirələr, publisistik, memuar səciyyəsi çoxaldıqca, janrın özünün təyinatı da çətinləşir, çıxış yolu hekayəni "sənədli hekayə" adlandırmaqda görülür. Ümumiyyətlə, nəsrimizdə bədillik və estetikliyi sıxışdıran məqamlar çoxdur, bəzən o həddə qədər çoxalır ki, bədii mətnin nəfəsi kəsilir.

Hekayəmizə bir melanxoliya hakimdir, nostalji duyğular hekayələrin mövzu seçimini müəyyən edir, müəlliflər mövzuların özlərində oyatdığı emosional-sentimental ovqatın içində sıxışmış vəziyyətdə qalırlar, sanki oxucu onlara bir anlıq ayaq saxlayıb baxır və başını silkələyərək ötüb keçir. Əslində mətnin bütün sirri oxucuya necə ötürülə bilmə mexanizmində yatır. Hekayə eksprimentləri sevən janrdır, dəyişimə açıqdır, uzun müddətli təkrarçılıq və ənənəvilik janrın yorulması və zəifləməsi ilə nəticələnir. Hekayə mətn ola biləndə böyük və dərin düçüncənin "DNT" koduna çevrilir, müəllif-təhkiyəçinin düşüncəsinin dərinliyinin oxucuya sirayət etməsinə səbəb olur. Hekayədə metaforikliyə müdaxilə, daha doğrusu hekayə mətninin

metoforik yükünü daşıyan detal haqqında yersiz təfsilatı məlumat vermək də onun janr imkanlarını gerçəkləşdirməyə mane olur. Hekayə bətnindəki informasiyanı saf formada təqdim etməməlidir, onu müəyyən işlənmə prosesindən keçirməli, formaya salmalıdır. Ötən ilin hekayələrində müşahidə olunan bəzi eksperimentlər göstərir ki, ədəbiyyatımız özü də hekayədə təkrarçılığı sezir, dəyişmək istəyir. Məsələn, Vüsal Mirzənin assonanslığın tətbiqinə dayanan "Davud dayının düyəsi" (baxmayaraq ki, bunu ilk dəfə Zahid Sarıtorpaq, çap olunmamış "Əlifba bayramında qətl" romanında etmişdir), Mənsur Rəğbətoğlunun *cəmi 1 cümlədən, 8020 işarədən ibarət, 550-yə yaxın ayrı-ayrı sözdən ibarət,* "*ki*" *bağlayıcısından imtina edən* "*Ac qağayılar arasında*" *hekayələrini qeyd etmək olar. Müəllifin* "*Balıq gözü*" *hekayəsi də qotik-sürreal üslubun yaratdığı mətn hadisəsi kimi ilin maraqlı mətnlərindən biridir.*

Qarabağ mövzusu ilə bağlı yazılmış hekayələrdə zamanın ikiləşməsi özünü göstərir, məsələn, Qan Turalının "*DVD*", *Rüstəm Kamalın* "*Bir topa açar*"*hekayələrində olduğu kimi. Təranə Vahidin* "*Vağzaldakı qarı*", *Ayşə Nəbinin* "*Şəhid qızın istəyi*", *Narıngülün* "*Ağrı*", *Bərgüşadlı Rəşadın* "*Dağa dönən arzular*" *və s. hekayələrinə buz kimi müharibə havası hakimdir, milli təəsübkeşliklə yazılmış bütün mətnlərimizdə olduğu kimi bu hekayələrdə də müəllif mövqeyi sərt şəkildə özünü bəlli edir, müəllifin mənəvi ağrısı mətnin müstəqilləşməsinə şərait yaratmır.*

Ayxan Ayvazın "*Sarı göyərçinlər*" *hekayəsi insan-insan dialoqundan İnsan-Tanrı dialoquna keçmək cəhdləri ilə diqqət cəlb edir*. Sadıq Elcanlının avtobioqrafik səciyyəli "Tənha zirvənin təbəssümü" hekayəsi bu istiqamətdə

yazılmış hekayələr arasında xatirənin mətnləşməsini gerçəkləşdirə bildiyinə görə seçilir. Hekayəmiz hadisənin nəqlinə əsaslananda realist istiqamətdədir, duyğunun və hissin mətnləşməsinə yönələndə romantik-sentimental-sürrealist səthlər arasında gəzişir (məs, Təranə Vahidin hekayələrində), hekayə düşüncənin dəyişən paradiqmalarını sezəndə paradiqma dəyişikliyi mətnin struktur elementlərini özününküləşdirir, öz idarəsi altına alır, bəzən müəllifi mətnin tərtibində çaşdırır, onu nizam axtarmaq üçün axtarışa çıxarır. İnformasiyanın hekayə, uzun hekayə və ya romanda bədiiləşməsinin effektiv və lazımlı yolları məhz bu paradiqmaları duymaqdan, anlamaqdan, cavablandırmaqdan və oxucuya ötürə bilməkdən keçir.

İl ərzində çap olunmuş əsərlər haqqında daha çox yazmaq olar. İlin nəsrinin hansı ədəbi cərəyanlara aid olduğunu müəyyənləşdirərkən, diqqət cəlb edən əsas cəhətin artıq postmodernizmdən danışmağa ehtiyac qalmadığını görməkdir. Bu gün nəsrimizdə metamodernizm dalğası var. Metamodernizm postmodernizmi söküb dağıdan, ittiham edən, oyun quran tərzini inkar etməklə yanaşı özündə modernist və postmodernist amillərin birgəliyini əxz etdirən bir düşüncə tərzidir. İl ərzində yazılmış romanlarda, xüsusilə "Ağ göl"də metamodernizmə cavab verən məqamlar var. Bir neçə ildir ki, Azərbaycan nəsrində Quran motivləri üzərində gəzişmələr, qədim mətnlərə çıxış yolu kimi baxmaq meyli var, məhz bu metamodernizmin əlamətlərindəndir. Metamodernizm postmodern oyunu miras kimi qəbul edir, amma bu oyunu mətnin təhkiyəsində və nəqlində Mark Danilevski sayağı tərs gedişlər etməklə gerçəkləşdirir. Metamodernizm Azərbaycan nəsrində postmoder-

nizm kimi sərt şəkildə mühakimə edilməyəcək, çünki, o mənəvi dəyərlərini və keçmişinə, ənənənin davamlılığına sadiq olmağa meyilli olan Şərq düşüncəsinə uyğun gələn bir hadisədir. Metamodernizmin aktuallaşdırdığı və gündəmə gətirdiyi bədii cərəyan isə magik realizmdir.

Təxminən 2000-ci illərdən başlayaraq nəsrlə bağlı mühitdə sanki, bir partlayış gözləmək ovqatı var. Doğum tarixi 2018-ci il olan nəsr əsərlərinin Azərbaycan nəsrinin inkişafında kardinal dəyişiklik yaratdığını, yeni tendensiyalara yol açdığını, çoxdan gözlənilən nəsr hadisəsinə imza atdığını deyə bilmərik. Lakin kütləvi xarakterli nəsr əsərlərinin çoxluğuna, təsadüfi imzaların nasirlik iddialarının israrlığına baxmayaraq, işıq hiss olunur. Nəsrin inkişafı düşüncənin, idrakın, mühakimənin mahiyyətindən asılıdır, yaxşı nəsr, fəlsəfi, estetik, mənəvi, psixoloji, ictimai, tarixi amillərin birliyi ilə, dəyişən dünyaya çevik münasibətlə, mühakiməetmə qabiliyyəti, sözün işarəvi təbiətinə hakimlik, dilin imkanlarına bələdlilik, zəngin təcrübə, çoxlu mütaliə və s ilə formalaşa bilər. Bütün bunlar isə yalnız istedadın gücü, ciddi hazırlıq və müəllif orijinallığı ilə gerçəkləşə bilər.

Aynurə MUSTAFAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent

2018-Cİ İLİN DRAMATRGİYASI ÜZƏRİNDƏ DÜŞÜNƏRKƏN...

Ötən il "Azərbaycan", "Ulduz" jurnalları və "Ədəbiyyat qəzeti" Əli Əmirlinin "Gözəllik imperiyası", Aydın Talıbzadənin "Alma", İlqar Fəhminin "Şokolad market" , Firuz Mustafanın "Üç canavar", Natiq Məmmədlinin "Əmanət", "Müqəvva", Cavid Zeynallının "Tanrı quşu gəlmədi", Ülviyyə Heydərovanın "Uşaqlıq", Qan Turalının "Hərə bir qəhrəman oldu", Kənan Hacının "Xəlbir və ney", Elçinin "Böcəklər", Orxan Fikrətoğlunun "Xas igidin dastanı", Günel Eyvazlının "Pikasso" pyesləri, Sədaqət Kərimovanın "Özgə ağrısı" kitabında "Soyuq günəş" dramı təqdim olundu. 2018-ci ilin teatr premyeralarında da müasir milli dramaturgiyamıza azdan-çoxdan rast gəldik. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Əli Əmirlinin "Ah, bu uzun sevda yolu", Kamal Abdullanın "Bir, iki, bizimki" (kiçik səhnədə), Azərbaycan Dövlət Musiqili Dram Teatrı "Nuri-didə Ceyhun", Sumqayıt Dövlət Dram Teatrı Nizami Muradoğlunun "Zülmətdə nur", İrəvan Dövlət Azərbaycan Dram Teatrı Sabir Şahtaxtının "Ölüm həsrəti" pyeslərini repertuarlarına daxil etdi. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ümumiyyətlə, öz repertuarını milli müasir pyeslərlə yeniləmədi. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Xəzəryanı Ölkələrin II Beynəlxalq Teatr Festivalına Ayşad Məmmədovun "İuda" əsəri ilə qatıldı.

Ötən il Azərbaycan tamaşaçısına böyük səhnədən təqdim olunan dörd müasir milli pyesdən ikisi repressiya mövzusunda, ikisi isə yenə tarixi milli yaddaşımızla bağlı idi. Respublikamızın aparıcı teatrlarının repertuarlarına yol tapa bilən pyeslər məhz bu mövzularda yazılmasaydı, bu premyeralar baş tutacaqdımı? sualının müsbət cavabına biz şübhə ilə yanaşsaq da, yəqin ki, yenə ən dəqiq cavabı teatr rəhbərliklərindən gözləmək olar. Ancaq bu cür tamaşalar tamaşaçıda hansı təəssüratı yaradır? Sualına isə ötən ilin ressenziyalarının birindən cavab ala bildik. Respublikamızın ən mötəbər teatrının – Akademik Milli Dram Teatrının səhnəsində resenziya müəllifinin özünün sözləri ilə desək, "Azərbaycanı tanıtım video çarxına" bənzəyən tamaşalardan birinə baxdıqdan sonra Rövşən Danyeri oxucularla təəssüratını belə bölüşdü: "Bir də o tərəflərə ayaq bassam, on iki imam mənə qənim olsun!"Amma kaş ki, bu sözlərin müəllifi öz andını icməzdən əvvəl elə bu teatrdaca "Qəribə, çox qəribə əhvalat", "Sinif yoldaşları" tamaşalarına baxaydı, onda nəinki bu andı içərdi, hətta teatrın kassasından bilet alıb, çox məmnuniyyətlə yolunu bir daha burdan salardı. Biz teatra gələn hər kəsin belə and içməyəcəyinə sevinsək də, bir şeyə təəssüflənirik ki, yolumuzu teatrdan salacaq tamaşaların mətni milli deyil, xarici dramaturgiyadandır. Yalnız buna görə yox, ümumiyyətlə, son illər bu janr üzərində apardığımız müşahidələr və onlara nəsə əlavə etməyən 2018-ci ilin pyesləri bu il bizi belə bir sual üzərində düşünməyə vadar etdi: niyə biz yaxşı dram yarada bilmirik? İstedaddanmı xaliyik? Əgər istedaddan xaliyiksə, müşahidələrimə və mütəxəssislərdən də soruşub xəbər aldığıma görə, bizdə yaxşı şeir də yaranır, yaxşı nəsr

də. Ola bilməz ki, Tanrı bizi elə həmişə istedadın bir yönündən əta edib, o biri yönündən kəm yaratsın. Demək, məsələ heç də istedadımızda deyil.

Onu da deyim ki, biz sözü ilə yalnız özümüzü yox, bütün Şərqi söhbətə çəkmək istəyirəm. Başqa janrlarda deyə bilmərəm, dramda bir Şərq, Qərb bölgüsü görünür. İlk peşəkar dram, teatr sənəti Qərbdə yaranmış, minillər Şərq ondan xəbərsiz qalmış, daha doğrusu, bu janrda özünüifadəyə ehtiyac duymamışdır. Bu gün Şərq dramda yüzillik təcrübəyə malik olsa da, dram Qərbin janrı olaraq qalmaqdadır. Biz ara-sıra və bəlkə də, nadirən bu janrda yaxşı əsərlər yaratsaq da, dram bizim janr ola bilmir, biz yenə özümüzü poeziyada, uzaqbaşı isə nəsrdə ifadə edirik. Nəyə görə dram yox, məhz poeziya?

Hegel deyirdi: "Şərq dünyabaxışı dram sənətinin lazımı inkişafına əvvəlcədən yol verməmişdir". Adətimizə görə, günahı özümüzdə yox, özgəsində axtararaq Hegeli biz görüb duya bilməməkdə qınaya bilərik. Ancaq fakt budur ki, Şərq dünya ədəbiyyatına poeziya və nəsrdə çoxsaylı imzalar, əsərlər bəxş etdiyi halda, dünya dramaturgiyasına verdiyi bir dramla da öyünə bilməz.

Bir fərdin təfəkkürü yaxşı bir şeir, yaxud yaxşı bir nəsr yaratmaq üçün yetərlidir, yaxşı dram üçün isə yetərsiz. Dram fərdin təfəkkürünün deyil, toplum təfəkkürünün məhsuludur, personajlar arasında deyil, cəmiyyətdə dialoqun olduğu məqamda yaranır. Təsadüfi deyil ki, ilk mükəmməl dram yunan demokratiyası şəraitində yetişmişdi. Antik dramaturgiya yalnız Esxil, Evripid, Sofoklun deyil, həm də Qədim yunan demokratiyasının, Plavt, Terenzi, Seneka dramaturgiyası isə həm də Roma demokratiyasının

yaratdıqları idi. Eləcə də Şekspir, Molyer, İbsen dramaturgiyası inqilablar edib, respublika quruluşu, parlament idarəetməsi yaradan Qərb təfəkküründən doğmuşdu. Düşüncələrini səmalara, özünü isə ehramlar qarşısında sitayişə həsr edən, hakimiyyət çəkişmələrini seyrçi kimi izləyib, taleyinin hökmünü gah göylərdən, gah da saraylardan gözləyən müti və müdrik Şərq, təbii ki, ya gözəl şeirlər qoşacaqdı, ya da ibrətamiz hekayələr. Qədim yunan dramaturgiyası Allahları tartışmaya çəkdiyi halda, Şərq şeiri insanları allahlaşdırırdı. Kralları xalq qarşısında edama aparan Qərb gördüklərini müzakirə etmək, şahları saray qapıları arxasında qətlə yetirən Şərq isə eşitdiklərini dinləmək və inanmaq vərdişinə yiyələnmişdi. Nə zaman ki, inanmaqdan imtina edib eşitdiklərimizi müzakirə etmək istədik, onda bizdə də dram yarandı, özü də təsadüfi deyil ki, düşüncəmizin ənənəvi tərzini ilk olaraq mübahisəyə çəkib, müzakirə edən M.F.Axundzadənin yaradıcılığında. Və o da təsadüfi deyildir ki, Azərbaycan dramaturgiyasının ən yaxşı örnəkləri XIX əsrin ortaları ilə XX əsrin iyirminci illəri aralığında – ideoloji mübahisələrin, fikir mübadiləsinin, dialoq dilinin ən gücləndiyi zaman kəsiyində yarandı. Yenə təsadüfi deyil ki, dramaturgiyamızın ən yaxşı örnəkləri olan “Ölülər”, “Anamın kitabı”, “Şeyx Sənan”, “İblis”, “Aydın”, “Oqtay Eloğlu” kimi əsərlər onların müəlliflərinin yaradıcılığının sonrakı illərində – sovet dönəmində yaranmadı. Düzdür, qələm əski qələm idi, amma cəmiyyət əski cəmiyyət deyildi. O, yenə gözünü saray qapılarına dikib, taleyinə oxunacaq hökmü gözləyən qövmə çevrilmişdi və özünün mübahisə-müzakirə imkanlarını tükətmişdi. Ona görə də sovet dramaturgiyasında personajların dialo-

qu tartışan tərəflərin dili kimi deyil, müəllif monoloqunun parçaları kimi meydana çıxdı. Monoloq da dialoq deyil ki, onu dəyişmək çətin olsun, odur ki, müstəqilliyin gəlişi ilə dramaturgiyanın köhnə sakinləri belə asanlıqla özlərini yeni pafosa köklədilər.

Ümumiyyətlə, müstəqilliyin gəlişi drama nə vəd edirdi? Əslində, yaxşı dramın yaranması üçün müstəqillik, söz azadlığı yox, danışmaq üçün söz lazımdır. Doğrudur, sözdən kasad olduğumuzu demək olmaz. Bu gün qalaq-qalaq bədii əsərlər yaranır, müəlliflər hiss etdiklərini, düşündüklərini, yanaşmalarını, qənaətlərini oxucularla bölüşürlər. Dramsa müəllifin öldüyü janrdır, burda müxtəlif fərdlərin, yaxud tərəflərin maraqları, düşüncələri, yanaşmaları var, onlar öz həqiqəti uğrunda tartışmaq üçün sənətin ən demokratik müstəvisinə – drama üz tuturlar. Çünki heç bir janr dram qədər onlara öz səsini eşitdirməyə, özünü anlatmağa, özünü müdafiəyə imkan vermir. Amma hansı janrda, zamanın hansı əsrində olmağımızdan asılı olmayaraq bizdə öz mənimiz daha öndədir, bütün dünyanı öz rakursumuzdan müşahidə edir, öz düşüncəmizdən anlayır və bunları da oxucuya yansıtmağa çalışırıq. Ona görə də nə yazırıqsa yazaq, yenə də poeziya alınır. Elə buna görə də dünən olduğu kimi,bu gün yenə də bizim üçün "niyə dram yox, məhz poeziya?" sualı aktual olaraq qalır. Çünki dünəndən bu günə gələn zamanda dəyişən əsrlər başımıza çox şeylər gətirsə də, əslində, həyatımızda çox az şey dəyişib. Düzdür, dünən teatrımız yox idi, bu gün var, hətta ixtisaslı rejissorlarımız, aktyorlarımız, dram yazarlarımız da var, danışmaq üçün dərdimiz, azarımız da. Amma hər dərd-azardan dram yaratmaq olmur. Məsələn, Novruzəli-

nin "poçt qutusu" əhvalatı nə qədər maraqlı olsa da, oxucunu nə qədər mətləblərdən hali etsə də, yaxşı bir hekayənin mövzusu olmasına baxmayaraq, yaxşı bir dramın mövzusu ola bilməzdi. Novruzəlidən daha az avam olmayan "ölülərin" əhvalatı ona görə dram mövzusu oldu ki, orda Şeyx Nəsrullah Kefli İsgəndərlə toqquşdu və həmişə moizə söyləməyə alışmış bu ölü fırıldaqçısını bu dəfə dialoqa girməyə məcbur etdi. Nə qədər ki, Şeyx Nəsrullahın moizələrinin dinləyiciəri onun sonsuz qüdrətinə inanan "ölülər"dən və yaxud da inanmasa da, özünü inanmış kimi göstərən, "ölülər"ə qoşulub şeyxin hər sözünə "ləbbeyk" deyən Heydər ağa, Əliqulu bəy kimilərdən ibarətiydi, onda onları ya şeirdə, ya da nəsrdə görürdük. Bu gün isə şeir və nəsrlə yanaşı, dramda da görürük. Qərbdə teatr var, bizdə niyə olmasın, onlar dram yazır, biz niyə yazmayaq, onlar dram qəhrəmanı ola bilir, biz niyə bilməyək, "elə əsl qəhrəmanlar bizdədi", – deyib "Hərə bir qəhrəman oldu" (Qanturalı) mövzusunda dram yazırıq. Amma unuduruq ki, dram qəhrəmanı olmaq üçün həqiqi bir qəhrəmanlıq lazım olsaydı, onda Hamlet yox, gərək Rüstəm Zal ən dramatik qəhrəman olaydı. Düzdür, Hamletin "olum, yaxud ölüm?" sualı üzərində baş sındırmaqdansa, Rüstəm Zal əfsanələrinə heyran olmaq daha cəzbedicidir. Həm də biz "olum, yaxud ölüm?" sualı üzərində ona görə baş sındırmırıq ki, onsuz da "olacağa çarə yoxdur". Dramsa alnına yazılanları yaşamayanların, daha doğrusu, yaşamaq istəməyənlərin janrıdır.

Biz isə dünən olduğu kimi, bu gün də öz taleyimizi yaşayırıq və ona görə də min il əvvəl də teatr bizim üçün ayin idi, bu gün də. Əslində müasir teatrımızın ən böyük

hadisəsi olan Vaqif İbrahimoğlunun "Yuğ" teatrı layihəsinin sirri də onda idi ki, çoxları üçün boğazdan yuxarı söylənilən "ustad rejissor", "böyük rejissor" kəlmələrini hakk edən Vaqif İbrahimoğlu içimizdəkini tapa və bunu öz tamaşa-ayinlərində bizə təqdim edə bilirdi. Teatr camesi yaxşı bilir ki, Vaqif İbrahimoğlu teatra nifrət edirdi və bunu çox açıq şəkildə də söyləyirdi. Bəlkə də, onun bu nifrəti başdan-ayağa poeziya ilə yoğrulan Şərq insanını teatrın zor-güc dramatikləşdirməyə çalışmasından qaynaqlanırdı. Çünki hər şeyə, hər halına şükür edib, özünü ibadətə, itaətə həsr edən Şərq insanı məbədlərdən düşürülüb səhnəyə qaldırılınca, nə edəcəyini, nə söyləyəcəyini şaşırır. Hətta baxmayaraq ki, ona həmişə teatrın da bir məbəd olduğunu söyləyiblər, səhnəni də müqəddəs yer kimi anladıblar. Doğrusu, teatrın məbəd, səhnənin niyə müqəddəs olduğunu mən də anlayıb dərk edə bilmirəm, hətta bu fikri böyük inamla vurğulayanların söylədiklərinə qulaq verib, yazılarını ələk-vələk eləsəm də. Heç onu da bilmirəm ki, bütün dünyada teatr məbəd, səhnə müqəddəs yer hesab olunurmu? Amma harda olmasından asılı olmayaraq, şəxsən mənə aydın deyil ki, niyə məsəlçün, kino, poeziya, nəsr və daha nə bilim nələr müqəddəs deyil, məhz teatr müqəddəsdir. Ona görəmi ki, o, binadır, tikilidir və həmişə, hər yerdə müqəddəslik axtaran biz onu da ehram kimi qavrayırıq. Əlbəttə, məsələ heç də bizim onu müqəddəsləşdirməyimizdə deyil. Məsələ ondadır ki, müqəddəsləşdirməyə o qədər mübtəlayıq ki, müzakirə-mübahisədən bir o qədər uzağıq. Elə bir yerdəyik ki, sənətin ən mütləq müstəvisi olan poeziya bizi ən yaxşı anladan, ən demokratik müstəvisi olan dramsa bizi anlamayan janr olaraq qalmaqdadır.

Cavanşir YUSİFLİ
Filologiya elmləri doktoru

POEZİYA-GƏNCLƏR. GƏNCLİYİN SUALLARI

Gənclərin ədəbiyyata gəlməsi, imzalarını təsdiqləməsi, kitabların, yazıların çıxması, dərc olunması, onların bu və ya digər müsabiqələrdə, proqram və festifallarda iştirakı... hardasa görünən və vacib şeylərdir. Bu sayılan tədbirlərdən bir neçəsinin təşkili həm də gənclərin öz təşəbbüsü ilə əyaniləşən faktlardır. Demək olar ki, hər il bizim ədəbi gəncliyin nümayəndələri bu və ya digər yerli və beynəlxalq tədbirlərdə iştirak edirlər, bu fəaliyyətin nəticəsi də göz qabağında olur. Məsələn gənc şair Fərid Hüseyn keçən il müxtəlif beynəlxalq tədbirlərə qatıldı, ədəbiyyatla bağlı maraqlı çıxışlar etdi və "Kəpənək dərsi" kitabı mənim tərcüməmdə Amerikada çap edildi. Səlim Babullaoğlu və Qismət demək olar hər il bu tədbirlərin iştirakçısı olur, Yaradıcılıq Fondu, Mədəniyyət Nazirliyiu və AYB nəzdində Ədəbi Əlaqələr və Bədii Tərcümə Mərkəzinin xətti ilə jurnal, kitab və buklertlər çap edilir. Gənclərin əsərləri, həm də istedad və məsuliyyətin məhsulu olan mətnləri həm adını çəkdiyim Mərkəzin, həm də Azərbaycan Tərcümə Mərkəzinin müxtəlif dünya dillərində dərc etdikləri almanaxlarda işıq üzü görür. Ancaq ən önəmlisi şairin, yazıçının öz içində keçdiyi yoldur. Bu, ən dəqiq diaqnozdur. Mənim fikrimcə, konkret şeir, hekayə, esse... məhz həmin yolun iztirablarının ən adekvat göstəricisidir. Çünki insanlar çox çalışıb, işləyib, gecəni gündüzə qatıb bu kimi məhsulların sayını artıra da bilər, nəticədə çox önəmli xidmət-

lər də göstərə bilər, ancaq yazdığı bədii mətndə özü olmaz. Və belədə nəinki gənclikdən, heç ədəbiyyatdan danışmağın yeri qalmaz. Burda bir incə məqamı açıqlamağa ehtiyac var. Məlumdur ki, hamı ədəbiyyata ilk gəlişində, yəni mətnlərinin bizim ədəbi orqanlarda, deyək ki, "Ədəbiyyat qəzeti", "Ulduz" və "Azərbaycan" jurnallarında dərc edildiyində müəyyən dərəcədə diqqəti cəlb edir. Onun mətndən "keçirdiyi" obrazlar, detal, təşbeh, metafora.. və sair poetik element və vasitələr yeni şeirin, yeni tipli bədii mətnlərin doğacağından xəbər verir. Burda kənarın, yəni, auditoriyanın vəzifəsi tam yerinə yetirilmiş olur, yəni, o yeni şeiri biz görür və içində obrazlardan süzülən səmimiyyəti alqışlayırıq. İllər keçdikcə bu hal adiləşir, yəni adi "poetik reyestr" üzərində qərar tutur, həmin gəncin şeirlərini oxuyub daha sevinə, o şəkildə hislərimizi büruzə verib onu alqışlamağa əlimiz gəlmir. Niyə? Təkcə ona görəmi ki, bu gənc yazdıqca, obrazlarını dövriyyəyə qoşduqca hər şey adiləşir, dünən bizi təəccübləndirən şeylərə bu gün baxıb keçirik? İlk baxışdan elədir. Ancaq fikrimzicə, bu məsələdə başqa bir yön də var ki, əslində biz bunun barəsində düşünməliyik.

Haqqında danışdığımız problemin bir neçə səbəbi ola bilər. Onları nəzərdən keçirməyə çalışaq. 1) Yuxarıda qeyd etdik ki, ədəbi prosesə yenicə qatılan gəncin gerçəkliyə, dünyaya, özünə, içində burulğan kimi keçən tarixə münasibəti bir qayda olaraq onun bədii obraz və ifadə vasitələri ilə gerçəkləşir və bunlar təzə-tər, orijinal və fərqli baxış bucağından irəli gəldiyinə görə, bizi təəccübləndirir, bəzən isə yaxşı mənada susmaqdan başqa çarəmiz qalmır. Oxuduğu kitabları olsun ki, bizdən daha yaxşı anlayan, or-

dakı mahiyyətə bizdən daha dərindən varan və bütün bunları aylarla içində gəzdirən gənc ədib... öz üslubunu yarı yolda itirir, ya da tapmamış olur. Sual içindən sual doğur. Axı niyə belə olmalıdır? Qeyd edək ki, bu, yazar olmağın təbəddülatlı, keşməkeşli, əzab və iztirablarla dolu yolunun nəticəsidir. Dünən işlətdiyi obrtazlarıyla dünyanı mərtəbələrə bölən, bu bölgünün içindən sövq-təbii ən dərin həqiqətlərə işarə edən yazar vaxt keçdikcə bu təbəddülat və iztirablarla özü arasında arakəsmələr inşa etməyə başlayır. Anlayıram ki, bunları demək və üstəlik sübutuna çalışmaq çox ağırdır, qəliz olduğu qədər də insanı haqsız çıxara biləcək nüanslarla səciyyələnən bir nəsnədir. Taleyi ilə dilləşmədə "yolverilməz fəndlər" işlədən yazar o ağrı və iztirabların daha çox mexaniki ifadəsinə üstünlük verir, yəni özünün onsuz da qıt olan həyat təcrübəsini istismar edir və belədə ədəbi tale yarı yolda qalır. Təcrübənin istismar edilməsi isə şeirdə montaj effekti yaradır, başqa heç nə! Xüsusən şairlikdən söhbət gedirsə, burada tale məsələsi çox böyük önəm daşıyır. Sən nə üçün yazırsan? Missiyan nədir? Sən yazmasan da, bu poetik fiqurlar, obraz və detallar, bədii ifadə vasitələri bir başqasının qələmindən pöhrələnəcək. Ancaq sənin taleyinin sirrinə arxalanıb yazdıqlarını bir kimsə yaza bilməyəcək. Əli Kərimin gəncliyində (-!) yazdığı bir poetik parça var. Şair ailəsi ilə birgə şəhərdən kəndə gedir. Qış, qar, çovğun... Maşın hər an dayana bilər, şünki çaxta adamın əhəfini kəsir, elə avtomobilin də. Və bu baş verir. Sürücü mühərrikin işə düşməsi üçün kağız istəyir. Bu şeir, bu epiqram, bu ballada... şair nəyi vardısa verir. Birdən əlinə bir şeir keçir. Deyir, istər damarlarımda qanım donsun, vermərəm, necə ki dünya gəlib-gedə ver-

məyəcəyim, vaz keçə bilməyəcəyim şeylər var... Bu, insanın özünə verdiyi sualdır. Mənim elə bir əsərim varmı ki, yansa, yox olsa, həyatımı, səbrimi, ömrümü çəkib apara?! Başqa bir misal, sovet dönəmində misilsiz cənub şeirlərini yazan, "Ana və poçtalyon"un, bir sıra gözəl qəzəllərin müəllifi Süleyman Rüstəm daha çox, bəlkə də dayanmadan partiyalı şeirlər yazırdı. Rəsul Rza isə 60-cı illərdən üzü bəri bircə dənə də bu tipli əsər yazmadı, əksinə, ədəbiyyatın mənəvi ərazisinin genişlənməsi və dərinləşməsinə diqqət yetirdi. Onun novator gedişləri sayəsində ədəbiyyatımız çox şeylər, misilsiz, dünya durduqca yaşayacaq dəyərlər qazandı. İndi yaşı yetmişi adlamış Ramiz Rövşənin proqram səciyyəli bir şeirinin iki misrasını nümunə gətirmək istərdim:

Qızıl ola, çata bilməz,
Tapdığım itirdiyimə...

Bu dediklərimizin hamısı itirilməsi faciələrə yol açan dəyərlərdir.

İndi isə bu yolu müəyyən dərəcədə artıq keçmiş yazarlar haqqında danışaq. Onlardan biri Könül Arifdir. Onun keçən il "Ədəbiyyat qəzeti"ndə çap edilmiş şeirlərinə baxaq. Könülün şeirlərində gerçəklikdə bizim tanıdığımız düzüm yoxdu, bu struktur tam dəyişilmiş, bəlkə də bir az baş-ayaq qoyulmuş formadadı, yəni, şair bədii obraza yüklədiyi mənanı, nəfəsiylə gələn duyumları həmin "tərs" konstruksiyanın çərçivəsində həll edir. Deyək ki, dünya şeirində də belə bir təcrübə mövcuddur. Məsələn, təsəvvür edin ki, balıqlar və yosunlar dənizdə, suyun içində yox,

göylərdə olsaydı, ulduzlarsa suyun altında... Bu şeirlərdə bədii obraz necə deyərlər, yerlə göyü özünün baxış bucağının tutduğu, aldığı məqamda birləşdirir və beləliklə, dünya haqqında ənənəvi şeirdə bərkiyə-bərkiyə gələn təcrübə transformasiyaya uğrayır. Şeirin adı "Qızılgülün qayığı"dır. Diqqət edin:

Yosunları qucaqlamaq vardı qollarımda
əllərim uzanarkən boynuna.
İri-xırda balıqların üzgəcləri
ətəklərinə dəyirdi.
Üfüqdə günəşi hələ udmamışdı
Yunisin balığı.
Quru otların xışıltısı
səsində idi...

Burda bayaq dediyimiz transformasiya aydın şəkildə görünür. Yeganə incə detal, yəni gözümüzün gördüyü dünyanın yeni vəziyyətində bu çərçivəni kəsib-doğrayan yalnız quru otların xışıltısının səsin içinə köçməsidir.

Sonra:

Ot ayaqlamıram indi
ayaqlarım da böyüdü boyum kimi

Əsas mətləb, metaforanın açımı şeirin yazılma, nəfəsin dinlənilib içindıki "ot xışıltılarının" qeydə alınma prosesi qırılmadan davam edir. Bu şeirin poetikasında ən güclü olan tərəf, yəni bədii duyumu istiqamətləndirən iç komponent assosiasiyadır, Könülün üslubu həmin bir-biri-

ni doğuran, beləliklə də ortaya qəfil, insanı təəccübləndirən anımlar çıxaran assosiasiyalar üzərində yazılır.

Bu qəfil assosiativlik şeirin, bədii mətnin müxtəlif fraqmentləri, demək həm də obrazların əvvəlcədən var olduğu "hərəkət sahələrindən" görünən virtual görüntüləri arasında körpü rolunu oynayır, soruşa bilərsiniz ki, bu mətləbə "qızılgülün qayığının" nə dəxli var. Yəni, bütün təsvvür gücümüzü toplayıb bunu aşkarlamağa cəhd eləsək, şeir, şübhəsiz ki, dağılar, amma bu dəfə o "obrazlı hərəkət sahələrinə" deyil, qeyri-müəyyənliyə. Yəni, assosiativ şeirin bizim poetik təcrübəmizdəki yönü budur. Yadınıza salın Ələkbər Salahzadənin "Ney" şeirini.

Könülün bu şeirində həm assosiativlik, həm də daha çox sətirlərin, misraların arasıyla axıb keçən məna oyunu (ayaqlarını təxəyyülün gücünə yerdən üzsə də, boyunun qaranlığa çatmaması) bədii mətnin bütün toxumalarını, onları yaradan bütün duyumları bir vacib nöqtədə düyümləyir:

Yazsalar da vəsiqəmə – havanı yarmaqda
yüz yetmiş iki sm-lik izni
boyum çatmır qaranlığa...
Qopar o qara rəngi
gecədən, ana!
Zülməti tutub günləri...
Daha sonra:
Uzat əlini!
Yamadım bütün qayıqları...
Gül zoğundan qönçə düyünlənib açdığı kimi,
gül zoğundan qönçə düyünlənib açdığı kimi
gəl yenidən doğ məni!

İndi isə fikrimcə, ciddi imzalardan biri olacaq gözəl şeirlərin müəllifi Emil Rasimoğlunun şeirlərindən danışmaq istəyirəm.

Onunla aparılan müsahibələrin birində jurnalist belə bir sual ünvanlayır:

- Ədəbi gəncliyin şeirlərində imitasiya hədsiz şəkildə duyulur. Mənə elə gəlir ki, bu imitasiya elə bir-birlərini oxumaqlarından irəli gəlir. Siz necə düşünürsüz?

- Bəli, səbəblərdən biri də sənin vurğuladığın amildi… Ancaq mənə elə gəlir ki, bunun ən başlıca səbəbi kütləviləşməkdi. Bu günün ədəbi gəncliyi kütləviləşməkdədi. Kütləviləşməksə fərdi və fərqli düşünmək, görmək təfəkküründən məhrum olmağa gətirib çıxarır. Kim o kütləviləşməyi inkar edə bilirsə yaradıcılıqda özünəməxsusluğu ifadə edə bilir. Əks halda yox…

Doğrudan da, bu günün ədəbi gəncliyində artıq pis mənada oturuşmuş yaza bilməmək problemi həmin o tez bir zamanda üzə çıxmaq, tanınmaq və kütləviləşmək mərəzi ilə qoşa addımlayuır. Dalbadal nə qədər romanlar çap edildi, təqdimatlar keçirildi, baxırsan birində əla keçidlər var, o birində yaxşı qurmaq cəhdləri, amma mətni yazarkan qarşısına ciddi problemlər qoyan gənc yazıçı ən asan yerdə belə “axsayır”. Bir nasirin müşahidəsini də burda qeyd etmədən ötüşmək olmur: bəzi gənc romançıların mətnləri tərcüməyə oxşayır. Və mən əlavə edirəm, ona görə yox ki, dili bilmirlər, ona görə ki, yazmaq anlayışı onlar üçün bütün konturları ilə tam aydın deyil, yəni bir fərd kimi dili hiss edə bilərsən, ancaq yazıçının dili həm də yaradıcılıq prosesinin içindən doğulmalıdır.

Emil Rasimoğlunun şeirlərində yuxarıda xatırlatdığı-

mız assosiativlikdən çox məna oyunu var. Şeirin intonasiya və ritmi bu tədriclə, həm də kadr-kadr açılan oyun gizlinlərinin tempinə tabedir, yəni müəllifin eşitdiyi səsləri, adi yarpaq xışıltısının arxasında gizlənmiş həniri də hiss eləmiş kimi olursan. Diqqət edin:

Bütün divarları da qovacam otaqdan
və atacam sobaya ayaqyalın qaranlıqları...
Qoy göy üzünə əlim çatsın...
Qoy görünsün tənhalığın fahişə bədəni,
utansın bakirə tanrılar.
...Yoruldum külqabıda küçələri yandırmaqdan,
və yoruldum qucağımdakı gecələrə boylanmaqdan...

Şeirdə orijinal ifadələrdən çox şairin əşya və predmetlərə, dünya və zamana münasibətinin şəkli maraq doğurur, çünki həmin çox gözəl ifadə və obrazlar da məhz bu münasibətin nəticəsi olaraq meydana gəlir.

Hələ də əlim çatmır alnımı söykədiyim pəncərəyə...
Axı ayrılıqdan gözlərimiz yox, ayaqlarımız kor oldu.

Emilin başqa bir adsız şeiri də var, bu şeirdə artıq onun yaddaşına yığdığı səsli anımların (həm də səsi içində batmış məqamların – !) keçdiyi təbəddülatlar, kor bucaqlar, şairin içindəki səslərin çiliklənməsi, bunların vaxtaşırı olaraq birləşib ayrılmaları mətləbi də bir neçə müstəviyə bölür. Bir ideya ən müxtılif təəssüratalara qapı açır. Şeiri bu məqamda təhlilə çəkməkdənsə, onu tam oxumaq lazım gəlir:

Vətənə söykənən saat
və
qıpqırmızı əqrəbləri...
...Əvvəl
içində süd dişi itkin düşdü,
sonra bir evin otaqları,
sonra da özü.
...ağaclar böyüdükcə məzarlara tərəf,
uzaqlarda
bir qız qarımağı sevdi,
bir güzgü özünə tamaşa etməyi,
bir Allahsa unudulmağı...
...Hələ
kağızların məktub kimi ölməyini demirəm,
hələ
sobadakı buludların azadlığından danışmıram...
...bir tərəfdə
heykəllər qapıları döydükcə
bayraqlar quşların qanadını tanıdı,
balıqlar dilənçilərin ovcunu,
analarsa öz bədənini.
Bilirsənmi,
adam öz bədənini tanıdığı gündən başlayar qış fəsli...
...və bir gün
Vətənə söykənən saatın
qıpqırmızı əqrəbləri
bağışladı səngərlərin günahını...
...və
saatın içindən

nə süd dişi tapıldı,
nə də evin otaqları.
Bircə
özü tapıldı həmin adamın,
amma,
amma
ayaqlarına qədər...
Dedi;
Unudun gözlərinizi, bir azdan səhər açılacaq,
və
bir azdan darıxacaq göy üzünə atılmış siqaret
kötükləri...

Hədiyyə Şəfaqət yaxşı nasirdir. Onun nasir kimi gözü ara-sıra yazdığı hekayələrdə ən incə məqam və detalları tuta bilir, bunları mənalandırmaqdan vaz keçib əsas mətləbə doğru ən müxtəlif istiqamətlərdən "yollar çəkir", yəni nasir kimi nədən yazdığını, niyə belə yazdığını Hədiyyə çox yaxşı bilir. Hədiyyə indi daha çox şeirlər yazır və bu məqamda deyim, o bəlkə də yeganə şairədir ki, nəsrində poetiklik "aşıb-daşmır", şeirinin motivlərini, orda "artıq", işlənməmiş nəsnələri proza müstəvisinə köçürmür. Nəsrdə tam başqa bir fərd olur. Hədiyyənin şeirlərində əsas poetik məqam, yəni poetik sistemi bəlləyən çıxış nöqtəsi nədir?

Baxın:
Yorğun qağayıdır sükutun dili
Enməyə suyu yox,
Uçmağa göyü.
Yol çəkib yoxluğun içindən əli

Sancılıb sahilə – ağac göyərib
Göynəyi üstündə lal – düyün-düyün...

Buna da baxın:
Suların içində çəkib geriyə
Dərin nəfəsini, bir div gizlənib
Qoyub ürəyini büllur şüşəyə
Atıb,
Sinəsinin boşluq yerinə kimin canı düşsə,
can təmizlənir...

Folklordan gələn, zaman-zaman yaddaşa yığılan bütün dəyişməz bilinən şeylərin bu parçada birdən dönməsi, tədriclə dəyişib dünyanı, onun içində insanın qövr edən ağrısını bütün sifətləriylə göstərən məqamın, həm də sehr şəklində gələn anımların toqquşması bu şeirdə unikal hissetmə qabiliyyətinin cücərtisinə çevrilir.

Fərid Hüseyndən danışmaq olar. Çünki sözügedən ildə onun uğurları çox olub və ən əsası da Fəridin müxtəlif üslublarda yaza bilmək bacarığıdır, həm də bu kimi bir az riskli məsələlərdə cəsarətli olmasıdır. Onun "Yalan" şeiri şübhəsiz ki, ayrı-ayrı kitablarındakı mətnlərdən kəskin şəkildə fərqlənir. Kimsə deyə bilər ki, bu, Fəridin yolu deyil, ancaq fikrimizcə, əsas yol – müxtəlif döngələrdən özün kimi keçə bilməkdir, illər keçdikcə əvvəlki suallarına verdiyin cavablarından razı qalmamaqdır, həmişə, hər addımda yeni suallar icad etməkdir. Fərid bu unikal məqamı tuta bilmiş çox istedadlı gənc şairdir.

Bu şeir ("Yalan") bir neçə müstəvidə, yaxud onların kəsişməsində təhlil edilə bilər, həm də mətnlərarası virtual

əlaqələr kontekstində. İroniya şeirdə əvvəldən sona kimi necə deyərlər, libasını dəyişə-dəyişə gedir, əlbəttə ki, yalanın min bir sifəti görünüb yoxa çıxınca. Bu mətndə şair nələrisə qəribə bir üsulla gizlədə-gizlədə real mənzərəni bütün qatılığı və əyrilərilylə dəqiq göstərir. Büsbütün yalana çevrilmiş adamın dilində həqiqət necə görsənər:

Doğru sözləri zülmlə höccələmə,
səni rahat başa düşürlər...

Fərid əşyanı, predmeti təsvir etmir, onun məhz görünən, bilinən mənzərəsini dağıdır, məsələn:

Sözlərin isladılmış pambıqdı – çəkisi yalan.
İçəridən qırışır paltarların – ütüsü yalan...

Sözlərin isladılmış pambıq olması, paltarların içəridən qırışması... Fəridin əvvəlki mətnlərində də bəlkə var, hər halda deyim tərzi ona işarə edir, ancaq bu şeirdə həmin işarələr əlavə keyfiyyətlər qazandığından, fərqli funksional status əldə edir. Bir şairin öz yazı, deyim tərzinə bu şəkildə xəfif ironiya ilə yanaşması (həm də sövq-təbii, yəni müəllifdən asılı olmayaraq istər-istəmız meydana çıxması) mətndə qatlar yaradır.

Həm də, artıq yaddaşlarda ştamplaşmış müəyyən mətnlərdə ifadə edilən məqamlar da bu şeirdə hərdən "səssiz" şəkildə, hərdən söz, misra olaraq keçir. Pasternakın "Yol adlamaq deyil, ömür yaşamaq" deyimi mövcud ciddi statusundan sürüşür, səhnəyə bu misranı az qala ömrünün şüarına çevirmiş şəxslərin adladıqları yolların altına köçmüş ağrılar, insan taleləri vərəqlənir.

.... Bətnindən meyvə dərsən, –
uşağın yalan.
Axşamçağı darıxsan –
bürkün yalan.
Nə toxusan ilməsi qaçır –
hörgün yalan.
Peşmanlığın məşuqə yanağıdı, –
allığını tez itirən –
ənlik-kirşanın yalan.
Bu gün dilədiyini sabah qarğıyırsan –
hicranın yalan.
Yalanlarından çox yazmaq olar –
oxşar fikirləri uzadıb,
"Dəyişmə qurbanın olum, dəyişmə".
"Allah bizi sədaqətindən yaradıb".

Gənclik, əlbəttə ədəbi gənclik həmişə nə olur-olsun özü öz yolunu seçir. İmitasiyalı mətnlərlə bərabər, bizdə normal nümunələr də az deyil. Məsələ bunların nisbətiylə bağlı deyil və olmamalıdır da. Fikrimizcə, əsas məqam ədəbi gəncliyin baxış bucağının iti olmasında, vahid ədəbi proses içində müxtəlifliklər, daha çox isə yamaq yerləni görə bilməkdədir. Gənclər bu mənada daha müdrik olurlar. Və biz də buna güvənirik.

Pərvanə MƏMMƏDLİ
Filologiya üzrə fəlsəfə doktoru

CƏNUBİ AZƏRBAYCANDA ƏDƏBİ PROSES–2018

Bu gün Çənubi Azərbaycanda ədəbi prosesin bütün istiqamətlərində poetik dünya ədəbi fikrində gedən axtarışlara güclü meyil duyulur, dünya ədəbi fikrində gedən proseslər və gəlişmələr görünür.

Cənubda ədəbi prosesin milli-bədii tutumu bizdə çox zaman siyasi sərhədlər çərçivəsində baxılaraq öyrənilib araşdırılır. Bu, düzgün yanaşma deyil. Zənnimizcə, bu məsələ Şimalda, Türkiyədə, eləcə də Avropada mədəniyyət sahəsindəki yaradıçılıq təmayüllərinin konstektində araşdırılmalıdır. Cənubi Azərbaycanda ədəbi prosesdəki təmayülləri, forma-məzmun yeniliklərini izləyib təhlil etmək, izləmək bir qədər fərqlidir. Məlum siyasi məhdudiyyətlər, azsaylı nəşrlər, qəzet və dərgilər Cənubdakı ədəbi prosesin tam mənzərəsini yaratmağa imkan vermir. Bu üzdən də daha çox yazarlarla şəxsi əlaqə və məktublaşma nəticəsində əldə etdiyimiz materiallara əsaslanmaq məcburiyyətindəyik.

Adəti üzrə olduğu kimi, 2018-ci ilin nəşrləri arasında da şeir topluları üstünlük təşkil edir. Bu sıradan Kyan Xiyavın "Əncir ağacı olmaq" (Şeir toplusu), Nadir Davəranın "Özbaşına dünya", Rəsul Yunanın "Taksi", Əli Əhmədi Urmulunun "Gözü yaşlı küçələr", Yaşar Pirsultanın "Yumulu gözlərin gözəllik məzarı", Ərşad Nəzərinin "Çəkməli hava", Mirmehdi Etimadın "Şanlı Azərbaycan",

Bulud Qaraçurlu Səhəndin "Qardaş andı", Saleh Səccadinin "Danyeli" poeması, Kamil Qəhrəmanoğlunun "Ah... sənin hökumət gözlərin", Malik Rəhnimanın "Kim kimədir?", Nəsim Cəfərinin "Bənövşə oyunudur sevgi", Ümid Nəccarinin "Qaranlığın fotosu", Mahmud Qabəzərin "Peyma", Güntay Gəncalpın "Göndər yanağından bizə bir qırmızı gül", Yəqub Nikzadın "Guluşundə qəzəl bitir", Əli Firüzəgühi və Səmiə Əsədinin bir kitabda toplanmış "Urmu və Hamun gölünün qurumasına yazılmış "Urmudan Hamuna" adlı şeir kitabları və başqa bu kimi şeir topluларının adlarını çəkmək olar.

2018-ci ilin nəsr əsərlərinə gəldikdə isə Həbib Fərşbafın "Bu yerdə bəni adam", Kyan Xiyavın "Aida bulvarı" (hekayə toplusu), Rza Tağızadənin (Ozan) "Böyük nənə" , Mirmusa Haşiminin "Bir əsgərin xatirələri",Hamid Əhmədinin "Tutma tura", Rəsul Qədirinin "Ölməzlik" kimi hekayə topluları işıq üzü görüb.

Folklor Güneydə toxunulmamış zəngin xəzinədir. Şifahi xalq ədəbiyyatı örnəklərinin toplama və araşdırmalarına gəlincə, Məhəmməd Ehsanının "Ayran dibi kəndinə bır baxış", Nəsim Köhnəsalın "Min bir Azərbaycan mahnısı", Əmar Əhmədinin "Bayatın yaxşı olsun", "Təkəm və təkəmçi", "Babək" kitablarının adını çəkmək olar. Ümumilikdə, folklor sahəsində bir çox ğözəl işlər görülüb və görülməkdədir. "El bilimi" elektron dərgisi bu sırada böyük işlərə imza atmağı başarmışdır.

Uşaq ədəbiyyatı mövzusunda yazılan əsərlər də çox ümidvericidir. Məliha Əzizpur, Murtuza Məcidfər, Ramin Cahangirzadə, Xosrov Barışan, Leyla Kəhalı, və başqa gənc yazarların qələmindən çıxan və uşaq qəlbinə yol ta-

pan əsərləri çoxdur. Dr.Əfşin Əmirinin "Analara, uşaqlara" (Laylalar və nazlamalar), Murtuza Məcidfərin körpə baxça uşaqları üçün yazdığı "Bax gör kimdir, nəçidir?"

Əlirza Şəmisəxunun "Atiyatin", Ramin Cahangirzadənin "Rəqəmlər", "Dörd fəsil" kitabları uşaqlara sunulan ərmağandır .

Ədəbiyyatda həmişə ədəbi fikir mübadiləsi və tənqidçi fikrinə böyük ehtiyac duyulur. Ərşad Nəzirinin "Miyanə şeir əncüməni", Sədyar Elavoğlunun "Gəncədən gəlirəm..." (Nizamı Gəncəvinin türkcə şeirlərinin təhlili), Əfrasiyab Nurallahinin "Yolçuluq", Əsədulla Əmirinin "Türkmən Mahmud, Aşıq Rzaəli" kitabları bu boşluğu dolduran kitablardandır. İllər öncə yazılan, amma sorağına yeni düşdüyümüz dr.Səkinə Birinciyanın da tənqid sahəsində ingiliscə yazdığı kitab haqda ayrıca məlumat verəcəyik.

Biz vahid Azərbaycan ədəbiyyatından söhbət açırıq. Amma onun tərkib hissəsini, məlum səbəblərdən bizdən ayrı düşmüş Arazın o biri sahilində yaranmış Güney Azərbaycan ədəbiyyatını nə qədər tanıyırıq? Orada soydaşlarımızın yaratdığı ədəbiyyatı oxumaq istəyən zaman əlifba, bəzən də dialekt, dil (rəsmi dilin farsca olduğunu nəzərə alsaq) əngəlləri, baryerləri qarşıya çıxır.Güneydə ədəbiyyatın durumu, ədəbi proses, bu ədəbiyyatın ən gözəl nümunələrini yaradanları tanıtmaq vəzifəsini yerinə yetirməyə çalışırıq. Bu üzdən yola çıxdıq. "Ulduz" jurnalının bizə verdiyi fürsətdən yararlandıq.

"Ulduz" jurnalının 2-ci sayında Cənubi Azərbaycan ədəbiyyatının çağdaş durumu ilə bağlı çox maraqlı fikirlər oldu. Müzakirədə Berlində yaşayan güneyli mühacir şair

Nasir Merqati, şair və araşdırmaçı Hümmət Şahbazi, şair və naşir Səid Muğanlı və ədəbiyyatşünas, publisist Pərvanə Məmmədli (moderator) iştirak edirdilər.

Güney Azərbaycanda çağdaş ədəbiyyatın öncülləri Həbib Sahir və Bulud Qaraçurlu Səhənd sayılır. Bu iki ünlü şair zamanın və mühitin tələbləri ilə səsləşən əsərlər yazıb yaratdılar. Həbib Sahir Türkiyədə təhsil almışdı.Türkiyə ədəbi mühiti ilə yaxından tanış idi. Fransız dilini də yaxşı bildiyindən Fransa ədəbiyyatını orijinaldan oxuyur, Avropadakı yeni ədəbi axınları mənimsəyə bilirdi. Bu dildən çevirmələri də az deyildi. Sahir tablo kimi yaratdığı poetik təsvirlərində də bol-bol sintaksislər; zərf və sifətlərdən yararlanırdı.

Nasir Merqatiyə görə, Sahir yazdığı şeirlərində əruz və heca şeirini "sındırmağa" başladı, lakin Sahir yalnız bir neçə şeirində bunu təcrübədən keçirdi. Bu isə klassik şeirin ögey qolu olan əruzda, təkmilçilik sayıla bilərdi.

Hümmət Şahbazinin bu məsələ ilə bağlı fikrinə görə, Sahirin yeni şeiriylə şeir forma baxımından çağdaşlaşır, amma modern şeir olmayır..

Onun şeirindəki obrazlılığı, klassik şeirdə olduğu kimi "vəsf"lə irəli gedir. Sahirın "Lirik şeirlər" əsərindəki zehni təsvirlərin ardıcıllığı, oxucu nəfəsini qaraldır. Oxucunu üzür. Daha doğrusu, bu vəsflər, modern şeirin özəlliyindən sayılan imgəyə(obraz) çevrilmir. Çox zaman Sahirin zehni vəsfləri, şeiri romantizmə doğru yönəlir. Sahirdə "romantizmlə sürreal" şeirin birgə özəlliklərini görürük. O, bu iki axımı mənimməsədikdə modern şeirimizə yol açır.

Həbib Sahir və Səhənd Cənubi Azərbaycan şeirinə yeni ruh, məzmun və yeni biçim tərzi gətirdilər. Şeirlərinin

çoxunu heca vəznində yazan bu iki şair artıq köhnəlmiş "sanki duyğuların qəlibə salınıb qatılaşdırıldığı" əruz vəzninə meydan oxuyurdu. Sahir əruzu "sındırdı", Azərbaycan türk şeirinə yeni forma, biçim gətirdi. Səhənd "Kitabi-Dədə Qorqud"a müasir məzmun verib, heca vəznində "Dədəmin kitabı" əsərini yazdı. Güney Azərbaycan ədəbiyyatına yeni məzmun gətirdi, siyasi lirikanı gətirdi.

"Azərbaycan şeirində məzmun baxımından Səhəndin şeirləri Qərb şeirində olan normalara uyğun yeni bir şeirdir. Səhəndi keçmiş şeirimizdən ayıran cəhətlərdən biri də, onun fəlsəfi düşüncəsidir.O klassik qoşma qəlibinə yeni məzmun artırır. Klassik qoşmamızı çevrələyən əsas anlayışlar: lirika və bəzi əxlaqı öyüdlər idi. Ancaq Səhənd fəlsəfi düşüncəni də qoşmamıza artırdı və bu da uğurlu oldu. (H.Şahbazi). Örnək üçün o, qədim şeirimizdəki sufizmlə bağlı öz fəlsəfi düşüncəsini açıqlayır:

Ağızlara düşmüş fəna sözündə
Nə həqiqət var, nə də ki, məna
Hər bir faniliyin, mərmüz içində
Gizlənib yatmışdır, yüksək bir fəna

Həbib Sahir də, Səhənd də aşıq şeiri və danışıq dilinə yaxın bir dil ilə bəslənmiş yeni bir üslubun başlanğıcını qoya bildilər, yeni şəkil və formalar axtarışında olan yenilikçi şair kimi. Fəqət modern şair olmadılar.

Güneydə 60-cı illər nəsli əvvəlki nəsillərin yaradıcılığının məruz qaldığı çox sınaqlardan xəbərdar oldu, nəticə çıxardı. Pişəvərinin birillik demokratik hökumətinin xoşbəxt günləri uşaqlıq və gənclik dövrünə düşənlərin yaşı ar-

tıq 20-dən, 30-dan çox idi. Ədəbiyyata öncəkilərdən fərqli düşünən nəsil gəldi: Səməd Behrəngi, Qulamrza Saidi (Gövhər Murad), Əlirza Nabdil Oxtay, Mərziyə Üskiyi (Dalğa), Həbib Sahir, Səhənd və b. gəldi. Bu nəsil özlərindən sonra böyük miras qoydu.

Güneydə ədəbiyyat araşdırıcıları çox gənc və təcrübəsiz olmasına baxmayaraq, modern şeirin yaranmasını Əlirza Nabdil Oxtayın adı ilə bağlayırlar, bu fikri irəli sürənlərdən biri də Hümmət Şahbazidir. Əlirza Nabdil Oxtay Hümmət Şahbaziyə görə, Oxtay istər forma, istərsə məzmunca moderndir. Nıma Yuşıc fars, Viktor Hüqo Avropa, Həbib Sahir Azərbaycan şeirini çağdaşlaşdırdılar. Amma onlar tam modern deyildilər. Farslarda Füruq Fərruxzad, Avropada Bodler, Azərbaycanda isə Oxtay modern şeirin təməlini qoydurlar. Oxtayın şeiri, sərbəst və bağımsızdır. Onun bir çox şeirləri klassik qəliblərdə yazılıbdır. Ancaq o şeirlərdə də, onun sərbəstliyi və klassik şeirdən qırılmasını görürük. Onun şeiri toplumuzun bütün davranışlarını məniməsəyərək, əski şeirin gözəgörünməz və qeyri-real anlayışlarından yaxasını qurtarır. “Yurt”, “Gecə”, “Qurd və şəhər” kimi şeirləri buna örnəkdir.

gecənin evində əllər
uzanır bir-bir.
Sönürlər çıraqlar
sözsüz.
“Heç nəyə inanma”
təkcə də budur söz.
Gecənin döşündə yatıblar ağaclar
qabirğa təkin.

Nisgil yox, səs yox, nəfəs yox.
Ulduz da yoxdur:
gecənin ulduzu, baxın bir, yanmır
gecənin ulduzu yanmaqdan qorxur
çün ulduz olduğuna inanmır.

(Ə.Nabdil)

Əlirza Nabdil Oxtay çox gənc olmasına baxmayaraq, Güney şeirində həm forma, həm məzmunca yeniləşmə, modernləşmə apardı.

Sahir və Səhənd şeirə yenilik gətirdilər: Sahir formada, şeir biçimində; Səhənd isə yeni çağdaş məzmunlu şeirləri ilə. Sahirin şeirləri romantizmi, Səhəndinki isə siyasi motivləri ilə seçilirdi. Əlirza Nabdilə gəlincə, o, klassik şeir ənənələrindən tamamilə uzaqlaşıb, poeziyaya yeni düşüncə tərzi, məzmun və sərbəst struktur, forma gətirdi. Bugünkü dillə desək, Güneydə şeiri modernləşdirdi

Əlirza Nabdil Oxtaydan sonra və 1970-ci ilin ortalarında Cənubda şeir istər-istəməz Qərbin modern şeirinin durumlarından yararlanır. Modern şeirin özəlliklərini mənimsəyən şairlərdən Nasir Merqatı, Həmid Nitqi, Səhər, Hadı Qaraçay, Kyan Xyav, Saleh Ətayı, Həmid Şəhanqı, İsmayıl Mədədi Ülkər, Məhəmmədrza Ləvayı və Lalə Cavanşır kimi şairləri özəlliklə vurğulamaq olar.

Cənubda 1991-ci ildən etibarən həm forma, həm də məzmunca standartlaşmış klassik şeirdən yaxa qurtarmaq uçun çaba göstərildi.

Nasir Merqatinin bir fikri ilə razılaşmamaq olmur, o yazır: “Yalan xülyalara boyanan, yad toplumlar və onların rəsmi dilinin kobud basqısı altında yaşayan millətlər sıra-

sında olmuşuq. İndi isə öz dil və kimliyini tanıyıb, tanıtdıran və təsbit eləmək üçün sinə gərən millətlərin və onların yazıçılarının qarşısında təbi bir sorumluluq var. Yəni indı o millətlərin əli qələmlilərinin "Siziflərinin yekə qayanı hündür dağın başına aparası" sorumluluğu var. Bu üzdən belə ədəbiyyatlarda bir yandan ana dili öz dar çərçivəsindən çıxıb və fərdi yaradicılığa meydan aça bilmədiyinə görə toplumun içində olan istedadları maraqlandıra bilmir, yəni fərdi yaradıcılıqda istedad və bacarıqları olanlar, öz dillərində yazmağa çox da könüllü olmadan, rəsmi, ya da başqa dildə yazmağa meyillənirlər. Başqa tərəfdən isə özünü sorumlu bilib, öz dilində yazmağa çalışan fərdi ədəbiyyat, avtomatık bir darısqal toplum ədəbiyyatına sarı yönəlir. Əlbəttə kı, toplumsal bir ədəbiyyatda, daha dil və ədəbiyyat təkcə doğal və normal bir ilgi qurmaq vasitəsi kimi yox, bəlkə çox önəmli bir sorumluluq kimi "milli bilgi", "milli birləşmə" və habelə, devriməsəl bir mucadilənin bənzərsiz bir nəsnəsi kimi əməl etməyə başlayır. Bu dildə yazılan hər nə varsa, toplumsal ictimai bir dilə və əlbəttə, yalnız mübarizə dilinə çevrilir."

Hümmət Şahbazinin fikrincə, modernləşmə 70-ci (1990-cı illər) on illikdən bu yana başladı. Həmid Şəhanqinin "Zəncirdə sevda", Saleh Ətayinin "Bəlkə daha deyənmədim", Hadi Qaraçay və İsmayıl Ülkərin şeirləri, Nasir Merqatinin "Talanmış günəş" əsərləri bu dövrə aiddir. H.Şahbazi bunu da vurğulayır ki, bizim kütləvi oxuculuğumuz yoxdu. Oxucularımızın bir çoxu ədəbiyyatla məşğul olmur. Bir çoxu da "Heydərbabaya salam" kimi xalq dilində yazılan şeirləri sevir. Təbii ki, bu kimi olan oxucular "Talanmış günəş" kimi əsərlərlə maraqlanmayacaq.

Modern şeirimizlə maraqlanan oxucularımız azdır. Amma bu bizim üçün yaratmamağa bəhanə ola bilməz. Modern şeirimizdə mövzu məhdudiyyəti yoxdur. Əgər şeirimiz mələklərin, pərilərin əlindən çıxıb Yerdə məskunlaşıbsa, demək, böyük iş görülüb. Təbii ki bu, bəlkə də qaneedici olmadı. Ancaq əvvəlki yerində durmayıb, durmayacaq da".

Yeni fikirli gənc nəsil çağdaş ədəbiyyatın əsasını qoydu. Ədəbi meydana çıxan gənc şair və yazıçılar özlərindən öncəkilərdən fərqli idilər. Onların bir qismi milli ruh, milli kimliyə söykənən, digər qismi isə Qərb təmayüllü, avanqard şeir yazmağa meylləndilər. Bu əsərlərdə mövzu bolluğu, fikir sərbəstliyi, üslub çoxçeşidliliyi ilk sırada nəzəri cəlb edir.

Cənubi Azərbaycanda yaradıcı ziyalılar öz kimlyini qoruyub müdafiə etmək məcburiyyətindədirlər. Çünki mənəvi və maddi həyatları bir sürgün durumu içindədir. Çox zaman da yazarlar gənc olsalar belə, şəxsi həyatlarını, hisslərini deyil, toplumun yaşantılarını qələmə alırlar.

Modernlik harda başlayır, postmodernlik harda qurtarır, şeirlərdə bunu izləmək bəzən çətin olur. Şairlər birbaşa modernizmlə postmodernizmin özəlliklərini daşıya bilirlər. Məsələn, bunu M.Ləvayinin "Terror və azadlıq" əsərində görə bilərik.

Saleh Ətayının "Bəlkə daha deyənmədim", Lalə Cavanşirin "Ayaqaüstü tənhalıq" kitablarında və internetdə Ziba Kərbasinin şeirlərində olduqca modern şeirləri ilə qarşılaşıırıq, amma bəzi özəlliklər onları "postmodern" şairlər kimi adlandırmağa bizə haqq verir.

Həyatda hər şeyin sonu var, tək xatirələrdən başqa. İn-

san həyatı xatirələrlə zəngindir. Baş alıb gedən xatirələrsə nəhayətsizdir. Bəzən xatirələr qürbətdə belə gəlib insanı təqib edir, gecələr kabusa dönüb yuxusunu ərşə çəkir.

Mir Musa Haşimi də 40 ilə yaxındır ki, isti yuvasından, doğmalarından iraq(uzaq) düşüb qürbətdə yaşayır. İsveçdə çap olunan "Bir əsgərin xatirələri" kitabında müəllifin başına gələnlər öz dili ilə söylənilir.

"Bu kitabı doğma ana dilim – Azərbaycan türkcəsində yaza bilməməyim ən böyük kədərim idi"-yazır müəllif. Artıq kitab müəllifi arzusuna çatıb, fars dilindən çevrilən kitab işıq üzü görüb.

Onu tanınmış güneyli şair və tərcüməçi Kərim Gülləndam farscadan çevirib.

"Bir əsgərin xatirələri" hərbçinin – Atsubayın yaşadığı ölkədə haqsızlığa uğrayıb tutuqlanması, həyatda ölümdirim mücadiləsi ilə əlbəyaxa olması, Türkiyə və İsveçdə siyasi mühacir həyatı yaşayan zaman başına gələn olaylar və sonda həbs və təqiblərdən qurtulması və azadlığa çıxıb ailəsi ilə qovuşması ilə bağlı bir sənədli hekayətdir.

"Bir əsgərin xatirələri" uzun zaman dövlətə, vətənə sədaqətlə qulluq etmiş, lakin yeni hakimiyyətə gələnlər tərəfindən haqsız yerə ittiham olunub, ölkədən uzaqlaşmağı çıxış yolu kimi seçən bir hərbçinin həyat hekayəsidir.

Kitabda müxtəlif rütbəli hərbçilərin ordudakı özbaşınalıqlarından və həyatdakı sərgüzəştlərindən, şahın Amerikanın marionetinə çevrilməsindən, bütün hərb qüvvələrinin Amerika generallarına tabe olmasından, məxfi saxlanan siyasi anlaşmalardan, müəllifin ailəsinin, yaxınlarının başına gələn olaylardan, vətəni tərk etməyə məcbur olmasından və ağrılı vətən həsrətindən söz açılır.

Müəllifi əsər boyu narahat edən suallar bunlardır;

Nəyə görə milyonlarla cocuq uşaqlıq dövründən məhrumdur? Nə ücün cəmiyyətin yarısını təşkil edən qadınların cəmiyyətin inkişafında əvəzsiz rolu olduğuna baxmayaraq, hüquqlarının tapdalanmasına yol verilir? Nəyə görə bir zabit Amerika müstəşarının (meylinə rəğmən) paltosunu tutmaqdan tutmuş başqa qulluq, xidmət vasitələrinə qədər alçalmalıdır? Niyə cəmiyyət arasında ayrıseçkilik baş alıb gedir? Niyə Silahlı qüvvələr arasında batini inzibat yerinə zahirdə olan inzibat; qorxu, yaltaqlıq və yalan hakim olmalıdır? Nə üçün cəmiyyətarası monarxiyanın hakim kəsildiyindən bir çox insanlar öz kölgəsindən vahimədə olmalı?

Və hər özgür insanın ürəyinə ağrı salan başqa-başqa suallar!

20 ilə yaxın doğma diyarı tərk etməyinə baxmayaraq, M.Haşimini zindanın acı xatirələri və dəhşətli kabusları uzaq Avropa ölkəsində belə onu rahat buraxmır, hələ də ruhunu sarsıdır:

“Bu sətirləri yazdığım zaman hələ də bəzi gecələr kabusun hücumundan yuxuda bağırıb, daşlanıram və dəhşətdən tər içində boğulduğumu duyuram. Bu zaman həyat yoldaşım dadıma çatır.

Dəfələrlə psixoloq yanına gedib müalicə olunmaq istəsəm də, bu keçmiş dəhşətli hadisələrin ruhumun dərinliyinə işlədiyini və çarəsizliyimi vurğulayıblar. Zaman ötdükcə özümün onları unutmaq məcburiyyətində olduğumu söyləyiblər.

Onun, yaxınlarının və əqidə yoldaşlarının başına gələnlər casus filmlərindəki görüntüləri xatırladır:

"Hamid İstanbulun Ataköy məhləsində yaşayırdı. O, günün səhər çağı küçələr sakit və xəlvət olan vaxt ofisə gəlmək məqsədilə qəzet alıb Ataköy ilk okulu önündəki durakda avtobus yolunu gözləyirdi. Avtobus gəlincə səhər saat 9 radələrində bir şəxsi minik avtomobili kənarda dayanır. İki nəfər Hamidin üzərinə hücüm edir, Hamid qaçmağa başlayır, onlar onun ardına düşüb, yaxın məsafədən bir neçə gülləni onun başına sıxırlar. Terrorçular onun çantasını götürərək maşına minib aradan çıxırlar."

"Hürrriyət" qəzeti 19 ekim 1986-ci ildəki sayında yazırdı ki, Hamid kinodakı casuslar kimi qətlə yetirilmiş və Hamidin cansız meyidi yerdə qalmışdı. Görənlərin dediklərinə görə, onu vuran şəxslər ezamiyyət yerinə yetirildikdən sonra özlərini Sirkəçi məntəqəsində İran İslam könsulluğuna çatdırmışlar!

Kitabda müəllifin həyata baxış və fikirləri, tərcüməçinin yazı üslubu saxlanılmışdır. Bəzi insan, yer adları və məqamlar müəllifin istəyi ilə (müəyyən səbəblər üzündən) gizli verilmişdir.

Ötənil çapdan çıxmış "Əncir ağacı olmaq" şeir kitabının müəllifi "Şeir mənim üçün, içində yaşayıb öləcəyim acun kimi, qarşıt fenomenlər yatağı, çəlişkili bir anlayışdır. Sankı özündə bambaşqa bir kontrast daşıyır.Bir yandan yaşam, bir yandan da ölüm doğuran bir sənət! Fikrini söyləyən Kiyan Xiyav Avropa şeiri ilə Şərq şeirinin sintezindən yaranan bir üslübda yazan şairdir:

Ah payız küləyi a...h.
Əs özləm bağçamıza,
Əs əlçatmaz ağaclara, quşlara, insanlara.

Əs yurdumun qocaman ardıclarına,
Ardıcıl salamlar söylə yorulmadan.
Və lirik bir mahnı oxu
Tayı-oxşarı tapılmaz sevgililərə.
Söylə, mən də bir Tanrı ardınca gəlmişdim buraya
Söylə, qırx beş il Tanrı axtarışında
Gəlib bir qocaman ardıc tapmışdım
Və bilmirdim
İnsandımmı, quşdummu?
Yarı insan, yarı quş.
Yoxsa dünyanın ən böyük lirik dizgəsiydimmi?..

"Qaranlığın fotosu" kitabının müəllifi Səid Nəccari şeirdə özünəməxsus düşüncənin, eləcə də ona uyğun formanın bəlirtisini verməyi sevir. Onun şeirlərində yeni düşüncə ilə yeni biçimdə qaynayıb qarışır və klassik poeziyanın metaforaları da bir ortamda göz qabağında sərgilənir:

Səndən uzaq
gözlərinin orucunu tutmaq;
Səndən uzaq
əllərini daşdan yonub üstünə alın qoymaq,
şəklinin Kəbəsinə yeddi dəfə dolanmaq
və sən gedən yola üz tutub
sevgi rükəti qılmaq,
adını bir-bir təsbeh dənələrində çevirmək,
göz yaşlarımla dəstəmaz almaqdır peşəm,
ey sevgi peyğəmbərim!

Nasir Davəran Cənubumuzun görkəmli ziyalılarından sayılır, o şairliklə yanaşı, nasir və həm də gözəl tərcüməçidir.

2018-ci ildə onun latın əlifbası ilə "Özbaşına Dünya" adlı seçilmiş əsəri kitab şəklində işıq üzü gördü. 177 səhifədən ibarət topluya şairin müxtəlif illərdə yazdığı 156 şeri daxil edilmişdir.

Bundan öncə Nasir Davəranın Azərbaycan dilində dörd şeir məcmuəsi: "Mavi Duyğu" (1994), "Sürgün Əllərim" (2005), "Yağışda Çətirsiz gedən Kişi" (2011), "Tüstülü Dəmirlərin Anqırtısı" (2014) kitabarı işıq üzü görmüşdür.

Nasir Davəran gözəl tənqidçi və ədibdir. Bir çox şair və yazıçıların əsərlərini araşdırıb tənqid etmişdir.

Davəranın milli duyğu və yurdsevərliyi demək olar ki, çox şeirlərində öz əksini tapmışdır. Bir çox güneyli-quzeyli şairlərin qədim mədəniyət beşiyi və baştacı saydıqları Təbrizin gözəlliyinin vəsfinə N.Davəran da öz imzasını atır.

Davəran Təbrizi "Gecələri nə qədər uzun olsa belə, günəşi batmayan, dağlarının qızıl lövhələri bərəkətin, təmizliyin bəyannaməsi olan, zəngin qələmlərin ölümə sataşdığı yer, əlahəzrət sevginin bargahı və nəhayət, "Saman yolu"nun paytaxtı kimi vəsf edib təqdim edir:

Abidələrimizin xaqan sorağı.
Ovcunda göyərçin
Beynində yanıq dilimizin kərəmiləri...
Bununla belə
Çayların gücü
Ulduzların doğru dili

Kərpicinin, daşının kültürün oluşdurur...
Mən sizə Təbrizi danışıram
Dünya şəhərlərinin vətəndaşı
Almanın, qızıl gülün universitəsini.
Bura zəngin qələmlərin ölümə sataşdığı yer
Bura əlahəzrət sevginin bargahıdır.
Hörmətlə yanaş bu möhətəşəm şəhərə
Dərvazasından girəndə
Bir az ayıl, sonra gir
Bura "Saman yolu"nun paytaxtı
Bura Təbriz cənablarıdır.

Rüstəm Behrudinin Ey dar ağacı! Kimdən kəməm, kəm?//Ya səni yendirrəm, ya sənə yennəm.

//Ya da budağında yarpağa dönnəm, //Salam, Dar ağacı! Şeirindəki dar ağacı haqda Heydər Bayatın və başqa şairlərimizin özünəməxsus deyimləri və poetik fikirləri var. Nasir Davəran Təbrizlə bağlı şeirində dar ağacına üz tutub yazır:

Burda dar ağacının qiyməti var
Minlərlə günəşsoylu sərdar
Başın ucaldıb onun.

N.Davəran şeirlərində zülm və haqsızlığın qar və buz kimi bəşər həyatını dondurduğunu fəlsəfi kəlmələrlə, fikirlərlə açıqlayaraq, insanların mənəvi yoxsulluq çirkabından qurtarmalarını maariflənməkdə və aydınlaşmaqda görür. Onun "Xain" adlı şerində bu mövzu çox gözəl şəkildə qoyulur.

Yalan deyir, inanma ha
Dönəcəyəm bir daha
Ağ yelin qanadında
Arxamca nə hərcai qorxu
Nə şübhəli kölgələr
Cib telefonum özümünkü yalnız.
Qorxudan ki, dost çıxmaz
Qorxu bıçaq,
İrinli baxışlar,
Təbrizin yüz il sonrakı metrosunun
Duraqlarında zibil qoxuyan
Aralıq pişikləri,
Gəlirsənsə
Beynində çiçək gəl
Qoltuğunda kitab.

Şarin şeirində ən önəmli və gözə çarpan məsələ şeirlərin dilidir. Onun şeirləri çox səlis və təmiz Azərbaycan dilində yazılmışdır.

Səkinə Birincian Amerikada Azərbaycan ədəbiyyatını təbliğ edən və bu sahədə həmin ölkədə elmi işini müdafiə etmiş ilk azərbaycanlı alimdir. Ömrünün çox hissəsini vətəndən çox uzaqlarda yaşayıb, yaratmış Səkinə Birincianın tərcümeyi-halına yalnız Nyo-Yorkda çap olunmuş ensiklopediyada rast gəldim.

Səkinə Birincian 1965-ci ildə Kolumbiya Universitetində fəlsəfə üzrə doktorluq dissertasiyası "Poets and Writers from Iranian Azerbaijan in the Twentieth Century" (XX əsr İran Azərbaycanı şair və yazıçıları") adlanırdı.

Səkinə Birincian Təbrizdə doğulub. Onun Berlində

çap olunmuş "XX əsr İran Azərbaycanı şair və yazıçılarının azəri və fars dillərində ədəbi əsərləri" kitabı 238 səhifəni çevrələyir. Kitab giriş və altı fəsildən ibarətdir. Kitab ingiliscə yazılsa da, Azərbaycanca qismən də farsca örnəklərə də yer verilir. Adından da göründüyü kimi əsər XX əsrin ədəbi prosesi ilə bağlıdır. Lakin müəllif əsərdə tək XX yüzilliklə kifayətlənmir. Kitabda ədəbiyyatımız klassik dövrdən üzü bu yana tarixi mərhələlərlə izlənilib, təhlil olunur.

Onun dissertasiyasının adı isə kitabdakından bir az fərqlidir. Yəni dissertasiyada İranda yazıb-yaradan Azərbaycan şairlərinin adı və yaradıcılığı vurğulanır. "XX əsr İran Azərbaycanı şair və yazıçılarının azəri və fars dillərində ədəbi əsərləri" adlandırılmış kitabını ölümündən 6 il sonra dostları çap etdirmişdi. Əsərdə ən maraqlı cəhət odur ki, Arazın hər iki sahilində yaranmış ədəbiyyat bütöv götürülür.

Lakin müəllif bu sistemli yanaşmanı 1920-ci ilə qədər davam etdirir.O,1920-ci illərdən sonrakı Sovet Azərbaycanı ədəbiyyatını hakim ideologiyanın təsiri altına düşməsini yaxşı qarşılamır və bu illərdən sonra yaranan ədəbiyyat arxa plana keçirilir. Bəzən də bu ədəbiyyata istehza ilə yanaşır.

Özəlliklə də 40-cı illərdə dərgi və kitablarda təsir altında yaranan ədəbiyyatda sosialist ideyalarının, sovet həyat tərzinin təbliğ edilməsinə mənfi münasibətini bildirir. Elmi işdə Qırmızı Ordunun İrana girməsi və özləri ilə sovet ideologiyasını gətirməsi "vəsf" ədəbiyyatı adlandırılır.

Onun adına ilk dəfə Tehranda Cavad Heyətin nəşr elədiyi "Varlıq" dərgisində rast gəlmişdim. Yazılardan birin-

də Abasəli Cavadi adlı müəllif Səkinə Birincianın Berlində ingilis dilində çap olunmuş "XX əsr İran Azərbaycanı şair və yazıçılarının azəri və fars dillərində ədəbi əsərləri" kitabı haqqında qısaca bilgi verirdi. Güney Azərbaycanda "Kim kimdir?" sorğu toplusunun bənzər ekvivalenti olan Salamullah Cavidin çox yaygın "Dostlar görüşü" kitabında Səkinə xanım haqda yazılanları olduğu kimi təqdim edirəm: "Görüşlərin birində dr. Katibi vasitəsilə məlum oldu ki, Kanadadan Səkinə Birincian adlı bir Azərbaycan qızı gəlmiş, elmi tezisi üçün ingiliscə Azərbaycan ədəbiyyatından yazmaq istəyir. Fikri də planlaşdırdığı kitab üçün material toplamaqdır. Sonralar xanm Birincian ilə təkrar görüşüb istədiyi məlumatı verdik. Ciddiyyəti ilə seçilən o Azərbaycan qızı Kanadada kitabın çapına müvəffəq oldı. Amma təəssüf ki,vaxtsız əcəl onun həyatına son qoydu."

Salamullah Cavidin təbirilə desək, "ciddiyyəti ilə seçilən Kanadadakı o Azərbaycan qızı" məndə böyük qürur və maraq oyatdı. Onunla bağlı materiallar aramağa başladım.

Bir qədər axtardıqdan sonra Almaniyanın Martin Lüter Universitetinin internet (online) kitabxanasında onun yazdığı kitabın izinə düşdüm. Səkinə xanım Birincianın 1988- ci ildə Berlində çap olunmuş "Azeri and Persian Literary works in the Twentieth Century Iranian Azerbaijan"("XX əsr İran Azərbaycanı şair və yazıçılarının azəri və fars dillərində ədəbi əsərləri")kitabının üz qabığı və kitabın müəyyən səhifələri ilə tanışlıq imkanım oldu.

Səkinə Birincian Təbrizdə doğulub. Onun Berlində çap olunmuş "XX əsr İran Azərbaycanı şair və yazıçılarının azəri və fars dillərində ədəbi əsərləri" kitabı 238 səhi-

fəni çevrələyir. Kİtab giriş və altı fəsildən ibarətdir.Kitab ingiliscə yazılsa da, Azərbaycan, qismən də farsca örnəklərə də yer verilir. Adından da göründüyü kimi, əsər XX əsrin ədəbi prosesi ilə bağlıdır. Lakin müəlif əsərdə tək XX yüzilliklə kifayətlənmir. Kitabda klassik dövrdən üzü bu yana ədəbiyyatımız tarixi mərhələlərlə izlənilib, təhlil olunur...

Özəlliklə də 1940-cı illərdə dərgi və kitablarda təsir altında yaranan ədəbiyyatda socialist ideyalarının, sovet həyat tərzinin təbliğ edilməsinə mənfi münasibətini bildirir. Elmi işdə Qırmızı Ordunun İrana girməsini və özləri ilə sovet ideologiyasını gətirməsi "vəsf" ədəbiyyatı adlandırılır.

Müəllif Güney Azərbaycanı müstəqil məkan kimi götürmüş, orada yaranan ədəbiyyatın həm Azərbaycan, həm də farsca örnəklərini araşdırmaya cəlb etmişdir.

Xanım Birincianın Güney Azərbaycan yazarlarının ədəbiyyatda tutduğu mövqe ilə bağlı fikri də çox düşündürücüdür. O yazır: " Məlum olduğu kimi, fars şerinin görkəmli siması sayılan Pərvin Etisami Təbrizdə anadan olub, Tehranda yaşayıb, azərbaycanlı olsa da, şeirlərini farsca yazıb. Eləcə də fars şeirində yenilik yaradan Mirzə Tağı Rüfət Təbrizi bu sıradadır. Şəhriyar həm fars, həm də türkcə, M.Ə.Möcüz isə yalnız Azərbaycan türkcəsində yazıb yaradıb". Sonra müəllif ortalığa belə bir sual atır: onlara hansı mövqedən yanaşmalı? Şimali Azərbaycanda çap olunan əsərlərin çoxunda Güney Azərbaycan yazıçılarının və şairlərinin İran ədəbiyyatı ilə təbii və sıx əlaqələri süni surətdə danılır, onlara sırf Azərbaycan ab-havası verilir. İranda nəşr olunan farsdilli əsərlərdə isə, əksinə, bu yazıçı

və şairlərdəki Azərbaycan-türk möhürünü inkar etməyə, görməməyə çalışırlar. Tədqiqatçının fikrincə, bu, siyasi və əksərən nəticəsi olmayan bir bəhsdir. Doğrusu budur ki, Güney Azərbaycan ədəbiyyatını necə varsa, eləcə elmi şəkildə işıqlandırmaq, onun müxtəlif mərhələlərini, xüsusiyyətlərini, təmayüllərini, şəkil və mövzularını və ən görkəmli nümayəndələrini göstərmək, müvafiq əsərlərin hansı dildə yaradıldığını və hansı dil və ədəbiyyatdan nə qədər bəhrələndiyini müzakirə etmək bəhs mövzusu ola bilər.

Tənqidçinin fikrinə görə, ədəbiyyat ictimai-siyasi hadisələrdən təcrid oluna bilmədiyi kimi Güney Azərbaycanda ədəbi-tənqidi mülahizələr də daim ictimai-siyasi, tarixi mülahizələrlə qovuşuq şəkildə təzahür etmişir.

S.Birincian çağdaş dövrdə ənənəvi qəzəl və onun romantikaya meyilli yeni psevdo-müasir formalarını yaradan şairlərin üstünlük təşkil etdiyini, Sabirsayağı üslubda satira yazanların ikinci və nəhayət, Pişəvəri dövründə kölgədə qalmış dini mövzuların sonralarsa rəvac tapdığı ədəbiyyatın üçüncü sırada olduğunu qeyd edir.

Səkinə xanım Türkiyədə ali təhsil alan və İranda Azərbaycan türkcəsinin formalaşıb çiçəklənməsinə əsərləri ilə xidmət göstərən Həbib Sahiri geniş araşdırmaya cəlb edir. Yazır ki, Sahir XX əsrin yeganə şairidir ki, Sərraf və Hidəci kimi şairlərin yararlandığı ənənəvi ifadə tərzlərindən fərqli yeni poetik sistemi yarada bilmişdir. Əsasən heca vəznində yazan, xalq dilinin gözəlliyini, müdrikliyini şeirlərinə gətirən Sahirin özünün də qeyd etdiyi kimi, Səməd Vurğunun yaradıcılığından bəhrələndiyi şübhəsizdir.

Kitab bu gün də aktuallığını saxlayır, onun dəyəri problemə yeni yanaşma və zəngin faktlarla bol olmasında-

dır. O, bu gün də ingilisdilli araşdırıcıların ən çox müraciət və istinad etdiyi kitablardan sayılır.

"Hoover kitabxanasında İranda işlənən dillərin transliterasiya sistemi ilə bağlı qeydlər" məqaləsində Səkinə Birincian Kaliforniyadakı Stanford Universitetinin Hoover kitabxanasında saxlanılan əlyazmalarla bağlı bir məsələyə aydınlıq gətirir . Belə ki, İranla bağlı kitabları nəzərdən keçirən Səkinə Birincian orada yanlışlığa yol verildiyini nəzərə çatdırır. Ərəbcə və farsca kitabların təsnifatına nəzarət edən misirli dr. Məhəmməd Kalafiyə ərəb əlifbası ilə yazılan, lakin dili türkcə olan kitabların təsnifinin də gərəkliyini bildirir. Bu səbəbdən bir rəsmi yazılı papor (rəy) hazırlamalı olub, mətbuatda yayır.

Məqalədə eləcə də İrandakı farsların və türklərin yazıda ərəb əlifbasından yararlanmasından, türk, eləcə də fars dilindəki bəzi hərflərin ərəb dilində olmadığını və bunu xüsusi işarələrlə vermək lazım gəldiyini vurğulayır. Bununla bağlı örnəklər də gətirir. Bu məqalə isə tədqiqatçının yüksək vətəndaşlıq mövqeyindən xəbər verir

Səkinə Birincianın Amerika və Kanadada ilk azərbaycanlı tədiqatçı kimi yaşayıb-yaratması, məqalə və kitablar nəşr etməsi qürurvericidir. Xarici kitabxanalarda saxlanılan və ingilisdilli araşdırıcıların Azərbaycan ədəbiyyatı ilə bağlı stolüstü kitabına çevrilən həyatdan erkən getmiş Azərbaycan tədqiqatçısının irsinin öyrənilməsinə diqqət və əsərlərinin əldə olunub dilimizə çevirilməsi ədəbiyyatımız üçün çox faydalı olardı.

Bu gün nəsr və təbliğ imkanlarının məhdudluğuna baxmayaraq, Cənubdakı ədəbi fikrin mənzərəsi çox rəngarəngdir, mövcud ədəbi prosesin dil, sənətkarlıq baxımın-

dan problemləri olsa da, ədəbiyyat milli varlığını təsdiq etdirir. Bu imkanlar və təcrübələr, cənublu yazarlara artıq ədəbiyyatın darısqal çərçivəsindən çıxmağa təşviq edir. Artıq Cənubda çoxsaylı olmasa da, yaxşı qəbul oluna biləcək bir ədəbiyyat yaranmağa başlayıb. Belə bir ədəbiyyatın yaranması bunu da göstərir kı, ədəbiyyat dar çərçivədən çıxmaqla böyük addımlar atmağa yönlüdür. Qətiyyətlə demək olar ki, yavaş-yavaş gəlişməyə başlayan Cənub ədəbiyyatı öz təbii prosesinə varmaqda və dünya ədəbiyyatının yeni meyillərinə qovuşmaq üçün axtarışlarını davam etdirməkdədir.

Rasim QURBANOV (NƏBİOĞLU)
Filologiya üzrə fəlsəfə doktoru, dosent

2018-Cİ İLİN ƏDƏBİ YEKUNU (NƏZƏRİYYƏ)

Fikrimizcə, keçən ilin çap məhsulları arasında ədəbiyyat nəzəriyyəsinə aid edilə bilən materiallar xüsusi yer tutur. Buraya ayrı-ayrı məqalələr, müxtəlif nəşrlərdəki ön söz və girişlər, habelə başlıca olaraq aşağıdakı monoqrafiya, məqalələr məcmuəsi və kitablar daxildir:

1) İsa Həbibbəyli. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Azərbaycan ədəbiyyatı tarixi. On cilddə, I c. Şifahi xalq ədəbiyyatı. Akad. İsa Həbibbəylinin ümumi redaktəsi ilə çapa hazırlanıb. Bakı, "Elm", 2018, 1072 s. (səh. 5-224)

2) Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri: 2 cilddə, I cild. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018, 360 səh.

3) Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri: 2 cilddə, II cild. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018, 400 səh.

4) Yaşar Qarayevin elmi irsinin nəzəri dərki. Bakı, "XAN" nəşriyyatı, 2018, 92 səh.

5) Məmməd Əliyev. Böyük yolun davamı (Türk xalqları ədəbiyyatına dair araşdırmalar) I kitab. Bakı, "Elm və təhsil", 2018, 510 s.

6) Məmməd Əliyev. Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi (Elmi redaktor: professor Rahid Xəlilov). Bakı, "Elm və təhsil", 2018, 168 səh.

7) Məmməd Əliyev. Məhtimqulu Fəraqi şeirinin poetikası. (Elmi redaktoru və ön sözün müəllifi: akademik İsa Həbibbəyli). Bakı, "Elm və təhsil", 2018, 118 s.

8) Qəzənfər Paşayev. Seçilmiş əsərləri. VIII cild. Bakı, "Təhsil", 2018, 480 səh.

9) Qəzənfər Paşayev. Seçilmiş əsərləri. IX cild. Bakı, "Təhsil", 2018, 480 səh.

8) Qəzənfər Paşayev. Seçilmiş əsərləri. X cild. Bakı, "Təhsil", 2018, 432 səh.

9) Kamran Əliyev. Romantizmin nəzəriyyəsi. (Əsərləri, 10 cilddə, I cild). Bakı, "Elm və təhsil", 2018, 360 səh.

10) Kamran Əliyev. Romantizmin poetikası (Əsərləri, 10 cilddə, II cild). Bakı, "Elm və təhsil", 2018, 312 səh.

11) Kamran Əliyev. Hüseyn Cavid. (Əsərləri, 10 cilddə, III cild). Bakı, "Elm və təhsil", 2018, 456 səh.

12) Kamran Əliyev. Klassiklər, müasirlər. (Əsərləri, 10 cilddə, IV cild). Bakı, "Elm və təhsil", 2018, 376 səh.

13) Kamran Əliyev. Ədəbiyyatşünaslıq, ədəbi tənqid. (Əsərləri, 10 cilddə, V cild). Bakı, "Elm və təhsil", 2018, 556 səh.

14) Poetika.izm (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), № 4. Bakı, "Elm və təhsil", 2018, 214 səh.

15) XX əsr ədəbi düşüncələr tarixi *(xatirələr, manifestlər, konsepsiyalar).* Tərtib və tərcümə edəni, ön söz, şərhlər və qeydlərin müəllifi: Asif Hacılı; Redaktor: *dos.* Ülviyyə Rəhimova; Rəyçilər: *prof.* Qorxmaz Quliyev, *prof.* Şirindil Alışanov. Bakı, Azərbaycan Universiteti, 2018, 340 səh.

16) Məhərrəm Qasımlı, Mahmud Allahmanlı. Aşıq

şeirinin poetik biçimləri və çeşidləri. Bakı, “Elm və təhsil”, 2018, 220 səh.

17) Lalə Həsənova. Çağdaş ədəbi paradiqma: icmallar, məqalələr, düşüncələr. Elmi redaktor: Tehran Əlişanoğlu (Mustafayev), AMEA-nın müxbir üzvü. Rəyçilər: Nərgiz Cabbarlı (Abdullayeva), fil.f.d., Elnarə Qaragözova, fil.f.d. Bakı, “Avropa” nəşriyyatı, 2018, 274 səh.

18) Zəkulla Bayramlı. Füzuli... və ... Elmi redaktor: Fəridə Əzizova, fil.e.d., dos. Rəyçilər: Məhərrəm Qasımlı, resp. əmək. elm xadimi, Dövlət mükafatı laureatı, Ataəmi Mirzəyev, fil.e.d. Bakı, “Elm və təhsil”, 2018, 328 səh.

19) Salidə Şərifova. Klassiklər və müasirlər söz müstəvisində. Rəyçilər: Tehran Əlişanoğlu, Məhərrəm Qasımlı. Bakı, “Elm və təhsil”, 2018, 568 səh.

20) Ruhəngiz Əliyeva. XX əsrin ikinci yarısı Azərbaycan uşaq ədəbiyyatında epik folklor ənənələri. Elmi redaktorlar: M.Qasımlı, F.Əzizova. Rəyçilər: Aygün Bağırova, Aynur Xəlilova. Bakı, 2018, 172 səh.

21) Mahirə Quliyeva. Yazdım ki izim qalsın... (Mir Cəlal Paşayevin yaradıcılıq gününə kiçik hədiyyə). Azərbaycan və rus dillərində. Redaktor: Şirindil Alışanlı. Bakı, “Elm və təhsil”, 2018, 104 səh.

22) Vaqif Yusifli. Azərbaycan qəzəli. Məsul redaktor: Ülkər Hüseynova. Rəyçilər: Fəridə Əzizova və Ataəmi Mirzəyev (İ.Həbibbəyli. Tənqidçilikdə nəzəriyyə amili – Ön söz, s.3-6) – Azərbaycan qəzəli (s.7-90) Qəzəllərdən seçmələr (s.91-152). Bakı, “Elm və təhsil”, 2018, 154 səh.

23) Elnarə Qaragözova. XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipin yeni formaları (monoqrafiya). Elmi redaktor: Rəhilə Qeybullayeva. Rəyçilər: T.Əlişa-

noğlu (Mustafayev), Maral Rafiq qızı Yaqubova. Bakı, "Mütərcim", 2018, 144 səh.

24) Filologiya elmləri doktoru, professor M.Mustafayev keçən il üç məqalə çap etdirmişdir: M.F.Axundovun ədəbi-tənqidi görüşləri. "Dil və ədəbiyyat" beynəlxalq elmi-nəzəri jurnal, 2018, № 3, s.236-240; Milli professional tənqidin yaranması. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 6/2018, s.98-101; Müasir ədəbi tənqidin meyar axtarışları və metodoloji əsasları. "Dil və ədəbiyyat" beynəlxalq elmi-nəzəri jurnal, 2018, s.369-371.

***

İndi həmin ön söz, məqalə, monoqrafiya və kitablara ötəri olsa da, bir nəzər salaq.

Akademik İsa Həbibbəylinin yeni oncildlik "Azərbaycan ədəbiyyatı tarixi" fundamental kitabının birinci cildinə yazdığı müqəddimədə oxuyuruq: "Azərbaycan ədəbiyyatı – uzun bir dövr ərzində Azərbaycan xalqının bədii dühasının yaratdığı çoxəsrlik və zəngin ədəbiyyatdır. Azərbaycan xalqının milli-mənəvi dəyərləri, adət-ənənəsi, mənəviyyatı, mübarizəsi və idealları bu ədəbiyyatın ana xəttini, əsas qayəsini təşkil edir. Bu – böyük ənənələri olan, Azərbaycan xalqının milli varlığını əks etdirən və onu dünyaya təqdim edən ədəbiyyatdır. Bu – Azərbaycan xalqının milli özünəməxsusluğunun ədəbi kimliyidir. Bu – ümummilli idealları əsrdən-əsrə yaşadan və inkişaf etdirən böyük ədəbiyyatdır. Bu – Azərbaycançılıq idealının ədəbi manifestidir!" (s.5)

Akademikin geniş, əhatəli elmi-nəzəri müqəddiməsi

aşağıdakı bölmələrdən ibarətdir:

1. Giriş (s.5-9);

2. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi üzrə axtarışlar (s.9-24);

3. Ədəbiyyat tarixçiliyində yeni mərhələ (s.24-36);

4. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatına doğru (s.36-54);

5. Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi zərurəti (s.54-62);

6. Azərbaycançılıq konsepsiyası (s.58-62) (İ.Həbibbəyli. Azərbaycançılıq ideologiyası konsepsiyası. //AMEA-nın "Xəbərlər" jurnalı (Humanitar elmlər seriyası). – Bakı, 2015, №3, s.3-6. P.S. Sonradan işlənilib təkmilləşdirilmiş və "Azərbaycan ədəbiyyatı" bölməsi yazılıb 2018-ci ildə əlavə olunmuşdur);

7. Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələləri (s.68-222);

8. Nəticə (s.222-224).

Akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələlərini belə müəyyənləşdirib:

1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan-eposadək (ən qədim dövrlərdən VII əsrə qədər).

2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər).

3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər).

4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər).

5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər).

6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr).

7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək).

8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər).

9. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-ci illər).

10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən).

Akademik İsa Həbibbəylinin 2015-2018-ci illər ərzində nəzəri-estetik axtarış, düşüncə, təhlil və araşdırmalarının yekunu olaraq ortaya qoyduğu bu tədqiqat adi bir müqəddimədən daha artıq müstəqil bir monoqrafiyadır və fikrimizcə, onun ayrıca nəşri ədəbi-elmi ictimaiyyət üçün zəruridir.

Milli ədəbiyyat tariximizin əvvəlki nəşrinin birinci cildində göstərilir ki: "XX əsrin sonlarından Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun divarları arasında hazırlanan bu altıcildlik (indi yeddicildlik – R.N.) "Azərbaycan ədəbiyyatı tarixi" özündən əvvəlki akademik üslubda yazılmış ədəbiyyat tarixlərinin – ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (1943-1944), üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1957-1960) və ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin (1967) mənəvi-yaradıcılıq xələfidir. (Bakı, "Elm", I c.)

İndi iftixarla deyə bilərik ki, bu oncildlik tamamilə yeni bir hadisədir.

İki cilddən ibarət "Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri" kitabının birinci cildində problemə müasir baxış, ədəbiyyatın araşdırılmasındakı nəzəri dinamika, ədəbi cərəyanlar və onların Azərbaycan ədəbiyyatında təzahür xüsusiyyətləri, müasir dünyada geniş şəkildə müraciət edilən stereotip-arxetip-prototip nəzəriyyəsi əhatə olunmuşdur.

İkicildliyin birinci cildi aşağıdakı hissələrdən ibarətdir: Ön söz. Ədəbiyyat nəzəriyyəsinə giriş (İsa Həbibbəyli); I fəsil. Ədəbiyyat nəzəriyyəsi: problemə müasir baxış; Ədəbiyyatın tərifi (İsa Həbibbəyli); Ədəbiyyat nəzəriyyəsi yollarında (İsa Həbibbəyli); Müstəqilliyin nəzəriyyəsi, nəzəriyyənin müstəqilliyi (Tahirə Məmməd); II fəsil. Ədəbiyyat araşdırmaları tarixi və ənənənin dinamikası; Ədəbiyyat araşdırmaları tarixi: Liberal Arts, filologiya, ədəbiyyat (Rəhilə Qeybullayeva); Antik dövrdə ədəbi-nəzəri fikir (Pərvanə İsayeva); Orta əsrlər və intibah dövrü ədəbi-nəzəri fikri (Pərvanə İsayeva); III fəsil. Ədəbi cərəyanlar; Klassisizmin nəzəri-estetik prinsipləri və əsas təmsilçiləri (Pərvanə İsayeva); Romantizm cərəyanının təşəkkülü və inkişafı (Tahirə Məmməd); Sentimentalizmin nəzəri-estetik prinsipləri və Azərbaycan ədəbiyyatı (Tahirə Məmməd); Simvolizmin tipoloji xüsusiyyətləri və Azərbaycan ədəbiyyatı (Tahirə Məmməd); Realizmin tipoloji xüsusiyyətləri və Azərbaycan ədəbiyyatında inkişaf mərhələləri (Tahirə Məmməd); Erkən realizm konsepsiyası və tətbiqi problemləri (Tahirə Məmməd); Maarifçilik və onun XX əsr Azərbaycan ədəbiyyatında təzahür xüsusiyyətləri (Tahirə Məmməd); Formalizmin nəzəri-estetik prinsipləri və əsas təmsilçiləri (Pərvanə İsayeva); Modernizmin tə-

şəkkülü və inkişafı (Pərvanə İsayeva); Postmodernizmin tipoloji xüsusiyyətləri və Azərbaycan ədəbiyyatı (Pərvanə İsayeva); IV fəsil. Stereotip-arxetip-prototiplər nəzəriyyəsi; Arxetiplər, izomorfizm nəzəriyyəsi, ədəbiyyatda izosemantik vahidlərin tipologiyası (Rəhilə Qeybullayeva); Prototip nəzəriyyəsi və ya terminlər mədəniyyətlər kəsişməsində: tərcümə və ya bioqrafiya marşrutları (Rəhilə Qeybullayeva); Bədii tərcümə: arxetip-adaptasiya-plagiat (Rəhilə Qeybullayeva); Texnologiyalar və ədəbiyyat, konvergensiya mədəniyyəti və arxetip (Rəhilə Qeybullayeva); Tarixi janr ənənəvi və yeni kontekstdə (Rəhilə Qeybullayeva).

Ədəbiyyat nəzəriyyəsi – ədəbiyyatşünaslıq elminin açarıdır. Ədəbi-nəzəri fikrin inkişafına nail olmadan geniş mənada ədəbiyyatşünaslığın elm səviyyəsində yeniləşdirilməsini təmin etmək çətindir. Bütün bunlara görə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Ədəbiyyat nəzəriyyəsi üzrə "Poetika.izm" jurnalının təsis edilməsi mühüm hadisədir.

Mətnin və komponentlərinin strukturu, ifadə texnologiyası da nəzəriyyə araşdırmalarının predmeti kimi diqqət mərkəzindədir. Bu sahədə Maral Yaqubovanın araşdırmaları maraq doğurur.

Qərb nəzəriyyə texnologiyalarının əksər araşdırmalarda geniş planda tətbiqi ilə yanaşı, haqqında tədqiqat və tərcümə vasitəsilə məlumat verilməsi də son illərdə nəzəriyyədə artmışdır. Qorxmaz Quliyev, Rəhilə Qeybullayeva və Cavanşir Yusiflinin bu yöndə əhəmiyyətli xidmətləri vardır.

Sovet dövründə adı və formalaşdırdığı təhlil metodları

kənarda qalan və ya postsovet mərhələsinin hadisəsi olan bir çox nəzəriyyəçilərə istinad müstəqillik dövründən başladı. Psixoanalitik təhlillə bağlı Ziqmund Freyd, arxetiplər nəzəriyyəsinə görə Yunq, struktur-semiotik araşdırmalarda Klod Levi-Stross, R.Bart, J.Jenet, A.Qreymas, T.Manro, M.Fuko, ədəbiyyat və ideologiya problemində T.Eqliton, feminist ədəbiyyat məsələsində Meggi Humm, M.Eqliton, bədii mətnin koqnitiv öyrənilməsində D.Axapkin, M.Brun, A.Riçardson, B.Boyd, postmodern ədəbiyyatla əlaqəli J.Lyotard, G.Delez, J.Derida, D.Kamper və başqaları son vaxtlar tez-tez istinad olunan müəlliflərdir. Qərbin ədəbiyyat nəzəriyyəsi dərslikləri də istinad olunan mənbələr sırasına daxil olmuşdur. R.Vellek–A.Varrenin, J.Kullerin, V.Qrassın, D.Karterin, P.Berinin və başqalarının ədəbiyyat nəzəriyyələri artıq tədqiqatlarda istifadə edilir. Bu isə nəzəriyyədə plüralizmi artırır və sovet ədəbiyyat nəzəriyyələrinin standartlarını dağıdır.

Divan ədəbiyyatının poetikası və semantikası istiqamətində son illər Əlyar Səfərlinin, Teymur Kərimlinin, Nüşabə Araslının, Mahirə Quliyevanın, Paşa Əlioğlunun, Nəsib Göyüşovun, Tərlan Quliyevin, Səadət Şıxıyevanın, Əzizağa Nəcəfzadənin və b. apardığı tədqiqatlar sovet ideologiyasının klassik poeziyaya qarşı formalaşdırdığı sinfi yanaşma üsulunda əsaslı dönüş yaratmışdır.

“Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemlər” layihəsi çərçivəsində ədəbiyyat nəzəriyyəsinin inkişaf mərhələləri dərsliklər, tədqiqat əsərləri və nəzəriyyəçilərin fəaliyyətləri, dövrün ideoloji-siyasi sifarişləri, elmi nailiyyətləri kontekstində də tədqiq olunmuşdur. Bu, Azərbaycan ədəbiyyat nəzəriyyəçiliyində ilk təşəbbüs kimi xü-

susi əhəmiyyət daşıyır.

Layihə çərçivəsində Azərbaycanda XX əsrin ilk onilliklərində və repressiyadan əvvəl mövcud olan ədəbiyyat nəzəriyyəsi araşdırmalarına və dərsliklərinə xüsusi yer ayrılır. Onların təcrübəsi yenidən öyrənilir. Əli Məhzunun daha çox lüğət xarakteri daşıyan "Ədəbiyyata dair" (1917) əsərindən sonra, Hüseyn Cavid və Abdulla Şaiqin birlikdə yazdıqları "Ədəbiyyat dərsləri" (1919), ədəbiyyat tarixinin nəzəri problemlərini araşdıran "Ədəbiyyatdan iş kitabı" (1928), Baqrinin "Ədəbiyyat biliyinə başlanğıc" (1930) kitabları daha sonrakı illərdə yazılan dərsliklərin də təcrübəsinin mərhələ-mərhələ araşdırılması ideologiya və ədəbiyyat, ədəbiyyatda dövlət siyasəti məsələlərinin aydınlaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat nəzəriyyəsinin tarixi kimi ədəbiyyat tarixinin nəzəri problemlərinə də müstəqillik dövründə yeni baxış formalaşmağa başlamış, ədəbiyyat tarixinin dövrləşdirilməsinin nəzəri problemləri müəyyənləşdirilmişdir.

İkicildliyin ikinci cildi aşağıdakı hissələrdən ibarətdir: I fəsil. Ədəbiyyat nəzəriyyəsi və müasir meyarlar; Satira ədəbi növ kimi (İsa Həbibbəyli); "Milli ədəbiyyat tarixi" yeni siyasi identifikasiyalar kontekstində və ya milli ədəbiyyatın meyarları (Rəhilə Qeybullayeva); Mifopoetika və filoloji fikirdə mif konsepsiyaları (Pərvanə İsayeva); Neosufizm: yaradıcılıq və nəzəriyyə (Tahirə Məmməd); Müqayisəli ədəbiyyat və sosial antropologiya (Rəhilə Qeybullayeva); Strukturalizm, poststrukturalizm və dekonstruksiya (Maral Yaqubova); II fəsil. Ədəbiyyat nəzəriyyəsi dərslikləri və dəyişən nəzəri aspektlər; Hüseyn Cavid və Abdulla Şaiqin "Ədəbiyyat dərsləri" dövrünün türk (osmanlı)

ədəbiyyat nəzəriyyələrinə aid kitablar kontekstində (Tahirə Məmməd); Azərbaycanda marksizm nəzəriyyəsinə əsaslanan ilk ədəbiyyatşünaslıq dərsliyi – "Ədəbiyyatdan iş kitabı" (Tahirə Məmməd); Ədəbiyyat nəzəriyyəsi: elmi prinsip və ideoloji məqsəd paralelliyi (A.V.Baqrinin "Ədəbiyyat biliyinə başlanğıc" dərsliyi (1930) əsasında) (Tahirə Məmməd); Cəfər Xəndanın "Ədəbiyyat nəzəriyyəsi" dərsliyi müasir elmi-ideoloji kontekstdə (Tahirə Məmməd); M.Rəfilinin "Ədəbiyyat nəzəriyyəsinə giriş" adlı dərs vəsaiti sovet ədəbiyyatşünaslığı kontekstində (Pərvanə İsayeva); Mir Cəlal Paşayev və Pənah Xəlilovun "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi müasir elmi-nəzəri və milli-ideoloji kontekstdə (Pərvanə İsayeva); Müstəqillik dövründə "Ədəbiyyat nəzəriyyəsi" dərsliklərinin prinsip və meyarları (Maral Yaqubova); III fəsil. Azərbaycanda ədəbi-nəzəri məktəblər; Akademik Məmməd Arif Dadaşzadənin nəzəri görüşləri (Tahirə Məmməd); Mir Cəlal Paşayevin yaradıcılıq yolu və elmi-nəzəri fəaliyyəti (Tahirə Məmməd); Akademik Məmməd Cəfər Cəfərov (İsa Həbibbəyli); Mütəfəkkir tənqidçinin portreti (Yaşar Qarayev) (İsa Həbibbəyli); Folklor nəzəriyyəsinin görkəmli yaradıcısı Məmmədhüseyn Təhmasib (İsa Həbibbəyli); Akademik İsa Həbibbəylinin nəzəri görüşlərinin əsas istiqamətləri (Tahirə Məmməd); Son söz əvəzi. Ədəbiyyat və zaman (İsa Həbibbəyli).

Bu günə qədər də tənqid və ədəbiyyatşünaslığımızın çağdaş metodoloji əsaslarının hazırlanması nəzəri fikrin qarşısında mühüm bir məsələ kimi dayanır. Məhəmmədəli Mustafayevin "Müasir ədəbi tənqidin meyar axtarışları və metodoloji əsasları" məqaləsi də həmin problemi əhatə

edir. Məqalədə müstəqillik dövrü ədəbiyyatı Azərbaycan ədəbi tənqidinin metodoloji əsaslarına münasibət bildirilir. Keçən əsrin 90-cı illərində milli tənqid və ədəbiyyatşünaslığın qarşısında ciddi problemlər yaranmışdı. Milli elmi-nəzəri fikrin yeni metodoloji əsasları hazırlanmamışdı. Milli təfəkkürə, özünüdərkə, azərbaycançılıq ideologiyasına əsaslanan ədəbi-nəzəri fikrin yaranmasına ehtiyac var idi. Yaşar Qarayev, Şamil Salmanov, İsa Həbibbəyli, Şirindil Alışanlı, Rahid Ulusel, Tehran Əlişanoğlu, Vaqif Yusifli və başqaları yeni əsərləri ilə bu ədəbi-mənəvi ehtiyacı nisbətən ödədi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ədəbi-nəzəri fikirdə sosialist realizmi metodunun fəaliyyətinə son qoyuldu. Lakin bu zaman qarşıya yeni bir sual çıxdı. Bəs milli müstəqillik dövrü Azərbaycan ədəbi tənqid və ədəbiyyatşünaslığının nəzəri-estetik prinsipi hansı fəlsəfi, ədəbi zəminə əsaslanmalıdır? Bu suala cavab axtarmaq üçün 1990-cı illərdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda müşavirə və konfranslar çağırıldı. Klassik və müasir ədəbi irsin tədqiqinin yeni metodoloji əsasları hazırlanmağa başlandı. Şübhəsiz ki, Prezident Aparatının rəhbəri Ramiz Mehdiyevin, Elçinin, Səlahəddin Xəlilovun və başqalarının Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi azərbaycançılıq ideologiyasına əsaslanan monoqrafiya və məqalələri mühüm rol oynadı. Bu sahədə Elçinin "Azərbaycan ədəbi prosesində nə baş verir? ("Azərbaycan" jurnalı, 2010, № 10, s.155-181), "Sosrealizm bizə nə verdi? ("Azərbaycan" jurnalı, 2011, № 1, s.146-165), (Müasir ədəbi tənqidin meyar axtarışları və metodoloji əsasları. Beynəlxalq elmi-nəzəri jurnal, № 4,

2018, s.369-371)

"Yaşar Qarayevin elmi irsinin nəzəri dərki" kitabını İnstitutun Ədəbiyyat nəzəriyyəsi şöbəsi hazırlayıb çap etdirmişdir. Kitabın mündəricatı belədir: İsa Həbibbəyli. Ədəbiyyatşünaslığımızın Yaşar Qarayev mərhələsi; Tahirə Məmməd. Yaşar Qarayevin nəzəri-estetik irsində yaradıcılıq metodu problemi; Məhəmmədəli Mustafayev. Ədəbi irsə estetik və fəlsəfi münasibət; Pərvanə Bəkirqızı (İsayeva) Azərbaycan ədəbiyyatşünaslığında yeni mərhələ: janr poetikası. Faciə janrının ilk monoqrafik tədqiqi; Rasim Nəbioğlu (Qurbanov). Yaşar Qarayev – görkəmli tənqidçi, nəzəriyyəçi və estetik; Maral Yaqubova. Ədəbiyyatşünaslığa dəyişən paradiqmalar kontekstində yanaşmanın prinsip və meyarları; Simuzər İsmayılova. Yaşar Qarayevin həyat və yaradıcılığı.

XX əsr boyu müşahidə edilən Firidun bəy Köçərlinin ədəbi-tarixi, Mehdi Hüseynin ədəbi-publisist, Məmməd Arif Dadaşzadənin ədəbi-sosioloji, Məmməd Cəfər Cəfərovun elmi-nəzəri, Asif Əfəndiyevin ədəbi-fəlsəfi səciyyəli sabit üslub tipləri sırasında Yaşar Qarayevin obrazlı analitik elmi təhlil üslubu möhkəm yer tutur. Etiraf etmək lazımdır ki, Azərbaycan ədəbiyyatşünaslığı tarixində ədəbi tənqidə – elmi təhlilə obrazlı düşüncə tərzi gətirmək sahəsində Yaşar Qarayevlə müqayisə olunacaq ədəbiyyatşünas göstərmək çətindir. Tərəddüd etmədən demək olar ki, Yaşar Qarayev Azərbaycan ədəbi tənqidinin şairidir. Elmi düşüncə ilə bədii təfəkkürün mükəmməl vəhdəti Yaşar Qarayevin tədqiqatlarının orijinallığını müəyyən edir. Yaşar Qarayev ən sərt, xalis elmi detallara şairanə baxmağı, obrazlı şəkildə yanaşmağı, fərqli münasibət ifadə etməyi

bacarmışdır. Belə məqamlarda heç də obrazlı yanaşma elmi qənaəti əridib itirə bilmir, əksinə, nəzəri düşüncə bədii enerji sayəsində daha aydın, işıqlı, cəlbedici şəkildə mənalanır.

Fil.e.d., prof. Məmməd Əliyev keçən il məhsuldar işləyərək üç kitab nəşr etdirmişdir. "Böyük yolun davamı" kitabı türk xalqları ədəbiyyatına dair araşdırmalardan ibarətdir. M.Əliyev Azərbaycançılıq mövzusunda da tədqiqat aparmışdır: "Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi". Məmməd müəllimin kitabı aşağıdakı hissələrdən ibarətdir: Erkən Azərbaycançılığın arxetipik izləri (Rahid Ulusel); Müəllifdən; I. Azərbaycan folkloru erkən Azərbaycançılığın bədii, dini-fəlsəfi və tarixi təzahür forması kimi; II. Epos yaradıcılığı erkən Azərbaycançılığın bədii-tarixi salnaməsi kimi; Qədim və orta əsrlər bədii təfəkküründə erkən Azərbaycançılıq düşüncəsi (Xülasə); "Qaçaq Nəbi" və "Qaçaq Kərəm" dastanlarında erkən Azərbaycançılıq ideyası; Ədəbiyyat siyahısı.

Bədii düşüncədə Azərbaycançılığın bir sistem kimi formalaşması üç təməl prinsipini – dil birliyi, ərazi birliyi və mənəvi həyat birliyi kimi amilləri özündə ehtiva edən möhtəşəm epos yaradıcılığı ilə bağlıdır.

Bu baxımdan "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" dastanlarımızın mayasını genetik yaddaşdan süzülüb gələn vətən əxlaqı, torpaq-insan sevgisi təşkil edir.

Müəllifin dərin və hərtərəfli araşdırmaları konseptualdır. Onun fikrincə, qədim və orta əsrlərdə Azərbaycan bədii-fəlsəfi, dini-əxlaqi düşüncəsində əks olunan erkən Azərbaycançılıq düşüncəsinin yaranması və inkişaf etməsi

mürəkkəb ictimai-siyasi, mədəni-kulturoloji münasibətlər burulğanından keçmişdir. Bu ideyanın formalaşmasında milli-əxlaqi keyfiyyətlər, onları özündə ehtiva edən etnik-milli şüur dayanmışdır. İctimai şüur dövlətçilik səviyyəsində maddiləşəndə, o ideologiyaya çevrilmək və özündə milli mədəniyyət, etnik-milli əxlaq, ictimai birlik, həmrəylik, vətənpərvərlik, dövlət rəmzlərinə ehtiram və s. kimi atributları birləşdirir. Dövlətçilik ideologiyasının mövcud olmadığı bir dövrdə qeyd etdiyimiz bu mənəvi keyfiyyətlər yalnız etnik tanınma səviyyəsində qalmışdır.

M.Əliyevin "Məhtimqulu Fəraqi şeirinin poetikası" monoqrafiyasının "Bələdçi" adlandırılmış mündəricatı belədir: "İsa Həbibbəyli. Məhtimqulu Fəraqi şeirinin poetik özünəməxsusluğu; Böyük türkmən şairi Məhtimqulu Fəraqi; Məhtimqulu söz sənəti haqqında; Məhtimqulu Fəraqi və Molla Pənah Vaqif; Məhtimqulu Fəraqi şeirinin vəzn xüsusiyyətləri; Məhtimqulu Fəraqi poeziyasının poetik formaları; Məhtimqulu şeirinin qafiyə zənginlikləri; Əlavə. Məhtimqulu Fəraqinin M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan divanları haqqında". Akademik İsa Həbibbəyli göstərir ki, monoqrafiya "ədəbiyyat nəzəriyyəçiliyi ilə ədəbiyyat tarixçiliyinin qovşağında yazılmış orijinal elmi əsərdir. Daha doğrusu, təqdim olunan kitab Məhtimqulu Fəraqiyə həsr edilmiş ədəbiyyat tarixçiliyi də nəzərə alınmaqla, ədəbiyyat nəzəriyyəsi ağırlıqlı bir tədqiqatdır. Monoqrafiyanın əvvəlində verilmiş "Böyük türkmən şairi Məhtimqulu Fəraqi"nin portret-oçerki aparılmış tədqiqatın əhəmiyyətli bir girişi və elmi müqəddiməsidir. Məhtimqulu Fəraqini Azərbaycan oxucusuna daha yaxından tanıtmağa xidmət edən bu kiçik portret-oçerk həm də

şairin yaradıcılığının sənətkarlıq xüsusiyyətlərinin tədqiq edilməsinə zəmin hazırlayır”.

Tədqiqatçı monoqrafiyada Məhtimqulu Fəraqinin şeir yaradıcılığını Azərbaycan poeziyası ilə müqayisədə təqdim edir. Məhtimqulu gözəlləmələrini oxuduqca istər-istəməz M.P.Vaqif, Aşıq Ələsgər gözəlləmələrinin ətrini, ruhunu alırsan. Bəzən də şairin gözəlləmələrində işlədilən “Çin-Maçin”, “Ucu tər cığalı” və s. ifadələrin də eyni ilə işlədilməsi ilə qarşılaşırsan.

Əməkdar elm xadimi, prof. Qəzənfər Paşayev seçilmiş əsərlərinin VIII cildinə (Elmi redaktoru: B.Əhmədov) “Elçin haqqında düşüncələrim”, “Ədəbi məktublar” və “Həyat düşüncələri” kimi maraqlı kitablarını, 2017-2018-ci illərdə yazdığı məqalələri daxil etmişdir. “Elçin haqqında düşüncələrim” əsərində müəllifin illərdən bəri yazıçı haqqında ölkəmizdə və xaricdə çıxan məqalələri yer alır. Burada “Elçinin sənət dünyası”, “Teleskop”dan görünən dünyamız”, “Elçinin folklor dünyası” kimi maraqlı məqalələri toplanmışdır. “Ədəbi məktublar” əsərində yer alan məktublar XX əsrin 80-ci illərindən başlamış günümüzədək 35 illik dövrü əhatə edir. Məktublar bir çox dünya şöhrətli elm adamlarına, yazıçı və şairlərə ünvanlanıb. “Həyat düşüncələri” əsərində müəllif elm, sənət, ədəbiyyat və həyat haqqında bədii-fəlsəfi düşüncələrini ortaya qoyur. “2017-2018-ci illərdə yazılmış məqalələr” bölməsi “Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz” adlı məqalə ilə açılır. Burada həmçinin Nigar Rəfibəyli, Elçin, Anar, Bəkir Nəbiyev, Teymur Bünyadov, Məmməd Əliyev və başqalarının yaradıcılığı gündəmə gətirilir.

Q.Paşayevin seçilmiş əsərlərinin IX cildində (Elmi re-

daktoru: Ş.Alışanlı) 2012-ci ildən 2017-ci ilə qədər qəzet, jurnal və kitablarda çıxan məqalələri yer alır. Müəllifin "Ədəbi estafetlərdə keçən ömür" kitabı ədəbi-elmi-publisistik məqalələr toplusundan ibarətdir. Kitaba filologiya elmləri və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyalara verilən rəsmi opponent rəyləri də daxil edilmişdir.

"Görkəmli elm adamları və qələm sahiblərinin professor Qəzənfər Paşayev haqqında ürək sözləri" adlı çox maraqlı bölmə də bu cilddə verilmişdir.

Paşayev Qəzənfər. Seçilmiş əsərləri. X cild. Elmi redaktoru: İsa Həbibbəyli, akademik.

Bu cilddə professor Qəzənfər Paşayevin "Əta Tərzibaşının folklorşünaslıq fəaliyyəti" və "Hüseyn Kürdoğlunun poetik dünyası" monoqrafiyaları, eləcə də bədii yaradıcılığından "Mirəlinin siğə kəbini", "Ay camaat, bu toy kimindir?!" və "Atama toymu edirəm?" adlı hekayələri daxil edilmişdir. Kitaba professor Qəzənfər Paşayevin 80 illik yubiley tədbiri, yubiley vaxtı çəkilən şəkillər və yubiley ərəfəsində ona həsr olunmuş məqalələr və şeirlər də daxil edilmişdir. Bu cilddə Xalq yazıçıları – Anar, Elçin, akademiklər – İsa Həbibbəyli, Teymur Bünyadov və başqalarının maraqlı yazılarını və ithaflarını da oxuya bilərik.

Kamran Əliyev. Romantizmin nəzəriyyəsi. Əsərləri, 10 cilddə, I cild. Elmi redaktor: İsa Həbibbəyli, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik. Kitabda AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsinin müdiri, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Kamran İmran oğlu Əliyevin Azərbaycan romantiz-

minin nəzəri məsələləri tədqiq edilmiş, romantiklərin ədəbi-elmi görüşləri ilə bədii yaradıcılıqları arasındakı qarşılıqlı əlaqələr araşdırılmışdır.

Kamran Əliyev. Romantizmin poetikası. Əsərləri, 10 cilddə, II cild. Elmi redaktor: Teymur Kərimli, AMEA Humanitar Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın həqiqi üzvü. Kitabda romantik qəhrəman konsepsiyası, qəhrəmanın fövqəltəbiəti və tənhalığı, zaman və məkan daxilindəki hərəkəti, təbiət və mifoloji obrazların simvolik xarakteri, Qərb və Şərq, Yaxın və Uzaq, Həyat və Ölüm kimi poetik qarşıdurmalar Azərbaycan romantizminin poetikasını müəyyənləşdirən əsas problemlər kimi təhlil edilir.

Kamran Əliyev. Hüseyn Cavid. Əsərləri, 10 cilddə, III cild. Elmi redaktor: Şirindil Alışanlı, filologiya elmləri doktoru, professor. Monoqrafiyada böyük şair və dramaturq Hüseyn Cavidin həyatı və şəxsiyyəti, ədəbiyyata baxışı, poeziyası və dramaturgiyası, bədii yaradıcılığının poetikası, folklorla əlaqəsi və sənətkarlıq məziyyətləri araşdırılmışdır.

Kamran Əliyev. Klassiklər, müasirlər. Əsərləri, 10 cilddə, IV cild. Elmi redaktor: Möhsün Nağısoylu, akademik. Kitabda müəllifin XIX, XX, XXI əsrlərdə yaşayıb-yaratmış Azərbaycan ədəbiyyatı tarixinin tanınmış nümayəndələrinin həyat və yaradıcılığına aid məqalələri toplanmışdır.

Kamran Əliyev. Ədəbiyyatşünaslıq, ədəbi tənqid. Əsərləri, 10 cilddə, V cild. Elmi redaktor: Kamal Abdulla, akademik. Kitabda Kamran Əliyevin ədəbiyyatşünaslıq və ədəbi tənqid haqqında məqalələri toplanmışdır.

Fil.e.d. Vaqif Yusiflinin “Azərbaycan” qəzəli və

fil.ü.f.d. Zəkulla Bayramlının "Füzuli... və..." kitabları əsasən klassik ədəbiyyata dair təhlil və mülahizələrdən ibarət olsa da, müəyyən nəzəri fikirlərə də rast gəlirik.

Fil.e.d. M.Quliyeva, fil.e.d. S.Şərifova və fil.ü.f.d.-ları R.Əliyeva, E.Qaragözova müasir ədəbi-nəzəri fikir mövqeyindən çıxış edərək bir sıra maraqlı təhlil və araşdırmalar aparmışlar.

"Poetika.izm (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri)" jurnalının sonuncu sayında – № 4 aşağıdakı materiallar çap edilmişdir: İsa Həbibbəyli. Azərbaycan ədəbiyyatında maarifçilik hərəkatı və maarifçi realizm dövrü (XIX əsr); Ədəbi təhlil. Mətn poetikası – Aslan Salmanov. Mətnin tekstoloji tədqiqi metodları; Leyla Qədirova. "Kitabi-Dədə Qorqud" dastanında kişi tipajları; Aysel Qurbanova. Hüseyn Cavidin mənzumələri; Nərgiz Kərimova. İlan arxetipi Azərbaycan və Çin ədəbiyyatında; Nərminə Hüseynova. Sovet ədəbiyyatında artıq adam obrazının daşıyıcıları – "qəribə adam"lar (İlyas Əfəndiyevin yaradıcılığı əsasında); Leyla Əliyeva. Yusif Səmədoğlunun hekayələrinin kompozisiya tərtibində yaddaşın rolu. Əlizadə Əsgərli. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin yeni elmi konsepsiyası; Tahirə Məmməd. Erkən realizm konsepsiyası və tətbiqi problemləri; Pərvanə Bəkirqızı (İsayeva). Modernizmin təşəkkülü və inkişafı; Məhəmmədəli Mustafayev. Mirzə Fətəli Axundzadənin tənqidi irsində realizmin nəzəri prinsipləri. Janr, struktur, forma – Şəhanə Əliyeva. Dram əsərlərində ünsiyyət modellərinin semiotikası; Elmira-Məmmədova Kekeç. Janrlararası əlaqədə vücudnamələr; Simuzər İsmayılova. Səməd Vurğun yaradıcılığında ballada janrı. Tarixi poetika –

Seyfəddin Altaylı. Həsənoğlunun “Sirətin-Nəbi” adlı əsərində bəzi mifik obrazlar; Könül Hacıyeva. Xaqani qəzəllərində təşbeh və mübaliğə sistemi; Şəhla Hüseynova. Saray şairi obrazının tarixi qaynaqları; Xanım Sultanova. Səməd Vurğunun “Aslan Qayası” və “Qız qayası” əsərlərində mifopoetik ənənə; Sədaqət Əsgərova. Hədislər din və ədəbiyyat kontekstində; Könül Məmmədova. Cahizin ədəbi-tənqid nəzəriyyəsinə baxış. Mətn təhlili – Könül Əliyeva. Nizaminin astronomiya haqqındakı fikirlərinin poetik təcəssümü. Yubiley – Tahirə Məmməd. Fenomenal yaddaşı ilə seçilən ədəbiyyatşünas alim – Məhəmmədəli Mustafayev–60; Pərvanə Bəkirqızı (İsayeva). Cavanşir Yusifli imzası, yaxud filoloji fantaziya. Dünya ədəbiyyati nəzəriyyəsindən tərcümələr – İqor Nikolayeviç Çistyuxin. Dram və dramaturgiya haqqında (tərcümə edəni: fil.ü.f.d. Aqşin Dadaş-zadə).

Professor Tahirə Məmməd öz iş yoldaşının 60 illik yubileyi ilə əlaqədar yazır: “M.Mustafayevin alim kimi özünəməxsusluğunu şərtləndirən əsas cəhətlərdən biri də ədəbiyyatşünas alimlərin əməyinə həssas münasibət bəsləməsidir. O, Feyzulla Qasımzadə və Bəkir Nəbiyev haqda monoqrafiyalar müəllifi olmaqla bərabər, eyni zamanda Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə, Yaşar Qarayev, İsa Həbibbəyli, Şamil Salmanov, Qəzənfər Paşayev, Nizami Cəfərov, Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Rasim Nəbioğlu və b. yaradıcılıq yolunu, elmi fəaliyyətini əks etdirən məqalələr müəllifidir. Öz yaşıdlarının da yaradıcılıq uğurlarına ürək genişliyi ilə yanaşır, onların əsərlərinə, elmi fəaliyyətinə münasibət bildirir, kitablarına ön söz, monoqrafiyalarına resenziyalar yazıb çap etdirir.

Lalə Həsənova. “Çağdaş ədəbi paradiqma: icmallar, məqalələr, düşüncələr” kitabında son illərin ədəbi prosesi haqqında icmal-oçerklər, məqalələr toplanmışdır. “İcmallar”, “Müasir nəsr haqqında məqalələr”, “Bədii-sənədli nəsr”, “Çağdaş ədəbiyyatda Qarabağ mövzusu”, “Müasir ədəbi proses haqqında düşüncələr” və s. kimi bölmələrdə müasir nəsr, dramaturgiya, poeziyanın inkişaf meyilləri əhatə olunmuşdur.

Fil.e.d., professor Asif Hacılının tərtib və tərcümə etdiyi, ön söz, şərhlər və qeydlər yazdığı “XX əsr ədəbi düşüncələr tarixi (xatirələr, manifestlər, konsepsiyalar)” kitabında XX əsr ədəbi prosesini səciyyələndirən ədəbi cərəyanlara aid manifestlər, konsepsiyalar, xatirələr təqdim edilmişdir. Müxtəlif cərəyanlar üzrə qruplaşdırılmış bu mətnlərə əlavə olaraq hər bir cərəyan haqqında şərh və qeydlər verilmişdir. Toplu filoloq tələbələr və müəllimlər, tədqiqatçılar və ədəbiyyatsevərlər üçün nəzərdə tutulmuşdur. “Qeydlər” bölməsi oxucuya əlavə ədəbi-tarixi məlumat verir. Lakin təəssüf ki, həmin qeydlərdə haqqında bəhs edilən yazıçı, şair və dramaturqların yalnız ümumi şəkildə yaşayıb-yaratdıqları əsrlər göstərilmişdir, halbuki onların əksəriyyətinin doğum və ölüm tarixləri bəllidir. Əksinə, burada heç ehtiyac olmadan hansısa kralın doğum və ölüm tarixi dəqiqliklə verilir.

Məhərrəm Qasımlı, Mahmud Allahmanlı. “Aşıq şeirinin poetik biçimləri və çeşidləri” kitabı zəngin məzmuna malikdir: Aşıq şeirinin milli-tarixi özəlliyi və poetik biçimlərinin çeşid zənginliyi; Aşıq şeirlərinin bənd quruluşu və bölgüsü; Aşıq şeirlərinin yurdu; Atalar sözü; Atışma; Ayaqlı təcnis; Aytıspa; Badə; Bağlama (qıfılbənd); Baha-

riyyə; Bayatı; Bayatı-bağlama; Bayatı-tapmaca; Bayatı yedəklər; Buta; Cahannamə; Cığalı təcnis; Cinas; Cinas bayatı; Cinas rübai; Cinas tapmaca; Dastan; Deyişmə; Dildönməz (diltərpənməz); Divani; Divani dodaqdəyməz; Divani təcnis; Dodaqdəyməz; Əliflam; Əlifləmə; ayaqlı təcnis (nəfəsçəkmə təcnis); Gəraylı; Gözəlləmə; Gözəlləmə-qafiyə; Haçabeyt; Mədhiyyə; Minacat; Müəmma; Təcnis; Təəssüfnamə; Təxmis; Təsnif; Türkü; Ustadnamə; Varşağı; Vücudnamə; Yuğ və ya sağu – ağı; Yum vermə; Zəncirləmə və s.

2018-ci ildə "Azərbaycan" ədəbi-bədii jurnalı 95 illik yubileyini qeyd etmişdir. Jurnalın "Tənqid və ədəbiyyatşünaslıq" bölməsinə daxil olan materiallar rəngarəngdir. Burada sırf ədəbi-nəzəri, sənətşünaslıq və qismən estetik səciyyəli məqalələr azlıq təşkil etsə də, bəzi yazılarda ayrı-ayrı elmi konseptual fikirlərə də rast gəlmək olur. Məsələn: Alxan Bayramoğlu – İstiqlalın özü və sözü, № 5; Qorxmaz Quliyev – kontekst və kod, № 1-2; Cəlil Nağıyev – Azərbaycan romanının əsas inkişaf təmayülləri (1 məqalə), № 2; Ülviyyə Rəhimova – Təhkiyədə məkan problemi, № 4; Nərgiz Cabbarlı – Müasir roman: həqiqətdən simvolikaya, № 6; Yeganə Abdullayeva – Başqalaşan dünyanın dəyişdirdiyi mətn, № 6; Aytən Rüstəmzadə – Müşfiqin tərcümə sənətkarlığı, № 6; Qorxmaz Quliyev – Sükutun poetikası, № 7-8; Vaqif Yusifli – Lalə Həsənovanın ədəbi paradiqmaları, № 7-8; Fərəh Cəlil – Mif axtarışında, № 7-8; Güldəniz Qocayeva – "Məgər mən Xristofor Kolumbdan əskik oğlanam...", № 9; İradə Musayeva – Azərbaycan romanının klassik mənşəyi haqqında, № 10; Yaqub Babayev – Tuyuğ, № 10; Təyyar Salamoğlu – "Uçurum dərə-

lər” hansı dərələrdir? № 11 – I hissə, № 12 – II hissə; Rəhilə Qeybullayeva – Sözün bioqrafiyası və semantikası prizmatik tərcümə nəzəriyyəsində: şərab, çaxır, № 11.

Jurnalın “Tənqid və ədəbiyyatşünaslıq” bölməsindən kənar digər rubrikalarda da bir sıra maraqlı məqalələr və bəzi nəzəri fikirlər vardır. Məsələn: Paşa Əlioğlu – Klassik poeziyamızda qocalıq mövzusu, № 2; Şahin Fazil – Mir Həmzə Seyid Nigari, № 3; İsrafil İsrafilov – Teatr sənətinin “əzəl mübtədası”, № 3; Alxan Bayramoğlu – Abdulla bəy Divanbəyoğlunun bədii nəsri, № 3; İlham Qəhrəman – Tapmaca sehri, № 3; Yazıçı Varislə tənqidçi Nərgiz Cabbarlının söhbəti, № 9; Sufizm. Dünən və bu gün – İntiqam Qasımzadə, Yaqub Babayev və Sayman Aruzun söhbəti, № 12; Günel Natiq – Nobel mükafatından imtina etmiş yazıçı, № 7-8, Mixail Bulqakovun həyatı və müəmmalı ölümü, № 9, Fransuaza Saqan, № 10, Obrazlarına oxşayan böyük uşaq yazıçısı – Astrid Lindqren, № 12; Asif Rüstəmli – Bir görüşün tarixçəsi, № 4; Paşa Əlioğlu – Vaqif İbrahim sədaqəti..., № 7-8; Südabə Ağabalayeva – “Mənə ağlamağı öyrətmə, zalım...”, Nurəngiz Gün (şeirlər), № 10; Vaqif Yusifli – Unudulmaz Qabilimiz, № 11, Filoloji esselər, № 11; Elçin Mehrəliyev – Qan yaddaşı və böyük eşq, № 7-8; Vaqif Yusifli – Sənətdə, poeziyada şəxsiyyət – Əliağa Kürçaylı, № 2; İmdat Avşar – Anar haqqında düşüncələr, № 3; Tofiq Məlikli – “Nələr etmədik bu vətən üçün...”, № 3; Rüstəm Kamal – Tənha qəhrəman, № 3; İntiqam Qasımzadə – Ədib, № 4; Nizami Cəfərov – “Bir gəncin manifesti”ndən “Bir səfirin manifesti”nə, № 4; Təyyar Salamoğlu – “Dirilən adam” Balzak realizmi ilə sosrealizm arasında, № 4; Şirindil Alışanlı – Sənətkarın

obrazı, № 5; Nizami Cəfərov – Vaqif... və Yusifli, № 5; Vaqif Yusifli – İsa Hüseynovdan... Muğannayadək, № 6; Zaman Əsgərli – Ustad Feyzulla Qasımzadə, № 6; Vaqif Yusifli – Məsud Əlioğlu: 90 ilin yarısı, № 10; Tənqidçi Nərgiz Cabbarlının akademik İsa Həbibbəyli ilə söhbəti, № 10.

Beləliklə, əlimizdə olan çap məhsullarının və nəşrlərin icmal şəkilli xülasəsindən çıxış etməklə faktlar göstərir ki, 2018-ci ildə milli elmi-nəzəri və estetik fikir ədəbi prosesin önündə getməklə, daha da inkişaf edib zənginləşmişdir.

Mehman HƏSƏNLİ
Filologiya üzrə fəlsəfə doktoru

ƏDƏBİYYATDA ESSE

Həcm etibarilə geniş olmayan sərbəst kompozisiyaya malik nəsr nümunəsi olan esse (latınca exagium, fransızca essais) xüsusən XX əsr boyu aktuallıq qazanaraq humanitar düşüncənin əsas janrlarından birinə çevrildi. Esse elm, bədii yaradıcılıq və publisistikanın sərhədlərindəki boşluqda yaranan və hər üçünün funksiyası və özünüifadə vasitələrindən bu və ya digər dərəcədə istifadə edən spesifik bir janrdır. Bu janr zahirən düşüncənin axışı baxımından sərhəd tanımasa da, öz çərçivəsi olan, həm də ən əsası, digər janrların ərazisinə sərbəst şəkildə nüfuz edə bilən bir sistemdir. Essenin obyekti insandır; onun düşüncələri, mülahizələri, duyğularıdır.

Qərb estetik fikrində esse janrı İntibah dövründə cəmiyyətdə fərdiləşmənin aparıcılıq qazanması ilə yaranmışdır. Fransız yazıçısı Mişel Montenin 1580-ci ildə qələmə aldığı "Esselər" (Essais) kitabı janrın ilk nümunəsi kimi tarixə keçmişdir. Onu bu janrda yazmağa nə məcbur edirdi: bütün varlığını sarsıdan, onu keçmişdən gələcəyə və əksinə baxmağa sövq edən hiss və düşüncələrinin öldükdən sonra da diri qalması... "Ruhumuzun ələ-ovuca sığmayan axışını izləmək, onun qaranlıq dərinliklərinə qədər enmək, dəyişik hallarındakı bu qədər incəlikləri fərqləndirib yazmaq zənn edildiyindən çox zəhmətli bir işdir. Bir tərəfdən də bu işin o qədər fərqli, o qədər qəribə bir zövqü var ki, insanı dünya işlərindən, həm də ən dəyərli dünya işlə-

rindən özünə çəkir. Bir neçə ildir ki, düşüncələrimin özümdən başqa məqsədi yoxdur; ancaq özümü sorğulayır və incələyirəm”.

Esse həmçinin bədii təxəyyüllə (fiction) gerçəkliyin bir nöqtədə çulğalaşmasıdır. Essedə gerçəklikdən onun daha dərin qatlarına enə bilmək üçün vaz keçilir. Bədii əsərlərdən fərqli olaraq essedə təxəyyül həlledici mahiyyət kəsb etmir, etsə belə bədii düşüncədən fərqli yollardan keçir. Sırf bədii mətnlə essenin eyni bir əşyaya “estetik nüfuzu” yadlaşma, bir-birini dəf etmə dərəcəsində yaxındır. Müəllif əşyaya nüfuz edir, onun konturlarını “silir” ki, əşyadan o tərəfdə onunla bağlı görünənləri mətnə hopdursun. Bu janrda təhkiyəçi müəllifin özüdür və mətn onun özünü, fərdi düşüncələrini açmaq üçün bədii təxəyyüldən istifadə edir. Bir janr kimi esse elmilikdən (akademizmdən-!) vaz keçib obyektin elə cəhətlərini aşkarlaya bilər ki, elmi araşdırmanın gəldiyi nəticədən daha dəqiq və tutumlu ola bilər. Professor Vaqif Sultanlı “Azərbaycan ədəbi tənqidi” monoqrafiyasında ədəbi tənqidin janrlarından bəhs edərkən yazır: “Esse janrı üçün sərbəst kompozisiya, subyektiv düşüncə, obrazlılıq, bənzərsiz yazı manerası, assosiativ ifadə tərzi aparıcı səciyyə daşıyır. O, ədəbi tənqidin digər janrlarından fəlsəfi məzmunu, oxucunu sonsuz düşüncələrə qərq etməsi, mövcud həyata fərqli prizmadan yanaşma meyli ilə seçilir”.

İnsan həyatının, onun fəaliyyətinin ən müxtəlif sahələri ilə bağlı esse nümunələri yarandığı üçün janrın təsnifatını aparmaq o qədər asan deyil. Araşdırma müddətində Azərbaycan son illərin ədəbiyyat baxımından esseistikanın materiallarını nəzərdən keçirərkən burada üç aparıcı istiqa-

məti aşkar müşahidə etdik. Fikrimizcə, sırf ədəbiyyat istiqmətində Azərbaycanda esseləri üç qrupda təsnif etmək olar: 1. Filoloji esselər; 2. Bədii esselər; 3. Publisistik esselər.

Təbii ki, bu bölgünün özü də şərtidir. Elmilik, publisistika və bədii təxəyyül elementləri essedə bir-birinin içinə keçmiş xüsusiyyətlərdir.

Azərbaycan ədəbiyyatşünaslığında esse ədəbi tənqidin janrlarından biri kimi təsnif edilsə də, esse bir janr olaraq həmin sərhədləri aşaraq geniş mənada humanitar fikrin əsas özünüifadə vasitələrindən birinə çevrilmişdir. Necə ki, roman janrı dünyanın müasir sürətli inkişafına alternativ olaraq böyüməkdə, digər janrları da öz içinə alaraq inkişaf etməkdədirsə, eləcə də ictimai-fəlsəfi, eləcə də filoloji düşüncənin özünüifadəsində esse həmin funksiyanı uğurla icra etməkdədir.

Azərbaycanda esseistika XX əsrdə yaranıb inkişaf etmişdir. Asif Əfəndiyev, Anar (Mirzə Cəlil, Nəsimi, Füzuli, Xətai, Dədə Qorqud, 60-cı illər nəsri, müasir poeziya haqqında esseləri və xüsusən, “Gecə düşüncələri” kitabı), Elçin (“Ədəbi düşüncələr”), Kamal Abdulla (“Əvvəl-axır yazılanlar”), Cavanşir Yusifli, Rüstəm Kamal, Azər Turan, Rəşad Məcid (“Qələmsiz yazılanlar”), Niyazi Mehdi, Rahid Ulusel esse janrının maraqlı nümunələrini yaratmışlar.

2018-ci il ərzində Azərbaycanda kifayət qədər böyük həcmdə esse materialları ayrı-ayrı müəlliflərin kitablarında, qəzet və jurnallarda çap olunmuşdur. “Azərbaycan” və “Ulduz” jurnalları, “Ədəbiyyat”, “525-ci qəzet”, “Kaspi”, “Ədalət” qəzetləri, “Sim-sim.az” portalı və eləcə də ayrı-ayrı müəlliflərin kitablarında çap olunmuş esse nümunələri

əsasında ilin mənzərəsini canlandırmağa çalışdıq.

Akademik İsa Həbibbəyli Gürcüstanda Türkologiya elminin inkişafında müstəsna xidmətlər göstərmiş akademik Elizbar Cavalidzenin Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunmuş Füzuli haqqında monoqrafiyasına poetik esse formasında ön söz yazmışdır. "Akademik Elizbar Cavalidzenin Füzulinaməsinə" akademik düşüncə ilə bədii təxəyyülün qovuşmasında yaranan olduqca maraqlı esse nümunəsi, formatıdır. Esse forma etibarilə sərbəst şeiri xatırladır. Akademik İsa Həbibbəyli essedə Elizbar Cavalidzenin Füzuli haqqında yazdığı tədqiqatın fonunda Azərbaycan-Gürcüstan elmi-mədəni əlaqələrinin konturlarını cızır. "Elizbar Cavalidze – Yunus Əmrənin Kürə qarışan hekayəsidir. Yenidən doğulan Ruhi Bağdadi təzkirəsidir.

Məhəmməd Füzuli – Elizbar Cavalidzenin Azərbaycan sevdasıdır. Gürcü aliminin ədəbiyyatda Kərbəlasıdır. Və ya romantik düşüncədə Metex qalasıdır".

2018-ci ildə Xalq yazıçısı Anarın "Söz dünyası" adlı çoxcildliyinin I cildi işıq üzü gördü. "Odlar yurdunun söz və sənət dünyası" adlı giriş məqaləsi yurdumuzun tarixi, mədəniyyəti və ədəbiyyatını özündə ehtiva edən Azərbaycannamədir. Kitabda Anarın müxtəlif dövrdə yazdığı məqalələri, oçerkləri xatirələri ilə birlikdə esseləri də yer alıb. "Türkün sözü" essesində Anar özünün illər öncə tərtib etdiyi "Min beş yüz ilin Oğuz şeiri" antologiyasına biraz fərqli rakursdan, tədqiqatçı kimi yenidən qayıdır. Xalq yazıçısı Anar essedə "tariximizin şeir yaddaşı"nı – Oğuz poeziyasının tarixini səhifələyir. Müəllif uşaqlıqda atası Rəsul Rza, anası Nigar Rəfibəyli, eləcə də nənəsi, bibisi və doğmalarından eşitdiyi və çox sonralar mütaliə etdiyi

Azərbaycan, türkmən və Türkiyə şeir örnəklərini bir-birinə keçmiş şəkildə, iç-içə təqdim edir. Anar yaddaş metaforasından uğurla istifadə edir, öz yaddaşından xalqın yaddaşına keçid edir. "Atam da, anam da şair idi və böyüdükcə, ağlım bir şey kəsdikcə onların oxuduğu şeirləri – həm öz şeirlərini, həm də başqa klassik və çağdaş şairlərin şeirlərini qavramağa başladım... Evimizdə daim şeir səslənirdi, atamla anamdan başqa, nənələrim, bibilərim də xeyli şeir əzbər bilirdilər... Nəsimi, Xətai, Qurbani, Abbas Tufarqanlı, Vidadi, Vaqif, Natəvan, Aşiq Ələsgər, Bahar Şirvani, Bihud, Seyid Əzim, Hadi... Bu şairlərin misralarını məktəb dərsliklərindən əvvəl evimizdəkilərin dilindən eşitmişdim. Evimizdə ən çox səslənən şairlər isə Füzuli və Sabir idi. Azərbaycan şairləri ilə bərabər, evimizdə Türkiyə şairlərini də çox sevər və oxuyardılar. Namiq Kamal və Mahmud Əkrəm Rəcaizadə, Əbdülhaq Hamid və Tofiq Fikrət, Rza Tofiq..... və əlbəttə Nazim Hikmət... bu şairlərin atamın, anamın, bibilərimin dilindən eşitdiyim misralarını indiyəcən əzbər bilirəm".

Xalq yazıçısı Anar öz gənclik illərini xatırlayır, onun əsərlərində hələ 60-cı illərdən etibarən yer alan dövrə, mühitə fərqli baxış, mövcud ənənədən kənara çıxma cəhdlərinin səbəbləri barədə yazır: "İlk gənclik illərimdə bir axşam dostum Araz Dadaşzadəylə saatlarla Bakı küçələrini dolaşır və bəlkə ilk dəfə ürəklərimizi bir-birimizə açırdıq. Əsas da dövrdən, cəmiyyətdən, quruluşdan, mühitdən narazılığımız idi söhbətimizin canı. Hər gün rastlaşdığımız yalan, riyakarlıq, boş vədlər və mənasız şüarlar bizi təngə gətirmişdi, mənəvi cəhətdən sıxılırdıq, boğulurduq. Və bu iki-üç saatın acı etiraflarından sonra birdən Arazın yadına

düşən Vidadi beyti sanki bizə bir təsəlli verdi, bir təskinlik oldu:

Bir cami yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz.”[1]

2018-ci il boyu Xalq yazıçısı Kamal Abdullanın “Əvvəl-axır yazılanlar” silsiləsindən növbəti esseləri dərc olunub. “Ol zamanlar”da müəllif “Kitabi-Dədə Qorqud” dastanı, Umberto Eko ilə görüşü və “Yarımçıq əlyazma” əsəri, eyni zamanda müasir Azərbaycan ədəbi tənqidi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirir, mülahizələrini irəli sürür. Eyni silsilədə yazılan “O, işığa deyil, hüzura layiqdir” yazısında Kamal Abdullanın ən müxtəlif ədəbiyyat məsələləri ilə bağlı düşüncələri yer alıb. Müəllif yazıda eksperiment haqqında yazır: “Mənim bir sıra şeirlərim, esselərim, hekayələrim, hətta pyeslərim romanlarımı yazmaq üçün eksperiment funksiyasını yerinə yetirdilər. Amma maraqlısı odur ki, mən bunu indi, romanları yazandan sonra anladım. Yəni mən onları yazanda düşünməmişdim: bax, bu, eksperimentdir, bu isə yox”.

Eyni silsilədə Kamal Abdullanın yazmış olduğu “Banuçiçəklə Beyrəyin sirri” essesində fraqmental şəkildə müxtəlif mövzular, ədəbiyyat məsələləri haqqında düşüncələr yer alıb. Müəllif Əbdürrəhim bəy Haqverdiyevin Mir Səfərindən, daima müraciət etdiyi “Kitabi-Dədə Qorqud”dan yazır. Akademik Kamal Abdulla essedə mətnin hər hansının hissənin təcrid olunaraq, kontekstdən çı-

[1] “Azərbaycan” jurnalı, s.11.

xarılaraq təhlil olunmasını patoloqoanatomun ölü üzərində araşdırması olduğunu bildirir: “Ayrıca götürülmüş, digərlərindən təcrid edilmiş cümləni öyrənmək mənə patoloqoanatomun ölünü yarıb öyrənməsini xatırladır. O öz tələbələrinə “bu, böyrəkdir, bu, ciyərdir, bax, bu da öd kisəsidir...” deyə-deyə ölüdə “sağ” yer qoymur. Və ayrıca cümləyə də istər dilçi, istərsə də tənqidçi dediyimiz bəndə münasibət bildirərkən eyni rakursdan - öyrətmə rakursundan çıxış edir... Cümlə isə kontekstdə yaşayır. Başqa cümlələrlə əlaqədə nəfəs alır, hərəkət edir, dəyişir... Cümlə əhatədən kənarda yoxdur, o, ölüdür. Ona görə də əsl cümləni görmək, ona toxunmaq, onun daxili enerjisini hiss etmək istəyirsinizsə, əvvəlki və sonrakı cümlələri unutmayın”.

Mətnində ciddi filoloji qat və məzmun keyfiyyəti ilə seçilən, ilboyu istər tərcümələri, istərsə də müəllif yazıları ilə Azərbaycan esseistikasında model yaradanlardan biri filologiya elmləri doktoru Cavanşir Yusiflidir. Eyni zamanda 90-cı illərdən başlayaraq Cavanşir Yusifli bir neçə kitab həcmində dünyanın müxtəlif dillərindən filoloji esseləri dilimizə tərcümə etmişdir. Cavanşir Yusiflinin ilboyu bir kitab həcmindən çox yazıları “Ədəbiyyat” qəzetinin səhifələrində dərc olunmuşdur.

“Brikolaj, yaxud işıq qapısı” essesində Jerar Jenet və ondan əvvəl strukturalist Levi Stross tərəfindən mifoloji təfəkkürlə bağlı ərsəyə gətirdiyi “intellektual brikolaj” anlayışı müasir ədəbiyyatşünaslıq tədqiqatları ilə kəsişir. Bu kəsişmə nöqtəsi müəllifə bir sıra suallara cavab axtarmağa imkan yaradır. O, mətni hər hansı bir cərəyanın, qəlibin sərhədləri daxilində təhlilə cəlb etməyə qarşı çıxır. Tutaq ki, Nəsimi deyəndə həmin dövrün sufi-hürufi görüşləri

konteksində deyil, bu anlayışlardan kənar, bəlkə bu anlayışlara qarşı şəkildə şairin əsərlərinin təhlil prizmasından keçirilməsini vacib hesab edir. "....şairin gücü hansısa izmin qəlibinə ideal şəkildə oturmaqla deyil, ondan maksimum kənara çıxmaq cəhdləriylə bəllənir. Bu iki istiqamət arasındakı savaş bədii mətnin taleyini müəyyənləşdirir". Müəllif essedə bədii yaradıcılıqla onun tənqidi arasındakı əlaqələrə toxunur və bəzən müasir yazarların tənqidin olmaması və ya əks cəbhənin ittihamlarının yanlış olduğu qənaətinə gəlir. "Heç ola bilməz ki, ədəbi proses, bədii mətn səviyyəsində ideal, çox gözəl və mükəmməl nümunələr yaransın, buna paralel filoloji fikir ətalət sularında üzsün.."

Cavanşir Yusifli bəzən bir-birini yaxşı halda təkrar edən, yeni yanaşmanı dövriyyəyə gətirməyən tədqiqatlar haqqında fikir bildirir. Heç şübhəsiz ki, müasir filoloji fikir fərqli intellektual yanaşmaların nəticəsində meydana çıxa bilər. Məsələn, hər hansı elmi tədqiqatda məsələn, Nizaminin 1141-ci ildə anadan olmasını yazmağa gərək yoxdur. İnsanlar "Google", "Wikipedia" vasitəsilə onu bir neçə saniyə ərzində öyrənə bilərlər. Yəni tədqiqat informativlikdən və ya təkrarçı təhlildən epstimoloji təhlilə, fərqli və maraqlı baxış bucaqlarının ərsəyə gəldiyi kontekstdə çevrilməlidir. Essedə dalğanın sahili min illər boyu yuması və təkrar baş verən bu prosesin hər dəfə fərqli iz qoyaraq, yenilik gətirmək naminə olması ilə müasir filoloji fikir arasında paralel aparılır.

Müəllif "İçimizdə yaşayan kitablar" essesində də dünya və eləcə də Azərbaycan ədəbiyyatına dair mülahizələr, düşüncələr öz əksini tapır. Essedə həyatdan erkən köçmüş Kamü, Müşfiq, Əli Kərim kimi ədiblərin zamanı

ötüb keçmələri, sanki talelərini görürmüş kimi vaxtından qabaq müdrikləşmələri və "ahıl" çağına çatmalarından bəhs olunur. "Müşfiqin yazdığı şeirlərin intonasiyasında cavanlığın aşıb-daşan həvəsi, gücü, enerjisi ilə sanki aqibətini görürmüş kimi bəxtinə ağı deməsi qəribə şəkildə birləşdirilir".

"Mətnin hiss edilməsi" essesi Əhməd Cəmilin "Can nənə, bir nağıl de" şeirinə yazılmış uğurlu ətək yazısı xarakterindədir. Müəllifi haqlı olaraq uğurlu filoloji mətnin yazıçının və şairin düşündüklərini, yazdıqlarını təkrar etməklə deyil, əsərdəki "qıfıl"ları açmaqla müəyyənləşdiyini yazır. "Millət və vətən türküsü", "Əli Kərimin ad gününə", "Küldən təpəcik olmaz" müəllifin maraqlı saydığı esse nümunələridir.

Hər bir xalqın, mədəniyyətin, ədəbiyyatın kodlaşmış yaddaşı var və bu yaddaş zaman və məkan sərhədlərini aşaraq arxetipləşir və yaranan yeni nümunələrə transformasiya olunur. "Axundov yaddaşı" essesində Cavanşir Yusifli Axundovla klassik irs arasındakı əlaqəni, bağı "yaddaş" metaforası vasitəsilə izah edir. "Millət və vətən türküsü" essesində məhz bu məqama toxunulur: "Köhnəyə, köhnə təsvir və təqdim üsullarına çox fərqli, onu kökündən inkar edən metodla yanaşdıqda keçmişin bütün uğurlu və sağlam elementləri yeni yanaşmada iştirak edir və onun daha da dolğunlaşmasına şərait yaradır".

Həcm etibarilə kiçik, lakin bəşər tarixinin gəlib keçmiş ən ümdə mövzusu, yaşanan ən ali hiss – eşq haqqında "Eşq" essesi müəllifin filoloji esselərindən fərqli, bədii təxəyyülün aktı kimi meydana çıxır. Cavanşir Yusifli bir müəllif kimi fərdi iç dünyasını, onun dərinliklərini filoloq

alimdən fərqli kontekstdə, bir yazıçıya, şairə xas üslubda göstərib. Müəllif essedə eşq haqqında yazır: "Möhtac olma, sev. Hər şeyi unudaraq. Anadan olduğun günü, getdiyin, qayıtdığın yolları. Bu yolların hər qarışını sev, hər dəfə təzədən görürmüş kimi Aya baxıb salavat çək. Unut. Çünki bu səs-küydən ağlı çaşmış dünya bir gün yalqızlıqdan it kimi uluyacaq. Bom-boş qalacaq..."

Xalq yazıçısı Anara həsr olunan "Əbədi tənhalıq təhkiyə strategiyasında" essesində müasir Azərbaycan nəsrində maraqla qarşılanan "Göz muncuğu" povestindəki mətn qatları, nəqletmə strategiyası və süjet quruculuğu öyrənilir. "Qəhrəman ölür, qəbrə qoyulur və dirilir: bu təsadüfdə Azərbaycan nəsrinin klassik janrları da bir araya gəlir, həm də ölülər və dirilər kontekstində. Müdriklik və cahillik, həyat və ölüm... bu kimi dilemmavari sxemlərin tərs üzü görünür, yəni əks formada: ölüm və həyat. Mətn laylara bölünür, bir tərəfdə ölüm həyat kimi yaşanılır, digər tərəfdə həyat ölüm kimi."

Filoloji esseistikanın Azərbaycanda uğurlu müəlliflərindən biri də professor Rüstəm Kamaldır. Onun "Güzgü günü" esselər kitabında ədəbiyyatın müxtəlif zaman və məkan paradiqmaları orijinal baxış müstəvisində tədqiqata cəlb edilir. Məsələn, Molla Pənah Vaqif haqqında "Molla Pənah Vaqif: Gözün tarixi", "Molla Pənah Vaqifin güzgüsü", eləcə də "Molla Pənah Vaqif və Səməd Vurğun: felin karması" esselərində Vaqifin həyat və taleyinin XVIII əsrin "göz mədəniyyəti" kontekstində təqdimatıdır. "Vaqif mükəmməl "optik təsvir üsulu"na malik sənətkardır, bu da ona etnoqrafik artefaktlarla (geyim, bəzək əşyaları) qadın vücudu arasındakı məsafəni tam yaxınlaşdırmağa imkan

verir. Vaqif poeziyasındakı qadın dünyasına aid bütün etnoqrafik detallar dilin vizual məntiqinə tabedir, yəni etnoqrafizm bədii portret yaratmağın vacib üsulu olur".

Müəllifin Mirzə Fətəli Axundzadənin taleyinə Ziqmund Freydin "Edip kompleksi" və ya Con Ostinqin nitq aktları nəzəriyyəsi kontekstində yanaşması Azərbaycan filoloji fikri üçün yenidir. Linqvistik fəlsəfənin insan taleyi ilə paralelliyini bir müstəvidə birləşdirmək müəllif kimi Rüstəm Kamalın uğurlu tapıntısıdır. Kitabda, eyni zamanda Mir Möhsün Nəvvab haqqında "Mir Möhsün Nəvvab: İki od arasında", İsmayıl bəy Qutqaşınlı haqqında "Generalın xarabat mistikası", İsa Muğanna haqqında "İsaya inanmaq", Anar haqqında "Anar fəzası", "Telefonda səs", Zəlimxan Yaqub haqqında "Layla, Zəlimxan, layla", Nüsrət Kəsəmənli haqqında "Nüsrət Kəsəmənlinin nağılları" və digər yazılar yer alıb.

Rüstəm Kamalın esseistikasının orijinallığı haqqında yazdığı ədiblə onun yaratdığı obrazların taleyi arasında tapıntı xarakterli paralellər qurma cəhdləri ilə meydana çıxır. Xalq yazıçısı Anar haqqında "Telefonda səs" yazısı müəllifin kənddəki evində uşaqlıq xatirəsi, evin küncündəki az hallarda zəngi eşidilən telefonun səsindən başlayır. Anarın məşhur "Mən, sən, o və telefon" hekayəsindəki Vaqif Səmədoğlundan gətirilmiş epiqrafla davam edir:

Telefon nömrələri
Oxşamaz bir-birinə
Amma hamısında
İnsan səsi...
...pis günlər

Oxşamaz bir-birinə
Birində özün susarsan,
Birində telefon

Və sonda Anarın Ədəbiyyat İnstitutundakı müşavirədəki telefonuna zəng və Vaqif Səmədoğlunun ölüm xəbəri... Bütün hadisələri, təxəyyüllə reallığın kəsişməsini ən gözəl belə təsvir etmək olardı.

Müəllif kitab içində kitab yaradıb, Cəlil Məmmədquluzadə haqqında bir bina hörüb. "Mirzə Cəlilin hesab dəftəri" essesində Cəlil Məmmədquluzadənin məktublaşmalarında, şəxsi həyatındakı maliyyə hesablamaları diqqət mərkəzinə çəkilib. "Frans Kafka və Mirzə Cəlil: "həbsiyyə" oyunu" yazısında Kafkanın "Məhkəmə" romanındakı Yozef K. ilə Novruzəli arasında tipoloji paralellər aparılıb. Eyni zamanda "Yuxudan oyanma qorxusu: Frans Kafka və Mirzə Cəlil", "Mirzə Cəlil və Həmidə xanım: ağrı xatirəsi", "Ç-C-Ş: ömür səslərin ilgəyində", "Mirzə Cəlil lüğəti", "Akuşka"dan görünən dünya" və "Mirzə Cəlilin teleqraf poetikası" esseləri Azərbaycanın görkəmli demokratik ədibinə həsr olunmuş maraqlı esse nümunələridir.

Rüstəm Kamalın "Yalqız atlının türküsü" yazısı Çingiz Aytmatova həsr olunub. Müəllif Çingiz Aytmatovun əsərlərinin ruhunda musiqinin, türkülərin dayandığını maraqlı nümunələrlə izah edir. Müəllif haqlı olaraq, Aytmatov qəhrəmanlarının dünyaduyumunun məhz türkülərlə bağlı olması qənaətinə gəlir. Təsadüfi deyil ki, Çingiz Aytmatov "Qiyamət" romanında Avdi kilsədə musiqi dinləyərkən, melodiyanın inanılmaz sehrini ifadə edirdi: "Axı hər şey bitib tükənəndə, milyard illərdən sonra dünyanın

axırı yetişibən, bizim planetimiz sönüb öləziyəndə, özgə kəhkəşanlardan gələsi şüur tərzi azman səssizliyin, boşluğun ortasında bizim musiqini və nəğmələri mütləq eşidəcəkdir... Həyat, ölüm, mərhəmət və həsrət – bunların hamısı musiqidə deyiləcək, çünki ən ali sərbəstliyi məhz musiqidə qazana bilmişik, insan hafizəsində ilk işartılardan tutmuş, üzübəri, bütün tarix boyu bunun uğrunda çarpışmışıq, arayıb-axtardığımızı hələ ki, yalnız musiqidə tapmışıq".

"Əbdürrəhim bəyin"qəstin"ləri" essesində Haqverdiyevin taleyindəki "mehmanxana mətni" və ya metaforası ilə əsərlərindəki qəhrəmanlarının oxşar taleyi araşdırılır. "Onun bioqrafiyası "mehmanxana mətni"ndən ibarətdir. Onun bədii süjetlərinin əsas xronotopunu da mehmanxana təşkil edir, süjetlərdə mənayaradıcı məkandır. Mehmanxana yeganə yerdir ki, qəhrəman öz mehmanxana sərgüzəştlərinin tarixini, keçən günləri ardıcıllıqla danışa bilir".

Və yaxud "Roman oxuyan qız" essesində Səməd Vurğunun yaradıcılığındakı qız və roman motivini araşdırır. Rüstəm Kamalın esselərində fəhmlə filoloji məntiq olduqca maraqlı nöqtədə kəsişir. Yazılarındakı ədiblərin həyatını, taleyini və yaradıcılığını dəqiq bilir. Essedə müəllif Səməd Vurğundakı "qız və roman" motivinin Puşkinin Tatyanasının invariantı olduğu qənaətinə gəlir. Olduqca maraqlı bir tapıntıdır. Başqa bir essesi, "Mir Cəfərin qara maşını" essesi repressiyanı, qorxunu simvolizə edən "emka"lardan bəhs edir. Repressiya mövzusu müəllifin esseistikasında ayrı bir silsilə təşkil edir.

"Mirzə Cəlil Azərbaycanın ən böyük tanatoqrafıdır. Tanatoloji motivlər və obrazlar onun xatirələrinin, yuxularının və əsərlərinin əsasını təşkil edir". Rüstəm Kamalın

"Mirzə Cəlilin tanatoqrafiyası" essesindəki bu fikirlər bizi düşündürməyə bilməz. Rüstəm Kamal essedə Cəlil Məmmədquluzadənin həyatındakı və yaradıcılığındakı ölümlə bağlı motivləri qeyri-adi şəkildə bir-birinə müncər edir. Həmidə xanımın xatirələrindən gətirilən sitatlar və əsərlərindəki onun proyeksiyası bir-birini qəribə şəkildə tamamlayan məqamlardır.

Ötən ildə Azərbaycan esseistikası mədəniyyətin müxtəlif aspektlərini – kino, teatr, rəssamlıq və heç şübhəsiz ki, ədəbiyyatı bir çatı altında birləşdirən Azər Turanın yazıları ilə daha da dolğunlaşdı. Caz, sadəcə, musiqi deyildir" essesində Azər Turan Vaqif Mustafazadəyə həsr etdiyi "Sənsiz sənlə" əsərinin səhnə taleyi fonunda Azərbaycan cazının və onun görkəmli yaradıcısı Vaqif Mustafazadə yaradıcılığı ətrafında maraqlı faktları açıqlayır.

"Ədəbiyyatşünaslıqdan milli ideologiyaya" yazısında bədii yaradıcılıq aspekti ilə elmi düşüncənin daim bir-biri ilə əlaqədə olduğunu, qarşılıqlı keçidlərin hər zaman aktual olmasından yazır: "Yazıçılar Birliyinin "Ədəbiyyat qəzeti" ilə Akademiyanın Ədəbiyyat İnstitutu Azərbaycan ədəbiyyatının qoşa qanadıdır. Qoşa qanad tandemini təsdiqləyən mükəmməl örnəklərimiz də var".

"Eşqi həmişələr gəlir yanıma..." essesində Buynuz kəndində Musa Yaqubla söhbətləşir, Nizaməddin Şəmsizadənin elmi yaradıcılığından, Azərbaycan ədəbiyyatşünaslığı tarixində yerindən danışır.

Ötən il "Ədəbiyyat qəzeti"nin bir sayı "tutduğu vəzifədən çox-çox ucada dayanan bir mütəfəkkir" (Azər Turan) Xalq yazıçısı Anara həsr olundu. Azər Turan ustad yazıçının yubileyinə onun özünün yazdığı traktatının adını

götürərək, “Anarın yaşamaq haqqı” adlandırıb. Müəllif qəzetin bu sayının Azərbaycan ədəbiyyatında yaşamaq haqqını çoxdan qazanmış bir ədibə – Xalq yazıçısı Anara həsr edildiyi üçün hər zaman axtarılan nüsxəyə çevriləcəyinə əminliyini ifadə edir. Məncə də haqlıdır.

“Yatmış şəhərin yuxusu essesi” rəssam, eyni zamanda şair Ucal Haqverdiyevin taleyinin, yaradıcılığının rəsmidir. Müəllif yazıda Ucalın taleyini, onun fərqli və digərlərindən seçilən həyatını Aydın Talıbzadənin yaratdığı Tuncal obrazı ilə eyniləşdirir. “Nəsrimizdə epik sanbalına və modernist estetikasının parlaqlığına görə seçilən “Əbuhübb” romanında Aydın Talıbzadə avanqard bir rəssam obrazı yaradıb: Tuncal! Çəkdiklərini heç kəs anlamır. Həm də şairdir. Amma şeirlərini dostlarından başqa heç kəsə oxumur. Bütün halıyla – rəsmlərilə, şeirlərilə, qəribəlikləri ilə Tuncal Ucaldır”.

Azər Turanın çap olunmuş esseləri vahid bir mətnin parçalarını xatırladır və yazılar arasında çox qəribə şəkildə keçidlər mövcuddur. “Quşlar saatla yox, işıqla başlayır oxumağa...” essesində yenidən Ucal Haqverdiyev haqqında olan yazıya qayıdır. “Ucal öz məxməri səsiylə “Qalx, Fransua, quşlar artıq çoxdan Allahı salamlayıb”, – deyə Fransua Millenin anasının hər səhər oğlunu yuxudan oyadarkən söylədiyi sözləri yada salacaq”.

“Hey fələk, keçdi zaman dalğa kimi...” essesində Turan Cavidin son günü bütün ayrıntıları ilə öz əksini tapıb. Eyni zamanda Azər Turanın ötən il Xalq yazıçısı Elçin haqqında “Vətənin Elçini”, Məsud Əlioğluna həsr etdiyi “Eşq və kədər yağmuru...”, “Dəlixana divarını öpdü çinar budaqları...”, “Şər çiçəkləri”, “Sevgi məktubu kimi”,

“Dünyanın Cavad mifi”, “Bir qəribə şair – Orxan Vəli”, “Dünya poeziyasının türk şahzadəsi”, “Ayrılıqların sürreal mənzərəsi... Bir cüt mavilik” esseləri maraq doğurur.

Rəşad Məcidin “Əvvəl-axır yazılanlar” silsiləsindən (Kamal Abdulla) ilhamlanaraq sosial şəbəkələrdəki statuslarını “Qələmsiz yazılanlar” başlığı altında təqdim etməyə başladı. Doğrudan da sosial şəbəkələrdə, xüsusən də “Facebook”da aparılan ədəbiyyat söhbətləri, ədəbiyyatın və ədəbiyyatşünaslığın ən müxtəlif məsələləri ilə bağlı paylaşılan statuslar, onlara yazılan şərhlər heç də digər yayım üsullarından (qəzet, jurnal və hətta internet saytları) geri qalmır, hətta deyərdim ki, onları funksionallığı və hərəkiliyi baxımdan üstələyir. Rəşad Məcidin 2018-ci ilin sonunda başlatdığı bu format 2019-cu ildə davam etdi və nəticədə müəllifin eyniadlı kitabı işıq üzü gördü (Bu artıq növbəti ilin tədqiqat mövzusudur).

Müəllifin silsiləvi “Qələmsiz yazılanlar”ı 2018-ci ilin sonunda başladı və bu yazı “Facebook” statusları barədə Orxan Pamuka verilən sualla başlayır. Rəşad Məcidin kollajında Kamal Abdulla, Ramiz Rövşən, Aqil Abbas, Təbriz və akademik İsa Həbibbəyli ilə birlikdə “Fizika-Lirika” konfransı – Şamaxı və Dubna xatirələri yer alır.

Azərbaycanda esseistikanın inkişafında Qismət həm müəllif, həm də dünya esseistlərinin yazılarını dilimizə tərcüməçisi kimi son illərdə bir çox uğurlu işlər görmüşdür. Baş redaktoru olduğu “Sim-sim.az” portalı Azərbaycanda esseistikasının yeni məktəbi xarakterindədir. 2018-ci ildə Qismətin tərcüməsində “Ədəbiyyatsız dünya” esselər kitabı çap olunmuşdur. Kitabda Mario Varqas Lyosa, Orxan Pamuk, Suzan Sontaq, İtalio Kalvino, Səmih

Gümüş, Zadi Smit, Mo Yan, Xavier Marias, Con Bart, Marsel Prust, Sartr və digərlərinin şedevr esseləri yer alıb. Cari ildə Qismətin şair Səlim Babullaoğlu haqqında yazdığı "Səlimin şeirləri ilə kültür gəzintisi", yazıçı Kamal Abdulla haqqında "Üz-üzə güzgülər" esseləri dərc edilmişdir. Eyni zamanda Qismət, Azərbaycanda esseləri dünya dillərinə tərcümə olunaraq ayrı-ayrı ölkələrdə çap olunan azsaylı müəlliflərdən biridir.

Müasir Azərbaycan ədəbiyyatında esseistikanın inkişafında xidməti olan alimlərimizdən biri də filologiya üzrə fəlsəfə doktoru Məti Osmanoğludur. 2018-ci il bu baxımdan Məti Osmanoğlunun iki kitabla yadda qalıb. Belə ki, müəllifin 2018-ci ildə "Sözün o üzündə" adlı ədəbi fraqmentlə kitabı çap olunub. Kitabı müəllif filoloji araşdırmalar, esselər və xatirələr kitabı adlandırsa da, fikrimizcə burada toplanan yazıların böyük əksəriyyəti esselərdir. Filoloji araşdırmalar belə esse janrının xüsusiyyətlərinə uyğun olaraq yazılmışdır. Eyni zamanda 2018-ci ildə Məti Osmanoğlunun tərtib etdiyi "Ədəbiyyat nəzəriyyəsi müntəxabatı" kitabı nəşr olunmuşdur. Kitabda müəllifin tərcüməsində dünya filoloji fikrində mühüm əhəmiyyətə malik olan esselər təqdim olunmuşdur. Ziqmund Freyd, Karl Qustav Yunq, Albert Kamyu, Xose Orteqa Qasset, Rolan Bart, Umberto Eko və digər dünyaca məşhur fikir adamlarının filoloji fikrə yön verən, istiqmətləndirən esseləri bir kitabda təqdim olunmuşdur. Məti Osmanoğlunun müntəxəbat şəkilində hazırladığı bu kitab ölkəmizdə nəzəri fikrin inkişafı üçün görülən əhəmiyyətli işlərdən biridir.

Fərid Hüseynin Lev Tolstoyun "Anna Karenina" romanının təəssüratları əsasında yazdığı "Oynamayanların

qələbəsi” silsiləsi zamanlararası əlaqələr baxımından maraq doğurur. Müəllif XXI əsrdə, ətrafımızda baş verən dəyişimlərlə romanda baş verən psixoloji təbəddülatları birbirinə müncər edir. Bu təmas nöqtəsində günümüzdə aktual olan məsələlər, suallar öz cavabını tapır. Məsələn, müəllif son zamanlar, xüsusən də gənclər arasında geniş yayılmış intihar haqqında yazır: “İntihar seçimi yaşamağa nifrətdən yaranır və özünəqəsd düşüncəsinin toxumu insanın qəlbinə sevgi və nifrət arasındakı məşum döyüşdən – sevginin məğlubiyyətindən sonra səpilir. Yəni ruhən məğlub hala düşmüş insan, daha yaşamaq və hər gün eyni güc – reallıq tərəfindən əzilmək, alçaldılmaq istəmir. Çünki insan həmin məqamda – intihar etmək qərarına gələndə düşünür ki, onu sabah bu gündən fərqli, daha xoşbəxt bir gün gözləmir”.

Müəllifin silsiləsi təkcə təəssüratların ifadəsi kimi deyil, roman haqqında yazılmış uğurlu ətək yazıları, obrazların mənəvi-psixoloji dünyasını yozmağa yönəlik tədqiqat xarakterindədir. Müəllif Təbiətə münasibətləri baxımından Kiti ilə Vronskinin müqayisəsi edir və bu yanaşmanı onları sonrakı taleyi ilə bağlayır: “Onların hər ikisi təbiəti sevir və hər ikisinin ruhən təbiətə ehtiyacı var. Çünki onları ruhi təbəddülatlardan təbiət xilas edir. Levin təbiətə qulluq etməyi, nələrisə yetişdirməyi sevir, Vronski isə maneəli at cıdırının dəlisidir.... Onların bu düşüncə fərqləri qadına və ən əsası həyata münasibətdə daha aydın görünür. Ona görə də təbiətə mərhəmətdən ürəyi rahatlıq tapan Levin Kitinin xidmətkarına, təbiəti həzz naminə sevən Vronski isə Annanın “qatilinə” çevrilir”.

Pərvinin “Don Kixano...”, “Şəki.... və Bəxtiyar Va-

habzadə", "Şamaxı... və Mirzə Ələkbər Sabir...", Bakı... və Qara Qarayev" və başqa esseləri maraqla qarşılanıb. Müəllif "Xalis xilas" essesində özü ilə söhbət edir, həyatın tapılmayan mənasını, bəlkə də sirrini açmağa çalışır. Niyə və nə üçün yazırıq", – sualına cavab axtarmağa çalışır: "Çox yaxşı başa düşürəm, bilirəm ki, heç kəs heç kəsin kitabını oxumur indi. Gecələri klaviatura arxasında keçirəndə, günəşi sözlə qarşılayanda düşünürəm bunu. Kimə lazımdı görən bunların hamısı? Dünya heç vaxt bu durumda olmayıb. Heç kim oxumur, amma hamı yazır və özü haqqında yazdırır!!! Bəlkə elə bunun özü də xilas üçündü, bir azacıq reallıqdan qopmaq, dünyadan ayrılmaqdan ötrüdür".

Pərvinin "Tarixləri əks etdirən türk sözü" essesi Xalq yazıçısı Anarın "Türkün sözü" yazısı haqqında, onun mahiyyətini açan Ön söz xarakterindədir.

Gənc şair, esseist Ramil Əhmədin ötən il "İki şəhərin yazıları" adlı esselər kitabında müəllifin 2015-2017-ci illərdə Bakıda və təhsil aldığı İstanbulda qələmə aldığı yazıları toplanmışdır. Kitabda ədəbiyyatla bərabər, kino və rəssamlıq haqqında yazılar yer alıb. Ramilin poeziyadan filoloji fikrə, ədəbiyyatşünaslığa addımlar atmasının izlərini görmək mümkündür. Bəzən müəllif hər hansı essesinə sanki hekayə yazırmış kimi başlayır. "Mən Mişel Uelbekəm" yazısında olduğu kimi.. "Mənə Mişel deyin. Mişel Uelbek. Əgər bu yazını Ramil Əhməd yazsaydı, bəlkə də, "Xəritə və torpaqlar" romanını Bəyoğlundakı kitabçılardan necə almasından başlayacaqdı. Şübhəsiz ki, Mişel Uelbeki çoxdan tanısa da, kitabını oxumaq fürsətini tapa bilmədiyini də əlavə edəcək və kim bilir, daha nələrdən danışacaqdı".

Ramil Əhməd böyük həvəslə yenicə tərcümə olunaraq Türkiyədə çap olunmuş əsərlər haqqında fikirlərini, mülahizələrini irəli sürür. Bu yazılar müəllifin əsərini Azərbaycan oxucusuna təqdimat xarakteri daşıyır.

Nərgiz İsmayılovanın (Nargis) ötən il "Ədəbiyyat qəzeti"nin səhifələrində bir neçə yazısı dərc olunub. "Susqunluqlarım məni təmkinli yox, təhlükəli qadına çevirirdi getdikcə..." yazısında müəllif sanki yaratdığı qadın obrazının daxili təlatümlərini ifadə etməyə çalışır. "Ştefan Svayqın "Yad qadının məktubu" novellası və bozumtul kədər" yazısında Nargis əsəri filoloji şərhini verir.

Ülvi Babasoy "Tanrını sorğulamaq cəsarəti" essesində Həsən Əli Toptaşın "Hədər" romanından yazır. Və ya "İsa Martha və Məryəmin evində" essesində insanların daima özlərini başqaları ilə müqayisə edərək natamamlıq kompleksi yaşamalarından bəhs edir. "Kalvinonu oxumayanlar üçün" essesində İtalio Kalvinonun "Bir qış gecəsi əgər bir yolçu" romanının izi ilə gedərək oradakı mətləbləri, müəllif-əsər-oxucu müəlliflərinə aydınlıq gətirməyə çalışır.

Müəllif kimi, Ülvi Babasoyun 2018-ci ilə damğa vura bilən yazısı "Əbədilik illüziyasına qaçış" essesi oldu. XIX sərin sonu, XX əsrin əvvəllərində yeni modernist mərhələnin ən müxtəlif sənət növlərində yaranıb inkişaf etməsi müəllifin mətnində öz əksini tapır. Azər Turanın "Dünyanın Cavad mifi – Azərbaycan modernizmi" essesinin izi ilə gedən Ülvi Babasoy filoloji fikir üçün olduqca əhəmiyyətli cığırlar açmağı bacarır. Azər Turanın "Dünyanın Cavad mifi – Azərbaycan modernizmi" essesi məndə müxtəlif çalar və mənalara parçalanan assosiasiya doğurdu. Fikir və duyğuların parçalanmış, hissələrə bölünmüş mozaik de-

korasiyaları sənət tarixində sürətli və çevik, ancaq yaradıcı səyahəti gerçəkləşdirdi. İncəsənətə mifik və tarixi yaddaş fonunda baxış məna və struktur, ruh və intellektə diaxron, ritmik və simmetrik elastika əlavə etdi. Elmi təfəkkürlə esseistik yanaşma tərzi bir-biri ilə mübarizə apardı. İkisinin qızıl ortasını tapmaq çabası ilə incəsənət və humanitar indeksli bir yazı ortaya çıxdı".

Esseistikanın əsasında fəlsəfi düşüncə, fikir axımları dayanır. Azərbaycanda sırf fəlsəfi esselər də yaranır. Təbii ki, bu bizim birbaşa tədqiqat obyektimiz deyil. Amma bəzi məqamlara toxunmaq da gərəklidir. Fəlsəfə elmləri doktoru Rahid Ulusel ölkəmizdə fəlsəfi esseistikanın olduqca maraqlı nümayəndələrindən biridir. Hələ 2009-cu ildə müəllifin çap olunmuş "Esseistika" kitabında İmadəddin Nəsimi, Füzuli, Cəlil Məmmədquluzadə kimi ədiblərimizin əsərləri fəlsəfi kontekstdə araşdırılır. Onun ötən il dövri mətbuatda çap olunmuş "Rum elinə bir baxış, yaxud Afinada fəlsəfi anımlar", "Kainatın ali məqsədləri boyunca", "Nitşse Babəki tanısaydı", "Şərq və Qərb İntibah mədəniyyətlərinin iki dühası: Füzuli və Mikelancelo", "Kainatın ali məqsədləri boyunca, yaxud Əmziyi atmağın vaxtı", "Dünya mədəniyyətinin ana ideyaları necə yoğrulub", "Bhaqavad-qita" zəmanəmizin Savaş meydanında", "Fəlsəfə və Siyasət Platonla necə yanılmışdı", "Dindən yüksək "Avesta", "Cığırların qovuşduğu Yol – TAO", "İslam fəlsəfəsi və onun "Günəş ləkələri", "Azad Ruhun strateji yüksəkliyi, yaxud Sözü və Daşı gələcəyə elçi göndərənlər", "Mədəniyyət əxlaqının təməl dəyəri – klassika", "Düşüncə mədəniyyətini ehkamlar saranda nə baş verir", "Mədəniyyət və Texnosivilizasiya" və "Mədəniyyətin ide-

ya kökləri” esseləri Azərbaycan fəlsəfi esseistikasını inkişaf etdirmişdir.

Mehman Qaraxanoğlunun “Alleqoriyadan simvolikaya...” essesində müəllif bir daha Azərbaycanın böyük satirik yazıçısı Cəlil Məmmədquluzadənin, onun əsərlərinin mətn qatları barədə yazır. Essedə dünya (Qoqol, Bulqakov) və Azərbaycan ədəbiyyatı (Nizami) kontekstində Mirzə Cəlilin yeri təhlil olunur. Barat Vüsalın “Ənəlhəq deyən kişi...” essesində İsa Muğannanın əsərlərindəki ideyalarla Jene de Matlokun əsərindəki fikirlərin eyniliyindən bəhs edir. “Məchul dilin məlumluğu” essesi klassiklərin söz haqqında söylədiklərindən bir mozaika xarakteri daşıyır. Rəvan Cavid “Kim daha çox xoşbəxt ola bilərdi?!” essesində sevginin, xoşbəxtliyin sirrini axtarır. “Yazıçı, təhkiyəçi həmişə alternativ olanı düşünür. Kədəlidirsə, xoşbəxt olmaq haqqında düşünəcək. Xoşbəxtdirsə, kədərli bir sükut axtaracaq. Deməli, bizim xoşbəxtlik haqqında səhifələri doldura bilməməyimizin bir səbəbi də kədərimizi, əzabımızı tanımamağımızıdır. Ya da bütün hisslər bizim uydurduğumuz bir illuziyadır. Bizim düşündüyümüz an mövcud olur”.

Babullanın 20 Yanvar hadisələrinə həsr etdiyi “Azadlıq məbədinin memarı”, Günel Natiqin “Sevgi və xəyanət”, Musa Quluzadənin “Xəzərim mənim”, “Kor Xəlil”, “Sərhədsiz quşlar”, “Kölgədə bitən... kölgədə yaşayan”, Sevil Gültənin “Anamın yuxu gördüyü ev”, “Uşaqlıq illərimin şəkilləri”, Tural Turanın “Uşaqlığımızın rəngli kişiləri”, Şəhriyar del Geraninin Kiyevlə üz-üzə “Yenə bu şəhərdə üz-üzə gəldik...” yazıları ilə 2018-ci ilin esse mənzərəsi daha da dolğunlaşmışdır.

Gülnar QƏMBƏROVA
Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI 2018-Cİ İLDƏ

Hər il olduğu kimi, 2018-ci ildə də ədəbi proses uşaq ədəbiyyatına müəyyən qədər diqqət ayırmış, gənc nəslin təlim-tərbiyəsində, bir şəxsiyyət kimi formalaşmasında müstəsna rolu olan bu ədəbiyyatın inkişafına xidmət edə biləcək tədbirlər keçirilmişdir. Ancaq əfsuslar olsun ki, ədəbi tənqid uşaq ədəbiyyatına dair ardıcıl təhlillər bu ədəbiyyatın nəzəri-estetik problemlərinə, çatışmayan cəhətlərinə diqqət ayırmamışdır.

Ötən ilin uşaq ədəbiyyatına nəzər salanda bu sahədə xeyli işlərin görüldüyünün şahidi olduq. Həm uşaq ədəbiyyatına aid müəyyən müzakirələr keçirildi, polemik məqamlar yarandı, həm də bu ədəbiyyat sahəsinin dirçəlişini, canlanmasını təmin edən layihələr reallaşdırıldı.

Uşaq ədəbiyyatı haqqında aparılan mükalimələrdə dəyərli ədəbiyyatşünaslarımızın bu sahəyə diqqət və qayğısının bir daha şahidi oluruq. Belə ki, akademik İsa Həbibbəyli "Azərbaycan" jurnalında dərc olunmuş müsahibəsində də bu ədəbiyyatın aktual problemlərinə toxunmuş, qarşıda duran məqsəd və vəzifələrin həlli istiqamətində müəyyən addımlar atıldığını və daim uşaq ədəbiyyatının diqqət mərkəzində olmasının vacibliyini vurğulamışdır. Elə akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda filologiya elmləri doktoru, dosent Elnarə Akimovanın rəhbərlik etdiyi "Uşaq ədəbiyyatı" şöbəsinin yaradılması isə bu sahədə atılan ad-

dımlardan ən uğurlusu oldu. Fikrimizcə, bu şöbə gələcək fəaliyyətində gənc nəslin təlim tərbiyəsinə, gələcək inkişafına, bir şəxsiyyət kimi formalaşmasına təsir göstərən ədəbiyyatın dəyərləndirilməsi istiqamətində mühüm işlər görəcək.

"Ədəbiyyat qəzeti"nin müzakirə saatına "Cocuk və genclik edebiyatı yazarları birliği" başkanı Bican Veysəl Yıldızın dəvət olunması, çağdaş ədəbi tənqidin peşəkar simalarından olan Elnarə Akimovanın və digər qonaqların müxtəlif türk xalqlarının uşaq yazarları arasında qarşılıqlı əməkdaşlığı, Azərbaycan ilə Türkiyə uşaq ədəbiyyatına dair maraqlı polemika aparmaları da diqqətəlayiq haldır. Bu müzakirə zamanı Azərbaycan və Türkiyə uşaq ədəbiyyatı nümunələrinin qarşılıqlı şəkildə tədqiq olunması ideyası ortaya qoyulmuş, bir çox mühüm problemlərin həllini həyata keçirmək üçün vacib məsələlər müzakirəyə çıxarılmışdır.

Ötən ilin may ayında Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin və Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının birgə təşkilatçılığı ilə "Misir və Azərbaycanda uşaq ədəbiyyatı" mövzusunda keçirilən tədbir Azərbaycanda Misir uşaq ədəbiyyatını, eləcə də Misirdə Azərbaycan uşaq ədəbiyyatını təbliğ etmək, uşaqlar və gənclər arasında mütaliə marağının artırılması məqsədilə təşkil olunmuşdur.

Yeri gəlmişkən, ötən il Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə bir sıra tədbirlər həyata keçirilmişdir. Bunlardan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Beynəlxalq Uşaq Kitabı

Gününə” həsr olunmuş tədbiri, müxtəlif uşaq ədəbiyyatı sahəsində yazıb-yaradan yazarlarla görüşlərin təşkilini, şeir müsabiqələrini, müxtəlif kitab təqdimatlarını misal göstərə bilərik. Bütün bu sadaladığımız tədbir və layihələr ölkəmizdə uşaq ədəbiyyatına, uşaqlara olan diqqət və qayğının göstəricisidir.

2018-ci il uşaq ədəbiyyatına marağın yaranması və təbliği sahəsində müxtəlif səviyyəli tədbirlərin və müsabiqələrin keçirilməsi ilə yadda qaldı.Uşaq ədəbiyyatının qarşısında duran yaradıcılıq vəzifələrini və problemlərini qabartmaq üçün bu kimi tədbirlərin həyata keçirilməsi tədqirəlayiq haldır. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən “Kiçikyaşlı məktəblilər üçün ən yaxşı nəsr, nəzm və dram əsərləri” müsabiqəsində Reyhan Yusifqızı “Nəsr əsərləri” nominasiyası üzrə II yerə layiq görülmüşdür.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2019-cu ilin aprel ayında elan olunan “Birpərdəli pyeslər” müsabiqəsinin qaliblərindən biri Sevinc Nuruqızıdır. Yazıçının “Al çobanyastığı ləçəkləri” pyesi III yeri tutmuşdur. Pyes Qarabağ həqiqətlərini özündə əks etdirən birpərdəli əsərdir.

Bu yaxınlarda Türkiyədə keçirilən “İlesam-Akdağ-9” İlesam-Akdağ Uşaq ədəbiyyatı Roman, hekayə və nağıl-2018 (Kitab dosyası) müsabiqəsinin yekunlarına görə, 15 aprel 2019-cu il tarixində birinci yeri Azərbaycandan olan uşaq yazıçısı Sevinc Nuruqızının “Melissa” adlı (İmdat Avşarın tərcüməsində) əsəri qazandı.

2018-ci ildə həm nəsr, həm poeziya nümunələri kifayət qədər yazılmış, uşaq ədəbiyyatına aid xeyli kitablar

dərc olunmuşdur. Nəşr olunan nümunələrə "Ədəbiyyat qəzeti"ndə, "Azərbaycan", "Ulduz" jurnallarında, sırf uşaq jurnalları olan "Göyərçin", "Göy qurşağı", "Sehirli dünya" jurnallarının səhifələrində rast gələ bilərik.

Nəsr nümunələri ötən ildə də üstünlük təşkil etmişdir. Zahid Xəlil, Qəşəm İsabəyli, Qəşəm Nəcəfzadə, Reyhan Yusifqızı, Sevinc Nuruqızı, Gülzar İbrahimova, Elvira Məmmədova, Mina Rəşid, Əfsanə Laçın, Sevinc Elsevər, Sahib Fətiyev, Qaçay Köçərli, Xülya Cəfərova yazdıqları hekayə, nağılları balaca oxucuların ixtiyarına vermişlər.

Zahid Xəlilin 2018-ci ildə iki kitabı çap olunmuşdur. Bunlardan biri "Kralın kreslosu" adlanır. Burada müxtəlif məzmunlu uşaq hekayələri toplanmışdır. Bunlardan "Yumru yumaq", "Oxuyan koğuş", "Papaq", "Üzgüçü Tural", "Qırmızıpapaq və canavar", "Günəşin dənizdə qalan saçları", "Turalın atı", "İki nar" və başqalarının adlarını çəkmək olar.

Zahid Xəlilin "Üçbucaq ölkənin adamları" hekayəsində müəllif uşaqları qeyri-adi dünyaya səyahətə aparır, "Kralın kreslosu" fantastik hekayəsində isə şöhrətpərəstlik, təkəbbürlük tənqid olunur.

Ədəbiyyatımızda həmişə folklor motivlərinin, nağıl, tapmaca janrında əsərlərin yazılması aktual olmuşdur. Zahid Xəlil "Atalar sözü şəhəri" hekayəsində şəhərin obrazını yaradarkən sakinlərin dilindən fərqli atalar sözü işlətməklə həm bu folklor nümunələrimizi uşaqlara təlqin edir, həm də uşaqlar bu atalar sözlərini hekayə oxuyarkən daha asan üsulla mənimsəmiş olur: "Yüz dəfə ölçülüb bir dəfə biçildiyinə görə, bu şəhərin küçələri ox kimi dümdüzdü. Evlərin həyətlərindən adamın burnuna təzə bişmiş çörək

ətri gəlirdi. Burada çörəyi doğrudan da gözəl bişirirdilər. Axı onlar çörəyi çörəkçiyə verirlər. Buradakı adamların cavanları da, yaşlısı da demək olar ki, eyni ağıldadı. Hamı bir-birinə diqqətlə qulaq asır və bir sözü qəti yaddan çıxarmırlar: ağıl yaşda deyil, başdadı" (Zahid Xəlil. Kralın kreslosu. Bakı: "3 alma", 2018, s. 274).

Demək olar bütün yaradıcılığını uşaqlara həsr etmiş Qəşəm İsabəylinin ötən il "Ədəbiyyat" qəzetində müxtəlif hekayələri nəşr olunmuşdur. "Aauu", "Ayı və ovçular", "Şəm-şəmlə nökərin əhvalatı" bunlara nümunədir. Ötən il 70 illiyi qeyd olunan Qəşəm İsabəylinin yubileyi münasibətilə Zahid Xəlil "Ədəbiyyat qəzeti"nin 18 avqust buraxılışında ona "Uşaqlığını yazan şair" adlı bir məqalə həsr etmişdir. Bu məqalədə şairin yaradıcılığına ümumi nəzər salınmış, bir sıra şeirləri təhlil edilmişdir. Zahid Xəlilin bir uşaq ədəbiyyatının nümayəndəsi olaraq həmkarına gözəl sözlər yazması tədqirəlayiq haldır. Çünki eyni növdə, janrda yazan bu yazıçıların mühakiməsi, müzakirəsi uşaq ədəbiyyatının çatışmayan cəhətlərinin aradan götürülməsi üçün mühüm vasitədir.

Uşaqlar üçün əsərlər yaradan yazıçı uşaq dünyasına dərindən bələd olmalı, onun psixologiyasını bilməli, eyni zamanda ətraf aləmdə baş verən prosesləri, bu proseslərin uşaq aləminə təsirini araşdırmalı, üzə çıxarmalıdır. Yazıçı yazdığı hadisələrə seyirçi mövqedən yanaşmamalı, təqdim etdiyi mövzunu, ideyanı elə çatdırmalıdır ki, uşaq əsəri oxuyarkən bunu anlaya bilsin. Tədqiq etdiyimiz nəsr əsərlərinin müəlliflərinin çoxu bu sadaladığımız prinsiplərə əməl etməyə çalışmış, uşaqların təfəkkürünün, dünyagörüşünün formalaşmasında, onlarda insani keyfiyyətlərin,

dostluğun, yoldaşlığın yaranmasında müəyyən rolu ola biləcək əsərlər yazmışlar. Reyhan Yusifqızının "Ad günü", "Arximed niyə gülürdü" adlı hekayələri belələrindəndir. "Ad günü" hekayəsinin qəhrəmanı Zeynəb öz doğum günündə sinif yoldaşlarını qonaq çağırır, lakin o öz yaşına uyğun olmayan biçimdə onların qarşısına çıxır. Zeynəbi bu vəziyyətdə görən uşaqlar ona gülür. Bu zaman bərk dilxor olan Zeynəb nə edəcəyini bilmir. Ancaq Arzu adında sinif yoldaşı Zeynəbə bu çıxılmaz vəziyyətdə kömək edir, uşaqları əyləndirmək üçün bir oyun qurduqlarını söyləyir. Müəllifin bu hekayəsi qısa olsa da, əslində uşaqları tərbiyələndirmək baxımından maraqlı süjet xətti üzərində qurulub. Burada qloballaşan dünyamızda, elm, texnika əsrində həm uşaqların öz yaşlarından böyük görünmək istəyi tənqid olunur, həm də onlara dostluğun önəmi, sevgi, mərhəmət hissi aşılanır.

Reyhan Yusifqızının həm bu hekayələrində, həm də digər əsərlərində uşaqlara əxlaqi-tərbiyəvi ideyalar aşılansa da, müəllif bunu tövsiyə şəklində etmir. Əksin hadisələrdən kənar mövqedə çıxış edir və müəllif müdaxiləsi hiss olunmur.

Uşaqların mənəvi dünyasının, xəyal aləminin zənginləşməsinə səbəb ola biləcək əsərlər arasında Sevinc Nuruqızının "Meşədə yeni il" hekayəsini də göstərmək olar. Burada yeni ildə uşaqların bəzədiyi küknar ağacının meşədə qar dənələri, meşə heyvanları tərəfindən bəzədilməsindən bəhs olunur. Yazıçı Balaca Küknarın qar dənələri ilə ilk tanışlığını çox dolğun, canlı təsvir edir. Sevinc Nuruqızı kiçikyaşlı uşaqlar üçün müxtəlif şəkilli kitabçalar da hazırlamışdır. Ayrı-ayrı hərflərin öyrənilməsi məqsədilə nə-

zərdə tutulmuş bu kitabçalarda hər hərfə uyğun yazılar dərc olunmuşdur. Məsələn, “B” hərfini öyrənək” (“Təhsil” nəşriyyatı, 2018). “B” hərfini uşaqlara öyrətmək məqsədilə şair həm bu hərfin üstünlük təşkil etdiyi hekayələrə, şeirlərə yer verir (“Bayrağa bax”, “Balaca balıq və böyük balina”), həm də uşaqlarda məntiqi təfəkkürün inkişaf etdirilməsini təmin edən, onların dil qabiliyyətini formalaşdıran tapmaca və yanıltmaclara burada rast gəlmək mümkündü. Fikrimizcə, bu kitabçaların nəşri kiçikyaşlı uşaqların məktəbə hazırlıq dövründə hərflərin mənimsənilməsində yaxın köməkçi ola bilər.

Uşaq ədəbiyyatı nümunələri içərisində əxlaqi-tərbiyəvi məzmunda yazılmış əsərlər həmişə seçilib. Bunlara Elvira Məmmədovanın “Qanadlı dostlar”, Zahid Xəlilin “Oğurluq edən dəvənin axırı”, Əfsanə Laçının “Təmizlik polisləri” əsərlərini nümunə göstərə bilərik. Bu əsərlərdə uşağı pis vərdişlərdən uzaq tutmağa çalışan, onlara müsbət keyfiyyətləri aşılayan bir cəhdi görürük. Qeyd etdiyimiz müəlliflər əsərlərində qoyulan problemin həllinə müəyyən qədər nail olmuşlar. Bu əsərlərin dili sadədir, müəllifin ideyası uşaqlara nağıl formatında çatdırılır. Ona görə də uşaq yorulmur, hadisələrin axarlı təhkiyəsi ona maraqlı gəlir. “Qanadlı dostlar” əsərində ana qartal bala qartala qanadlı dostlar tapmağı tövsiyə edir. Bir çox yerlər gəzən qartal almanın yarpaqlarını, gəminin yelkənlərini qanada bənzətdiyindən onları özünə dost hesab edir. Müəllif qəhrəmanın dilindən kitabları bütün insanların qanadı adlandırmaqla uşaqları elmə, biliyə həvəsləndirir, onlarda kitab oxumağa, gələcəkdə savadlı, bilikli adam olmağa maraq yaradır. “Təmizlik polisləri” adlı silsilə nağıllarında diş

polisi Tuz, dırnaq polisi Nek, saç polisi Heyə kimi obrazların işlədilməsi, uşaqlarda gigiyena qaydalarına əməl etməyin vacibliyini vurğulayan süjet xəttinin qurulması mühüm tərbiyəvi əhəmiyyət daşıyır. “Oğruluq edən dəvənin axırı” hekayəsində yazıçı həm dosta xəyanətin mənfi tərəflərini izah edir, həm də əsərdə qurduğu süjet xətti vasitəsilə dəvənin qozbel olmasının səbəblərini uşaqlara nəql edir. Bu hekayə də əxlaqi-tərbiyəvi məzmunu ilə diqqət çəkir.

Vətən, Qarabağ müharibəsi mövzusu bu ilin uşaq ədəbiyyatının aktual mövzularındandır. Bunu həm nəsr, həm nəzm nümunələrində görmək mümkündür. Qəşəm Nəcəfzadənin “26 Fevral küçəsi” hekayəsində müəllif həm uşaqlara Qarabağın qan yaddaşı olan Xocalı faciəsini unutmamağı, daim yaddaşlarda əbədi saxlamağı bir mesaj kimi ötürür, həm də onlarda Vətənə, işğal olunmuş torpaqlarmıza qarşı bir məhəbbət duyğusu aşılayır.

Uşaqlarda heyvanlara qarşı sevgi, diqqət, mərhəmət hisslərinin formalaşmasını təlqin edən əsərlər də yazılmışdır. Bu əsərlərin qələmə alınması müsbət haldır. Çünki məhz belə əsərlər onlarda ətraf mühitin canlı varlıqlarına qarşı qayğıkeş yanaşmalarına şərait yaradacaq. Qəşəm Nəcəfzadənin “26 Fevral küçəsi”, Qəşəm İsabəylinin “Ayı və ovçular” əsərlərində bu məsələlərə toxunulmuşdur. Qəşəm İsabəylinin “Ayı və ovçular” hekayəsində təsvir olunan Ayının vəziyyəti uşaqlarda heyvanlara qarşı daha diqqətli olmağı, onlara qarşı biganə qalmamağı özündə təlqin edir. Ovçuları görən Ayı onu gülləyə tutduqlarından, tələyə saldıqlarından onlara qarşı aqressiv olur. Heyvan olsa belə onun keçirdiyi hisslər, duyğular var və bu, yazıçı tərəfin-

dən uşaqlara məharətlə çatdırılıb.

Araşdırmamız zamanı "Ulduz" jurnalında uşaqlar üçün nəzərdə tutulmuş nəsr əsərlərinə rast gəldik. Reyhan Yusifqızının "Zümrüd", "İki qardaş", "Mister Bebbic", "Büllur vazada yasəmən", "Mən və nənəm" adlı hekayələrini nümunə göstərə bilərik. "Mister Bebbic" hekayəsinin qəhrəmanı Fərid öz otağında qəribə geyimli yaşlı bir kişi ilə rastlaşır. Kişi özünü kompüterin yaradıcısı kimi təqdim edir. O, bu əşyanı yaratdığından peşiman olduğunu söyləyir. Çünki "onlar artıq kitab oxumur, heç nə öyrənmir, heç nə düşünmürlər. Kompüterdən yalnız əylənmək üçün istifadə edirlər" ("Ulduz" jurnalı, 2018, № 9, s.54). Bu sözlərlə müəllif əslində acı olan reallıqları oxucularına çatdırır. Çağdaş zəmanəmizin qlobal problemi olan internet, ondan asılılıq uşaqların az mütaliə etməsinə, onların kitabdan uzaq düşməsinə şərait yaratmışdır.

Əfsanə Laçının "Ulduz" jurnalında nəşr olunan "Nağıl axşamı" adlı toplusunda müxtəlif mövzlarda qələmə alınan nağıllar dərc olunmuşdur. Burada "Hərflərdən şikayət", "Noğul", "Göy qurşağı rəngbərəngdir", "Günəş nənə", "Çiçək", "Şimşək bala", "Polis", "Torpaq baba", "Rəssam" və s. nağıllar toplanmışdır. Əfsanə Laçın nağıllarında obrazlara təbiət varlıqlarının adını verməsi uşaqlarda ətraf mühiti sevməyə maraq oyatmaq baxımından tədqirəlayiqdi. Lakin bununla belə, kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu nağıllarda xoşagəlməyən ifadələr də var. Belə ki, "Ulduz bacı" nağılında əsərin qəhrəmanı Ulduzun "sevgilim uzaqdadı, onun yolunu gözləyirəm, onun yerə enəcəyi xəyalı ilə yaşayıram" kimi sözləri işlətməsi kiçik yaş qrupuna daxil olan uşaqlar üçün məqsədəuyğun deyil.

Orxan Adıgözəlin "Əngəlsiz arzular" adlı (Bakı, TEAS Press nəşriyyat evi, 2018) kitabının uşaqlar üçün nəzərdə tutulmuş digər kitablardan üstün cəhəti ondan ibarətdir ki, burada fiziki imkanı məhdud olan uşaqların cəmiyyətə adaptasiyası problemi əks olunub. Bu əsər uşaqlara motivasiya məqsədi ilə yazılıb, onlarda özünəinam, özgüvən hisslərinin formalaşmasında mühüm rol oynayır. Kiçik qəza nəticəsində ayağında problemlər yaranan Nihat həyatdan küsmür, müxtəlif reablitasiya və bərpa proseslərini keçərək əvvəlki həyatına qayıtmağa müvəffəq olur.

Nərmin Mahmudovanın "Şərqin ilk qadın təyyarəçisi-Leyla Məmmədbəyova" (Bakı, TEAS Press nəşriyyat evi, 2018) adlı kitabı Azərbaycanın və hətta bütün Şərqin ilk qadın təyyarəçisi olan Leyla Məmmədbəyova haqqında hazırlanmışdır. Lakin kitab Leyla xanım haqqında olsa da, müəllif bu kitabı uşaqların dilinə uyğun sadə formada yazmışdır. Yəni burada həm uşaqlar məlumatlandırılır, həm də həmin məlumat onlara daha asan yolla çatdırılır.

Ötən ilin uşaq ədəbi nümunələri içərisində fantastik üslubda yazılan, uşaqların təxəyyül gücünü formalaşdıran əsərlər də geniş yayılmışdır. Çağdaş dövrün yazarlarından olan Sevinc Elsevərin "Şeytan çarxı" əsərində hadisələr yeddi uşağın karuselə minərək müəmmalı şəkildə yoxa çıxması mövzusu əsasında cərəyan edir. Bütün doğmaları onları axtarır. Bu uşaqlar isə qeyri-adi bir yerdə gözlərini açırlar. Sehirli xalça üstündə uçan uşaqlar xalça üzərində müxtəlif ölkələrə səyahət edirlər. Xalça Şuşaya da enir. Müəllifin işğal olunmuş torpaqlarımızı da unutmaması, diqqət mərkəzində saxlaması sevindirici haldır. Çünki bu, tariximizin qan yaddaşını uşaqlara çatdırır, onlarda Vətə-

nə, doğma yurda bağlılıq hissini formalaşdırır.

Əsərin kompozisiyası da maraqlı quruluşa malikdir. Burada təsvir olunan zaman və məkan anlayışı fərqlidir. Müəllif uşaqları həm keçmişə, həm gələcəyə aparır, fərqli məkanlarda təsvir edir. Fantastik elementlərlə zəngin olan bu əsər uşaq ədəbiyyatı nümunələri içərisində qeyd etdiyimiz novatorluq xüsusiyyətləri ilə seçilir.

Gənc yazar Xülya Cəfərova 2018-ci ildə uşaqlar üçün "Külək: Yel Kürəsinin Şahzadəsi" adlı roman yazıb nəşr etdirmişdir. Əsər Azərbaycan ədəbiyyatında çox az sayda nümunə olan fentezi janrındadır. Əsərin protaqonisti Külək Azərbaycan ədəbiyyatında ilk milli superqəhrəman hesab olunur. Külək, İşıq, Umay, Erlik, Kayra xan, Simurq quşu, Yağmur, Azər baba və digər personajların timsalında xalqımızın zəngin tarixi, milli mənəvi dəyərli və adət-ənənələri maraqlı və oxunaqlı bir üslub vasitəsilə oxucuya ötürülür.

Ötən ilin ədəbi prosesinə nəzər salanda uşaq şeirlərinin də çox yazıldığının şahidi olduq. Bu şeirlər həm ayrı-ayrı müəlliflərin kitablarında, həm də uşaq jurnallarında dərc olunmuşdur. Bu şeirlər içərisində müxtəlif məzmunda yazılmış nümunələrə rast gəldik: Vətənə, doğma yurda bağlılıq, insanlara, canlı aləmə qarşı sevgi, təbiət təsvirləri və s. Rafiq Yusifoğlunun 2018-ci ildə nəşr olunmuş "Nağıl qapısı" kitabında dərc olunan "Qaya kölgəsində göl", "Dəniz darıxacaq", "Qayalar", "Suyu quruyan çay", "Kəpənək", "Buxarlanan qış" əsərləri belələrindəndir. "Arı və mən" şeirində uşaq və arının canlı təmasını təsvir edən müəllif onların dostluğunu diqqətə çatdımaqla uşaqlarda heyvanlara qarşı maraq, sevgi hissinin yaranmasına çalışır.

Zahid Xəlilin "Ədəbiyyat qəzeti"ndə nəşr olunmuş "Nərgizgülü və qış", "Çinar", "Çiçək və qız", "Qara toyuq", "Gecə xoruzu" və s. şeirlərində də təbiət qüvvələrinin təsviri yer almışdır.

"Nərgizgülü və qış" şeirində şair nərgiz gülünü təsvir edir. Onun qışda açmasını bu gülün möhkəm, iradəli olması ilə əlaqələndirir.

"Bu şaxtaya, bu qara
Dözməz hər qız" dedilər.
Elə buna görə də
Ona "Nər qız" dedilər.
Öpdülər, oxşadılar,
"Nər qız", "Nər qız" dedilər.
Lap axırda yorulub
Ona "Nərgiz" dedilər.

"Torpağın məhəbbəti", "Qış getdi bahar gəldi", "Yaz günəşi şairdi", "Meşə nəğmə oxuyur" şeirlərində təbiət təsvirləri vardır.

Qəşəm İsabəylinin "Ədəbiyyat qəzeti"nin ötən ilin iyun ayında çap olunmuş "Qış, yaz, yay" şeiri maraqlı süjet xəttinə malikdir. Şeirin lirik qəhrəmanı babasını, atasını və özünü ilin müxtəlif fəsillərinə bənzədir. Bu bənzətmə isə təsadüfi deyildir. Babasının səhhəti ilə bağlı problemləri olduğundan uşaq onu gah sağlam, gah xəstə görür deyə öz təxəyyülünə uyğun olaraq "qar-yağışlı qış"a bənzədir. Atası isə cavan, daha emosional, çılğın, enerjilidir:

Atam –
Al günəşli yay...

Mən də ki, yaz –
Hay-haray.

Şeirdə müəllif bu bənzətmələri yaratmaqla həm uşaqların təfəkkürünün çalışmasına xidmət etmiş olur, həm də onların mənəvi aləminin zənginləşməsinə şərait yaradır. Şairin şeirlərində təbiət qüvvələrinə aid nümunələr çoxdur: "Qar", "Günəş", Külək, "Bulud" və s.

Zahid Xəlilin 2018-ci ildə "Göyqurşağı" adlı şeirlər və mənzum nağıllardan ibarət kitabı çap olunmuş, bu kitabda həm müəllifin yeni, həm də əvvəllər qələmə aldığı şeirləri yer almışdır. Uşaqların marağına səbəb ola biləcək bir çox mövzular kitabda öz əksini tapmışdır. Məktəbə, heyvanlara, quşlara, təbiətə aid olan şeirlər kiçikyaşlı balaların maraq dünyasına güzgü tutur. Cari ildə uşaq ədəbiyyatı nümunələrinin tərcüməsi ilə bağlı müəyyən işlər görülmüşdür.

Qəşəm İsabəyli dünyaca məşhur uşaq ədəbiyyatı nümayəndələrinin şeirlərini də dilimizə çevirmiş və bu nümunələr "Ədəbiyyat qəzeti"nin 2018-ci il 11 iyul sayında nəşr olunmuşdur. Bu şeirlərdən Con Çiardinin "Şlyapasız adam", Robert Qreyvzin "Balqabaq", Yan Bjexvanın "Qarışqa", Yovan Zmayın "Saat", Frantişek Qrubinin "Ay" şeirlərinin adlarını çəkə bilərik.

Yola saldığımız ildə Ələsgər Əlioğlu, Məmməd Namaz kimi tanınmış uşaq şairlərimiz də balaca oxucular üçün gözəl poeziya nümunələri yaratdılar. Ələsgər Əlioğlunun "Sapsız iynə", "Dəniz qonaq gələ", "Çıraqban küçəmizdə", "Körpə qardaşım", "Tısbağanın çuxası", "Armud ağacı" və s. şeirləri dərc olunmuşdur. Şairin "Ətirli arx"

şeirində iydə ağacının gözəlliyi, onun ətri o qədər canlı, dolğun yaradılıb ki, sanki oxucu bu qoxunu özü duyur. Bu təsvirlər uşaqlara təbiətin gözəlliklərini duymağa şərait yaradır.

Məmməd Namazın Vətən sevgisi ilə süslənmiş "Azərbaycan", eləcə də onlarla digər şeirlərində xalqımızın keçmişindən bu günümüzə qədər gəlib çıxan folklor ənənələri duyulmaqdadır. Şeirlər üslubi cəhətdən oxşamalara bənzəsələr də, əsas mövzu Vətənə, xalqa olan məhəbbət, işğal olunmuş torpaqlarımıza qarşı həsrət duyğusudur.

İnqilab İsaqın ötən il dərc olunmuş "Nərgizin nərgizləri" kitabında müxtəlif məzmunda şeirlər toplanmışdır. Bu şeirləri oxuyarkən Vətən mövzusu, təbiət təsvirindən tutmuş, uşaqların maraq və diqqətini çəkən bir çox anlayışların təsvirini görürük. "Ağacları bəzəyən qış", "Cənnətin bağbanı", "Cin atı" "Anamın adı ana" yazıçının maraqlı şeirlərindəndir. "Babam deyir" şeiri formaca və üslubi cəhətdən fərqli xüsusiyyətlərə malikdir. Bundan başqa, əsl ideyası Vətənə məhəbbət olan bu şeirdə müəllif insanlara qarşı sevgi, məhəbbət, doğruluq, dürüstlük kimi müsbət keyfiyyətləri uşaqlara təlqin edir.

Sevinc Nuruqızının balacalar üçün dərc etdirdiyi kitabçalarda fərqli mözularda şeirlər də yer almışdır. "Bayrağa bax" şeirində müəllif həm uşaqlara bayrağın rəngləri barədə təsəvvür yaradır, onlara bayrağın qüdrətini, ucalığını vurğulayır, həm də uşaqlarda milli dövlət rəmzlərimizə qarşı sevgi hissinin formalaşmasına nail olur.

Ramiz Rövşənin "Göyərçinim, gəl görüm" (Bakı: TEAS Press Nəşriyyat evi, 2018) kitabı kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Əlifbadakı hərflərin balacalar

tərəfindən daha asan mənimsənilməsi, öyrənilməsi üçün müəllif hər hərfə uyğun bir şeir qələmə almışdır: "A" hərfinə aid:

"Ana" dedim can dedi,
Mən də anacan dedim.
"B" hərfinə aid:
Balıqçı tilovunda
Yemi görüb ac balıq.
Balıqçı da acdır ac,
Bu tilovdan qaç, balıq.

Ramiz Rövşənin "Gizlənmişəm, tap məni" (Bakı: TEAS Press nəşriyyat evi, 2018) kitabı kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Burada "Balıq üzür hovuzda", "Toyuq-cücə hindədi", "Ayı", "Bulaq dibi daşdı daş", "Demə, səndən xırdayam", "Yağış" və s. müxtəlif şeirlər və nağıllar toplanmışdır.

Bakı, TEAS Press nəşriyyat evi ("Üç alma") 2018-ci ildə klassiklərin əsərlərini yenidən çap etdirmişdir. "Mirzə Ələkbər Sabir. Məktəb şagirdlərinə töhfə" adlandırılan kitabda Sabirin uşaqlar üçün nəzərdə tutulmuş şeirləri, satiraları, məqalələri, toplanmışdır. Bunlardan başqa Rəşid bəy Əfəndizadənin "Məktəbə dəvət" (Uşaqlar üçün nəzərdə tutulmuş əsərlərinin toplusu), Nizami Gəncəvinin "Xəmsə"sindən "Oğluma nəsihət", Teymur Elçinin "Könlüm Qarabağdadır" (Uşaq şeirləri, poemalar və cizgi filmi üçün ssenari), Xanımana Əlibəylinin "Biletsiz sərnişin", (Uşaq şeirləri və tapmacaları", Abdulla Şaiq "Tıq-tıq" xanım (Şeirlər, mənzum hekayələr və poemalar), Abbas Səh-

hət "Yay səhəri" (Şeirlər, təmsillər, hekayələr, pyeslər", Abdulla Şaiq "Kiçik qəhrəman" (Hekayə və təmsillər), Abdulla Şaiq "Gözəl bahar" (Pyeslər), Əbdürrəhim bəy Haqverdiyev "Bomba" (Hekayələr), Əbdürrəhim bəy Haqverdiyev "Ac hərifler" (Dram əsərləri), Cəlil Məmmədquluzadə "Saqqallı uşaq" (Hekayələr), Tofiq Mahmud "Yaşəmənim" (Şeirlər, mənzum nağıllar və poemalar), Aqşin Cəfərov "Şahin və şəhlanın sərgüzəştləri" və s. kitablar nəşr olunmuşdur.

"Bilik verən nağıllar" toplusunda Rafiq İsmayılovun "Ayın itməsi" və "Göydən qoz yağır" hekayələri və müxtəlif ölkələrin uşaq ədəbiyyatlarından tərcümə edilmiş nümunələr nəşr olunmuşdur. (Pərakəndəlik) "Ayın itməsi" nağılında personajlar meşə heyvanları olsa da, müəllif uşaqlarda Ay, Günəş haqqında müəyyən təsəvvürlərin yaradılmasına çalışır.

1958-ci ildən bəri nəşr olunan, bir neçə nəslin təlim-tərbiyəsinin, dünyagörüşünün, bədii zövqünün formalaşmasında mühüm rolu olan "Göyərçin" jurnalı ötən il altmış illik yubileyini qeyd etdi. Bu illər ərzində jurnalın təsisçiləri heç bir çətinlikdən yorulmayaraq jurnalın fəaliyyətinə fasilə verməmişdilər. "Göyərçin" jurnalının 60 illiyi münasibətilə jurnalın baş redaktoru, professor Rafiq Yusifoğlu elə birinci nömrədə öz ürək sözlərini yazmış və bu nömrədə Abdulla Şaiqin, Məmməd Rahimin, Əhməd Cəmilin, İlyas Tapdığın, Nigar Rəfibəylinin, Mikayıl Rzaquluzadənin və başqalarının əvvəlki illərdə "Göyərçin" haqqında şeirləri dərc olunmuşdur.

"Göyərçin"in növbəti saylarına diqqət yetirəndə görürük ki, 8 fevral Azərbaycanın ilk peykinin orbitə buraxıldı-

ğı gün, 22 fevral avtomobil yolu işçiləri günü, 24 fevral Beynəlxalq ana dili günü, 26 fevral Xocalı soyqrımı gününə aid şeirlər dərc olunmuşdur. Bu şeirlərin dərc olunması, tarixə yazılmış günlərin uşaqlara xatırladılması çox tədqirəlayiq haldır. Həm şeirlər uşaqların yaş səviyyəsinə uyğun seçilib, həm də bu şeirləri oxumaqla, öyrənməklə onlar tariximizin əlamətdar günləri barədə müəyyən məlumat ala bilirlər.

Mətanət Ulu Şirvanlının "Zəngiçiçəyi", "Ardıc ağacı", "Dağdağan" şeirləri uşaqlarda bitkilər haqqında təsəvvürlərin formalaşmasına şərait yaradır. Bundan başqa, "Göyərçin" jurnalının demək olar ki, hər nömrəsində uşaqların bilik və bacarıqlarını yoxlamaq, onların təfəkkür səviyyəsini artırmaq üçün suallar ünvanlanır.

"Göyərçin"in 5-6-cı nömrələri sırf müxtəlif ölkənin ədəbiyyat nümunələrinin tərcümələrinə həsr olunmuşdur.

"Göyərçin" jurnalında əvvəlki illərdə olduğu kimi, ötən il də əvvəllər dəfələrlə çap olunmuş şeirlər yenidən nəşr olunmuşdur. Mədinə Gülgünün, Məstan Günərin, Hikmət Ziyanın, Əli Əlioğlunun şeirləri dediklərimizə nümunədir.

"Göyərçin" jurnalının 11-ci sayında dərc olunmuş "Sən orucsan, məndən isə..." başlıqlı yazılmış kiçik hekayədə Sara baba və nənəsinin hərəsini öz dilində salamlayır:

- Mama, privet!

- Nənə, salam.

Babası ona yaxınlaşarkən kənara çəkilən qız ondan kolbasa iyinin gəldiyini, babasının isə oruc olduğunu səbəb göstərir.

Fikrimizcə, bu əsərdə uşaqlara doğru, düzgün yol göstərən bir vasitə göstərilməmişdir. Kolbasanın zərərlərini aşılayan, onun uşaqlar üçün ziyanlı qida olduğunu bildirən bir əsər dərc olunsaydı, daha yaxşı olardı.

Məhərrəm Qasımlının "Ana yurdum", "Bayrağım" şeirləri Vətənə məhəbbət ruhunda yazılmışdır, uşaqlarda doğma torpağa sevgi hisslərinin aşılanması baxımından maraqlıdır.

"Göyərçin" jurnalının hər sayında yer alan "Bilik klubu" rubrikasında dünyaca məşhur olan elm, sənət adamları haqqında məlumat verilir, bundan başqa uşaqlara yeni olan informasiyalar çatdırılır.

"Göyərçin" jurnalında biz İsmayıl, İmanzadə, Mir Sabir, Nurəddin Mənsur, Ələsgər Həsənli, Mina Rəşid kimi gənc yazarların imzasını da görə bilirik.

Gülzar İbrahimovanın redaktorluğu ilə nəşr olunan "Sehrli dünya" jurnalı da maraqlı formatı ilə balaca oxucuların görüşünə gəlmişdi. Jurnalda nağıl, yaddaş oyunu, müdrik hekayətlər, dahilərin həyatından bəhs edən məqalələr yer almışdı. "Kəndirbaz" adlı nağılda xeyirin şər üzərində qələbəsi, insanlara pislik, paxıllıq etməyin mənfi cəhət olduğu uşaqlara aşılanır. Bu əsər ideyaca özündə yaxşı fikirlər aşılasa da, dili və üslubu qarışıqdı, yəni xalq nağıllarına yaxın formada yazılmamışdır.

Jurnalda "Müdrik hekayətlər" rubrikasında maraqlı hekayələr yer almışdır. Həmin hekayələrdə xeyirxahlıq, düzgünlük, doğruluq kimi nəcib xüsusiyyətlər uşaqlara aşılanır, kinlilik, qəzəb kimi mənfi emosiyalar isə tənqid olunur.

Rus və ingilis dilində şeirlərin verilməsi də müsbət

haldır. Jurnalın bütün sayları maraqlı, uşaqlar üçün diqqətçəkən formada işlənib hazırlanmış, müxtəlif şəkillər yer almışdır. "Mənim etiket qaydalarım" başlığı altında uşaqlara görüşərkən necə riayət etməli olduqları davranış qaydaları təlqin olunur. Jurnalın hər sayında dünyaca məşhur alimlərin həyatı və onların elmə verdiyi töhfələrdən bəhs olunur ki, bu da uşaqların dünyagörüşünün formalaşmasına müsbət təsir göstə bilər.

Jurnalda "Prikollar" başlığı altında uşaqları əyləndirmək məqsədi ilə sual-cavab xarakterli yazılara yer ayrılmışdır. Başlığın bu formada seçilməsi heç məqsədəuyğun deyil, çünki bu söz dilimizin lüğət tərkibində yoxdur. Bu başlığın yerinə onu əvəz edən "Atmaca" ifadəsi işlənsə, yaxşı olmazmı?!

"Ciddi ol" sərlövhəsinin altında isə uşaqların yaşına, psixologiyasına yad olan lətifələr yer almışdı:

"İki deyingən ər və arvad mübahisə edir. Qadın:

- Məni itirmək asandır, tapmaq çətindir.

- Eynən mənim corablarım kimi! ("Sehrli dünya", №61, s.48)

Bu lətifənin uşaqlarla nə əlaqəsi var? Və yaxud müasir dövrdə pis adam olmağın asan yolu:

1. Pul istəyənə borc verirsən
2. Gözləyirsən
3. Neçə aydan sonra soruşursan: "Borcu nə vaxt qaytaracaqsan?"
4. Hazırsan! Bitdi. Sən, ən pis adam oldun!

Başqa nümunəyə diqqət yetirək:

- Oğlum, niyə nişanlın neçə gündü görünmür?

- Ona dedim sən sehrlisən, küsdü məndən.

- Ona görə küsməz, düzünü de!
- Dedim Küpəgirənsən! (“Sehrli dünya”, №60, s.42)

Müasir uşağın Anaya verdiyi dəyər budurmu? Bunu öyrətməliyikmi övladlarımıza? Dinimiz behişti ayaqlarının altına sərmiş, Ana adı daim uca tutulmuş, müqəddəs sayılmış, (Təhrif olunmuş şəkildədir) hətta ulu abidəmiz olan “Kitabi Dədə Qorqud” dastanında “Ana haqqı, Tanrı haqq”ına bərabər tutulmuşdur. Burda isə Ana çox eybəcər şəkildə Küpəgirən qarıya bənzədilmişdir. Bu cür hallar jurnalda çoxdu.

2018-ci ildə nəşr olunan uşaq dərgiləri içərisində “Göy qurşağı” jurnalı da mühüm yer tutur. Bu jurnalın müxtəlif nömrələrində əxlaqi-didaktik məzmunlu hekayələr toplanmışdır. Qaçay Köçərlinin “Gül qızın nağılı”, S.Fətiyevin “Ayı, tülkü və dovşanın dostluğu” belə əsərlərdəndir. “Ayı, tülkü və dovşanın dostluğu” əsərində hiyləgərlik edən, yalnız öz mənafeyini güdən tülkünün simasında yalançılıq, tənbəllik, bədxahlıq kimi insana yaraşmayan keyfiyyətlər tənqid olunur. Lakin tülkünün iç üzü tezliklə açılır, dostları tərəfindən tərk edilən tülkü sonda yalqız qalır. Müəllif bu hekayə vasitəsilə uşaqları mənfi xüsusiyyətlərdən uzaq tutmağa səsləyir.

Araşdırmamız zamanı çox böyük təəssüf hissi ilə qeyd edirik ki, ötən ildə uşaq pyeslərinə rast gəlmədik. Dram əsərləri vasitəsilə uşaqlara müəyyən ideyaları çatdırmaq, onları tərbiyələndirmək daha asan olduğu halda, nədənsə yazıçılarımız bu janra heç müraciət etməyiblər. Ümumiyyətlə, əvvəlki illərdə də uşaq dramaturgiyası zəif olmuşdur. Lakin az da olsa, nümunələrə rast gəlmək olurdu. Çağdaş dövrdə heç bir dram əsərinin yazılmaması ol-

duqca acınacaqlı haldır və güman edirik ki, növbəti illərdə bu sahəyə də diqqət yetirilər.

Ümumiyyətlə, apardığımız tədqiqat zamanı müəyyən etdik ki, uşaq ədəbiyyatı ilə bağlı tədqiqatlar, təhlillər az aparılsa da, bu sahə öz yoluna davam etməkdə və əzmlə çalışmaqda, uşaq ədəbiyyatımızı zənginləşdirən nümunələr meydana qoyulmaqdadır.

Salidə ŞƏRİFOVA
Filologiya elmləri doktoru

AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXÇİLİYİ

(2018-ci ilin materialları əsasında)

"Ədəbiyyat tarixçiliyində bir neçə istiqamət: ədəbiyyat tarixinin dövrlər üzrə tədqiq edilib ümumiləşdirilməsi, ədəbi-tarixi icmalların hazırlanması, yazıçı və şairlərin həyatı və yaradıcılığının öyrənilib təqdim olunması kimi sahələr aparıcılıq təşkil edir".

(İsa HƏBİBBƏYLİ)

Azərbaycan ədəbiyyatı tarixinin tədqiqi istiqamətində 2018-ci ildə vacib və əhəmiyyətli hadisə baş vermişdir. Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" adlı kitabını nəşr etdirmişdir. Bu kitabda akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin keçdiyi inkişaf yolunun tədqiqi ilə yanaşı, Azərbaycan ədəbiyyatının dövrləşdirilməsinin yeni konsepsiyasını təqdim etmişdir.

2018-ci ildə Azərbaycan elmi dairələri əsasən şifahi xalq ədəbiyyatının və XIX əsrin sonu – XXI əsrin əvvəllərini əhatə edən ədəbiyyatın tədqiqinə daha önəmli maraq göstərmişdir. Şifahi xalq ədəbiyyatının tədqiqi zamanı Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ensiklopedik nəşrini, həmçinin Koroğlu dastanının Azərbaycan ədəbiyyatına təsiri, Qəzənfər Paşayevin folklorşünaslıq irsi, şifahi xalq ədəbiyyatının Azərbaycan uşaq ədəbiyyatına təsiri-

nin tədqiqini xüsusi vurğulamaq olar. Yeni və müasir dövr ədəbiyyatının tədqiqi zamanı Azərbaycan ədəbiyyatında romantizmin inkişafı, qısa bir müddətə mövqelərini realizmə (sonradan isə sosialist realizminə) verməsinə xüsusi elmi maraq göstərilir. Müasir dövr Azərbaycan ədəbiyyatının inkişaf yolunun tədqiqini Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsi öz üzərinə götürmüşdür.

2018-ci ildə Azərbaycan ədəbiyyat tarixinin elmi araşdırılması baxımından, Mir Cəlal Paşayevin 110 illiyi ilə əlaqədar nəşr edilmiş bədii və elmi əsərlər, biblioqrafiya və məqalələr toplusu xüsusi əhəmiyyət kəsb edir. Görkəmli yazıçı və alim Mir Cəlal Paşayevin elmi və bədii irsinin oxucuya daha geniş çatdırılması müsbət qiymətləndirilməlidir.

2018-ci ildə Azərbaycan ədəbiyyatı tarixçiliyinə aid və komparativistik xarakter daşıyan bir sıra tədqiqatlar nəşr edilmişdir. Bu baxımdan, Mehman Həsənlinin "Çingiz Aytmatov: həyat və yaradıcılığı" kitabında Çingiz Aytmatov və müasiri olduğu Azərbaycan yazıçılarının yaradıcılıqlarında oxşar motivlərlə, tipoloji oxşarlıqlarla yanaşı, fərqli xüsusiyyətlərin tədqiqi, Şəhla Qurbanovanın Amerika ədəbiyyatının Azərbaycan filoloji mühitində analiz edilməsi, Xanım Zairovanın "Azərbaycan-alman ədəbi əlaqələri müasir filoloji kontekstdə" kitabında Azərbaycan ədəbiyyatşünaslığında alman klassiklərinin həyat və yaradıcılıqlarına dair tədqiqatları, klassik alman ədəbiyyatı və Azərbaycan ədəbiyyatı nümunələrindəki tipoloji oxşarlıqlarının araşdırılması xüsusi maraq kəsb edir.

I. Azərbaycan ədəbiyyatının elmi əsaslandırılmış dövrlərlə bölgüsü

Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: və inkişaf mərhələləri" kitabında Azərbaycan ədəbiyyatının yeni dövrləşdirmə modelini irəli sürür. Belə ki, akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatını 10 dövrə ayırır:

1. Qədim dövr Azərbaycan ədəbiyyatı: Etnosdan eposadək;
2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər);
3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər);
4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər);
5. Erkən yeni dövr Azərbaycan ədəbiyyatı (XVII-XVIII əsrlər);
6. Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr);
7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək);
8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-ci illər);
9. Milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi (1960-1980-cı illər);
10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən).

Elmi-konseptuallığı ilə müsbət fərqlənən, varislik prinsipinə əsaslanan və inkişaf yolunun başlıca istiqamətlərini ümumiləşdirən bu dövrləşdirmə modeli Azərbaycan

ədəbiyyatının vahid bir fenomen kimi qəbul edilməsinə və tədqiqinə konseptual fundament yaratmış olur. Bu baxımdan, Esmira Fuadın "Günümüzün Güney ədəbiyyatı antologiyası"nın məhz 2018-ci ildə nəşri rəmzi xarakter daşıyır. Esmira Fuadın (Şükürova) tərtib etdiyi Güney Azərbaycan ədəbiyyatı poeziyasını və şairlər haqqında avtobioqrafik məlumatları özündə əks etdirən, 26 oktyabr 2018-ci il tarixində, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və Mirzə İbrahimov adına Kitab Fondu İctimai Birliyinin təşkilatçılığı ilə "Çağdaş Güney Azərbaycan ədəbiyyatı nümunələrinin transliterasiyası, redaktəsi və nəşri" layihəsi çərçivəsində çap edilmiş "Günümüzün Güney Ədəbiyyatı Antologiyası. Poeziya" adlı kitabıdır. Esmira Fuadın tərtib etdiyi "Günümüzün Güney ədəbiyyatı antologiyası" (poeziya) İran İslam inqilabından sonra ədəbiyyata gəlmiş 115 Cənubi Azərbaycan şairinin fərqli janr və üslubda qələmə almış olduqları və özünəməxsus xüsusiyyətlərə malik poetik nümunələrin ÜmumAzərbaycan ədəbiyyatının tərkib hissəsi olan çağdaş Güney Azərbaycan poeziyasının ümumi mənzərəsini aydın şəkildə əks etdirir. Həmin poetik nümunələr qəzəl, xalq şeiri üslubunda qələmə alınmış poetik nümunələr, modern şeirlər olması ilə diqqəti cəlb edir.

İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası elmi dairələrin marağını cəlb etmişdir. Məsələn, Tehran Əlişanoğlu "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun beş ili akademik İsa Həbibbəyli ilə" adlı məqalələr toplusunda qeyd edir: "…tarixi zərurətdən çıxış edərək, akademik İsa Həbibbəyli "Ədəbiyyat məc-

muəsi”nin 2015-ci il XXVI cildində yeni bir “Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası”nı irəli sürdü; layihə elmi instansiyalarda müzakirələrdən sonra, geniş əsaslandırılmış variantda (“Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri”) mətbuatda və ayrıca kitab şəklində (Bakı, 2019) çap olundu. Eyni zamanda Ədəbiyyat İnstitutunda on cilddə yeni ədəbiyyat tarixinin hazırlanmasına rəvac verildi. Konsepsiyanın praktik tətbiqi, şəksiz ki, həm də onun nəzəri-metodoloji önəmini şərtləndirir.” Lakin İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatı tarixinə konseptual yeniliyi birmənalı qəbul edilməmişdir. Belə ki, Tehran Əlişanoğlu tənqidi tezislərini açıqlamaqdan uzaqlaşaraq konsepsiyanın müəllifini elmdə təzə və cavan alim olmasını bəyan edir: “Gəl ki, indi Söz – təzə, naşı, cavan, cavanlarındır. İsa Həbibbəyli meydanı qeyd-şərtsiz cavanlara verdi... İsa Həbibbəyli özü də elmdə təzə, cavandır, – desəm, qəbahət olmaz; bu günlərdə 65 yaşının tamam olduğunu bildim, 65 yaş qocaman elm üçün nədir ki?! Daim təzəlik-tərlik, olmayan yerdən Söz ehtirası – eşqi-ovu da elə cavanlıq iksirindən doğmurmu!”

II. Azərbaycan ədəbiyyatı tarixinin müxtəlif dövrlərinin tədqiqi

Şifahi xalq ədəbiyyatının tədqiqi

“Qədim dövr Azərbaycan ədəbiyyatı: Etnosdan eposadək” dövrünü tam əhatə edən, mükəmməlliyi ilə seçilən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun X cilddə çap etməyə hazırladığı fundamentallığı ilə seçilən “Azərbaycan ədəbiyyatı tarixi” kitabının işıq üzü görmüş I cildidir. Azərbaycan ədəbiyyatı tarixinin ayrılmaz tərkibi olan

folklorşünaslıq ədəbi məsələlərin daim maraq dairəsindədir. “Azərbaycan ədəbiyyatı tarixi” Azərbaycan folklorunu, şifahi xalq ədəbiyyatının incəliklərini öyrənməsi və tədqiq edilməsi baxımından əhəmiyyət kəsb edir. “Azərbaycan ədəbiyyatı tarixi”nin I cildi xalqın mifik yaddaşından süzülüb gələn folklor ənənələrini, şifahi xalq ədəbiyyatının təsnifatını, həmçinin folklor ədəbiyyatına aid növ və janrlarının yeni düşüncə tərzində təqdimi ilə diqqəti cəlb edir. Kitabda əmək nəğmələri, bayatılar, əfsanələr, rəvayətlər, xalq lətifələri, nağıllar, tapmacalar kimi janrların xüsusiyyətlərinə diqqət yetirilmiş, həmçinin lirik, epik, dramatik növ və janrlarının təkamül və təşəkkül xüsusiyyətlərinə aydınlıq gətirilmişdir. “Azərbaycan ədəbiyyatı tarixi”nin I cildində aşıq ədəbiyyatı, aşıq yaradıcılığı geniş tədqiq edilməsi ilə diqqəti cəlb edir. Kitabda Qam-şaman kompleksi geniş araşdırılmış, konkret olaraq, qam-şamanın kim olması sualına aydınlıq gətirilmişdir: “Qəbilənin müşkülünü həll edən, dolaşığa düşmüş, çətin işini asana çevirən, gələcəkdən xəbər verən, mənsub olduğu ocağı (etnosu) bəd ruhlardan, qorxu və bəlalardan qoruyan, şadlıq yığıncağı təşkil edən, xəstələrə şəfa verən bilici - yol göstərici, idarəedici ruhani xadim idi.” Kitabda dastan yaradıcılığı, dastanın təkamül prosesi, öyrənilməsi tarixi, keçdiyi ədəbi-tarixi mərhələləri, ustad və yaradıcı aşıqlar haqqında məlumatların verilməsi, epos anlayışına aydınlıq gətirilməsi, məhz Azərbaycan ədəbiyyatı tarixinin keçdiyi inkişaf qanunauyğunluqlarının, ədəbi-tarixi qaynaqların ümumtürk kontekstində tədqiq edilməsi sahəsində əvəzolunmazdır.

“Qədim dövr Azərbaycan ədəbiyyatı: Etnosdan eposa-

dək” dövrünü əks etdirən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Azərbaycan ədəbiyyatı tarixi” kitabı mükəmməlliyi ilə diqqəti cəlb etsə də, bu dövrü əhatə edən digər əsərlər də mövcuddur. Folklorşünaslıq məsələlərini özündə əks etdirən Yeganə İsmayılovanın “Kitabi-Dədə Qorqud dastanları və çağdaş Azərbaycan ədəbiyyatı”, “Koroğlu” dastanında obrazlar sistemi” və digər monoqrafik tədqiqatlar da özünü göstərmişdir.(Belə bir müqayisəyə nə ehtiyac?)

Filologiya elmləri doktoru Yeganə İsmayılovanın “Kitabi-Dədə Qorqud” dastanları və çağdaş Azərbaycan ədəbiyyatı” kitabı “Dədə Qorqud kitabı və müasir Azərbaycan ədəbi düşüncəsi” kitabının təkrar nəşridir. Kitab həm də müəllifin 2014-cü ildə filologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün müdafiə edilmiş dissertasiyası əsasında hazırlanmışdır. Müəllif təkrar nəşr etdirdiyi kitabın adını “Kitabi-Dədə Qorqud” dastanları və çağdaş Azərbaycan ədəbiyyatı” adlandırmışdır. Müəllif tərəfindən kitabın adında və sonra mətndə buraxılmış yanlışlıq kitabın daxilində də özünü göstərməkdədir. “Kitabi-Dədə Qorqud” dastanı dastanlardan ibarət deyil, boylardan ibarətdir. Yeganə İsmayılovanın “Koroğlu” dastanında obrazlar sistemi” kitabı müəllifin 2003-cü ildə nəşr edilmiş kitabının təkrar nəşri, həmçinin 2002-ci ildə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiə edilmiş dissertasiyasıdır. Yeganə İsmayılovanın “Koroğlu” dastanında obrazlar sistemi” kitabı “Koroğlu” dastanında əksini tapmış obrazları, həmçinin dastanın süjeti tədqiqat obyektinə çevrilmişdir. Quruluşu kimi elmi problemlər müxtəlif tədqiqatların predmeti olmuşsa da, kitabda “Koroğlu” das-

tanının mətni epik sistem kimi qəbul edilmişdir.

2018-ci ildə Qəzənfər Paşayevin folklor tədqiqatlarına önəmli maraq göstərilmişdir. Azərbaycan ədəbiyyatında İraq türkmanlarının folklorunun toplanması və araşdırılması ilə məşğul olmuş tədqiqatçı Qəzənfər Paşayev haqqında Gülxani Pənahın "Şəxsiyyətlə yaradıcılığın vəhdəti" monoqrafiyası diqqəti cəlb edir. "Fenomen bir insan" kimi dəyərləndirilən Qəzənfər Paşayevin İraq-türkman, həmçinin Azərbaycan folklorunun gözəl tədqiqatçısı olması, çağdaş Kərkük ədəbi mühitinin araşdırıcısı, həmçinin ədəbiyyatşünaslıq fəaliyyəti, dilçi alim və tərcüməçilik sahəsindəki əvəzsiz xidmətləri Gülxani Pənahın "Şəxsiyyətlə yaradıcılığın vəhdəti" kitabında əksini tapır. Kitabda Qəzənfər Paşayevin elmi yaradıcılığına nəzər salınmış, onun ədəbiyyatşünaslığın az öyrənilən sahələrinə, həmçinin qarşıya çıxan problemləri qarşılıqlı mədəniyyətlər, ədəbiyyat sayəsində həyata keçirilməsi vurğulanmışdır. Qəzənfər Paşayevin İraq türkmanlarının folklorunun incələnməsi, Kərkük folklorunun janrlar sistemini, Türkman folklorunun epik, lirik, arxaik növ və janrlarının hərtərəfli tədqiqi sahəsindəki xidmətləri geniş təhlilə cəlb edilir.

2018-ci ildə Ruhəngiz Əliyeva "XX əsrin II yarısı Azərbaycan uşaq ədəbiyyatında epik folklor ənənələri" adlı monoqrafiyası müəllifin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiə edilmiş eyniadlı dissertasiyanı monoqrafik şəkildə çap etdirmişdir. Yazılı ədəbiyyata şifahi ədəbiyyatın təsiri kontekstində uşaq ədəbiyyatını izləməyə cəhd edən Ruhəngiz Əliyeva "XX əsrin II yarısı Azərbaycan uşaq ədəbiyyatında epik folklor ənənələri" monoqrafiyasında Azərbaycan uşaq ədəbiyyatının inkişa-

fında XX əsrin ikinci yarısının xüsusi əhəmiyyət kəsb etməsi amilinə toxunmuş, yazarların epik folklora müraciət və istifadə maneralarını elmi-nəzəri təhlil süzgəcindən keçirməyə, epik folklor ənənəsindən sistemli bəhrələnmənin səbəb və mahiyyətini, məqsəd və məramını aydınlaşdırmağa cəhd etmişdir. Monoqrafiyada epik folklor ənənəsindən istifadənin forma və üsulları tədqiq edilmiş, uşaq nəsrində folklor ənənəsindən istifadənin formaları açıqlanmış, folklordan bəhrələnmənin üsul və yollarını, formalarını dövr və şəraitdən, mühitin verdiyi imkanlardan asılı olaraq daim dəyişməyə və yeniləşməyə meyil göstərməsi vurğulanmışdır. R.Əliyeva folklordan mənimsəmənin özünəməxsus formullarının müşahidə olunmasını, bunları; a) ayrı-ayrı janrların adının (məsələn: nağıl, əfsanə, rəvayət və s.) əsərin sərlövhəsinə gətirilməsi; b) mövcud nağıl, əfsanə, rəvayət, təmsil, dastan nümunələrinin yeni məzmun və əlavələrlə işlənməsi; c) xalq yaddaşında yaşayan qəhrəmanların, qəhrəman tiplərinin yeni formatda, yeni mühit və zaman müstəvisində ədəbi-mədəni arenaya təqdimi; ç) motiv, hadisə, süjet, epizod səviyyəsində epik folklor ənənəsindən yararlanma; d) xalq ədəbiyyatındakı epik növün formullarından, mətn modellərindən, nitq etiketlərindən istifadə; e) nağıl, əfsanə, rəvayət, təmsil, lətifə və başqa folklor janrlarının doğurduğu assosiativ düşüncədən və onun kanonik sistemindən yeni şəraitə uyğun bəhrələnmə; ə) folklor simvolları, metaforik düşüncə formaları ilə ideologiyanın müəyyənləşdirdiyi prinsip və mexanizmlərin mahiyyətini sosial sferaya çatdırmaq və s. kimi qruplaşdırmağı məqsədəuyğun hesab etmişdir.

XIX əsrin sonu – XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının tədqiqi

Azərbaycan ədəbiyyatında XIX əsrin sonunda romantizm və tənqidi realizm epoxası dövrünün izlənilməsində Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Yeni dövr ədəbiyyatı" şöbəsinin əməkdaşlarının kollektiv əsəri olan "Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı", Baba Babayevin "Abdulla Şaiqin nəsr yaradıcılığı", Asif Rüstəmlinin "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" və "Zirədən başlanan yol (Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti)", İslam Qəriblinin "XX əsr Azərbaycan romantizminin tədrisi (Məhəmməd Hadinin publisistikası və poetik tərcümələri əsasında", Lütviyyə Əsgərzadənin "Hüseyn Cavid: mühiti və müasirləri" və s. monoqrafik tədqiqatlar ədəbiyyat tariximizin "Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək)" dövrünü ətraflı tədqiq etmələri ilə diqqəti cəlb edir.

"Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı" monoqrafiyası AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Yazıçıların həyatı və yaradıcılığının tədqiqinə yenidən qayıdış" layihəsi əsasında yazılmış həm ilk monoqrafik tədqiqat kimi, həm də Azərbaycan ədəbiyyatı tarixində Əbdürrəhim bəy Haqverdiyevin həyatı və yaradıcılığının təhlil edilməsi baxımından əhəmiyyət kəsb edir. "Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı" adlı kollektiv tədqiqatda ədibin həyatı və ictimai fəaliyyəti, dramaturgiyası, bədii nəsri, publisistikası, ədəbi görüşləri, sənətkarlığı, bədii nəsrinin dil və üslub xüsusiyyətləri, bə-

dii irsinin tədqiqi məsələləri, dram əsərlərinin nəşri tarixi, elmi-pedaqoji fəaliyyəti və s. haqqında əhatəli elmi məlumat əksini tapmışdır. "Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı" adlı tədqiqatda ədibin qələmə aldığı əsərlərin janrı ətrafında aparılan elmi mübahisələr diqqəti cəlb edir. Məsələn, "Yeyərsən qaz ətini, görərsən ləzzətini" pyesinin tədqiqatçılar tərəfindən komediya, yaxud məzhəkə adlanması ilə bağlı polemikalara tədqiqatda münasibət bildirilir. Pyesdə dramaturji konfliktin, qəhrəmanın komik olmamasının əsas götürülməsi, pyesin süjetinin ekspozisiyadan finala qədər dramatik olması vurğulanmışdır.

Baba Babayev "Abdulla Şaiqin nəsr yaradıcılığı" monoqrafiyasında Abdulla Şaiqin nəsr yaradıcılığını konseptual şəkildə araşdırır. Yazıçının epik yaradıcılığını janr, metod və digər sənətkarlıq məsələləri məcrasında araşdıran müəllif monoqrafiyanı 1999-cu il nəşrinə müəyyən əlavələrlə yenidən ictimaiyyətə təqdim etmişdir. "Azərbaycan bədii nəsrini mövzu, janr, tematika, problematika baxımından zənginləşdirmiş, milli epik ənənənin, bədii təhkiyənin istiqamətinə və inkişafına təkan vermiş" tezisindən çıxış edilərək Abdulla Şaiqin yaradıcılığa romantizm metodu ilə başlaması, daha sonra isə realizmə meyil etməsi tədqiqatda xüsusi vurğulanmışdır. Baba Babayevin "Abdulla Şaiqin nəsr yaradıcılığı" monoqrafiyasında "Məktub yetişmədi", "Köç", "İblisin hüzurunda" hekayələri, "İki müztərib, yaxud əzab və vicdan", "Araz", "Əsrimizin qəhrəmanları" romanları ilə epik növün klassik nümunələrini yaratmış ədibin hekayə yaradıcılığı, hekayələrində poetik komponentlər, həmçinin yeni tipli povest və romanlar araşdırılmış, povest və romanlarda müəllifin sə-

nətkarlıq məsələlərinə toxunulmuşdur. Baba Babayev Abdulla Şaiqin "Köç" əsərinə münasibət bildirməklə, əsərin janrını "səciyyəvi hekayə" hesab etmişdir: "Mütəxəssislər "Köç"ü povest, "Dursun"u isə gah povest, gah da roman adlandırmışlar. Əslində daxili quruluşu, süjeti, obrazların təsvir dairəsi və üsulu ilə "Köç" səciyyəvi hekayədir." "Abdulla Şaiqin nəsr yaradıcılığı" monoqrafiyasında toxunulmuş bu problemlər ədibin yaradıcılığının keçdiyi inkişaf yolu və inkişaf mərhələləri haqqında təsəvvür yaratmağa, ədibin əsərlərinin janr məsələlərinə aydınlıq gətirmək cəhdləri ilə diqqəti cəlb edir: "A.Şaiqin epik yaradıcılığının nümunəsində Azərbaycan nəsrinin XX əsrin əvvəllərindən tutmuş 60-cı illərə qədər keçdiyi inkişaf yolunu izləmək mümkündür."

Asif Rüstəmlinin fakt və arxiv materiallarına istinad olunaraq qələmə alınmış "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" (1) kitabı məhz arxiv materiallarına əsaslanması ilə fərqlənir. Kitab Cəfər Cabbarlının uşaqlıq dövründən ömrünün son dövrlərinə qədər olan həyat və fəaliyyətini işıqlandırır. Müəllif Cəfər Cabbarlının 1917-ci ildə yazdığı, lakin ictimaiyyətə təqdim olunmayan, yəni indiyədək tam şəkildə çap olunmayan "Həyat və mübarizə" şeiri haqqında məlumat verməsi təqdirəlayiqdir. Burada şeirin "...siyasi mövqeyi, mübarizə strategiyası mövcud mühitin zəruri amilləri ilə" şərtlənməsini vurğulamışdır:

Budurmu ya mədəniyyət?! Budursa nifrətlər,
Bu canilik, bu riya, yox inanmayın, çəkilin!
Uzaqlaşın, mədəniyyət – əsarət iştə demək,
Sığınmayın ona, hər kəs sığındısa öldü!

Azərbaycan ədəbiyyatı tarixi üçün əhəmiyyət kəsb edən məqamlardan birinə aydınlıq gətirməyə cəhd etmiş Asif Rüstəmli hazırda mətni əldə olmayan "Bakı müharibəsi" pyesi haqqında mətbuatda yayımlanmış yazılara istinad edərək, "Bakı müharibəsi" pyesinin mövzu və ideologiyası haqqında təsəvvür yaratmağa nail ola bilmişdir. Asif Rüstəmli bu faktı "Bəsirət" qəzetinə istinad edərək qeyd etmişdir: "...Cəfər Cabbarzadənin yeni yazmış olduğu "Bakı müharibəsi" draması mövqeyi-tamaşaya qoyulacaqdır (5 pərdədə, 7 şəkildə).

Həmin faciədə Bakı şəhərində mart hadiseyi-əhəmiyyəsindən sonra müsəlmanlara edilən zülm göstəriləcəkdir."

Asif Rüstəmli kitabda Cəfər Cabbarlının poeziyasına nəzər salaraq, ədibin "Sevdiyim", "milli rəmzlərimizin ilk poetik əlifba dərsliyi" hesab etdiyi "Azərbaycan bayrağına" şeirlərini təhlil süzgəcindən keçirir, bir tədqiqatçı kimi şairin poetik irsini dəyərləndirməyə nail ola bilir: "Milli ruhlu Azərbaycan gəncliyinin maariflənməsində, ictimai şüurun oyanışında C.Cabbarlının poetik irsinin əhəmiyyəti danılmazdır. "Sevimli ölkəm", "Sevdiyim", "Azərbaycan bayrağına" şeirləri mövzusu, ideya istiqaməti, fonematik səslər sistemi, musiqiyə uyarlığı etibarilə milli himnin yaranması prosesində təməl, mərhələ missiyasını daşıyan layiqli sənət nümunələridir."

Asif Rüstəmlinin "Zirədən başlanan yol (Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti)" kitabında XX əsrin əvvəllərində yaşayıb yaratmış Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti geniş tədqiq edilərək ictimaiyyətə çatdırılmışdır. "Gənclər yur-

du” (1918) məcmuəsinin redaktoru olmuş və qeyri-leqal Milli İstiqlal Hərəkatına (1920-1923) rəhbərlik etmiş Mirzə Bala Məhəmmədzadə ictimai-siyasi xadim, yazıçı, publisist kimi ilk dəfə Asif Rüstəmli tərəfindən geniş şəkildə tədqiq edilmişdir. Tədqiqatda Cümhuriyyət dövrünün ilk məcmuəsi və Mirzə Bala Məhəmmədzadənin Cümhuriyyət dönəmində fəaliyyəti, gizli istiqlal hərəkatı, keçirdiyi həbsxana həyatı, həbsxanadan sonrakı həyatı, repressiyayla üzləşməsi və s. faktların açıqlanmasına cəhdlər özünü göstərməkdədir. Maraqlı məqam odur ki, müəllif bütün faktları arxiv materialları əsasında qələmə almış, tədqiqatda Mirzə Balanın bədii yaradıcılığına geniş nəzər salmağa nail ola bilmişdir. Ədibin “Qurtuluş” jurnalının 1915-ci il 16 noyabr buraxılışında nəşr edilmiş “Çoban Vəli” hekayəsinin avtobioqrafik səciyyə daşıdığından avtobioqrafik hekayə adlandırmasını vurğulamışdır. “Qurtuluş” jurnalının təşkilatçılığı ilə təşkil edilmiş nəsr nominasiyası üzrə Mirzə Balanın “Çoban Vəli” hekayəsinin qalib gəlməsini vurğulayan Asif Rüstəmli, həmçinin Cəfər Cabbarlının poeziya üzrə nominasiyanın qalibi olmasını, hətta həmin əsərin Cəfər Cabbarlının “Qürub çağı bir yetim” mənzuməsinin olmasını qeyd etmişdir.

İslam Qəriblinin “XX əsr Azərbaycan romantizminin tədrisi (Məhəmməd Hadinin publisistikası və poetik tərcümələri əsasında)” kitabı əhəmiyyət kəsb edir. Belə ki, kitabda romantik şair Məhəmməd Hadinin ədəbi irsinin müəyyən qisminin təşkil etmiş elmi-publisistik əsərləri və poetik tərcümələrini nəzərə alaraq, ədəbi-publisistik fəaliyyətinin ilk illəri, həmçinin 1908-1911-ci illər publisistik fəaliyyəti, publisistik fəaliyyətinin son dövrləri ilə yanaşı,

poetik tərcümələrinə nəzər salınmışdır. Azərbaycan ədəbiyyatı tarixçiliyinin M.Hadi ilə bağlı mərhələsini izləməyə imkan verən kitabda M.Hadinin "Həyat" qəzetinin 23 iyul 1905-ci il 35-ci nömrəsində dərc etdirdiyi "Bəyani-həqiqət" adlı məqaləsi ilə mətbuat aləminə gəlməsi vurğulanmış, daha sonralar isə, yəni 1910-cu ilin axırlarına – Türkiyəyə gedənə qədər "Füyuzat" jurnalı, "İrşad", "Təkamül", "Yoldaş", "Tazə həyat", "Tərəqqi", "İttifaq" və "Səda" qəzetləri ilə əməkdaşlıq etməsinə də toxunulmuşdur. İslam Qəriblinin tədqiqat işində Azərbaycan mütəfəkkiri Məhəmməd Hadinin 1905-1920-ci illər Azərbaycan mətbuatı ilə əlaqələrini sistemli şəkildə öyrənməsi, jurnalistika və tərcümə sənətindəki yerini təyin etməsi təqdirəlayiq amal kimi dəyərləndirilməlidir. Müəllif M.Hadinin mətbuat və sənət aləminə gəlişini, "Həyat" qəzeti və "Füyuzat" məcmuəsindəki publisistik və tərcüməçilik fəaliyyətini, "Tazə həyat" qəzetində alim-publisist, həmçinin tərcüməçi kimi fəaliyyətini, "Firdovsi-ilhamat" kitabındakı tərcüməsinə, verdiyi şeir parçalarına münasibətini, "İttifaq", "Tərəqqi", "Səda" kimi qəzetlərdə indiyə kimi ədəbi ictimaiyyətə məlum olmayan bir çox elmi-publisistik və tərcümə əsərlərinin üzə çıxarılması, "İqbal", "Bəsirət", "Azərbaycan" və digər mətbuat orqanlarında işıq üzü görmüş publisistik və tərcümə əsərlərinin tədqiqata cəlb edilməsi Azərbaycan ədəbiyyatı tarixçiliyi baxımından izlənilməsini təmin edir.

2018-ci ildə Lütviyyə Əsgərzadənin 2015-ci ildə nəşr edilmiş "Hüseyn Cavid: mühiti və müasirləri" adlı monoqrafiyasının təkrar nəşri diqqəti cəlb edir. Onu da qeyd edək ki, mövzu, həmçinin tədqiqatçının 2018-ci ildə "Hüseyn

Cavidin ədəbi məfkurəsi və sənəti dövrünün ədəbi-mədəni, ictimai mühiti kontekstində” mövzusunda müdafiə etdiyi doktorluq işinin əsas mahiyyətini də özündə əks etdirir. Lütviyyə Əsgərzadənin “Hüseyn Cavid: mühiti və müasirləri” adlı monoqrafiyasında Azərbaycanın mütəfəkkir sənətkarı Hüseyn Cavidin ədəbi məfkurəsi və sənəti dövrünün ədəbi, mədəni, ictimai mühiti kontekstində araşdırılıb təqdim edilməsi Azərbaycan ədəbiyyatı tarixinin Hüseyn Cavidlə bağlı olan məqamını izləməyə imkan verir. Monoqrafiyada H.Cavidin Naxçıvan ədəbi-mədəni – ictimai mühiti və naxçıvanlı maarifçi müasirləri ilə əlaqəsi, ailə və təhsil mühiti, həmçinin Naxçıvan, Cənubi Azərbaycan, Türkiyə, həmçinin həyatı və fəaliyyətində Gəncə, Tiflis mühiti və ədəbi yaradıcılığının Bakı dövrü, Almaniya səfəri və təəssüratları, Azərbaycanda sovet dövrü ictimai-ədəbi mühiti, bolşevik rejiminin böyük sənətkara ikili münasibəti geniş araşdırılaraq ictimaiyyətə təqdim edilməsi baxımdan monoqrafik tədqiqatın təkrar nəşri Azərbaycan ədəbiyyatı tarixində sənətkarın yaşadığı yolun izlənilməsinə, bu sahədə olan boşluqları doldurmağa yardım göstərir. Məsələn, Hüseyn Cavidin dünyagörüşünün formalaşmasında ədəbi-ictimai mühitin rolunu araşdıran L.Əsgərzadə burada əsas 1860-1900-cu illəri əhatə edən Naxçıvan ictimai, ədəbi-mədəni mühitini, 1892-ci ildə Ordubadda yaradılmış “Əxtər”, üçsinifli şəhər rus-tatar – “Tərbiyə” məktəbi, Hüseyn Rasizadənin, yəni Hüseyn Cavidin bu məktəbdə təhsil alması kimi məqamlara aydınlıq gətirmişdir. L.Əsgərzadə Hüseyn Cavidin formalaşmasında ailə mühitinin roluna xüsusi diqqət yetirmişdir.

Hüseyn Cavidin, həmçinin Məmməd Tağı Sidqi, Qur-

banəli Şərifzadə, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Xəlil ağa Hacılarov kimi maarifçi müasirlərinin Naxçıvan ədəbi-ictimai mühitində rolu, onların H.Cavidlə əlaqələrinin tədqiqi Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələsini izləməyə şərait yaradır. Kitabda H.Cavidə Türkiyə ədəbi-maarifçi mühitinin təsiri, təhsil aldığı İstanbul mühitinin (1905-1910) təsiri araşdırılaraq ictimaiyyətə təqdim edilir. H.Cavidin həyatında böyük rol oynamış Türkiyənin məşhur filosofu Rza Tevfikin rolu da tədqiqatda geniş araşdırılmışdır.

Hüseyn Cavidin Türkiyədə "Sirat-i-Müstakim", "İctihad", "Edebiyat-ı Umumiye", "Yeni Kafkasya", "Yeni Mecmua"da iştirak etməsi faktlarının, həmçinin ədibin yaradıcılığına türk romantiklərinin təsiri amillərinin araşdırılması Azərbaycan ədəbiyyat tarixi üçün maraqlı məqamlardır. L.Əsgərzadə Hüseyn Cavidin yaradıcılığında sovet dövrü ədəbi-ictimai mühitinə də geniş nəzər salmağı bacarmışdır. H.Cavidin bu dövr yaradıcılığının ədəbi tənqiddə birmənalı olmaması, əsasən iki mərhələni təşkil etməsi vurğulanmışdır. Bu mərhələni: 1) 1920-30-cu illər və 2) 1950-ci illərin axırlarından son dövrə qədər qiymətləndirən L.Əsgərzadə "bu iki mərhələnin birinci mərhələsini Cavid yaradıcılığına baxışın ziddiyyətli, qərəzli tənqid, ikinci mərhələsini isə şairin daha çox bu ziddiyyətlərdən, qərəzli tənqidlərdən təmizləmə, arındırma, "bəraət" dövrü hesab" edilməsi faktının açıqlanması cavidşünaslar üçün maraq doğura bilər.

Sovet dövrü ədəbiyyatının tədqiqinə Təyyar Salamoğlunun Yaşar Qarayevin görüşlərinin tənqidi cəhdlərini xüsusi vurğulamaq olar. Belə ki, 2018-ci ildə çap edilmiş

Təyyar Salamoğlunun "Azərbaycan tənqidi realizminin estetikası" kitabında bu tənqid özünü büruzə vermişdir. Xüsusi qeyd etmək istərdim ki, Təyyar Salamoğlunun "Azərbaycan tənqidi realizminin estetikası" kitabı ilk növbədə, mübahisəli məqamlar baxımından təəssüf doğurur. Tənqidi realizm anlayışına aydınlıq gətirməyə cəhd etmiş müəllif kitabın ilk fəslində "tənqidi realizm mərhələsi və tipi kimi fərqlənməsinə" toxunaraq yazır ki, "C.Məmmədquluzadə və Sabirin, Sabir satira məktəbinin nümayəndələrinin, bütövlükdə isə "Molla Nəsrəddin"çi sənətkarların yaradıcılığı Azərbaycan sovet ədəbiyyatşünaslığında milli realizmin tam yeni bir keyfiyyət mərhələsi və tipoloji cəhətdən əvvəlki mərhələlərdən köklü şəkildə fərqlənən realizm tipi – tənqidi realizm mərhələsi və tipi kimi fərqləndirmişdir." Daha sonra isə ədəbiyyatda milli realizmin olmasını qeyd edən Təyyar Salamoğlu "sovet rejimi sosialist realizmini sovet ədəbiyyatının yeganə yaradıcılıq metodu elan edəndə bütün realizm tipləri kimi, tənqidi realizmə də arxa çevirmişdir" iddiasını irəli sürür. Kitabın həmin səhifəsində fikrini təkzib edərək, tənqidi realizm nümunələrinin yaranması faktına toxunur: "Sənətin yeganə metodu sosrealizm elan edilsə də, bir çox bədii əsərlər tənqidi realizmin nümunəsi kimi meydana çıxdı." "Niyə?" sualı ünvanlayan T.Salamoğlu özü bu suala cavab verdikdə, sosrealizmlə yanaşı, tənqidi realizmin ədəbiyyatda yaşarlığını qeyd etməsi də yuxarıda qeyd etdiyi fikirlərlə ziddiyyət təşkil edir: "...sovet rejimi ədəbi cərəyan və yaxud bədii yaradıcılıq metodu kimi tənqidi realizmin tarixə çevrildiyini elan etsə də, ədəbiyyatın immanent qanunları buna müqavimət göstərir, tənqidi realizmin bədii yaradıcılıqdakı

yaşarlığını təmin edir.” Ş.Alışanlının “sovet ədəbiyyatında 1920-ci illər və 1930-cu illərin əvvəlləri sosialist realizminin təşəkkülü prosesində tənqidi realizm və romantizm yaradıcılıq metodu ilə yazan sənətkarlar” olması faktı ilə razılaşması iddia etdiyi tənqidi realizmə arxa çevrildiyi fikrini təkzib edir.

T.Salamoğlu Yaşar Qarayevin “tənqidi realizmdə “tənqidilik” keyfiyyətinin digər spesifik cəhəti isə odur ki, o, əvvələn keyfiyyətə (ayrı-ayrı qüsurları doğuran vahid mahiyyətə, ictimai əsasın özünə) qarşı çevrilir” fikrində “Y.Qarayevin estetik prinsip olaraq tənqidi realizmdəki “tənqidilik”in təbiətini düzgün müəyyənləşdirsə də, onun müəllif mövqeyində ifadə olunan məqsədinə aydınlıq gətirərkən sosioloji nöqteyi-nəzərdən ifrata varır” və “Y.Qarayevin tənqid konsepsiyasında yumoristik gülüşə yer” qalmadığı və ədibə görə “tənqidi realizmin estetikasında tərbiyəedicilik funksiyası yoxdur” fikirləri özünü doğrultmur. Belə ki, Azərbaycan ədəbiyyatşünaslığının ən görkəmli nəzəriyyəçilərindən biri olmuş Yaşar Qarayevin araşdırmalarında Azərbaycanda realizmin bir cərəyan kimi inkişaf xüsusiyyətlərinə, “maarifçi realizm”in Azərbaycanda milli şüurun formalaşmasına təsirinə, Azərbaycanda tənqidi realizmin sosialist realizminə keçidi problemlərinə, sosialist realizminin Azərbaycan ədəbiyyatında yaranması və inkişaf özəlliklərinə toxunmuşdur. Xüsusi vurğulamaq istərdim ki, Y.Qarayev ədəbiyyatın ümumi inkişaf qanunauyğunluqlarını əks etdirməyə qadir olan realizmi azadlıq və həqiqət axtarışlarına düzgün və dolğun cavab verən metod və cərəyan kimi dəyərləndirmişdir. Onu da qeyd edək ki, Y.Qarayev XIX əsri Azərbaycan ədəbiyyatının “rea-

lizm əsri” adlandırmışdır. Ədib XIX-XX əsrlərdə zəngin inkişaf yolu keçmiş və gerçəkliyin obyektiv hərəkət tendensiyasını müəyyən etməyi qarşıya məqsəd qoymuş realizmin üç mərhələdən keçdiyini və hər mərhələyə uyğun tarixi formada, yəni maarifçi realizmi, tənqidi realizmi, sosialist realizmi kimi meydana çıxdığını xüsusi vurğulamışdır. Yaşar Qarayevin realizmin tip təsnifi ilə mərhələ təsnifinin vəhdət təşkil etdiyini və mərhələ təsnifinin tip təsnifini tarixən də şərtləndirdiyini vurğulamışdır. Y.Qarayev ədəbiyyatımızda realizmin mənşəyin M.P.Vaqif poeziyasından başlandığını, davamı isə M.F.Axundov və M.C.Məmmədquluzadə yaradıcılığında özünü göstərməsini iddia etmişdir. Realizmin təmayül və istiqamət kimi ədəbiyyatımızda nəzmdə formalaşaraq nəsrə keçməsini və təkrar nəsrdən nəzmə keçdiyini, bunun da parlaq nümunəsi kimi M.Ə.Sabir yaradıcılığında yeni zirvə kəsb etməsi amili də Yaşar Qarayev tərəfindən vurğulanmışdır. Professor Y.Qarayev realizmə konkret tərifin verilməsinin qeyri-mümkünlüyünə də toxunmuşdur: “...realizmin özü hər dəfə, hər əsərdə yeni bir xüsusiyyəti ilə göründüyü üçün onun normativ, standart, stereotip tərifini (reseptini) təqdim etmək də qeyri-mümkündür.” Y.Qarayev realizmin də rəngarəng olmasını vurğulayaraq, maarifçi realizmə, tənqidi realizmə və sosialist realizminə aydınlıq gətirmişdir.

Təyyar Salamoğlunun Yaşar Qarayevin “Bir sənətkar kimi yazıçının bədii metodunu yalnız yazıçının bir mütəfəkkir kimi dünyagörüşü ilə fərqləndirmək və qarşı-qarşıya qoymaq olar” qənaətindən çıxış edən böyük tənqidçi Sabirin dünyagörüşünün əsasında inqilabi-demokratiyanın durduğunu əsaslandırmaqla onun satirasını “islah üçün

tənqid” məramından büsbütün ayırır və ona “kökündən qazımaq, baltanı dibindən vurmaq”, “inkar və rədd etmək üçün tənqid” statusu verir.” (18, 100) Qeyd etməliyik ki, prof. Y.Qarayev tənqidi realizmdən sosialist realizminə keçidin vəhdət təşkil edə bilməsi amilinə toxunaraq, bu sintezin ən bariz nümunəsi kimi də Sabir yaradıcılığında özünü əks etdirdiyini qeyd etmişdir. Yaşar Qarayev M.Ə.Sabir yaradıcılığında “tənqidi realizmin bütün ünsürləri özünü ən yüksək sintezdə və vəhdətdə” göstərməsi amilini də vurğulamışdır. M.Ə.Sabir yaradıcılığında realizmin “saf” tənqidi realizm tipi olmamasını qeyd edən Y.Qarayev realist-satirik poetik bədii təfəkkürdə milliləşmə və xəlqiləşmənin də Sabir yaradıcılığında başa çatmasını qeyd etmişdir. Sabir yaradıcılığında satiranın milli-ictimai şüur və intibah aktına çevrilməsi Y.Qarayev tərəfindən düzgün olaraq dəyərləndirilmişdir. Şairin şeirlərində satiranın ənənəvi inkar formasında özünü göstərmədiyini, “özünüifşa” komik “özünütəsdiq” şəklində göstərməsi Y.Qarayev tərəfindən açıqlanmışdır. Müasir satiranın Sabir mənşəyindən, Sabir yaradıcılığının folklor mənşəyindən qaynaqlandığını iddia edən Y.Qarayev milliləşmə və xəlqiləşməni realist satirik bədii təfəkkürə məxsus hər şeydə, xüsusilə də, Sabir poeziyasında başa çatmasını qeyd etmişdir.

Müasir Azərbaycan ədəbiyyatının inkişafına dair 2018-cı ildə çap olunmuş kitabların sırasında Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri Tehran Əlişanoğlunun “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun beş ili akademik İsa Həbibbəyli ilə” və aparıcı elmi işçi Lalə Həsə-

novanın "Çağdaş ədəbi paradiqma: icmallar, məqalələr, düşüncələr" məqalələr toplularını xüsusi vurğulamaq olar. Tehran Əlişanoğlunun "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun beş ili akademik İsa Həbibbəyli ilə" məqalələr toplusunda Azərbaycan ədəbiyyatının müxtəlif tarixi dövrlərdə inkişaf yollarının problemlərinə toxunulur, bir sıra ciddi elmi tezislər irəli sürülür. Bununla yanaşı, topluda "gənclərin roman axtarışları" janr formasının əsaslandırılma cəhdləri müəyyən etirazlar doğurur. T. Əlişanoğlu topluda qeyd edir: "Müasir Azərbaycan ədəbiyyatında roman janrının mövqeyi qabarıqdır. Müstəqillik dövrünün başlanğıcında janrın böhranından çıxaraq, hazırda roman janrı bütün rəngarəngliyi ilə zamanın sözünü deməyə çalışır. O cümlədən tədqiqat doqquz roman növünü fərqləndirmişdir: Qarabağ mövzusunda müharibə romanları; realist-psixoloji roman; şərti-metaforik roman; modernist-ekzistensial romanlar; tarixi roman; bədii-sənədli nəsr; postmodern roman; gənclərin roman axtarışları; detektiv romanlar. Bu, müstəqillik dövrünün roman təsnifatıdır." Lalə Həsənovanın "Çağdaş ədəbi paradiqma: icmallar, məqalələr, düşüncələr" məqalələr toplusunuda Anarın "Göz muncuğu", Aydın Talıbzadənin "Kəpənək modeli. 102", Zahid Sarıtoprağın "Kül", Vüsal Nurunun "Prezidentin qızı" və s. əsərlərin geniş təhlili Azərbaycan ədəbiyyatının maraqlı məqamlarını əhatə edir. Məqalələr toplusunda "Müasir Azərbaycan nəsrində postmodern təhkiyə strategiyası (Anarın "Göz muncuğu" povesti əsasında) başlıqlı məqalədə "postmodern təhkiyə strategiyası" (11, 153) anlayışı mübahisəli xarakter daşıyır.

III. Mir Cəlal Paşayev elmi irsinin tədqiqi

2018-ci ildə Azərbaycanda füzulişünaslığın əsasını qoyanlardan biri olmuş görkəmli ədib, alim, pedaqoq Mir Cəlal Paşayevin (1908-1978) elmi irsinə dair bir sıra kitab nəşr edilmişdir. Ötən ildə Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" monoqrafiyasının təkrar nəşr edilməsi təqdirəlayiqdir. Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" monoqrafiyası ilk dəfə 1940-cı ildə Həmid Araslının redaktorluğu ilə "Füzulinin poetik xüsusiyyətləri" adı altında çap edilmişdir. Mir Cəlalın "Füzuli sənətkarlığı" monoqrafiyasında müəllif ədibin sənətkarlığının müxtəlif istiqamətlərini, mövzularını tədqiq edərək, füzulişünaslığın sonrakı istiqamət və perspektivlərini müəyyənləşdirməyə nail ola bilmişdir. Monoqrafiya Füzuli sənətinin poetik xüsusiyyətlərinin öyrənilməsini, Azərbaycan füzulişünaslığında şərhçilik məktəbinin əsasının qoyulması, ədibin qəzəllərinin mövzu baxımından elmi təsnifatının verilməsi və kompozisiya quruluşunun araşdırılması, yaradıcılığında dini motivlərin tətbiq edilməsinin və digər Füzuli sənətkarlığı ilə bağlı olan aktual problemlərə işıq salınmışdır. Əsərdə yalnız ədibin özünəməxsus sənətkarlığı deyil, həmçinin klassik Azərbaycan poeziyası nümayəndələri olan Xaqani, Nizami, Nəsimi, Xətai, Həbibi kimi şairlərdən bəhrələnməsi məsələlərinə aydınlıq gətirilərək tədqiq edilmişdir.

Mir Cəlal "Füzuli sənətkarlığı" əsərində şərhçiliklə, yəni dahi şairin qələminə məxsus ayrı-ayrı beytləri şərh etməsi ilə anlaşılmaz olan fikirlərə aydınlıq gətirərək, əsəri dərindən öyrənilməsinə yardım göstərir. "Füzulidə, məsələn, belə misralara rast gəlirik:

Bu qəmlər kim mənim vardır, bəirin başına qoysan,
Çıxar kafər cəhənnəmdən, gülər əhli-əzab, oynar.

Bu beytdən nə məna çıxır? Mənim qəmlərimi dəvənin başına qoysan, kafir cəhənnəmdən çıxar. Zahirən burada bir məntiqsizlik və anlaşılmazlıq vardır. Dəvənin kafirə nə dəxli? Lakin böyük şair bu beytlə islam dinində məşhur olan bir hadisəyə, fanatik etiqada işarə edir. Bu hadisəyə görə, qiyamətdə kafirlər cəhənnəmdə əzaba məhkum ediləcəklər. Onların bu əzabdan qurtulmaq ümidi yoxdur. Ancaq bir zaman dəvə incəlib iynənin gözündən keçəsi bir vəziyyətə düşəndə, kafirlər, əzab əhli, cəhənnəmdən xilas olacaqdır. Odur ki, şair öz qəmlərinin ağırlığını belə köməkçi hadisələrlə ifadə edir. Guya bu qəmlər o qədər ağırdır ki, dəvənin başına qoyulsa, dəvə incəlib sapa dönər. Mübaliğədir, müəyyən hadisələrlə şərtlənmiş mürəkkəb mübaliğədir.”

Mir Cəlalın Füzuli əsərlərinin janr problematikasına toxunması, qəsidə və qəzəl arasında müqayisə aparması, onların xüsusiyyətlərinin incəliklə izahı, qəzəl janrına üstünlük verməsi və bütün əsərlərinin (istər mənzum, istərsə də lirik əsərləri) əruz vəznində qələmə alınması faktına toxunması da monoqrafiyada diqqəti cəlb edən xüsusiyyətlərdən biridir. Məsələn, “Hədiqətüs-süəda” əsərinin janrını ədib povest kimi dəyərləndirmişdir: ““Hədiqətüs-süəda”nı nəsrimizdə birinci böyük tarixi povest saymaq olar.” (14, 191) Müəllif Füzulinin “Şikayətnamə”sindəki nəsri satirik, “Hədiqətüs-süəda”kı nəsri lirik, romantik nəsrdir, “Şikayətnamə”ki nəsri isə ilk bədii satirik nəsr” kimi təqdim etmişdir.

Bununla yanaşı 2018-ci ildə Mir Cəlal Paşayevin çap olunmayan ədəbi-publisistik məqalələri ilk dəfə küll halında nəşr edilmişdir. Milli Kitabxana Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair tanıtım nəşrləri layihəsi çərçivəsində nəşr edilmiş "Mir Cəlal. Publisistika (1926-1977)" (15) kitabı Milli Kitabxananın arxiv fondunda mühafizə olunan dövri mətbuat nəşrlərindən, ölkəmizin digər iri kitabxanalarının zəngin kolleksiyalarından, Dövlət Mədəniyyət və İncəsənət arxivinin fondlarından toplanmış Mir Cəlal Paşayevin ədəbi-publisistik məqalələri ictimaiyyətə təqdim olunur. Mir Cəlalın 1926-cı ilin iyun ayında Tiflisdə çıxan "Yeni fikir" qəzetində dərc olunmuş ilk publisistik məqaləsi olan "Dinsizlər İttifaqı nasıl çalışmalıdır?" məqaləsindən tutmuş "Məhərrəmlik mövhumatı kimin əsəridir?" (1926), "Azərbaycanda İran mühacirləri" (1927), "Rekonstruksiya devrinin müəllimi" (1931), "Xalqın ürək sözü" (1941), "Gənclərə sözüm" (1958), "Bakı görüşləri" (1967) adlı məqalələrin kitabda əksini tapması təqdirəlayiqdir. Azərbaycan ədəbiyyatı tarixinin ayrılmaz hissəsinə çevrilmiş həmin yazıların toplu halında nəşri ədəbiyyat tarixinin izlənməsinə yaxından yardımçı olacaq. Hətta kitabda ədibin 1920-ci illərdə Türkmənistanın Aşqabad şəhərində çıxan "Zəhmət" qəzetində də bir neçə çap olunmuş məqalələri də yer almışdır. Mövzu problematikası zəngin olan bu publisistik yazılarda ədib dini, maarif işinin problemləri, dərsliklərin natamam cəhətləri, gənclərin mütaliəyə cəlb olunması məsələsi, İranlı mühacirlər, 1940 və 1950-ci illərdə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı dekadaları, 1958-ci ildə Özbəkistanın paytaxtı

Daşkənddə keçirilmiş Asiya və Afrika yazıçılarının konfransı ilə bağlı xatirələrini əks etdirən məqalələri diqqəti cəlb edir. "Mir Cəlal. Publisistika (1926-1977)" kitabı klassik yazar Mir Cəlalın yaradıcılığını dərindən izləməyə şərait yaradacaq.

2018-ci ildə Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Mir Cəlal (Paşayev Mir Cəlal Əli oğlu): biblioqrafiya"sı (15) da xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, Mir Cəlal haqqında ilk biblioqrafiya 1968-ci ildə Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən, ikinci biblioqrafik göstərici 1998-ci ildə M.F.Axundov adına Milli Kitabxana tərəfindən görkəmli ədibin anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq, 2006-cı ildə Azərbaycan Milli Kitabxanası tərəfindən çap edilmiş biblioqrafik göstəriciləri də mövcuddur. Mir Cəlalın 110 illiyi münasibətilə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından olan bu biblioqrafiyada ədibin kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, uşaqlar üçün işlədiyi kitablar, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, redaktə etdiyi kitablar, rəhbərlik etdiyi dissertasiyalar, rus və başqa dillərdə çap olunmuş əsərləri, habelə, ədibin həyat və yaradıcılığını əks etdirən bütün nəşrlər xronoloji qaydada qruplaşdırılaraq əksini tapmışdır.

Zəkulla Bayramlının 2018-ci ildə nəşr edilmiş "Füzuli... və..." (21) məqalələr toplusunu da Azərbaycanın dahi şairi Məhəmməd Füzuli yaradıcılığının tədqiq edilməsi baxımından Mir Cəlalın Füzuli yaradıcılığının davamı kimi qəbul etmək olar. Klassiklərimizin ənənəsini davam etdi-

rən məqalələr toplusunda M.Füzulinin zəngin bədii irsinə, həmçinin ədəbiyyatşünaslıqda ədib haqqında müstəsna əhəmiyyətə malik olması əksini tapmışdır. Geniş şəkildə tədqiq edilmiş Məhəmməd Füzulinin yaradıcılığı Zəkulla Bayramlının məqalələr toplusunda "Bağdaddan doğan günəş", "Füzulinin doğum tarixi doğru deyildir...", "Axundzadə və Füzuli", "Nigari lirikasına Füzuli təsiri", "Məcnun-tanrı sevgisi", "Füzuli "Divan"larının dibaçəsi nəsr örnəkləri kimi" və s. mövzuları əhatə edən məqalələr füzulişünaslıq sahəsində sənətkarın ədəbi irsində əksini tapmış bir çox problemlərə işıq salmış, şairin həyatı, həmişə mübahisələrlə yol açmış doğum tarixi, yaradıcılığı, lirikası, həmçinin "Leyli və Məcnun" poeması haqqında geniş məlumat verilmişdir. Azərbaycan ədəbiyyatı tarixində əvəzsiz mövqeyə malik olan Füzuli yaradıcılığı onun xələfləri və sələflərinə münasibətlə yanaşı, həmçinin M.F.Axundzadə, F.Köçərlinin Füzuli yaradıcılığı ilə bağlı qaldırdıqları problemlər, apardıqları tədqiqatlara münasibət də diqqətdən yayınmır. Kitaba eyni zamanda daxil edilmiş klassik ədəbiyyatla bağlı "Şah İsmayıl Xətai", "Sürurinin bir qəzəli haqqında", "Orta yüzillər mühacir şairimiz Hamidi "Divan"ının yeganə avtoqraf nüsxəsi" kimi bir sıra məqalələrin əksini tapması da Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi və tədqiq edilməsi sahəsində əhəmiyyətə malikdir.

IV. Azərbaycan ədəbiyyatı tarixçiliyi və komparativistik tədqiqatlar

Azərbaycan ədəbiyyatı tarixiçiliyi yalnız Azərbaycan ədəbiyyatını tədqiq edən əsərlərlə deyil, həm də xarici ədəbiyyatı, Azərbaycan ədəbiyyatı ilə xarici ədəbiyyatların

sintez, qarşılıqlı tədqiqinin öyrənməsini də əhatə edir. 2018-ci ildə əvvəlki illərdə müdafiə edilmiş bədii komparativistikaya aid dissertasiya işləri monoqrafik şəkildə çap edilmişdir. Eyni zamanda, komparativistika sahəsinə aid yeni tədqiqat əsərlərinin qələmə alınmaması təəssüf doğurur. Mehman Həsənlinin "Çingiz Aytmatov: həyat və yaradıcılığı", Şəhla Qurbanovanın "XX əsr Amerika ədəbiyyatı Azərbaycan ədəbiyyatşünaslığında", Xanım Zairovanın "Azərbaycan-alman ədəbi əlaqələri müasir filoloji kontekstdə" elmi tədqiqatlarına diqqət yetirmək lazımdır.

Mehman Həsənlinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının monoqrafiya kimi nəşri olan "Çingiz Aytmatov: həyat və yaradıcılığı" monoqrafiyası Qırğız yazıçısı Çingiz Aytmatovun (1928-2008) həyat və yaradıcılığının əsas mərhələlərini nəzərdən keçirir. M.Həsənli ədibin yaradıcılığının epoxa xüsusiyyətlərinə, həmçinin qələmə almış olduğu əsərlərinin yazılma səbəblərinə, istinad etdiyi həyat gerçəkliklərinə aydınlıq gətirməyə cəhdləri, həmçinin yazıçının məqalələrində Azərbaycan ədəbiyyatına münasibətinin araşdırılması Azərbaycan ədəbiyyat tarixinin başqa ədəbiyyat tarixi kontekstində öyrənilməsinin bariz nümunəsidir. Azərbaycan və qırğız xalqları ədəbiyyatı kontekstində M.Həsənli Çingiz Aytmatov və müasiri olduğu Azərbaycan yazıçılarının yaradıcılıqlarında oxşar motivlərlə, tipoloji oxşarlıqlarla yanaşı fərqli xüsusiyyətlərin olması amilinə Çingiz Aytmatov və İsa Hüseynovun, Çingiz Aytmatov və Yusif Səmədoğlu yaradıcılıqlarının müqayisəli təhlilində diqqət yetirməyə nail ola bilmişdir.

Şəhla Qurbanovanın "XX əsr Amerika ədəbiyyatı

Azərbaycan ədəbiyyatşünaslığında” monoqrafiyası filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiə edilmiş “Amerika ədəbiyyatı Azərbaycan ədəbiyyatşünaslığında” mövzusunda dissertasiyasının kitab şəklində təqdimidir. Kitabın elmi redaktoru akademik İsa Həbibbəyli müasir filoloji kontekstdə araşdırılmış monoqrafik tədqiqatı “Azərbaycan-Amerika ədəbi əlaqələrinə uğurlu töhfə” və “yeni dövrdə Amerikanın görkəmli şair və yazıçılarının həyat və yaradıcılıqlarını sistemli şəkildə öyrənilməsi istiqamətində atılmış ilk addımlardan biri” (16, 4) kimi dəyərləndirmişdir. Ş.Qurbanova monoqrafiyada Amerika ədəbiyyatının dövrləşdirilməsi sistemini təyin etməyə, realizm, modernizm kimi ədəbi cərəyanların nəzəriyyəçi alimlərin tədqiqatlarının və nəzəri müddəalarını Azərbaycan ədəbiyyatşünaslığında təhlil və tənqidini əsaslandırmağa, “Zənci ədəbiyyatı” və ya Afro-Amerikan ədəbiyyatının Azərbaycan ədəbiyyatında tədqiqi sahəsində azlığını nəzərə alması və elmi araşdırılması yollarının perspektivlərini təyin etməyə cəhdləri diqqəti cəlb edir.

Xanım Zairovanın “Azərbaycan-alman ədəbi əlaqələri müasir filoloji kontekstdə” monoqrafiyası isə müəllifin 2014-cü ildə müdafiə edilmiş namizədlik işinin nəşridir. Monoqrafiyada ədəbiyyatşünaslığın ən aktual problemlərinə nəzər salınmış, Azərbaycan-alman ədəbi əlaqələrinin tarixini, inkişaf istiqamətlərini, müvafiq tərcümə təcrübələrini, tipoloji oxşarlıqlarını və s. tədqiq edir. Müəllif Azərbaycanda alman ədəbiyyatının öyrənilməsi mərhələlərinə diqqət yetirərkən Azərbaycan ədəbiyyatşünaslığında alman klassiklərinin həyat və yaradıcılıqlarına dair tədqiqatları, klassik alman ədəbiyyatı və Azərbaycan ədəbiyyatı

nümunələrindəki tipoloji oxşarlıqları, Mirzə Şəfinin qələmə alınmış şeirlərinin F.Bodenştedt tərəfindən özününküləşdirilməsi faktlarını tədqiq etmişdir. F.Şiller və C.Cabbarlı, Y.V.Höte və H.Cavid, F.Bodenştedt və M.Şəfi kimi ədiblərin yaradıcılıqlarındakı tipoloji oxşarlıqlara aydınlıq gətirməyə çalışmış müəllif M.Şəfi yaradıcılığının tədqiq istiqamətini üç qrupda müəyyənləşdirməyi təklif edir. X.Zairova ədəbiyyatşünaslıqda mövcud olan mübahisələrə aydınlıq gətirməyə cəhd etmiş, hətta bəzən tədqiqatçıların məsələlərə ikili mövqedən yanaşdıqlarını da açıqlamağa çalışmışdır. Məsələn, K.Zundermeyerin 1930-cu ildə yazdığı "Fridrix Bodenştedt və "Mirzə Şəfi nəğmələri" əsərində nəğmələrdəki alman meylindən bəhs etmiş, nəğmələrin tərcümə edilməsi faktına toxunmuş, digər tərəfdən isə şeirlərin Mirzə Şəfinin improvizator qabiliyyəti ilə yarandığını vurğulamaqla ikili mövqedən çıxış edilməsi faktı qabardılmışdır.

Azərbaycan elmi dairələrin 2018-ci ildə komparativistikaya aid marağın bir qədər zəif olması fonunda gürcü türkoloq alimi, akademik Elizbar Cavelidzenin "Ruhi Bağdadi" (həyatı, dünyagörüşü, lirikası) əsəri xüsusi maraq doğurur. Bu əsər Azərbaycan dilinə çevrilərək ictimaiyyətimizə təqdim edilmişdir. Monoqrafiyada Azərbaycan şairi Ruhi Bağdadi yaradıcılığı ətraflı şəkildə ilk dəfə tədqiqata cəlb edilir, sufilik və hurifilik təriqətlərinə münasibət bildirilir. E. Cavelidze qeyd edir: "XVI əsr divanının çoxsaylı şairləri arasında yalnız bir neçəsi gözəl və həqiqi yaradıcı olaraq bizə yararlı ola bilər. Belə ki, onlar müasirlərindən yüksəkliklərə qalxdılar və özlərinin dəsti-xətti ilə türk milli koloritini əks etdirən bir sıra əsərlər yaratdılar."

E.Cavelidze Ruhi Bağdadinin "orta əsrlərin türk divan qəzəlinin ən yaxşı ustadları arasında layiqli yer" tutmasını elmi əsaslarla ifadə etməyə güclü səy göstərmişdir.

2018-ci il Azərbaycan ədəbiyyatı tarixçiliyini izləyərkən diqqəti cəlb edən bir sıra aktual problemlərin özünü qabarıq şəkildə göstərməsinin şahidi oluruq.

İlk növbədə, diqqəti cəlb edən problem elmi varisliyin izlənilməməsidir. Tənqid adı altında digər alimlərin elmi tədqiqatlarının inkar və əsassız olaraq səhv bəyan edilməsi artıq tendensiya formasına çevrilməyə başlamışdır. Məsələn, Təyyar Salamoğlunun "Azərbaycan tənqidi realizminin estetikası" monoqrafiyasında elmi varisliyin izlənilməməsi Yaşar Qarayevə münasibətdə özünü qabarıq şəkildə göstərmişdir.

İkinci problem, 2018-ci il Azərbaycan ədəbiyyatı tarixçiliyini izləyərkən diqqəti cəlb edən amil ədəbiyyat tarixinin müxtəlif tarixi dövrlər baxımından tam şəkildə tədqiq olunmamasıdır. Ən çox tədqiq edilən folklorşünaslıq, XIX əsrin sonları, XX əsrin əvvəllərini əhatə edən yeni dövr ədəbiyyatı və müasir dövr ədəbiyyatının tədqiq edilməsi təqdirəlayiq hadisə olsa da, tədqiq edilən ədəbiyyat tarixi dövrlərinin azlığı təəssüf doğurur. Əvvəlki illərdə Orta əsr ədəbiyyatı geniş tədqiq edilməsinə rəğmən, 2018-ci ildə orta əsrlər dövrünə diqqətin azalması özünü göstərmişdir. Folklorşünaslığın geniş tədqiq edilməsi həm ayrıca Folklor İnstitutunun, həm də Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən "Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr" şöbəsinin tədqiqatlarının nəticəsidir. Orta əsr ədəbiyyatına, Sovet dövrü ədəbiyyatına, Mühacirət ədəbiyyatına, mətnşünaslıq problemləri-

nə toxunan kitab və monoqrafiyaların sayı azlıqla xarakterizə olunur. Müasir Azərbaycan ədəbiyyatı isə əsasən, Yazıçılar İttifaqının qəbul etdiyi sanballı yazar və şairlərin yaradıcılığını tədqiq etməsi, yəni tanınmış ədiblərin yaradıcılığına xüsusi diqqət yetirməsi ilə nəzəri cəlb edir.

Üçüncü problem, 2018-ci il Azərbaycan ədəbiyyatı tarixçiliyi əsasən, əvvəlki illərdə namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş müəlliflərin tədqiqatlarının kitab şəklində nəşr edilməsi, həmçinin əvvəlki dövrlərdə nəşr edilmiş kitab və monoqrafiyaların təkrar və başqa ad altında nəşr edilməsinin say baxımından çoxluğu da diqqəti cəlb edir. Bu təqdirəlayiq olsa da, Azərbaycan ədəbiyyatı tarixini izləmək baxımından yeni monoqrafiya və kitabların azlığı təəssüf doğurur.

Nizami HÜSEYNOV
Kiçik elmi işçi

BÖLGƏLƏRDƏ ƏDƏBİ HƏYAT–2018

Ədəbiyyatın məkanı varmı? Ədəbiyyat üçün konkret ölkə, şəhər, mühit nə qədər önəmlidir? Daha keyfiyyətli, daha təsirli, daha oxunaqlı bədii ədəbiyyatın yaranması üçün məmləkət nə dərəcədə rol oynayır?

Ədəbiyyat bölgədən, ərazi vahidindən asılı olmayaraq yaranır, böyüyür, özünə haqlı və haqsız tənqid qazanır, bəzən yüz illərlə yaşayır, bəzən də ölür – unudulub gedir.

Ədəbiyyat sahəsində ən nüfuzlu mükafat Nobel mükafatı son illərdə Yaponiya (Kazuo İşiquro), ABŞ (Bob Dilan), Belarus (Svetlana Alekseyeviç), Fransa (Patrik Modiano), Kanada (Alise Munro), Çin (Mo Yan), İsveç (Tomas Transtromer) əsilli yazarlara verilmişdir. Bu nüfuzlu mükafatı alan ədəbiyyat adamlarının əsərləri 25 müxtəlif dildə yazılmışdır: ingilis, fransız, alman, isveç, ispan, italyan, rus, polyak, danimarka, norveç, yunan, yapon, ərəb, benqal, macar, ivrit, idiş, island, çin, portuqal, serb, xorvat, türk, çex, fin. Bu müxtəliflik və geniş areal da sübut edir ki, ədəbiyyat bir əraziyə, bir bölgəyə aid ola bilməz.

Sadaladıqlarımız Azərbaycan ədəbiyyatı üçün də keçərlidir. Son onilliklər ərzində böyüyən şəhər – meqapolis yolunda addımlayan paytaxt Bakı ölkənin əli qələm tutan, savadlı, akademik təhsil alan və almağa çalışan hər kəsə münasib imkan yaratmaqda davam edir. Paytaxt amili insanlar üçün mədəniyyət ocaqlarına daha da yaxınlıq, daha geniş elm çevrəsi, daha rahat nəşr olunma imkanları yara-

dır. Beləcə yazarlarımız da "qələmlərini pencəklərinin cibinə taxıb" üz tuturlar şəhərə.

Düzü, hələ də yaşayış şəraiti, ailə basqısı, rayon havası, şəhərin mənfi amillərinin təsiri ilə rayonlarda qalan ədiblərimiz də çoxdur. 2017-ci ilin ədəbi yekunları haqqında məruzəyə hazırlaşarkən Qubada Ramiz Qusarçaylının qonağı oldum. Onunla söhbətimizin lap əvvəlində bu məsələyə toxunduq. Şair ona dəfələrlə təklif olduğunu, şərait yaradılmaqla Bakıya dəvət aldığını söylədi. Amma getmədiyini və yaxşı ki, getmədiyini söylədi. Əli qələm tutan, bu sahədə "ağsaqqal" sayılacaq sənətkarlar bölgələrdə həm də ona görə lazımdır ki, yeni-yeni yaradıcılığa başlamaq istəyənlərə işıq tuta, onlara ədəbiyyat labirintlərində yol göstərə.

"Bölgə – mərkəz" ədəbiyyatını müqayisə edərkən ilk olaraq gözümüzün önünə Musa Yaqub gəlir. Artıq uzun illərdir ki, İsmayıllıda – Buynuzda yaşayıb-yaradan bu sənətkar bizim təsnifatın hansı qoluna aiddir? Musa Yaqubu bölgə ədəbiyyatı nümayəndəsi kimi tədqiq etməliyikmi? Yoxsa Musa Yaqub mərkəz ədəbiyyatına aiddir? Görkəmli tənqidçi Vaqif Yusifli "Bölgələrdə ədəbi həyat" kitabında Musa Yaqubu İmamverdi Əbilov, Asim Yadigar, Vaqif Aslan, Xalid Qoca, Məmməd İlqar, İbrahim İlyaslı, Zakir Məmməd, Zirəddin Qafarlı və s. sənətkarlarla - daha çox təsnifatımızın bölgə budağına aid olan yazarlarla bir sırada verir. Düzdür, tənqidçi daha sonra əlavə edir ki, Musa Yaqub İsmayıllıda müasir Azərbaycan poeziyasının ən gözəl incilərini yaratmaqda davam edir. Musa Yaqub poeziyada Azərbaycan ədəbiyyatında Səməd Vurğun, Hüseyn Arif, Qasım Qasımzadə, Məmməd Araz ənənələrinin uğurlu da-

vamçısıdır.

Vaqif Yusiflidən fərqli olaraq, hesab edirik ki, Musa Yaqub və onun kimi regionlarda yaşayan bir çox ədiblər bu məruzəmizin mövzusu deyil. Çünki paytaxtda çoxsaylı tirajlarla və dəfələrlə çap olunmaq imkanı olan, bütün respublikada və hətta ölkədən kənarda tanınan, yaradıcılığı özlüyündə bir məktəb formalaşdıran sənətkarlar bölgə ədəbiyyatında təhlil edilməməlidir. Ona görə də, bəzi ustad sənətkarların bu məqalədə öz adlarına rast gəlməmələrini unutqanlıq, hörmətsizlik kimi qəbul etməyəcəklərini ümid edirik.

Onu da qeyd edək ki, artıq bir neçə ildir aktivləşən ədəbi prosesə həsr olunmuş konfranslarda barəsində ətraflı danışdığımız sənətkarlar da tədqiqatdan müəyyən qədər uzaqdadırlar. Məqsədimiz daha çox şairlərin şəxsiyyəti, yaradıcılıq uğurları haqqında yox, bölgə ədəbiyyatının səciyyəvi xüsusiyyətləri və mövzu istiqamətləri haqqında fikir yürütməkdir.

Son illərin ümumi ədəbi mənzərəsində nadir nümunələri çıxsaq, bölgə ədəbiyyatının yalnız bir növ üzrə yarandığını müşahidə edirik: lirik növ. Hətta "şeirin" bütünlükdə lirik növlə assosiasiya olunduğunu və yaradıcılığa hakim kəsildiyini söyləmək olar. Regionlarda ədəbiyyat, demək olar ki, nəsrlə yazılmır, epik və ya dramatik növdə yaranmır. Bu da öz növbəsində ədəbiyyatın dar konturlar çərçivəsində inkişaf etməsinə səbəb olur.

2019-cu ilin əvvəllərində meyxanaçı Aydın Xırdalanlının ölümü ilə "Meyxana sənətdirmi?" müzakirələri aktivləşdi. Həmin ərəfədə bir sıra ədəbiyyat adamları iddia edirdi ki, meyxana sənət deyil, söz yığınıdır, bu gün mey-

xana heç kimə lazım deyil, amma düşünməmək olmur: bəs bu gün yazılan bədiilik baxımından kasad şeir kimə lazımdır? Bu şeirlər oxucuya çatırmı, onu riqqətə gətirirmi, bunlar şeir meyarlarına uyğun gəlirmi? Təəssüf ki, əksər nümunələr haqqında "xeyr" cavabını verməliyik.

Ötən ili də bu tip şeirlərin bolluğu ilə başa vurduq. Hələ neçə illər, əsrlər keçəcək, yenə də bu fikirlər qalacaq. Əli çıraqlı gəzib "bir misra poeziya axtaranlar" da hər zaman olacaq. Biz də "əli çıraqlı" gəzdik, ələdik, sovurduq, minlərlə şeirin arasından bəzilərini seçdik ki, 2018-ci il ədəbi mənzərəsini daha aydın görə bilək. 2017-ci ilin ədəbi yekunları haqqında məruzəmizi daha çox Şimal bölgəsi üzərində təhlil etməyə çalışmışdıq, eyni prosesin davamı kimi bu il də Cənub bölgəsi – Lənkəran və ona qonşu olan ərazilərdə yaşayan şairlər haqqında daha çox danışmalı idik. Amma keçən ilki nöqsanları nəzərə alaraq bu il Cənub bölgəsi ağırlığı ilə ədəbi mənzərəni bütöv Azərbaycan üzərindən təhlil etmək qərarına gəldik.

Təhlilimizi ayrı-ayrı şəxslər və rayonlar üzrə yox, mövzu-arxetiplərə görə davam etdirəcəyik. Azərbaycan ədəbiyyatı üçün xarakterik olan əksər mövzular 2018-ci ildə də aktivliyini qorumaqdadır. Xüsusən, Vətən, şəhidlik, sevgi, söz-sənət kimi mövzular ən çox müraciət olunanlardır.

...Artıq bir neçə ildir ki, öz yaradıcılığı və poetik axtarışları ilə Elnaz Eyvazlı diqqətimizi çəkməkdədir. Onun şeirlərinin olmazsa, olmazına çevrilmiş Adam günümüzdə Azərbaycan ədəbiyyatında özünə möhkəm yer tutub. Bu mövzu da mərkəzdə formalaşmış, Azərbaycan ədəbiyyatı gündəminə paytaxt Bakıdan düşmüş, daha sonra bölgələrə

yayılmışdır. Qeyd etmək yerinə düşər ki, heç bir cərəyan, istiqamət, yeni forma və üslublar bölgədən mərkəzə keçmir, hər zaman mərkəzdə formalaşmış, ədəbiyyat qazanında bişdikdən sonra regionlara yayılmışdır.

Elnaz Eyvazlı tez-tez Adama müraciət edir, onun şeirlərində Adam bəzən sevgilidir, bəzən insanlıqdır, bəzən hər şey, bəzən də heçlikdir. Əvvəlcə şairin bir neçə şeirindən nümunələrlə Adam obrazının çizgilərinə nəzər salaq:

Həyatı gözümdə öldürən adam,
canın sağ olsun:
sayəndə
ölümdən qorxmuram...

Darıxırsan vəhşicəsinə,
canın gözlərinin bulağına yığılır
iki damcı yaş kimi.
Yaşaya bilmirsən;
öz boynundan asılırsan
çəkindən ağır daş kimi.
Hər şey sıxır səni,
hamı yerini dar edir.
Adam
öncə ölür,
sonra intihar edir...

Neynədin məni, adam?
kimə tapşırdın,
harda unutdun?
Yenəmi dönəcəksən?

Mənsiz qayıtma, mən ölüm,
mənsizlikdən yoruldum.
Tap, götür, gəl məni.
bəlkə, gərəyin oldum.

Ötən ilin ədəbi mənzərəsinə baxdıqda bölgələrdə də Adamın bədii portretinin dəfələrlə yaradıldığını görürük. Kimdir bu Adam? Müasir ədəbiyyatın Adamı Nəsiminin yaratdığı "Ən-əl Həqq" olan İnsan deyil. Bu gün Adam əksər hallarda müəllifin özüdür, şairin özünə xitabıdır. Afiq Muxtaroğlunun şeirindən iki bəndə nəzər salaq:

Bu necə qovhaqov, bu necə sürək?
Köksümün altında dincəlmir ürək,
Ömür küllüyünü üfürmə görək,
Nəm çəkən kösövü alışmaz, adam.

Budurmu ədalət, budurmu yarğı?
Könül yarasına tapılmır sarğı.
Bu ürək andır da qəribə qurğu,
Bircə yol dayansa, çalışmaz, adam.

Bu şeirdə izlədiyimiz kimi, Adam deyə müraciət olunan şairin özüdür. Sevindirici haldır ki, getdikcə şeirdə tərəqqi yaşanmaqdadır. Tez-tez tənqid etdiyimiz qalaq-qalaq şeirlər yazan müəlliflər bu gün oxucuya daha az çata bilir. Xüsusən ənənəvi şeir formasında, təkrar mövzularda, qəlib şeir şəkillərində yazanlar bu gün oxucu üçün maraqlı deyil. Müşahidələrimiz onu deməyə əsas verir ki, belə şeirləri yazan müəlliflər daha çox yaşlı nəslin nümayəndələridir.

Bu şairlər nəinki mövzu, şeir forması üzrə təkrarçıdırlar, hətta kitabların cildlərinə qədər bir-birinin eynisidirlər. Xüsusən bölgə şairlərində rast gəldiyimiz bu kitabların cildində zəif pikselli aparatla çəkilmiş bir mənzərə boylanır. Fonda qarlı dağ, bir az irəlidə çay, kol-kos və s. Təkcə bu məruzəyə hazırlaşarkən əldə etdiyimiz kitabların ona yaxınında belə cildlənmə gördük. Bu təkrarlı, məzmunsuz şeir kitabları isə, adətən, şairin evində yığılıb qalmış olur. Unutmayaq ki, şair şeirini şöhrət qazanmaq, AYB-ə üzv olmaq, prezident təqaüdü almaq və s. kimi niyyətlərlə yazmamalıdır. Əgər bu yola o, əl atırsa, bəzən bunun üçün başqasının müəllifi olduğu əsərləri pulla alıb öz adına kitab çap etdirirsə, itirən yalnız müəllif olur, itirdiyi də kağızlar, mürəkkəb və vaxt.

"Adam" obrazı öz içində həm də belə şairləri birləşdirir. Bəzən şeirlərdən baş qaldıran adamlar şöhrətpərəstlik hərisinə çevrilmiş şairlərdir. Amma bu tip şairlərə qarşı tamamilə yeni nəsil formalaşır. Günümüzdə şairin oxucuya qədər gəlib çatması təkcə kitablar üzərindən həyata keçirilmir. Şair və oxucu arasında körpü rolu oynamaq vəzifəsi tənqidçinin də üzərindən götürülmüşdür. Şairin oxucuya birbaşa çıxışı və oxucunun da rəyini şairə oxuduğu andaca çatdıra bilməsi sosial şəbəkələrlə həyata keçirilir. Bu gün hər cür şeiri "Facebook"da oxuya, "Youtube"da dinləyə bilərik. Şairin yaradıcılığını, yaxşısını, pisini də internet üzərindən görə bilirik.

Zakir Qurban imzasını da kitablardan yox, internetdən tanımışıq. Müəllifin "Adam" adlı şeiri isə mövzumuzla tamamilə səsləşir.

Nə vaxtdır özünü gəzirsən, adam
Gəzirsən bir belə adam içində.
Nə vaxtdır yolunu gözləyir sənin,
Oturub bir qərib adam – içində.

Mən sənə gün verdim, işıq vermədim.
Haqqın var, üzümə nə desən, adam.
Bu şeirin gözünə kül üfür gedək,
Nə mən adam olum, nə də sən adam.

Hər kəsin içində gizli, yaxud aşkar şəkildə ölüm qorxusu mövcuddur. Şairin də, rəssamın da, alimin də, mühəndisin də, həkimin də. Ölüm ədəbiyyatın özü qədər köhnə mövzudur. Bu gün də bu mövzu aktuallığını qoruyur. Şairlər ölüm mövzusuna digər mövzulardan daha həssas yanaşır, daha təsirli reaksiya bildirirlər. Hər zaman müşahidə edirik ki, tanınmış bir şəxsin ölümü, əsgər ölümü və ya cəmiyyətdə səs-küy yaradacaq digər hadisələr tez bir zamanda şairlərdən reaksiya alır, bu mövzuda şeirlər yazılır. Hər məclisdə, hər yubiley tədbirində, el şənliklərində müəlliflərin mövzuya uyğun şeirləri hazır olur. Bu məsələni daha çox 2019-cu ilin əvvəlində baş vermiş məktəbli qızın ölümü üzərindən araşdırdıq. Əvvəlcə bu mövzu ilə bağlı gənc şair Ruzbeh Məmmədin fikirlərinə nəzər salaq: “Mən Elina üçün şeir yazmadım. Heç sərhəddə atışma olanda da şeir yazmıram. Çünki şou xarakterli cümlələrin kütləvi qırğınına fərman vermirəm. İçimdən gələn onun bağışlanması üçün dua etməkdi. O yazılan şeirləri bəhbəhlə təqdim edirsiniz e, səmimiyyətsiz olduğunuzu ortaya qoyursuz... Elə hər şeyə şeirmi yazırlar?! Hansı qafa, hansı

mübhəm hisslərdi axı bu?” Fikirləri redaktə etmədən, olduğu kimi saxladıq. İndi isə, eyni hadisə ilə bağlı yazılmış iki şeir nümunəsi ilə tanış olaq:

Müəllimlərin
söz “iynəsindən”,
qırıldı bir nəslin
şəcərəsi...
məsum qızı ağzına aldı
intihara susamış
məktəb pəncərəsi...
Dörd yanımızdakı
səs-küylü sükut
cinayəti yasaqlayır...
və olacaq intiharlara
indidən yas saxlayır...

(Giya Paçxataşvili)

Başqa bir gənc şairin şeirindəki misralara diqqət yetirək:

Olur belə, pəncərələr açıq qalır, Elina...
Qapı ağzı qıfıllanır,
Gəlinciklər qanadlanır, Elina...
Olur belə, yol görünür havada,
Göy çağırır oynamağa, yıxıldığın yer ağlayır,
Uşaq salan pəncərəni
Pərdələri tumarlayır.
Olur belə, pəncərələr açıq qalır Elina,
Başımıza adam yağır,

Əcəl zəngi çalanları
Dərsə çağır, Elina...

(Mehman Rasulov)

Yazılan şeirləri oxuduqca görürük ki, şeirin yaranması üçün aylar-illər lazım deyil, bəzən qısa bir zaman, ani hadisə belə gözəl şeirin yaranmasına səbəb olar. Yetər ki, şeir müəllifin gerçək duyğularının, daxili təlatümlərinin məhsulu olsun. Boğazdan yuxarı, şeir yazmaq xətrinə, sifarişlə, gündəmdə qalmaq üçün yazılan şeirlərdən isə zövq almaq mümkün deyil.

Son illərdə sözün poetik məqamını tutmağı bacaran şairlərdən biri Xəttat Kilimçidir. Əsl adı Mirbağır Bünyatlı olan bu cavan şair istər peşəkar tənqidin, istərsə də oxucu tənqidinin diqqət mərkəzinə düşməyi bacarmışdır. Müəllifin şeirləri öz müasirlərindən kəskin şəkildə fərqlənir. Bu şeirlərdə obrazlılıq təkcə bənzətmələr hesabına yaradılmır, hətta deyərdik ki, müəllif bilərəkdən pafoslu bənzətmələrdən uzaq qaçır. X.Kilimçi haqqında məruzənin bu yerində söz salmağımız isə əbəs yerə deyil. Müəllifin aşağıda təqdim etdiyimiz şeiri "ölümə tərk edilmiş" qadının bir gününü – ad gününü bizə təqdim edir. Şeirdə incə ruh, sənətkar ustalığı asanlıqla hiss olunur:

Nənəmin ad günü idi,
Biz də bilmədik, bilmədik..
Baxdı nənəm, qorxdu nənəm
Kimsə görmədi, görmədi...

Bir az qınadı babamı,
Eh, O şəlpəbığ adamı.

Düşdü qanı, qalxdı qanı,
Həkim bilmədi, bilmədi

Qadın, – bu qədər bərk olmaz
Dedi, ağladı, ağladı..
Boyat çörəkdən bir tikə
Yedi ağladı, ağladı.

Qışda dediyi nağılın
Divi ağladı, ağladı
Ağladı həyət bacası,
Evi ağladı, ağladı.

***

Məruzənin əvvəlində qeyd etdik ki, bölgə ədəbiyyatını ayrı-ayrı regionlar: Quba, Gəncə, Lənkəran, Naxçıvan və s. istiqamətlər üzrə deyil, mövzu fərqliliklərinə görə araşdıracağıq.

Bölgə ədəbiyyatı (və ümumi Azərbaycan şeiri) üçün xarakterik olan daha üç mövzu var: Vətən, sevgi, şair-şeir-söz. Bu mövzuları bir çox şairimiz özünə vizit kartı hesab edir. Sanki yerli mətbuatda çap olunmaq üçün, toplu və almanaxlarda yer almaq üçün və Azərbaycanda bir çox şairin ali məqsədi olan Azərbaycan Yazıçılar Birliyinə üzv olmaq üçün mütləq bu üç mövzuda yazmalısan. Heç şübhəsiz ki, belə mövzular arasında birinci yeri tutan Vətəndir.

Vətən mövzusu ədəbiyyat üçün nə qədər əhəmiyyətlidir? Azərbaycan kimi bir ölkədə ədəbiyyatın həyatı təsvir

etmə üsulundan, nəzm, nəsr xüsusiyyətlərindən, bölgə, mərkəz ayrılığından asılı olmayaraq ən çox ehtiyac duyulan mövzu elə Vətən – vətənpərvərlikdir. Xüsusən vətəndaşının iki təbəqəyə – SSRİ həyatını yaşamışlar və müstəqil respublikada doğulanlara bölündüyü, Qarabağ kimi qlobal probleminin olduğu, mental deqradasiyalara uğramış azərbaycanlı vətənpərvər mövzuda yazılmış əsərləri oxumalı, bu ruhda böyüməlidir.

Bu ağır yük ədəbiyyat adamlarının – şairlərin, yazıçıların çiyinlərindədir, amma unutmayaq ki, bu şairlər üçün zərurət deyil. Yəni yuxarıda yazdığımız səbəblərdən dolayı Vətən mövzusu yazılacaqsa, heç yazılmasın. Əgər şair nə poetik obrazlılığı olan, nə qafiyə quruluşu yerində olan, nə də lirik qəhrəmanın hiss və duyğularını dolğun şəkildə əks etdirən əsər yarada bilmirsə, yazmasın. Çox təəssüf ki, bu gün tənqidçinin, oxucunun şairə "Yazma!" əmri vermək ixtiyarı yoxdur. Lakin tənqidçinin belə şair və şairləri sərt tənqid edəcək qələmi – klaviaturası var. Naşirlərin belə şairləri çap etməmək ixtiyarı var, ən sonda oxucunun bu şeirləri oxumamaq kimi bir çıxış yolu var. Şübhəsiz ki, sadaladıqlarımız arasında əsas yük yenə də tənqidçilərin üzərinə düşür. Tənqid güzəşt meydanı, incitməmək, xətrə dəyməmək üslublarının axtarıldığı, ağsaqqala hörmət - qələmin müqəddəs vəzifəsinə xəyanət prinsiplərinin at oynatdığı bir sahə deyil. "Ağın ağ, gündüzün gündüz, gecənin tar" kimi yazılmalı olduğu bu sənətdə bəzən "pisə pis deməyə, düzü həmvar yazmağa" əlimiz gəlmir. Ədəbi tənqid tezliklə bu damğanı öz üzərindən atmalı, şairə, yazıçıya real qiymət verməli və axır ki, müəlliflə oxucu arasında körpü olmaq funksiyasını, oxucuya yön-istiqamət vermək

işini öz üzərinə götürməlidir.

Son illər Azərbaycan ədəbiyyatında xeyli fərqli janrlar, üslublar meydana gəldi. Ənənəvi ədəbiyyata fərqli baxış formalaşdı. Bəzən doğru, bəzən yanlış məqamlarda bu dəyişilmənin modernizm və postmodernizm libasına büründüyünü, bəzən köhnə mətnlərin yenidən işlənməsini, bəzən də tamamilə yeni və heç bir janrı təkrarlamayan nümunələri müşahidə etdik. Bəs niyə vətənpərvərlik şeirləri primitivlik bəlasından xilas ola bilmədi? 1990-cı illərdən bəri sürətlə artan Vətən mövzulu şeirlərin böyük əksəriyyəti 2016-cı ildə düşməndən azad edilmiş Lələtəpə yüksəkliyinin yanında durub səsləndirməyə layiq olmadı. Bəzən "publikaya oynamaq üçün" deyilən vətən mövzulu meyxanalar belə cild-cild kitablarda yer almış Vətən şeirlərindən daha ağır gəldi. Onu da əlavə edək ki, məruzəmizin mövzusu bölgə ədəbiyyatı olduğundan və bölgələrdə müəlliflər daha çox şeir yaradıcılığına üstünlük verdiyindən vətən mövzusunun epik əsərlərdə və nəsr yaradıcılığında əks olunması haqqında danışmırıq, lakin kiçik bir qeyd əlavə etməyi lazım bilirik ki, mərkəzdə çap olunmuş vətənpərvərliyin tərənnümünü hədəfləyən, milli qəhrəmanlarımızı təbliğ edən roman və hekayələrdə boğazdan yuxarılıq, primitivlik hiss olunmaqdadır. Tək-tək nümunələri çıxmaq şərtilə Mübariz İbrahimov, Raquf Orucov kimi bir sıra qəhrəmanlarımız haqqında yazılan əsərlər reallıqdan uzaq, müasir oxucunun sevmədiyi ideal obrazın yaradıldığı əsər tipindədir və az qala hər səhnədə yüksək pafoslu cümlələr əsərin bədii təsir gücünü xeyli aşağı salır. Düşmən obrazlarını yaradarkən aşağılayıcı, yumoristik ifadələr, məzmunsuz təhqirlər, qeyri-peşəkar bənzətmələr

əsəri zəif şəkildə hazırlanmış "stand up" göstəricisinə çevirir.

Şairə Günel Eyvazlı "Ədəbiyyat qəzeti"ndə çap olunmuş məqaləsində bu məsələyə toxunaraq yazır: "Təsviretmə təkamül nəticəsində çox dəyişilib. İndi Homer kimi bir-bir qəhrəmanların nəsil xəttini sadalamağa, qəhrəmanlığını öyməyə ehtiyac yoxdur. Fəlsəfi dərinlik qatından primitivliyin astanasına qədər gəlib çıxmışıq. Bəs nədən biz də Azərbaycanda əldən gedən, bizə "sağ ol" deyən ənənəçilikdən qopa bilmirik? Niyə hadisələrə baxışımızı dəyişmək istəmirik? Niyə "Təki vətənimiz düşməsin dara... Baxmayıb soyuğa, borana, qara... Cavab vermək üçün o azğınlara... (burada "yara", "dara", "hara", "qara" və s. əlavə etmək olar. Qafiyə yığını) Hər bir çətinliyə dözdü Şəhidlər" (paradoks) primitivliyindən çıxa bilmirik? "Qarabağtək gözəlin aqibəti bu imiş... Qədrini bilməz isən, alçalar qızıl, gümüş... (imiş, ümüş...) O nisgilli sinənə çalınçarpaz çəkilmiş... Sağalmaz yara vuran közü, dağı unutma... Sən, ey vətən övladı, Qarabağı unutma!".

Vətən, torpaq, Qarabağ mövzusunda yazılmış başqa bir şeirə nəzər salaq:

Vətən nədir? – Nurlu sabah deməkdir.
Sabah nədir? – Bir addım da irəli.
Vətən nədir? – Get, irəli deməkdir.
Qarabağa doğru, Qarabağa irəli.

Dörd misralıq şeirdə heç bir qafiyə işlənməyib, heç bir məzmun yükü yoxdur. Vətən get irəli deməkdir, Qarabağa doğru, Qarabağa irəli. Şeiri oxuduqca düşünürsən, ola bi-

lər ki, şair qafiyə axtarıb, sual-cavab üslubunda axtarış edib və s, yəni bu şairin məşq prosesidir. Amma görəndə ki, bu şeir ictimailəşib, saytlarda çap olunub, mətbuata ayaq açıb ...

Nə qədər tənqid etsək də, bu mövzuda təqdirəlayiq əsərlər də yaranmaqdadır. Ustadların yaradıcılığında ən gözəl şeirlər də elə bu mövzudadır:

Gəl gəzək Təbrizin küçələrini,
Gəzişək qolbaqol, dolanbadolan...
Çəkək gözümüzə gecələrini
Təbriz pıçıldasın:
- Xoş gəlib balam...

Çıxaq Aynalıya çiçək dərməyə,
Bir şeir bağlayaq gül tağlarından.
Yanır duz içində susuz Urmiya
Gəl öpək qurumuş dodaqlarından...

Öpüb səcdə qılaq burda hər şeyə,
İkimiz bir daşın üstə baş qoyaq.
Vuraq Şah gölündə badə badəyə
Şallaqdan qorxmayaq, dardan qorxmayaq...

(Ramiz Qusarçaylı)

Azərbaycan ədəbiyyatının elə bir dövrü yoxdur ki, orada aparıcı mövzu sevgi olmasın. Yazılı ədəbiyyatın əlimizə gəlib çatan ilk nümunələrindən günümüzə qədər tarixin bütün dövrlərində sevgi mövzusunda yazmaq ənənəsi olmuş, zaman-zaman digər mövzular aktuallıq qazansa da, (məsələn: sovet dövründə kollektiv əməyin təbliği, XX əs-

rin sonlarında Qarabağ mövzusu və s.) ümumi mənzərədə aparıcı olan yenə də sevginin tərənnümünə həsr olunmuş lirik, epik nümunələr olmuşdur.

Günümüzün Qərb kino industriyasını izlədikdə müşahidə edirik ki, bütün süjetlərdə fabuladan asılı olmayaraq sevgi xətti var. Qərb sənətkarlığında müşahidə olunan bu xətt Azərbaycan ədəbiyyatının ən qədim yaradıcılıq üsuludur. Belə ki, üzü Nizamidən bəri əksər süjetli əsərlərdə iki aşiq obrazını görürük.

Epik əsərdə aşiq-məşuq obrazının yaradılması nə qədər tarixidirsə, gözəlin tərənnümü də bir o qədər qədimdir. Zaman-zaman tərənnüm olunan ilahi gözəllər XVII əsrdən etibarən "göydən yerə endirilmiş", pərilər bağında yaşayan hurilər çeşmə başından su götürən qızlarla əvəz olunmuşdur. Dəyişməyən isə odur ki, günümüzə qədər qadının tərənnümü şairlərimiz üçün aktuallığını qorumağa davam etmişdir.

Sevgi şeirlərinin bölgəsi, mərkəzi yoxdur. Əli qələm tutan hər kəs yaradıcılığa üç mövzu ilə start götürür: təbiət təsviri, vətən tərənnümü və sevgi. Ona görə də, çap olunan hansı ədəbiyyat kitabını açsaq, orada sevgiyə aid nümunə görürük.

Sevgi ibadət kimidir. "Bu dünyanın əlifbası məhəbbət, Ən ilk nəğmə, ən ilk yazı məhəbbət" misralarından bəri sevgini, məhəbbəti tərənnüm edən şeir demək olar ki, yaranmadı. Sevgi şeirləri oxucuya "sev ki, sevən mərd olur" demədi, eləcə sevginin iztirab, dərd, göz yaşı olduğunu öyrətdi.

Biz ötən ilin ədəbi mənzərəsində aktuallığını qoruyan sevgi şeirlərinə nəzər saldıq: ümumi mənzərə yenə də ey-

nidir. Son illər ədəbiyyatın aşiq obrazları üçün "it kimi darıxmaq" illəridir desək, yanılmarıq. Şəhriyar del Gerani, Cəlil Cavanşir kimi darıxanlar siyahısında bu il də Əsəd Qaraqaplan yer alır.

Diriyəm, canım sağ deyil
Ölməyə üzüm ağ deyil...
Mənimki yaşamaq deyil
Eləcə darıxmaqdır...

Sevgi gələrkən gətirdiyi xoşbəxtlik, gedərkən aparmadığı göz yaşıdır. Aşiqin iztirabının sübutu Şah İsmayılın "Dəhnamə"sində müstəqil obraz səviyyəsinə qədər qaldırılmışdır. Bu gün də göz yaşı ayrılıq ruhlu şeirlərdən baş qaldırır, mütləq şəkildə şeirdə özünə yer edir.

Sevgi mövzusunda şərhimizi burada bitiririk, çünki bu mövzuda yazılan nümunələr qədər təhlillər də çoxdur. Sonda isə daha çox zövq aldığımız bir neçə şeirdən nümunələri diqqətinizə çatdırırıq:

Duz səp yaram üstə, qaynasın qanın,
Zülm eylə, zülmündən bir əfv qazanım.
Qızdır alovunla o qır qazanı, –
Mənə qonaqlıq ver, ziyafət eylə.

(Tərlan Əbilov)

Dinmək istəyirəm dilim açılmır,
Uzanan yad ələ əlim açılmır.
Hara yüyürürəm yolum açılmır,
Hər şey sənə qədər gəlir, qurtarır.

(Şəhla Vahid)

Əllərim vardı bir zaman
Barmaqlarım yox idi onda.
Əllərim vardı, əllərim
Əlimi sən tutanda.
Sonra itirdim səni,
Sonra bu yiyəsiz əllərimi…
Unudulmağı
Sən əllərimi əllərindən salanda
Əllərim əllərindən düşüb çiliklənəndə,
Barmaq-barmaq olanda öyrəndim.

(Saqif Zeynal)

Qaldı xəyalımda həsrəti, izi,
Yaman dalğalandı hicran dənizi.
İnsan övladının daş ürəklisi,
Nazlı gözəllərin başıydı getdi.

(Şücaət Kəlbəcərli)

P.S: Bütün iradlara, peşəkar və ya qeyri-peşəkar tənqidlərə baxmayaraq, əminliklə söyləmək olar ki, bölgələrdə ədəbiyyat yaranır, böyüyür, zənginləşir və keyfiyyətcə yeni məziyyətlər qazanır. Heç bir halda bu ədəbiyyatın üstünə kölgə salmaq, bütöv Azərbaycan kontekstindən bölgə ədəbiyyatını kənarlaşdırmaq olmaz. Növbəti illərdə bölgələrdə poeziya kimi nəsrin və dramaturgiyanın da inkişaf edəcəyinə, tənqid və ədəbiyyatşünaslığın bölgələrdə də tədqiqat sahəsi olacağına əminik.

Mərcan SOFİYEVA
Elmi işçi

BƏDİİ TƏRCÜMƏ–2018

Bədii tərcümə milli mədəniyyətin inkişaf mərhələsinə yaxından təsir göstərən, onun ayrılmaz və inkaredilməz zəruri şaxələrindən biridir. Dünya miqyasında elə bir ölkəyə, milli ədəbiyyata rast gəlmək olmaz ki, bu sahəyə biganə yanaşsın, onun təsirindən bəhrələnməsin. Mürəkkəb yaradıcılıq prosesi və hər zaman ciddi məsuliyyət tələb edən bədii tərcümə, dövrdən asılı olmayaraq həmişə aktuallıq kəsb etmişdir.

Həqiqətdir ki, qarşılıqlı ədəbi əlaqənin genişlənməsi dünya xalqları ədəbiyyatı, o cümlədən Azərbaycan ədəbiyyatının inkişaf etməsinə təkan vermiş, formalaşmasında danılmaz rol oynamış, xalqın əxlaqi-mənəvi, ədəbi-estetik dəyərlər sisteminin zənginləşməsinə, müasirləşməsinə xidmət etmişdir. Dünya ədəbi-mədəni mühitinə, inteqrasiyaya birbaşa xidmət edən bu strateji əhəmiyyətli sənət növü dünya ədəbiyyatının dilimizə və milli ədəbiyyatımızın dünya dillərinə tərcüməsində bir zəruri proses kimi hər zaman diqqət mərkəzində olmalıdır. Akademik Bəkir Nəbiyev haqlı olaraq qeyd edir: “Vətənimizin tarixi təcrübəsi xüsusilə aydın göstərir ki, həm mədəniyyətin inkişafı, həm də bütünlüklə milli münasibətlərin daha da yaxşılaşması, genişlənməsi və təkmilləşməsi üçün xüsusi emosional təsir gücünə malik ən səmərəli vasitələrdən biri bədii ədəbiyyatlar, onların qarşılıqlı əlaqələri və həmin əlaqələrin ən çox yaşayan, təsir göstərən sahəsi bədii tərcümədir”.

Bədii tərcüməni canlı sənət növü adlandırsaq, bəlkə də yanılmarıq. Yaradıcı insanın yeni bir əsər yaratmaq cəhdi yüksək səviyyədə məharət, təcrübə, xüsusilə də yaradıcılıq istedadı tələb edir. Tərcümə olunan əsərlərin orijinalla uyğunluq səviyyəsinin dəyərləndirilməsi, xüsusilə yenidən yaradılmış əsərdə tərcüməçinin nail olduğu yüksək peşəkarlıq, yaxud uğursuzluq dərəcəsinin müəyyən edilməsində tələb olunan əsas amillər milli spesifik cizgilərin dəqiqliyi, obrazların mənəvi-psixoloji dünyasının ifadəsi, orijinal əsərin üslub xüsusiyyətlərinin dəyişdirilməməsi, milli koloritin təhrif edilmədən və əskilmədən təqdimatı, qorunması, atalar sözü, məsəllər və idiomların, frazeoloji vahidlərin dəqiq, lakin hərfilikdən uzaq olması tərcümə prinsiplərinin ən yüksək göstəricisidir.

Bəs bütün bu sadaladığımız xüsusiyyətlər Azərbaycanda ildən-ilə zənginləşən, təkmilləşən, müasirləşən bu ədəbi prosesdə əks olunurmu? Tərcümə mədəniyyəti ölkəmizdə peşəkarlıq səviyyəsinə nail ola bilirmi? 2018-ci ildə bu yaradıcılıq sahəsi bizə "Azərbaycanda tərcümə prosesi yüksək qiymətləndirilsin" ifadəsini ürəklə deməyə əsas verəcəkmi?

Sözsüz ki, bu sualların cavabı bədii tərcümə ilə peşəkar səviyyədə məşğul olan təşkilatların, mətbu orqanların və diqər əlaqədar qurumların illik fəaliyyətini dəyərləndirdikdən sonra mümkün olacaq.

Digər illərdə olduğu kimi, bu il də, əsasən konkret qurum və təşkilatların fəaliyyəti tədqiq obyekti olacaq. Mütləq şəkildə qeyd etmək lazımdır ki, ölkəmizdə tərcümə sahəsində xüsusilə əməyi olan bir neçə qurum vardır ki, onların Azərbaycan və dünya ədəbiyyatının tərcüməsində

və təbliğində xidmətləri çox böyükdür. Nazirlər Kabineti yanında Dövlət Tərcümə Mərkəzi (DTM) və Azərbaycan Yazıçılar Birliyi nəzdində fəaliyyət göstərən Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sözügedən məsələnin Azərbaycanda inkişaf xəttinin yüksəlməsində, intensivləşməsində xidmətləri böyükdür. Tərcümə prosesinin inkişaf istiqaməti adı çəkilən rəsmi qurumlarda diplomatik əlaqələrin yaradılması, ədəbiyyatların qarşılıqlı təbliği, dünya ədəbiyyatı nümunələrinin tərcüməsi və kitab şəklində nəşr edilməsi, eyni zamanda dövrü mətbu orqanlarda və dərgilərdə il ərzində davamlı olaraq işıq üzü görmüşdü. DTM-in "Xəzər" jurnalı, Yazıçılar İttifaqının nəzdində fəaliyyət göstərən "Dünya ədəbiyyatı" dərgisi, "Azərbaycan" jurnalı, "Ədəbiyyat" qəzeti, "Ulduz" jurnalı, bir sıra nəşriyyatlar, mətbuat orqanları və internet portalları bu sahədə gedən intensiv inkişafın təməlində dayanan orqanlardır.

Əvvəla deyək ki, 2018-ci ildə tərcümə prosesi iki müstəvidə inkişaf etmişdir:

Azərbaycan ədəbiyyatı nümunələrinin dünya dillərinə tərcüməsi.

Dünya ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsi.

İl ərzində işıq üzü görən bütün tərcümə əsərləri iki yolla edilmişdir:

Orijinaldan tərcümələr.

İkinci dil vasitəsilə edilən tərcümələr.

Qeyd edək ki, ikinci dildən tərcümə məsələsi hər il olduğu kimi, bu il də aktuallıq qazanır və əsasən rus, bəzən isə türk dili vasitəsilə həllini tapır.

2018-ci ildə, əsasən Avropa, xüsusilə ingilis, fransız,

alman və italyan, bununla yanaşı, amerika, rus ədəbiyyatları nümənələrinin tərcüməsinə üstünlük verilməsi faktı diqqəti cəlb edir. Türk və türkdilli, ərəb, yapon, çin və digər xalqların ədəbiyyat nümunələrindən də tərcümələr işıq üzü görmüşdür. Roman ədəbiyyatı ilə yanaşı, epik janrın müxtəlif növlərinə, ədəbiyyat nümayəndələrinin həyat və yaradıcılığından səhifələrə, hekayələr, epistolyar ədəbiyyat nümunələri, esselər, ədəbi-nəzəri və fəlsəfi fikirlər, xatirələr, məktublar, çıxışlara da geniş yer ayrılır. Tərcümə olunan əsərlərin böyük bir hissəsi XX əsr ədəbiyyat nümunələri əsasında təsdiqini tapır. Dövrü mətbuatda isə, əsasən qısa həcmli, lakin dərin fəlsəfi, ədəbi-bədii və estetik məzmunlu əsərlərin çapına üstünlük verilir. Bəzən isə irihəcmli əsərlərdən kiçik parçalar təqdim olunur.

Böyük təəssüf hissi doğuran faktlardan biri və ən əsası bədii tərcümələrin bəzən yeni olmaması, hətta bəzilərinin sovet dövründə ingilis, fransız, alman və rus ədəbiyyatlarından edilməsi və bu gün yeni tərtibatda nəşri məsələsi yenə də aktualdır. Bir sıra nəşriyyat evləri vardır ki, yeni tərtibatda köhnə tərcümələri oxuculara təqdim edir, sovet ideologiyasının təsiri altında edilmiş tərcümənin keyfiyyət və məzmununa diqqət yetirmir.

Yuxarıda qeyd etdiyimiz kimi, tərcümə işinin ölkəmizdə inkişafına, ədəbiyyatların qarşılıqlı təbliğinə, xüsusilə də, Azərbaycan ədəbiyyatının dünyada təbliği işinə xidmət edən qurumlardan biri və ən böyüyü Nazirlər Kabineti yanında Dövlət Tərcümə Mərkəzidir. Qeyd edək ki, Mərkəzin fəaliyyəti mərhələli şəkildə həyata keçirilən bir sistem üzərində qurulub. İlk növbədə nəzərdə tutulan ölkələrin ədəbiyyat nümunələrinin tərcüməsi üçün əvvəlcə hə-

min ölkələrin səlahiyyətli nümayəndələri ilə rəsmi görüşlər təşkil olunur, memorandumlar imzalanır. Bir çox hallarda ədəbiyyatların qarşılıqlı şəkildə təbliğatı haqqında rəsmi razılıq əldə olunur. Ədəbiyyat nümunələri tərcümə olunaraq kitab şəklində hər iki ölkədə nəşr olunur, təqdimat mərasimləri keçirilir. Bu faktın özü milli ədəbiyyatımızın dünya miqyasında təbliği üçün qiymətli addım sayılmalıdır. Azərbaycan ədəbiyyatının ölkə sərhədlərindən kənarda təbliğatı hər bir nəşr və tərcümə işi ilə məşğul olan qurum və təşkilatların prioritet məsələsi olmalıdır.

Hər il olduğu kimi, DTM-də həm Azərbaycan, həm də dünya ədəbiyyatı nümunələrinin təbliği işində böyük işlər görülmüş, müxtəlif ölkələrin nəsr, hekayə və poeziya antologiyalarını nəşr etdirilmiş, ayrı-ayrı yazıçı və şairlərin irili-xirdalı əsərlərini tərcümə edilərək oxuculara təqdim etmişdir. Belə ki, 2018-ci ilin ilk nəşrlərindən biri görkəmli Ukrayna nasiri, "Voin sveta", "Don Kixot" beynəlxalq ədəbiyyat mükafatları laureatı Nikolay Xomiçin "Sərdabənin sirri" kitabı işıq üzü görüb. Əsərlərinin əsas mövzusu itirilmiş tarixi yaddaşın bərpası məsələsi olan yazıçının məhz bu romanı qədim Kiyev-Rus dövləti hakimiyyəti dövrü yaşanan tarixi hadisələri, Qərb və Bizans sivilizasiyaları arasında seçim etmək məcburiyyətində qalmış Ukrayna xalqının keçdiyi ağrılı-acılı yolu əks etdirir. Əsər çox maraqlı ədəbiyyat nümunəsidir və əminliklə demək olar ki, tərcümə zamanı da dil, üslub, ifadə xüsusiyyətləri qorunub saxlanmışdır. Tərcümə müəllifləri əsərdə bir çox hallarda rastlaşılan tarixi və dini məsələlərə, görünür ki, bələddirlər və sözügedən məsələlərin tərcüməsində peşəkarlıq nümayiş etdiriblər. Xüsusilə, dilimizə yad olan

sözlərin anlaşılmasında oxuculara yardımçı olacaq izahların da təqdim olunması diqqətəlayiqdir. Əsəri dilimizə Saday Budaqlı və Fərhad Abdullayev tərcümə edib.

Mərkəzin digər əhəmiyyətli nəşri XX əsr dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri italyan nasiri Alberto Moravianın psixoloji realist romanı "Çoçara"nın dilimizə tərcümə olunmasıdır. Kitaba yazıçının "Çoçara" romanı, eləcə də, "Roma hekayələri" silsiləsindən olan "Mario", "Dostluq", "Bədxərc", "Təlx ovqat", "Bürkü zarafatları", "Kötük", "Körpə", "Roma sikkəsi", "Dublyor" kimi otuza yaxın hekayəsi daxil edilmişdir. Əsərdə II dünya müharibəsinin dəhşətli nəticələrindən əziyyət çəkən zərif, lakin mənəvi gücünün sərhədləri olmayan iradəli qəhrəman qadın Çiçoranın məcburən yaşadığı şəhərdən təxliyyə olunması və kəndə köçürülməsindən, orada üzləşdiyi dəhşətlərdən, məhrumiyyətlərdən bəhs olunur. Əsərin mövzusundan da göründüyü kimi, ağır psixoloji məqamlarla dolu ədəbiyyat şedevrini tərcümə etmək, qəhrəmanın keçirdiyi ruhi və fiziki sarsıntıları ifadə edə bilmək, həyatın zərbələrindən sınmayan mübariz qadın qəhrəmanın xarakterini çatdıra bilmək tərcüməçinin qarşısına qoyduğu ən başlıca məqsəd olmalıdır. Yəqin ki, əsərin dilimizdə də eyni dərəcədə uğurlu ifadə olunduğunu desək, yanılmarıq. Tərcüməçilər yuxarıda qeyd etdiyimiz qəhrəmanın daxili təlatümlərini və sarsılmaz iradəsini, dövrün abu-havasını tərcümə zamanı düzgün ifadə edə bilmişlər. Kitabı dilimizə Etimad Başkeçid və Mahir N.Qarayev tərcümə edib.

Tanınmış Norveç yazıçısı Tarey Vesosun "Buz qəsr" kitabı da bu il mərkəzin nəşrləri arasında yer alıb. Müəllif

müxtəlif illərdə qələmə aldığı “Buz qəsr” (1963), “Quşlar” (1957) romanları, “Nils Fet”, “Nağıl”, “Qışın son günləri” hekayələrində 73 illik ömrünün uşaqlıq xatirələrindən ayrıla bilməmiş, dünyaya, insanlara inamını qoruyub saxlamış, saflıq dolu xatirələri özündə və əsərlərində yaşatmışdır. Elə tərcümə olunan kitabda da yazıçının bu təəssüratlarla yaratdığı, əsasən məktəb həyatından bəhs edən hekayə və romanları toplanmışdır. Bir faktı nəzərə çatdırmaq lazımdır ki, ümumiyyətlə, DTM tərəfindən son dövrlərdə tərcümə olunan əsərlərin böyük əksəriyyətində yüksək peşəkarlıq, tərcümə sənətində uzun illərdən bəri fəaliyyət göstərən mütərcimlərin peşəkarlığı, orjinallığı dərindən duymaq məharəti hiss olunmaqdadır.

Mərkəzdə tərcümə olunan əsərlər sırasında Amerika ədəbiyyatının görkəmli simalarından olan Şervud Andersonun hekayələrindən ibarət “Vaynzburq Ohayo” (orijinaldan tərcümə: Təvəkgül Zeynallı), dünya ədəbiyyatında “Şolom Aleyxem” imzası ilə tanınan məşhur yəhudi əsilli rus yazıçısı Solomon Rabinoviçin “Seçilmiş əsərləri” (Kitaba “Südçü Tevye” povesti, eləcə də “Gimnaziya”, “Əcdadların məzarı”, “Üç şəhər əhvalatı”, “Mərhəmət göstərmə!”, “Üç dul qadın”, “Kodnyanın ən xoşbəxti” kimi, iyirmidən çox hekayəsi daxil edilib. Tərcüməçi: Fərhad Abdullayev), XX əsr ispan ədəbiyyatının klassiki sayılan, Nobel mükafatı laureatı Kamilo Xose Selanın müxtəlif vaxtlarda və janrlarda qələmə aldığı nümunələrdən ibarət “Seçilmiş əsərləri” (ilk dəfə Azərbaycan dilində: Kitaba “Paskual Duartenin ailəsi”, “Arı yuvası” (1951) və “İki ölü üçün mazurka” (1983) romanları daxil edilib. Tərcümə: Saday Budaqlı), gürcü şairi Bağater Arabulinin

“Gündüz yuxuları” şeirlər kitabı (ilk dəfə: lirik etüd, fraqmentlər, mənzum hekayə, pritça üslubunda qələmə aldığı şeirləri daxil edilib. Tərcüməçi: Allahverdi Təkləli), Çili şairi, XX əsr dünya poeziyasının korifeylərindən sayılan Nobel mükafatçısı Pablo Nerudanın “Ümidsizlik nəğməsi” şeirlər kitabı (Tərcüməçi: şair-tərcüməçi Salam Sarvan), çağdaş Ukrayna ədəbiyyatının tanınmış siması Vladimir Danilenkonun “Qürub çağının işığında” (Kitabda “Tarnovskilər malikanəsindəki kölgələr” və “Mənim qarayanız, qıvrımsaç günəşim” romanları, “Qulaqlar”, “Kiyevli oğlan”, “Qürub çağının işığında”, “Göbələk çığırtısı”, “Turovestdə futbol”, “Zanbaqlar arasındakı iz”, “Dovşan” hekayələri var. Tərcüməçi: Etimad Başkeçid) kitabları işıq özü görüb.

DTM-nin fəaliyyətinə nəzər salarkən artıq bir neçə ildir müşahidə edirik ki, qurum öz fəaliyyəti çərçivəsində yalnız bədii ədəbiyyat nümunələri deyil, həm də elmin ən müxtəlif sahələrini əhatə edən əsərlərin də tərcüməsində uğurlu addımlar atır. Bu il də belə bir töhfə filoloqlar və incəsənət nümayəndələrinin ixtiyarına verildi. Tanınmış isveçrəli dilçi-alim, semiologiya və struktur dilçiliyin banisi Ferdinand de Sössürün “Ümumi dilçilik kursu” kitabı Azərbaycan dilində işıq üzü görüb. XX əsr dilçilik elminin “atası” hesab edilən alimin mühazirələri əsasında hazırlanmış kitab, ümumilikdə ötən yüzilliyin humanitar təfəkkürünə əhəmiyyətli dərəcədə təsir göstərmiş, ölümündən 3 il sonra məşhur isveçrəli dilçilər – Şarl Balli və Alber Seşe tərəfindən tərtib edilərək, dünyanın bir çox dillərinə tərcümə və nəşr edilmişdir. Əsər dünya dilçiliyi tarixində linqvistika elminin inkişaf mərhələlərini müəyyən edən ən də-

yərli elmi tədqiqat işi hesab edilir. Dilçilik və tərcüməçilik, humanitar elmlərin ümumi metodoloji problemlərinə həsr olunan bu kitabı dilimizə Azərbaycanın tanınmış dilçi alimləri – akademik Nizami Cəfərov və filologiya üzrə fəlsəfə doktoru İsmayıl Temiroğlu tərcümə edib.

Digər bir elmi nəşr – görkəmli rus aktyoru və teatr nəzəriyyəçisi Mixail Çexovun **"Peşəkar aktyorluq dərsləri"** kitabı müəllifin ABŞ-da keçirdiyi mühacirət illərində (1935-1954) yaradıcılıq studiyasında oxuduğu mühazirələri ehtiva edir. Aktyorluq peşəsinin sirlərini, səhnə həyatının pərdə arxasını yüksək məharətlə açan mühazirələrdə bu çətin sənətin zirvəsinə aparan yollar, yüksək səhnə peşəkarlığının qazanılması metodları dərin təhlillər və araşdırmalarla izah edilir. Kitab teatr, rejissor, aktyor sənətinin tədrisi, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Qeyd edək ki, sözügedən kitabdan parçalar "Xəzər" jurnalının müxtəlif saylarında oxuculara hissələrlə təqdim olunmuşdur.

Ölkənin neft-qaz sektorunun bu qədər inkişaf etdiyi bir zamanda mərkəzin bu sahəyə verdiyi yeni töhfə də diqqətdən yayınmır. Neft, kimya, qaz emalı, kimyəvi analiz, kimya texnologiyası, ekologiya, nanokimya, nanomaterallar, fullerenlər kimyası, kompüter kimyası kimi sahələri əhatə edən **"Azərbaycanca-ingiliscə-rusca terminoloji lüğət"** kitabı işıq üzü görüb. Rəsul Rəxşanlı, Təranə Əsgərqızı, Rəxşanə Rəxşanlı və Fərrux Rzayevin hazırladıqları lüğətə 20.000-dən çox terminin Azərbaycan, rus və ingilis dilində tərcüməsi daxil edilib. Azərbaycanda bu formatda ilk dəfə işıq üzü görən lüğət müvafiq sahələr üzrə elm, təhsil, tədris və tərcümə mütəxəssisləri, eləcə də bu

ixtisaslarla maraqlanan oxucu kütlələri üçün nəzərdə tutulub.

Mərkəz dünya xalqlarının ədəbiyyatının təbliğinə, xüsusilə antologiyaların nəşrinə əhəmiyyətli dərəcədə yer ayırır. Bu tipli kitablarda fərdi müəlliflərin əsərlər toplusundan fərqli olaraq bir xalqın ədəbiyyat dühalarının, müxtəlif dövrlərdə yaşamış, yaratmış şair və yazıçılarının yaradıcılıqlarının müəyyən bir qismi ilə küll hallında tanış olmağa imkan verir və oxucuda həmin xalqın ədəbiyyatı haqqında müfəssəl təsəvvür yaratmış olur. 2018-ci ildə də DTM-nin təqdimatında belə qiymətli antologiyalar işıq üzü gördü. Bu antologiyalar içərisində xüsusi olaraq qeyd etmək istədiyimiz kitab "Türkiyə ədəbiyyatı antologiyası" (poeziya) adlanır ki, təxminən səkkiz əsr ərzində yaradılmış poetik irsi əhatə edir. Türkiyə poeziyasının ümumi mənzərəsini küll halında Azərbaycan oxucusuna təqdim edən kitabda Şəyyad Həmzə, Cəlaləddin Rumi, Yunus Əmrə, Qaracaoğlan, Namiq Kamal, Yusif Ziya Ortaç, Mehmet Akif Ərsoy, Aşıq Veysəl, Nazim Hikmət, Səbahəddin Ali, Orxan Vəli Kanık, Mehmet Kamal, Can Yücəl, Camal Sürəyya, Əhməd Oktay, Nevzat Çelik və digər şairlərin şeirləri toplanıb. İki qardaş xalq arasında hər zaman mövcud olan qarşılıqlı diqqət, qayğı və ədəbiyyatlara maraq mükəmməl layihələrə imza atmağa imkan verir. Maraqlı fakdır ki, bundan əvvəlki illərdə də mərkəzin təqdimatlarında Türkiyə ədəbiyyatı antologiyalarına rast gəlmək mümkündür. Kitabı tərtib edən və dilimizə uyğunlaşdıran Əhməd Oğuz, redaktoru və ön sözün müəllifi Nəriman Əbdülrəhmanlıdır.

Daha bir antologiya "XX əsrin Norveç hekayələri" ki-

tabı Norveç nəsrinin ümumi mənzərəsini Azərbaycan oxucusuna ilk dəfə təqdim edir. Kitaba müxtəlif ədəbi nəslin təmsilçiləri – T.Vesos, F.Börnset, A.Myukle, N.Y.Rüd, L.A.Holma, E.Ekland, S.Holmebakk, İ.Svinsos, Y.Qorder kimi görkəmli Norveç yazıçılarının əsərləri daxil edilib (Tərcüməçilər: Yaşar, Güldəstə Nəsib, Fərhad Abdullayev, Etimad Başkeçid və Mahir N.Qarayev).

"Gürcü nəsri antologiyası" kitabı isə müasir gürcü ədəbiyyatının ümumi mənzərəsini ilk dəfə küll halında Azərbaycan oxucusuna təqdim edir. Kitabda Mixail Cavaxişvili, Cabua Amirecibi, Tamaz Çiladze, Revaz İnanişvili, Nuqzar Şataidze, Maka Coxadze, Şota İataşvili, İrakli Cavaxadze, Marina Soskolauri kimi otuzdan çox tanınmış gürcü ədibinin əsərləri toplanıb. Qeyd edək ki, antologiyanın orijinaldan dilimizə tərcümə edən Nəriman Əbdülrəhmanlı və Etimad Başkeçiddir.

2018-ci ildə qeyd olunan dəyərli yubileylərdən biri – Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illiyinə təsadüf edir. Bu dəyərli tarixin əhəmiyyətini bir qədər də önə çəkən hadisə DTM-nin bu münasibətlə hazırladığı yeni nəşri "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" kitabı işıq üzü görüb. II Dünya müharibəsi dövründə keçmiş Yuqoslaviya və İtaliya partizan dəstələrinin tərkibində nasist Almaniyasına qarşı döyüşmüş qəhrəmanın rəşadətli ömür yolundan bəhs edən əsərin müəllifi – tanınmış Sloveniya yazıçısı Peter Amalietdir. Kitab igid partizanın tarixi qəhrəmanlıqlarının şahidi olmuş sloveniyalıların dili ilə söylənən xatirələr, sənədli mətn və materiallar əsasında tərtib edilib. Kitabı Azərbaycan dilinə tanınmış tərcüməçi Fərhad Abdullayev tərcümə

edib.

Mərkəzin mətbu orqanı olan "Xəzər" bədii tərcümə dərgisinin il ərzində dörd sayı işıq üzü görüb. Jurnal "Poeziya", "İntibah", "Korifeylər", "Memuar", "Çağdaş dövr ədəbiyyatı", "Teatr", "Ədəbi mozaika", "Nobel kürsüsü", "Buker mükafatı laureatları", "Yubiley" kimi bölmələrdən ibarətdir. Qeyd edək ki, jurnalın builki saylarında daimi görməyə alışdığımız başlıqlara yeniləri də əlavə olunmuşdur. Bu fakt bizə jurnalın ildən-ilə zənginləşməsi və daha geniş ampulada təqdimatlar etməsi barədə inamla fikir söyləməyə əsas verir. Dərgidə sistemlilik, zəngin materiallar oxucuya, nəinki dünya ədəbiyyatının, hətta mədəniyyət, incəsənət, fəlsəfə və dini məsələlərin də müxtəlif inkişaf istiqamətləri ilə tanış olmağa imkan yaradır. Klassik dövr ədəbi nümunələri ilə yanaşı, müasir dövr ədəbiyyatının müxtəlif məsələlərini də əhatə edən jurnal zəngin bir məxəz sayıla bilər. Ədəbi nümunələrlə yanaşı, görkəmli simaların həyat və yaradıcılığını tədqiq etməkdə böyük əhəmiyyət kəsb edən məktublar, xatirələr, gündəliklərdən qeydlərin tərcümə olunması ədəbiyyatın dünəni, bu günü və sabahı, yaradıcı insanın dövrü və mühiti ədəbi simaların şəxsiyyəti, psixologiyasına məxsus məqamlar barədə əyani təsəvvür yaradır.

Jurnalın müxtəlif saylarında Heynrix Böllün "Kişisiz ev", Pater Amaliettinin "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası", Alber Kamyunun Nobel nitqi və "Xoşbəxt ölüm", Covanino Quareskinin romanları, Migel Ernandes, Piotr Mitzner (Polşa), Bağater Arabullin (gürcü), Vilya-Tuliya Huotarinen və Katarina Vuopune, Lalə Müldür, Heydər Ərgülən, Nevzat Çelik, Kiçik İskəndər

(türk), Nikita Stenesku (rumın), Mixail Lermontov, Yorqos Seferisin poeziya dünyasından nümunələr, H.Branner, H.Herdal, K.Soya, Zeydi Smit, Tuve Yansson, Karlos Fuentes, Vizma Bolşevitsa, Olqa Tokarçuk, Qao Sinszya, Simon Vestdeykin hekayələri, Nikolay Leskovun povesti, Jan Anuyun pyesi, bir çox məqalələr, ədəbi portretlər, məktublar, xatirələr, tədqiqat və araşdırmalar əksini tapmışdır. Bununla yanaşı, "İlahi keçid" adlanan bölmədə "Tövrat" dini kitabından tərcümələr təqdim olunmuşdur. Çapa təqdim olunan kitabların bir çoxundan hissələr əvvəlcədən "Xəzər" jurnalında parçalarla oxucuların ixtiyarına verilmişdir. Dəyərli xidmətlərdən biri də onlayn kitabxanalarının olmasıdır ki, bu da hər bir oxucuya nəşr olunan tərcümə əsərlərinin və həmçinin "Xəzər" jurnalının məzmunu ilə geniş tanış olmağa imkan yaradır. Ümumiyyətlə, tərcümə əsərlərinin əksəriyyəti standartlara cavab verir və gözəl bir bədii tərcümə məcmuəsinin ərsəyə gəlməsinə zəmin yaradır. Jurnalda zaman-zaman rastlaşdığımız texniki, leksik və qrammatik səhvləri və bir sıra zəif redaktə olunmuş əsərləri nəzərə almasaq, əminliklə deyə bilərik ki, bu dünya ədəbiyyatının respublikada tanınması və təbliği istiqamətində mühüm addımlardan biri hesab oluna bilər.

Bu il Azərbaycan Yazıçılar Birliyi Ədəbi Əlaqələr və Bədii Tərcümə Mərkəzi də ədəbi əlaqələrin genişlənməsi və bədii tərcümə sahəsində çox mühüm və əhəmiyyətli nəticələr əldə etdi. Mərkəzdə bir sıra mədəni-diplomatik görüşlər keçirmiş, əməkdaşlıq memorandumları imzalamış və qarşılıqlı ədəbi-mədəni əlaqələrin inkişafı istiqamətində ciddi işlərə imza atılmışdır. Mərkəzin rəhbəri Səlim Ba-

bullaoğludur.

Mərkəzin "Dünya ədəbiyyatı" dərgisinin 2018-ci ildəki ilk sayı Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anarın tərcümə yaradıcılığına həsr edilmiş, 300 səhifəlik zəngin, sanballı, maraqlı tərtibata malik kitabdır. Dərginin bu sayında Anarın uzun zaman ərzində fərqli növ və janrları əhatə edən 90-a qədər tərcümə əsəri toplanıb. Xalq yazıçısının tərcüməsində təqdim olunan mətnlər dünya ədəbiyyatının müxtəlif dövrlərini və ədəbi şəxsiyyətlərin yaradıcılığını əks etdirir. Anar elə kitabın təqdimat hissəsində bədii tərcüməçilik fəaliyyətinin tarixçəsi haqqında söz açır və yazır: "Bu mətnləri müxtəlif vaxtlarda özüm üçün çevirirdim. Məqsəd – fərqli epoxaların bir-birindən çox fərqli dil, üslub, təhkiyə vasitələrinin dilimizdə necə səslənməsini, hər cəhətdən bizdən çox uzaq yazıların Azərbaycan türkcəsində ifadə edilməsi üçün dilimizin hansı imkanlara malik olduğunu müəyyənləşdirmək idi. Əlbəttə, yazıların mövzusu, mənası da önəmli idi. Tərcümə üçün mənə bu ya digər cəhətdən maraqlı və əhəmiyyətli görünən mətnləri seçirdim".

Səlim Babullaoğlu Anarın tərcümə yaradıcılığı haqqında yazır: "Anar tərcümələrilə, xüsusən mətnləri öz daxili sifarişi ilə müəyyən etməklə həm yazıçı, həm də tərcüməçi kimi özüylə mətnlərini çevirdiyi o böyük ədiblər arasında, eyni zamanda Azərbaycanla o vaxtkı azad dünya arasında bir bərabərlik işarəsi qoymağa çalışıb və buna nail olub". İlk sözün müəllifi Pərvin isə yazır ki, "Anar təkcə özüylə, ovqatıyla, ideyalarıyla bağlı mətnləri deyil, həm də Azərbaycan oxucusunun bədii-estetik zövqünü formalaşdıra biləcək əsərləri dilimizə çevirib. Burda həm də bəyəndi-

yi, sevdiyi əsərləri oxucuları ilə bölüşmək arzusu hiss olunur". Dərginin baş redaktoru Seyfəddin Hüseynli bu dərgini "Xalq yazıçısı Anarın 80 illiyinə mütəvazö bir təbrik" kimi qiymətləndirib.

Ümumiyyətlə, əvvəllər ayrı-ayrılıqda, nəşr edilmiş tərcümələrin "Dünya ədəbiyyatı" dərgisində toplu halında işıq üzü görməsi ədəbiyyatımızın uğuru, Anar yaradıcılığında tərcümə işinin əhəmiyyətli mövqeyini göstərmək üçün çox böyük çəkiyə malikdir. Xüsusilə, Anar yaradıcılığının mühüm, vacib tərkib hissəsi olan tərcüməçilik fəaliyyətinin sistemli, kompleks təqdimatı, tədqiqatçılar üçün bir məxəz rolu oynaması ciddi əhəmiyyət kəsb edir.

Azərbaycan və rus dillərinin ən dərin incəliklərinə bələd olan, bu dillərin spesifik məqamlarını ustalıqla tərcümələrində canlandıran, bədii dilin ifadə və təsvir vasitələrinin nə zaman və necə istifadə olunacağının mükəmməl nümunəsini yaradan yazıçı istər mətnlərin mövzusunu, məzmununu, istərsə də dilin axıcılığını, rəvanlığını üzə çatdırmaq baxımından demək olar ki, son dərəcə qüsursuz bir sənət nümayiş etdirmişdir. Bu sözlər onun tərcüməsində yenidən həyat tapan həm nəsr, həm poeziya nümunələrinə aidddir.

2018-ci il ərzində mərkəzin dövrü nəşrləri arasında "Dünya ədəbiyyatı" dərgisinin Serbiya poeziyası nümunələrindən ibarət xüsusi sayı da işıq üzü görüb. Bu say "Poeziya", "Ədəbi söhbətlər", "Bakı-Belqrad: ədəbi yazılar" və "Tərcümə-irs" bölmələrindən ibarətdir. Dərgi Azərbaycanın Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı Fövqəladə və Səlahiyyətli səfiri Eldar Həsənovun oxucuara müraciəti ilə açılır: "Ölkələr, xalqlar arasındakı diplo-

matik münasibətlərin uğuru, əlbəttə ki, həm də mədəni əlaqələrdən keçib möhkəmlənir. “Dünya ədəbiyyatı” dərgisinin “Serbiya poeziyası” xüsusi sayının nəşri həm Azərbaycan, həm də Serbiya ədəbi-mədəni mühiti üçün olduqca ciddi və parlaq hadisədir...”

Orta əsrlərdən başlayaraq müasir dövrümüzə qədər serb tarix və ədəbiyyatının müxtəlif dövrlərini, ədəbi simaları və onların əsərlərini ehtiva edən topluda müxtəlif mövzularda qələmə alınan poetik nümunələrlə tanış olmaq olar. Slavyan xalqları ədəbiyyatlarının tədqiqatçıları üçün də bu toplu əvəzsiz mənbədir.

“Poeziya” bölməsində Serbiya poeziyasının görkəmli nümayəndələri Stefan Lazareviç, Laza Kostiç, Voislav İliç, Aleksa Şantiç, İvo Andriç kimi klassikləri də daxil olmaqla, Desanka Maksimoviç, Miodraq Pavloviç, Slobodan Markoviç, Milorad Paviç, Radomir Andriç, Selimir Raduloviç, Milisa Yeftimiyeviç-Liliç, bir sözlə, müxtəlif dövrlərdə yaşayıb yaratmış və müxtəlif şeir formalarında yazmış 62 şairin şeirləri dilimizə Səlim Babullaoğlu, Günel Şamilqızı, Xatirə Nurgül, Cavanşir Yusifli, Elxan Zal, Rəbibə Nazimqızı, Aynur Qarayeva (sətri tərcümələr: Katerina Paniç, Aleksandr Bozoviç) tərəfindən çevrilib.

Səlim Babullaoğlunun serb ədəbiyyatçıları Selimir Raduloviç və Yasmina Mixayloviç ilə əlaqələri, Nobel mükafatı laureatı, görkəmli serb yazıçısı İvo Andriçin “Bir dəfə Azərbaycanda” məqaləsi və “Nobel nitqi”, Serbiya Yazıçılar Assosiasiyasının sədri Radomir Andriçin səfir Eldar Həsənovun “Balkanların dostluq körpüsü boyunca” kitabı haqqında “Müstəqil tarixi toplu” adlı məqaləsi, Səlim Babullaoğlu və Fərid Hüseynin “Dünya Yazıçılarının

Beynəlxalq Belqrad Görüşləri”ndən “səfər yazıları”, eləcə də, Yasmina Mixayloviçin “Xəzərin sahilində” kitabından parçalar dərginin “Ədəbi söhbətlər”, “Bakı-Belqrad: ədəbi yazılar” bölməsində yer almışdır.

Dərginin baş redaktoru Seyfəddin Hüseynli xüsusi sayı belə qiymətləndirir: “Bu nəşr dərginin hər bir oxucusuna Serbiyanın dəyərli şairlərinin, seçkin söz ustalarının yaradıcılıq nümunələrilə geniş tanışlıq imkanı açdığı üçün də xüsusi önəm daşıyır. Çünki burada serb xalqının mənəvi aləmini, dini-ruhani duyğularını, fikir dünyasını, həyəcan və qayğılarını aydın, canlı əks etdirən Ali Poeziyanın çox sayda dəyərli nümunəsini Azərbaycan insanına dolğun şəkildə çatdıran kifayət qədər uğurlu tərcümələr yer alıb”.

Mərkəzin hər bir dərgisinin sonunda olduğu kimi, burada da kitaba daxil edilən ədiblərin hər biri haqqında qısa avtobioqrafik məlumat təqdim olunmuşdur.

2018-ci il Moldova Azərbaycan əlaqələrinin inkişafı baxımından uğurlu il hesab oluna bilər. Ədəbi əlaqələrin qarşılıqlı inkişaf etdirilməsi və zənginləşməsi uğrunda atılan addımlar öz bəhrəsini bu il də iki dövlət arasında bir çox ədəbi-mədəni layihələrin həyata keçirilməsində göstərdi. Qeyd edək ki, əsası 2017-ci ilin may ayında Moldovanın paytaxtı Kişinyovda “Avropa şairlərinin baharı” adlı poeziya festivalında Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi ilə Moldova Yazıçılar Birliyi arasında əməkdaşlıq memorandumunun imzalanması ilə qoyulan bu körpü iki xalqın ədəbiyyatlarının qarşılıqlı tərcüməsi, təqdimatı və yüksək dəyərləndirilməsi yolunda mühüm əhəmiyyətli addım idi. Memoranduma əsasən, qarşılıqlı əməkdaşlığın nəticəsi kimi Azərbaycan ədəbiyyatının Moldovada, Moldo-

va ədəbiyyatının isə Azərbaycanda təbliği məsələsi nəzərdə tutulurdu. Bu layihə çərçivəsində 2018-ci ildə 3 günlük silsilə tədbirlər həyata keçirildi. Həmin tədbirlər çərçivəsində Moldova nümayəndə heyəti Azərbaycana gəldi, görüşlər, təqdimatlar keçirildi, bir sözlə, Moldova mədəniyyəti, incəsənəti və ən əsası ədəbiyyatının tanıtım günləri reallaşdı. 2017-ci ildə işıq üzü görən Arkadie Suçevyanunun "Qağayı ilə göndərilən məktub" şeirlər toplusu, tanınmış gənc yazar İqor Volnitskinin "Mənə ölməyi öyrət" romanının təqdimatı məhz 2018-ci ildə keçirildi. Belə tədbirlərdən birinin də reallaşdırılması AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun payına düşdü. 2 mart tarixində Moldovanın görkəmli mədəniyyət və ədəbiyyat xadimləri ilə birgə keçirilən görüşdə akademiyanın vitse prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli belə bir layihənin həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi və ölkələrimiz arasında elmi və mədəni əlaqələrin uğurlu inkişafına təkan verəcəyini söylədi. Ədəbiyyat sahəsində mövcud olan əməkdaşlıqdan söz açan akademik İsa Həbibbəyli Azərbaycan yazıçılarının bir sıra əsərlərinin moldovan dilinə tərcümə edilərək nəşr olunduğunu, həmçinin Moldova yazıçılarının əsərlərinin Azərbaycan dilinə tərcümə olunduğunu qeyd edib. Eyni zamanda yaxın günlərdə Moldovada nümayiş olunacaq Azərbaycan hekayə antologiyasından da geniş söz açıldı.

Qeyd edək ki, "Atama məktub" adlı Azərbaycan yazıçılarının hekayə antologiyası" akademik İsa Həbibbəylinin "Poeziya ölkəsində nəsr" adlı geniş giriş yazısı ilə başlayır. Antologiyanın əvvəlində Azərbaycan Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Moldova Mədəniyyət,

Təhsil və Tədqiqatlar naziri Monica Babucun fikirləri də yer alıb. Kitaba müxtəlif nəsillərə aid 32 yazıçının – Anar, Elçin, Mövlud Süleymanlı, Çingiz Abdullayev, Kamal Abdulla, Seyran Səxavət, Saday Budaqlı, Afaq Məsud, Əjdər Ol, Vaqif Sultanlı, Hüseynbala Mirələmov, Elçin Hüseynbəyli, Yaşar, Rafiq Həşimov, Etimad Başkeçid, Varis, Günel Anarqızı, İlqar Fəhmi və digərlərinin hekayələri daxil edilib. Antologiyanın üz qabığını görkəmli Azərbaycan rəssamı Səttar Bəhlulzadənin rəsm əsəri bəzəyir. Son 50 ildə ilk dəfədir ki, Azərbaycan nəsri rumın dilində, Moldovada bu həcmdə kitab çap olunur. "Editura Junimea" nəşriyyatında çap edilən antologiyadakı hekayələri Nikolay Spetaru, Aleksandr Vakulovski, Qriqori Kiper, Nikolay Rusu, Mixaela Perciun, Mariya Pilkin, Vsevolod Klorney, Kladua Partole, İvan Pilkin, Dumitru Krudu, Anatol Moraru, Qalayku-Paun, Qalina Trifan çeviriblər.

"Moldovada Azərbaycan Ədəbiyyatı Günləri" çərçivəsində elə orada Milli Kitabxanada Azərbaycan ədiblərinin əsərlərinin sərgisi təşkil olunmuşdu. Yazıçı Əjdər Olun "Hərbi səhra komandirinin meymunu" kitabı da sərgi günlərində təqdim olundu və eyni zamanda elə oradaca yazıçının imza mərasimi təşkil olundu. Sərgidə həmçinin yeni nəşrlərdən Anarın "Ağ qoç, qara qoç" povesti (tərc.: İqor Volnitski), Elçinin "Baş" romanı (tərc.: Aleksandr Vakulovski), Çingiz Abdullayevin "Qorxumuzun vaxtı" (tərc.: İqor Volnitski) romanı, "Atama məktub – Azərbaycan hekayə antologiyası" (tərcüməçilər qrupu) və digərləri əcnəbi oxuculara təqdim olundu. Tədbirdə kitabın tərcüməçisi Nikolae Spetaru yazıçının qaldırdığı mövzuların təhkiyə və üslub etibarilə olduqca ciddi və maraqlı olduğu-

nu söylədi, mövzu və hadisələrin Moldova cəmiyyəti və yaxın tarixi üçün aktuallığını vurğuladı. Eyni zamanda kitab haqqında moldovalı ədiblər, Vitaliy Railyano, Anatol Moraru da çıxış etdilər. Klaudiya Portale yazıçı Əjdər Olun hekayələrində realist nəqletmə və xarakterləri açmaq üçün binar bədii fəndlərdən istifadəsinə rəğmən personajlara münasibətdə xeyirxah, insani və yazıçı mövqeyi sərgiləməsindən danışdı, bunun doğru olduğunu qeyd etdi.

Xatırladaq ki, hekayələr toplusuna 11 hekayə daxil edilib və Moldovanın məşhur "TipoMoldova" nəşriyyatında, "Müasir dünya yazıçıları" seriyasına daxil edilib. Kişinyovun "Contrafort" dərgisində tanınmış Moldova tənqidçisi, ədəbiyyatşünası və yazarı, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Qriqore Kiperin "Əjdər Olun "Kamança"sı adlı böyük məqaləsində yazır: "Əjdər Olun nəsri böyük həzz və sevinc gətirir oxu zamanı. Onun nəsrinin bütün elementləri qaydayla, ustalıqla sapa düzülmüş incilərdir, təsbeh dənələridir. Yaddaqalan süjetlər var və olduqca kinematoqrafikdir hər şey. Əjdər Ol başdan-ayağa oxunmağa layiq yazardır. Onu ədəbiyyat biliciləri də, oxu vərdişləri yeni olanlar da maraqla oxuyacaq. Bu isə həm də usta tərcüməçi bacarığı göstərən Nikolae Spetarunun da zəhməti hesabına başa gəlib..."

Azərbaycan ədəbi mühitinin tanınmış nümayəndəsi, şair, yazıçı Sona Vəliyevanın Polşada, Vrotslavın məşhur "ATUT" nəşriyyatında "Dünya tanrı biçimdədir" kitabı polyak dilində işıq üzü görmüşdür. Yazarın sözügedən kitabının tərtibçisi Səlim Babullaoğlu, Anna Augustınyak, tərcüməçisi İlahə Kərimova, nəşriyyat redaktoru Maqdalena Kovalska, naşiri Vitold Podedvornıdır. Kitab haqqında

nəşrin tərtibçisi və redaktoru Anna Augustınyak "Dərketmə anı" adlı geniş məqalə yazaraq oxuculara təqdim edir, şeirləri belə qiymətləndirir. "Sona Vəliyeva şeirlərində Allahla özü arasında dolaşır, dialoqlar aparır, hikmətin yeni tərifləri axtarır, bizim üçün yeni imkanlar yaradacaq və bu günümüzdə çox ehtiyac duyduğumuz əxlaq məsələləri üzərində düşünür, fikir dairələri cızır. Onun fikrincə, çağdaş və yazıq bir adam kimliyindən asılı olmayaraq, danışmağı bacararsa, ilahi bir qüvvə ilə, Tanrının özü ilə belə dialoq qurma, söhbət etmək səviyyəsinə yüksələrsə, o zaman o, bütün çoxmənalı, qəliz suallara və müasir dilemmalara cavab tapma şansı əldə etmiş olur".

İstedadlı tərcüməçi, son on ildə Azərbaycan ədəbiyyatının polyak dilinə tərcüməsi və təbliği işində ardıcıl fəaliyyət göstərən İlahə Kərimovanın çevirdiyi şeirlər vasitəsilə əcnəbi oxucular eyni zamanda Azərbaycana, xalqına və onun milli dəyərlərinə bağlı olan şairənin düşüncələri, poetik hiss-həyəcanı ilə tanış olmaq imkanı əldə edir.

2018-ci il ərzində fəaliyyəti ilə milli tərcümə sənətinə öz töhfələrini verən daha bir dövrü mətbuat orqanı ***"Azərbaycan"*** jurnalıdır. Jurnalın bədii tərcüməyə həsr olunmuş ayrıca bir bölməsi var və vaxtaşırı orada dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığından nümunələr təqdim olunur. Lakin sözügedən il ərzində dərgidə çap olunan tərcümələrin digər illərə nisbətən kəskin azaldığını müşahidə etdik və bu ardıcıllığı aydın görmək üçün statistik məlumata nəzər salmaq istərdik. Əgər 2016-ci il ərzində demək olar ki, jurnalın bütün saylarında, 2017-ci ilin yalnız 1, 5, 6, 9, 10, 11-ci saylarında təcümələr mövcud idisə, bu il həm say, həm də həcm baxımından kifayət qə-

dər geriləmə var. Belə ki, jurnalın yalnız 3 sayında – 1-ci sayında Avstriya yazıçısı Radek Knappın "Cənab Trombka və iblis" və "Yulius evə gedir" hekayələri görkəmli mütərcim Vilayət Hacıyevin tərcüməsində təqdim edilmişdir. Jurnalın 2-ci sayında türk yazıçısı Zeynəl Abidin Makasın "Muradı gözündə qalanlar" romanından bir parça Qardaşxan Əzizxanlı tərəfindən tərcümə olunmuşdur. Əsərin tərcüməsi ilə bərabər digər diqqətəlayiq tərəfi onun mövzusunun Azərbaycan xalqının yaşadığı böyük tarixi faciəyə həsr olunmasıdır. Yazıçı əsərin mövzusunu Azərbaycan və dünya tarixində qeydə alınmış ən böyük söyqırım faciəsinin – Xocalı faciəsinin azərbaycanlıların taleyində açdığı dərin yaralara həsr etmişdir. 10-cu sayda müasir türk yazarı Bəxtiyar Aslanın "Üç əqrəb zamanı" və "Sonsuzluğa sürdüm atımı" hekayəsi, romanı, povesti azərbaycan dilinə Təranə Vahid tərəfindən uyğunlaşdırılmışdır. Elə həmin sayda nəhayət, həmin sayda Qafqaz ətirli şeirlərin yeni çələngi Knyaz Qoçağın tərcüməsində diqqətimizi cəlb etdi. Tanınmış rus şairi İvan Şyolokovun "Yeseninin abidəsi önündə" və "1941. Lermontovun Qafqaza son səfəri" adlı şeirləri yüksək səviyyədə tərcümə edilmişdir.

2018-ci il ərzində "Ulduz" jurnalı da bədii tərcümə sahəsinə böyük töhfələr vermişdir. Qeyd edək ki, bu jurnalın fəaliyyətində diqqəti çəkən ən əsas məqamlardan başlıcası odur ki, tərcümə probleminə yanaşarkən üstünlüyü türk xalqları ədəbiyyatına vermiş, bu xalqların klassik və müasir ədəbiyyat nümunələrini həm orijinaldan, həm də, ikinci dilin köməyi ilə təqdim etmişdir. İl ərzində işıq üzü görən tərcümələrə nəzər salarkən bunun şahidi oluruq. Jurnalın

1-ci sayında Qazax ədəbiyyatından Oljas Süleymenov, özbək ədəbiyyatından Normurad Nərzullayev və Mirtemirin şeirləri Əhəd Muxtar, 7-ci sayında İran-abxaz əsilli rus yazıçısı Fazil İsgəndərin "Çağırılmış qonaq" əsəri rus dilindən Xatirə Nurgül, 9-cu sayında tatar ədəbiyyatından Razil Vəliyevin şeirlər toplusu Həyat Şəmi, özbək xalqının tanınmış şairi Özkür Rəhmətin şeirləri orijinaldan Dayandur Sevgin tərəfindən tərcümə edilmiş, 10-cu sayında çağdaş türk ədəbiyyatının tanınan və sevilən nümayəndəsi şair-yazıçısı Özcan Ünlünün şeirləri Təranə Vahid tərəfindən uyğunlaşdırılmışdır. Dərginin 9-cu sayında tatar ədəbiyyatından Razil Vəliyevin Həyat Şəmi tərəfindən tərcümə olunan "Rəsm", "Gənclik", "Məhəbbət", "Səadət haqqında" şeirlərinin əsas diqqətəlayiq tərəfi həm də original variantının təqdim olunmasıdır.

Bunlarla yanaşı, həmçinin, digər ədəbiyyat nümayəndələrinin də əsərləri tərcümə edilərək oxuculara təqdim olunmuşdur. Jurnalın 4-cü sayında ispan ədəbiyyatının görkəmli nümayəndəsi Qustavo Adolfo Bekkerin "Ay işığı" əsəri orijinaldan ispancadan Məmməd Məmmədli, 8-ci sayında alman klassiki Henrix Heynenin şeirləri almancadan Yusif Savalan, həmçinin eyni sayda Amerika yazıçısı Nobel mükafatı laureatı Sinkler Luisin mükafatın təqdimatı zamanı "Amerikalıların ədəbiyyat qorxusu" adlı çıxışı Nərgiz Cabbarlı, 11-ci sayında belarus ədəbiyyatından Oleq Jdan Puşkinin "Gülən qarı" hekayəsi Kəmalə Abiyeva tərəfindən tərcümə olunmuşdur. Qeyd edək ki, tərcümələr əsasən poeziya nümunələrindən edilmişdir. "Ulduz" jurnalının təqdim etdiyi tərcümə materiallarına nəzər salarkən yalnız dünya ədəbiyyatının tanınmış, sevilən ədəbi si-

malari ilə yanaşı, adı bizlər üçün yeni olan, daha az tanınan yazarlara da müraciət olunduğunun şahidi oluruq. Bu fakt bizə dünya ədəbiyyatında baş verən yenilik və dəyişikliklərlə tanış olmaq imkanı yaradır.

2018-ci il ərzində tərcümə sahəsində əhəmiyyətli işlər görən mətbu orqanlarından biri də "Ədəbiyyat qəzeti"dir. Əvvəlcədən qeyd edək ki, ötən illərdə rastlaşdığımız silsilə tərcümələr bu il ümumiyyətlə yoxluq təşkil edir. Qəzetin səhifələrində tərcümə olunmuş daha çox qısa məzmunlu ədəbi və nəzəri nümunələrə yer ayrılmışdır. Bu mətbu orqan fəaliyyətində bir qədər sistemləşdirilmiş bir inkişaf xətti üzrə fəaliyyət göstərir. Burada təkcə ədəbi nümunələr deyil, həm də ədəbiyyatşünaslığın elmi-nəzəri, ədəbi-estetik problemləri də diqqət mərkəzinə çəkilir. Sözsüz ki, bu cür yanaşma ədəbiyyatşünalıq elminin və ədəbiyyatın daşıdığı məzmunu daha dərindən anlamağa xidmət edir. Dünya ədəbiyyatı problemlərinin bu şəkildə qəzetin müxtəlif saylarında tərcümə olunaraq verilməsinin digər üstün cəhəti isə Azərbaycan ədəbiyyatşünaslıq elminin bu irsdən zənginləşməsi və bəhrələnməsi, dünya ədəbi-nəzəri, tənqidi fikrində ən vacib məqamları diqqətdə saxlamaq məsələsidir.

Qeyd edək ki, iki il əvvəl qəzetin başladığı "Ədəbiyyat üzrə Nobel mükafatçıları" rubrikası bu il də davam etməkdədir. Həmin rubrikada il ərzində Nobelçi ədəbiyyat nümayəndələri Migel Anhel Asturias (Qvatemala), Yasunari Kavabata (Yaponiya), Aleksandr Soljenitsin (Rusiya), Pablo Neruda (Çili), Çeslav Miloş (Polşa), Qabriel Markez Qarsia (Kolumbia), Vole Soyinka (Afrika), Kamilo Xose Sela (İspaniya), Aktavio Pass (Meksika), Nəcib Məvhuz

(Misir), Eucenio Montale (İtaliya) və digərlərinin həyat və yaradıcılıqlarına müraciət olunmuş, ədəbi nümunələr tərcümə edilmişdir. Rubrika çərçivəsində təqdim olunan bütün əsərləri elə rubrika rəhbəri Əyyub Qiyas tərcümə etmişdir. Layihə çərçivəsində bütün əsərlər yalnız ikinci dil, yəni rus dili vasitəsilə tərcümə edilmişdir. Lakin buna baxmayaraq, tərcümələr yüksək səviyyədədir və bu fakt tərcümənin ümumi vəziyyətinə xələl gətirmir.

Qəzetdə türk ədəbiyyatından poeziya nümunələrini Dilsuz Mustafayev dilimizə uyğunlaşdırılmışdır. Mütərcim əsasən klassik və müasir türk şeir nümunələrinə müraciət etmişdir.

"Ədəbiyyat qəzeti"i də həmçinin Covanno Quareskinin "Don Kamilonun gündəliyindən" romanı silsilə olaraq bir neçə sayda, Vladimir Nabokovun "Milad", İvan Buninin "Gün vurması", Sergey Yeseninin "Qafqaza ithaf", Anton Çexovun "Xeyirxah alman", Bəxtiyar Aslanın "Aramızda danışan" və digərlərinin roman və hekayələri tərcümə olunaraq işıq üzü görmüşdür. Lakin bu il qəzet səhifələrində poeziyaya və uşaq şeirinin tərcüməsinə xüsusi yer ayırmışdır. Belə ki, Qriqori Vieru, Edqar Allan Po, Con Giardi, Robert Qreyvz, Conni Rodari, Frantişek Qrubin, İv Bonfua, Özkür Rəhmət, Atilla Balaj, Valentin Qaft və digərlərinin şeirləri oxuculara təqdim olunmuşdur. Şeirlər göründüyü kimi, dünya ədəbiyyatının ən müxtəlif nümayəndələrinin yaradıcılığından götürülmüşdür.

Eyni zamanda qəzetdə ədəbiyyatşünaslığın nəzəri problemləri haqqında da bir sıra məqalələr, esselər tərcümələr yer almışdır. Bədii əsərin dilininin səlis məzmunlu, oxunaqlı, səmimi və gözəl alınması üçün bir sıra vasitələr

təklif edən Kurt Vonnequtun "Necə gözəl yazmalı", Kazimir Maleviçin "İncəsənəti xilas edən adam – Frensis Spoltino", Conn Mannın "Edvard Munk müasir dünyanın tələşını necə ifadə edirdi", Con Riçardsonun "Qogenin son misrası", Conotan Consun "Bu məqalə deyil. Niyə Rene Maqrit ədəbi dahidir" və digər yazar və tədqiqatçıların yaradıcılıqlarından nümunələr tərcümə olunmuşdur. Qəzetin tərcümə fəaliyyətində diqqətdən yayınmayan əsas cəhət isə demək olar ki, tərcümələrin əksəriyyətində orijinal mənbənin ünvanının qeyd olunmasıdır ki, təəssüflər olsun ki, biz bu faktı əksər nəşrlərdə görə bilmədik. Bu il daha çox orijinaldan tərcümələrə mənbə göstərilməklə Günay Rzalının təqdimatında rast gəlirik. Bədii əsərlərdən çox tədqiqatlara, araşdırmalara və nəzəri materiallara üstünlük verən bu gənc mütərcimin fəaliyyətini orijinaldan tərcümənin çətinliklərini nəzərə alarsaq uğurlu hesab etmək olar. Məncə, belə istedadlı tərcüməçilərlə əməkdaşlıq "Ədəbiyyat qəzeti"nin tərcümə sahəsində gördüyü işlərin xeyrinə sayıla bilər. Bununla yanaşı, tərcümə olunan materialların içərisində Təranə Vahid, Səyavuş Məmmədzadə, Qəşəm İsabəyli, Həmid Piriyev, Niyazi Mehdi, Xeyrulla Xəyal və digərlərinin adına rast gəlmək olar.

2018-ci ildə həmçinin görkəmli tərcüməçi, Cəmşid Cəmşidovun da tərcümə sahəsində böyük xidmətləri olmuşdur. İtalyan və latın dillərindən tərcümələr edən mütərcimin yaradıcılıq yolu çox zəngindir. Tərcümə sahəsində böyük xidmətləri olan Cəmşid Cəmşidov Antonio Tabukkinin "Yuxuların yuxusu" və Rotterdamlı Erazmusun "Axmaqlığın tərifi" əsərlərini kitab halında nəşr etdirmişdir. Hər iki kitab "Qanun" nəşriyyatında nəfis şəkildə işıq

üzü görmüşdür. Hər iki əsərdən ayrı-ayrı parçalar müxtəlif vaxtlarda "Ədəbiyyat qəzeti", "Xəzər" jurnalı və bir sıra internet portallarında yer almışdır.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu da öz fəaliyyəti çərçivəsində bu aktual məsələyə hər zaman diqqət yetirir və ədəbi yaradıcılıqla məşğul olan əməkdaşlarını hər zaman "Plyus Bədii yaradıcılıq dərgisinin ətrafında birləşdirir. 2018-ci ildə 2-ci sayı işıq üzü görən bu dərginin ayrıca bir fəsli, yəni III fəsli tərcümələrə həsr olunmuşdur. Bu fəsildə institutun əməkdaşları İmamverdi Həmidovun tərcüməsində Xaqani Şirvaninin ərəb dilində şeirləri, Cavanşir Yusiflinin Ejen Qilvik və Vislava Şimborska yaradıcılığından "Yuxu üçün güzgü", "Üç qəribə söz", "Korların nəzakəti", "Ucalıqlar" şeirləri, Rasim Qurbanovun tərcüməsində Tomas Hardinin "Qoca Endrinin musiqi karyerası" hekayəsi, Cavidə Məmmədovanın tərcüməsində Uiliyam Batler Yeytsin "Göy örtüləri", Redyard Kiplinqin "Anam mənim", Tomas Eliotun "Qayadan gələn səslər" əsərindən bir hissə, Mehman Həsənin tərcüməsində Çingiz Aytmatovun "Əkinçinin nəğməsi" və "İssık gölə həsrət" şeirləri, Elnarə Zeynalovanın tərcüməsində Yusif İdris yaradıcılığından "Ziyarətçi" və sair nümunələr tərcümə olunmuşdur. Qeyd edək ki, topluda Nərgiz Cabbarlının tərcüməsində təqdim olunan Çingiz Aytmatovun "Kassandra damğası" əsərindən bir hissə var. Sevindirici haldır ki, artıq bir neçə ildir müxtəlif mətbu orqanları və dərgilərin, xüsusilə 2017-ci il "Ədəbiyyat" qəzetinin müxtəlif saylarında silsilə tərcümələr şəklində oxuduğumuz bu möhtəşəm ədəbiyyat şedevri artıq kitab halında 2018-ci ildə "Elm və təhsil" nəşriyyatında işıq üzü gördü.

2018-ci il ərzində ölkədə gedən tərcümə prosesinə ətraflı nəzər salaraq aşağıdakı nəticələrə gəlmək olar. Cari ildə kifayət qədər tərcümə əsəri müxtəlif mətbu orqanlarda və nəşriyyatlarda işıq üzü görmüşdür. Lakin orijinaldan tərcümə problemi hələ də mövcuddur. Bu qədər tərcümə mütəxəssislərinin yetişdiyi bir zamanda hələ də ikinci dildən tərcümə məsələsi bir qədər təəssüf doğurur. Bəzi əsərlərin peşəkarlıq səviyyəsi standartlara cavab verir. Lakin hələ də tərcüməsi zəif olan əsərlər gündəmdə qalmaqdadır. Belə əsərlərdə Azərbaycan dilinin leksik və qrammatik normalarına əməl olunmamışdır və redaktə işi zəif nəzərə çarpır. İl ərzində daha çox müraciət nümunələr kiçikhəcmli və qısa məzmunlu əsərlərdir. Lirik janrın növlərinə müraciətlər, ümumiyyətlə, azlıq təşkil edir və əsasən uğursuz tərcümələr meydana gəlir. Tərcümələr zamanı əsərin yarandığı tarixi və ədəbi mühit, ədibin mənsub olduğu cərəyanın cizgiləri, tarixi obyektivlik bəzi hallarda düzgün ifadəsini tapmamışdır.

Bütün deyilən iradlar ölkədə gedən tərcümə prosesinin keyfiyyət göstəricisi kimi nəzərə alınmamalıdır. Ən vacib fakt ondan ibarətdir ki, bu gün peşəkar səviyyədə tərcümələr kifayət qədərdir və bu sənət və yaradıcılıq sahəsi ölkəmizdə yüksələn bir xəttlə inkişaf edir, bu çətin və məsuliyyətli peşənin daşıyıcılarına hər zaman uğurlar arzulayırıq.

Elçin MEHRƏLİYEV
Filologiya elmləri doktoru

BƏDİİ PUBLİSİSTİKA–2018

Ötən ilki məruzəmizdə ədəbi prosesin çox mühüm və məhsuldar bir qolunu təşkil edən publisistika yaradıcılığına belə bir tərif vermişdik: "*Publisistika – zamanın, mühitin tələblərinə müvafiq olaraq yaradıcılıq potensialını aktiv ictimai fəaliyyət üsuluna çevirmək vasitəsi, sənətkarın həyata nüfuzunun başlıca barometri, mövcud problemin həlli istiqamətində düşünməyə və hərəkətə sövq edən yeni fikir, ideya, enerji ötürücüsüdür".*[1] Builki məruzəmizdə söhbət sırf bədii publisistikadan getdiyindən həmin tərifə belə bir bənd də əlavə edə bilərik: *"Yazıçı publisistikası da həyat hadisələrini, konkret situasiyaları canlı, xarakterik fakt, ad, ünvanlarla, elmi-məntiqi dəlil və sübutlarla əks etdirməyi tələb edir, bununla belə, yazıçı-publisist öz yaradıcılıq vəzifəsini dil, üslub, süjet, kompozisiya baxımından özünəməxsus bir ustalıqla, obrazlı şəkildə yerinə yetirməlidir, – hər hansı bir bədii-publisist əsərin ictimai təsir gücü, bilavasitə, onun ideya-estetik mükəmməlliyindən, emosional təsir qüvvəsindən asılı olur".*

Əlbəttə, publisistika ilə bədii publisistikanın, yaxud bədii ədəbiyyatla bədii publisistikanın sərhədləri çox zərifdir, bu səbəbdən hər hansı bir elmi-nəzəri fikir belə onların oxşar və fərqli cəhətləri barədə mübahisə doğura bilər. Bi-

[1] E.Mehrəliyev. Pubkisistika: meyillər, problemlər, axtarışlar. / Ədəbi proses-2017. Bakı, "Hədəf" nəşrləri , s.341.

zim isə bu icmalda əsas məqsədimiz belə mübahisələrə qoşulmaq yox, yüzlərlə materialın sərgiləndiyi "zərif sərhədlər"də seçim aparıb ötən ilin bədii-publisist yaradıcılığı haqqında ümumi təsəvvür yaratmaqdır. Bununla belə, əsas mətləbə keçməzdən əvvəl ümumən publisistikamızın mənzərəsinə diqqət yetirməyi də məqsədəuyğun hesab edirik. Hər şeydən əvvəl ona görə ki, öz dövrünün sosial-ictimai həyatı və ədəbi-mədəni mühiti haqqında publisistika qədər geniş və dəqiq məlumat verən ikinci bir yaradıcılıq sahəsi yoxdur. XX əsrin birinci yarısında Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyli və başqalarının, yaxud həmin əsrin ikinci yarısında Asif Əfəndiyev, Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə, Anar, Elçin, İsa İsmayılzadə, Hidayət, Sabir Rüstəmxanlı, Kamal Abdulla, Afaq Məsud və digərlərinin publisist və bədii-publisist yaradıcılığı dövrün xüsusiyyətlərini parlaq şəkildə əks etdirmələri ilə səciyyəvidir.

Həmişə olduğu kimi, ötən il də zaman (dünyəvi proseslər və cəmiyyətdə baş verən hadisələr) publisistika yaradıcılığının mövzu rəngarəngliyini və ideya müasirliyini təyin etmişdir. Bu kontekstdə xalqımızın ədəbi-mədəni və elmi-filoloji həyatında mühüm rol oynayan "Azərbaycan" və "Ulduz" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə, eləcə də son illərdə bu missiyanın yükünə çiyin verən "525-ci qəzet", "Ustad", "Kredo" kimi mətbu nəşrlərində dərc olunmuş publisist məqalələrin mövzu-problematikası cəmiyyəti və bəşəriyyəti düşündürən ictimai, siyasi, sosial, mənəvi prosesləri əhatə edir. Eyni zamanda publisist məqalələrin əsas qisminin həmin nəşrlərin fəaliyyət təmayülünə müva-

fiq olaraq ədəbi-mədəni həyatımızla bağlılığı da diqqətdən qaçmır və onları səciyyəviliyinə görə bir neçə qrupa bölmək mümkündür:

Tədqiq-təhlil səciyyəli ədəbi-tənqidi məqalələr. Bu tip yazılar müəyyən problemlə bağlı axtarışların nəticəsi, yəni elmi məqalələrdir, lakin mətbuat vasitəsilə daha geniş oxucu kütləsinə təqdim edildiyindən publisist çalarlardan da xali deyil. Bu əlamət, əlbəttə ki, materialda ədəbi-nəzəri düşüncənin ədəbi-mədəni mühitin müəyyən bir aktual problemi və yaxud problemləri ilə əlaqələndirilməsindən və bu zaman yeri gəldikcə sözün təsir gücünü artırmaq üçün publisist tondan istifadə etməyə meyil göstərilməsindən irəli gəlir. Məsələn: "Azərbaycan" jurnalında: Vaqif Yusiflinin 2017-ci ilin poeziyasını təhlil edən "Poeziya... Poeziya..." *(№3),* Asif Rüstəmlinin akademik Aslan Aslanovun şeir yaradıcılığını tədqiq edən "Bir görüşün tarixçəsi" *(№3),* Şirindil Alışanlının Elçin yaradıcılığı haqqındakı "Sənətkarın obrazı" *(№5),* Cavanşir Yusiflinin müasir ədəbi tənqidlə bağlı düşüncələrini əks etdirən "Balet estetikasında tənqid" *(№5),* Azər Turanın Azərbaycan türkoloji elminin qurucusu. Əli bəy Hüseynzadənin "Türklər kimdir və kimlərdən ibarətdir" məqaləsində türkoloji kontekst" *("Azərbaycan" jurnalı, №5),* Təyyar Salamoğlunun yazıçı Nəriman Nərimanovun "Bahadır və Sona" romanına yeni meyarlarla sərf-nəzərini əks etdirən "Uçurum dərələr hansı dərələrdir?" *(№11);*

"Ulduz" jurnalında: Vaqif Yusiflinin Anar və onun yaradıcılığı haqqında yazdığı "O, bir əsr üçün deyil, bütün zamanlar üçündür" *(№3*), Bilal Alarlının gənc qadın yazarlarımız haqqındakı "Sözün hicabı" *(№3);*

"Ustad" jurnalında: Dilqəm Əhmədin "Qopuz"un sədası: Almas İldırımın şeiri" (*№1*), Xanəmir Telmanoğlunun "Azərbaycanın lətifə dövrü" *(№2),* Baba Babayevin "Ə.Haqverdiyevin satirik hekayələrində sənətkarlıq məsələləri" *(№5);*

"Ədəbiyyat qəzeti"ndə: Nizaməddin Şəmsizadənin türkçülük-turançılıq-azərbaycançılıq bağlarını çözən "Türkçülük" *(20 yanvar),* Vahid Əzizin "Kəlbəcər ətirli poetik misralar" *(28 aprel),* Səyavuş Məmmədzadənin "Körpü" *(19 may),* Fəxrəddin Əsədin Əjdər Olu portret hekayələr ustası kimi analiz edən "Əjdər Ol: közərən ocaqların nəğməsi" *(11 avqust),* Cavanşir Yusiflinin Məmməd Araz poeziyasının sirlərindən bəhs edən "Şeirdə şahmat oyunu" (*13 oktyabr),* Elnarə Akimovanın "Fikir həyatımızda İsa Həbibbəyli" (*13 oktyabr),* Sabir Rüstəmxanlının 90-cı illər ədəbi nəslinin nümayəndəsi Səhər Əhməd yaradıcılığından bəhs edən "Səhərin gur işığı" (*20 oktyabr),* Vaqif Nəsibin "Kimliyimizin yeni qolu" (*20 oktyabr),* Əsəd Cahangirin Natəvan Dəmirçioğlunun yaradıcılığına həsr etdiyi "Yazmaq yaratmaq deməkdir" (*27 oktyabr),* Nicat Həşimzadənin "Ədəbiyyatımızın Ramiz Rövşən dövrü" (*22 dekabr);*

"525-ci qəzet"də: İsa Həbibbəylinin Çingiz Aytmatov şəxsiyyəti və yaradıcılığından bəhs edən "Əbədi mogikan" *(1-2 okryabr)* və s. kimi neçə-neçə yazılarda seçilmiş obyekt ətrafında fikir gəzişmələri bəzən təhlil-tədqiq hüdudlarını aşaraq həyat hadisələrinə və problemlərinə publisist müdaxilə imkanları ilə genişlənir.

Misal üçün, Səyavuş Məmmədzadənin "Körpü" adlı məqaləsindən bir parçaya diqqət yetirək: "Yekaterinburqda yaşayan, Rusiya Yazıçılar Birliyinin əlaqələndirici kati-

bi olan Aleksandr Kerdanın şeirlərini 2017-ci ildə Yekaterinburqda nəşr olunmuş "Obereq" ("Ümid mələyi") kitabında oxuyandan sonra Məmməd Orucun tərcüməsində də gözdən keçirtdim. Bəri başdan qeyd edim ki, istəkli həmkarım bu tərcümələrdə tam sərbəstdir – onun başlıca məqsədi müəllifin fikrini – amalını, məramını çatdırmaqdı. Bu bir qədər mübahisəli yanaşma olsa da, düşünürəm ki, Məmməd Oruc da sıradan bir qələm adamı deyil, nə elədiyini yaxşı bilir. Hər halda uğurlar arzulayıram:) rus mənəviyyatını, çağdaş rus dünyagörüşünü öz şeirlərində yaşadan A.Kerdana da, o şeirlərin tərcüməkarı Məmməd Oruca da; hər şeydən öncə ona görə ki, Rusiya ilə geniş əlaqələrin (bütün sferalarda) xatirəyə çevrildiyi bir zamanda "Ümid mələyi" kitabı ilə yeni bir körpü atılıb..." Göründüyü kimi, məqalənin bu və ya bu kimi parçalarında publisistik dil-üslub elmi dil-üslubu üstələyir, müəllif yeni bir tərcümə işi haqqındakı rəyini həyati reallıqlar barədəki düşüncələri ilə genişləndirməyi məqsədəmüvafiq hesab edir.

Esmira Fuadın "İnamın gəlişi" qəzetinin ötən ilki saylarında hissə-hissə dərc etdirdiyi "Bu dünyanın qara daşı göyərməz" adlı silsilə yazısında həm tədqiqatçılıq, həm də publisist yaradıcılığı bacarığından yararlandığını görürük. Məqalə istedadlı şair Sabir Arazlı Özgün və onun "Bizdən salam olsun Musa Yaquba" kitabı haqqında düşüncələrdən ibarətdir. Lakin Sabir Arazlı poemasında olduğu kimi, Esmira Fuad resenziyasında da "Musa Yaqub – yurd", "Musa Yaqub – təbiət" bağlılığına xüsusi önəm verilir və bu meyil sənətin konkret məkan və zamanla əlaqələrini "düşüncələr"in əsas təhlil hədəflərindən birinə çevirir.

Eyni fikri Nizami Cəfərovun Anar yaradıcılığından bəhs edən "Anarın əbədi gəncliyi... Və əbədi gəncliyin Anarı" *("Ulduz", №3),* "Bir gəncin manifesti"ndən "Bir səfirin manifesti"nə" *("Azərbaycan", №4)* adlı məqalələri haqqında da demək olar. Bu yazıların mayasını ayrı-ayrı sənətkarların yaradıcılıq fəaliyyətini dəyərləndirmə ilə yanaşı, insan-zaman-hadisələr ətrafında təhlil və düşüncələr təşkil edir. Məsələn, müəllif görkəmli yazıçı Mir Cəlalın 1930-cu illərin sonlarında yazdığı "Bir gəncin manifesti" romanı ilə onun oğlu, 1992-2006-cı illərdə Azərbaycan Respublikasının ABŞ-da Fövqəladə və Səlahiyyətli səfiri olmuş Hafiz Paşayevin təxminən 70 ilə yaxın bir müddətdən sonra qələmə aldığı "Bir səfirin manifesti" publisist qeydləri arasında xələf-sələflik bağlılığı və ideya-təfəkkür mahiyyəti üzrə paralellər axtarır. Qeyd edir: "Hər iki "Manifest"in qəhrəmanı müstəqil bir etnik-mədəni toplum olaraq tarix səhnəsinə çıxıb özünün milli (və siyasi!) mənliyini təsdiq etməyə çalışan, bu mübarizələrində hər cür maneələrlə üz-üzə gələn Azərbaycan xalqıdır!.. Atanın "Manifest"ində diqqət daha çox daxili, oğulun "Manifest"ində xarici problemlərə yönəlsə də, hər iki əsər həmin problemlərin həllinə bir mövqedən – xalqın (və Vətənin) taleyi mövqeyindən yanaşdığına görə burada (hər iki halda) "daxili" və "xarici" anlayışları xeyli dərəcədə şərtidir".[1]

Qeyd etməyi özümüzə borc bilirik ki, tədqiq-təhlil səciyyəli məqalələrin araya-ərsəyə çıxarılmasında Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları əsas yaradıcı arsenal qis-

[1] "Azərbaycan" jurnalı, № 4, s.44.

mində görünür. Bu sırada İsa Həbibbəyli, Vaqif Yusifli, Asif Rüstəmli, Alxan Bayramoğlu, Elnarə Akimova, Bədirxan Əhmədli, Tehran Əlişanoğlu, Salidə Şərifova, Nərgiz Cabbarlı, Mehman Həsənli, Qəzənfər Paşayev, İmamverdi Həmidov, Mahirə Quliyeva, Cavanşir Yusifli, Mizami Tağısoy, İslam Qəribli, Yaşar Qasımbəyli, Rahid Ulusel, Baba Babayev, Nərgiz Cabbarlı, Gülbəniz Babayeva, Mərziyyə Nəcəfova, Pərvanə Məmmədli, Lütviyyə Əsgərova və başqaları xüsusilə fəallıq göstərmişlər.

Ədəbi-tarixi yaddaşa müraciət edən məqalələr. Bu tip yazılar milli-mənəvi mədəniyyətimizlə bağlı, uzaq zaman məsafəsindən "dumanlı" görünən məsələlərə aydınlıq gətirmək və tarixi yaddaşı təzələmək baxımından əhəmiyyətlidir və bu meyil, əksinə, publisist axtarışları çərçivəsini genişləndirib elmi tədqiqata yaxınlaşdırır. Asif Rüstəmlinin "Professor Mir Cəlal Paşayev və Nizami adına Ədəbiyyat İnstitutu" *("Ədəbiyyat qəzeti", 21 aprel),* Rüstəm Kamalın "Mir Cəfərin qara maşını" *("Ədəbiyyat qəzeti", 28 aprel),* "Əbdürrəhim bəy və pasport" *("Ədəbiyyat qəzeti", 23 iyun),* "Şeytanbazar: itirilmiş yaddaş yeri" *("Ədəbiyyat qəzeti", 22 sentyabr),* "Yusif Vəzirin rəsmləri: qrafikadan mistikaya" *("Ədəbiyyat qəzeti", 1 dekabr),* Dilqəm Əhmədin "Hüseyn Baykara Əhməd Cavadla bir məhbəsdə" *("Ustad", №3),* Murad Adcının "Avropa buradan başlanırdı" *("Ustad", №3),* Vilayət Quliyevin və Aydın Tağıyevin AXC-nin 100 illiyi münasibətilə yazdıqları "Parisə əzablı yol" (Azərbaycan Cümhuriyyət nümayəndə heyətinin Paris sülh konfransında iştirakı ilə bağlı üzləşdiyi çətinliklər") və "Quba üsyanı" *("Azərbaycan", №5),* İlqar Fəhminin "Ədəbiyyat qəzeti"ndə "Şərq arxetipləri" sil-

siləsindən qələmə aldığı "Atalar və oğullar" (13 yanvar), "Karvandan avtobusa" *(2 iyun)*, "Pərdeyi-əsrar – Şərq təfəkkürü" *(11 avqust)*, Sami Sərdari Millinin "Sərdari-Milli Səttarxanın vətən üçün alışan ruhu" *("525-ci qəzet", 4-5 oktyabr)*, Alxan Bayramoğlunun "İstiqlalın özü və sözü. Azərbaycan Cümhuriyyəti dövründə ədəbi hərəkat" *("Azərbaycan", №5)*, Səlim Babullaoğlunun "Elə ailələr, elə sülalələr var ki..." (*"Ədəbiyyat qəzeti", 13 oktyabr)*, Əli Şamilin "Nafiə Abidin Amerikadakı və Türkiyədəki nəvələri" *("525-ci qəzet", 31 oktyabr)*, Elçin İbrahimin "İsmayıl bəy Qaspiralı kimdir?" ("Ustad", №2) və s. kimi yazılar publisist mühakimələri ilə yanaşı, ədəbi-tarixi araşdırmaları ilə də maraqlı və oxunaqlıdır.

Sənət və sənətkarlar, ədəbiyyatşünas-alimlər haqqında məqalələr. Vaqif Yusiflinin "Ədəbiyyat qəzeti"ndə ilboyu davam etdirdiyi "Köhnə kişilər" silsiləsi: *("İşıq kimi bir ömür: İmamverdi Əbilov" – 4 avqust, "Ənvər Məmmədxanlı" – 11 avqust*, "Əli Səbri hekayəti" *– 8 sentyabr, "Unuda bilmədiyim Əkrəm Cəfər" – 29 sentyabr", "Qulam Məmmədli: bir institutun işini görən canlı ensiklopediya" – 27 oktyabr və s.)*, habelə "Unudulmaz Qabilimiz" *("Azərbaycan", №4)*, "İsa Hüseynovdan ...Muğannayadək" *("Azərbaycan", №6)*, "Qılman İlkin: 96 ilin xatirə insanı" , *("Ədəbiyyat qəzeti", 20 oktyabr)*, "Məsud Əlioğlu: 90 ilin yarısı" *("Azərbaycan", №10)*, Məmməd Əliyevin professor Mirzağa Quluzadəyə həsr etdiyi "Xatirələrdə yaşayan insan" *("Ədəbiyyat qəzeti", 20 yanvar)*, Məmməd Orucun yazıçı Mübariz Cəfərlinin 50 illiyi münasibətilə yazdığı "Yazıçı ömrü" *("Azərbaycan", №4)*, Mehman Qaraxanoğlunun şair Avdı Qoşqarın 60 illiyi münasibətilə

qələmə aldığı "Abzasların zamanı..." *("Ədəbiyyat qəzeti", 19 may)* Məhərrəm Qasımlını bir şəxsiyyət, şair və alim kimi təqdim edən "Vətənin hər yerindən görünən adam" *("Ədəbiyyat qəzeti", 4 avqust),* İ, Azər Turanın caz musiqiçisi Vaqif Mustafazadəyə həsr etdiyi "Caz, sadəcə musiqi deyildir..." (*"Ədəbiyyat qəzeti", 23 iyun),* Elçin Mehrəliyevin professor Qəzənfər Paşayevin çoxillik və çoxcəhətli fəaliyyətindən bəhs edən "Qan yaddaşı və böyük eşq" *("Azərbaycan", №7-8),* Avdı Qoşqarın "Mənim tanıdığım Əlabbas" *("Ədəbiyyat qəzeti", 23 iyun),* İftixarın "Elçin zirvəsi" *("525-ci qəzet", 5 oktyabr),* Telman Nəzərlinin yazıçı, naşir Əmrah Əmrahov haqqında yazdığı "Dünya yaxşılarındı" *("Ədəbiyyat qəzeti", 22 dekabr),* "İsa Muğanna" *("Ədəbiyyat qəzeti", 29 dekabr),* Natiq Məmmədlinin "Anar, yaxud gələcəyin yazıçısı haqqında düşünərkən" *("Ulduz", №3),* Şahanə Müşfiqin "Sözün, sənətin İlyas Əfəndiyev ucalığı" *("525-ci qəzet", 3 oktyabr),* "Sönməz Səxavət Məmmədov ulduzu" *("525-ci qəzet", 23 oktyabr),* Cavid Qədirin görkəmli bəstəkar Asəf Zeynallının həyat və yaradıcılığından bəhs edən "Son əsərini xəstəxana divarına yazan dahi: Asəf Zeynallı" *("525-ci qəzet", 27 oktyabr)* kimi yazılarda qəhrəmanın həyat və fəaliyyəti ilə yanaşı, şəxsiyyətinin portret cizgiləri verilir, onun millimənəvi kimliyinin obrazını yaratmağa cəhd göstərilir. Belə yazılarda yaradıcı insanın şəxsiyyəti ilə əsərləri arasındakı bağları çözüm ustalığı nəinki yazının uğurunu təmin edən, ümumilikdə müəllifin istedadını üzə çıxaran başlıca amilə çevrilir.

Bəzi mətbu orqanlarında bu tip yazıların dərc edilməsi əsasən yubiley məqamlarına təsadüf edir. Hətta belə hal-

larda qəhrəmanın həyat və yaradıcılığına müxtəlif aspektlərdən yanaşan bir neçə məqalənin eyni sayda dərc edilməsinə də üstünlük verilir. Deyək ki, şair Əliağa Kürçaylının anadan olmasının 90 illik yubileyi münasibətilə yazılmış "Sənətdə, poeziyada şəxsiyyət" (Vaqif Yusifli) və "Zirvə bir qaladır, zirvədəyəm mən" (Ələvsət Bəşirli) məqalələri "Azərbaycan" jurnalının 2-ci sayında dərc edilmişdir. Hər iki yazıda həm şairin əbədiyaşar poeziyasından, həm də şəxsiyyətindən bəhs olunur. Lakin birinci yazıda şairin yaradıcılığının təhlilinə, ikinci yazıda isə şarin ömür yolu, şəxsiyyəti, taleyi ilə bağlı xatirələrə daha çox üstünlük verilir və məhz mövzuya yanaşma mövqeyi məqalələrin janr və üslub təyinatını müəyyən edir: Vaqif Yusiflinin yazısı ədəbi-tənqidi məqalə, Ələvsət Bəşirlinin yazısı isə xatirə-oçerk – bədii-publisistik yaradıcılıq nümunəsi təsirini bağışlayır.

"Azərbaycan" jurnalnın 3-cü sayında, xalq yazıçısı Anarın 80 illik yubileyi münasibəti ilə dərc edilmiş "Tənha qəhrəman" (Rüstəm Kamal), "Anar haqqında düşüncələr" (İmdat Avşar), "Nələr etmədik bu vətən üçün" (Tofiq Məlikli) kimi, yaxud "Ədəbiyyat qəzeti"nin 21 aprel sayında tənqidçi-ədəbiyyatşünas Vaqif Yusiflinin 70 illik yubileyi münasibətilə dərc olunmuş "Vaqif Yusifli tənqidi – ədəbiyyatımızın isti qanı" (Elnarə Akimova), "Azərbaycan ədəbiyyatının Vaqifi" (İsa Həbibbəyli) adlı məqalələr də bu kontekstdə təsnif və təhlil oluna bilər. Bəzən, *(məsələn, "Kredo" qəzetində, "Ədəbiyyat qəzeti"ndə)* bütöv bir buraxılışı ayrıca bir yubilyarın *(məsələn, xalq yazıçıları Elçin, Anar və başqalarının)* həyat və yaradıcılığına həsr etməsi təcrübəsi də var. Belə xüsusi buraxılışlarda müxtə-

lif müəlliflərin rəngarəng çeşidli forma və məzmunda materialları dərc olunur.

Yubiley yazılarında diqqəti çəkən əsas məqamlardan biri sənətkarın, yaxud alimin yaradıcılıqda başlıca uğurları ilə yanaşı, ictimai həyatda azad vətəndaş mövqeyini açıqlayan düşüncələrin ifadə edilməsinə xüsusi diqqət yetirilməsidir. Bu xüsusiyyət, hesab edirik ki, müasir ədəbiyyatımızın və mətbuatımızın müstəqillik dövründə qazandığı meyil, keyfiyyət kimi dəyərləndirilə bilər. Bu baxımdan Tahir Abbaslının Xudu Məmmədovun 90 illik yubileyi münasibətilə yazdığı "Böyük insan və böyük alim" adlı xatirə-oçerki qəhrəmanın elmi yaradıcılığı, estetik zövq və duyumu ilə yanaşı, vətəndaş məfkurəsi, ictimai-fəlsəfi baxışları, cəmiyyətdə baş verən hadisələrə sağlam mövqedən aktiv münasibəti haqqında ətraflı təsəvvür doğuran publisistika nümunəsi kimi maraq doğurur. Müəllif dünya şöhrətli alimin həyat və fəaliyyətinə dair ən xarakterik məqamlara toxunur, heyrətamiz faktlara, ibrətamiz əhvalatlara istinad edir ki, bütün bunlar da məqalənin emosiyasını artırmağa kömək edir.

Sosial-ictimai mövzularda məqalələr. Sadıq Elcanlının "Dağlar dünyasının əbədi xoşbəxti" *("Ədəbiyyat qəzeti", 20 oktyabr)*, Hicran Hüseynovanın "Bütün yolların başlanğıcı – təhsil" (*"Ədəbiyyat qəzeti", 23 iyun),* Kamil Həmzəoğlunun *"Masal kimi Masallı" ("525-ci qəzet", 23 oktyabr),* Səbuhi Şahmursoyun "Oxucu ədəbiyyata nə verir?" *("Ustad", № 5)* və s. kimi məqalələr cəmiyyətdə gedən ictimai-siyasi, sosial-mədəni proseslərə publisist diqqətinin təzahürüdür. Bu tip məqalələrdə toxunulan mövzu ətrafında informasiya verilməklə yanaşı, təqdir, tənqid,

təklif, tələb arqumentləri də nəzərə çarpır ki, bu da müəlliflərin həyati proseslərə intellektual müdaxiləsi kimi dəyərləndirilməlidir.

Misal üçün, Nizami Hüseynov "Ədəbiyyat: faktlar, yoxsa sənət?" adlı kiçik bir məqaləsində *("Ustad", №5)* ümumtəhsil məktəblərində ədəbiyyatın tədrisi, gələcək nəsillərə çatdırılması vəziyyətinə münasibətini bildirir. Yazıdan belə məlum olur ki, müəllif özü ədəbiyyat müəllimidir, ədəbiyyatı da, peşəsini də ürəkdən sevir. Lakin o, bu fənnin tədrisi vəziyyətindən razı deyil, çünki, onun fikrincə, "tədris olunan materialın ədəbiyyata dəxli yoxdur", "şagirdlərə ədəbiyyat əvəzinə faktlar və rəqəmlər əzbərlədilir". Müəllif tənqidi iradını konkret faktlarla əsaslandırmağa çalışır, diqqəti Hüseyn Cavid yaradıcılığının öyrədilməsi ilə bağlı proqram tələblərinə yönəldir: "Doğrudanmı Hüseyn Cavid yaradıcılığı faktlardan və rəqəmlərdən ibarətdir?", "Doğrudanmı Hüseyn Cavidi dərk etmək üçün onun əsərlərinin xronologiyası əzbərlənməlidir?" – kimi sualları ilə aidiyyatı qurumları və təhsil ictimaiyyətini polemikaya dəvət edir və özü-özlüyündə belə bir qənaətə gəlir ki, ədəbiyyata aid olmayan məlumatların qəbul proqramında çoxluğu müəllimləri də vadar edir ki, ədəbiyyatın estetikasını yox, məhz bu faktları öyrətsin. O, yazır: "Ədəbiyyat riyaziyyat deyil, tarix deyil və burada fakt əzbərləməyin şagirdə ədəbiyyat adına verə biləcəyi heç nə yoxdur". Nizami Hüseynov, eyni zamanda ədəbiyyatın tədrisində şagirdlərin "dünya ədəbiyyatından uzaq tutulması"nı, şagirdlərin "yaş və psixoloji xüsusiyyətləri ilə üst-üstə düşməyən nümunələrin tədris proqramına salınması"nı düzgün hesab etmir.

Resenziya tipli yazılar. Belə məqalələrdə bir qayda olaraq, təzəcə çapdan çıxmış kitabların ideya-mündəricəsindən, sənətkarlıq məziyyətlərindən bəhs edilir. Bədii, yaxud elmi-ədəbi əsərlərə operativ münasibət, ilkin təhlil və dəyərləndirmə nəinki cari ədəbi prosesin öyrənilməsi, ümumiyyətlə elmi-mədəni həyatımızın nəbzinin hiss edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu sırada Şəfa Vəlinin tənqidçi Əsəd Cahangirin xalq yazıçısı Elçinin yaradıcılığı haqqında qeydlərindən ibarət "On üçüncü gecə" kitabı haqqında yazdığı məqalə *("Ustad", №1)*, Elnarə Akimovanın "Məti Osmanoğlunun Zaman və Yaddaş mətnləri" (*"Ədəbiyyat qəzeti", 7 iyul),* Əlizadə Nəcəfovun Səfər Məlikovun "Həyatla üzbəüz" *(525-ci qəzet, 4 oktyabr),* Zahid Sarıtorpağın yeni romanı: "Quşların intiharına ağlamayın" (*"Ədəbiyyat qəzeti", 27 oktyabr),* Şahanə Müşfiqin "Əlif Şəfəqin "Qara süd" romanı: yazıçılıq və analıq" *("525-ci qəzet", 27 oktyabr),* Rafael Hüseynovun publisist Fazil Rəhmanzadənin "Rəşid var olan yerdə" kitabı haqqında yazdığı "Böyük Rəşidin yeni qayıdışı" (*"Ədəbiyyat qəzeti", 29 sentyabr),* Sadıq Elcanlının "İnkişaf – məqsədimizdir" çoxcildliyi haqqında yazdığı "Uğur düsturu" *("525-ci qəzet, 26 oktyabr"),* Şələlə Göytürkün "Sabir Rüstəmxanlının "Difai fədailəri" (*"Ədəbiyyat qəzeti", 1 dekabr)* məqalələri, habelə, Sevda Sultanovanın ekranlaşdırılmış ədəbi əsərlər haqqındakı silsilə yazılarını, Əsəd Cahangirin Xəzər telekanalının "Xəzər – Səhər" xəbərlər proqramı və onun aparıcıları haqqındakı qeydlərini *("Gecə"dən "Səhər"ə doğru". "Ədəbiyyat qəzeti", 3 noyabr)* xatırlada bilərik.

Başqa bir qrup yazılar isə teatr və film yaradıcılığı ha-

qındadır. Əlisəfdər Hüseynov, Nuranə Abbasova, Nizami Hüseynov və başqaları artıq bu sahənin peşəkar yazarları kimi tanınırlar.

Müraciət etdiyimiz ədəbi nəşrlər il ərzində oxuculara bir sıra maraqlı **müsahibələr, söhbətlər, səfər təəssüratları** da təqdim etmişlər.

Aynur Rəhimzadənin memar Ramiz Hüseynovla *("Ustad", №1),* professor Rüstəm Kamalla *("Ustad", №3),* Səyyad Aranın xalq yazıçısı Mövlud Süleymanlı ilə *("Mövlud Süleymanlı: Mən yazmıram deyəndə də yazıram". 3 mart),* Səbuhi Şahmursoyun professor Tərlan Quliyevlə *("Ustad", №3),* Hədiyyə Şəfaqətin yazıçı Əlabbasla (*"Ədəbiyyat qəzeti", 14 aprel),* Azər Turanın Bakı Slavyan Universitetinin prorektoru, professor Telman Vəlixanlı ilə (*"Ədəbiyyat qəzeti", 4 avqust),* Nərgiz Cabbarlının yazıçı Varislə *("Ölkədə kitabları ən çox satılan üç yazıçıdan biri". "Azərbaycan", № 9),* akademik İsa Həbibbəyli ilə *("Çalışmaq və irəliyə ümidlə baxmaq". "Azərbaycan", № 10),* Murad Köhnəqalanın Moskvadakı tələbəlik illərindən tanış olduğu, qədim şaman əcdadlı tuvalı Viktorla *("Ağ şaman: Hər an möcüzə gözlə! "Ədəbiyyat qəzeti", 22 sentyabr),* Samirə Əşrəfin "Dördüncü divar" layihəsi üzrə Gənc Tamaşaçılar Teatrının aktyoru Manaf Dadaşovla (*"Ədəbiyyat qəzeti", 23 iyun),* şair Eldar Baxışın oğlu, aktyor Tural Ağayevlə (*"Ədəbiyyat qəzeti", 15 sentyabr),* aktyor Səməndər Rzayevin qızı Rübabə Səməndərlə (*"Ədəbiyyat qəzeti", 22 sentyabr),* şair Salam Sarvanla (*"Ədəbiyyat qəzeti", 13 oktyabr),* yazıçı Fəxri Uğurlu ilə (*"Ədəbiyyat qəzeti", 1 dekabr),* yazışı Qurban Yaquboğlu ilə *("Ədəbiyyat qəzeti", 20 oktyabr),* Nuranə Nurun

şair Tərlan Əbilovla (*"Ədəbiyyat qəzeti", 23 iyun),* Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidlə (*"Ədəbiyyat qəzeti", 15 sentyabr),* şair Qəşəm Nəcəfzadə ilə (*"Ədəbiyyat qəzeti", 1 dekabr),* "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəslə (*"Ədəbiyyat qəzeti", 22 sentyabr),* Türkan Turanın yazıçı Hüseynbala Mirələmovla *("525-ci qəzet", 20 oktyabr),* Sərvaz Hüseynoğlunun yazıçı-publisist Zöhrə Əsgərova ilə (*"Ədəbiyyat qəzeti", 1 dekabr)* və s. kimi müsahibələri ədəbiyyat, mədəniyyət, incəsənət sahələrindəki real vəziyyət haqqında təsəvvür yaratmaq, yaradıcılıq vəzifələrini həyata keçirilmək üçün arzu və istəklərin ifadəsi baxımından əhəmiyyətlidir. Eləcə də "Ədəbiyyat qəzeti"nin müzakirə saatı" layihəsi üzrə aktual mövzularda aparılan söhbətlər müəyyən problemin müzakirəsi, müxtəlif fikir və mülahizələrin bölüşdürülməsi, polemikaya meydan açmaq nöqteyi-nəzərindən maraq doğurmaya bilmir.

Rafael Hüseynovun "Könlümüzdə bu arzuya yer varmı? *("525-ci qəzet", 6 oktyabr),* Hüseynbala Mirələmovun "Yaponiya - Günəşə oyanıb yüksələn ölkə" silsiləsi, Orxan Arasın "Azərbaycan yollarında" *("525-ci qəzet", 27 oktyabr)* adlı səfər təəssüratları, Kamran Nəzirlinin Belarus vətəndaşı, əslən azərbaycanlı, tanınmış rəssam Kamil Kamal yaradıcılığından bəhs edən "Sükutun səsi" *("Ədəbiyyat qəzeti", 11 avqust),* Şahanə Müşfiqin "Solmaz Amanovanın "İrs Nağıl evi"nə səyahət" *("525-ci qəzet", 6 oktyabr),* Sərvaz Hüseynoğlunun "Hər şey tanışdır köhnə nağıltək..." *("Ədəbiyyat qəzeti", 29 dekabr),* Hədiyyə Şəfaqətin rənglər silsiləsindən məqalələri və s. kimi materiallar oxunaqlı və düşündürücüdür.

Lakin bu yazılarda publisistika ilə bədiiliyin şəffaf sərhədlərində birinci tərəfə meyil özünü daha çox hiss etdirdiyindən, onlar da, təbii ki, bədii-publisistika nümunəsi hesab oluna bilməz. Bədii-publisistikada toxunulan mövzu-problemlə bağlı düşüncə və mühakimələr bədii ifadə imkanları daxilində, obrazlı, ehtiraslı, bədii bir dildə çatdırılmalı, emosiyanı artırmalı, bu isə öz növbəsində daha geniş kütlələrin marağına səbəb olub daha miqyaslı polemika doğurmalıdır. Yeri gəlmişkən, bədii-publisistikadakı obrazlılıqla bədii nəsrdəki obrazlılığı eyniləşdirmək də olmaz, bədii nəsrdə bədii publisistikada olduğu kimi zəruri konkretlik tələb olunmadığından müxtəlif rəmz, metafora, eyham və təşbehlərdən istifadə edilirsə, bədii publisistika bu imkandan məhrumdur.

***

Ötən ilin bədii-publisistika yaradıcılığı haqqında təsəvvür üçün bir neçə xarakterik nümunəyə diqqət yetirək.

Keçən il üç alpinistin Şahdağda itkin düşməsi hadisəsi geniş ictimaiyyəti intizar içərisində saxlamış, mətbuatda çoxsaylı, əsasən də informatik xarakterli yazılar dərc olunmuşdur. Tanınmış yazıçı-publisist Rafiq Səməndərin hadisə ilə bağlı hazırladığı material isə həm forma, həm də dil-üslub və ideya-məzmun baxımından tamamilə fərqlidir. “Şahdağım, burax uşaqları” adlı bu yazı *(“Ədəbiyyat qəzeti”, 3 fevral)* Şahdağın ətəklərində yerləşən Xınalıq kəndində, “ağbirçək gəlin” Şahbikə xalanın evində yazılmışdır. O məqamlarda ki, göydə vertolyotlar uçuşaraq itmiş alpinistləri axtarır, yerdəkilər – xınalıqlılar isə ümidlə

gözləyərək peçin üstündə isti süd saxlayırlar ki, tapılan kimi onlara içirtsinlər... Hər yan qar-buzdur, dağ-dərə "gəlin kimi ağappaq geyinib", sırsıradan bər-bəzək taxıb, adamlar isə nigarançılıq içindədilər... Şahbikə xala da narahatdır, verilən suallardan aradabir yayınaraq yamşanıb baxdığı dağlarla danışır... Səssiz danışır... amma peşəkar yazıçı-publisist bu qadını yaxşı başa düşür, ağbirçək ananın inam-etiqadı ona istər-istəməz bu yerlərin yaşı bilinməyən uzaq keçmişini xatırladır. Bizim islamaqədərki əcdadlarımız monoteist olublar, təbiətə – oda, havaya, suya, torpağa, dağa sitayiş ediblər. Göyü və Torpağı yaradana və Allah adlandırdıqlarına pərəstiş ediblər. Eldə-obada danışıq zamanı hələ də təsadüf edilən "Od haqqı!", "Gün haqqı!", "Torpaq haqqı!", "Su haqqı!", "Dağ görəndə salam verərlər!", "O yeri-göyü yaradana and olsun!" və sair kimi andlar, inanclar bizi sadəcə arxaik əlamətlər kimi yox, həm də milli-genetik yaddaşımızın güclülüyü barədə düşündürməyə bilmir və hər cür düşüncəmiz bir nöqtədə kəsişib yekunlaşır: müqəddəs yerlərə sitayiş kultu möcüzə yaradanın adı ilə bağlı olub! Yayın qızmarında belə başı ağ "çalmalı" Şahdağ da özü boyda möcüzədir. Şahbikə xala ona görə yamşanıb baxır o dağa... Müəllif onun dağa müraciətini əsərin ideyasına çevirir, yazının sərlövhəsinə çıxarır. Ümumilikdə, təsvir və düşüncələrdəki paradoksallıq bədii kontrasta çevrilib məqalənin emosional təsir gücünü qüvvətləndirir.

Vaqif Nəsibin "Vaqif Səmədoğlu ilə üzü Muğana" yazısı *("Ədəbiyyat qəzeti", 9 iyun)* 1976-cı ildə, Səməd Vurğunun 70 illiyi ərəfəsində Salyan-Neftçala bölgəsinə səfər təəssüratından ibarətdir. Hüseyn Arif, Vaqif Səmədoğlu,

Rəfiq Zəka və Vaqif Nəsib həmin unudulmaz səfərin iştirakçılarıdır. Onları evini elm, sənət məbədinə çevirmiş yerli ziyalı, söz-sənət sərrafı İmamverdi Əbilov qarşılayır. Peşəkar yazıçı qələmindən çıxmış bu kiçik yazı dilimizin ən şirin sözləri ilə süslənir, oxucu qəlbini ehtizaza gətirən hiss-həyacanların bədii ifadəsi özünəməxsusluğu ilə sanki ruha qanad verir. Toxunulan mətləblər və həmin mətləblərə həssas münasibət obrazların, obrazların məharətlə cızılan portret cizgiləri isə toxunulan mətləblərin daxili mahiyyətinə işıq salır. Zaman hüdudları ustalıqla ram edilir, Səməd Vurğunun bir vaxtlar Muğanda keçirdiyi unudulmaz günlərlə 70 ildən sonra Muğanda keçirilən Səməd Vurğunu anma günləri bir araya gətirilir, mənalandırılır, fikir, mətləb ideya məqsədinə yönəldilir. Bu axarda təbiət və insan, nəfs və gözəllik, ibrətamiz ömür və xatirələr, şair və xalq, vəfasız həyat və əbədi dəyərlər kimi çox ciddi mətləblər üzərində düşünməyə bilmirsən... "Kiçik yazı" sənə bədii-estetik zövq verib feyziyab edir, səmimiyyəti ilə duyğularını oyadır, yeni bilgi və informasiya ilə savadını artırır, həyatın və sənətkar ömrünün fəlsəfi mahiyyət haqqında düşünməyə sövq edib problemlərin həllinə töhfə verməyə səfərbər edir.

Yaxud Mişkinaz Cavid "Cavid haqqında xatirimdə qalanlar" yazısından bir parçanı "Bu da bir cərəyandı, keçib gedəcək..." adı altında mətbuatda dərc etdirmişdir *("Ədəbiyyat qəzeti", 27 oktyabr*). Bu yazı repressiya və müharibə dövrü ağrılarını günbəgün, saatbasaat yaşamış bir qadının ürək titrədən hekayətidir. Bədii-publisist bir dildə hekayəti. Onu sənədli povest kimi də dəyərləndirmək olar. Mişkinaz xanım öz xatirələrində (dəqiq desək, oxu-

culara təqdim etdiyi parçada) Cavidin həbsxanada yatdığı günlərdə onunla görüşlərindən, ərinin uzaq Sibirə sürgün edilməsindən, oğlunun cəbhədə sətəlcəm olub həlak olmasından, digər itki və sarsıntılarından bəhs edir. Təsvir və təhkiyələrdəki dəqiqlik, canlılıq yazının emosional təsir gücünü artırır, Stalin-Bağırov repressiyalarına nifrət hissi oyadır.

Və yaxud biz Əlabbasın bədii əsərlərində gördüyümüz dil-üslub, təhkiyə, təsvir özünəməxsusluğunu tənqidçi-ədəbiyyatşünas Sabir Bəşirovun qəfil ölümünə həsr etdiyi "Baş tutmayan görüş" *("525-ci qəzet", 27 oktyabr)* adlı məqaləsində də hiss edirik. Yazıçı qələmindən çıxmış bu əsər Yardımlıda yaşayıb-yaratmış, ömrünü ədəbiyyata xidmətdə keçirtmiş Sabirin həyat və fəaliyyəti ilə bağlı xarakterik faktlar üzərində qurulsa da, bədii məziyyətləri ilə bir növ hekayə-rekviyem təsiri bağışlayır, bədiiliklə publisistikanın – gerçəkliyə istinadla yazıçı dili və mühakiməsinin qovuşması qəhrəmanın mənəvi obrazını yaratmağa və məqalənin oxunaqlığını təmin etməyə imkan verir.

Eləcə də, illər, məkanlar, qəhrəmanlar, məqamlar, xatirələr zəminində qələmə alınan: Sadıq Elcanlının yaradıcı ziyalımız Nahid Hacızadə *("İşıqlı adamın dastanı". "Ədəbiyyat qəzeti", 24 fevral),* Vahid Əzizin xalq şairi Rəsul Rza *("Poeziyamızın Rəsulu". "Ədəbiyyat qəzeti", 19 may),* Anarın SSRİ xalq rəssamı Tahir Salahov *("Tahir Salahovla söhbət". "Ədəbiyyat qəzeti", 8 dekabr)* şəxsiyyəti və yaradıcılığından bəhs edən, habelə İsfəndiyar Vahabzadənin "Armud qoxulu, sarı rəngli yuxular" *("Ədəbiyyat qəzeti", 10 fevral),* Südabə Ağabalayevanın "Yanvar düşüncələri" *("Azərbaycan" jurnalı, № 1);* Sabir

Rüstəmxanlının "Tanıdığımız və tanımadığımız Dağıstan" *("Ədəbiyyat qəzeti", 13 oktyabr);* Məmməd İsmayılın "Bir qorxunc oyunda ortaya çıxar şeir" *("Ədəbiyyat qəzeti", 13 oktyabr)* və s. kimi yazılar dil-üslub rəngarəngliyi, faktların bədii təfəkkür süzgəcindən keçirilib mənalandırılması və dəyərləndirilməsi, İlqar Fəhminin "Milli ənənələr, kütləvi mərasimlər" adlı yazısı (*"Ədəbiyyat qəzeti", 3 noyabr)* novruz şənliklərini daha rəngarəng etmək təklifləri, "Dəmir əjdaha və şeyda bülbül" (*"Ədəbiyyat qəzeti", 17 noyabr)* yazısı bəstəkar Firəngiz Əlizadə sənəti və ümumiyyətlə musiqi sənəti haqqında, Barat Vüsalın "Ənəlhəq deyən kişi..." essesi xalq yazıçısı İsa Hüseynovun bədii-fəlsəfi baxışları barədə orijinal düşüncələri ilə maraq doğurur.

Bir sıra bədii-publisistika nümunələri keçmiş xatirələrin oyatdığı kövrək hiss və duyğulardan yoğrulmuşdur. Ruslan Dost Əlinin istedadlı şairimiz Musa Yaquba həsr etdiyi "Payızda ilişib qalan" *("525-ci qəzet", 11 oktyabr),* Tofiq Məliklinin "Ömür yolum, taleyim" *("Azərbaycan", №10),* Zəminə Əbişovanın "Dəyirmanağzı" *("525-ci qəzet", 31 dekabr)* və s. kimi yazılar bu qəbildəndir. Məsələn, "Dəyirmanağzı" adlı məqalədə işğalda qalmış yurd yerlərimizdən birində - Həkəri çayı yaxınlığında yerləşən Qaracalı kəndində keçirilən xoş günlərdən bəhs edilir. Yazı əvvəldən axıradək el-oba, yurd-yurddaş haqqında nisgilli xatirə-düşüncələrdən ibarətdir. Məqalədəki konkretlik, doğmalıq, təbiilik doğma yurdun yaddaşlardan silinməyən adamları, əsrarəngiz təbiəti, elin zəngin adət-ənənələri barədəki hissi-psixoloji təsvir və xatirələrdə üzə çıxır.

***

Bədii-publisistika yaradıcılığının mühüm bir qolunu esselər təşkil edir və son illər esse yaradıcılığına meylin artması dəfələrlə qeyd edilmişdir. Bu tendensiya ötən ilki bədii publisistikamızda da müşahidə olunur və bu, yaradıcılıqda intellektual fəallığın yüksəlməsi əlaməti kimi dəyərləndirilə bilər. Məlumdur ki, esse yaradıcı insanın özünüifadəsi, yaradıcı "mən"in uğurlu və birbaşa realizəsi baxımından geniş imkanlar verir və bu imkanlardan istifadə dərəcəsi yaradıcılıqdan yaradıcılıq doğura bilən təfəkkürün səviyyəsindən asılıdır. Yığcamlıq, aydın dil, hiss və təəssüratların üstünlüyü ilə bərabər müdrik ağıl, dərin bilik, dəqiqlik esse və esseist üçün vacib keyfiyyətlərdir. Esselər dünyanın dərki ilə bağlı insana məlum olanın naməlum tərəflərini açıb göstərə bilir. Anarın "Türkün sözü" essesində *("Azərbaycan", № 7-8),* Kamal Abdullanın "Ədəbiyyat qəzeti"nin bir sıra saylarında dərc etdirdiyi "Əvvəl-axır yazılanlar" başlıqlı esselərində olduğu kimi.

"Türkün sözü" essesinin əvvəlində müəllif danışıq zamanı işlətdiyimiz "türkün sözü", "türkün məsəli" ifadələrinin məna və mahiyyətinə varılır. Sonra müəllif düşüncələrini türk xalqları şeirinin incələmələri ilə genişləndirir, bu şeirlərdəki söz, fikir dərinliklərini, sənətkarlıq xüsusiyyətlərini araşdıra-araşdıra qəti qənaətə gəlir: "Min illər boyu türkü yaşadan Türkün Sözü olub. Bu ifadəni heç vaxt, bir növ üzrxahlıq edərək işlətməməliyik. Əksinə, böyük qürur hissiylə, iftixarla tələffüz etməliyik. Fəxr edərək deməliyik ki, tarixin, əsrlərin bütün keşməkeşlərindən, məşəqqətlərindən keçən Türkün sözü Türkün varlığıdır, ən

böyük nemətdir, alınmaz qalasıdır”.[1]

“Azərbaycan” jurnalının həmin essedən sonra təqdim etdiyi Pərvinin “Tarixləri əks etdirən türk sözü...” essesi isə Anarın “Türkün sözü”ndən intişar edir. “Türkün sözü” essesinin məziyyətlərindən bəhs edən gənc müəllif yeri gəldikcə mövzu ətrafında öz mülahizələrini də bildirir, “Türkün sözü” essesini Anarın həm türk dünyasına, həm də ümumiyyətlə şeirə münasibətinin daha bir yeni ifadəsi kimi dəyərləndirir. Yazır: “Müəllif bu yazı ilə el arasında bayağılığı, kobudluğu “yumşaltmaq” üçün işlədilən “türkün sözü” ifadəsinin anlamını dəyişmiş olur”.[2]

“Əvvəl-axır yazılanlar” isə yığcam ədəbi esselər silsiləsidir. Qeyd etməliyik ki, Kamal Abdulla əvvəllər də esse yaradıcılığı ilə məşğul olmuş, ədəbi-bədii esselərdən ibarət “300 azərbaycanlı” adlı (Bakı, Mütərcim, 2007) kitab nəşr etdirmişdir. Müəllifin “Ədəbiyyat qəzeti”ndə dərc edilmiş yeni esselərində əsasən zaman və zəka, sənət və sənətkar, ədəbiyyat və milli-mənəvi dəyərlər haqqında ədəbi-fəlsəfi düşüncələri sərgilənir.

Barat Vüsalın eşq və ilahi eşq mövzusunda bədii-fəlsəfi düşüncələrini əks etdirən “Xətadı qeyri-eşq...” *(“Kredo” qəzeti, 18 aprel),* Tural Turanın kənd xatirələri əsasında yazdığı “Uşaqlığımızın rəngli kişiləri” *(“525-ci qəzet”, 22 sentyabr)* esselerində də zamanın axarı, həyat tərzinin dəyişməsi, dəyərlərə münasibətdə itkilərimiz, qazancларımız kimi düşündürücü problemlər qələmə alınır. Günel Natiqin “Sevgi və xəyanət” *(“Azərbaycan”, № 1),* Günel

---

[1] Anar. Türkün sözü. “Azərbaycan”, № 7-8, s.45.

[2] Pərvin. Tarixləri əks etdirən türk sözü... “Azərbaycan”, № 7-8, s.47.

Eyvazlının Müşfiqin ruhuna həsr etdiyi "Alnımda göynəyən güllə yeri" *("Ədəbiyyat qəzeti", 27 oktyabr)*, Mehman Qaraxanoğlunun "Alleqoriyadan simvolikaya" *("Ədəbiyyat qəzeti", 3 mart),* "Dərədə yatmış idim..." *("Ədəbiyyat qəzeti", 17 noyabr)* Kamal Abdulla üslubundan bəhs edən "Sən çətin taparsan axtardığını..." *("Ədəbiyyat qəzeti", 8 dekabr)*, Azər Abdullanın İrana səfər təəssüratı əsasında yazdığı "Sandıq" *("Azərbaycan", №9),* Qəşəm İsabəylinin "Axır ki, öldüm, ay bala!" *("Ədəbiyyat qəzeti", 17 noyabr)*, Babullanın 20 Yanvar faciəsi haqqındakı "Azadlıq məbədinin memarı" *("Ədəbiyyat qəzeti", 20 yanvar)* və s. kimi çoxsaylı esselər bu janrda yaradıcılıq təsərrüfatının həm mövzu-problem, həm də forma və məzmun rəngarəngliyini göstərir.

Lakin "esse" adı ilə dərc edilən bəzi yazılara da rast gəlinir ki, onları esse kimi qəbul etmək mümkün deyil. Tənqidçi-ədəbiyyatşünas Vaqif Yusifli keçən il "Azərbaycan" jurnalında dərc etdirdiyi "Filoloji esselər" adlı yazısında bu problemə toxunmuşdur. O, həmin məqalədə (Rüstəm Kamalın "Güzgü günü" adlı yeni kitabı haqqındakı rəyində) esse yaradıcılığına marağın artmasını nəzərə alaraq qeyd edir: "Bu gün "esse" adı altında mətbuatda onlarla yazılar çap olunur və bəzən bu janrın spesifikası unudulur. Bir də görürsən ki, hansı müəllifsə uzun bir hekayəsini esse adlandırır, yaxud başqa bir müəllif emosional tərzdə qələmə aldığı, bir az şeirə, bir az da nəsrə oxşayan yazısına esse adı verir. Halbuki esse janrının ta əzəldən özünəməxsus vahid forma və məzmun xüsusiyyətləri

var.”[1] Müəllif həmin “məlum xüsusiyyətlər”in görkəmli ədəbiyyatşünas Əziz Mirəhmədovun tərtib etdiyi “Ədəbiyyatşünaslıq terminləri lüğəti”ndə izah edildiyini də yada salmağı özünə borc bilir. “Esse – tənqid və ədəbiyyatşünaslığın müəyyən bir problemi sərbəst surətdə izah etməsi ilə fərqlənən janrı. Essenin müəllifi seçdiyi problemi (ədəbi, etik, fəlsəfi və s.) təhlil və izah edərkən ifadə tərzinin sistemli, ardıcıl, gəldiyi qənaətin əsaslı, hamı üçün eyni dərəcədə məqbul olması qayğısına qalmır. Essenin əsasını fransız yazıçısı və humanist filosofu M.Monten qoymuşdur. O, 1580-ci ildə yazdığı “Esse” əsərində cəmiyyət və insan taleyi haqqında danışmışdır. Sonralar F.Bekon, C.Lokk, Q.Fildinq, O.Holdsmit, B.Şlu, R.Rollan və başqaları bu janra müraciət etmişlər”. Eləcə də, digər nəzəri izahlardan belə məlum olur ki, esse – kiçik və ya orta həcmdə olan, bir çox elmi sahəyə müraciət olunan, problemin sərbəst şəkildə qoyuluşuna imkan verən nəsr janrı kimi təsvir olunur. Bununla belə, bu janrı ədəbi tənqidin bir janrı kimi də təqdim edənlər vardır və görünür, bu cür yanaşma essedə müəllifin tənqid və ədəbiyyatşünaslığın müəyyən bir problemini sərbəst surətdə izah etməsi və bu məqsədlə fəlsəfi ifadə, yanaşma, təhlildən istifadə imkanları ilə əlaqəlidir. V.Yusifli də essenin ədəbi tənqidin bir janrı olması fikrini müdafiə edir və bildirir ki, Rüstəm Kamal öz esselərində iki məqsədini reallaşdırır – bir yandan müəyyən elmi-nəzəri bir fikri izləyir, o fikri sonacan davam etdirir, o biri yandan esseçiliyə məxsus obraz və deyim tərzinə sadiq qalır. Bu yazılarda bəzən bədiiliklə elmi-

[1] V.Yusifli. Filoloji esselər. “Azərbaycan” jurnalı, № 1, s.202.

lik, elmiliklə publisistika birləşir. Rüstəm Kamalın yazılarında təkcə bədii ədəbiyyat faktoru (müraciət olunan əsərlər) deyil, bir çox elm sahələrinin də "iştirakı" təmin olunur. Belə ki, mifologiya, fəlsəfə, tarix, psixologiya, musiqi də bu yazılarda istinad nöqtələrinə çevrilir... Gətirdiyi sitatların hər biri mətndə fikri qüvvətləndirən bir vasitəyə çevrilir.[1]

Hər halda, esse janrına münasibətdəki müxtəliflik bədii-publisistikada mübahisə doğura biləcək məsələlərdəndir və "esse" adı ilə təqdim edilən bir çox yazıların janr baxımından mübahisə doğurması, bilavasitə bu səbəbdən irəli gəlir. Bununla belə, esse janrının nəzəri prinsipləri ilə qətiyyən uzlaşmayan yazıların "esse" adı ilə təqdim edilməsinə də bəraət qazandırmaq olmaz. Məsələn, götürək Nargisin "Gilənar rənginə boyanan ovuclar" *("Ustad", №2),* Musa Quluzadənin "Sərhədsiz quşlar" (*"Ədəbiyyat qəzeti", 3 mart)* yazılarını. "Esse" adı ilə təqdim edilmiş bu yazılar dil, təsvir baxımından oxunaqlıdır, janr etibarilə isə birinci hekayəni, ikinci isə daha çox mənsur şeiri xatırladır.

Beləliklə, ötən ilin ümumi mənzərəsi belə deməyə əsas verir ki, publisistika bu gün də həyat hadisələrinə münasibətdə öz çeviklik və mütəhərriklik keyfiyyətlərini qoruyub saxlaya bilir. Dövrün elə bir mühüm hadisəsi, günümüzün elə bir vacib mətləbi yoxdur ki, publisistlərimiz ona toxunub münasibət bildirməsinlər. Bu baxımdan, "Ədəbiyyat qəzeti"nin ədəbi-ictimai həyatın ən müxtəlif sahələrinə nüfuz etmək, ən müxtəlif janr və formalarda ya-

[1] Bax: V.Yusifli. Filoloji esselər. "Azərbaycan" jurnalı, №1, s.203.

radıcılıq məhsullarına meydan vermək fəallığını xüsusi olaraq təqdir edirik. Təkcə bu qəzetin illik materialları belə deməyə əsas verir ki, zaman və həyat dəyişdikcə publisistika da yeni-yeni ifadə-forma tərzi, janr özünəməxsusluqları ilə zənginləşir.

Lakin publisistika yaradıcılığı "bum"unda nəinki janrın tələblərinə cavab verməyən, hətta hansı janrda yazıldığı aydın olmayan yazılara da təsadüf edilir. Biz bu iradımızı bildirərkən müəllifin qələmə aldığı mövzunu hansı biçimdə, hansı qəlibdə işləmək sərbəstliyinə sədd çəkmir, yaxud tarixi inkişaf prosesində publisistika ilə bədii publisistika, bədii publisistika ilə bədii ədəbiyyat arasında sintez hadisəsinin baş verməsini inkar etmirik. Janr – qeyri-sabit və çevik sistemdir. Janrın sabit sistem kimi mövcudluğu qeyri-mümkündür. Janr anlamı yaradılan əsərlərin ənənəvi janr biçimləri ilə müqayisə edilmə prosesində ortaya çıxır ki, bu da "ənənəvi janr"ların "yeniləri" ilə əvəz edilməsi ilə müşahidə oluna bilir.[1] Lakin bu bir faktdır ki, son illərdə milli mətbuatımızda publisist yazıların janr təyinatına diqqətin azalması müşahidə edilir, bunun da nəticəsində bir çaşqınlıqla yanaşı, bəzi janrların işləksiz vəziyyətə salınıb unudulması prosesi baş verir. Hesab edirik ki, ənənələri də gözləmək vacibdir.

Yazıçı qələmindən çıxmış bədii-publisist yazılar həm dil-üslub, həm problemə fərqli yanaşma və ənənəvi münasibətə yeni baxış nöqteyi-nəzərindən, həm də forma-struktur baxımından dərhal seçilir, bədii-estetik səciyyəsi ilə maraq oyadır, ictimai təsir qüvvəsi ilə qəzetin, yaxud jur-

[1] Tınyanov Y.N. Poetika, istoriya Literaturı. Kino. M: 1977, s.202.

nalın nüfuzunu qaldırır. Doğrudur, bədii-publisistikamızda sənətkarlıq baxımından ədəbi sərvətimizi artıran yeni yaradıcılıq nümunələri az deyil və onlar bir tərəfdən, peşəkar şair və yazıçılarımızın sözün qüdrətinə tapınıb cəmiyyətdə və dünyada gedən proseslərlə bağlı öz düşüncə və ideyalarını daha dolğun ifadə etmək, digər tərəfdən, Azərbaycanın dərin tarixi köklərə malik mədəniyyətini, milli mədəni irsini təbliğ etmək, gənclərdə doğma dilə hörmət, Vətənə məhəbbət, dövlətçiliyə sədaqət hissləri aşılamaq istəyinin təzahürü təsirini bağışlayır. Amma yaşanan günlə səsləşən, mövzu-problem baxımından çoxçeşidli, sənətkarlıq baxımından maraqlı yaradıcılıq nümunələrinin kifayət qədər olduğunu iddia edə bilmərik. Hesab edirik ki, gələcəkdə bu məsələyə diqqətin artırılması, bədii publisistikanın forma və janr spesifikası etibarilə zənginləşdirilməsi nəinki mətbuatımız, ümumiyyətlə ədəbiyyatımız üçün faydalı olardı.

Tarixi şərait həm qlobal problemlərə, həm də sosial-ictimai məsələlərə diqqətin artırılmasını zərurətə çevirir. Bədii publisistikada isə daha çox ədəbi-mədəni mühitin, həm də birtərəfli qaydada, cari məsələləri ilə bağlı mövzulara müraciət edilir. Nuranə Nurun müsahibi Tofiq Məlik-linin dediyi kimi, mədəniyyət isə təkcə ədəbiyyat, kitab, kino, teatr deyil. Küçədə insanların davranışı, kişinin qadına olan münasibəti də mədəniyyətdir. Toplumun inkişaf yolu, insanların təbəqələşməsinin qarşısını alan qüvvədir mədəniyyət. Geniş anlamda cəmiyyəti idarə edən ən gözəl sistemdir.[1] Yazıçı publisistikasının missiyasına bu geniş-

[1] Bax: “Ədəbiyyat qəzeti”, 2018-ci il, 3 noyabr.

likdən baxsaq, istər mövzu-problem, istərsə də ideya-mündəricə etibarilə zənginləşmə ehtiyacını etiraf etməli olarıq. Yalnız bu ehtiyacın ödəniləcəyi zaman publisistika-da həyatla sıx bağlılıq, aktuallıq, fikir müxtəlifliyi, polemi-ka kimi zəruri tələblər də ödənmiş olardı.

Və son qeydimiz: əvvəllər hansısa mətbuat orqanında dərc edilmiş materialı başqa bir mətbuat orqanı dərc et-məzdi. İndi eyni materialın iki, hətta üç yerdə dərc olun-ması hallarını müşahidə edirik. Şübhəsiz, bu təcrübə mate-rialı daha geniş oxucu kütlələrinə çatdırmaq niyyətindən irəli gəlir. Ancaq hesab edirik ki, diqqətli oxucu həmişə uğurlu yazının sorağındadır, yetər ki, həqiqətən yeni yara-dıcılıq nailiyyətləri əldə edilsin.

Gülbəniz BABAYEVA
Filologiya üzrə fəlsəfə doktoru

ÇAĞDAŞ SATİRADA "MOLLA NƏSRƏDDİN" ƏNƏNƏLƏRİ

Satiranı yaradan, formalaşdıran və inkişafına münbit şərait yaradan cəmiyyətdir. Buna görə də satira ictimai hadisədir. Onun əsas məramı oxucunu güldürmək deyil, düşündürmək və nəticə çıxarmaqdır. Satira çoxçalarlığına, ifadə formasına görə böyük inkişaf yolu keçsə də, onun əsas hədəfləri, məqsədi və məramı o qədər də deformasiyaya uğramır, öz orijinallığını və poetik struktur əlamətlərini qoruyub saxlaya bilir. Satirik sənətkarlar tənqid obyektinə çevrilmiş bir hadisəyə və yaxud mənfi personajlara gülərkən alt qatda gizlənmiş səbəbləri görüb duymağı, hədəf seçməyi bacardığı zaman istədiyinə nail ola bilər.

Satiraya ayrı-ayrı tədqiqatçıların yanaşma tərzi müxtəlifdir. Conatan Sviftin təbirincə desək, satira elə bir güzgüdür ki, orada hər kəs özündən başqa hər kəsi görə bilir. Buna görə də prototiplər özlərini tənqid hədəfləri yerində görmürlər. Əgər D.P.Nikolayev satiranın çatışmazlığını onun "gülməli" olmaması faktı ilə bağlayırsa, Y.Borev isə göstərir ki, tənqid elə emosional həddə çatmalıdır ki, "müəllifin qəzəb və nifrəti gülüşünü pərdələyə bilsin". N.Çernışevski məsələyə fərqli bir aspektdən yanaşaraq satiranı elə bir zirvədə, son həddə görür ki, oxucu qəlbini bütünlüklə lərzəyə salaraq "titrətmək" gücünə malik olsun. Bütövlükdə bu fikirləri təhlil süzgəcindən keçirdikdə belə nəticəyə gəlməyə əsas verir ki, satirada yersiz, boş və

məntiqsiz gülüş deyil, dərin fikir və məna yükü, düşündürmə və nəticə çıxarma gücü aparıcı olmalıdır. Bu gülüş satirik sənətkarın məqsəd və məramını gizlədib pərdələməyə deyil, onun təsir dairəsinin daha da kəsərli və əhəmiyyətli olmasına təkan verən, stimul yaradan bir gülüş olmalıdır. Satiradakı gülüş estetik mahiyyətindən, funksiyasından uzaqlaşaraq tənqid hədəfi seçdiyi mənfi personaja qarşı işlədilən kəsərli bir silaha, neştərə çevrilməlidir. Satira yaradıcısının gücü, qüdrəti bu neştərləri ən dərin qatlara qədər endirməyə müvəffəq olmasındadır. Əsl sənətkarlıq ilk baxışdan hamının görə biləcəyi nöqsanları deyil, daha böyük mətləbləri, taleyüklü məsələləri, alt qatda gizlənmiş neqativ halları görüb, duyub dərk edərək orijinal və diqqətçəkən bir tərzdə oxucuya çatdırmaqdadır. Buna görə də N.V.Qoqol haqlı olaraq deyirdi ki, "hər kəs tərəfindən gülüşə məruz qalana gülmək lazımdır". Məhz dünya ədəbiyyatında özünə yer alan bu prinsip və tələblər Azərbaycan ədəbi-bədii fikrində də qərarlaşmışdır. Akademik İsa Həbibbəyli satiranın spesifik xüsusiyyətlərini göz önünə çəkərək yazır: "Satira inkaredici, ifşaedici, islahedici xarakterə malik olan janrlar qrupunu özündə cəmləşdirən ədəbi növdür"[1].

Azərbaycan satirik ədəbiyyatının özülü neçə əsr bundan əvvəl yaradılmış möhtəşəm dayaqlar üzərində bərqərar olmuş, XX əsrin əvvəllərində fəaliyyətə başlayan "Molla Nəsrəddin" jurnalında özünün zirvə nöqtəsinə yüksəlmiş, böyük bir satirik ədəbi məktəbin əsasını qoy-

[1] İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, "Nurlan", 2007, 696 səh.

muş və formalaşdırmışdır. Jurnalın ətrafında təmərküzləşən mollanəsrəddinçilər – Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əliqulu Qəmküsar, Əbdürrəhman Haqverdiyev, Əli Nəzmi, Əli Razi kimi ədəbi qüvvələr xalqın dərdini özününküləşdirməklə ictimai-siyasi, sosial, ədəbi-mədəni problemləri qloballaşdıraraq ümumbəşəri səviyyəyə yüksəldə bilmişlər.

Azərbaycan satirik ədəbiyyatının sonrakı inkişafında "Molla Nəsrəddin" ənənələrinin uğurla davam etdirilməsi jurnalın yaratdığı orijinal üslub, qeyri-adi ifadə tərzi, kəskin satirik ittiham, lakoniklik, dərin məna yükü və böyük ideyaların, bəşəri dəyərlərin sadə və anlaşıqlı bir tərzdə xalqa çatdırılması ilə bağlıdır.

Doğrudan da, əsrlərcə cəmiyyətdə kök salmış problemlərin aradan qaldırılmasında satiranın müstəsna rolu vardır. Məhz bu problemlərin çözülməsi çağdaş dövrdə də satiranın zəruriliyini gündəmə gətirir. Bir həqiqəti də inkar etməz olmaz ki, zəmanənin satiraya ehtiyacı duyulsa da, hazırkı mərhələdə satirik əsərlər çox yazılmır və yaxud da yazılır, ancaq mətbuat orqanlarında lazımınca yer ala bilmir. Bununla belə, demək olmaz ki, çağdaş ədəbiyyatımızda satira yoxdur. Əlbəttə, xeyli sayda var və bu, özünü ayrı-ayrı şair və yazıçıların dərc edilmiş əsərlərinin xronikasında da göstərir. Satiraya maraq və daxili tələbat, "Molla Nəsrəddin" ənənələrinin uğurla davam etdirilməsi müstəqillik illərində çap olunmuş kitablarda da əksini tapmışdır. Xeyrəddin Qocanın "Bu da belə həyatdır..." (2008), "Biz bizə bənzərik" (2010), "Xeyrəddin Qocanın gülüşü" (2015), Baba Pünhanın "Acı həqiqət", "Yalan çeynəyə-çeynəyə", "Mən nə dedim ki?!" (2002), Polad Qasımovun

“Narıncı köynək” (2009), “Kreslo günahı” (2015), Əvəz Qurbanlının “Məzardan səngərə” (2015), Elşad Xaqanın “Nigarançılıq” (2018) kitablarını satiranın inkişafında yeni bir addım kimi dəyərləndirmək olar.

Polad Qasımovun “Təmizlik dərsi”, “Pul iyi”, “Tapıntı”, “Maşallah olsun”, “Prokurora cavab” kimi satirik hekayə və felyetonlarında “Molla Nəsrəddin”ə məxsus ideya və məzmun zənginliyi, lakonik ifadə tərzi, üslub və janr rəngarəngliyi, canlı xalq dilindən, folklordan bəhrələnmə önəmli yer tutur.

Hər sözündə Vətən deyir, amma kasıb malı yeyir − deyən Polad Qasımovun satirik poeziyasında Sabir satiralarının ruhu duyulur.

“Ədəbiyyat” qəzetində yazıçı Anarın “Bir güllə bahar olmaz (2016, 5 noyabr), “Qərib Mehdinin “Rentabelli toy” (2018, 12 noyabr), Səxavət Tağların “Söyüş hesabına qazanc” (2018, 20 yanvar), Əyyub Qiyasın “Nə satırlar” (2018, 21 aprel) və başqa hekayələri satirik səpkidə qələmə alınmışdır.

Yazıçı Anarın “Əməkdaşımız Razı Narazıoğlunun patriarx korifey Mənəm Mənəmovla söhbəti” epiqrafı ilə qələmə aldığı “Bir güllə bahar olmaz” hekayəsində xalqın əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərimizə, klassik sənətkarların yaradıcılığına və ölməz irsinə yabançı münasibət satirik bir dillə tənqid obyektinə çevrilir. Dialoq şəklində qurulan hekayədə əsərin mənfi personajı Mənəm Mənəmov özündən razı, heç kəsi bəyənməyən, klassik irsə, böyük söz sahiblərinə qiymət verməyən, yad təmayüllərə meyil edən, kökdən uzaqlaşmış, yanlış düşüncəli bir tipdir. O, Nizami, Füzuli, Vaqif, Sabir, Mirzə Cəlil kimi

qüdrətli sənətkarlara, mənəvi abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanına qarşı çıxır və müxtəlif arqumentlər gətirməklə onların xalqımızın tarixindəki rolunu kiçiltməyə və inkar etməyə çalışır.

Mənəm Mənəmov deyir: "Kimdi Nizami? Şahlara mədhiyyə yazıb ənam alan saray şairi. Hər poemasının əvvəlində bir şaha tərif yazıb... Füzuli "Leyli və Məcnun" yazıb ha, Şekspirin "Romeo və Cülyettasından plagiatdır.

- Axı Şekspirdən əvvəl "Leyli və Məcnun"u Nizami yazıb.

- Ay sağ ol, deməli Füzuli süjeti Şekspirdən, qəhrəmanlarının adlarını isə Nizamidən çırpışdırıb. Axı elə Nizaminin özü də bütün əsərlərini ondan-bundan götürüb... Kimdir Vaqif? Şairliyini xana xidmətə dəyişən saray məmuru... "Harda müsəlman görürəm qorxuram" – deyən Sabir kommunist təbliğatçısı deyilmi? Ya mömin müsəlman Usta Zeynalı rüsvay edib ermənininayağına verən Cəlil Məmmədquluzadə? Mirzə Fətəli də, Zərdabi də, Sabir də, Mirzə Cəlil də – hamısı can-başla sovet siyasətinə xidmət ediblər".

Yazıçı son dövrlərdə əsasən, gənclər arasında yayılan bu mənfi tendensiyanı satirik qələmlə ifşa edir və belə düşüncəyə malik insanların düzgün yolda olmadıqlarını açıb göstərməyə müvəffəq olur.

Əlbəttə, satirik nəsrimizdə bu cür əsərlərin yaranması zəruri bir tələbatdan, cəmiyyətdə az da olsa, düşüncələrdə, fikirlərdə xaotika, çaşbaşlıq salan, xarici təsirlərə meyiletmə tendensiyası formalaşdırmağa çalışan qüvvələrə yazıçının tutarlı və sanballı cavabıdır. Belə əsərlərin yazılması öz soykökündən uzaqlaşmağa meyil edən insanlar üçün bir

ibrət dərsidir.

Sərvaz Hüseynoğlu "Bir güllə bahar olmaz" hekayəsinə münasibətini "Xalq yazıçısı Anara açıq məktub"da bildirmiş və bu cür Mənəm Mənəmovların sayının çoxaldığını, hətta televiziya kanallarında yer aldıqlarını göstərmişdir ("Ədəbiyyat qəzeti, 2016, 12 noyabr).

Qərib Mehdinin "Rentabelli toy" hekayəsində isə toyu gəlir mənbəyinə çevirən tamahkar insanlar tənqidə məruz qalır. Səxavət Tağların "Söyüş hesabına qazanc" satirik hekayəsində ermənilərin Qarabağın işğalından əvvəl azərbaycanlıların evlərində işləməsindən, tamahkarlıqlarından, hər cür təhqirlərə dözərək öz məqsədlərini həyata keçirməyə cəhd göstərmələrindən söhbət açılır.

Vüqar Əhmədin "Plyus bədii yaradıcılıq" ədəbi almanaxında (2018) dərc edilən "Təzə zibil" və "Aktyorun dəfni" hekayələri də satirik üslubda qələmə alınmışdır. "Təzə zibil" hekayəsində iki fərqli obraz-ata və oğul bir-birilə qarşılaşdırılır. Xanbala taleyin həyatın dibinə enməyə məhkum etdiyi kasıb, yoxsul, yaşayışını zibillikdən tapdığı əşyaları satmaqla dolanan, eyni zamanda məhdud dünyagörüşlü, savadsız bir obraz kimi təqdim olunur. Oğlu Orxan isə oxuduğu texniki peşə məktəbində təhsilini yarımçıq qoyan və bundan peşmançılıq hissi keçirən zavallı bir gəncdir. O, atasına xoşu gəlmədiyi bu işdə kömək edir. Lakin bir təsadüf nəticəsində keçmiş müəllim və sinif yoldaşları ilə zibillikdə rastlaşması onun həyatının ən dəhşətli səhnəsi kimi təsvir edilir. Rza müəllimin və dostlarının orada olmasına məhəl qoymayan Xanbalanın "Adə, Orxan, bura gəl, təzə zibil, təzə zibil" sözləri Orxanı alçaldır, mənən məhv edir. Xəcalət çəkən Orxanın hıçqırıqları müəlli-

mində və sinif yoldaşlarında acı təəssüf hissi doğurur və oradan uzaqlaşırlar. Çıxılmaz situasiya ilə üzləşən oğulla zibillikdə əşya axtarışında olan atanın qarşılaşdırılması cəmiyyətdəki təzadlı məqamları, iqtisadi, sosial problemlərin mövcudluğunu, maddi sıxıntıları göstərən real, acınacaqlı səhnələrdir.

Yazıçı yüksək sarkazmla hələ də bu cür həyat tərzi keçirən insanların faciəli taleyini lakonik, yığcam satirik hekayədə ustalıqla aça bilmişdir. O göstərmişdir ki, kimisinə xoşbəxt, firavan bir həyat vəd edən cəmiyyət kimisinə də ölümdən betər cəhənnəm əzabı yaşadır.

Hekayə təsirli bir sonluqla bitir: "Gecə yarısı Orxanın anası rayon mərkəzindən təcili yardım çağırmalı oldu. Orxanın halı pis idi. Qırx dərəcə qızdırma içində "- Mən zibil yığmıram, mən zibil yığmıram" – deyə sayıqlayırdı. Xanbala isə halsız dilləndi – "ax, təzə zibil, təzə zibil..."

Hekayədə Mirzə Cəlil və Əbdürrəhman bəy Haqverdiyev nəsri üçün xarakterik olan dil və ifadə tərzi, assosiativ üslub və sonluq yazıçının mollanəsrəddinçilərin satirik bədii nəsrindən təsirləndiyini təsdiqləyir.

Ələmdar Cabbarlının 2018-ci ildə "Mütərcim" nəşriyyatında çapdan çıxan "Qızıl" adlı povest və hekayələr kitabında toplanmış "Mirzə əfsanəsi", "Zurnaçı", "Ağsaqqal", "Möhbalının tərcüməçiliyi", "Qol" və s. hekayələrində çağdaş dövrün ictimai-siyasi bəlaları, rüşvətxorluq, bürokratiya, özündən razılıq, süründürməçilik kimi mənfi hallar tənqidə məruz qalır.

Yazıçının "Zurnaçı" hekayəsinin qəhrəmanı Möhübbət müəllim min bir əziyyətlə oxuyub təhsil almış, institutu qırmızı diplomla bitirmiş zəhmətkeş bir ziyalıdır. Buna

baxmayaraq, bütün ömrünü yoxsulluq və səfalət içərisində keçirən bu fədakar insan "iyirmi ildə cəmi iki kostyum dəyişmişdir". Nazirlikdə kiçik vəzifə tutduğundan aldığı cüzi maaşla dolana bilmir. İyirmi il nazirliyə ayaq döyən Möhübbət müəllim hər dəfə nazirin ona yüksək vəzifə verəcəyi vədi ilə aldadılır. Lakin savadsız və bacarıqsız adamlar nazirlikdə yüksək vəzifə tutur, Möhübbət müəllim isə yenə biganəliyin qurbanı olur.

Yazıçı hekayədə Möhübbət müəllimin ticarətlə məşğul olan qardaşı Muradxanın zəngin ev, bağ, maşın sahibi olduğunu müqayisələr əsasında oxucunun nəzərində canlandırır. Bununla da cəmiyyətdə ticarətçi ilə ziyalının yaşam tərzi arasındakı qeyri-mütənasibliyi, təzadlı məqamları diqqət mərkəzində saxlamaqla satirik situasiyanı təbii və inandırıcı verməyə müvəffəq olur. Hekayənin finalı oxucunu dərindən düşündürən maraqlı və ibrətamiz sonluqla tamamlanır. Sonuncu üç manatını taksiyə verib vəzifə havası ilə nazirin çağırışına gedən Möhübbət müəllim qəribə "sürpriz"lə qarşılaşır. Nazir ondan yaxşı zurnaçı istəyir ki, oğlunun toyunda çalsın. Hekayəyə "Zurnaçı" adının verilməsi müəllifin bədii tapıntısıdır. Bu ad C.Məmmədquluzadə yaradıcılığında rast gəldiyimiz "Danabaş", "İtqapanlı" adları kimi simvolik məna daşıyır. Artıq oxucuda belə bir qənaət hasil olur ki, nazir heç vaxt Möhübbət müəllimə iş verməyəcək.

Yazıçı cəmiyyətdə hökm sürən haqsızlığa, ədalətsizliyə, bürokratik əngəllərə, insanı uçuruma yuvarladan bütün mənfiliklərə etirazını hekayədə yüksək sənətkarlıqla əks etdirmişdir.

"Ədəbiyyat qəzeti"ndə satirik şeirlər də dərc edilib.

Şair Arif Abdullazadə vaxtilə C.Məmmədquluzadənin yaradıcılığına müraciət edərək yazıçının satirik "qəhrəmanlar"ının silsilə obrazlarını yaratmışdır. "Novruzəli", "Qurbanəli bəy", "Usta Zeynal", "Şeyx Nəsrullah", "İskəndər", "Hacı Həsən ağa", "Molla Abbas" (2018, 9 noyabr) şeirlərində şair obrazların daxili aləmini açmağa, onlara fərqli aspektdən yanaşmağa müvəffəq olmuşdur. Qəzetdə digər müəllifin – Ağasəfanın "Bəsdir" şeirində (2018, 17 mart) Qarabağ problemini həll etməyə qadir olmayan "üçlüyün" seyirçi və ermənipərəst mövqeyi tənqid olunur:

Bəsdir! Bezdirdi bizi
Bu "üçlüyün" gopları.
Bizi! Bizi gözləyir
Laçının, Xankəndinin,
Şuşanın qapıları.

Şeirdə şairin nifrəti, qəzəbi, üsyankarlığı açıq-aydın görünür.

Xosrov Hatilin "İlbizlər daraşıb zeytun bağına" (2018, 22 sentyabr) şeirində isə Azərbaycanın var-dövlətini, sərvətini talayanlar ilbizlər şəklində simvollaşdırılır:

Darışıb canına, qanına kimi,
Ağacın yamyaşıl zoğuna kimi,
Ən zərif şah budağına kimi
İlbizlər darışıb zeytun bağına.

Şeir ictimai eyibləri, dövrün sosial problemlərini, xalqın maddi və mənəvi sərvətlərini talamaq baxımından

C.Məmmədquluzadənin "Mikroblar" felyetonu ilə yaxından səsləşir: "Qərinələrlə millətimizin şirin canına milyonlarca ac mikrob daraşıb, qanını sormaqdadır. Məhz bu həşəratdır, milləti xəstə edən, məhz bu mikroblardır onu bədnam edən!" ("Molla Nəsrəddin", 1908, №9).

Çağdaş satirada M.Ə.Sabir ənələrinin davamçısı Əvəz Qurbanlının da xüsusi yeri var. Onun "Yeni müsavat"da dərc edilmiş "Nazir", "Qalenvagendə" satiralarının əsas tənqid hədəfləri nazirlər və nazir övladlarıdır:

Nazirliyə qırx il sürünüb təngə gələn var,
Bir posta görə dostu ilə cəngə gələn var.
Nazir yerinə çox da ki "bir zəngə" gələn var,
Bəzən də olur, post itirir bir sözə nazir.
Öz səhvinin ardınca gedər gəlməzə, nazir!

Mükalimə əsasında qurulan "Vəssalam, şüttamam" satirasında ("Mediafax.az") dövrün ictimai mənzərəsi yaradılmış, cəmiyyətdəki sosial ədalətsizliklər, haqsızlıqlar iki şəxsin dialoqu əsasında oxuculara çatdırılmışdır.

Elşad Xaqanın "Nigarançılıq" kitabında şairin lirik şeirləri ilə yanaşı "Ərköyün oğlum", "Tərəqqi", "Nigarançılıq" adlı bəhri-təvilləri də yer almışdır. Sabirin "Ol gün ki sənə xaliq edər lütf bir övlad", "Ata nəsihəti", "Uşaqdır", "Bəxtəvər", "Olmur olmasın" satiraları ilə mövzu və ideya həmahəngliyi yaradan "Ərköyün oğlum" bəhri-təvilində satirik ittiham sarkazma yüksəlmişdir.

Şairin "Yuxu", "Bizə nə?!", "Dəyişibdir", "Mənə nə?", "Molla əmi", "Əsgər bala", "Qorxuram, ay Allah...", "Polis", "Danlaq", "Dillənmə! Danışma!", "Lal olum?!, "Qib-

ləsi tərs erməni”, “Nəsihəti-filankəs”, “Dədəmindir”, “Vur, bala, vur!”, “Səbr elə”, “Fəhlələr” və başqa şeirlərinin əksəriyyəti Sabir satiralarına parodiyalar şəklində qələmə alınmışdır. Şairin satiralarının əsas leytmotivini dövrün ağrılı problemləri – milli kimlik, mənəvi-əxlaqi dəyərlərin itirilməsi, sosial qayğıların artması, mənsəbpərəstlik, biganəlik kimi neqativ halların ifşası təşkil edir.

“Batabatdır, qırılır Azərbaycan, mənə nə?!
Kimdəsə yoxdu çörək almağa imkan, mənə nə?!

– deyən Qafar Şövqinin yaradıcılığında mollanəsrəddinçi şair Əli Nəzmi satiralarının təsiri duyulmaqdadır. Şairin “Gülənlərdənik”, Əli Nəzminin “Məsləhət” şeirinə nəzirə şəklində qələmə aldığı “Yazım-yazmayım? satiralarında yaltaqlıq, ikiüzlülük, tamahkarlıq, sadə, zəhmət adamlarının maddi çətinliklər içərisində keçən acınacaqlı həyat tərzi satirik bir dillə izhar edilir.

Ayrı-ayrı şair və yazıçıları bir araya toplayacaq əsas satirik mətbuat orqanı “Kirpi TV”dir. Bununla belə az da olsa, müxtəlif mətbuat orqanlarında, saytlarda əsərlərini çap etdirən müəlliflər də vardır. 1952-ci ildən fəaliyyətə başlayan “Kirpi” satirik jurnalı cəmiyyətin bütün sahələrində hökm sürən neqativ hallara qarşı mübarizə aparmış, hətta respublika rəhbərliyi jurnalda dərc olunmuş felyetonlara, tənqidi yazılara ciddi önəm vermiş və cavabdeh şəxslər cəzalandırılmışlar. “Kirpi” jurnalı bu istiqamətdə uzun müddət böyük işlər görmüş və 2018-ci ildən “Kirpi TV” adı ilə yayımlanmağa başlamış və on sayı işıq üzü görmüşdür. Jurnal öz proqramını, yaradıcılıq manifestini açıq-

layaraq yazır: “Müstəqil Azərbaycanımızın aydın sabahlara doğru siyasi, iqtisadi, sosial, mədəni və mənəvi inkişafında yolumuza əngəl, hərəkətimizə mane olanlara, dövlətin və millətin sərvətini talayan, xalqı min dərdə calayan oğrulara, tülüngülərə, yalançılara, talançılara, rüşvətxorlara, korrupsionerlərə, ədaləti pozub, həqiqəti gizlədənlərə, doğrunu əyri yazanlara və sair ünsürlərə qarşı ədalətli mübarizədə sağlam ruh, saf vicdan, iti qələm və qərəzdən, böhtandan uzaq yaradıcılıq fəaliyyəti arzulayırıq. Addımın daha qəti, tikanların daha iti olsun”. (“Kirpi TV”, №2, səh.11).

“Kirpi TV” jurnalı “Molla Nəsrəddin” ənənələrinə sadiq qalaraq satirik poeziya, satirik publisistika, karikatura janrlarında maraqlı nümunələr dərc edir. “El-oba deyimləri”, “Elin sözü, sözün düzü”, “Yaddaşlarda yaşayan əhvalatlardan”, “Eşitdiklərimiz və gördüklərimiz” və s. rubrikalar altında müxtəlif məzmunlu yazılarda cəmiyyətdə kök salmış ciddi problemləri satirik tərzdə oxuculara çatdırır. “Molla Nəsrəddin”də olduğu kimi, bu satirik jurnalda da “Kirpi TV”nin poçtundan”, “Redaksiyanın poçtundan” və “Kirpi TV”nin “Elan”ı rubrikaları fəaliyyət göstərir.

Jurnal vaxtaşırı öz səhifələrində “Molla Nəsrəddin”dən nümunələr dərc edir və jurnalın nəşri tarixini hörmətlə yad edir. “Molla Nəsrəddin”in doğum günü” adlı yazıda deyilir: “1906-cı ilin 7 aprelində, o dövr üçün Qafqazda ən böyük mədəniyyət və rus imperiyasının mərkəzi olan Tiflis şəhərində hər nidası ağrılarla dolu olan acı bir gülüş, iztehzalı qəhqəhənin səsi-sədası bircə anda dövrü-zamanın tələtümlərində hələ də mürgü vuran müsəlman Şərqini və türk dünyasını silkələyib oyatdı. Bu, adi gülüş deyildi. O

zaman elmə, mədəniyyətə, tərəqqiyə və milli dirçəlişə hər vəchlə mane olan, cəhalətə, səfalətə, nadanlığa, gerizəkalılığa qarşı hayqıran məşhur "Molla Nəsrəddin" satirik jurnalının acı qəhqəhəsi idi" ("Kirpi TV", №3, səh.3). Hətta yazıda ilin bir gününü "Molla Nəsrəddin"ə həsr edib gülüş günü kimi qeyd olunması təşəbbüsü irəli sürülür.

Jurnal bu önəmli məsələdən sonra "Molla Nəsrəddin"in ilk nömrəsində dərc edilən "Sizi deyib gəlmişəm..." adlı proqram məqaləsini və "Dilin bəlası" felyetonunu oxuculara ərməğan edir.

"Kirpi TV" də "Molla Nəsrəddin" jurnalında olduğu kimi, həm daimi yazarlar, həm də bölgə müxbirləri fəaliyyət göstərir. Jurnalın satirik poeziya qolu dövrün nəbzini tutur, cəmiyyətdəki neqativ halları – vəzifəpərəstlik, rüşvətxorluq, yerlibazlıq, qohumbazlıq, süründürməçilik, bürokratizm, özbaşınalıq, talançılıq, oğurluq, biganəlik və s. kimi halları kəskin tənqid hədəfinə çevirir, oxucuları mövcud situasiya ilə tanış edərək onları da mübarizəyə səsləyir. Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əli Razi, Bayraməli Abbaszadə, Mirzə Əli Möcüz yolunu davam etdirən satirik şairlərin zəmanənin uçuruma yuvarlatdığı, yoxsulluq və haqsızlıq məngənəsində boğulan zavallı insanlara səslənişi bütövlükdə bəşəriyyətin zülm və istibdaddan əziyyət çəkən bütün insanlarına ünvanlanan üsyanı və harayı təsirini bağışlayır. Jurnalda Məmməd Əfşanın, Musa Qənbərlinin, Firdovsi Aslanın, Qafar Süleymanın və başqa şairlərin satirik şeirləri yer almışdır. "Kirpi TV"nin redaktoru, təcrübəli şair, publisist və yazıçı Məmməd Əfşanın "Dədəm", "Ağlama balam, ağlama", "Sənə nə?", "Aman-aman..." şeirlərində rüşvətxorluqla haram pul yığıb xalqın malını mə-

nimsəyənlərdən, ağır sosial problemlərlə üz-üzə qalan yoxsul insanların həyatından, bayağı mahnılarla xalqın zövqünü korlayan şou əhlinin səhnəni, ekranları zəbt etməsindən və s. kimi sosial, mədəni, məişət məsələlərindən, ictimai bəlalardan bəhs edilir.

Şair "Dədəm" (№1) şeirində Sabir yaradıcılığından ustalıqla bəhrələnərək ata-oğul münasibətlərindəki ziddiyyətləri, antitezalığı satirik bir dillə ifşa edir. İronik tərzdə atasına xitabən "Vuran qoldur, yazan əldir, Əsl Rüstəm Zaldı dədəm", – deyən oğul onun iç üzünü açaraq oxucuya tanıtdırır:

Olubdu bəxti uğurlu,
Qəlbi boşdu, cibi dolu,
Rüşvətlə yığıb pulu
Verdi, rəis oldu, dədəm.

Məmməd Əfşanın "Ağlama balam, ağlama" (№2) şeiri isə atanın oğluna müraciəti şəklində qələmə alınmışdır. Buradakı ata obrazı "Dədəm" şeirindəki ata obrazının tamamilə əksinə olan kasıb, yoxsul, bir parça çörək üçün göz yaşı tökən övladına təsəlli verən fəqir, kimsəsiz bir insandır. Səfalət girdabında boğulan atanın yeganə ümidi çörək üçün göz yaşları axıdan övladına təsəllidən başqa bir şey deyildir:

Ağlayır balam bayaqdan,
Düşmüşəm əldən-ayaqdan,
Kaş ki, sökülaydi bu dan.
Axtaraydım künc-bucağı,
Ovudaydım ac uşağı.

Övladını ovuda bilməyən atanın dövrdən, zəmanədən gileyi, ümidverici sabahların açılmaması ən kəskin ittiham kimi səslənir. Paradoksallıq aydın görünür, bir tərəfdə pulunun, var-dövlətinin, ağ saraylarının hesabını itirənlər, digər tərəfdən gecədən sübhədək bir parça çörək üçün göz yaşı tökən körpənin ürək parçalayan fəryadı. Bütün bunlar eyni məkanda, eyni cəmiyyətdə baş verir və təzad yaradır.

Şair bu cür bədbəxt tale yaşayanların bir deyil, milyon-milyon olduğunu göstərərək dövrün sosial bəlalarını, maddi çətinliklərini, insanların acınacaqlı yaşam tərzini satirik misralarda açıb göstərir:

Kasıba gen dünya dardı,
Zamanın da gözü kordu.
Bizim kimi hələ vardı,
Milyon-milyon ac-yalavac.

Məmməd Əfşanın "Sənə nə?" (№3) satirası da "Dədəm" şeiri ilə mövzu və ideya baxımından həmahənglik yaradır. Şair jarqonlardan istifadə yolu ilə yüksək vəzifə sahibinin qarşısındakılara yuxarıdan-aşağıya, həqarətlə baxmasını mənfi tipin öz danışıq aktı vasitəsilə ittiham edir. Çatdığı mənsəblə qürur duyan, insanları təhqir etməkdən zövq alan biganə məmurun prototipi zəmanənin real obrazı kimi təqdim olunur. Şair Sabirsayağı mənfi tipin öz dili ilə özünü ifşa üsulunu seçərək satirik boyaları daha da tündləşdirir və oxucunun nifrətli, qəzəbli baxışları ilə üz-üzə qoyur:

Rahat kürsü, yağlı peşə, çoxlu pul,
Bu zirvəyə qalxa bilməz hər oğul.

Eyləmişəm çoxlarını kölə-qul,
Özüm isə xanam-bəyəm, sənə nə?

Şair bədii, ritorik suallar vasitəsilə satiranın təsir gücünü daha da artırmış və oxucunun diqqətini harınlaşmış, yüksəldiyi kürsüdə özünü "sahibi-ixtiyar" sayan, insanları öz quluna çevirən antipodun real cizgilərini rəsm edə bilmişdir. Beləliklə, dövrün tipik obrazını öz "qəhrəmanının" timsalında oxucuya tanıtdırmağa müvəffəq olmuşdur.

"Kirpi TV" "Molla Nəsrəddin" ənənələrinin üslub və ifadə tərzinin özünəməxsusluğunu yaşadan digər satirik şairlərin əsərlərinə də geniş yer vermişdir. Musa Qənbərlinin "Pensiya"(№1) şeirində də insanların sosial problemlərindən, gündəlik qayğılarından, ağır yaşam tərzindən bəhs edilir. Satira konkret faktlara söykənir. Cavabdeh qurum və şəxsin adının çəkilməsi satiranın real gerçəkliyə əsaslandığını göstərir. Bu konkret faktlı satirada öz həmvətənlərinin taleyinə biganəlik, laqeydlik, "mən salim olum..." prinsipi ilə yanaşma tərzi ifşa obyektinə çevrilir.

Şeirdə insanları süründürməçiliklə get-gələ salanlar, bir çox ailələrdə insanların yeganə ümid yeri olan pensiyaların gecikdirilməsi, həyatın iflic vəziyyətə salınması satiranın əsas ifşa obyektinə çevrilir:

Dərd bürüyüb can-cəsədi, başı da,
Azuqə yox yola verək qışı da,
Son zamanlar artırıblar yaşı da,
Qismət olmur hər qocaya pensiya.

Məlumdur ki, "Molla Nəsrəddin" jurnalında elm, təhsil, məktəb məsələləri prioritet mövzulardan biri idi. Eyni

tendensiya çağdaş satirik poeziyada da geniş əksini tapır. Firdovsi Aslanın "Təftiş gəlib" (№3) satirası Sabir satiralarında istifadə olunan "Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!" satirasına parodiya şəklində qələmə alınıb.

"Molla Nəsrəddin"də elm, təhsil, məktəb məsələlərindən bəhs edən satiralarda sxolastik təlim üsulları, təlimin keyfiyyətsizliyi, mollaların şagirdlərə qarşı sərt cəza tədbirləri tənqid hədəfinə çevrilirsə, "Kirpi TV"də yer alan bu mövzulu satirik parçalarda isə məktəbə gəlir mənbəyi kimi baxan rüşvətxor təftişlər, müfəttişlər ifşa olunurlar:

Fikri-xəyalı pulda, gözləri əllərdədir,
Mat-mat baxma üzümə gətir görək hər nədir,
Bir ayağı Bakıda, o biri Dəllərdədir,
Bəxtəvər olsun başım, məktəbə təftiş gəlib,
Yoxlamağa hər nə var, təzə müfəttiş gəlib.

Satira özündə bir çox janrları ehtiva etdiyindən onda məzmun və ideya rəngarəngliyi ilə yanaşı, həm də forma zənginliyi də diqqəti cəlb edir. Bu baxımdan "Kirpi TV"də satirik publisistika fəal mövqe qazanır və bu janrın imkanları daha çox nəzərə çarpır. Satirik felyetonlar, satirik məqalələr, sual-cavab kimi formalarda yer alan yazılar dövrün ağrılı problemlərini, aktual məsələlərini gündəmə gətirir və cəmiyyətdə kök salmış mənfi halların ifşasına yönəldilmiş publisistik nümunələr kimi diqqəti cəlb edir. Müxtəlif janrlı bu yazılarda mövzu rəngarəngliyi, çoxplanlı və çoxçalarlı məsələlər müxtəlif aspektdən şərh edilərək oxucuların ixtiyarına verilir. Şübhəsiz ki, hər dövrün satirası içərisində olduğu müasir cəmiyyətdə gedən prosesləri

və reallıqları əks etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir, nəzərə çarpan aşınmaları, eybəcərlikləri, çatışmazlıqları əks etdirməyə, tənqid hədəfinə çevirməyə istiqamətləndirilir. Bu baxımdan "Molla Nəsrəddin"dən bir əsr sonra cəsarətlə fəaliyyət göstərən "Kirpi TV"də təbii ki, zəmanəsinin mətbuat orqanı kimi çıxış edərək çağdaş problemləri işıqlandırır və qloballaşdırır. Məhz buna görə də təqib və təhdidlərə məruz qalır. Jurnal Cəlil Məmmədquluzadənin "Niyə məni döyürsünüz?" felyetonuna parodiya şəklində dərc etdirdiyi eyniadlı yazıda haqqı, ədaləti üstün tutan, həqiqəti aşkar etdiyi üçün qara siyahıya salınaraq "reketçi" damğası vurulan qələm əhlinin dilindən söylənilir. "Nəvə Nəsrəddin" imzası ilə verilən felyetonda müəllif haramxorlar, müftəxorlar, "yaxşı işə yaman deyənlər" tərəfindən döyülüb, söyülməsinin səbəblərini açıqlayaraq yazır: "Hərdən o sayaq məmurların bəd əməllərinin, dövlətdən oğurladıqları, millətdən çırpışdırdıqları milyonların və milyardların üstünü açıb, paxırlarını üzə çıxardığıma görə? Çox nahaq. Mən istəyirəm ki, onların tutduqları sağalmaz oğurluq, əyrilik, alıb-aldatmaq, ucuz alıb, baha satmaq, yalan demək, yaltaqlıq etmək, qohumbazlıq, yerlibazlıq, sərvətbazlıq və nə bilim, nə bazlıq mərəzlərini sağaldım. Axı, onlar anlamırlar ki, tutulduqları bu ağır mərəzi sağaldan acı həblər, acı dərmanlar olur. Bəli, tənqid acı həbdir, bu acı dərmanı içmədən sağala bilməzlər bizim xəstə təxəyyüllü bəzi məmurlarımız"[1].

Jurnalda yer alan mövzular olduqca rəngarəngdir. İctimai-siyasi, ədəbi-mədəni, sosial, ekoloji, ailə-məişət prob-

[1] "Kirpi TV", 2018, №4, s.5.

lemləri satirik publisistikanın əsas tənqid hədəfinə çevrilmişdir. Bu publisistik nəsr nümunələrini mövzusuna və problematikasına görə aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. İctimai-siyasi və tarixi-etnoqrafik (Bala Nəsrəddin "Hansı millətik?", Məmməd Əfşan "Biz kimik?", "Gəlin özümüzü və izimizi qoruyaq", M.Hüseynoğlu "Bəy babamızın tövsiyəsi) motivlər.

2. Sosial problemlər (Məmməd Əfşan "Eşitdiklərimiz və gördüklərimiz", Sərhəd Məmmədov "Buna deyərlər milləti və dövləti aldatmaq", "Soyuducu anbar, yoxsa ticarət mərkəzi?", Ənvər Əliyev "Qaşını düzəltdiyi yerdə", Şahin Səmədli "Avropanın cənub sərgüzəştləri və ya bizim həkimlərin möcüzələri", Ənvər Əliyev "Heyif milyonlardan").

3. Elm və təhsil məsələləri (Tat Qüdrət "Modul məktəb və onun müəmmalı işləri", Firdovsi Aslan "Təftiş gəlib").

4. Ekoloji problemlər(Əli Elmanoğlu "Yaşıllıqların daha bir qənimi", Atəş "Gəlirik dənizə sarı, keçəmmirik hasarları") .

5. Rüşvətxorluq, oğurluq və əliəyrilik (Vəfa Qafarova "Müxalifətin görmədiyi inkişaf", Şahin Səmədli "VEMTAZ-ın oyunu və ya inanmayan daşa dönsün", Sərhəd Məmmədov "Qeyb olmuş sürülər") motivlər.

"Kirpi TV"də ilin aparıcı mövzularından biri də tarixi mövzuda qələmə alınmış felyetonlardır. "Hansı millətik?" (№2) felyetonunda Tiflisdə yaşayan bir azərbaycanlının öz soy-kökünü tanımaması, milliyyətini bilməməsi faktı satira atəşinə tutulur.

Felyetonun davamı jurnalın üçüncü sayında "Biz kimik?" başlığı altında dərc edilmişdir. Yazıçı Məmməd Əfşan göstərir ki, bir əcnəbinin 140 il öncə işlətdiyi "azərbaycanlı" kəlməsi o vaxtdan dil tariximizə daxil oldu. Yazıçı tariximizə ehtiyatla yanaşmağı, onu təhrif etməməyi ön plana çəkir. Bəzən "sapı özümüzdən olan balta"ların yanlış informasiyası düşmən dəyirmanına su tökür, qonşu dövlətlərin torpaq iddiasına yol açır. Ermənilər, gürcülər və qeyri millətlər azərbaycanlıları haradansa köçüb gəlmə xalq hesab edərək torpağımıza sahib çıxırlar. Müəllif təəssüflə göstərir ki, 480 min kvadrat kilometr qədim torpaqlardan cəmi 86 min kvadrat kilometr qalmışdır ki, onun da 20 faizini ermənilər zəbt etmişlər.

Yazıçı satirik bir dillə xalqımızın taleyində faciəli və acınacaqlı izlər qoyan, 1828-ci ildə Rusiya ilə İran arasında bağlanan Türkmənçay sülh müqaviləsindən söhbət açır.

Azərbaycan təbiətinin, onun maddi mənəvi sərvətlərinin qorunması kimi önəmli məsələlər də "Kirpi TV"-nin əsas hədəflərindəndir. Jurnal "Gəlirik dənizə sarı, Keçəmmirik hasarları" felyetonunda həm öz həmvətənlərimizin, həm də xarici turistlərin Xəzər dənizinə həsrət qalmasından bəhs edir.

Felyeton bu sözlərlə tamamlanır: "Görəsən, camaatımızın və çoxsaylı turistlərin bu nəğməsindən respublikamızın icra və hüquq-mühafizə orqanlarının xəbəri var, ya yox?..."[1]

Müəllif Mirzə Cəlil yaradıcılığına xas olan məzmun və ideya zənginliyindən, nəsr və nəzmin qovşağından ya-

[1] Atəş. "Kirpi TV", 2018, №4, s.9.

radılan sinkretik üslubdan istifadə yolu ilə "Molla Nəsrəddin" ənənəsindən yerli-yerində və ustalıqla yararlanmışdır.

Əli Elmanoğlunun "Yaşıllıqların daha bir qənimi" felyetonunda da ekoloji problemlər ön plana çəkilir. Bakı şəhərində 25-30 illik şam, çinar, qovaq, tut ağaclarının kəsilib, yerində reklam lövhələri quraşdırılması, işbazların yaşıllıqları məhv edib ağ saraylar ucaltması satirik bir dillə tənqidə məruz qalır.

"Kirpi TV"-nin "El-oba deyimləri" rubrikası forma, struktur və məzmun özəllikləri baxımından "Molla Nəsrəddin" jurnalındakı "Atalar sözləri", "Hikmətli sözlər" başlığı ilə dərc edilmiş parodiya və perifrazlara çox bənzərdir. Yığcam, lakonik, sərrast və mənalı satirik cümlələrdən ibarət olan "El-oba deyimləri"ndə dövrün sosial problemləri orijinal üslubda və satirik tərzdə təqdim edilir: "Pulun varsa, güclüsən, pulun yoxsa, suçlusan", "Pulun varsa, sayılırsan, pulun yoxsa, döyülürsən", "Oğru vicdanını pula, var-dövlətə satır, doğru vicdanını heç nəyə satmır", "Oğrunun Allahı olmur, doğrunun tamahı", "Varlılar yeyib-şellənir, kasıblar çörək dilənir", "Böyüklərin özləritək pensiyaları da böyükdür, kiçiklərin pensiyaları isə bir milçəyə yükdür", "Varlıya, pulluya "bəli" deyirlər, kasıba "dəli", "Varlı süfrənin başında, kasıb qapının dışında dayanır", "Varlının zülmü yoxsulun ölümü deməkdir".

"Kirpi TV"-nin 2018-ci il saylarında jurnalın fəaliyyətə başladığı ilk illərdə dərc olunmuş satirik poeziya nümunələrindən seçmələr də yer almışdır. "65 il əvvəl də var idi, indi də var..." qeydi ilə Səməd Vurğunun indi də aktuallığını qoruyub saxlayan "Belələri də var" (№4) satirik şeiri dərc edilib. Şeirdə şər işləri ilə qurub yaradan insanla-

ra ləkə yaxan antipodun satirik portreti yaradılıb. Bəd əməllərin daşıyıcısı olan bu cür tiplər cəmiyyətə mənəvi zərbələr vurmaqla bütövlükdə tərəqqiyə və inkişafa mane olurlar:

O aşkarda girər qına,
Qıfıl vurar öz ağzına,
Xəlvətdəsə ona-buna
Ləkə yaxar asta-asta.

Nə yaradar, nə də qurar,
Yaradana ağız burar,
Quyu qazıb, tələ qurar,
Ev də yıxar asta-asta.

Jurnalın həmin sayında Rəsul Rzanın "Küçələrə su səpmişəm" (№4) xalq mahnısına parodiya şəklində qələmə aldığı "Məişət nəğməsi" satirik şeiri də dərc edilmişdir. Şeirdə dövrün sosial problemləri satirik dil izhar olunur, insan yaşayışını təmin edəcək amillərin çatışmazlığı xalq mahnısının ironik harmoniyasında oxucuya təqdim edilir:

Evimə qaz, su çəkdilər,
Yenə kefim saz olmadı.
Yay gələndə su gəlmədi,
Qış olanda qaz olmadı.

Soruşuram yarın canı,
Suyum hanı, qazım hanı?

"Molla Nəsrəddin" karikatura məktəbinin görkəmli nümayəndələri Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi ustad rəssamların ənənələri "Kirpi TV"də uğurla davam etdirilir. Jurnalın rəssamı Hafiz Nəsiroğlunun mətnlərə uyğun və yaxud sərbəst şəkildə çəkdiyi karikaturalar öz ictimai-siyasi əhəmiyyətinə, mövzu rəngarəngliyinə və aktuallığına görə diqqəti cəlb edir. "Kirpi TV"də yer alan mətnlərdəki ideyalar, təlqin edilən fikirlər karikaturalara da sirayət edərək mətnlə rəssamlıq sənətinin harmoniyasını yaradır və ümumi məzmunun asan qavranılmasına stimul verir. Bununla da, satirik ədəbiyyat satirik qrafikanın, karikaturanın ideya mənbəyinə çevrilərək formalaşır və ümumi məram və məqsədin dərkinə xidmət edir.

"Kirpi TV"də dərc edilən satirik poeziya və satirik publisistika nümunələrini özündə ehtiva edən mətn ilə karikatura arasındakı əlaqəni aşağıdakı kimi təsnif etmək olar:

1. Jurnalda dərc edilən müxtəlif forma, məzmun və ideyaya malik olan konkret mətnlərin konkret rəsmlərə illüstrasiyalar vasitəsilə transfer olunması;

2. Mətnlərdə əksini tapan çoxsaylı, çoxqatlı problemlərin sərbəst rəsmlərdə, karikaturalarda inkişaf etdirilməsi.

"Kirpi TV"də dərc edilən karikaturaların xeyli hissəsi mətnlər əsasında çəkilib. Bu, onunla bağlıdır ki, əvvəlcə jurnalda dərc ediləcək mətnlər yazılır, sonra isə karikatura ustaları mətnə uyğun rəsmlər çəkirlər. Jurnalda "Xəstəxanalar təzə, vərdişlər köhnə", "Təlxəklər, mütrüblər" (2018, №1), "Hansı millətik?", "Müxalifətin görmədiyi inkişaf", "Soyuducu anbar, yoxsa ticarət mərkəzi?", "Qaşını düzəltdiyi yerdə...", "Dilim-dilim olasan, dilim", "Gəlin özümü-

zü və izimizi qoruyaq", "Ağlama balam, ağlama" (№2), "Gizli oyunlar, nırxsız bazarlar", "İlanın ağına da lənət, qarasına da" (№3), "Məişət nəğməsi" (№4), "Qarabağı indi dünyaya tanıdırsınız?", "Oğrudan oğruya halaldır" (№10) karikaturaları mətnlərin əsas məzmununun açılmasına, satirik ittihamların kəskinləşməsinə və hədəfə tuşlanan oxların sərrastlığına təminat yaradır və rəsmləri daha da effektli edir.

İkinci qrupa daxil olan karikaturaların əksəriyyəti jurnalın üz qabığında dərc edilmiş, lakin bununla belə ayrı-ayrı səhifələrdə də yer almışdır.

Karikaturaların əsas mövzusunu sosial problemlər təşkil etsə də, ictimai-siyasi və beynəlxalq aləmdə baş verən mühüm məsələlərə həsr olunmuş karikaturalar da diqqət mərkəzində saxlanılır.

Jurnalda Qarabağ probleminin düyünə düşməsi, illərlə uzanması ilə bağlı karikaturalar da prioritet mövzulardandır. Jurnalın həmin sayında üzərinə "Qarabağ problemi 1988" yazılmış və ağzına iri bir qıfıl vurulmuş qalın qovluq təsvir edilmişdir. Bu, hələ də Azərbaycan xalqının 30 ildir yolunu gözlədiyi Qarabağın dərdini əks etdirən acınacaqlı bir səhnədir. Eyni mövzuya jurnalın bir çox saylarında müraciət olunub. Üçüncü nömrənin üz qabığında sabiq Ermənistan prezidenti A.Sarkisyan dünyanın təsviri verilmiş qlobusu əlləri ilə köksünə sıxaraq "Dənizdən-dənizə bizimdir..." – deyir.

Jurnalın onuncu nömrəsində isə Krılovun məşhur "Balıq, ördək və xərçəng" təmsilindən bir fon kimi istifadə olunmuşdur. "Qarabağ problemi" yazılmış qovluq karikaturanın ortasında təsvir edilmişdir. Avropa Şurasını təmsil

edən ördək qovluğu havaya qaldırır, Amerika (xərçəng) öz tərəfinə çəkir, Rusiyanı simvolizə edən balıq isə qovluğu tamamilə əks istiqamətə yönəldərək özününküləşdirməyə cəhd göstərir. Rəssam Hafiz Nəsiroğlu bu taleyüklü problemin hegemon dövlətlərin əlində bir alətə, vasitəyə çevrildiyini və həmin qüvvələrin məsələnin guya onların əli ilə həllini tapacağını satirik karikaturalar vasitəsilə əks etdirmişdir.

Bütün bunlar "Kirpi TV"də "Molla Nəsrəddin" karikatura məktəbinin uğurla davam etdirildiyini göstərir.

2018-ci ildə dərc edilmiş satirik əsərlərin işlənmə dairəsini aşağıdakı kimi təsnif etmək olar:

1. Nəzərdən keçirilmiş satirik ədəbiyyatda poeziya nümunələri bütövlükdə dövrün qlobal problemlərini, cəmiyyətdə baş verən ictimai-siyasi, sosial, mənəvi məsələləri əks etdirmək baxımından aparıcıdır.

2. Satirik nəsr- hekayə, lətifə, qafiyəli nəsr əsəri (bəhri-təvil) poeziyaya nisbətən ikinci plandadır. Lakin bununla belə, "Kirpi TV"də dərc edilən publisistik yazılar çoxluq təşkil edir.

3. Dramatik növdə yazılmış əsərlərə isə təəssüf ki, əvvəlki illərdən fərqli olaraq rast gəlinmir. Bu sahədə durğunluq hiss olunur. Cəlil Məmmədquluzadə və bütövlükdə "Molla Nəsrəddin" ənənələrinin bu istiqamətdə inkişafı ötən illəri nəzərə almasaq, yox dərəcəsindədir.

Ümumiyyətlə, bütün bunların yekunu olaraq demək olar ki, çağdaş satira "Molla Nəsrəddin" ədəbi məktəbinin klassik ənənələrini müəyyən qədər davam etdirməyə çalışmışdır. İnanırıq ki, satirik şair və yazıçılarımız cəmiyyətdə gedən ictimai-siyasi, sosial – mənəvi problemlərə, aşınma-

lara biganə qalmayacaq, yeni-yeni əsərlərlə satiranın və "Molla Nəsrəddin" dərgisinin ölməz ənənələrinin davam və inkişafına təminat yaradacaqlar.

Lalə HƏSƏNOVA
Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCANIN RUSDİLLİ ƏDƏBİYYATI–2018

Azərbaycanda rusdilli poeziya mövzu və janr palitrasının müxtəlifliyi ilə seçilir. Klassik ədəbiyyatdan şairlər rübai (Pyotor Davıdov), bayatı (Marat Şəfiyev) kimi şeir formaları ilə yanaşı, hayku (Tofiq Ağayev), sonet (Afaq Rafiqqızı) kimi janrlara da müraciət etmişlər. Poetik nümunələr arasında şeir silsilələri geniş yer alır. Afaq Rafiqqızının "Sonetlər cələngi", Leonid Zasın "Məhəbbət çələngi", Natalya Voroninanın "Durğu işarələri", Səyavuş Məmmədzadənin "Bolqar motivləri" silsiləsi və s. bu qəbildəndir.

Afaq Rafiqqızının "Sonetlər cələngi" lirik silsiləsi məhəbbət mövzusundadır. Hər yeni şeirin əvvəlki şeirin son misrası ilə başlandığı silsilənin sonuncu parçası əvvəlki nümunələrin ilk misralarından ibarətdir. Maraqlı kompozisiya quruluşu ilə seçilən poetik nümunədə təssüf ki, sevginin müxtəlif formaları canlandırılmır, müəllif yalnız bu hiss haqqında düşüncələri ilə bölüşür. Eyni poetik strukturdan Leonid Zasın "Məhəbbət çələngi" lirik silsiləsində də istifadə olunmuşdur.

İrina Zeynallının şeirlərinə rəvan, axıcı bir intonasiya hakimdir. Nostalgiyanın (Yalnız yuxularımda, / Köhnə Bakıya qayıda bilirəm... (İrina Zeynallı) hakim olduğu şeirlərdə lirik qəhrəman şəhəri al-əlvan rəngə boyayan bahardan ömrünü bahar sevinci ilə boyamasını istəyir, həssas hisslər ilin fəsilləri ilə həmahəng təsvir edilir. Hər bənddə

öncə təbiəti təsvir edən müəllif son sətirlərdə daxili yaşantılarını ifadə edir:

За серебряной накидкой
Солнце скрылось на момент…
Словно доброю улыбкой
Озарился белый свет.
Ветер замер на секунду
Тихо-тихо, не дыша…
И как будто бы вздохнула
Перемерзшая душа.

Küləyə müraciət edən lirik qəhrəman ondan ömrü boyu yaşadığı yaşantılarını alıb aparmasını istəyir:

Все, что столько лет хранила,
Что годами берегла –
Разноси по свету, милый,
Я уже пережила!
И галопом мчится сердце,
Надрываясь на бегу:
"Я не то еще сумею,
Я не то еще смогу!...".

"Kəhrəba qırıntıları" şeir silsiləsi "Qırıntılar" ("Обломки") adlanan beş ayrı-ayrı şeirdən ibarətdir. Payızı simvolizə edən kəhrəba müxtəlif assosiasiyalar doğurur: "alovun kəhrəba rəngli nəğməsi", "kəhrəba rəngli nağıllar", "kəhrəba saray", "şəffaf kəhrəba damcısı kimi donan ürək", "kəhrəba parçası kimi donan günəş", "kəhrəba

otaqları xatırladan bağlar”. Əvvəlki şeirlərdə ümid üstünlük təşkil etsə də, bu hissələr küskünlük, inamsızlıqla ifadə edilir. Lirik qəhrəman qəlbindəki kədəri əyaniləşdirməyə çalışır:

На пороге гостиной
Август грустно вздохнет…
Осень сядет к камину,
Теплый плед развернет.
(“Осень”)

Bütün bunlara rəğmən ilin fəsli ilə əlaqələndirilən ümidsizlik insanın üzərinə ağırlıq kimi çökmür, silsilənin son şeirində ümid yenidən közərir. Noyabrın gəlişi ilə payızın “xrizantem naxışlı yaylığını taxıb, isti paltoya bürünüb” bizi tərk edəcəyini qeyd edən qəhrəman, kəhrəbadan azad olaraq yeni hisslərlə yaşamağa can atır.

Natalya Voroninanın “Durğu işarələri” poetik silsiləsi maraqlı kompozisiyaya malikdir. Durğu işarələri sevgi münasibətlərini, ilkin mərhələ sual, münasibətlərin davamı vergül, iki nöqtə tanışlıq dövrünü, üç nöqtə anlaşılmazlığı, nöqtə münasibətlərin sonunu ifadə edir.

Qeyd edək ki, hər nəsil ədəbiyyata öz töhfələrini verir. Gənc nəsil modern şeirə (Nicat Məmmədov) üstünlük verirsə, yaşlı nəsil əsasən klassik formaya, əbədi mövzulara sadiq qalır, öz həyat təcrübəsindən bəhs edir. Doğma şəhərdən uzaqda yaşayan müəlliflər şəhər həyatından müxtəlif lövhələri (“Bakı işıqları”), tarixi abidələri (“Alov”) (Vladimir Sırulnik) təsvir edərək Bakını göz önündə canlandırmağa çalışmışdırlar. Qennadiy Salayevin Böyük

Vətən müharibəsi iştirakçıları, ömrün müdrik çağı haqqında şeirləri bu mövzudadır. Serqey Aranoviçin şeirlərində fəlsəfi mündəricə üstünlük təşkil edirsə (“Kompas-ürək”, “Avtoepitafiya”, “Bibliya motivləri” və s.), Ələddin Yaqubovun müasir dünya, insan haqqında düşüncələri maraq doğurur (“Qorxağın etirafı”, “XX əsr”, “Mümkündür” və b.).

Qoynuma sarı bir yarpaq düşdü,
Gün batımının son parıltısı kimi.
Yanağımdan yağış damcısı axdı...
- Nəhayət ki, yetişdi –
Payız məni öz piknikinə dəvət etdi.
Boylandım ki, üfüqlər itib:
Bəlkə illərin dumanına bürünüb,
Bəlkə üfüqü ötmüşəm artıq?... İlahi!

Necə? Nə zaman? – arzuların qızmar parıltısı birdənbirə saralmış yarpağa bənzədi?...” (tərcümə məqalə müəllifinindir)

***

(“Словно солнца предвечерний блик,
Желтый лист упал на воротник,
По щеке дождинка пробежала…
Знать дождался я –
на свой пикник
Осень приглашенье мне прислала.
Оглянулся-горизонта нет:

То-ль укрыт туманом прошлых лет,
То ль уже достиг его я?.. Боже!..
Как, когда-мечтаний летний свет
Вдруг на лист опавший стал похожим?..)

("Sarı yarpaq")

Ömrün ahıl cağını ifadə edən, əsasən qüssə, kədəri ifadə edən payız fəslinin şadlıq, yığıncaq ifadə edən "piknik" ifadəsi ilə birgə işlənməsi uğurludur. Müəllifin "Ata", "Zaman" ("Zaman gözəgörünməyən bəstəkardır, Sevən ürəyin simfoniyasının müəllifidir") şeirləri də maraqlı şair tapıntıları ilə diqqət çəkir.

Nicat Məmmədov çox istedadlı şair və tərcüməçidir. Bir çox şair və yazıçılarımızın əsərlərini rus dilinə tərcümə etmişdir. Ötən ilki məruzəmizdə müəllifin "Neprerıvnost" poetik silsiləsindən bəhs etmişdik. 2018-ci ildə əsərin növbəti, dördüncü bölümü çap olunmuşdur. Poeziya ilə esselərin növbələşdiyi, müəllifin yaradıcılıq haqqında fikirləri, düçüncələrinin yer aldığı silsilədə "yeni ədəbiyyatın" manifesti olaraq səslənir:

"Mənim üçün kapital pul və ya populyarlıq deyil,
Oxumada və mütaliədə,
insanların şüurunda,
gündəlik həyatımızda,
ölkədə baş verən dəyişiklikdir:
Bu, dağlar, dəniz və nəhəng dünya kimi
sahiblənə bilmədiyimiz bir varlıq olmalıdır.
Sənə elə gəlir ki hər şey aydındır?
Diqqət kəsildikdə artıq heç nəyin aydın olmasının fərqinə varacaqsan".

Onun əsərləri əsasən "poeziya ilə nəsr, lirik gündəlik və fəlsəfi" əsərlər olaraq qiymətləndirilir. Zənimizcə, əsərdə prozaik təsvirin getdikcə poetik strukturu üstələdiyi, qeydlərin fəlsəfi-psixoloji düşüncələrə çevrildiyi görünür.

İl ərzində Səidə Sübhi, Tamara Vereskunova, İnessa Lovko, Tofiq Ağayev kimi bir çox şairlərin şeirləri çap olunmuşdur.

***

Rusdilli ədəbiyyatın nümayəndələri fərqli, əsasən müxtəlif milli mədəni arealı təmsil etdikləri üçün müəlliflər (qarışıq ailələrdə milli, dini fərqlər), fərqli məkanlar (çox zaman vətəndən uzaqda yaşayırlar) insanlar arasında yaşanan dini və milli zəmində baş verən məsələlərə daha həssasdırlar. Marina Mürsəlovanın ötən il çap olunan "Tabula rasa" romanında, bir çox poetik nümunələrdə multikultural ideyalar, insanları ayıran bütün sədlərə rəğmən anlayış və sevgi mühitində yaşam təbliğ olunmaqdadır.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Avropa ədəbiyyatşünaslar konqresi və Çexiyanın rusdilli yazıçılar birliyinin üzvü, şair və dramaturq Leyla Bəyim yeddi pyesin müəllifidir (Efim Abramovla birgə). Onun ötən il çap olunan "İmmolatio" ("Qurban") iki pərdəli düşüncələr pyesində insanlar arasında dini, irqi ayrıseçkiliyin aradan qalxmasına çağırış əks olunur. Tarixi-fəlsəfi kontekstin yer aldığı, müasir və keçmiş zamanların əks olunduğu əsərdə iki müxtəlif xalqın böyük nümayəndəsi – Nəsimi və Yan Qusun yaradıcılığı əsasında əzəli dəyərlər təbliğ edilir.

Hadisələr müasir dövrdə və XV əsrdə cərəyan edir. Zamanda adlamalar, konkret bədii obrazların tarixi zamanla, mistik obrazlar (Kor mələk, Axsaq mələk) vasitəsilə növbələşməsi vasitəsilə mümkün olur. Eyni obrazlar həm müasir dövrdə, həm də qədim dövrdə yer alır. Müasir zamanla bağlı hissədə Avropada müsəlmanlara qarşı mənfi münasibət əks olunur: islami dəyərlərə qarşı dözümsüz olan çex gənc Yanus və islami dəyərlərin daşıyıcıları Aya, Yaqub, Yusif. Əsərin konflikti bu qarşıdurma üzərində qurulur: Qərb dünyası "istəklərinin" və islam dünyası "qadağaların" qurbanları olaraq qarşılaşdırılır. İki xalqın illər öncə yaşamış dahi nümayəndələri oxşar tale yaşamış Nəsimi və Yan Qusun taleyi mövzunun ümumbəşəri, əbədi kontekstdə canlandırılmasına imkan yaradır. İslam və Avropa dəyərlərinin qarşıdurması sonda Nəsimi və Yan Qusun timsalında ali həqiqət axtarışlarına bağlanır. İllərin əlaqəsini görmək, müraciətini ala bilmək üçün (Yusif və Adel) ilahi harmoniyaya köklənmək vacibdir.

Pyesdə insanlar arasında münasibətlər də imanlı insanların yanında bir satqının da mövcudluğu klassik model şəklində təqdim edilir. Bir-birini sevən, imanlı aşiq Yusif və Adel, satqın Yanus, ittiham edən (arxiepiskop, hökmdar), günahkar (Nəsimi, Yan Qus), və sonuncunu məhv etməyə çalışan xain (Yanus) əzəli həyat modeli olaraq təkrarlanır. Pyes dinlərin, fikirlərin müxtəlifliyi və eyni zamanda vəhdəti ideyası üzərində qurulur. Eyni səma altında müsəlman, xristian, krişnaid insanlar mövcuddur, bir sözlə bəşəriyyət sevgi üzərində bərqərar olmalıdır. Problemlər iki müxtəlif qrup (hakim və şair, islam və Avropa) arasında mübahisə-dialoq şəklində canlandırılır, konflikt müasir

və tarixi-fəlsəfi, mistik (XV əsrdə Nəsimi və Yan Qusla bağlı təhkiyə) qatla əlaqələndirilir. Pyesdə İsanın ittiham edilərək ölümə məhkum edilməsi ilə bağlı dini-mifik süjet xəttindən istifadə olunub. Nəsimini hökmdar, Yan Qusu Arxiepiskop ittiham edərək dinə qarşı çıxmaqda suçlayırlar. M.Bulqakovun əsərində bu süjet xəttinin qəhrəmanı Ponti Pilat, "Qurban" pyesinin qəhrəmanları isə (əsərin başlığı, personajların adı mifologiya ilə bağlıdır) Nəsimi və Yan Qusdur. Onların fikirləri hakimiyyəti qorxutduğu üçün ittiham olunurlar. M.Bulqakov İeuşanı müqəddəslikdən uzaq, adi filosof-səyyah olaraq təqdim edirsə, pyesdə əksinə qurbanların seçilmişliyi, bəşəriyyətə verdikləri töhfələr xüsusi vurğulanır:

Hakim…
Nəsimiyə müraciət edir: Duydunmu məni?

Nəsimi. Qoyun cavab verim, sizə gəlincə,
Azadlıq-Allahın yoludur, məncə!
Əgər itirərsə onu bir insan
O özü olmaqdan çıxacaq o an!

Hakim. Beləmi vacibdir kütlə içində
bir şəxsiyyət olmaq, söz dedin sən də!?
Axı sadiq olub sənə hər zaman
"Kütlə" söylədiyin bir yığın insan!

Nəsimi. Əgər itirərsə bir kəs mənliyin
Satacaq önəmli olan hər şeyin!

Hakim. Azadlıq dediyin fərziyyədir, boş
Xalq ondan hər zaman daha çox qorxmuş!

Nəsimi. Qorxunu yaradan yalnız cəhalət.
Bunun da axırı gələcək əlbət
Bir gün gələcək ki, hər kəs biləcək
Ruhunun sahibi o özüdür, tək!

Hakim. Nə xalq-xalq salmısan? O bir vassaldır,
Nəfsinin quludur, o kor və laldır!

Nəsimi. Ziyalanacaq!
Sözün işığıyla o, nurlanacaq,
O zaman yeni bir insan doğacaq
Özüyçün həm tanrı, həm qul olacaq!

(tərcüməçi – Sahnur Süleymanova)

Beləliklə, əsər həm mövzunun aktuallığı, həm də mənəvi-fəlsəfi ideyanın maraqlı bədii həlli ilə yadda qalır. Pyesin ötən il Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində keçirilən premyerası ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

***

Azərbaycan reallıqlarının dünyada yayılmasına çalışan rusdilli müəlliflər bu mövzulara xüsusi önəm verir. Ötən il Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Praqada keçirilən “Xocalıya ədalət” kompaniyası çərçivəsində Xocalı hadisələrindən bəhs

edən kitab çex dilində çap olunmuşdur. Efim Abramov və Leyla Bəyimin "Qara qar çiçəyi" povesti də kitaba daxil edilmişdir.

Nəsr sahəsində maraqlı lirik-psixoloji hekayələrlə yanaşı (Nailə Kərimova "Ömürdən bir gün", Nərgiz Bağırovanın "Yalnız Bax", Lalə Ümid "Heyva çiçəkləri", Yelena Andreyevanın "Pitsa və Betxoven" və b.), təhkiyə və mövzu baxımından orijinal roman və povestlər qələmə alınmışdır.

Son illər ciddi ədəbiyyatın, əsas məqsədi daha çox oxucu kütləsi cəlb etmək olan kütləvi ədəbiyyat – dedektiv, melodrama kimi nümunələr tərəfindən sıxışdırıldığı müşahidə olunmaqdadır. Oktay Mirqasımın "Samuray sindromu" povestində müharibə iştirakçısı olan Rəsul aldığı xəsarətlər səbəbindən döyüş sıralarına qayıda bilmir. Dolanmaq üçün Abdulla adlı iş adamının yanında çalışır. Bahalı həyatı yaşayan, qoruyucular, işçilər ilə əhatələnən Abdulla varlı olmasına və Rəsul arasında yaşanan konfliktə baxmayaraq Abdulla da Rəsul kimi vicdanlı biri olaraq təsvir edilir. Rəsulun Abdullanın nişanlı bacısı ilə yaşadığı eşq onlar arasında münasibətlərin pozulmasına səbəb olur. Beləliklə, macəra, məhəbbət dolu hadisələrin yer aldığı əsərdə sanki əsas mətləblər ikinci planda qalır. Əsgərin müasir həyatda qarşılaşdığı mənəvi –psixoloji çətinliklər, münasibətlərdə şəxsi maraqların dürüstlüyü üstələməsinin təsviri kimi ciddi mətləblərin bədii təcəssümü əvəzinə, macəra şəklində yaşanan həyat təsvir edilir, canlandırılmır. Hər bir epizodu əyani şəkildə təsvir etməyə çalışan yazıçı daha çox hadisələrin baş verdiyi məkanı, şəraiti dolğun təsvir edir: bahalı evlər, qolugüclü cangüdənlər, sahibi

üçün darıxan tutuquşu... Bu cür təsvir əsəri ssenariyə ilə yaxınlaşdırır. İdeal insanlar olaraq təsvir edilən Rəsul və Abdulla obrazları, məhəbbət xətti sxematikdir. İdealist qəhrəmanların idealistcəsinə təsviri inandırıcı təsir bağışlamır. İllərin dostlarının naxələfliyi diqqətdən kənarda qalır. Səməd, Salman sanki qəhrəmanların seçilmişliyini (Rəsul və Abdulla), onların dürüst ətrafındakıların isə haması naxələfdir, – fikrini təsdiqləmək üçün yer alır. Bu səbəbdən müsbət və mənfi personajların qarşılaşması emosional gərginlik yaratmır.

Son illər ədəbiyyatda psixoloji nəsrin maraqlı nümunələri yaranmaqdadır. Natiq Rəsulzadənin "Yeddinci gecə" və "Soyuq oktyabr ayı" hekayələrinin əsas personajları yaradıcı insanlardır. Hər iki hekayədə qadın və kişi arasında yaşanan münasibətlər canlandırılır. İlk sevgi təcrübəsi uğursuz olduğundan daxilən həssas olan bu insanlar yaxınlarından təcrid olaraq qapalı ömür sürməyə üstünlük verir, yenidən həyata açılmaqdan çəkinirlər.

"Soyuq oktyabr ayı" əsrində əsas personaj həyat yoldaşının xəstə olduğunu, illərlə davam edən qeyri-müəyyənliyin ona vurduğu zərbəni anlasa belə münasibətlərinə son qoya bilmir. Zahirən ailədə hər şey qaydasındadır – bir-birini sevən iki insan övladı. Lakin qadının psixoloji problemləri (şizofreniya) onlardan asılı olmadan bu münasibətləri məhv edir. Ana övladının qayğısına qala bilmir, ailə başçısı öz funksiyalarını itirir-qadının qayğısını çəkməyə qadir deyil, ailənin övladı nənə-baba himayəsində böyüyür. Ailə başçısı yoldaşının səhhətində irəliləyiş hiss edən kimi qadını evə gətirərək, ailənin birgə yaşayışının davam edəcəyinə ümid etsə də, psixoloji halında narahat-

lıqlar başlanan kimi onu yenidən xəstəxanaya yerləşdirməyə məcbur olur. Müəyyən zaman fasiləsindən sonra baş verən görüşlər onları bir-birindən daha da uzaqlaşdırır. Vəziyyətin çıxılmazlığı hər kəsə aydın olsa da, aradan qaldırılması mümkün deyil. Xəstə qadın və həyat yoldaşı arasında yaşanan dialoqlar vasitəsilə soyuq şəhərdə böyük bir sevginin məhv olması dramatik şəkildə canlandırılmış, böyük məhəbbətin sonu, bu məqamı ağrı ilə yaşayan insan haqqında kədərli bir hekayət əks olunur: "O, – hər yerdə istilik azalır, hər yerdə soyuq yaşanır – deyə düşünürdü". Münasibətlərin soyuqluğu, məkanın soyuqluğu (balaca nənə-babasının yanındadır, çünki öz evləri soyuqdur, nənəsigildə isə kamin yanır) onların həyatını məhv edir. Soyuqluğun səbəbi isə ailə üzvləri ilə bağlı deyil, onlar hər biri digəri üçün darıxır-kişi qadını üçün, ana balası üçün. Lakin onlar taleyin amansız hökmü qarşısında acizdirlər. Onların hər ikisi vəziyyətlə barışmaq istəməsələr belə, özlərindən asılı olmayaraq bu münasibətlərin sona yetdiyini hiss edirlər. Qadının xəstəxana sakinlərindən birinə çevrilməsi, ailə başçısının seçim qarşısında qalması – heç nəyə baxmayaraq böyük segisinin yanında olmaq istəyi və eyni zamanda yaradıcılığına həyat perspektivlərinə mane olan bu münasibətlərə son qoymağa can atması vəziyyətin son dərəcə mürəkkəbliyini ifadə edir.

Yazıçının mistik realizm üslubunda yazdığı əsərlər xüsusilə seçilir. Növbəti hekayəsini də həmin əsərlər sırasına aid etmək olar. "Yeddinci gecə" əsərində ömrünün puç olduğunu düşünən, həyatında mürəkkəb psixoloji dönəm yaşayan yazıçı, həyatda tapa bilmədiyi sevgini yaradıcılığında axtarır. Gerçəkliklə təxəyyülün çarpazlaşması

ilə əsərin personajlarının – müəlliflə əsərin personajının eyniləşməsi baş verir. Bəzən qarşılaşan müəllif – Emin M. və personajı – Murad vəziyyəti aydınlaşdırmağa çalışsalar da, sonda hər ikisi ümumi mövzuda – məhəbbət axtarışında ayrılmaz olurlar. Emin M. yumşaq xasiyyətli biri olaraq xarakterizə edilir. Onun ünsiyyət qurduğu insanlar yalnız şahmat oynadığı dostu və görüşdüyü Saradır. Mütəmadi görüşlər onun həyatında yeknəsəklik yaradır. Həyatdan usanan yazıçı bu vəziyyətdən qurtulmağa çalışaraq, maraqlı bir süjet qurur. Müəllifin ikinci "mən"i, təxəyülünün məhsulu olan Murad da mənəvi sıxıntını içindədir. Nərgiz adlı xanımla tanış olan personaj həftə boyunca onunla ünsiyyətdə olur. Bu görüşlər Muradın həyatının mənasına çevrilir. Məhəbbət xətti adi məcrada davam etsə də, müəllif müəyyən detallar, təkrarlanan motivlər, yuxuların təsviri ilə hadisələri mistik ahəngə yönəldir. Özünü suya ataraq intihar edən insanla bağlı motiv bir neçə dəfə təkrarlanır: qızla dənizkənarında gəzişərkən sanki Nərgizin ölümü ilə qarşılaşmaları, övladını dənizə atan ana ilə bağlı yuxu... Yazıçı öncədən detallar vasitəsilə Nərgizin bu dünyaya yadlığını qeyd etsə də, görüşləri yalnız gecələr baş verir, əllərinin soyuqluğu onun bu işıqlı dünya aid olmadığını ifadə etsədə, yalnız sonda onun artıq dünyasının dəyişdiyi bəlli olur. Murad Nərgizlə ilk dəfə ünsiyyətdə olsa da, Nərgiz Muradla köhnə tanışı kimi davranır. Ruhlar aləminin sakini olan Nərgizə fani dünyada heç nə sirr deyil. Nərgiz, Muradı "ağılsızcasına" yaşanan, güclü sevgiyə inandırmağa çalışsa da, qarşı tərəf bu cür hisslərin mümkün olmadığını bildirir. Nərgizə yaradıcılığı haqqında məlumat verən personaj "Yeddinci gecə" adlı ssenari üzərin-

də işlədiyi bildirir. Yeddi gün qaranlıq gecə Allahın tərəfindən insanlara göndərilən cəzadır. Ssenari tamamlanmır. Müəllif insanların bu zülmətdən qurtulacaqları və ya qaranlıqda yaşamalı olacaqları barədə birmənalı qərar verə bilmir. Muradın Nərgizlə keçirdiyi 7 gün də yazıçının yenidən həyata bağlanması üçün vacib bir sınaq müddəti olaraq yaşanır.

Son illər Azərbaycan ədəbiyyatında ciddi fəlsəfi-psixoloji mövzulara müraciət olunsa da, təəssüf ki, bu mövzuda qələmə alınan uğurlu əsərlərin sayı çox deyil.

Toğrul Mehdinin "Özümlə üz-üzə" romanında personajın altşüuruna baş vuran müəllif insanın gizli niyyətlərini açmağa çalışır. Personajın öz təhtəlşüurunun gizli "məni" ilə qarşılaşması üzərində qurulan əsərdə iki süjet xətti paralel olaraq inkişaf edir: Malışın həyat hekayəti və əsərin müəllifinin öz əsəri, problemlə bağlı düşüncələrinin, həyatının əks olunduğu ikinci xətt. İkinci planda oxucusuna birbaşa müraciət edən müəllif onu əsəri ilə bağlı yönləndirməyə çalışır. Zənnimizcə, müəllif, ideyanın bədii şərhləndirməsində çətinlik çəkdiyi üçün bu yola əl atır. Yazıçı-personaj özü də əsərini "eksperiment" olaraq qiymətləndirir.

Dünya ədəbiyyatında, fəlsəfi-psixoloji fikirdə bu mövzuya dəfələrlə müraciət olunmuşdur. Arxetiplərlə bağlı nəzəriyyəsində sözügedən məqamdan bəhs edən analitik psixologiyanın banisi K.Q.Yunq bu xüsusiyyətə belə aydınlıq gətirir: "Hər bir insanın öz kölgəsi var və onsuz keçinə bilməz. Kölgə vasitəsilə insan keçmişini, bəsit istəklərini və təcavüzkar meyillərini qoruyub saxlayır. Kölgə bir qayda olaraq sıxışdırılır, insan özünün şüursuz mənfi

xarakterini görməkdən vaz keçir və onu görmür. Bununla belə, kölgə tərəf inkişaf etməyə davam edir. Günlərin bir günü bu sıxışdırılmış olanlar ortaya çıxıb insanın "işıqlı" tərəfinin rəhbər tutduğu mənəvi-əxlaqi dəyərləri darmadağın etməsi an məsələsidir. Yəni kölgə arxetipi insanın özünə etiraf etmədiyi, lakin ona xas olan, xarakterinin xoşagəlməz tərəfləridir. Kölgə fasiləsiz olaraq insan psixikasını zəbt edib ona hakim kəsilməyə can atır, əxlaqi nəzəratə müqavimət göstərirlər. Bütövlükdə "mən"ə meydan oxuyan əxlaqi problemdir və insanı ömrü boyu müşayiət edir (referens – http://www.soz6.com/nedir/ 10036/kolge-arxetipi)". Müəllif məhz bu anı, gölgənin insanın diktəsindən azad olmasını təsvir etməyə çalışmışdır.

Müəllif qeydlərinin Malış haqqında hekayətlə növbələşdiyi əsərdə müəllif mətni kursivlə, Malış haqqında hekayət isə adi şriftlə verilərək fərqləndirilir.

Müəllif mətni üslubca da əsas mətndən fərqli şəkildə, fəlsəfi-psixoloji esse olaraq qələmə alınıb. İnsan şüurunun dərinliklərinə baş vurmağa çalışan yazıçı oxucuları ilə bir çox mövzuda düşüncələri ilə bölüşmüşdür.

Digər süjet xəttində isə ağır taleyi olan qəhrəmanı-kiçik yaşlarından küçələrdə özbaşına yaşayan, həbsxanaya düşən, ömrünün 15 ilini məhkum olaraq keçirən, sonradan "qanuni oğru" həyatı yaşanan insanın hekayəti yer alır, həbsxana həyatının bütün çətinliklərinə sinə gələrək, qarşılaşdığı hədəfləri asanlıqla dəf edərək, zirvəyə doğru üz tutan gəncin taleyi əks olunur. Vəhşi bir ehtirasa çevrilən mütləq hakimiyyət arzusu Malışın fiziki və mənəvi məhvinə səbəb olur. O, canlılara deyil, artıq dünyasına dəyişmiş insanlara, cansız insanlara, əşyalara daha çox bağlıdır. Bu

baxımdan əsərin çap variantı üçün seçilən "Nekrofilin ölümü" adı uğurludur. Müəllif-personaj əsərini eksperiment olaraq dəyərləndirir: "bu roman mənim üçün psixoloq rolunu oynayaraq, özümdə görə bilmədiklərimi, özümə belə aydın olmayan xüsusiyyətlərimi aydınlaşdırmağa imkan verəcək. Özümü dərk etmək üçün mən Malışı "görə bilməliyəm". Son illər nəsrinə xas "serial" dəsti-xətti – hadisələrin sadalanması, personajların birtərəfli təsviri müəllifin qarşısına qoyduğu məqsədlə üst-üstə düşmür. Personajlar səciyyələndirilmir, yazıçı-personajın təhkiyəsindəki gərginlik Malışla bağlı hissələrdəki təsvirlə uzlaşmır. Müəllif-pesonajın Malışla bağlı qələmə aldığı hisslərlə bağlı güclü sarsıntı keçirdiyi qeyd olunsa da əsas mətndə bu hisslər dolğunlaşdırılmır. Zəif, utancaq, hüquqsuz uşağın kriminal aləmin nüfuzlu insanına çevrilməsi ilk olaraq onun daxilində yaşanan təkamül nəticəsində baş verə bilər. Bu cür diqqət çəkən məqamlardan əsərdə təəssüf ki, bəhs olunmur. Yazıçı-personaj Malışı öz qaranlıq dünyası olaraq canlandırmağa cəhd etsə də, Malışla müəllifin bağlılığı sezilmir. Təhtəlşüuru şüura tabe edərək insanın özünün öz üzərində qələbə çalması psixoloji bir problemdir. Bu səbəbdən əsərdə əsasən psixoloji məqamlara diqqət yönəlməli idi. Müəllif bəzi formal vasitələrə əl atsa da Malışla bağlı son hissələrin başlıqların soldan-sağa oxunması, yuxuda müəlliflə Malışın qarşılaşması ümumən əsərin ideyası gerçəkləşməmiş qalır.

Rusdilli ədəbiyyatın daha bir istedadlı nümayəndələrindən biri Maqsud İbrahimbəyovun yaradıcılığında sosart əsas üsluba çevrilməkdədir. Öncəki illərə aid məruzələrdə yazıçının yaradıcılığından bəhs edərkən bu məqam-

dan bəhs etmişdik. Müəllifin ötən il çap olunmuş "Antropontoloqun son səyahəti" əsərində sovet gerçəklikləri, mühiti təsvir olunub. Lakin bu mövzu ilə paralel olaraq müəllif mənəvi-psixoloji problemləri də canlandırmışdır. İlk baxışda monoton şəkildə nəql edilən hekayədə, sovet ziyalısının həyatı əks olunur. Personajın ixtisası da maraq doğurur: "Qeyd etmək lazımdır ki, antropologiya, qəribə olsa da, başqa elmlərdən daha çox siyasət və ideologiya ilə bağlıdır". Povestdə ənənəvi kompozisiya – hadisələrin zavyaskası, kulminasiyası, sonradan çözülməsi kimi klassik sxem yer almır. Əsər antropoloqun son səyahətinə hazırlığının təsviri ilə başlanır, sovet ziyalısının həyatı əks olunur. Onun uşaqlığı sovet idealları ilə bağlıdır. Səyahət etmək arzusunda olan məktəbli, şəhər olimpiadasında qalib olaraq Leninin vətəni Ulyanovska səyahət edir. Ailəsinin əlindən alınan mülkləri coğrafiya kitabxanasına çevrilir. O, öz sənətinə o qədər aludə olur ki, adı belə ikinci planda qalıb, hamı tərəfindən, elə əsərdə də, ixtisası ilə bağlı olaraq antropoloq adlandırılır. Peşəsinin özəlliyi səbənindən "köçəri" ömür sürən alim, heç kimə və heç nəyə bağlanmadan yaşamağa üstünlük verir. "Onun evliliyi də sonrakı bir çox uğursuz cəhdləri kimi, ömrünün çox hissəsini keçirdiyi saysız hesabsız ezamiyyətlər zamanı Vətənlə bağlılığını itirməmək məqsədi güdürdü... Ömrünün böyük hissəsi səyahətdə keçən bir çox insanlar kimi, o da özünü gözləyən insanlar olan evinin, hər hansı bir musiqi alətində ifa edən yoldaşının olmasını istəyirdi. O, musiqi müəlliməsi olan yoldaşını *özünəməxsus* (kursiv məqalə müəllifinindir) şəkildə sevirdi". Lakin evlilikdən sonra onun yoldaşında ən çox önəm verdiyi bu xüsusiyyət aradan qalxır:

“Toydan sonra o demək olar ki, heç nə ifa etmirdi. Məktəbdə ciddi məşğul idi. Əvvəlcə dərs hissə müdiri oldu, sonra direktor. Onların qızları doğuldu, lakin qəribədir ki, uşaqda ümumiyyətlə musiqi duyumu yox idi”. Bəlli olduğu kimi, şəxsi xoşbəxtliyin ikinci planda olduğu cəmiyyətdə özünü tapmaq o qədər də asan deyildi. Sovet sisteminin fəalları “Ana Vətən”, komsomolçu Canik onun hər addımını izləyərək ifşa etməyə hazırdırlar. Antropoloqun ölü heyvanla çəkdirdiyi şəkli xarici mətbuatda birmənalı qarşılanmır. “Qırmızı imperialistlərin amansızcasına afrika faunasını məhv etməsi” xəbərinə yerli fəallar dərhal münasibət bildirirlər: “Baş verənlərin təsadüf nəticəsində baş verməsi, onun hərbi deyil, yerli əhalinin istifadə etdiyi ənənəvi soyuq silahdan istifadə etməsi nəzərə alınmadı. Əsas olan şirin ölümü deyil, hadisənin xarici KİV yartdığı əks səda idi. Yerli orqanlar hadisəni mütləq nəzarətə almalı idilər”. Sovet ölkəsində fərqli düşünən insanlar mənəvi işgəncələrə məruz qalırdılar (Xarici ölkələrə səfərlərin qadağa olunması, atasının taleyi – mühazirələrində K.Q.Yunqun adını xatırladığı üçün 5 il məhbəsdə yatması), Afrika ölkəsində insanlar irqi, dini fərqliliyə görə bir-birini öldürür, vəhşi ayinlər həyata keçirilirdi (insan kəlləsinin qurudulması). Bu hallardan bəhs edən müəllif itkiləri dəqiq rəqəmlərlə ifadə edirdi: “Dörd ay ərzində maçeta və nizə ilə səkkiz yüz min insan öldürülmüşdür”.

Antropoloq maraqlı bir ideyanın müəllifidir. Ömrü doğma şəhəri və Afrika ölkəsinə səyahətlər arasında keçən alim, qədim xalqların vahid ödəniş sisteminin (pul vahidi) mövcudluğu fikrini irəli sürərək qədim zamanlardan onlar arasında əlaqələrin olduğunu ehtimal edir. Sonradan onun

ehtimalları norveç alim tərəfindən dəstəklənir. Ziyalılar xalqların birliyini təsdiqləməyə çalışsalar da, kapitalistlərlə hər hansı bir əməkdaşlığın əleyhinə çıxış edən Sovetlər ölkəsi alimin beynəlxalq tədqiqatlarda iştirakına imkan vemir. Antropoloqla Afrikalı alimin oxşarlığı da insanların qohumluq əlaqələrinə işarə edir. Antropoloqun kürəkəni Unqork da xalqların miqrasiya prosesini tədqiq edir. Lakin hökümət düşünən beyinlərə mane olmaqda (SSR), məhv etməkdə (Afrikada) israrlıdır. Əsərdə təsvir edilən üç fərqli məkanın hər biri dəniz kənarında yerləşir, onların ziyalıları xalqların miqrasiyasının dəniz vasitəsilə mümkünlüyünü qeyd edir. Povestdə təkrarlanan motivlərdən biri də qədim baltalardır. Antropoloq qohumuna, kürəkəni antropoloqa qədim balta hədiyyə edir. Lakin alim nəvəsinə baltanı deyil, öz işçi kostyumunu verir. Bununla da, povestdə sistemlərin təyziqinə baxmayaraq insanlar arasında anlaşmanın davamlı olacağına ümid sezilir.

Nəhayətdə, sovet ziyalısının həyatının təsvir olunduğu əsərdə yalnız sos-art xüsusiyyətləri əks olunmur. Yaşadığı dövlətdən, siyasi quruluşdan asılı olmayaraq insani meyarların itməsi, ümumi kökdən yaranan insanların yadlaşması, bəşər tarixində yaşanan qarşıdurmalar, müharibələr, əsrlərdən-əsrlərə ötürülən artefaqlar vasitəsilə birlikdən qarşıdurmaya doğru inkişafın canlandırıldığı əsərdə, müəllif problemi əbədi mövzularla əlaqələndirərək canlandırmış, bədii səciyyələndirilməsinə nail olmuşdur.

Nadir Ağasıyevin “Otrajenie-2” silsiləsindən olan ikinci əsərində fərqli təhkiyə strukturu yer alır. Müəllifin assosiasiyaları ilə zənginləşdirilmiş əsas süjet xətti şaxələnir. Xatirələrə dalan personajın düşüncələri daxili “mən”in

axtarışı olaraq təsvir edilir, kursivlə verilənlər əsas mətndən fərqləndirilir. Hadisələr birinci şəxs-avtobioqrafik qəhrəman tərəfindən nəql edilir. Ömrünün müxtəlif dönəmlərini əhatə edən xatirələrdə personajın həyatının fərqli anları canlanır. İlk kitabda olduğu kimi (Агасиев-Веисаг) bu əsərdə də müəllif personajını özünü adının əksinə oxunuşu olaraq Ridan (Nadir) adlandırır. Dünya ədəbiyyatının bir çox nümunələrinin xatırlandığı əsərdə (K.Qamsunun "Aclıq", İ.Bunun "Temnıe alleyi", P.Merime "Venera İllskaya" və s.) məhz bu məlumatlar oxucunu əsas mətləblərə yönləndirir.

Personajın fikrini təsadüfən rastlaşdığı yaşlı qadın məşğul edir. Əsas süjet xətti bu qadının ətrafında cərəyan edir. İ.Buninin "Temnıe alleyi" əsərindəki qadın obrazını xatırladan personaj müəllifdə qarışıq hisslər oyadır: o, yarı cavan, yarı qocadır, "qarı" , "qadın", "küpəgirən", "cadügər"dir. Personajın xatirələri də əsasən həyatında müxtəlif rol oynayan qadınlarla bağlıdır (anası, müxtəlif zamanlarda birgə çalışdığı, qarşılaşdığı qızlar).

Beləliklə, müəllif oxucunu mətnə deyil, intertekst vasitəsilə əlavə mətnlərə yönləndirir. Ona sehrli bitkini verən qadın talismandan bircə cavanlaşmağını istəməməsini xahiş edir. Sehirli amuletə dəfələrlə müraciət edən personaj, ondan israrla müharibənin nə vaxt bitməsini xəbər verməsini istəyir. Daha sonra Merimenin hekayəsi haqqında xatırlatma qənaətimiz dolğunlaşdırır. Əsərdə müəllifin təhtəlşüurunu narahat edən məqamlar – qocalığı, ömrünü istədiyi kimi qura bilməməsi, ölkəsindəki müharibənin nə vaxt bitəcəyi kimi daxili qorxuları əks olunur. İlk mütaliədə əsərdəki assosiasiyaların əlaqələndirilməsi çətin olsa

da, internekstə – xatırlanan mətnlərə kökləndikdən sonra məzmuna varmaq mükündür. Ömrünün ötən illərinə nəzər salan Ridan illər sonra vaxtında əhəmiyyət vermədiyi, dəyərləndirə bilmədiyi təsadüflərin böyük əhəmiyyət daşıdığını dərk edir. Romanda xatırlanan motivlərdən biri İrji Podebradskinin heykəlidir. Ona rəğbətini bildirərək özünü onunla müqayisə edən müəllif, zəif iradəli olduğunu etiraf edir. Mandaqora ona həyatını dəyişməyə verilən şans olsa da, bu yolu sınamaq istəməyərək, ondan azad olmağa çalışır.

***

Bir ilə nəzər saldıqda bütün ədəbi növlərdə axtarışların intensiv olduğu görünür. Poeziyada əsasən ənənəvi üslub, mövzu palitrası üstünlük təşkil edirsə, psixoloji üsluba meyil edən nasirlər eksperimentlərə üstünlük verirlər. Ənənəvi realist üslubda yazılan əsərlərlə yanaşı Natiq Rəsulzadə yaradıcılığında mistik realizm, modernist axtarışlar (“Nekrofilin ölümü”, “Əks-səda” (“Отражение”), sos-art (Maqsud İbrahimbəyov) vüsət almaqdadır. Pyeslərin sayı çox olmasa da, Leyla Bəyimin “Qurban” əsəri ictimaiyyət tərəfindən maraqla qarşılanmış, uğurlu səhnə əsəri olaraq dəyərləndirilmişdir. Rusdilli ədəbiyyatın tanınmış imzaları ilə yanaşı, gənc müəllifləri də beynəlxalq arenada tanınırlar. Beynəlxalq səviyyədə təmsil olunması ədəbiyyatımızın böyük nailiyyətidir.

Zəkulla BAYRAMLI
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ELMSİZ ŞEİR ƏSASI YOX DİVAR OLUR...

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ən yeni tarixində bir çox ilklərə imza atmış akademik İsa Həbibbəylinin adıyla bağlı olan bir çox şöbələr kimi "Ədəbiyyatşünaslıq plyus" Yaradıcılıq Birliyi də 2016-cı ilin sonlarından müntəzəm fəaliyyət göstərir, ədəbi həyatımıza öz qatqısını verir. Birliyin ilk rəhbəri, filologiya elmləri doktoru, professor Vüqar Əhmədin başladığı işlər bu gün uğurla davam etdirilir. Hazırda birlik ətrafında qırxa yaxın ədəbiyyatşünas alim birləşmişdir. Bunlar öz elmi araşdırmaları ilə tanınmış elm adamları olmaqla yanaşı, həm də bədii ədəbiyyatın müxtəlif sahələrində uğurla qələm işlədən şair, nasir, publisist və tərcüməçilərdir.

Qeyd etməliyik ki, institutumuzda fəaliyyət göstərən elm adamlarının bədii yaradıcılıq nümunələrindən ibarət iki toplu artıq nəşr olunmuşdur. Həmin toplların təntənəli şəkildə təqdimatı AMEA-nın Dendralogiya və Botanika İnstitutlarında keçirilmiş və oxucular tərəfindən maraqla qarşılanmışdır. Üçüncü toplu üzərində son tamamlama işləri gedir. Bu toplunun təqdimatının akademik İ.Həbibbəylinin təşəbbüsü və rəhbərliyilə Ağ şəhərdə keçirilməsi nəzərdə tutulur.

Yeri gəlmişkən, klassik ədəbiyyatşünaslıq elmimizin tanınmış simalarının bədii yaradıcılıq örnəklərinin tapılıb üzə çıxarılması sahəsində də müəyyən işlər görülməkdədir. Akademik İ.Həbibbəylinin şəxsi təşəbbüsuylə akade-

mik Məmməd Cəfər Cəfərovun "Get dolangilən, xainsən hələ..." pyesi artıq işıq üzü görmüşdür. Görkəmli şərqşünas alim, akademik Ziya Bünyadovun şeirlərini də toplayıb nəşr etdirmək fikrindəyik.

Ədəbiyyatşünas alimlərimizin bədii yaradıcılıq örnəklərinə ümumi nəzər salsaq, görərik ki, burada aparıcı xətt sosial hadisələr, bu gün cəmiyyəti narahat edən milli-mənəvi problemlər, son 30 ildə xalqımızın başına gətirilən ağrı-acılar, torpaqlarımızın 20 faizindən çoxunun işğalı və s. məsələlər daha çox yer tutur. Eyni zamanda, itirilmiş yurd yerlərimizə olan sonsuz sevgi və nisgillə yanaşı, saf və səmimi insani məhəbbəti, ana vətənimizin doğma və əsrarəngiz təbiəti, həyat, dünya və insan münasibətləri, çağdaş dünyamızda cərəyan edən ictimai-siyasi hadisələri təsvir və tərənnüm edən bədii örnəklər də az deyildir.

Poeziya. Respublikamızın ümumi ədəbi həyatında olduğu kimi, alim-yazarlarımızın da bədii yaradıcılığında şeir üstünlük təşkil edir. Ədəbiyyatşünas alimlərin bəziləri gənclikdə qələmini şeirdə sınayır, bir çoxları isə, demək olar ki, şeir yaradıcılığını müntəzəm davam etdirir, ya da lirik poeziyaya olan sevgilərini ara-sıra qələmə aldıqları bədii örnəklərlə bu gün də sübuta yetirirlər. Tədqiqatçı alimlərin son illərdəki şeir yaradıcılığı haqqında indiyədək nəşr olunmuş iki toplu-almanaxda ətraflı məlumat verilmişdir. Ona görə də biz burada yalnız son ildə yazılmış, yaxud işıq üzü görmüş şeir nümunələri haqqında danışmaq istərdik.

Maraqlıdır ki, alim-şairlər də dünyada və ölkəmizdə baş verən ictimai-siyasi hadisələrə vaxtında reaksiya verir, bütün qələm adamlarını düşündürən həssas və ağrıdıcı mə-

sələlərə diqqət yetirirlər. O da maraqlıdır ki, institutumuzun bədii təsərrüfatının yaradılmasında müxtəlif nəsillərin nümayəndələri uğurla iştirak edirlər. Çağdaş ədəbiyyatşünaslıq elmimizin görkəmli nümayəndəsi, akademik İsa Həbibbəyli şeir yaradıcılığını da uğurla davam etdirir. Təsadüfi deyil ki, "Akademiya himni" məhz onun sözlərinə yazılmışdır. Doğma vətənə, ana yurda bağlılıq, müstəqillik və dövlətçilik ənənələrinin tərənnümü və təbliği İsa müəllimin qələmindən çıxan şeirlərin əsas leytmotividir.

Bu baxımdan yanaşsaq, yeni yazılmış bədii nümunələr içərisində, öncə, filologiya üzrə fəlsəfə doktorları Fəridə Hicran (Vəliyeva) və Əflatun Baxşəliyevin AMEA-nın və Ədəbiyyat İnstitutunun 85 illik yubileyinə həsr edilmiş şeirləri diqqətimizi çəkdi. Bu şeirlərdə müəlliflərin elmimizin ata ocağına olan sonsuz sevgi və məhəbbətiylə yanaşı, burada işləməyin onlarda doğurduğu fərəh və qürur hissləri də öz bədii təcəssümünü tapmışdır. İndiyədək daha çox Qarabağ mövzusunda qələmə aldığı bədii yazılarıyla yadda qalan, neçə şeir və elmi-publisistik kitabların müəllifi **Fəridə Hicran** AMEA-nın 85 illiyinə həsr etdiyi şeirində sanki böyük bir alimlər ordusu adından fəxrlə deyir:

Milli qürur yaşadır o möhtəşəm adını,
Şumerdən, Hundanmı sən almısan odunu?
Gör neçə dühalara çatdırdın imdadını,
Tanıtdırdın bu xalqa doğmasını, yadını,
Saf duyğum, saf ideyam,
böyük milli, möhtəşəm,
şanlı akademiyam.

Bir neçə şeir kitabının müəllifi, AYB-nin üzvü, rəngarəng təbiət və səmimi sevgi şeirləriylə tanınmış şair **Əflatun Baxşəliyev** həyatını bağladığı Ədəbiyyat İnstitutunun yubileyinə yazdığı bir şeirində qəlbindən keçən sevinc və qürur duyğularını belə ifadə edir:

Elmin zirvəsində günəşdir, yanır,
Adını daşıyır ulu şairin.
Bir bax, ətrafında ruhu dolanır,
Hər gün burdan düşür yolu şairin.

Burdan qaynaqlanır adət-ənənə,
Yaşadır möhtəşəm tariximizi.
Yaratmaq eşqiylə qaynayır yenə,
Zirvədən zirvəyə aparır bizi.

Sanma başqa yerdən həvəs alıram,
Həkimim olsa da, dəvam çatmayır.
Mən bu institutla nəfəs alıram,
Ondan ayrılanda havam çatmayır.

Filologiya elmləri doktoru, elmi-publisistik yazılarıyla mətbuatda tez-tez çıxış edən **Mərziyyə Nəcəfovanın (Səlahəddin)** Əbiyyat İnstitutunun yubileyinə ithaf etdiyi şeir "Ədəbiyyat dünyası" adlanır. Şeirinə "Elmlə ədəbiyyatın vəhdəti gözəllikdir və dünyanı gözəllik xilas edəcək" epiqrafını seçən Mərziyyə xanım yazır:

Ziyarətə gələn tək gəlmişdim,
Elmlər Akademiyasının
Ədəbiyyat dünyasına...

Arzu edək ki, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu hamımız üçün həmişə ziyarətgah statusunda olsun və biz də bu elm ocağına, bu müqəddəs məbədə isti münasibəti daim qoruyub saxlaya bilək. M.Səlahəddin daha kövrək və dəruni duyğularını lirik bir dillə poeziyaya gətirməyi bacarır:

Bir rüzgar alıb apardı
səni məndən,
Dilək ağacındakı
istək yaylığı kimi...
Küləklər şəhəriydi
– məmləkətim.
Bilirdim, bilirdim bir gün
Məni didəcək həsrətin.
Bir yetim uşaq kimi
Boynum qapı ağzında
inciyib büküləcək.
Sənsizliyin ağırlığı
Çiyinlərimdən
sümüklərimə tökülləcək...

Filologiya elmləri doktoru, professor **Vüqar Əhməd** bədii yaradıcılıqla müntəzəm məşğul olan alimlərimizdəndir. Onun da bədii yaradıcılığında şeir əsas yerlərdən birini tutur. Alim-şair "Ruhuma toxunmayın!", "Uşaqlıq xəyalları" və b. yeni şeirləriylə növbəti dəfə oxucularının görüşünə gəlib.

Filologiya elmləri doktoru, professor **Nizami Tağısoyun (Məmmədov)** şeirlərində xalqımızın başına gətirilən

qanlı faciələr, düşmən tapdağında inləyən torpaqlarımız və bu yolda döyüşərək şəhid olan qəhrəman oğullarımız haqqında söhbət açılır və heç zaman ruhdan düşməməyə, pessimizmə qapılmamağa çağırış səslənir. Bir çox kitablar müəllifi olan N.Tağısoy keçən il də yeni bir şeir kitabı nəşr etdirmişdir.[1] Öz şeirlərilə sanki bütün insanlığa haray çəkən Nizami müəllim yalanlar üzərində bərqərar olan dünyanın halına acıyır və bu gün hər yerdə ayaq tutub yeriyən "yalanı fəlakət və cinayət" adlandırır.

Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi **Zəkulla Bayramlı** yaradıcılığa, demək olar ki, şeirlə başlamış və 2015-ci ildə seçmə şeirlərini Zəki Bayram imzasıyla nəşr etdirmişdir. Onun yeni şeirlərində də ictimai-siyasi çalxantılar, vətən məhəbbəti, eləcə də saf və təmənnasız sevginin doğurduğu lirik-romantik duyğuların tərənnümü daha qabarıqdır.

Od oynundan od da qalmaz...
Odlar yurdu odda qalmaz...
Yad yadlığı yadda qalmaz,
Bizi bizdən qoru, Tanrım!

XX əsr Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi **İlham Məmmədli** bədii yaradıcılıqla da müntəzəm məşğul olan tədqiqatçı alimlərdəndir. Onun müxtəlif mətbuat orqanları və poeziya antologiyalarında çıxan şeirləri bu fikrimizi bir daha təsdiq edir. İlhamın şeirlərində hər gün vətən-yurd həsrətiylə yaşayan yaradıcı insanın həssas

[1] N.Tağısoy. Mənim Azərbaycanım. Bakı: "Elm və təhsil", 2018.

və nəcib ürəyi döyünür, əsirlikdə qalan yurd yerlərimizin və şəhidlik şərbətini içən yurddaşlarımızın narahat ruhu çırpınır.

Yenə payız gəlib bizim dağlara,
Obasız, ellərsiz Murov üşüyür.
Tənhalıq qorxusu sarıb canını,
Saçlarına düşən qırov üşüyür.

Kəsilib karvanı, qayıtmaz olub,
Zaman yanğısını soyutmaz olub.
Gələn hər bahar da ovutmaz olub,
Hər qaya dibində bir ov üşüyür.

...Qışın boranında yanıram, Allah,
Özümü atəşdə sanıram, Allah.
Yayın ortasında donuram, Allah,
İsti ocağımda alov üşüyür.

Ədəbi tənqid sahəsində öz sözü olan filologiya üzrə fəlsəfə doktoru **Qürbət Mirzəzadə** qəlbindən keçən yaşantıları ara-sıra şeirə gətirməyi də unutmur. Onun şeirlərində, əsasən, yumoristik-satirik ruh hakim olsa da, bəzən dünyada gedən qlobal siyasi dəyişimlərə də münasibət bildirilir, hətta lirik-emosional düşüncələrə də yer verilir:

Yenə düyünlənib ərzin qaşları,
Qurumur gözlərin axan yaşları.
Qardaş qardaşının qanın töksə də,
Gedir Suriyada haqq savaşları.

Mətbuat tarixi və publisistika şöbəsinin aparıcı elmi işçisi **Gülbəniz Babayeva** öz şeirlərində ictimai-fəlsəfi mövzulara daha çox meyl göstərir, dünyanın fəlsəfi dərkindən qaynaqlanan duyğu və düşüncələrini nəzmə çəkir. Maraqlıdır ki, Gülbəniz xanım ictimai-fəlsəfi fikirlərini bəzən sadə xalq diliylə, klassik aşıq şeiri üslubunda təqdim etməyə üstünlük verir:

Körpə uşaq kimi tutub əlindən
Çəkirəm bağçaya-bağa dərdimi.
Dolandım dünyanı, gecə sübhədək
Daşıdım arandan dağa dərdimi.

Sapanda qoydum ki, atam uzağa,
Yığılıb üst-üstə qalandı dağa.
Dedim, yağış olub çöllərə yağa,
Demədim, başıma yağa dərdimi.

Gülbəniz, zənn etmə sığar cahana,
Zərrəsi aləmi boyayar qana,
Qoymaram bu dünya od tuta, yana,
Əkdim ürəyimdə bağa dərdimi.

Bəzən də lirik-emosional duyğularını, hər bir həssas və romantik insanın qəlbində yuva salan ilk eşqin sağalmaz yaralarını sərbəst şeir şəklində misralara düzür. Cəmi bir neçə misradan ibarət olan bu kiçik şeirdə həssas ürəkli, zəngin mənəviyyatlı insanların yaşam tərzi ümumiləşdirilib. Təsadüfi deyil ki, müəllif şeiri "İnsan taleyi" adlandırıb:

İllərdir məhbusam sənin qəlbində,
qollarım bağlı, ətrafım zülmət...
Nə sabaha gedən yolum yox,
nə mənə ümid verən kimsəm.
Nə eşqinə əsir etdiyin bəndənə rəhmin gəlir
azad etməyə,
nə xoşbəxt etməyə divanəliyin.
Bir insan taleyi – işığa həsrət,
zülmətə məhkum.
Bu sonu görünməyən məhəbbət divanında
sən biganə hakim,
mən biçarə məhkum.
Bağışlanmaz günahım –
sənə olan eşqim.
Ən ağır cəzam –
ömürlük məhəbbətinə
sadiq qalmaq.
Edam yerim –
sənin qəlbin.

"Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi **Lütfiyyə Əsgərzadə** maraqlı və özünəməxsus düşüncə tərzini əks etdirən şeirləriylə seçilir. "Hanı alqışlar?" şeirində o, həyatda hamının qabaqcadan özü üçün yazılmış rolunu oynamaqda olduğunu dilə gətirir. Onu da deməliyik ki, müəllif bu rola etiraz edənlərin, hətta rolu geri qaytarmaq, yaxud dəyişmək istəyənlərin də olduğunu təbii, eyni zamanda, yersiz sayır. Maraqlıdır ki, Lütfiyyə xanımın başqa bir şeirində də bu tendensiya davam etdirilir; yəni insan üçün hər şeyin öncədən təyin olunduğu,

inad göstərməyin, çalışıb-çabalamağın mənasız olduğu vurğulanır, hətta bəzən oxucuya bu fəlsəfənin doğurduğu bədbinlik də sirayət edir.

...Bu cadugər dünyada,
Qala da mən, tələ də.
Heyrətlər içindəyəm,
Yol ölçürəm hələ də.

Bu yolun nə başı var,
Nə də sonu deyəsən.
Mənlik deyil bu dünya,
Hara gedim, görəsən?

Yazım çoxdan yazılıb,
Məndən öncə və mənsiz.
Üzüm gülmür nədənsə,
Səndən öncə və sənziz...

"Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru **Qəndab Əliyevanın** da şeirlərində sosial ədalətsizlikdən doğan ağrı-acılar, bütün şəxsi çaba və çalışmalara baxmayaraq, tale və qədərin insan həyatında oynadığı rolun əhəmiyyətinə inam hissi daha çox üstünlük qazanır. Qəndabın 2017-ci ildə nəşr edilən "Səni elə sevdim ki..." şeirlər kitabına ön söz yazan xalq şairi Musa Yaqub onun şəxsi lirik-romantik düşüncələrinə daha çox üstünlük verdiyini, "əksər şeirlərin lirik qəhrə-

manın pıçıltılarına həsr olunduğunu” göstərmişdir.[1] Təsadüfi deyil ki, müəllif də ustadı Musa Yaquba həsr etdiyi “Dədə” adlı şeirində görkəmli şairin özünəməxsus portretini cızmağa çalışır:

Sərt görünüşün arxasında,
Büllur kimi, yumyumuşaq
ürəyin var,
O tər-təmiz ürəyinə
Mücəffərlər, incilər dar;
Sındırmağından qorxuram.

Duruşuyla sərt görünür qayalar da,
Amma ki gör,
Birincidir düz ilqarda, etibarda!
Başı üstün qara buludlar alanda,
Gah özümü, gah gözümü,
Qandırmağından qorxuram.

“Yeni dövr Azərbaycan ədəbiyyatı” şöbəsinin böyük elmi işçisi **Təranə Məhəmmədqızı** da daha çox şeirləriylə özünü ifadə edən tədqiqatçı-alimlərdəndir. Artıq üç şeir kitabının müəllifi olan Təranə xanımın “Mənim doğma institutum” adlı şeirində qanlı-qadalı 30-cu illərdən başlayaraq Ədəbiyyat İnstitutuna rəhbərlik etmiş və burada çalışmış bir çox görkəmli alimlərin adları çəkilir, onların işıqlı xatirəsi hörmətlə yad edilir. “Miniatürlər” adlı başqa bir şeirində isə həyat və cəmiyyət haqqında fəlsəfi görüşlərini paylaşır:

[1]Qəndab Əliyeva. Səni elə sevdim ki... Bakı: “Mütərcim”, 2017, s.5.

İnam!
Dar ağacına qədər
Aparır insan oğlunu.
Ordan o yana –
Dar ağacında yellənən
Qanlı bayraq var!

"Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin böyük elmi işçisi **Lətifə Mirzəyeva** xalq şairi Söhrab Tahirə həsr etdiyi şeirini "Süngünü qələmə çevirən insan" adlandırmışdır. Bu şeirdə bir zamanlar Güney Azərbaycanda başlanmış Məşrutə inqilabının amansızcasına yatırılmasından sonra respublikamıza pənah gətirmiş şairin mübarizələrdə keçmiş həyat yoluna işıq salınır, onun xalqın yaddaşında yaşayan silinməz portreti əks olunur.

"Qədim dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi **Leyli Əliyeva** müxtəlif janrlarda qələmə aldığı şeirlər və bədii tərcümələrlə yanaşı, arabir klassik üslubda qəzəl də yazmağı unutmur. Hansı mövzuda və janrda yazmasından asılı olmayaraq, Leyli xanımın bütün yazılarında incə və həssas qəlbi döyünür, həyata və cəmiyyətə səmimi münasibəti boy göstərir.

"Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru **Rasim Qurbanov** bədii yaradıcılığın müxtəlif janrlarında qələmini sınayan alimlərimizdəndir. Onun "Miniatürlər" adlı şeirində gənc nəslin nümayəndələrinə nəsihətləri yer alır. Başqa şeirlərində isə müasiri olduğu dəyərli insanların şəxsiyyəti, onların xeyirxah və fədakar əməlləri təsvir edilir və gələcək nəsillərə örnək göstərilir.

Poeziyada artıq öz sözü olan **Bahar Bərdəlinin** imzası oxuculara yaxşı tanışdır. Bahar xanımın 2017-ci ildə nəşr edilmiş seçilmiş əsərlərinin I cildində müxtəlif illərdə yazdığı şeirləri toplanmışdır. Bu şeirləri oxuduqca görürük ki, o, yenə də gənclik həvəsilə yazıb-yaradır, şair-publisist Əlirza Xələflinin sözləriylə desək, "mənsub olduğu ədəbi nəslin taleyi və həm də yaşadığı dövr və zəmanə ilə bağlılığını" qoruyub saxlayır.[1] Bahar Bərdəlinin "Anamsız günlər" silsiləsindən olan şeirlərində poeziyanın əzəli-əbədi mövzusu olan ana məhəbbətindən ürək dolusu danışılır, sonda ana torpağa tapşırılan anaların müqəddəs ruhları hörmətlə yad edilir.

"Dünya ədəbiyyatı və komparativistika" şöbəsinin elmi işçisi **İradə Yusifovanın** şeirlərində də daha çox oğul-uşaq və ata-ana məhəbbətini tərənnüm edən misralar diqqəti çəkir. Artıq nəşr edilən şeirlərindən də göründüyü kimi, İradə xanım ailə-məişət və nəsil-soy bağlılığı haqqında ardıcıl olaraq qələm işlətməyi sevir.

Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, dosent, "Məlhəm" Humanist Qadınlar İctimai Birliyinin təsisçisi və sədri, institutun ictimai həyatında fəal iştirak edən X**ədicə İsgəndərli** bədii yaradıcılıqla da ardıcıl məşğul olur. Onun mənsur şeirlərdən ibarət "Bulaq üstə bitən susuz laləyəm" adlı kitabı işıq üzü görmüşdür. Oxucular Xədicə xanımın "Ana ürəyi", "Yaz yağışı-məhəbbət yağışı" və "Gözləri nəmli anam" adlı mənsur şeirlərilə yeni toplumuzda tanış ola biləcəklər.

Mətbuat tarixi və publisistika şöbəsinin elmi işçisi

---

[1] Bahar Bərdəli. Seçilmiş əsərləri, I c. Bakı: "Nurlan", 2017, s.7.

Gülnar Qasımova (Gülnar Səma) gənc şair kimi müxtəlif mətbuat orqanlarında ardıcıl çıxış edir. Artıq 3 şeir kitabının müəllifi olan, gənc şairlər arasında öz səsi, öz sözüylə seçilən Gülnar Səma "Gül" adlı yeni şeirlər kitabını 2016-cı ildə nəşr etdirmişdir. Tanınmış tənqidçi Vaqif Yusiflinin kitaba yazdığı ön sözdə deyilir: "Gülnar nədən yazır? – onun bir mövzusu var: sevgi. Bu sevgi kitablardan gəlmir, özünün yaşadığı, ürəyində əmanət saxladığı hissdir, duyğudur.

Bu sevgi yollarda düşüb qaldısa,
Məhəbbət deyilən dili laldısa,
Ayrılıq əbədi bir vüsaldısa,
Mən buna məhəbbət deyə bilmərəm.

Bu misralar sevən bir qəlbin əzablarından doğur. Amma bu əzabın özü də qəm-qüssə gətirmir, işığa can atır o qüssədən uzaq olmaq istəyən ürək".[1] Yaradıcılığında lirik-romantik mövzulara daha çox yer verən gənc şairə biz də, öz növbəmizdə, yeni yaradıcılıq uğurları və elmlə poeziyanın vəhdət sükanınından möhkəm yapışmağı arzulayırıq.

"Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin əməkdaşı **Nizami Vəliyevin** yeni şeirlərində onun öz anasına sonsuz sevgisi fonunda bizi dünyaya bəxş edən bütün analar ümumiləşdirilir, onların qarşısında olan mənəvi borcumuz xatırladılır.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışan tədqiqatçı alimlərin şeir yaradıcılığı haqqında son olaraq demək istərdik ki, onların qələmindən çıxan bədii örnək-

[1] V.Yusifli. Ön söz əvəzi- Dəli sevda şairi // Gülnar Səma. Gül. Bakı: "Mütərcim", 2016, s.4-5.

lərdə narahat dünyamızın, ictimai-siyasi hadisələrlə zəngin zəmanəmizin nəbzi döyünür, hamımızı son dərəcə qayğılandıran qaçqınlıq-köçkünlük dərdi, itirlmiş torpaqlarımızın nisgili qabarıq şəkildə özünü göstərir.

Bir sözlə, çağdaş dövrümüzün qarışıq hadisələrinə çevik reaksiya verən, dünyada gedən ədəbi-mədəni dəyişiklik və inkişafa obyektiv münasibət bildirən Azərbaycan ədəbi cameəsinin ayrılmaz tərkib hissəsidir.

N Ə S R

Ədəbiyyatşünas alimlərimizin nəsr yaradıcılığı da olduqca maraqlı və rəngarəngdir. Belə ki, burada kiçik hekayədən tutmuş böyük romanlara qədər yazıb-yaratmaq ənənəsi vardır. Məsələn, filologiya elmləri doktoru, professor **Qəzənfər Paşayevi** respublikada geniş yayılmış nəsr əsərləri müəllifi kimi çoxları tanıyır. Bir vaxtlar sevə-sevə oxuduğumuz "Altı il Dəclə və Fərat sahillərində" əsərinin müəllifi bu gün də nəsr yaradıcılığını uğurla davam etdirir. Onun "Mirəlinin siğə kəbini" adlı yumoristik novellasını oxuyan hər kəs müəllifin sadə, duzlu və incə yumor hissi qarşısında heyranlığını gizləyə bilmir.

Filologiya elmləri doktoru, professor **Məmməd Əliyev** "Səyahət" adlı hekayəsi ilə oxucuların görüşünə gəlib. Hekayədə ikinci dünya müharibəsi dövründə ucqar bir kənddə yaşayaıb-yaradan sadə adamların məişətindən, gündəlik qayğılarından və bütün çətinliklərə baxmayaraq, həyata nikbin münasibətlərindən şirin və yumorlu bir dillə söhbət açılır.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi **Mənzər Niyarlıdan** respublikamızda

həm də tanınmış yazıçılardan biri kimi söhbət açа bilərik. Onun "Yarımçıq məzuniyyət", "Yola dikilən gözlər", "Vətəndən vətənə", "Qürbətə aparan yollar" və b. hekayə və povestləri oxucular tərəfindən rəğbətlə qarşılanıb. "Mənzər xanımın qələmindən çıxan hekayələr, istər Sovet dövründə, istərsə də müstəqillik illərində həyati düşüncələrin, qəlbdən gələn həqiqətlərin, səmimi inandırıcı duyğuların tərənnümüdür. Onun çılğın bir ehtirasla təsvir və tərənnüm etdiyi insanlar, hadisələr təbiidir, realdır, oxucunu düşündürür, maraqlandırır. İnsan psixologiyasına yaxından bələd olan müəllif yaratdığı obrazların xarakterini müəyyən edir, real yaşantıları verməklə cəmiyyətdəki hadisələrə cazibədar bədii dillə münasibət bildirir".[1]

M.Niyarlının təxminən 90-cı illərin qanlı-qadalı, maddi-mənəvi sıxıntılar içərisində vurnuxan ucqar kənd adamlarının ağır dolanışığı, qocalıb-qarımış qızlarımızın acı taleyindən bəhs edən "Toy gününün səhəri" və "Dar gün" başlıqlı hekayələrini həyəcansız oxumaq olmur.

Nəğməkar şair **Vüqar Əhməd** həm də bədii nəsr sahəsində qələmini sınayır. Artıq onun bir neçə hekayə, povest və romanı nəşr edilmişdir. Nəsrdə özünə məxsus dili və təhkiyəsi olan Vüqar Əhmədin "Duzsuzluq", "Qulaqsız" və "Dünyanın xoşbəxti mənəm dünyada" adlı hekayələrinin rəğbətlə qarşılanacağına inanırıq.

"Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin baş elmi işçisi, dosent **Esmira Fuad** respublikamızın ədəbi-mədəni həyatında tanınmış simalardandır. Neçə kitabın müəllifi və

---

[1] M.Nəcəfova. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. Bakı: "Ekoprint", 2017, s.109.

tərtibatçısı olmuş Esmira xanımın özünəməxsus yaradıcılıq dəst-xətti və həyata, tarixə və insanlara orijinal yanaşma tərzi vardır. Onun qələmindən çıxan "Həyatımızın son cavabı – bu sevgidir…" adlı yazısı kövrək və səmimidir.

"Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru **Baba Babayev** də bədii nəsr yaradıcılığıyla, demək olar ki, ardıcıl məşğul olur. Onun hekayə və povestlərindən ibarət olan "Səni axtarıram" kitabı 2017-ci ildə işıq üzü görmüşdür.[1] Həyata realist və praqmatik baxışlarıyla seçilən Baba müəllim "Açılmayan sirr" və "Gülsara" adlı hekayələriylə oxucularının görüşünə gəlib.

"Nizamişünaslıq" şöbəsinin aparıcı elmi işçisi **Zəhra Allahverdiyevanın** vaxtilə anası və yaşlı qohumlarından eşitdiyi bəzi əfsanə-rəvayətləri oxuculara təqdim etməsi, sözün həqiqi mənasında, bizim də marağımıza səbəb oldu. "Türkün tarixi ulların yaddaşında" silsiləsindən onun yenidən işləyib qələmə aldığı "Ağrı" və "Zal oğlu Rüstəmin dastanı" əfsanələrini şifahi xalq yaradıcılığı ilə maraqlanan hər kəsin oxumasını məsləhət görərdik.

Oxucular **Mərziyyə Nəcəfova (Səlahəddin) və Fidan Abdurəhmanovanın** kiçik həcmli hekayələriylə də bu ilki toplumuzda tanış ola biləcəklər.

Bahar Bərdəlinin "Çıx yaşıl düzə..." başlıqlı hekayəsinin də maraq doğuracağına ümid edirik.

Bu ilki toplumuzda daha maraqlı və özünəməxsus bir bədii nəsr nümunəsini də təqdim etməyin sevincini yaşayırıq. Bu, "XX əsr Azərbaycan ədəbiyyatı" şöbəsinin əmək-

---

[1] B.Babayev. Səni axtarıram. Bakı: "Avropa", 2017.

daşı **Dilarə Adilgilin** "Şərqdə 36 gün və ya mənim üç dəniz arxasına səyahətim" adlı avtobioqrafik romanıdır.[1] Özünəməxsus oxunaqlı dili və bəhs etdiyi ölkələr kimi ekzotik təhkiyəsi olan bu maraqlı roman-yol qeydlərindən bir parçanı "Plyus bədii yaradıcılıq" ədəbi almanaxında verməyi özümüzə borc bildik.

İnstitutumuzun fəal əməkdaşları **Əsmər Hüseynova və Solmaz Həyatova** da öz hekayələriylə bu toplunu daha zəngin və oxunaqlı etməyə çalışmışlar.

B Ə D İ İ T Ə R C Ü M Ə

Ədəbiyyatşünas alimlərimiz şeir və nəsr yaradıcılığı ilə yanaşı, tərcüməçilik fəaliyyəti də göstərir, yeri gəldikcə dünya ədəbiyyatının müxtəlif örnəklərini ana dilimizdə səsləndirmək bacarıqlarını nümayiş etdirirlər. Məsələn, "Elmi nəşrlər və proqnozlaşdırma" şöbəsinin baş mütəxəssisi **Ülkər Hüseynovanın** böyük rus şairi A.S.Puşkinin həyat bioqrafiyasından bəhs edən "Hanibal – İbrahimdir" məqaləsinin rus dilindən tərcüməsi maraqla oxunur. "Rus ədəbiyyatının günəşi"ni daha yaxından tanımaq istəyənlər rus ədəbiyyatşünası N.Eydelmanın bu məqaləsini ana dilimizdə oxuyub estetik zövq ala bilərlər.

"Türk xalqları ədəbiyyatı" şöbəsinin baş elmi işçisi **Xuraman Hümmətovanın** sufi-təriqət ədəbiyyatının dahi şairi Y.Əmrənin "Risalətün-nüshiyyə" əsərindən etdiyi bədii tərcümə də dil-üslub baxımından çox ilginc və diqqət çəkicidir. Bu, fars dilində yazılmış klassik sufi mətnləriylə

---

[1] D.Adilgil. Şərqdə 36 gün və ya mənim üç dəniz arxasına səyahətim. Bakı: "Elm və təhsil", 2019.

maraqlananlar üçün, fikrimizcə, çox dəyərli və vaxtında atılmış addımdır.

Xanım Zairovanın Rainer Mariya Rilkedən orijinaldan – almancadan tərcümə etdiyi "Qələm və qılınc" (dialoq) adlı kiçik hekayəsi də maraqlı və oxunaqlıdır.

Qədim dövr Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi **Leyli Əliyeva** ingilis dilindən bədii tərcümələr etməkdə, demək olar ki, müəyyən təcrübəyə malikdir. Onun bu dəfə XVIII əsr ingilis şairi R.Bernsdən "Məhəbbətim bənzər al qızılgülə", rus dilindən M.Lvovskinin "Liriklər və fiziklər", eləcə də B.Slutskidən tərcümə etdiyi "Fiziklər və liriklər" şeirinin maraqla qarşılanacağına inanırıq. İstər forma, istərsə də məzmun baxımından mükəmməl olan bu şeirləri oxuduqca Leyli xanımın tərcümə sahəsində də artıq püxtələşmiş bir qələm sahibi olduğuna inanırıq.

"Dünya ədəbiyyatı və komparativistika" şöbəsinin aparıcı elmi işçisi **Cavidə Məmmədovanın** Uilyam Batler Yeytsdən (ingilis dilindən) etdiyi sətri tərcümələrin dəqiqliyi və lakonikliyi elə ilk oxunuşdan diqqəti çəkir.

"Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi **Pərvanə Məmmədli** qırğız şairləri Narsulu Qurqubayın "Anam Aykana" və Nuriz Ömürbayevin "Ürəyimə" və b. şeirlərini Azərbaycan dilinə uyğunlaşdırmışdır.

"XX əsr Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi **Aytən Rüstəmzadənin** rus yazıçısı Yelena Vasileviçin rus dilindən dilimizə çevirdiyi "Sinyor Cüzeppe" adlı hekayəsi də maraqla oxunan bədii yazılardan biri kimi qeyd olunmalıdır.

"Dünya ədəbiyyatı və komparativistika" şöbəsinin elmi işçisi **Mərcan Sofiyevanın** ingilis dilindən etdiyi bədii

tərcümələr də bizdə böyük maraq doğurdu. Onun Robert Börnsün "Al qırmızı qızılgül", "Ürəyim dağlarda döyünür mənim" və Persi Şelli Bişdən ana dilimizə çevirdiyi "Sevgi fəlsəfəsi" adlı şeirlər forma-məzmun və tərcümə texnikası baxımından dolğunluq və mükəmməllik təsiri bağışlayır.

"Nizamişünaslıq" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru **Təhminə Bədəlovanın** rus dilindən etdiyi tərcümələr də artıq bəzi mətbuat orqanlarında nəşr olunmuş və maraq doğurmuşdur. Onun 2003-cü ildə Moskvada çıxan "Yüz dahiyanə kitab"dan (müəlliflər: Y.A.Abramov və V.N.Dyömin) etdiyi E.Heminqueyin "Zəng kimin üçün çalır" və Ç.Dikkensin "Pikvik klubunun qeydləri" əsərləri haqqındakı maraqlı məqalələrin tərcüməsi həm bu əsərlər haqqındakı təsəvvürləri genişləndirir, həm də oxucuya onların müəllifləri barədə bəzi məlumatlar verir.

"Nizamişünaslıq" şöbəsinin aparıcı elmi işçisi, dosent **Zəhra Allahverdiyeva** N.Gəncəvinin "Ey dost" rədifli qəzəlini orijinaldan dilimizə çevirmiş və nizamisevərlərin diqqətinə təqdim etmişdir.

Zəkulla Bayramlı (Zəki Bayram) şeir yazmaqla yanaşı, yeri gəldikcə bəzi tərcümələr də edir. Onun rus klassikləri A.S.Puşkin və S.Yesenindən etdiyi tərcümələr diqqəti çəkir. Özəlliklə, Yeseninin dilimizə bir neçə tərcümə variantı olan məşhur "Mənim Şahanəm" şeirinin yenidən Z.Bayram tərəfindən ana dilimizə çevrilməsi yeseninsevərlərin marağına səbəb olacaqdır fikrindəyik.

Xanım ZAİROVA
Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN-AVROPA-AMERİKA ƏDƏBİ ƏLAQƏLƏRİ–2018

Ədəbiyyatların qarşılıqlı əlaqələr zəminində inkişafının tədqiqi ədəbiyyatşünaslığın aktual məsələlərindən biridir.

"...Milli ədəbiyyatlar bir-birindən tam təcrid olunmuş şəkildə mövcud deyildir, onların hamısı ya özlərinin əmələgəlmə ümumiliyi ilə, ya təkamüllərindəki oxşarlıqlarla, ya da onların arasında mövcud olan bilavasitə əlaqə və qarşılıqlı təsirin varlığı ilə, ya da ən nəhayət qeyd edilən şərtlərin ikisinin və ya üçünün eyni zamanda onların mümkün birləşməsi ilə qarşılıqlı əlaqədədirlər"[1].

Məruzəmizdə ədəbi əlaqələr bir neçə istiqamətdə nəzərdən keçirilmişdir:

1. Bədii tərcümə (xarici dillərdən Azərbaycan dilinə və Azərbaycan dilindən xarici dillərə)
2. Dissertasiya və elmi məqalələr
3. Xarici ölkələrdə nəşrlər və Beynəlxalq elmi jurnallarda hakimlik
4. Beynəlxalq konfranslar, simpoziumlar
5. Elmi müəssisələr, Birliklər arasında əlaqələr, müqavilələr, birgə layihələr
6. Yazıçı və şairlərlə, ədəbiyyatşünaslarla, səfirlərlə

[1] Берков П.Н. Алексеев– историк и теоретик литературы//Русско-европейские литературные связи, М-Л, "Наука", 1966, с.3-11.

görüşlər

1. Bədii tərcümə. Ədəbiyyatda qarşılıqlı əlaqələr tələbata çevrildiyi bir zamanda xalqların bədii əsərlərini bir dildən başqa dilə tərcümə etmək zərurəti meydana çıxmışdır.

Tərcümə ədəbi əlaqələr sisteminin tarixi keyfiyyətlərini bilavasitə ehtiva edir. Bədii tərcümə müxtəlif millətlərin ədəbiyyatlarının qarşılıqlı öyrənilməsində və ədəbi əlaqələrin inkişafında xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan dilinə tərcümə olunmuş əsərlər içərisində epik növün janrları çoxluq təşkil edir. Müxtəlif qəzet, jurnal və toplularda oxuculara təqdim olunmuş tərcümə əsərlərini belə təsnif etmək olar:

a) Korifeylər, XX əsrin klassiklərinin əsərləri

b) Modern ədəbiyyat

c) Nobel kürsüsü, Nobel nitqləri; Servantes mükafatı laureatları, Buker mükafatı laureatları

d) Nobel mükafatçılarının həyat və yaradıcılığı, əsərlərindən seçmələr

e) Memuar ədəbiyyatı.

f) İlahi və fəlsəfi əsərlər.

g) Aforizmlər.

Bədii tərcümə nümunələrinə Azərbaycan Dövlət Tərcümə Mərkəzinin nəşrlərində, Mərkəzin “Xəzər” jurnalında, “Aydın yol” qəzetində, Azərbaycan Yazıçılar Birliyinin nəşrləri olan “Azərbaycan”, “Ulduz” jurnallarında, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin “Dünya ədəbiyyatı” dərgisində və “Ədəbiyyat qəzeti”nin səhifələrində təsadüf olunur.

Azərbaycan Dövlət Tərcümə Mərkəzi və Yazıçılar

Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi tərəfindən nəşr edilən kitab və toplular, Azərbaycan ədəbiyyatı nümunələrinin müxtəlif dillərə tərcümə və dünyaya təqdim edilməsi, dünya ədəbiyyatı nümunələrinin ölkəmizdə işıqlandırılması, "YAY" kitab Teas Press nəşrləri, "Qanun", "Parlaq imzalar", "Hədəf" nəşrləri, "Xan" nəşriyyatının nəşrləri də xüsusi vurğulanmalıdır.

2018-ci ildə Azərbaycan Dövlət Tərcümə Mərkəzinin dəstəyi ilə Azərbaycan Ədəbiyyatının C.Məmmədquluzadə, Mir Cəlal, İ.Hüseynov, S.Əhmədli, İ.Məlikzadə, M.İbrahimbəyov, Y.Səmədoğlu, Anar, Elçin, M.Süleymanlı, K.Abdulla, E.Başkeçid, O.Fikrətoğlunun hekayələrindən ibarət "Das Geheimnis" (Sirr) toplusu L.Engel, H.Pabl, S.Dogan, H.Tanik, M.Kubin-Semyonova, Valtraud və Volfram Şröderlər tərəfindən alman dilinə çevrilib "Hans-Jürgen Maurer" nəşriyyatında nəşr edilmişdir. Kitabın redaktoru Hans-Yürgen Maurer, "Ön söz"ün müəllifi, Almaniyanın Vürtsburq Universitetinin professoru Ziglinde Hartmandır.

Mərkəzin tərcümə və tərtib etdiyi digər kitab isə XX əsr dünya poeziyasının korifeylərindən sayılan Çili şairi, Nobel mükafatı laureatı Pablo Nerudanın "Ümidsizlik nəğməsi" adlı kitabıdır. Kitabı dilimizə tanınmış şair-tərcüməçi S.Sarvan çevirib.

Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və təbliği istiqamətində Azərbaycan Dövlət Tərcümə Mərkəzinin ərsəyə gətirdiyi digər kitab Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "The World Dissolves like a Dream" ("Dünya yuxutək əriyir") şeirlər kitabı olmuşdur. Nəşrə daxil edilmiş 130 şeiri ingilis dilinə tanın-

mış ingilis şair və tərcüməçilər Karolina Valton və Anna Mariya Cekson çevirmiş və kitab Böyük Britaniyanın "Hertfordşir Press LTD" nəşriyyatında çap edilmişdir.

Azərbaycan ədəbiyyatının dolğun mənzərəsini əks etdirən digər toplu isə "Azərbaycan hekayələri" adlı kitabıdır. Böyük Britaniyanın "Hertfordşir Press LTD" nəşriyyatında ingilis dilində çap edilmiş kitaba Ə.Haqverdiyev, A.Vəliyev, M.Cəlal, Ə.Məmmədxanlı, İ.Şıxlı, İ.Hüseynov, S.Əhmədli, İ.Məlikzadə, Y.Səmədoğlu, M.İbrahimbəyov, Anar, V.Nəsib, Şahmar, Elçin, M.Süleymanlı, S.Oğuz, S.Səxavət, M.Oruc, K.Abdulla, A.Abbas, S.Budaqlının hekayələri daxil edilmişdir. Kitabın redaktoru yazıçı-tərcüməçi Anne Thompson, "Ön söz"ün müəllifi isə Elizabet Uaytdır.

ADTM-in xarici dillərdən Azərbaycan dilinə tərcümə edilmiş əsərlər sırasında Amerika ədəbiyyatından Şervud Andersonun müxtəlif illərdə qələmə aldığı hekayələrindən ibarət "Vaynzburq Ohayo" kitabını (tərc. T.Zeynallı), Tomas Vulfun roman və hekayələrindən ibarət "Dünyanın hörümçək toru" kitabı (tərc. A.Məsud və N.Əbdürrəhmanlı), Norveç ədəbiyyatından Tarey Vesosun "Buz Qəsr" və "Quşlar" romanları, "Nils Fet", "Nağıl", "Qışın son günləri" hekayələri daxil edilmiş "Buz Qəsr" kitabını (tərc.Yaşar); T.Vesos, F.Börnset, A.Myukle, N.Y.Rüd, L.A.Holma, E.Ekland, S.Holmebakk, İ.Svuinsos, Y.Qorderin hekayələri daxil edilmiş "XX əsrin Norveç hekayələri" toplusunu (tərc. Yaşar, G.Nəsib, F.Abdullayev, E.Başkeçid və M.Qarayev); İtaliya ədəbiyyatından Alberto Moravianın "Çoçara" romanı və Roma hekayələri sislsiləsindən olan hekayələri daxil edilmiş "Çoçara" kitabını (tərc. E.Başke-

çid və M.Qarayev), XX əsr İspan ədəbiyyatının klassiki Kamilo Xose Selanın "Seçilmiş əsərlər"ini (tərc. S.Budaqlı) qeyd edə bilərik.

Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi 2018-ci ildə bir sıra layihələrə imza atmış, ədəbi əlaqələr istiqamətində bir sıra görüşlər və ədəbiyyat günləri keçirmişdir. Belə ki, 2018-ci ilin mart ayında Mərkəzin təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakıda "Moldova ədəbiyyatı günləri", noyabr ayında Kişinyovda "Azərbaycan ədəbiyyatı günləri" təşkil olunmuşdur.

Bakıda təşkil edilən "Moldova ədəbiyyatı günləri"ndə dünya ədəbiyyatı jurnalının Moldova ədəbiyyatı ilə bağlı xüsusi sayı, eyni zamanda, Arkadi Suçevyanunun "Qağayı ilə göndərilən məktub" şeir toplusunun təqdimatı olmuş və poeziya gecəsi keçirilmişdir. Qeyd edilən kitablar Kişinyovda da təqdim edilmişdir.

2018-ci ildə Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi "Dünya ədəbiyyatı dərgisi"nin Serbiya poeziyasına həsr edilmiş xüsusi sayını Azərbaycan oxucusunun ixtiyarına vermişdir. Toplu Təqdimat, Poeziya, Ədəbi söhbətlər, Bakı-Belqrad ədəbi yazılar, Tərcümə-İrs və Bioqrafiyalar bölmələrindən ibarətdir.

Mərkəzin strategiyasındakı əsas xətlərdən biri olan Azərbaycan ədəbiyyatının dünya xalqları dillərinə çevrilməsi və nəşri istiqamətində də mühüm işlər görülmüşdür. 2018-ci ildə Mərkəz tərəfindən Moldovada Azərbaycan nəsri antologiyası, habelə rumın dilində Anarın "Ağ qoç, qara qoç" povesti, Əjdər Olun "Hərbi səhra komandirinin geyimi" adlı hekayələr toplusu, Sona Vəliyevanın "Dünya Tanrı biçimdədir" kitabı Polşada, Vroslavın "ATUT" nəş-

riyyatında polyak dilində çap olunmuşdur.

2018-ci ildə ən çox satılan kitabların siyahısına görə tərcümə edilən əsərlərin əksəriyyətinin detektiv və psixoloji əsərləri, habelə trillerləri əhatə etdiyini qeyd edə bilərik. "Qanun" nəşriyyatı – Den Braun, Agata Kristi, Şerlok Holms, "YAY Kitab" – Stiven Kinq, Ceyma Patterson, Harlan Koben, Teas Press nəşriyyat evinin "YAY" nəşrləri dünyada gənclər arasında populyar olan Cudit Maknaut, Nikolas Sparks, Ketrin Baybi, S.Harrison, Cemi Bek, Sara Dessen, Vulf Dorn, Stiven Kinq, Culian Barns, Lui de Bernyer,Cey Eşer, Linkoln Bardoda kimi yazıçıların bestsellere çevrilmiş əsərlərini; "Parlaq imzalar" nəşriyyatı – Corc Oruell, Aleksandra Kavelius, Kristi Braun, Qustav Flober, Erix Kestner; "**Hədəf Nəşrləri" və "XAN" nəşriyyatı** Qriqoriy Petrov, Paula Hokins, Artur Konan Doyl, Fridrix Nitsşe, Peter Ceyms, Svetlana Alekseyeviç, Teodor Drayzer, Cek London, Briggite Aubertin əsərlərini tərcümə edərək oxucuların ixtiyarına vermişdir.

Ədəbiyyat İnstitutunun əməkdaşlarının da bədii tərcümə sahəsində bir sıra uğurları olmuşdur. Tərcümə edilmiş əsərlər sırasında Cavanşir Yusiflinin ingilis dilinə tərcüməsində Fərid Hüseynin "Uçurum mənzərələri" əsəri və Sona Qarayeva-Axundova kitabı nəşr olunmuşdur.

Ədəbiyyat İnstitutunun "Ədəbiyyatşünaslıq, Plyus" Yaradıcılıq Birliyinin "Plyus bədii yaradıcılıq" Ədəbi almanaxında ədəbiyyat İnstitutunun 13 əməkdaşı tərəfindən çevrilmiş bədii tərcümə nümunələrinə yer verilmişdir.

2018-ci ildə tərcüməşünaslıq sahəsində görülən mühüm işlərdən biri də Azərbaycan Dillər Universitetində nəşr olunan Azərbaycan Tərcümə Ensiklopediyasıdır. Qu-

ruluş etibarilə nəzəri və praktik olmaqla iki hissəyə bölünən Ensiklopediya – Əsl bilik xəzinəsi (K.Abdulla), Sərəncamlar, sənədlər, Tərcümə elm sahəsi kimi (M.Nağısoylu, L.Əliyeva), Tərcümənin nəzəri və praktik prinsipləri (R.Əliyev), Tərcümənin fəlsəfi əsaslarına dair (A.Rüstəmova), Tərcüməşünaslığın predmeti və problematikası (A.Əkbərli), Azərbaycanda tərcümə ədəbiyyatı tarixi (M.Nağısoylu), personalilər, terminlər kimi bölmələrdən təşkil edilmişdir.

1. Dissertasiya və elmi məqalələr

2018-ci ildə Azərbaycan–Qərb ədəbi əlaqələri həm də dissertasiya və elmi məqalələr səviyyəsində də tədqiq olunmuşdur.

Həmid Abbasov "Fransız maarifçilik ədəbiyyatı və Şərq", Xədicə Cəfərova "İngilis postmodern nəsri və Viktorian romanı". Y.Makyuen yaradıcılığı", Türkan Mirzəzadə "Müasir Böyük Britaniya ədəbiyyatında roman formasının inkişaf yolları", Fəxriyyə Rəhimova "Çağdaş amerikan detektiv janrının ədəbi-bədii xüsusiyyətləri (Dən Braun yaradıcılığı əsasında), İlhamə Rüstəmova "İngilis və Azərbaycan romantizmində insan konsepsiyası", Elnarə Abdullayeva "Müasir dövrdə (1991-2011) ingilisdilli ədəbiyyatşünaslıqda Azərbaycan ədəbiyyatının öyrənilməsi problemləri", Sevinc Südeifzadə "Müasir ingilis ədəbiyyatında fentezi janrı" mövzularında filologiya üzrə fəlsəfə doktorluğu, Qabil Əhmədov "Artur Konan Doylun detektiv yaradıcılığının kompleks tədqiqi", Bəsirə Əzizəliyeva "XX əsrin birinci yarısında ABŞ-da ingilisdilli ərəb və rus mühacirət ədəbiyyatı" mövzularında filologiya elmləri doktorluğu dissertasiyaları yazmışlar.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müqayisəli Ədəbiyyatşünaslıq" və "Poetika.İzm" toplularında Avropa və Amerika ədəbiyyatına, ədəbiyyatşünaslıq məsələlərinə həsr olunmuş elmi məqalələr nəşr olunmuşdur.

2. Xarici ölkələrdə nəşrlər və Beynəlxalq elmi jurnallarda hakimlik

2018-ci ildə Ədəbiyyat İnstitutunun əməkdaşları bir sıra xarici ölkələrdə əsərlərini nəşr etdirmiş və beynəlxalq elmi jurnalların redaksiya heyətinə üzv seçilmişlər. Mahirə Quliyeva ("Введение в классическое арабо-мусульманское литературоведение". LAP. Riqa-Latviya. 2018, 243 s.); Gülər Abdullabəyova ("Просветительство в Азербайджане и Европе". SIA Ominiscriptum Publishing Brivibas gatve. Riqa, Latviya, 2018, 127 s); Təhminə Vəliyeva (Speech etiquettes in Azerbaijani and Azerbaijani language teaching. Latviya. "Lambert" Academic Publishing. 2018 (ingilis dilində), 84 s.); Mehman Həsənli (Çingiz Aytmatov: həyat və yaradıcılığı. Latviya, Riqa, LAP LAMBERT Academic Publishing, 2018, 164 s.); Aynurə Paşayeva. (Bilim ve Gazetecilik. Riga, Latviya, LAP LAMBERT Academic Publishing, 2018, 69 s.) və Gülnar Qasımlının (Путь развития, особенности жанра поэмы в литературе Азербайджана. Lambert Academic Publishing. Latviya, Riqa. 2018. 123 s.) monoqrafiyaları Latviyada; Qəzənfər Paşayev (Həyat düşüncələri. Tehran, 2018, 140 s.) və Asif Rüstəmlinin (Səttar Xanın Silahdaşı İran, Qum şəhəri, "Nəvidi-Hikmət" nəşriyyatı, 1397 (2018), 200 s.) monoqrafiyaları İranda nəşr olunmuşdur.

2018-ci ildə Ədəbiyyat İnstitutunun əməkdaşı, "Qədim dövr Azərbaycan Ədəbiyyatı" şöbəsinin aparıcı elmi

işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Ülkər Zakir qızı Məmmədova iki il müddətinə Nyu Yorkda dərc edilən "Science Publishing Group"a daxil olan "Arabic Language, Literature and Culture (ALLC)" jurnalının (http://www.sciencepublishinggroup.com/journal/index?journalid=199) redaksiya heyətinə, "Dünya ədəbiyyatı və komparativistika şöbəsi"nin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Cavidə Ağa qızı Məmmədova İJAR-Studies – Uluslararsı Akademik Araştırmalar Dergisinin (İnternational Journal of Academic Researchs Studies, http://ijarstudies.com) redaksiya heyətinin məsləhət şurasına, "Dünya ədəbiyyatı və komparativistika şöbəsi"nin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, Xanım Mikayıl qızı Zairova isə nəşriyyat şurasına üzv seçilmişdir.

3. Beynəlxalq konfranslar, simpoziumlar

Beynəlxalq filoloji konfrans və simpoziumların da ədəbi əlaqələrin inkişafında xüsusi rolu var. 2018-cı ildə Ədəbiyyat İnstitutunun əməkdaşları Avropa və Asiya ölkələrində – Avstriya, Fransa, Polşada, Rusiya, Türkiyə, Özbəkistan, MƏR, İran, Pakistan, Hindistan, Gürcüstan, ÇXR, Tatarstan kimi ölkələrdə keçirilən beynəlxalq ədəbiyyatşünaslıq konfranslarında və simpoziumlarında, beynəlxalq sərgilərdə iştirak etmişlər.

Amerika ədəbiyyatşünası Henri H.H.Remaka görə, müqayisəli ədəbiyyatşünaslıq dedikdə, bir tərəfdən müəyyən bir ölkənin sərhədlərini aşan ədəbiyyatın öyrənilməsi, habelə ədəbiyyatlar arasında əlaqələrin öyrənilməsi, digər tərəfdən isə ədəbiyyatın elmin digər sahələri, məsələn, incəsənət (rəssamlıq, plastika, memarlıq, musiqi), fəlsəfə, ta-

rix, sosial elmlər (politologiya, sosial elmlər), din və s. ilə əlaqəsi anlaşılır. Söhbət ədəbiyyatın insanın digər özünüifadə sahələri ilə müqayisəsindən gedir. Bədii yaradıcılığın və ədəbiyyatşünaslığın təkmilləşməsini təmin edən bu sahənin inklişafı istiqamətində AMEA da çoxsaylı işlər görülmüşdür. Başqa sözlə, müqayisəli ədəbiyyatşünaslığın təməlini təşkil edən fənlərarası əlaqələr istiqamətində Azərbaycan Milli Elmlər Akademiyası, MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHƏF) və Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) birgə təşkilatçılığı və Rusiya, Tatarıstan, Belarus, Gürcüstan, Bolqarıstan, Özbəkistan, Monqolustan, Qazaxıstan, Qırğızıstan Elmlər Akademiyası nümayəndələrinin iştirakı ilə Bakıda təşkil edilən "Fizika və lirika: dünya təcrübəsi və MDB ölkələrinin elm və ədəbiyyat reallıqları" adlı beynəlxalq konfrans xüsusi vurğulanmalıdır.

4. Elmi müəssisələr, Birliklər arasında əlaqələr, müqavilələr, birgə layihələr

Hazırda elmi müəssisələr arasında bağlanmış bir sıra müqavilələr, memorandumlar, protokollar da əlaqələrin inkişafına təkan verir. 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə həm Avropa ölkələrinin elmi müəssisələri - Bolqarıstan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu arasında Anlaşma Memorandumu; Moldova Respublikası Təhsil, mədəniyyət və tədqiqatlar Nazirlyinin "Boqdan Petrisisu Haşdeu" Roman Filologiyası İnstitutu arasında Əməkdaşlıq haqqında müqavilə; həm də Asiya ölkələrinin elmi müəssisələri – Pekin Xarici Tədqiqatlar Universiteti arasında Anlaşma Memorandumu; Monqolustan Elmlər Aka-

demiyası Dil və Ədəbiyyat İnstitutu arasında Əməkdaşlıq haqqında Memorandum; Çin Sosial Elmlər Akademiyasının Çin Milli Mədəniyyət Tədqiqatları Mərkəzi arasında Anlaşma Memorandumu; İmadəddin Nəsimi adına Dilçilik İnstitutu və Türkiyə Cumhuriyyəti Türk Dil Qurumu arasında Əməkdaşlıq protokolu; Bədii *Tərcümə və Ədəbi* Əlaqələr *Mərkəzi arasında Memorandum imzalanmışdır.* Qeyd olunan sənədlərdə ədəbi əlaqələrin inkişafına xidmət edən, bədii ədəbiyyatın tərcüməsi və təbliği istiqamətində layihələrin reallaşdırılmasına dair müddəalar da öz əksini tapmışdır.

5. Yazıçı və şairlərlə, ədəbiyyatşünaslarla, səfirlərlə gorüşlər

Xarici yazıçı və şairlərlə, ədəbiyyatşünaslarla, səfirlərlə gorüşlər Ədəbi əlaqələrin inkişafında xüsusi əhəmiyyətə malikdir.

2018-ci il mart ayında Moldova Ədəbiyyatı Günləri çərçivəsində ölkəmizdə səfərdə olan mədəniyyət və ədəbiyyat xadimləri Ədəbiyyat İnstitutunda olmuşlar.

Tədbirdə Ədəbiyyat sahəsində layihələrin həyata keçirilməsinin əhəmiyyəti vurğulanmış, belə mövcud olan əməkdaşlıqdan söz açılmış, Azərbaycan yazıçılarının bir sıra əsərlərinin moldovan dilinə, həmçinin Moldova yazıçılarının əsərlərinin Azərbaycan dilinə tərcümə və nəşr olunduğu qeyd edilmişdir

Tədbirdə Moldovanın ölkəmizdəki səfiri George Leuka Moldova Ədəbiyyatı Günlərinin əhəmiyyətini önə çəkərək, layihə çərçivəsində "Dünya ədəbiyyatı" jurnalının Moldova ədəbiyyatına həsr olunmuş xüsusi sayının hazırlanması, Arkadie Suçevianunun "Qağayı ilə göndərilən

məktub” şeir toplusu, İqor Volnitskinin “Mənə ölməyi öyrət” kitabının müzakirəsi və təqdimatları, habelə Moldova poeziya gecəsinin keçirilməsi barədə məlumat vermiş, habelə Moldovanın paytaxtı Kişinyov şəhərində Azərbaycan ədəbiyyatı ilə bağlı çap edilən kitabların təqdimatı keçiriləcəyini vurğulamışdır.

Azərbaycan Dövlət Tərcümə Mərkəzində də bir sıra görürşlər keçirilmişdir. İspaniya Krallığının rəsmisi cənab İqnasio Sançes Taboada, Ukrayna Yazıçılar Birliyinin sədri Vladimir Danilenkonun başçılığı ilə Ukrayna yazıçıları heyəti, Argentina Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri cənab Karlos Dante Riva, Argentina Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili cənab Eduardo Cavallero, Kosta-Rika Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili cənab Jairo Lopez ilə Norveç Krallığının müvəqqəti işlər vəkili cənab Olav-Nils, Misir Respublikası Səfirliyinin Mədəniyyət məsələləri üzrə attaşesi ilə görüşlər keçirilmiş, ölkələrimiz arasında ədəbi-mədəni əlaqələrdən, ədəbi mübadilələrin inkişaf yollarından, bu istiqamətdə həyata keçirilən beynəlxalq layihələrdən, nəşr edilən elmi və bədii əsər və toplıuların xarici ölkələrin kitabxanalarına yerləşdirilməsindən, beynəlxalq sərgilərdə dünya ictimaiyyətinə təqdim edilməsindən bəhs edilmişdir.

2018-ci ildə Azərbaycan-Avropa-Amerika ədəbi əlaqələrinə baxış söyləməyə əsas verir ki, sözügedən sahədə əlaqələrin inkişafı məhsuldar olmuşdur və ədəbi əlaqələrin inkişafında əsas xidmətin böyük bir hissəsi də Ədəbiyyat İnstitutunun payına düşür.

Eşqanə BABAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

AZƏRBAYCAN VƏ TÜRK DÜNYASI ARASINDA ƏDƏBİ ƏLAQƏLƏR–2018

2018-ci ilin ədəbi yekunlarına baxdıqda, Azərbaycan və türk xalqları arasında ədəbi-mədəni əlaqələrin böyük inkişaf sürətinə qədəm qoyduğunu görürük. Öncəki illərdə olduğu kimi, ötən il də türk, özbək, qazax, türkmən, qırğız və s. türk xalqları arasındakı ədəbi əlaqələrin inkişafında intensivlik müşahidə olunur. 2018-ci ildə ədəbi əlaqələr müstəvisində bir sıra elmi-nəzəri konfranslar, görüşlər keçirilmiş, dissertasiya, monoqrafiya və məqalələr çap olunmuşdur.

Ötən illərdə olduğu kimi, 2018-ci ildə də Azərbaycan-Türkiyə arasında ədəbi-mədəni əlaqələr olduqca sıx olmuşdur. Bu səpkidə çoxlu məqalələr yazılmış, beynəlxalq elmi-nəzəri konfranslarda məruzələr dinlənilmişdir. Diqqəti cəlb edən əsərlərdən biri də akademik İsa Həbibbəylinin "Ədəbiyyat tarixçiliyinin Ə.Kabaklı konsepsiyası" sərlövhəli məqaləsidir. Akademik İ.Həbibbəyli Ə.Kabaklının "Türk ədəbiyyat tarixi"ni yüksək qiymətləndirərək yazır ki, Əhməd Kabaklının 5 cildlik "Türk ədəbiyyatı" kitabı türk dünyası ədəbiyyat tarixçiliyinin mühüm elmi hadisəsi sayılmağa layiqdir. "Türk ədəbiyyatı" kitabı Türkiyə ədəbiyyat tarixçiliyində Əhməd Kabaklı mərhələsinin fərqli və mükəmməl nümunəsidir. Böyük zəhmətin, dərin və geniş elmi dünyagörüşün nəticəsində formalaşmış ədəbiyyat konsepsiyası əsasında yaranmış "Türk ədəbiyyatı"

müasir dövrdə çoxcildlik, ümumiləşdirilmiş ədəbiyyat tarixləri yazmaq üçün əhəmiyyətli elmi mənbə olmaqla bərabər, həm də yeni ədəbiyyat konsepsiyaları hazırlamaq baxımından düşündürücü elmi-nəzəri örnəkdir".

Görkəmli türkoloq professor Əsgər Rəsulovun "Nazim Hikmət və Mövlana" (Türk filologiyası, № 1, s.8-13), "Ziya Paşanın maarifçi-publisistik nəsri" (Türk filologiyası, № 2, s.9-14), "Milli-mənəvi sərvətimizin etibarlı saxlancı" (Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları. Bakı, Elm və təhsil, 2018, 248 s. s.3-8), "Yalqızlığın tablosu ve onun assosiasiyaları" (N.Əbdülrəhmanlı. Sözlə keçilən yol, s.281-287), "Belgesel düzyazı ve Fuzulinin "Şikayetname"si" (Türkologiya junalı, №2, s.76-84) və s. kimi məqalələri böyük əhəmiyyət kəsb edir.

Ədəbi əlaqələrimizin inkişafında xüsusi yeri olan alimlərimizdən biri də Ramiz Əskərdir. 2018-ci ildə alimin iki kitabı çap olunmuşdur. Hər iki kitab R.Əskərin qazax dilindən tərcüməsi, tərtibatı və ön sözü ilədir. "Mağcan Cumabay. Ölüm, mənə ağı de" kitabında dahi qazax şairi, ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi Mağcan Cumabayın seçilmiş şeirləri dilimizə tərcümə edilmişdir. "Mağcan Cumabay. Türkistan" kitabında isə tərcümələr qazaxca orijinalları ilə birlikdə geniş oxucu kütləsinə təqdim edilmişdir. R.Əskər kitabın önsözünda Cumabayın həyatı, yetişdiyi ədəbi mühit haqqında geniş məlumat vermiş, şairin ümumtürk ədəbiyyatındakı mövqeyini göstərmişdir. Onu da qeyd edək ki, alim ədəbi əlaqələrin inkişafındakı fəaliyyətinə görə bir sıra mükafatlarla - Qazaxıstanın Mağcan Cumabay xatirə medalı, Türk Akademiyasının Vilhelm Tomsen adına medalı və TürkSOY-un 25 illiyi

medalı ilə təltif edilmişdir.

Türkologiyamıza töhfə olan əsərlərdən biri də akademik Nizami Cəfərovun (həmmüəlliflər A.Qəribli və E.Qəribli) "Türkologiya" kitabıdır. Kitabda Türklər haqqındakı elmin əsas problemləri, türklərin mənşəyi, qədim türklər, türklərin diferensiasiyası, türk xalqlarının təşəkkülü və Türk dünyasında inteqrasiya məsələləri elmi-ideoloji baxımdan ətraflı araşdırıılmışdır.

Professor E.Quliyevin "Estetik türk nesrinin olgun bir örnegi olarak Cengiz Aytmatovun eserleri" (Ç.Aytmatovun 90 illiyinə həsr olunmuş IV Uluslararası konfransın materialları, Türkiyə, Bursa, s.119-129), "İ.Qaspiralı yaradıcılığında qadın problemi"(I, II məqalə) "Kaspi" qəzeti, 17 yanvar, 28 yanvar), "Cengiz Dağcının şeir yaradıcılığı" **(**Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu Beynəlxalq elmi konfrans materialları, 4-5 dekabr 2018-ci il), "Cengiz Dağcı" ("Türk yurdu" jurnalı, s.79-82) və s. kimi 10-dan yuxarı məqaləsi dərc olunmuşdur. Onu da qeyd edək ki, E.Quliyev TÜRKSOY-un və Türk Ocaqlar Birliyinin təşkilatçılığı ilə Türkiyənin İstanbul, Ankara, Bursa, Eskişehir, Uşak, Balıkesir şəhərlərində C. Aytmatovun 90 ("Ç.Aytmatov yaradıcılığında milliliyin təzahür formaları", "Ç.Aytmatov yaradıcılığında mifik və real düşüncə tərzi", "Ç.Aytmatov romanlarında insan və zaman konteksi", "Ç.Aytmatov nəsrində totalitar maraqlara qarşı etiraz" və s. məruzələrlə) və C.Dağcının 100 ("Cengiz Dağcı nəsrində Krım türklərinin həyatı və faciələrinin bədii əksi") illiklərinə həsr edilmiş Beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmişdir. Qeyd edək ki, professor E.Quliyev ədəbi əlaqələrimizin və Azərbaycan ədəbiyyatının inkişa-

fındakı xidmətlərinə görə Türkiyə Cümhuriyyəti Başbakanlıq TİKA Təşkilatının xüsusi təltifinə layiq görülmüşdür (Ankara, 23 aprel 2018-ci il). Türk xalqları ədəbiyyatının araşdırılması və təbliği sahəsində xidmətlərinə görə isə TÜRKSOY-un diplomu ilə (Ankara 14 noyabr 2018-ci il) təltif olunmuşdur.

Professor Nizami Tağısoy il ərzində müxtəlif qəzet və jurnallarda ədəbi əlaqələr mövzusunda 30-dan çox məqalə çap etdirmişdir. Bunlardan "Qazax xalq qəhrəmanlıq dastanı "Koblandı-batır" ("Xalq cəbhəsi"), "Koblandı-batır" qazax xalq poeziyasının orijinal örnəyidir" ("Xalq cəbhəsi"), "Ko Unun şeirləri Azərbaycan-Koreya ədəbi əlaqələri kontekstində" ("Ədalət" qəz.), , "90- cı illərin əvvəlləri türkmən ədəbiyyatına eksklüziv nəzər" ("Ədəbiyyat" qəz.,), "Türkmənlərin Novruz mərasimlərinə bir nəzər" (AMEA.Humanitar Elmlər, №1, s.188-190), ""Koblandı-batır" da real tarixi hadisələr və şəxsiyyətlər" ("Xalq cəbhəsi", 2018, 25 oktyabr, s.14.) və s. adlarını qeyd edə bilərik. Bu məqalələrin arasında təkcə türk, qazax, türkmən, özbək deyil, eyni zamanda çox az tədqiqata cəlb edilən Azərbaycan-Qaraçay, noğay ədəbi əlaqələrinə də həsr olunmuş tədqiqatlar geniş yer tutur. Bu baxımdan, professorun "Müasir noğay ədəbiyyatı: İsa Kapayev yaradıcılığına yığcam baxış" ("Ədəbiyyat" qəz,2018, 14 aprel, s.13.), "İsa Kapayevi tanıyırıqmı?!" ("Xalq cəbhəsi",2018, 13 iyun, s.14.) kimi məqalələri əhəmiyyət kəsb edir. Bundan başqa, N.Tağısoy bir sıra beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmişdir. Bunlardan, "Muxtar Auezovun "Qəddar illər" romanı tarixiliklə bədii gercəklik kontekstində", "Muxtar Auezov nəsrində tarixiliklə bədii gerçəkli-

yin simbiozu", "Məhtimqulu, Vaqif və Hacıniyaz poeziyasının motiv, mövzu və obrazları müqayisəli-tipoloji təhlil kontekstində" və s. adlarını qeyd edə bilərik.

Filologiya üzrə fəlsəfə doktoru Xuraman Hümmətovanın da ədəbi əlaqələrin inkişafı istiqamətində bir sıra məqalələri dərc olunmuşdur. "Qabdulla Tukay yaradıcılığı tatar ədəbiyyatının yüksək zirvəsi kimi" (AMEA. Xəbərlər. Ədəbi əlaqələr, №1. S.153-156.), "Bəkir Çobanzadə: parlaq zəkalı alimin incə ruhlu şairliyi" (525-ci qəzet, 13 yanvar), "Qabdulla Tukay. Samanbazarı, yaxud Yeni Kəsikbaş" (Plyus bədii yaradıcılıq(ədəbi almanax) II kitab, s. 420), "Mövləvi təriqətinin əsas atribut modeli: səma ayini" (Ədəbiyyat məcmuəsi, XXXII cild, s. 230-239) ,"Yunus Əmrənin " Risalətün-nüshiyyə" məsnəvisi ilk türkdilli məsnəvi kimi" ("Sancaq", 27 yanvar), "Ayaz İsaki və XX əsr Azərbaycan ədəbiyyatında milli özünüdərk düşüncəsi" (Ayaz İsak və XX əsrin əvvəllərində tatar intibahı Beynəlxalq Elmi konfransın materialları. Kazan. 6-7 sentyabr 2018-ci il, səh. 28-35) və s. məqalələrdə türk xalqlarının müxtəlif problemləri işıqlandırılmışdır.

Filologiya üzrə fəlsəfə doktoru F.Vəliyevanın il ərzində "Divan ədəbiyyatının mütəfəkkirlərindən olan Məsihinin "Vərqa və Gülşa" əsəri folklor kontekstində", "Yunus Əmrə yaradıcılığında bəşəri və ilahi eşq mövzusunun yeri", "XIII-XV əsr anadilli Türk şeirində eşq motivi", "Hacı Bekdaşi Vəli şeirində əski türk inanclar" məqalələri və "Yunus Əmrə və folklor" adlı monoqrafiyası nəşr olunmuşdur.

Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişafında böyük xidməti olan professor A.Abıyevin ötən il bu səpki-

də bir sıra məqaləsi dərc olunmuşdur. Professorun "Həmdullah Sübhi Tanrıövərin yaradıcılıq yolu" məqaləsində Türkiyə ədəbiyyatı tarixində şair, nasir və natiq kimi məşhur olan Həmdullah Sübhinin həyat və yaradıcılığından söhbət açılır, yaradıcılığının spesifik xüsusiyyətləri işıqlandırılır. Onu da qeyd edək ki, A.Abıyev Ö.Seyfəddinin hekayə və novellalarını Azərbaycan türkcəsinə uyğunlaşdıraraq çap etmişdir. Kitab, professorun "Hekayə ustasının həyat yolu" başlıqlı ön sözü ilə çap olunmuşdur.

Müəllifin (E.Babayeva) Azərbaycan-Türkiyə ədəbi əlaqələri istiqamətində ölkədə və xaricdə olmaqla 20-dən çox məqaləsi nəşr edilmişdir. Bunlardan "Salkım söğütlerin gölgesinde" romanı üzerine bir inceleme", X.Ə.Adıvarın "Tatarcıq" romanında Şərq-Qərb dilemması, "Faiq Baysalın "Sarduvan" romanında urbanizasiya", "Güzidə Səbri Aygünün türk ədəbiyyatında mövqeyi", "Güzidə Səbri Aygünün "Bir qadının evrak-i metrukesi" və "Nedrət" romanında bədii konflikt və başqalarını qeyd edə bilərik.

Filologiya üzrə fəlsəfə doktoru A.Xəndanın da 10-dan çox elmi məqaləsi çap olunmuşdur. Bunlardan "Xalid Fəxri Ozansoy yaradıcılığında əruzdan hecaya keçid", "Heca vəzni türk xalq poeziyasının doğma vəzni kimi", "Enis Behiç Koryürək poeziyasının əsas xüsusiyyətləri", "Социальная сущность поэзии Мехмед Акиф Эрсоя", "Türk və Azərbaycan romantizminin bəzi nümayəndələri", "Türkçülük cərəyanı və onun ilk nümayəndələri", "XX əsr türk poeziyasında Atatürk obrazı və milli mübarizə mövzusu" və s.-nin adlarını qeyd edə bilərik. Tədqiqatçı "Türk poeziyasında XIX əsrin sonu, XX əsrin əvvəllərində yeni

ədəbi janrlar və cərəyanlar” məqaləsində XX əsrin əvvəlləri Türkiyədə ədəbi mühit haqqında dolğun məlumat yaratmış, yeni ədəbi janrlar və cərəyanlar haqqında fikir və mülahizələr yürütmüşdür. “XX əsr türk poeziyasında milli mübarizə mövzusu” adlı məqaləsində isə türk poeziyasında vətənpərvərlik mövzusuna toxunmuş, milli mübarizənin poeziyada təzahüründən bəhs etmişdir. Ümumiyyətlə, bu məqalələrin hər birisində müqayisəli-təhlil metodundan istifadə edilmişdir.

Azərbaycan-Türkiyə ədəbi əlaqələri müstəvisində fil.f.d. N.Mustafayevanın da bir sıra məqalələri çap olunmuşdur. “Bəxtiyar Vahabzadə yaradıcılığı Türkiyə ədəbiyyatşünaslığında” adlı məqalədə Azərbaycan şairi Bəxtiyar Vahabzadə yaradıcılığının Türkiyədə araşdırılması məsələsi tədqiq edilir. Göstərilir ki, Türkiyədə ən çox öyrənilən Azərbaycan şairlərindən biri məhz Bəxtiyar Vahabzadədir. Onun yaradıcılığında araşdırılan əsas problemlərdən biri Azərbaycan istiqlalı, türk xalqlarının birliyi və ana dili-türk dilinin tərənnümüdür. Şuayib Karakuş, Ərdal Karaman, Əhməd Buran, Yaqub Çelik, Nurullah Çətin, Mitat Durmuş, Cəfər Garipər, Hüsniyə Zal Mayadoğlu, Məhməd Fateh Kantər, Şərif Aktaş, Nəsrin Feyzioğlu, Bayram Gündoğdu və b. onlarla tədqiqatçının araşdırma obyekti Bəxtiyar Vahabzadənin yaradıcılığı olmuşdur. Bu araşdırmalarda Azərbaycanda aparılan tədqiqatlardan da geniş istifadə edilmiş, istinadlar verilmişdir. N.Mustafayevanın “Mirzə Fətəli Axundzadə yaradıcılığı Türkiyə ədəbiyyatşünaslığında” adlı məqaləsində isə Mirzə Fətəli Axundzadə yaradıcılığına Türkiyə ədəbi-nəzəri fikrinin münasibəti araşdırılır. Qeyd edilir ki, Türkiyə ədəbiyyatşünaslığı-

nın Azərbaycan ədiblərindən ən çox maraq göstərdiyi və tədqiq etdiyi Mirzə Fətəli Axundzadədir. Onun həyatı və yaradıcılığı yetmiş ildən çoxdur ki, Türkiyə elmi-nəzəri fikrində tədqiqata cəlb edilir. Fuat Köprülü, İsmayıl Hikmət Ertaylan, Ziya Göyalp, Yusif Akçura, Feyzi Aküzüm, Dündar Akünal, Yavuz Akpınar, Hüseyn Tuncər, Fevziye Abdullah Tansel və b. ədəbiyyatşünasların araşdırmalarında onun yaradıcılığı müxtəlif yönlərdən qiymətləndirilir. Onun, "Almas İldırım yaradıcılığı Türkiyə ədəbi mühiti kontekstində" mövzusunda yazdığı məqalədə isə Almas İldırım yaradıcılığı Türkiyə ədəbi mühiti kontekstində araşdırılır. Qeyd edilir ki, Almas İldırım Sovet Azərbaycanından Dağıstana, sonra isə Aşqabada sürgün olunduqdan sonra burada yaşaya bilməmiş, çox çətinliklə Türkiyənin Elazığ şəhərində məskunlaşmışdır. 30-cu illərin ortalarından Almas İldırımın həyatı və yaradıcılığı Türkiyə ədəbi mühiti kontekstində inkişaf etmişdir. Buna görə də Türkiyədə şairin həyatı və yaradıcılığı haqqında müəyyən məqalələr yazılmış, əsərləri bir neçə dəfə nəşr edilmişdir. N.Mustafayeva bu məqamlara toxunaraq bildirir ki, bütün bunlarla yanaşı şairin həyatı və yaradıcılığı ilə bağlı Türkiyədəki araşdırmalar qənaətbəxş deyildir, yalnız Ə.Arasın araşdırmaları və şairin əsərlərinin nəşrini bu istiqamətdə atılan uğurlu addımlardan biri hesab etmək olar. Bunlardan başqa, N.Mustafayevanın "Kardeş Yardımı" Dergisi Türkiye Araştırmalarında", "Mehmet Fuat Köprülü ve Azerbaycan Edebiyatı" (TÜRKKÜM-Uluslararası Türk Kültürü ve Medeniyeti Kongresi – "Çin Seddinden Adriyatike Geleceğe Bakış". Bildiri Özetleri. 05-08 Eylül 2018, Balıkesir/Burhaniye), "Yeni Kafkasya Dergisinde

Kafkasya Halklarının Münasebetleri Meselesi” və s. adlarını qeyd edə bilərik.

Filologiya üzrə fəlsəfə doktoru, dosent S.Gündoğdunun “Sıratı-müstəqim” məcmuəsində Çərkəş Şeyxzadə Xəlil Xalidinin bir yazısı” başlıqlı məqaləsində müstəsna bir Osmanlı ziyalısı, şərqşünas alim, mütəfəkkir Cambrige Universitetində türkcə dərs verən ilk Osmanlı vətəndaşı olan X.Xaliddən bəhs edilir. Qeyd edək ki, o, “Üstadı-Ülum” ünvanını almış, əsərlərində Şərq dünyasının sosial problemlərini qələmə almışdır. Məqalədə göstərilir ki, X.Xalid J.Gibblə dostluq etmiş, onun “Osmanlı tarixi” adlı 12 cildlik əsərinin ərsəyə gəlməsində mühüm rolu olmuşdur. Məqalədə X.Xalidin “Sıratı-müstəqim” jurnalında nəşr olunan yazısı təhlil edilmişdir. Müəllifin, “İqdam” qəzetinin təşəkkül tarixi və strukturunun analizi” başlıqlı məqaləsində isə türk mətbuat tarixində, eləcə də, türk ədəbiyyatının inkişafında mühim rolu olan “İqdam” qəzetinin təşəkkül tarixi, strukturuna nəzər salınmış, qəzetdə yer alan mövzular və başlıqlar ərəb əlifbasından transliteratsiya edilən nüsxələr əsasında tədqiq edilmişdir. S.Gündoğdunun, “ll Məşrutiyyət dönəmində yayınlanan “Tanin” qəzeti və qurucuları” adlı məqaləsində isə qeyd edilir ki, türk mətbuat, siyasət və ədəbiyyat tarixində mühüm yeri olan Tanin qəzeti illərlə davam edən II Əbdülhəmid hakimiyyətinin başa çatdığı II Məşrutiyyətin elanı ilə işıq üzü görmüşdür. Məqalədə, qəzetin əsas qurucuları olan H.Cahid Yalçın, Hüseyin Karım və T.Fikrətin “Tanin” qəzetinin ərsəyə gəlməsindəki fəaliyyəti işıqlandırılmışdır. S.Gündoğdu, eyni zamanda bir sıra beynəlxalq elmi konfranslarda da məruzələr etmişdir. Bunlardan, “M.Akif Ərsoy yaradı-

cılığında Milli Mübarizənin bədii təcəssümü", "Osmanlıda modernləşmə-ədəbi və mədəni əlaqələr", "Tanin" gazetesinde yayınlanan Batı edebiyatı örnekleri üzerine bir inceleme" adlarını qeyd edə bilərik.

Filologiya üzrə fəlsəfə doktoru Barat Osmanovanın "A.Mühiddinin türk ədəbiyyatı haqqındakı düşüncələri" adlı məqaləsində A.Mühiddinin həyatı və fəaliyyətindən bəhs olunmuşdur. Qeyd edilir ki, Muhiddin Birgen 1922-ci ildə Bakıya gəlmiş, universitetdə dərs demiş, eyni zamanda Azərbaycan haqqında silsilə məqalələr yazmışdır. Məqalədə onun həyatı haqqında dolğun məlumat verilmiş, onun "Maarif və mədəniyyət" jurnalında çap olunmuş məqalələri haqqında fikir və mülahizələr araşdırılmışdır.

Filologiya üzrə fəlsəfə doktoru R.Quliyevin "Kamal Tahirin "Devlet Ana" romanında tarixilik" məqaləsində Kamal Tahir yaradıcılığında önəmli yer tutan "Devlet Ana" romanında yaradıcılıq problemi, tarixi hadisələrin və bədii obrazların təsviri ilə şərtlənir. R.Quliyevin "O həm də tanınmış şair idi" məqaləsində isə Əhməd Hamdi Tanpınarın yaradıcılığından, xüsusən də poeziyasından bəhs edilir.

Filologiya üzrə fəlsəfə doktoru Ü.Baxşıyevanın da Azərbaycan-Türkiyə ədəbi əlaqələri mövzusunda bir sıra məqalələri dərc olunmuş, müxtəlif beynəlxalq elmi konfranslarda məruzə ("Yunus İmrə poeziyası və təsəvvüf" // Gənc Tədqiqatçıların II Beynəlxalq konfransının materialları, s.1290-1292; "Ziya Paşa poeziyasının forma və məzmun xüsusiyyətləri" "Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu" mövzusunda Beynəlxalq elmi konfrans, 4-5 dekabr və s.) etmişdir. Tədqiqatçının, "Cengiz Aytma-

tovun "Gün var asra beraber" eserinde totalitar ve Türk milli meraklarının karşılaşması" başlıqlı məqaləsində Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsərində totalitar və türk milli maraqlarının qarşılaşması istiqamətində təhlillər aparılmışdır. Məqalədə bir çox bəşəri məsələlərə toxunulmuş, dünyada qlobal problem olan müharibələrə son qoyulması məsələləri ,cəmiyyətdə milli-mənəvi dəyərlərin qorunması, milli kökə bağlılıq məsələləri əsas təhlil obyektinə çevrilmişdir . Ü.Baxşıyevanın, "Cengiz Dağcı şeirlərində vətənpərvərlik mövzusu" adlı məqaləsində isə Çingiz Dağcı şeirləri həm mövzu, həm janr, həm də dil quruluşu baxımından təhlilə cəlb olunur.

Bunlardan başqa, Azərbaycan-Türkiyə ədəbi əlaqələri sahəsində fil.ü.f.d. A.Turanın "Maqsud Şeyxzadə ilə bağlı bəzi mübahisəli məqamlar", "Bir qəribə şair O.Vəli", fil.ü.f.d. E.Şükürovanın "Cengiz Dağcı ve "Yurdunu kayb edən adam"ın Türküstan, istiklal və milli kimlik sevdası", fil.ü.f.d. B.Əzizəliyevanın "Muhsin Kadıoğlunun "Kızılelma" kitabında türkün Qızıl Alma idealı", "Dünyanın ən qədim eşq şeiri", "Turan Yazqanın görüşlərində və fəaliyyətində türk dünyası" (həmmüəllif Muhsin Kadıoğlu. "Türkologiya" jurnalı, № 3, s.11-20.), fil.ü.f.d. L.Kərimovanın "Kağizmanli Hifzi eserlerinin türk halk edebiyatinda yeri ve önemi", "Geçmişten günümüze Tokat aşıkları ve şairleri", fil.ü.f.d. P.Məmmədlinin "Biz Türküz soyumuz Türk! söyleyen Kaşkay türkleri", "Ünlü Rus yazarların eserlerinde Türkiye", "Kağızmanlı Hıfzı'nın ve Tebrizli Hamid Nutki'nin Şiirlerinde İşledikleri Ortak Konular", A.Rəşidlinin"Orxan Pamukun "Qar" romanında qarın simvolikası", X.Abdullayevanın "Türk ədəbiyyatı yeni janrın

astanasında", "Klassik türk nəsrinin spesifik xüsusiyyətləri", "Türk romanında qadın imzası", G.Usubovanın "Türkiye Türkçesi ve Azerbaycan Türkçesindeki Atasözlerinin Cümle Yapısına Göre İncelenmesi", E.Xəlilovanın "İ.Hikmətin Ə.Midhət haqqında fikirləri", A.Dadaşovanın "Osmanlı milli geyim adlarının Xalidə Ədib Adıvarın romanlarında təsviri" və s. nəşr olunmuşdur.

Ötən illərdə olduğu kimi Azərbaycan-özbək ədəbi əlaqələri 2018-ci ildə də sürətlə inkişaf etmişdir. 20 aprel 2018-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Özbəkistanın ölkəmizdəki səfirliyi ilə birlikdə böyük özbək şairi Z.M.Baburun anadan olmasının 535 illiyi münasibətilə beynəlxalq elmi konfrans keçirmişdir. Konfransda Daşkənd Milli Universitetinin professoru H.Baltabayevin "Özbəkistanda Zahirəddin Məhəmməd Babur yaradıcılığının öyrənilməsi", fil.e.d. A.Ülvinin "Baburoğulları dönəmində Hindistanda memarlıq və incəsənət: Humayun türbəsi və onun memarı", fil.e.d. Y.Qasımbəylinin "Zahirəddin Məhəmməd Baburun lirikası: dövlətçilik və şeiriyyət" və dosent A.Azalpın "Baburnamə" ümumtürk intibahının milli ensiklopediyası kimi" mövzularında məruzələri dinlənilib. Qeyd edək ki, konfransın materialları da dərc olunmuşdur (Redaktoru və çapa hazırlayanı A.Ülvi). Kitabda, Z.M.Baburun həyat və yaradıcılığından bəhs edən 20 alimin məqaləsi yer almışdır. Qeyd edək ki, 2018-ci ildə "Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik! – Ülvi Bünyadzadə: şəxsiyyəti və ədəbi irsi" adlı Beynəlxalq Konfransın materialları və "Ülviləşən Ülvim" kitabından səhifələr (elmi redaktoru və nəşrə hazırlayanı fil.e.d. A.Ülvi) kitabı da dərc olunmuşdur. 486

səhifəlik kitabda Azərbaycanın, Türkiyənin, Özbəkistanın, Qırğızıstanın, Gürcüstanın və bir sıra xarici ölkələrin tanınmış elm, sənət adamlarının 80-nə yaxın məqaləsi nəşr olunmuşdur.

2018-ci il ərzində fil.e.d. Almaz Ülvinin Azərbaycan-özbək ədəbi əlaqələri mövzusunda 50-dən çox məqaləsi çap edilmişdir. Onlardan, "Zahirəddin Məhəmməd Babur və XVI əsr özbək ədəbiyyatı" (Azərbaycan MEA Xəbərləri (Humanitar elmlər seriyası). №1, s.148-152), "Əlişir Nəvainin "Məcalis ün–nəfais" əsəri (II məqalə)" – Azərbaycan MEA Ədəbiyyat Məcmuəsi. Bakı, 2018, №1, s.290-300.), "Ədəbiyyatşünaslığımızda Nəvai körpüsü" (Aziz Kayumov: Aziz Kayumov hakkında xatiralar". – Toshkent, 2018, 540 betta), "Əlişir Nəvai: həyatı, dövrü və yaradıcılığı" (Estad: Eski türk edebiyatı araştırmaları dergisi [Journal Of Old Turkish Literature Researches] Cilt: 1 Sayı: 1 Ağustos 2018, s.75-85.), "Kardoş adabiyotlar – bir onaning ikki dilbandi: navoiy ijodiqa muxabbatim ila şunday bir oşikluk makomidamanku, bu uşkdan aslo ayro ketmacman (tarjimasi: Anvar Allamberqenov va Sirdaryoxan Utanova*)"* (Tamaddun nuri: Ilmiy, ijtimoiy–falsafiy, madaniy–ma'rifiy, adabiy–badiiy jurnal. – Korakalpoğiston Respublikasi, Nukus, 2018–yil, №3, 80 bet (betta 36-47)), "Тилшунос ва шарқшунос олим Холид Саидхўжаев" (tarjimasi: Sirdaryoxan Utanova. – Tamaddun nuri: Ilmiy, ijtimoiy–falsafiy, madaniy–ma'rifiy, adabiy–badiiy jurnal. – Korakalpoğiston Respublikasi, Nukus, 2018–yil, №2, 80 bet (b. 35-57), "Nəvai yaradıcılığında Nəsimi obrazı (və ya özbək ədəbiyyatı səhifələrində Nəsimi haqqında)" (Birlik jurnalı, 2018, №30, 60 s.54-57), "Maqsud Shayxzoda-

ning adabiy shaxsiyati va merosining adabiy aloqalarda tutgan o‘rni” (“Söz sanati jurnalı”, №2 (2018), bet. 17-25), “Əbdürrəhman Caminin “Baharıstan” təzkirəsi və əsərin 7-ci rövzəsi” (“Ulduz” jurnalı, 2018, s. 58-65), “Zulfiya Ozarbayjonda” (“Jahon adabiyeti” adabiy–badiiy, ijtimoiy–publisistik jurnal. İSSN 2010–5517, №2 (2018), bet. 168-171.) və s. adlarını qeyd edə bilərik.

Fil.e.d. Y.Qasımbəylinin də ötən il ərzində Azərbaycan-özbək ədəbi əlaqələri müstəvisində bir sıra məqalələri dərc olunmuşdur. Bunlardan, “Akademik Bəxtiyar Nəzərov tənqidində altmışıncılar” (“Etiraf” (Akademik Bəxtiyar Nəzərov portretiga chizgilar). Özbeksitan Fanlar Akademiyası, Ozbek Tili, Adabiyoti va Folklori institutu, “Tamaddun” naşriyoti, Toşkent, 2018, s. 140-147.), “Tanqidchininq bezofta dünyosi” (“Etiraf” (Akademik Bəxtiyar Nəzərov portretiga chizgilar). Özbeksitan Fanlar Akademiyası, Ozbek Tili, Adabiyoti va Folklori İnstitutu, “Tamaddun” naşriyoti, Toşkent, 2018, s. 325-328.), “Zahirəddin Məhəmməd Babur irsinin Özbəkistanda öyrənilməsi” (“Kaspi” qəzeti, 21 aprel), “Zahirəddin Məhəmməd Babur və dünya” (“Ədalət” qəzeti, 20 aprel) və s-in adları çəkilə bilər.

Bu səpkidə fil.ü.f.d. T.Həşimovanın da məqalələri dərc olunmuşdur. Onun “Müstəqillik dövründə Özbəkistanda Azərbaycan ədəbiyyatının öyrənilməsi və təbliği” (Saodat Muhamedova və Babahan Muhammed Şerif yaradıcılıqları əsasında) (BDU, Dil və Ədəbiyyat jurnalı) adlı məqaləsində Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişaf tarixindən bəhs edilir. T.Həşimovanın “Müasir Azərbaycan və özbək xalqlarının şeirində qadın mövzusunun ortaq

xüsusiyyətləri” (Pedaqoji Universitetin Xəbərləri, s: 2) adlı məqaləsində isə XX əsdə Azərbaycan və özbək şeirində qadın mövzusundan və müasir Azərbaycan və özbək xalqlarının şeirində qadın şairlərindən bəhs olunur. Onun il ərzində, “Bağımsızlık Döneminde Azerbaycan ve Özbek şiirinin ortak özellikleri” (Türk Dünyası İncelemeleri Dergisi, Journal Of Turkish World Studies, 18\2, Kiş- Winter 2018, s.465-474), “Şehit Şairler Kağizmanli Hifzi Ve Ülvi Bünyadzade Sanatinda Vatan Konusu; Tarihten Çağdaşliğa” (“Kağızmanlı Hıfzı Ölümünün 100. yılında” uluslararası sempozyum, Kars, Kağızmanlı, 8-9 nisan), “Signs of the Classic Azerbaijani Poetry in the Works of Modern Lyric Poet Husamettin Septioglu” (Fırat Üniversitesi Harput Uygulama ve Araştırma Merkezi I. Uluslararası Palu Sempozyumu Bildiriler Kitabı, s.143-149) və s. məqalələri nəşr olunmuşdur.

Azərbaycan-türkmən ədəbi əlaqələri istiqamətində də mühüm işlər görülmüşdür. Professor Məmməd Əliyevin “Məhtimqulu Fəraqi şerinin poetikası” (“Elm və təhsil”, 2018, 120 s.) monoqrafiyası nəşr olunmuşdur. Kitabda türkmən klassik ədəbiyyatının banisi Məhtimqulu Fəraqinin lirikasının poetik xüsusiyyətlərindən bəhs edilmiş, şairin poeziyası Azərbaycan ədəbiyyatı ilə müqayisələr kontekstində təhlil edilmişdir. Monoqrafiya, akademik İsa Həbibbəylinin ön sözü ilə nəşr olunmuşdur. Qeyd edək ki, 2018-ci ildə Akademik İ.Həbibbəylinin ön sözü, fil.ü.f.d. İ.Osmanlı və fil.ü.f.d. T.Talıbovanın tərtibatı ilə “Azərbaycanda Məhtimqulu Fəraqinin ədəbi irsinin nəşri və tədqiqi” (Bakı, “Elm və təhsil”, 106 s.) adlı biblioqrafiya da hazırlanmışdır.

Fil.ü.f.d., dos. Nailə Əskərin də Azərbaycan-türkmən ədəbi əlaqələri müstəvisində apardığı araşdırmalar diqqəti cəlb edir. Onun "Azərbaycan və türkmən versiyalarında "Koroğlu" dastanı" (IV. Uluslararası Türk Kültür Coğrafyasında Eğitim ve Sosyal Bilimler Sempozyumu. Bakü/Azerbaycan 27-30 Haziran, Ankara, s.115) adlı məqaləsində türk xalqlarının epik yaradıcılığında geniş yayılmış dastanlardan biri olan Koroğlu dastanının versiyalarından bəhs edilir. Göstərilir ki, bu gün "Koroğlu" dastanı türk, qazax, qırğız, özbək, türkmən, tatar, başqırd, qaqauz, Azərbaycan, qaraqalpaq, uyğur və s. xalqlar arasında öz həyatını davam etdirir. Qeyd edilir ki, Koroğluşünas alimlərdən B.Qarrıyevə və P.N.Boratava görə "Koroğlu" dastanı türkmən mənşəlidir. Bir çox sovet və Azərbaycan alimlərinin ortaq fikrinə görə isə dastan Cənubi Qafqazda və Azərbaycanda ortaya çıxmış, oradan Anadoluya və yaxın bölgələrə yayılmışdır. Məqalədə göstərilir ki, bu dastanın Mərkəzi Asiyada yayılmış variantları içərisində türkmən xalqının "Goroğlu" dastanı xüsusi yer tutur. Məqalədə "Koroğlu" dastanının həm Azərbaycan, həm də türkmən versiyasındakı qolları haqqında məlumat verilir, dastanın tipoloji xüsusiyyətlər, ortaq və fərqli motivlər, epizodlar haqqında söhbət açılır. Qeyd edək ki, N.Əskər "Anadolu Sahası Köroğlu Destanı: Kollar Arasında Farklı ve Benzer Unsurlar" (III Uluslararası Bozok Sempozyumu, Bölgesel Kalkınma ve Sosyo-Kültürel Yapı. Bildiri Kitabı 03-05 Mayıs, s.972-976.), "Goroğlu" dastanının tədqiqat tarixi" (AMEA Folklor İnstitutu. "Dədə Qorqud". Elmi-ədəbi toplu, №1, s.138-146), Köroğlu Destanı Bir Avrasya Destanı" (Oğuz-Türkmen Araştırmaları Dergisi,

Cilt: 2, Sayı: 2, Aralık, s.129-137), "Batı Versiyonu İçerisinde Antep ve Maraş Ağzı Köroğlu Destanı" (Uluslararası Gaziantep Tarihi Sempozyumu (Millî Mücadele Döneminde Gaziantep). 25-17 dekabr 2017. Bildiri metinleri kitabı, s.1385-1400), "Goroğlu" dastanının söyləyiciləri: baxışılar" ("Dədə Qorqud". Elmi-ədəbi toplu, №2, s.120-127) və s. məqalələrində "Koroğlu" dastanının versiyaları haqqında araşdırmalar aparmışdır. Tədqiqatçının, "Recep Hıfzı'nın Şiir Dünyası" (Ölümünün 100. Yılında Kağızmanlı Hıfzı Uluslararası Sempozyumu Bildiri Özetleri, 7-8 Nisan, s.175), "Âşık Nesib'in Şiirlerinde Türkiye ve Türkçülük" (Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (Türklad), Cilt 2, Sayı 1, s.174-181), "Aşık Şenlik'in Eserlerinde Dil ve Üslup" (XVIII. Türk Tarih Kongresi. Bildiri Özetleri, s.719-720) və s. kimi türk xalqlarının müxtəlif problemlərinə həsr olunmuş məqalələri vardır.

Gördüyümüz kimi ədəbi əlaqələrimiz sahəsində diqqəti cəlb edən məsələlərdən biri də ortaq türk abidələri haqqında aparılan araşdırmalardır. Q.Şəhriyarın "Edigey" dastanı haqqında araşdırmaları bu baxımdan maraq doğurur. Onun, "Edigey" dastanının Türkiyədə araşdırılması ("Gəncliyin baxış bucağından Türkiyə" Respublika Simpozyumu, 19 aprel 2018, Bakı) məqaləsində göstərilir ki, 1957-ci ildə ilk dəfə Türkiyədə Səadət Cağatay gənc yaşlarında Ankaraya köçərək məskunlaşan qoca bir krımlıdan qələmə aldığı "Edigey" dastanını alman dilinə çevirərək nəşr etsə də, Türkiyədə bu dastana maraq yaranmamış, hətta əsrin sonlarına qədər, demək olar ki, onu xatırlayan olmamışdı. Dastan Türkiyədə ilk dəfə 1998-ci ildə R.Sulti tərəfindən elmi tədqiqata cəlb edilmişdir. Məqalədə, "Edi-

gey” dastanının Türkiyədə araşdırılması sistemli olaraq öyrənilmişdir. Q.Şəhriyarın, “Türk qəhrəmanlıq dastanı – “Edigey”“ (IV. Uluslararası Türk Kültür Coğrafiyasında Eğitim ve Sosyal Bilimler Sempozyumu, 27-30 Haziran) adlı məqaləsində isə Edigey dastanının müxtəlif variantlarından bəhs edilmişdir. Qeyd edilir ki, “Edigey” dastanı dəfələrlə noqay, rus, tatar, qazax dillərində nəşr olunub, tədqiq olunmasına baxmayaraq, dastan hələ də alimlər tərəfindən maraqla qarşılanır. Göstərilir ki, dastanla bağlı rus ədəbiyyatındakı araşdırmalar daha çox qazax və noqay variantları üzərində, Türkiyədə isə tatar və başqırd variantları əsasında cəmlənmişdir. Q.Şəhriyar “Edigey Destanında Mucizeli doğuluş veya Olağanüstü doğum” (II. Uluslararası Türk tarihi ve Türk Kültürü Sempozyumu, 1-2 Kasım 2018, Türkiye, İstanbul), “Edigey” dastanında müdrik qoca obrazı” (Mədəniyyətlərarası dialoqda Bədii Ədəbiyyatın Rolu Beynəlxalq elmi konfransın Materialları, s.122-124) və s. məqalələrində də bu problemə toxunmuşdur.

Ortaq ədəbi abidələrin, folklor nümunələrinin tədqiqi baxımından Ü.Ələkbərovanın da məqalələri diqqəti cəlb edir. Onun, “Türk xalqlarının inanclarında Tül və ritual ağlama”, “Türk və monqol xalqlarının inanclarında alınyazısı”, “Türk xalqlarının yas mərasim və inancları”, “Ağı türk və monqol xalqlarının inanclarında” və s. məqalələri maraq doğurur.

Diqqəti cəlb edən araşdırmalardan biri də Ə.Cəfəroğlunun “Doğu ellərimiz ağızlardan toplamalar” (Qars, Ərzurum, Çoruh elləri ağızları)” kitabıdır.

Ədəbi əlaqələrin inkişafında Əli Şamilin rolu olduqca böyükdür. Onun 2018-ci ildə bu səpkidə “Halaylarda (Yal-

lılarda) geleneksellik ve yöresellik” (5. Uluslararası geleneksel ve yöresel değerler sempozyumu / Kültür sanat etkinlikleri, 2018, 26-28 Ekim, Afyon karahisar/Sandıklı), “Cengiz Dağci’nın “İhtiyar Savaşçı” romanında hayal ve gerçeklik” (5. Uluslararası Her Yıl Bir Büyük Türk bilgi Şölenleri Uluslararası Cengiz Dağcı Bilgi Şöleni Türk Ocakları Derneği Bursa Şubesi ile Uludağ Üniversitesi, 2018, 5-6 Kasım), “Halit Seyit Hocayevin hayat hikayesi ile ilgili kesin çizgiler” (I.Milletlerarası Türkiye-Özbekistan münasebetleri sempozyumu, Kastamonu Üniversitesi, 2018, 8-10 Kasım) və s. kimi məqalələri dərc olunmuşdur.

Professor F.Bayatın isə ötən il, ölkəmizdə və Türkiyədə olmaqla dörd monoqrafiyası nəşr olunmuşdur: “Türk Kültüründe Deli ve Delilik” (İstanbul: Ötüken), “Halay. Türk dünyasında halay (fəlsəfi qaynağı və özəllikləri)” (Bakı: Elm və təhsil), “Türk Kültüründe Kadın Şaman” (İstanbul: Ötüken), “Türk Mirolojik Sistemi. Kutsal Dişi – Mitolojik Ana, Umay Paradigmasında İlkel Mitolojik Kategoriler, İyeler ve Demonoloji” (İstanbul: Ötüken). Bunlardan başqa, professor il ərzində bir çox beynəlxalq elmi konfranslarda da (“Hoca Amed Yesevinin tasavvufi görüşlerinin yer aldığı Fakrname eseri”. Atebetül-Hakayık ve ilk dönem Türkçe İslami eserler sempozyumu, Ankara, 28-30 haziran; “XIX.yüzyılın Ehl-i Hak şairi Seyid Ebül Kasım Nebati” (Türk müsəlman dünyasında Ehl-i Haklar), Uluslararası Geçmişten Geleceğe Alevilik Sempozyumu 8-10 Aralık və s.) məruzə etmişdir.

Ədəbi əlaqələrimizə töhfə olan əsərlərdən biri də fil.ü.f.d. E.Fikrətqızının “Vücudnamələrdə mətnlərarası əlaqə” adlı monoqrafiyasıdır. Kitabda ilk dəfə janrlararası

əlaqədə vücudnamələr təhlilə cəlb edilir, vücudnamənin arxitekstləri müəyyən edilir. E.Fikrətqızının "Türk xalqları ədəbiyyatında vücudnamələr" adlı monoqrafiyasında da ümumtürk ədəbiyyatı kontekstində müxtəlif vücudnamə mətnləri öyrənilmişdir. Bundan başqa, ötən il ərzində E.Fikrətqızının bu səpkidə bir sıra məqalələri dərc olunmuşdur. Bunlardan, "Mətnlərarası əlaqədə vücudnamələr və müasir türk şeiri" (AMEA-nın Xəbərləri. Humanitar Elmlər seriyası, S:1, s.111-116), "Cəmal Hocanın "Yaradılış dastanı"nda ermənilərin Anadoluda türklərə qarşı soyqırım siyasəti" (Azərbaycan jurnalı, S:7-8, s.208-213), "Türk dünyası aşıqlarının vücudnamələrinin arxetip nəzəriyyəsi" (Özbək folklorşünaslığı məsələləri, s.140-147) və s. qeyd edə bilərik.

Ötən illərdən fərqli olaraq, 2018-ci ildə qumuq ədəbi əlaqələri ilə bağlı tədqiqatlar aparılmışdır. Aynur Qəzənfərqızının "Azərbaycan-qumuq folklor əlaqələri" adlı monoqrafiyasında Azərbaycan-qumuq folklor əlaqələri ümumtürk folklor düşüncəsi kontekstində araşdırılmış, qumuq folklorunun növ, janr, süjet, motiv, obraz özünəməxsusluğu tədqiq edilmişdir. Kitabda bir çox folklor mətnləri istər nəzm, istərsə nəsr örnəkləri olsun, Azərbaycan folklorunda bənzər mətnlərlə qarşılaşdırılmış, oxşar və fərqli cəhətləri öyrənilmişdir. Bununla yanaşı, Azərbaycan folklorunda olmayan nümunələr də müstəqil şəkildə tədqiqata cəlb edilmiş, mübahisə doğuran bir çox məsələlərə aydınlıq gətirilmişdir.

Fil.ü.f.d. M.Məmmədova da, Azərbaycan və türk xalqlarının folkloru ilə əlaqədar olaraq bir sıra araşdırmalar aparmışdır. Onun, "Azərbaycan ve Anadolu folklorun-

da daş oyunları" (Dədə-Qorqud jurnalı, II, 2018, s. 131-137), "Azerbaycan ve Anadolu`da Topla Oynanılan Çocuk Oyunları" (1st İnternational Black Sea Journal Social Sciences Symposium, SEU Georgian National University, Tbilisi\Georgia, 24-26 Jan. 2019, s.83), "Azərbaycan və Anadolu Folklorunda Gizlətmə Tipli Uşaq Oyunları" (Azərbaycanşünaslığın Aktual Problemləri, IX Beynəlxalq Elmi Konfransın Materialları, 3-4- May, 2018, s. 339-341), "Azərbaycan və Anadolu Folklorunda Zarafat-Çaşdıırma Tipli Uşaq Oyunları" ("Gəncliyin Baxış Bucağından Türkiyə" Respublika Simpoziumu, Avrasya Universiteti, 19 Aprel, 2018) məqalələrində Azərbaycan və Anadolu folklorunda uşaq oyunlarından bəhs edilmiş, oyunların hər iki bölgəyə aid müxtəlif variantları üzərində qurulmuşdur. Tədqiqatçının "Nizami Muradoğlunun "Baba ocağı" romanında Cümhuriyyət dönəmi Türk soyqırımı" ("Folklor Milli Kimlik Kontekstində" mövzusunda Beynəlxalq Elmi Konfrans, Lahıc, 30 iyun, s.459-464) məqaləsində isə yazıçı N.Muradoğlunun "Baba ocağı" romanı haqqında qısaca məlumat verildikdən sonra tariximizə, yaddaşımıza həkk olunan türk soyqırımı, xüsusilə, 1918-ci il Cumhuriyyət dönəmi Ordubadın ətraf kəndlərində olan soyqırım bütün ayrıntıları ilə öz əksini tapmışdır. Həmçinin məqalədə erməni vəhşilikləri və insanlığa sığmayan işgəncə metodları 9 maddə halında (təcavüz, baş kəsmə, süngüləmə, qılıncdan keçirmə, güllələmə, tələyə salma, yandırma və s.) incələnərək romandan sitatlar verməklə göstərilmişdir.

Ədəbi əlaqələrin inkişafında keçirilən beynəlxalq elmi konfransların, bağlanılan müqavilələrin mühüm əhəmiyyəti vardır. Bunların bəzilərinə nəzər salaq; 12 fevral 2018-ci

ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Türkiyənin Türk Ədəbiyyatı Vəqfinin geniş tərkibli nümayəndə heyəti ilə görüş keçirilmişdir. Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Türkiyənin görkəmli ədəbiyyatşünası Əhməd Kabaklının tədqiqatlarından, Türk Ədəbiyyatı Vəqfi ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə elmi əməkdaşlığından bəhs etmişdir. Görüş zamanı hər iki ölkənin ədəbiyyatının yığcam tanıtma kitabının çapı, habelə ortaq konfransların keçirilməsi, jurnalların nəşri barədə də təkliflər irəli sürülmüşdür. Türk Ədəbiyyat Vəqfinin rəhbəri S.Kabaklı, professor R.Qorxmaz, İ.Avşar, Vəqfin idarə müdiri Ə.Ünlü, Vəqfin İdarə heyətinin üzvü E.Ürgen, Ş.Bulud Azərbaycan-Türkiyə elmi-ədəbi əməkdaşlığın xüsusiyyətlərindən danışıblar. İki qardaş xalq arasında elmi-ədəbi əməkdaşlığın inkişafında çoxşaxəli fəaliyyətinə görə akademik İsa Həbibbəyli Türk Ədəbiyyatı Vəqfinin rəhbəri Serhat Kabaklı tərəfindən Vəqfin "Təşəkkürnamə"si ilə təltif edilmişdir. Onu qeyd edək ki, akademik 10 fevral 2018-ci ildə Türkiyə Cümhuriyyəti Türk Ədəbiyyatı Vəqfinin "Şükran Beratı" ilə də təltif edilmişdir.

20 aprel 2018-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda tanınmış alim, Azərbaycan ədəbiyyatının Türkiyədə görkəmli tədqiqatçısı professor Yavuz Akpınara Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "İlin alimi" mükafatı təqdim olunmuşdur. Elmi Şuranın iclasını giriş sözü ilə açan akademik İsa Həbibbəyli Yavuz Akpınarın hələ sovet dövründən, əlaqələrin çox zəif olduğu zamandan Azərbaycan ədəbiyyatı ilə bağlı apardığı araşdır-

malardan, fədakar fəaliyyətindən bəhs edib. O, professor Yavuz Akpınarın Azərbaycan ədəbiyyatı ilə bağlı gördüyü işlərin mühüm əhəmiyyətə malik olduğunu bildirib. Akademik İsa Həbibbəyli professor Yavuz Akpınara "İlin alimi" mükafatını təqdim edib. Daha sonra, Yunus Əmrə İnsitutunun müdiri, dosent C.Özdemir, dosent İ.Murat Yıldırım, professor Ş.Alışanlı, professor Q.Paşayev, professor T.Məmməd və fil.e.d. N.Cabbarlı Yavuz Akpınar haqqında çıxış etmişlər.

25 aprel 2018-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı Yunus Əmrə İnstitutu və Xaricdə Yaşayan Türklər və Qohum Cəmiyyətlər Birliyinin birgə təşkilatçılığı ilə Ədəbiyyat İnstitutunda "XX əsrin əvvəllərindən bu günə Azərbaycan-Türkiyə ədəbiyyat və maarif münasibətləri" adlı panelin açılışı olub. Paneli giriş sözü ilə açan akademik İ.Həbibbəyli, iki qardaş ölkə arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə qarşılıqlı əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini bildirib. Tədbirdə Mədəniyyət Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzinin direktoru A.Usubəliyev panelin mövzusunun müasir dövr üçün aktual olduğunu bildirib. Paneldə, həmçinin professor Ə.Tahirzadənin "Bakıdan İstanbula və İstanbuldan Bakıya gedən müəllimlər", AMEA-nın müxbir üzvü M.Mərdanovun "Cümhurriyət dövründə Azərbaycanın təhsil sistemi", professor R.Əskərin "Türkiyəyə gedən azərbaycanlı ədiblər", filologiya üzrə elmlər doktoru N.Cabbarlının "Son əsrdə Azərbaycan-Türkiyə maarif münasibətləri", türkiyəli professor Y.Akpınarın "Türkiyə-Azərbaycan əlaqələri baxımından "Cəlal Ünsi", dosent İ.M.Yıldırımın "Molla Nəsrəddin və

Türkiyə”, dosent Y.Özqayanın “Türkiyə-Azərbaycan ədəbi fikri əlaqələrində “Yeni Kafkasya” və Ö.Özcanın “Azərbaycan siyasi mühacirətinin bilinməyən ismi: Əfəndizadə Mehmet Şərif bəy” adlı məruzələr dinlənilib.

1 iyun 2018-ci il il tarixində isə Özbəkistanın Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Şiracəddinovun rəhbərlik etdiyi nümayəndə heyəti Ədəbiyyat İnstitutunun qonağı olmuşdur. Görüş zamanı Ədəbiyyat İnstitutunun Azərbaycan – Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin nəzdində Əlişir Nəvai adına Ədəbiyyat mərkəzi yaradılmışdır. Eyni zamanda Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində də Nizami Gəncəvi adına Dil və Ədəbiyyat Mərkəzinin yaradılması qərara alınmışdır.

25 iyun 2018-ci ildə Türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığına həsr olunmuş “Məhtimqulu - insan qəlbinin mənəvi təbibi” adlı Beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransı akademik İ.Həbibbəyli giriş sözü ilə açaraq Məhtimqulunun həyat və yaradıcılığından bəhs etmişdir. Konfransda Türkmənistanın Azərbaycan Respublikasındakı Fövqəladə və səlahiyyətli səfiri Məkan İşanquliyev, Davut Orazsəhedov, Həzrətqulu Durdiyev, Əhməd Annaberdiyev, Rəhimməmməd Kurenov, Seyidnəzər Ərnəzərov iştirak etmiş və müxtəlif mövzulu məruzələrlə çıxış etmişlər.

13 iyul 2018-ci ildə isə Ədəbiyyat İnstitutunda dünya şöhrətli yazıçı Çingiz Aytmatovun 90 illik yubileyinə həsr olunan “Çingiz Aytmatov: milliliklə bəşəriliyi birləşdirən fenomen” mövzusunda beynəlxalq elmi konfrans keçiril-

mişdir.Tədbirdə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseyinov, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) baş katibi Altınbek Mamayusupov, Qırğızıstan Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Vakit Yusupov, Bakı Yunuz Əmrə İnstitutunun direktoru Cihan Özdəmir, Misir Mədəniyyəti və Təhsil Əlaqələri Mərkəzinin direktoru Əhməd Sami Elaydi və başqaları iştirak etmişlər. Tədbirdə Ədəbiyyat İnstitutunun "Müqayisəli ədəbiyyatşünaslıq" jurnalının Çingiz Aytmatova həsr olunan xüsusi buraxılışı da ictimaiyyətə təqdim olunmuşdur.

Onu da qeyd edək ki, 2018-ci ildə akademik İsa Həbibbəylinin "Çingiz Aytmatov haqqında söz" adlı kitabı nəşr olunmuşdur. Qırğız yazıçısı Çingiz Aytmatovun 90 illiyi münasibətilə hazırlanmış bu dəyərli kitab üç dildə - Azərbaycan, rus və ingilis dilində tərtib olunmuşdur. Müəllif oxucunun diqqətini əsas məsələlərə yönəldərək, öz fikirlərini aşağıdakı bölmələr çərçivəsində qruplaşdırıb təhlil etmişdir: "Böyük ömrün illəri və əsərləri", "Millilik və bəşərilik", "Roman miqyaslı bədii yaradıcılıq", "Kassandra damğası"nın əks sədası", "Qırğızıstandan dünyaya və Azərbaycana" və "Əbədi mogikan". Kitaba həmçinin, ədəbiyyat siyahısı və "Ömrün əbədiləşən anları" başlığı altında Çingiz Aytmatovun ömrünün müxtəlif anlarını əks etdirən foto-şəkillər də daxil edilmişdir.

Çingiz Aytmatova həsr olunan əsərlərdən biri də fil.f.d. M.Həsənovun "Çingiz Aytmatov: həyat və yaradıcılığı" monoqrafiyasıdır.

Ədəbi əlaqələrin inkişafında tərcümələrin də rolu misilsizdir. 2018-ci ildə müxtəlif türk xalqlarından tərcümə-

lər edilmiş, antologiyalar hazırlanmışdır. Ömər Seyfəddinin "Qısqanclıq" (Tərc.ed. A.Abi Aydın), Peyami Səfanın "Tənhayıq" (tərc.ed. N.Cabbarlı (Abdullayeva)), Ç.Aytmatovun "Kassandra damğası" (tərc.ed. N.Cabbarlı (Abdullayeva)), Sevda Urfanın "Azərbaycan Müdrikləri. Hekayətlər" (tərc.ed. Almaz Ülvi), Minə Menginin "Əski türk ədəbiyyatı tarixi" (tərc.ed.Fəridə Hicran) və s. kimi kitablar nəşr olunmuşdur.

Ədəbi əlaqələrin inkişafında Dünya Gənc Türk Yazarlar Birliyinin də xidmətləri böyükdür. Ədəbi birliyin təşkilatçılığı ilə bir sıra antologiyalar hazırlanmış, türkdilli yazıçılarla görüşlər, dəyirmi masalar keçirilmişdir. Ötən ildə ədəbi birlik, "Yeni zaman Azərbaycan şeiri" antologiyasını qazax dilində hazırlayıb nəşr etmişdir. Qeyd edək ki, ötən ilin aprel ayında Qazaxıstanın paytaxtı Astanada III Avrasiya Beynəlxalq Kitab sərgisi (Eurasian Book Fair - 2018) çərçivəsində bu kitabın təqdimatı keçirilmişdir. Birliyin, 2018-ci ildə nəşr etdiyi "Yeni qazax şeiri antologiyası" da qardaş xalqların ədəbiyyatına yeni töhfədir. Antologiyada 57 gənc qazax şairinin şeiri toplanıb. Nəşrin baş redaktoru Əkbər Qoşalı, ön sözün müəllifi Temirxan Mədətbek, tərtibçiləri isə Tanagöz İlyas, Dauren Kasenov və başqalarıdır. Qeyd edək ki, dekabrın 4-də Beynəlxalq Mətbuat Mərkəzində Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) və "Kaspi" qəzetinin təşkilatçılığı ilə "Bakıdan türk dünyasına" adlı layihə çərçivəsində "Yeni Qazax şeiri antologiyası"nın təqdimatı keçirilmişdir.

Bunlardan başqa onu da xüsusi ilə vurğulayaq ki, "Ədəbiyyat", "525-ci qəzet", "Azərbaycan" jurnalı və s. mətbuat orqanları, eyni zamanda internet portallarında da

ədəbi əlaqələrimizə həsr olunmuş məqalələr nəşr olunmuşdur. Türkiyədə dərc edilən "Mövsümlər", "Təlmih" və s. aylıq sənət-ədəbiyyat jurnallarında da ədəbi əlaqələrlə bağlı məqalələr dərc edilmişdir.

Onu da qeyd edək ki, ədəbi əlaqələrimizin inkişafı ilə əlaqədar olduqca mühim işlər görülmüşdür. Məruzəmizdə, il ərzində nəşr olunan bütün kitab, məqalə, məruzə və s. haqqında geniş məlumat verə bilməsək də, ümumi olaraq ədəbi prosesi göstərməyə çalışdıq. Görünən ədəbi prosesdən bu nəticəyə gəlirik ki, 2017-ci il ilə müqayisədə, 2018-ci ildə Azərbaycan və türk xalqları arasındakı ədəbi-mədəni əlaqələrin inkişafında bir az da sürətlənmə müşahidə edilir. Türk, özbək, türkmən, qırğız, qazax ədəbi əlaqələrinin inkişafı, ötən illərdə olduğu kimi, 2018-ci ildə də yüksəkdir. Qumuq, qaraçay-balkar və s. türk xalqları arasındakı ədəbi əlaqələrdə, xüsusilə folklor sahəsində nəzərə çarpacaq dərəcədə inkişaf özünü göstərir. Amma təəssüflər olsun ki, digər türk xalqları arasında (noğay və s.) ədəbi-mədəni əlaqələr ötən illərdə olduğu kimi 2018-ci ildə də olduqca zəifdir. Bundan başqa, Makedoniya türkləri, Balkan türkləri, bir sözlə Avropa türkləri və Azərbaycan arasında ədəbi-bədii əlaqər arasında da ötən il olduğu kimi 2018-ci ildə də sükut hökm sürür.

Bəsirə ƏZİZƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AZƏRBAYCAN-ASİYA ƏDƏBİ ƏLAQƏLƏRİ

Şərq və Qərb dünyasını bir çox aspektlərdən müqayisəyə gətirən Pakistanın mütəfəkkir şairi Məhəmməd İqbal məşhur "Cavidnamə" əsərində Haqqa münasibətdə də iki dünyanın fərqini göstərirdi:

Aləmi gözardı etdi Şərq, Haqqı gördü
Qərb aləmdə oyandı Haqqdan ürkdü.
İbadətdir gözü Haqqa açmaq
Mənliyi pərdəsiz görmək, yaşamaq.

Şərq ədəbiyyatı və onun bir hissəsi olan Asiya ədəbiyyatının ən mühüm özəlliyi də "mənliyi pərdəsiz görən" mütəfəkkir ədibləri yetişdirməsi və dünya mədəniyyətinə Şərq dəyəri bəxş etməsidir. Çünki M.İqbalın sözləriylə desək:

Şairin amacı əgər insan yaratmaqdırsa,
Şairlər də varisidir peyğəmbərlərin.

Alman mütəfəkkiri Y.V.Götenin "Weltliteratur" – "Dünya ədəbiyyatı" anlayışı ilə dünya ədəbi-nəzəri fikrində Şərqi öyrənməyə maraq XIX əsrin birinci yarısında ortaya çıxdısa, bu zamana kimi Şərq ədəbiyyatı əzəmətli bir inkişaf tarixi keçmiş, öz intibahını yaşamış və Qərb renesansına meydan açmış, onun doğulmasına zəmin yaratmış-

dır. Ona görə də böyük və zəngin tarixə sahib Şərq ədəbiyyatının Asiya qolunun öyrənilməsi dünya mədəniyyətinin dərki, Şərq ədəbiyyatının bütöv mənzərəsinin yaradılması, ədəbiyyatımızın da mənsub olduğu Şərq aləmində Haqqın "göz, könül və söz" verdiyi şairlərin varlığın sirrli pərdəsinin qaldırılmasındakı rolundan bəhs etməkdir.

Dünyanın ən böyük qitəsi olan Asiya 61 ölkənin yerləşdiyi böyük bir məkandır. Biz bu ölkə ədəbiyyatları arasında daha çox Pakistan, Hindistan, Çin, Yaponiya, Koreya, İndoneziya və əfqan ədəbiyyatının öyrənilməsi sahəsindəki tədqiqatlara, məqalələrə diqqət yetirəcəyik. Müxtəlif milli keyfiyyətləri, hinduizm, buddizm, islam, katoliklik, protestantlıq, taoizm, şamanizm, şintoizm kimi fərqli dini özəllikləri ilə inkişaf edən Asiya ədəbiyyatı dünya ədəbiyyatının əhəmiyyətli bir hissəsini təşkil edir. Qeyd olunan Asiya xalqları ədəbiyyatının Azərbaycanda öyrənilməsində son dövrlərdəki inkişafı iki mühüm səbəblə izah etmək mümkündür: Birincisi, müstəqil inkişaf prosesimizin Asiya ölkələri ilə ictimai-siyasi əlaqələrin genişlənməsi sahəsindəki intensivliyi ədəbi əlaqələrin genişlənməsinə də şərait yaratmışdır.

İkincisi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademik İsa Həbibbəylinin təşəbbüsü ilə 2016-cı ildə "Azərbaycan-Asiya ədəbi əlaqələri" şöbəsinin təşkilindən sonrakı inkişaf prosesi Asiya xalqları ədəbiyyatlarının öyrənilməsinə də güclü təkan vermişdir. Təsadüfü deyil ki, 2018-ci ildə Asiya xalqları ədəbiyyatı, xüsusilə də, hind, Pakistan, Yaponiya, əfqan, İndoneziya, Koreya və Çin ədəbiyyatının öyrənilməsi və əlaqələrin inkişafında bu şöbənin mühüm yeri vardır. B.Əhmədli Ədəbiyyat qəzeti-

nin 9 noyabr 2018-ci il sayında çap olunan, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illiyinə həsr olunmuş "Asiyaya açılan ədəbiyyat qapısı..." məqaləsində Asiya ədəbiyyatının öyrənilməsində Ədəbiyyat İnstitutunun rolundan bəhs edilir: "2016-cı ildə Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin yaranması ilə bu işlərin yeni müstəvidə davam etməsinə imkan yarandı. Şöbənin yaradılması ilə uzun illər unudulmuş Çin, yapon, hind, Koreya, əfqan, Pakistan, İndoneziya, Malay ədəbiyyatlarının araşdırılması üçün qapılar açıldı. İnstitutda Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin yaradılması Asiya xalqlarının ədəbiyyatını öyrənmək baxımından milli ədəbiyyatşünaslığımızda yeni bir istiqamət açdı".

Asiya ədəbiyyatının öyrənilməsi sayəsində 2018-ci ildə professor Bədirxan Əhmədlinin məqalə və yazıları xüsusilə diqqəti çəlb edir. Əfqan ədəbiyyatının öyrənilməsi sahəsində "Ədəbiyyat" qəzetinin 22 sentyabr, 29 sentyabr və 13 oktyabr tarixlərində nəşr olunan saylarında B.Əhmədlinin uyğun olaraq "Səndən ötrü min yol!..", "Min möhtəşəm günəşin işıqları...", "Və dağlardan gələn səda..." məqalələri çap olunmuşdur. Məqalələr əfqan əsilli Amerika yazıçısı Xalid Hüseyninin "Çərpələng uçuran", "Və dağlardan gələn səda..." və "Min möhtəşəm günəş" romanlarına həsr olunmuşdur. Asiya xalqları ədəbiyyatı nümunəsində əfqan ədəbiyyatının öyrənilməsinə də xüsusi önəm verən B.Əhmədli bu məsələni də şərh etmişdir: "Azərbaycan ədəbiyyatı ilə əfqan bədii düçüncəsinin keçmişində bir yaxınlıq var; hər ikisi vaxtilə eyni kontekstdə yaranıb, fars ədəbi dili hakim olub, ayrı-ayrı şəxsiyyətlərinin əsərlərilə Şərq düşüncə tərzini zənginləşdirib. Əfqanıs-

tanda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Xaqani, Nizami, Füzuli kimi klassiklərimizi oxuyur və sevirlər. Mövzu və problematika baxımından da ədəbiyyatların yaxınlığını demək mümkündür. Çingiz xan, Teymurləng, Şah İsmayıl Xətai, Nadir şah Əfşar kimi tarixi şəxsiyyətlər orada da bizdəki kimi məşhurdur. Əfqanıstanda türk mənşəli toponimlər, həm də türk izləri olduqca çoxdur. Hər iki xalqın tarixi, həyatı və ədəbiyyatında ortaq cəhətlər də var". Bu fikirlərdən yola çıxan müəllif çağdaş əfqan cəmiyyətini düşündürən bir çox məsələləri bədii müstəviyə gətirən Xalid Hüseyninin romanlarını ayrı-ayrılıqda təhlil etmişdir.

Xalid Hüseyninin yaradıcılığının ən mühüm əhəmiyyəti onun əfqan ədəbiyyatı nümunəsində dünyaya Asiya bədii yaradıcılığını təqdim edə bilməsidir. Bu baxımdan B.Əhmədli "Səndən ötrü min yol!.." məqaləsində "Çərpələng uçuran" romanını təhlil edərkən X.Hüseyninin əsərlərinin öyrənilməsi əhəmiyyətinə diqqət çəkir: "Birincisi, dünyanın diqqət mərkəzində olan qırxillik Əfqanıstan savaşı və onun bədii xronikasının yaradılması; ikincisi, əfqan xalqının ağrılarının dünyaya çatdırılması; üçüncüsü, yazıçının yeni nəsr texnologiyası və nağılvari üslubudur".

B.Əhmədli romanı təhlil edərkən əsəri oxumayan müəlliflər üçün də aydın mənzərə yaradır, romanda qoyulmuş əsas problemlər, yazıçının qlobal hadisələrə münasibəti, milli siyasi-ictimai həyat, milli düşüncə və mübarizə B.Əhmədlinin ümumiləşdirmələri ilə bəlli olur: "Yazıçı Əfqanıstanda dəyişən hakimiyyətlərin xalqa gətirdiyi faciələri də qələmə alır. Əvvəlcə Davud xanın yıxılması, sovetlərin gəlişi, daha sonra sovet ordusunun oradan çıxma-

sı, talibançıların ölkəni ələ keçirməsi, koalisiya qüvvələri və s. bütün bunlar əsərin qəhrəmanlarının həyatında və düşüncəsində təhlil edilir. Əsər boyu oxucu baş verən hadisələri izləməklə yanaşı, qəhrəmanların bu hadisələrə adekvat düşüncələrini, təhlillərini də bölüşür. Yazıçı əfqan hadisələri fonunda qəhrəmanlarının mövcud hadisələrə münasibətində Qərb-Şərq qarşılaşdırmasına da yer verir. Romanda əfqan xalqı mübariz, azadlıq uğrunda ölməyi bacaran bir xalq olaraq təsvir edilir".

B.Əhmədlinin "Min möhtəşəm günəşin işıqları..." məqaləsi X.Hüseyninin eyni adlı əsərinə həsr olunmuşdur. Müəllifin ilk əhəmiyyətli qeydi əsərin adı haqqındadır: "Xalid Hüseyninin "Min möhtəşəm günəş" əsərinin adı Azərbaycan şairi Saib Təbrizinin poeziyasından götürülüb. Yazıçı bunu əsərə yazdığı "Minnətdarlıq" hissəsində qeyd edir. Romanda şairin "Evlərin damlarında neçə-neçə Ay parlar, Evlərin içindəsə şəfəq saçır min günəş" beytinə istinad edir. Şairin Kabil haqqında yazdığı beytdə "min günəş" ifadəsi işlədilir və əsərin adı və ideyası da elə buradan doğur. Hərçənd yazıçı S.Təbrizini fars şairi olaraq təqdim edir. Bu təqdimat həqiqəti əks etdirmir".

B.Əhmədli əsərin əsas ideya istiqamətini və yazıçı məqsədini doğru şəkildə əks etdirmişdir: "Min möhtəşəm günəş" əsəri də digər romanları kimi çağdaş Əfqanıstan gerçəkliklərinə işıq tutur; ötən yüzilliyin 60-70-ci illərindən başlayan hadisələr son günlərə qədər (hər üç romanında eyni zaman və məkan konteksti!) davam edir. Ancaq burada hadisələrin təfərrüatından daha çox, talelər, müharibənin törətdiyi fəsadlar göstərilir. Qırx ildir dünya Əfqanıstanda gedən müharibəyə, dağıntılara, əfqan xalqının

əzilməsinə biganə qalır. Romanda yazıçının əsas məqsədi bunları çatdırmaqdır. Bunun üçün müəllif ölkəni darmadağın qoyan müharibənin üç qadın qurbanının həyatından danışır, onların taleyini təsvir edir". B.Əhmədli romanda müasir dövrümüz üçün də qlobal anlamda aktuallıq kəsb edən iki kəskin problemin - müharibə və qaçqınlıq probleminin ön planda olduğunu göstərmişdir.

"Və dağlardan gələn səda" romanı da B.Əhmədlinin tədqiqat obyektinə çevrilmişdir. Müəllif romanın təhlili əsasında X.Hüseyni yaradıcılığının səciyyəvi cəhətlərini də müəyyən etmişdir: "Xalid Hüseyni hər romanında Əfqanıstan gerçəkliklərini anladır, o həqiqətləri ki, Əfqanıstandan çox-çox uzaqlarda yaşayan xalqların hamısı heç də burada gedən müharibənin mahiyyətini bütünlüklə dərk etmir, orada baş verən ictimai-siyasi, hərbi, etnik proseslərin dərininə gedə bilmir. Yazıçının təsvir etdiyi bu gerçəkliklər o qədər ağır, sərt və həyatidir ki, oxucu çox zaman bu ağırlığın altında əzilsə də, həqiqətləri qəbul etməli olur".

Şəhla Qurbanovanın "Xaqani Şirvani əfqan ədəbiyyatında" ("Filologiya məsələləri", № 15, 2018) məqaləsində Əfqanıstanda mühafizə edilən Xaqani əlyazmalarından, əfqan tədqiqatlarında şairə münasibətdən və əfqan şairlərinə ədəbi təsirdən bəhs edilir. Müəllifə görə, "Xaqanin yaradıcılığı əsrlər boyu, hətta müasir dövrün özündə belə dəri dilli əfqan ədəbiyyatı (qismən puşdu) ilə sıx əlaqədə olmuşdur. Müxtəlif dövrlərdə yaşamış əfqan şairləri Xaqaninin bədii irsini mütaliə edərək, onun təsiri ilə şeirlər yazmışdır".

2018-ci ildə hind ədəbiyyatının öyrənilməsi sahəsində də uğurlu işlərə təsadüf edirik. B.Əhmədlinin "Taqorun

vətənində...” məqaləsi (“Ədəbiyyat qəzeti”, 17 mart 2018-ci il) hind ədəbiyyatının görkəmli nümayəndəsi, Asiya xalqları ədəbiyyatında ilk Nobel mükafatçısı R.Taqora və müəlifin Hindistana səfər təəssüratlarına həsr olunmuşdur. Belə ki, B.Əhmədli 2018-ci ilin fevralında Hindistanın Quvahatı ştatında Quvahatı Universitetində təşkil olunmuş “Mədəniyyətlərarası dialoq: Hindistan, İran, Türkiyə və Mərkəzi Asiya arasında elmi və mədəni ideyaların mübadiləsi” beynəlxalq konfransında “Robindranat Taqor Azərbaycan ədəbi, elmi mühitində” adlı məruzə ilə çıxış etmişdir. Konfransda, eyni zamanda, Azərbaycandan professor Nadir Məmmədli “Ərəb, fars və Azərbaycan dilində yalançı ekvivalentlər”, f.ü.f.d. Nəzakət Məmmədova “Firdovsi və Əttar yaradıcılığında müştərək məqamlar”, f.ü.f.d. Tahirə Əliyeva isə “Avropada sufizmin öyrənilməsi problemləri” məruzələri ilə çıxış etmişlər.

B.Əhmədov duyğu və düşüncə harmoniyasını Taqor yaradıcılığının özünəməxsus keyfiyyəti kimi dəyərləndirmişdir. Müəllif R.Taqorun Nobel mükafatçısı kimi fərqli cəhətlərinə də diqqət yetirmişdir: “1913-cü ilin ədəbiyyat üzrə Nobel mükafatçısı Rabindranat Taqor ondan əvvəl və sonra bu ali mükafatı alanlardan bir çox cəhətinə görə fərqlənirdi. Birincisi, mükafat ilk dəfə olaraq Asiyadan olan bir şairə verilirdi. İkincisi, çox az nobelçilərdəndir ki, mükafatı almağa getmədiyindən Nobel nitqi də söyləməmişdir. Üçüncüsü, böyük yazıçı, dramaturq, rəssam, bəstəkar, filosof olan Rabindranat bu mükafatı kiçik bir şeir kitabına görə almışdı. Ən maraqlısı isə mükafatlandırma komitəsinin “müəllifin poetik təfəkkürünü böyük bir ustalıqla ifadə edən, Qərb ədəbiyyatının tərkib hissəsinə çevril-

miş dərin duyğulu orijinal və gözəl şeirlərinə görə” əsaslandırması olmuşdu. Əslində isə “Hind cəmiyyəti”ndən olan dostlarının köməyilə müəllifin özünün çevirdiyi “Gitançali” (“Fədakarlıq nümunələri”) kitabı ingiliscə cəmi bir il əvvəl çap olunmuşdu. 103 mənsur şeirdən ibarət kitaba Britaniya şairi Uilyam Batler Yets ön söz yazmış və onu yüksək qiymətləndirmişdi”.

Hindistan ədəbiyyatının təqdimi baxımından Zakir Abbasın “Qandi müdrikliyi” (“Ədəbiyyat qəzeti”, 27 oktyabr 2018-ci il) məqaləsini də qeyd etmək lazımdır. Müəllifə görə, Qandi ən müxtəlif mövzularda yazan məhsuldar yazıçı idi. Z.Abbas belə hesab edir ki, mövzu əhatəliyi cəhətdən yazıçı Volter də onunla müqayisə edilə bilməz. Qandi yaşadığı uzun illər boyu özünün məşhur Young İndia (Gənc Hindistan), “Navacivan” və “Harican” qəzetlərinə sonsuz sayda məktub, ön söz və tematik məqalələr yazmışdı. Qandi özünü heç vaxt yazıçı hesab etməsə də, onun ədəbi irsi heyrətamiz dərəcədə təəccüb doğurur. Bu məqalədə Homer Cekin hazırladığı Qandinin yazılarından ibarət antologiyası dəyərləndirilmişdir.

Tanınmış hind nasiri Taksiki Sivasankara Pillainin “Krivetkalar” romanından “Dəniz ilahəsinin qəzəbi...” (“Ədəbiyyat qəzeti”, 2018-ci il) parçası Günel Eyvazlının rus dilindən tərcüməsində çap olunmuş, Sevda Sultanova Kobo Abenin “Qumluqdakı qadın” romanı əsasında çəkilmiş eyniadlı filmi (“Ədəbiyyat qəzeti”, 2018-ci il) təqdim etmişdir.

Pakistan ədəbiyyatının öyrənilməsi sahəsində də son ildə uğurlu işlər görülmüşdür.

Səfər Səfərli “Pakistanın mənəvi qurucusu – Məhəm-

məd İqbal” məqaləsində (Dövlət və din. İctimai fikir toplusu, mart-aprel 2018-ci il) mütəfəkkir şair, maarifçi, islahatçı və istimai-siyasi xadim M.İqbalın həyatından, siyasi fəaliyyəti və onun ölkə üçün əhəmiyyətindən, Məhəmməd Əli Cinnah ilə əlaqələri və birgə mübarizəsindən, İqbalın müsəlman birliyi ideyasının tərəfdarı olmasından bəhs edir. Müəllif İqbalın ədəbi-fəlsəfi dünyagörüşünə də diqqət yetirir və belə bir nəticəyə gəlir ki, İqbal “əsərlərində ali varlıq anlayışına xüsusilə yer ayırmış, Allahın insanı ən ali şəkildə yaratmasını əks etdirmişdir. Mütəfəkkir yaradıcılığında mənəvi dəyərlərə söykənmiş, islamda əxlaqi və sosial prinsipləri ön plana çəkmişdir”. S.Səfərli İqbalın “Əsrari-Xudi”, “Rumiz-i-Bəxudi”, “Zəburi-Əcəm” və digər əsərlərinin əhəmiyyətindən bəhs edir.

Bəsirə Əzizəliyevanın “M.İqbal və Y.V.Göte” (“Filologiya məsələləri”, № 15, 2018), “Məhəmməd İqbalın “Cavidnamə” əsərində Eşq” (“Ədəbiyyat qəzeti”, 30 iyun 2018-ci il) “M.İqbal və türklər” (“Ədəbiyyat qəzeti”, 30 iyun 2018-ci il), “Muhammed İkbal’in “Cavidnáme” Adli Eserinde Türk Sadrazami Said Halim Paşa” (Türk Dünyası Araştırmaları Dergisi, Eylül-Ekim, Cilt 120, Sayı: 236) məqalələri çap olunmuşdur.

“M.İqbal və Y.V.Göte” məqaləsində göstərilir ki, XX əsr Şərq dünyasının böyük mütəfəkkir şairlərindən biri olan Məhəmməd İqbalın yaradıcılığında “Peyam-i-Maşrik” – “Şərqdən xəbər” əsəri mühüm yer tutur. İnsanın mənəvi təkamülündə, kamilləşməsində eşqin rolunu yüksək dəyərləndirən İqbal bir çox əsərlərində olduğu kimi, “Şərqdən xəbər” mənzuməsində də Mövlana Cəlaləddin Ruminin təsəvvüf fəlsəfəsindən bəhrələnmişdir. Müsəl-

man birliyi ideyasının tərəfdarı olan M.İqbalın Y.V.Götenin "Şərq-Qərb divanı"na cavab olaraq yazdığı əsərdə İqbal türklərin imperializmə qarşı mücadiləsini örnək göstərərək hind və digər müsəlman xalqlarının da müstəmləkəçilərə qarşı mübarizəsini vacib hesab edir, mürşidi Mövlana Ruminin fikirlərini də əsas alaraq dünyaya və insanlara ilahi eşq bucağından yanaşır. İslam dini və təsəvvüf təliminə əsaslanan M.İqbal yeri gəldikcə Qərb fəlsəfəsi, xüsusilə, pozitivizmi tənqid edir, onu müzakirəyə cəlb edir. İnsanın ilahi varlığının dərki, eşq ilə yaradılış sirlərinin açılması kimi fəlsəfi məsələlərə, Şərq-Qərb probleminə diqqət yetirir.

"Məhəmməd İqbalın "Cavidnamə" əsərində Eşq" məqaləsində M.İqbalın eşq fəlsəfəsindən bəhs olunur. Müəllif yazır ki, M.İqbal Allaha yaxınlaşmağın üç mərhələsindən bəhs edir, şair bunu özünəməxsus şəkildə Mövlananın sözləriylə üç şahid kimi təqdim edir. M.İqbala görə, ilk şahid insanın öz şüurudur, insan öz nuru ilə, ilk növbədə, özünü dərk etməlidir. İkinci şahid, başqasının şüuru, başqasının nuru ilə özünü görməkdir. Üçüncü şahid isə zati-Haqqın şüurudur, insanın öz mənliyini Haqq nuruyla tanıması, dərk etməsidir. M.İqbal belə hesab edir ki, həyatın məqsədi, məhz, bu sonuncu Mənlik məqamına yetişməkdir.

"M.İqbal və türklər" yazısında qeyd olunur ki, müsəlman xalqları arasında türklər, onların milli-mənəvi dəyərləri, Osmanlı dövlətinin islama və milli mədəniyyətə əsaslanan siyasəti hər zaman Məhəmməd İqbalın diqqət mərkəzində olmuşdur. Məhəmməd İqbalın türklərə münasibətinin ifadə etdiyi və böyük türk şəxsiyyətlərini əsərə gətir-

diyi bədii-fəlsəfi nümunələrindən biri də "Cavidnamə" mənzuməsidir. Burada M.İqbalın Atatürkə münasibəti təhlil olunmuşdur.

"Muhammed İkbal'in "Cavidnáme" Adli Eserinde Türk Sadrazami Said Halim Paşa" məqaləsində isə İqbalın fikirləri Osmanlı dövlətinin sədrəzəmi, ictimai xadim Said Halim Paşanın "Böhranlarımız" kitabına daxil olan "Məşrutiyyət", "Təqlidçiliyimiz", "Fikir böhranımız", "Cəmiyyət böhranımız", "Təəssüb", "İslam dünyası nədən geri qaldı?", "İslamlaşmaq", "İslam dövlətinin siyasi quruluşu" və s. risalələri ilə müqayisədə təhlil olunmuşdur.

Könül Bünyadzadə "Pakistanın pak insanı" adlı yazısında ("525-ci qəzet", 19 may 2018-ci il) Pakistanın Lahor şəhərində keçirilən və müəllifin "İqbalın şəxsində Qərb düşüncəsi ilə Şərq ruhunun dialoqu" məruzəsi ilə çıxış etdiyi "İqbal düşüncələri işığında bəşəriyyətə çağırışlar" konfransı zamanı beş gün qaldığı Lahor şəhəri və pakistanlılar haqqındakı təəssüratlarını bölüşür.

Ötən ildə Asiya xalqları ədəbiyyatları içərisində yapon ədəbiyyatının öyrənilməsi sahəsindəki fəaliyyət də diqqəti cəlb edir.

Yapon ədəbiyyatının öyrənilməsi baxımından Gülnar Yunusovanın məqalələri də əhəmiyyətlidir. Müəllifin "Yapon ədəbiyyatının görkəmli nümayəndəsi Haruki Murakaminin həyatı və dövrü", "Məhəmməd Əmin Rəsulzadə yaradıcılığında Yaponiya mövzusu" kimi məqalələrində yapon ədəbiyyatı və Yaponiya mövzusunun müxtəlif cəhətləri araşdırılmışdır.

"Məhəmməd Əmin Rəsulzadə məqalələrində Yaponiya mövzusu" ("525-ci qəzet", 1 iyun 2018-ci il) məqalə-

sində G.Yunusova görkəmli dövlət və ictimai xadim M.Ə.Rəsulzadənin məqalələrində Yaponiya mövzusunu tədqiq edir. Müəllifə görə, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın müxtəlif mətbuat orqanlarında yazıçı və jurnalistlər məqalə və felyetonlarında Yaponiyaya dair mövzulara müraciət edirdilər. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığı xüsusilə diqqəti cəlb edir. M.Ə.Rəsulzadənin 1903-1920-ci illərdə "Hümmət", "Dəvət", "İrşad", "Təkamül", "Yoldaş", "Tərəqqi", "İqbal", "İrani-nov", "Yeni iqbal", "Açıq söz" kimi dövri mətbuat orqanlarında yayınlanmış çoxsaylı məqalələrində Yaponiya mövzusu da öz aktuallığı ilə seçilir. Bu məqalədə Məhəmməd Əmin Rəsulzadənin "Parlament nə vəziyyətdə açılır?", "Yapon və rus", "Çindonun alınması", "Yaponiya məsələsi", "Yaponiyanın qələbəsi" kimi məqalələri şərh olunur. G.Yunusova haqlı olaraq hesab edir ki, "Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında Yaponiya ilə bağlı bir çox məqamlara nəzər salındıqda, görkəmli ədib və ictimai-siyasi xadimin görüşlərində gündoğan ölkənin yüksək mövqedə dayandığı müşahidə olunur".

"Yapon ədəbiyyatının görkəmli nümayəndəsi Haruki Murakaminin həyatı və dövrü" (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları, Bakı, 2018) məqaləsində yapon yazıçısının həyatı və yaradıcılıq yolu izlənilir, həyat faktları ilə üst-üstə düşən bədii yaradıcılıq nümunələri təhlil olunur. H.Murakaminin "Küləyin nəğməsini dinlə", "Norveç meşəsi", "Sərhədddən cənubda, Günəşdən qərbdə" kimi əsər-

lərində avtobioqrafik cəhətləri müqayisəli tədqiqə cəlb edən G.Yunusova maraqlı və əhəmiyyətli nəticələr ifadə edir, yazıçının həyat yolunun və yaradıcılıq manerasının əsas istiqamətlərini təqdim edir. G.Yunusova, haqlı olaraq, dünyagörüşü Şərq və Qərb düşüncə sistemi əsasında formalaşan Haruki Murakamini çağdaş yapon ədəbiyyatının görkəmli nümayəndəsi kimi dəyərləndirir.

Mirmehdi Ağaoğlunun "İçimizdəki insanlıq bizi tərk edərsə..." məqaləsi ("Ədəbiyyat qəzeti", 8 sentyabr 2018-ci il) ədəbiyyat üzrə Nobel mükafatı almış yapon əsilli Britaniya yazıçısı Kazuo İşiquroya həsr olunmuşdur. Müəllifin diqqət mərkəzində yazıçının Azərbaycan dilinə tərcümə olunmuş "Məni əsla tərk etmə" romanıdır: "Romanın janrı antiutopiyadır. Əsərdə elmi fantastikanın elementləri yer alsa da, bütövlükdə insani münasibətlərdən, onların inkişafından bəhs edir. Yalnız bir məsələ var, buradakı insanlar adi insanlar deyil, klonlardır". Müəllif K.İşiquronun romanını bu günün yox, sabahın, gələcəyin romanı adlandırır. M.Ağaoğlu əsərdəki hadisələri, klonlara münasibəti cəmiyyətin problemləri, humanizm kontekstində təhlil edir.

Ədəbiyyat üzrə 1968-ci ilin Nobel mükafatçısı Yasunari Kavabatanın "Cırcırama və sisək" novellası Əyyub Qiyasın tərcüməsində "Ədəbiyyat qəzeti"ndə (3 fevral 2018-ci il) təqdim olunmuş və yazıçı haqqında kiçik məlumat verilmişdir: "*Kavabatanın əsərlərində Yaponiya mədəniyyətinin kökləri, eyni zamanda, müasir ədəbiyyatın bəlli üslubları öz əskini tapır, əsas diqqət alt qata verilir, yarımçıq fikirlər və təlqinedicilik maraq oyadır. Onun əsas əsərləri "Minqanadlı durna", "Qar ölkəsi", "Köhnə pay-*

taxt", "Dağların sədası" və s. romanlardır. Kavabata isə "Meydzin" romanını özünün şah əsəri adlandırıb. Yazıçının əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunub".

Yazıçı Hüseynbala Mirələmov Azərbaycan nümayəndə heyətinin tərkibində Yaponiyada səfərdə olmuş və səfər təəssüratlarını "Yaponiya – Günəşlə oyanıb yüksələn ölkə" ("Ədəbiyyat qəzeti", 2018-ci il) adlı silsilə publisistik yazılarında təqdim etmişdir. Müəllif təəssüratlarını bölüşərkən hələ ali məktəbdə tələbə olduğu zaman bu gün Azərbaycan ədəbiyyatı tarixində adı gözəl nasir, istedadlı ssenarist, kinorejissor, hörmətli ictimai xadim kimi xatırlanan mərhum Həsən Seyidbəylinin "On beş gün Yaponiyada" kitabından oxuduğu fikirləri bölüşdürür: "Yaponiya gözəl diyardır, çox şairanədir. O dərəcədə şairanədir ki, onu olduğu kimi təsvir etsən, oxucu inanmaz, deyər ki, yazıçı hissə qapılıbdır. Yaponiya elə bil böyük bir dekorasiyadır, elə bil hər şey burada insan əli ilə yaranmışdır..."

Aida Feyzullayevanın "K.Balmontun mənəvi-ədəbi zənginliyində Yaponiya" ("Literaturnıy Azerbaydjan", №4, 2018) adlı məqaləsi rus şairi, nasiri, esseisti, tənqidçisi və tərcüməçisi K.Balmontun yaradıcılığına həsr olunmuşdur. Müəllif həyatını səyahətlərdə keçirən və müxtəlif milli ənənələri öyrənən rus yazıçısının 1919-cu ildə Yaponiya ilə tanışlığının onun poeziyasında özünəməxsus çalarlar ifadə etdiyini yazmışdır.

Çin ədəbiyyatının və əlaqələrinin öyrənilməsi sahəsində də inkişaf tempi müşahidə olunmaqdadır.

Çinin Pekin Xarici Dillər Universitetinin "Asiya və Afrika üzrə tədqiqatlar" jurnalında AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Azərbaycan şairi Ni-

zami Gəncəvinin həyat və yaradıcılığı və Azərbaycan ədəbiyyatında yeri" məqaləsi çap olunmuşdur. Çinin nüfuzlu elmi nəşri olan bu jurnalda akademik İsa Həbibbəyli dahi şairin "Xəmsə"sinə daxil olan poemalarını təhlil etmiş, Nizaminin Azərbaycan şairi olması faktını çinli oxuculara təqdim etmişdir. Məqalə Çin Milli Bilik İnfrastrukturu (CNKİ) adlı elmi məlumatlar bazasında da yerləşdirilmişdir.

B.Əhmədli də "Azərbaycan ədəbiyyatında Çin mövzusu" ilə bağlı Pekində keçirilən beynəlxalq konfransda iştirak etmişdir.

Elcan Salmanqızının tərcüməsində Çin əsilli Amerika yazarı Eymi Tanın Amerikanın "Daily Beast" dərgisində Noah Çamiylə olan müsabiqəsi təqdim olunmuşdur ("Kaspi" qəzeti, 10 fevral 2018). Burada, ilk növbədə, yazar haqqında məlumat verilmiş, onun 1993-cü ildə yayınlanan 16 hekayədən ibarət "Sevincli xoşbəxtlik klubu" kitabı, "Mətbəx tanrısının xanımı", "Yüz gizli duyğu", Bonsetterlərin qızı", "Balığı boğulmaqdan xilas etmək" romanları haqqında məlumat verilmişdir. "Kitablarınızı necə yazırsınız?" sualına müəllifin cavabı maraq doğurur: "Müəyyən hissələrini əvvəlcədən planlaşdırmağa üstünlük verirəm. Mən ideyalarımı necə gəldi yazıya çevirə bilmirəm. Sonra isə bir hissəni digəri ilə birləşdirəcək budaqları sxemləşdirirəm. Bu mərhələyə isə xüsusi zaman ayırmıram – yatağımda, təyyarədə, çay fasiləsində qeydlər aparıram. Çox sadə bir ana xəttin sxemini qururam, sonra bir neçə paraqrafı sıralayıram".

Azərbaycan-Çin ədəbi əlaqələri sahəsində Nərgiz Kərimovanın "Azərbaycan bədii ədəbiyyatı Çin dilində" və

"İlan arxetipi Azərbaycan və Çin ədəbiyyatında" məqalələri çap olunmuşdur. "Azərbaycan bədii ədəbiyyatı Çin dilində" ("Filologiya məsələləri", № 19, 2018-ci il) məqaləsində N.Kərimova Sovet dövründə Azərbaycan-Çin əlaqələrinin inkişafından, ədəbi əlaqələrimizin genişlənməsində bədii tərcümə nümunələrinin rolundan bəhs edir. Məqalədə "Kitabi-Dədə Qorqud" dastanı, N.Gəncəvinin "Leyli və Məcnun", M.İbrahimovun "Gələcək gün", M.Hüseynin "Abşeron", Ə.Babayevanın "Adamlar və talelər", S.Vurğunun seçilmiş əsərləri, son illərdə isə H.İsaxanlının şeirlərinin Çin dilinə tərcümə olunması haqqında yazır. Bu sahədə çinli tərcüməçilərdən Liu Cao, Can Xonniyənin fəaliyyətini qeyd edir.

"İlan arxetipi Azərbaycan və Çin ədəbiyyatında" ("Poetika.İzm", 2018, № 4) məqaləsində "İlan məhəbbəti", "İlan oğlan", "İlan və qız nağılı", digər əfsanə və nağıllarda, eləcə də, Çin ədəbiyyatında Li Bixua "Yaşıl ilan" "Pu Sonlin", "Ağ ilanın nağılı" və digər əsərlərdə ilan arxetipi təhlil olunur.

Könül Bünyadzadənin "Çin səddinin o üzündə..." publisistik yazısında isə Pekindəki Ümumdünya Fəlsəfə Konqresində iştirak etdiyi günlərdə müəllifin ölkə və sakinlərindən, Çinin adət-ənənələrindən aldığı təəssüratlar öz əksini tapmışdır.

B.Əhmədli Çinin Pekin şəhərində təşkil olunmuş Mədəniyyətlərarası forumda "Kitabi Dədə Qorqud" mədəniyyətlərarası dialoqun əsas faktoru kimi" mövzusunda məruzə ilə çıxış etmişdir. B.Əhmədlinin "Azərbaycan bədii düşüncəsində ipək yolu izləri. Böyük İpək yolunda Azərbaycan-Çin ədəbi əlaqələri: tarix və müasirlik" adlı məqa-

ləsi də Beynəlxalq elmi seminarın materiallarında çap olunmuşdur (Bakı, "Avropa", 2018).

Eramızdan əvvəl VI əsrdə yaşamış qədim Çin filosofu Lao Tszının "Dao de Dzin" əsərindən parçalar Etimad Başkeçidin tərcüməsində ("Xəzər" jurnalı, 3\2018, 4/2018) təqdim olunmuşdur. Tərcümənin əvvəlində tərcüməçi *Lao Tszının dünya fəlsəfi fikrindəki rolunu dəyərləndirmiş və əsərin tərcüməsi məsələlərindən bəhs etmişdir*.

Koreya ədəbiyyatı sahəsində Leyla Həsənzadə və Vüsalə Həsənovanın birlikdə yazdıqları "Klassik Koreya ədəbiyyatı" ("Filologiya məsələləri", № 4, 2018) məqaləsi çap olunmuşdur. Burada Koreya ədəbiyyatında lirik şeir növü olan "Hyanqa" şeir növündən bəhs edilir. Müəlliflərə görə, Hyanqa Koreya ədəbiyyatının ən mükəmməl lirik şeiri olmaq baxımından xüsusi ədəbi əhəmiyyət kəsb edir. Burada, eyni zamanda, klassik Koreya ədəbiyyatına daxil olan romanlardan, Man-Cungun "Quun monq", Pansorinin "Çunhyangcon" romanlarından bəhs olunur.

Cavidə Məmmədova Türkiyənin Yedditəpə Universitetində 01-02 noyabr 2018-ci il tarixlərində təşkil olunmuş "II Uluslararası Türk Kültürü ve Tarihi Sempozyumu"nda Koreya ədəbiyyatına türk mifologiyasının təsiri ilə bağlı "Uzaq Şərq ədəbiyyatında Türk miflərinin motiv və simvolları" adlı məruzə ilə çıxış etmişdir (Cavide Memmedova. Uzak Doğu Edebiyatında Türk Mitolojisinin Motifleri ve Sembolleri. Yeditepe Üniversitesi. II Uluslararasi Türk Kültürü ve Tarihi Sempozyumu. Bildiri özetleri kitabı, 2018, s.41).

2018-ci ildə Azərbaycan-gürcü əlaqələrinin inkişafı baxımından da faktlara təsadüf edirik. B.Əhmədli "Qədim

köklər və sağlam budaqlar” (“525-ci qəzet”, 17 noyabr 2018) adlı məqaləsində Azərbaycan Tərcümə Mərkəzinin nəşr etdiyi “Gürcü nəsri antologiyası” (Bakı, 2018, 400 s., tərtib edənlər Nəriman Əbdülrəhmanlı, Etimad Başkeçid, redaktorlar Mahir Qarayev, Salam Sarvan) kitabını iki xalq arasında tarixən mövcud olan ədəbi, mədəni əlaqələrin ən yaxşı faktı kimi dəyərləndirir, Azərbaycan və gürcü ədəbiyyatlarının tarix boyu müxtəlif əlaqələrindən, ortaq dəyərlərindən söz açır: **“**Möhkəm qədim köklər, mənəvi-mədəni bağlar özündə hər iki xalqın tarixi taleyini, yaradıcı şəxsiyyətlərini və qəhrəmanlarını da ehtiva edib. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin çağdaşı Şota Rustaveli öz yaradıcılığı ilə dünya ədəbiyyatının zəngin mənəvi xəzinəsinə çevrilib. Bir neçə dəfə dilimizə tərcümə olunan “Pələng dərisi geymiş pəhləvan” əsərində Şərq mövzusu və problematikası ilə yanaşı, Şərq bədii düşüncəsi də yer alır. Şərq ab-havası bu möhtəşəm sənət əsərini bizə daha da doğmalaşdırır və sevdirir. “Leyli və Məcnun” məhəbbət dastanını Nizami və Füzuli ilə yanaşı, gürcü şairləri də nəzmə çəkiblər. Beləcə, gürcü ədəbiyyatındakı Şərq ruhu onun milli bədii düşüncə qatlarına yeni rəng qatıb. Bu məsələdə tarixi bağlar da müəyyən rol oynayıb: Şirvanşah Axsitanın xanımı Qurucu Davidin qızı Tamaranın, yaxud Davidin oğlu Demetrenin ölümünə Fələki Şirvaninin şeir həsr etməsini xatırlayaq. Xeyir-Şər mübarizəsi Şərq ədəbiyyatında olduğu kimi, gürcü ədəbiyyatında da qırmızı xətlə keçir...”

Gürcü şairi Bağater Arabulinin *Allahverdi Təhləlinin tərcüməsində “Ömür-gün yoldaşıma”, “Aslan” (“Xəzər”,* 2/2018*) kimi şeirləri çap olunmuşdur. Gürcü ədibi haqqın-*

da Gürcüstan Yazıçılar Birliyinin sədri, həmçinin gürcü və Azərbaycan dillərində nəşr edilən "Sxivi – Şəfəq" jurnalının redaktoru, 13 kitabın müəllifi olması haqqında məlumat verilir.

Professor İmamverdi Həmidov və Mahir Həmidovun tərcüməsində Oman yazıçı və jurnalisti Məhəmməd İbn Seyfi Rahbinin (1967-) "Bu şəhər tərəvəzləri sevmir" ("Ulduz", 2018, № 1) monodramı təqdim olunmuşdur. Burada qısa şəkildə müəllif haqqında məlumat verilmiş, "Əş-Şəbibə" qəzetinin yazarı olan Rahbinin "Direktorun xoşbəxtliyi", "Ox", "Qadağan olunmuş nəşr", "Strateji insan" pyesləri ilə Oman teatrının inkişafındakı rolundan bəhs olunmuş, eyni zamanda, müəllif esse, hekayə və romanların müəllifi kimi qeyd edilmişdir. Yeni bir müəllifin təqdimi baxımından tərcümənin böyük əhəmiyyəti vardır.

Suriya şairi, *"Adonis" imzası ilə tanınan Əli Əhməd Səid İbsirin* N.Qarayevin tərcüməsində "Onlara" ("Xəzər", 3\2018) şeiri təqdim olunmuş və şair haqqında qısa məlumat verilərək *"İlk şeirlər", "Mihyar Dəməşqlinin nəğmələri", "Mühasirə kitabı", "Bu, sənsən, zaman", "İkinci əlifba", "I Kitablar Kitabı", "II Kitablar Kitabı", "Mavi balinanın musiqisi" və digər kitabların müəllifi olduğu, bir sıra mükafatlara layiq görüldüyü qeyd olunmuşdur.*

B.Əzizəliyevanın "Fikrin və sözün əbədi işığı" məqaləsi (https://525.az/site/?name=xeber&news_id=102504#gsc.tab=0) XX əsr ərəb mühacirət ədəbiyyatının görkəmli nümayəndəsi C.X.Cibranın anadan olmasının 135 illiyinə həsr olunmuşdur. Məqalədə göstərilir ki, görkəmli Livan nasiri, şairi, dramaturqu, filosofu və rəssamı Cibran Xəlil Cibranın yaradıcılığı özünün ideya zənginliyi, ifadə oriji-

nallığı ilə seçilir və Şərq mədəniyyəti ilə Qərb mədəniyyətinin sintezini əks etdirir. C.X.Cibran hekayə, novella, povest, pyes, poema, mənsur şer, esse, pritça kimi müxtəlif janrlarda yazdığı əsərləri ilə həm ümumbəşəri, həm də ərəb dünyası üçün aktual olan mövzuları qələmə almışdır. Burada Cibran yaradıcılığının əsas məziyyətləri şərh olunur.

Göründüyü kimi, 2018-ci ildə Asiya xalqları ədəbiyyatının öyrənilməsi və ədəbi əlaqələrimizin inkişafı sahəsində də əhəmiyyətli işlər görülmüş, məqalələr yazılmışdır.

BƏLƏDÇİ

Ədəbi proses hərəkatında yeni dalğa – **akademik İsa Həbibbəyli** 3
2018 – "Tarixin sonu"nu inkar edən daha bir il – **fil.e.d. Elnarə Akimova** 24
2018-ci il: ədəbi tənqid reflekslər – **AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu** 48
Azərbaycan şeiri–2018 – **fil.e.d. Vaqif Yusifli** 74
2018-ci ilin epik şeiri: epos təfəkkürünün və lirik-fəlsəfi duyğuların bəyanı – **fil.ü.f.d. Esmira Fuad** ... 99
Müasir roman texnologiyası: ənənəvi və eksperimental romanlar – **fil.ü.f.d. Nərgiz Cabbarlı** 142
Povest – çağdaş bədii düşüncənin axtarışlarında – **fil.ü.f.d . Aynur Xəlilova** 159
2018-ci ilin hekayə palitrası – **fil.ü.f.d. Nərmin Cahangirova** 181
Nəsr: nəzəriyyə və yaradıcılıq texnologiyaları – **fil.ü.f.d. Maral Yaqubova** 201
2018-ci ilin dramatrgiyası üzərində düşünərkən... – **fil.ü.f.d. Aynurə Mustafayeva** 234
Poeziya-gənclər. Gəncliyin sualları – **fil.e.d. Cavanşir Yusifli** 241
Cənubi Azərbaycanda ədəbi proses–2018 – **fil.ü.f.d. Pərvanə Məmmədli** 254
2018-ci ilin ədəbi yekunu (nəzəriyyə) – **fil.ü.f.d. Rasim Qurbanov (Nəbioğlu)** 276
Ədəbiyyatda esse – **fil.ü.f.d. Mehman Həsənli** 300

Azərbaycan uşaq ədəbiyyatı 2018-ci ildə – **fil.ü.f.d. Gülnar Qənbərli** 322
Azərbaycan ədəbiyyatı tarixçiliyi (2018-ci ilin materialları əsasında) – **fil.e.d. Salidə Şərifova** 343
Bölgələrdə ədəbi həyat–2018 – **k.e.i. Nizami Hüseynov** 375
Bədii tərcümə–2018 – **elmi işçi Mərcan Sofiyeva** ... 393
Bədii publisistika–2018 – **fil.e.d. Elçin Mehrəliyev** . 421
Çağdaş satirada "Molla Nəsrəddin" ənənələri – **fil.ü.f.d. Gülbəniz Babayeva** 449
Azərbaycanın rusdilli ədəbiyyatı–2018 – **fil.ü.f.d. Lalə Həsənova** 475
Elmsiz şeir əsası yox divar olur... – **fil.ü.f.d. Zəkulla Bayramlı** 496
Azərbaycan-Avropa-Amerika ədəbi əlaqələri–2018 – **fil.ü.f.d. Xanım Zairova** 516
Azərbaycan və türk dünyası arasında ədəbi əlaqələr–2018 – **fil.ü.f.d. Eşqanə Babayeva** 528
Azərbaycan-Asiya ədəbi əlaqələri – **fil.ü.f.d. Bəsirə Əzizəliyeva** 555

QEYDLƏR

ƏDƏBİ PROSES–2018

Bakı – "Hədəf" nəşrləri – 2019

"HƏDƏF" nəşrləri

Məsul redaktor: fil.ü.f.d. Töhfə Talıbova

Nəşriyyat redaktorları: Maral Poladova,
Mehparə Axundova

Texniki redaktor: Rəşid Kərimli

Korrektorlar: Zərin Vəliyeva
Mətanət Abdunova

Kitab "TEXNOBİT" MMC-nin
sifarişi ilə ***"Hədəf"*** *nəşrləri mətbəəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.

Formatı: 60x84 $^{1}/_{16}$.
Tirajı: 300.
Həcmi: 36 ç.v.
Sifariş № 393